
Ramiz RÖVŞƏN



NƏFƏS

kitablar kitabı

RAMİZ RÖVŞƏN

NƏFƏS

kitablar kitabı

(şeir, nəsr, esse)



Qanun – 2006

Az2

Bədii redaktorlar:
Mahir Qarayev
Rövşən Ramizoğlu

Rəssam:
Şamil Nəcəfzadə

Ramiz Rövşən. Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse).
Bakı, Qanun, 2006, 760 səh.

Ramiz Rövşənin bu bircildliyi sözlərdən hörülmüş evə bənzəyir. Bir damın altında beş otaq. Bir cildin altında beş kitab. Kitablar kitabı.

Əsərləri dünyanın bir çox ölkələrində çap edilmiş, ingilis, fransız, alman, ispan, polyak, bolqar, rus, ukrayna və s. dillərə tərcümə olunmuş şairin bu bircildliyi ana dilimizdə işıq üzü görən ən iri həcmli kitabıdır.

İnanırıq ki, çoxdan bəri intizarla gözlənilən bu kitab şairin köhnə oxucularını sevindirməklə yanaşı, ona həm də yeni-yeni oxucular qazandıracaq.

Q 1500005104 06-210
AB022051

Az2
© Qanun, 2006
© R.Rovşən



* * *

Göy üzündə
bərlənən bir tozam mən,
Göydən – yerə
boylənən bir gözəm mən.
Mən bir gözəm,
kirpiyim yox, qaşım yox,
Mən bir tozam,
ayağım yox, başım yox
Həsəd çəkib
insanına, heyvanına, quşuna,
Hərlənirəm bu dünyanın başına.

Bir nəhəng toz dənəsitək
bu dünya da bərlənir
min-min ulduz içində,
Bu dünyanın içi tozdu,
bu dünya toz içində.
Aşağı da, yuxarı da
tozdu toz,
Bu dünyanın
əvvəli də, axırı da
tozdu toz

Mən bir tozam, –
kim nə bilir, axı hardan qopmuşam
Ya əvvəldən,
ya axırdan qopmuşam

Yorulmuşam toz olmaqdan, ilahi
Bədənsiz, cansız olmaqdan, ilahi.
Mən bir qadın bətnində
yığılmaq istəyirəm,
Bu dünyada
insan kimi doğulmaq istəyirəm.
Özümə can istəyirəm
əldən-sümükdən,
Göz yaşından,
tərdən,
qandan,
ilikdən.


Mən bir tozam, azadam göy üzündə,
Nə olsun ki,
azad deyil bir adam yer üzündə,
Sən bu cansız azadlığı
gəl, məndən al, ilahi!
Tez ol, məni qəfəsə sal, ilahi!
Nəfəssizəm –
tez ol, mənə nəfəs ver,
Nəfəsimə
bədən adlı qəfəs ver.
Mənə səs ver –
səsə qəfəs ağız ver,
Mənə söz ver –
sözə qəfəs kağız ver!..

R. Rövşən

BİRİNCİ KİTAB

GÖY ÜZÜ DAŞ SAXLAMAZ

(şeirlər və poemalar)



BURAX GEDİM, AY İŞIĞI!..

AY İŞIĞI

Ay işığı düşdü göydən,
canımdan-qanımdan keçdi,
Gözümün içindən keçdi,
Özümün içimdən keçdi,
keçdi, dabanımdan keçdi,
Az qaldı ki,
iki yerə bölə məni,
Başımdan göyə mıxladı,
dabanımdan yerə məni,
Ha istədim,
addım ata bilmədim...

Yanımdan adamlar keçir,
ay işığı nə vecinə?
Burax məni, ay işığı,
gedim işimə-gücümə.

Bu nə işdi, ay işığı,
niyə yolun məndən keçdi?

Hamı çaşdı, ay işığı,
görən-görən gəndən keçdi.

Dedilər, dəlidi-nədi,
hərə bir ad verdi mənə.
Kimi baxıb kül elədi,
kimi baxıb güldü mənə.

...Bu mənim əlim-ayağım,
Bu ağzım, burnum, qulağım,
Kimsədən əskikliyim yox,
Yox kimsədən artıqlığım, -
burax gedim, ay işığı!

Aman, atam, o nə daşdı?!
O daş atan hara qaçdı?
İtlər canıma daraşdı,
burax gedim, ay işığı!..

Sən dadıma yetiş, ana,
ana, sənin balan mənəm.
Bu gecə ay işığına
çarmıxlanıb qalan mənəm.
Ana, məndən keçən bu işıq nəymiş,
ana, mən ki işıqyeyən deyiləm.
Görünür, baxtımı beləymiş,
baxtımı söyən deyiləm.

Ölməmişəm, ağlamayım,
Keçin, ayaq saxlamayın,
Qapıları bağlamayın,
onsuz da, döyən deyiləm.

...Yalama, çəkməm kirlidi,
Hürmə, canım fikirlidi,
Əl çək, ay Allahın iti,
mən sənin yiyən deyiləm.

Dilim lal, başım aşağı,
Evin ən mağmın uşağı,
Burax gedim, ay işığı,
mən də sən deyən deyiləm...

BAŞI KƏSİK GÖZƏL KÖTÜK

Başı kəsik gözəl kötük,
bu dağı sənə kim çəkdi?
Baltanı sənə kim vurdu,
bıçağı sənə kim çəkdi?
İpək-ipək yarpaqların
küləklərlə talandımı?
Bilək-bilək budaqların
ocaqlarda qalandımı?
Küsdünmü taleyin acılığından?
Zalımlar keçmədi qocalığından,
Yıxıldın ucalığından,
başı kəsik gözəl kötük...

Gözəl kötük, sızıldama, göynəmə,
nə baltalar, nə bıçaqlar qalacaq.
Ucalıqdan yıxılsan da, qəm yemə,
sən yıxılan ucalıqlar qalacaq.

Dünyanın küləyi keçər,
qarı, yağışı keçər,
Qatar-qatar quşu keçər,
Daş atarlar, daşı keçər
sən yıxılan ucalıqdan.

Ümidli gözlər dikilər,
Körpə ağaclar yekələr,
Yekələr, qalxar, dikələr
sən yıxılan ucalığa...

Məndən sənə salam olsun,
başı kəsik gözəl kötük!
Balam olsa, balan olsun,
başı kəsik gözəl kötük.

Əyilim, köksünə başımı qoyum,
gecələr laylamı çalasan mənim.
Böyründə bir evin daşını qoyum,
evimin dirəyi olasan mənim.

Gözəl kötük,
yaraların köz bağlasın, sağalsın,
Bu dünyada nə baltalar,
nə bıçaqlar qalacaq.
Ucalıqdan yıxılsan da,
yenə canın sağ olsun,
Bu dünyada.
sən yıxılan ucalıqlar qalacaq...

YIXILIRAM

Rayner Mariya Rilkeyə

Yıxılıram, yıxılıram,
özümdən yıxılıram.
Qəlbimdəki səbirdən,
dözümdən yıxılıram.
Sığınmağa bir bucaq yox,
Yıxılmağa qucaq yox, -
yıxılıram, yıxılıram...

Bu dünyanı tanrı özü
saxlar məndən yuxarıda,
Bu dünyaya ağlar gözüm,
ağlar məndən yuxarıda;
Gözüm yaşı
damcı-damcı
damcılayar başıma.

Gözümdən yıxıldım, Allah,
gözüm yaşından yıxıldım.
Hər şeyin başı sözdü,
sözün başından yıxıldım.

Yıxılıram,
yıxılıram...

Başımın üstə hər gecə
ulayır tənha yalquzaq,
Göydə ulduzlar hər gecə
dünənkindən daha uzaq, -
yıxılıram, yıxılıram...

BULUD

Ürəyimin qəmini,
Gözlərimin nəmini,
Qardaşımın toyunda
    buğum-buğum buğlanan
Plovun dəmini çəkib canına
    başımın üstündən bir bulud keçir.

Anam bulud, canım bulud,
Səni gördüm, bağrımın başı göynədi,
Gözümün yaşı göynədi,
Evimin divarı-daşı göynədi, -
    al bu daş-divarın əlindən məni,
        qurtar məni, apar məni özünnən.

Anam bulud, anamdan artıq bulud,
Telləri qıvrım bulud,
Yanaqla-rı batıq bulud, -
    məni yəqin sən doğmusan,
        mən sənin oğlunam yəqin.

Mən bulud oğluyam, bulud balası,
Bulud qırığıyam, bulud parası,
    buludnan doluyam başdan-ayağa.

Çölüm bulud, içim bulud;
Köksümdə ürəyim -
bulud,
Əynimdə pencəyim, köynəyim -
bulud,
Alnımda saçım -
bulud.

Bulud-bulud saçlarımdan
daha bir şey qalmadı
Bu alnımın qırışını gizlətməyə.
Məni istətməyə, əzizlətməyə
daha bir şey qalmadı, -
Anam bulud, bacım bulud,
qurtar məni, apar məni özünnən.

Anam bulud,
Dərdimdən gözləri sulanan bulud,
Özünü yaddan çıxarıb,
Bütün göy üzünü yaddan çıxarıb
bayaqdan başıma dolanan bulud, -
Səni görən kimi qanım qaynadı,
köpükləndi-daşdı damarlarımdan,
Başımın üstündən tez keç, amandı,
Qoyma, qanım qaynadı,
Qoyma, qanım buxarlandı,
uçdu damarlarımdan,
Qalmadı, qanım qalmadı,
Yarıcanım qalmadı,
tez keç, anam bulud, öldürmə məni...

...Ürəyimin qəmini,
Gözlərimin nəmini,
Qardaşımın toyunda
buğum-buğum buğlanan
Plovun dəmini çəkib canına
başımın üstündən bir bulud keçir.

Sağlıqla get, gedən bulud,
Gedib, gedib gözümdən itən bulud.

Bir də bu yerlərə gəlsən, gəlməsən,
Boylanıban məni görsən, görməsən,
qəm eləmə, ağlamaqdan daşın, get,
qoşun-qoşun buludlara qoşul, get,
Mənli-mənsiz dünya həmin dünyadı,
bu dünyanın bu duruşu sağ olsun,
yerdə daşı, göydə quşu sağ olsun,
Quşların qanadları,
Yelpikləsin buludları,
Göy üzünün buludları
qoşun-qoşun sağ olsun.
Anam bulud,
sən də sağ ol buludların içində,
Yağışın sağ olsun,
başın sağ olsun...

QOCALIQ

Tənhalıq başlayır burdan o yana,
keçdikcə keçilməz, atam balası.
Ayları, illəri tutsan boyuna,
Çayları, çölləri tutsan boyuna,
ölçdükcə ölçülməz, atam balası.

Daha çoxlarıyla aram sərinlər,
çoxları boyuma sevinməz daha.
23 yaşımda məni sevənlər
33 yaşımda sevəmməz daha.

Mən axı nə Çöləm,
nə Yol,
nə Küçə,
Mən axı hamının ola bilmərəm.
Məni sevənlərdən ötrü - ölüncə
23 yaşımda qala bilmərəm.

Nə qədər sözlər var sözümdən cavan,
daha çığırmağa nəfəsim gəlmir.
Daha bu dünyada özümdən cavan
şeirlər yazmağa həvəsim gəlmir.

Kiriyir, yumşalır şeirlərim də,
qocalır misralar, sözlər mənimlə.

Dostlar cavan qalır şeirlərimdən,
qocalmaq istəmir dostlar mənimlə.

İlahi, qocalıq buymuş deməli,
dostlardan səssizcə qırılır adam.
Ömür bir bulantıq suymuş deməli,
ömür azaldıqca durulur adam.

İçimin-çölümün yuyulur pası,
sətirlər göyərir bu ağ varaqda.
Nə çoxmuş ürəklə əlin arası,
nə yaxşı, ölmədim bu aralıqda.

Sözlər ürəyimdən əlimə yetdi,
bir azca soluxdu-soldu, nə olar.
Bir azca şaxlığı-şuxluğu itdi,
heç kəs qınamasın, yoldu, nə olar.

Daha balta kəsməz ağlım kəsəni,
dünyanın dadını bilirəm daha.
Bu qoca dünyada hər nəfəsimi
ağacdan meyvətək dərirəm daha.

Son nəfəs dünyada hər şeydən şirin,
şair də qocalır, ölür, bilirəm.
Sözündən qan iyi gələn şairin
ağzından süd iyi gəlir, bilirəm.

Bu dünya bir qaynar qazanmış demə,
söndürməz odunu nə qar, nə yağış.
Dünyayla dalaşmaq asanmış demə,
çətini dünyayla barışmağımış...

BİR AZ UZUN ÇƏKDİ ÖMRÜM DEYƏSƏN

Bir az uzun çəkdi ömrüm deyəsən,
deyəsən dostlar da darıxdı bir az...

Məni yedirtməkdən yoruldu dünya,
çörəyi yoruldu, suyu yoruldu.
Məni gəzdirməkdən bezdi yolları,
gözümə baxmaqdan göyü yoruldu.
İstəyənlər istəməkdən yoruldu,
Pisləyənlər pisləməkdən yoruldu, -
bir az uzun çəkdi ömrüm deyəsən.

Yollar ayağımın altından qaçır,
Deyirlər, düş daha,
bu boyda olmaz,
Şairin iştahı bu boyda olmaz, -
dostlar da birtəhər baxır üzümə.

Nə qədər dostum var,
şəhər dolusu,
Çoxunun ürəyi qəhər dolusu,
Qohumdan,
qardaşdan,
özgədən küsüb,
Baxtından, özündən, güzgüdən küsüb
çoxu ağlamağa bəhanə gəzir.

Az qalıb, az qalıb, dözün, deyirəm,
dostlar, dözün, gedəcəyim gün çatar.
Nəyə gücüm çatmasa da,
qola qara bağlatmağa,
dostları ağlatmağa
yəqin ki, gücüm çatar...

...Ancaq gücüm çatmır, neyniyim axı,
neyniyim axı mən yazıq, -
gücüm çatmır bu dünyadan getməyə.
Bu dünya Dərbənd qalası,
Nə yolu, nə yolağası,
Qardaşım, atam balası,
gücüm çatmır bu dünyadan getməyə.

Sarmaşıb qol-qıçıma
yaşıl-yaşıl otları,
Bomboz buludları basır başımdan,
Çayları su alır gözüm yaşından,
iynəynən gor eşə-eşə,
dizimnən yer eşə-eşə
Addatdım ömrümü otuz yaşından, -
gücüm çatmır bu dünyadan getməyə.

Dalımca ağız əyənlər,
Şairlərin ehsanını yeyənlər,
Şair olan
cavan ölər, - deyənlər,
Mənim şair olmağa gücüm çatmır,
Öldür məni, ölməyə gücüm çatmır,
gücüm çatmır bu dünyadan getməyə...

ASTAR ÜZÜNƏ

Şalvarımı, pencəyimi
çevirdim astar üzünə,
Gülə-gülə çıxdım dostlar üzünə.
Şalvarım, pencəyim təzə,
Corabım, əlcəyim təzə,
Ömrümdən savayı, hər şeyim təzə.
"Bu ömrün yiyəsinə
qız gəlməz, atam balası!.."
Ömrümü çevirdim astar üzünə,
Gündüzünü gecəsinə,
Gecəsini gündüzünə
çevirdim...

Tanrının cibitək
bu göy üzündə
Buludların dolub-boşalmağı var,
Qardaş məclisində,
dost məclisində
Gözlərimin yersiz yaşarmağı var, -
Gözlərimi
çevirdim astar üzünə,
Ürəyimi gördüm, içimi gördüm.
Ürəyimin əsl yükü
sevinc imiş sən demə,

Kədərimin əsl kökü
sevinc imiş sən demə,
Kədərimi
çevirdim astar üzünə,
Sevincimi gördüm...

İndən belə ağlayan
kişi deyil, - dedim, - qardaş,
Ağlamaq
kişi işi deyil, - dedim.
Bir yalan gülüşlə örtdüm üzümü,
gizləndim üzümün astar üzündə.
Neçə dost üzünə sürtdüm üzümü,
qaldı gözüm yaşı dostlar üzündə.
Çox dedim, ölərəm,
qorxan olmadı,
Çevrilib dalımca baxan olmadı,
Getdim,
o dünyaya dəydim, qayıtdım,
Getdim,
qapısını döydüm, qayıtdım,
Gülə-gülə çıxdım dostlar üzünə,
Dostları
çevirdim astar üzünə,
Nə yaxşı ki, düşmən çıxan olmadı...

ADDIM

Bir gün olar,
keçdiyin-keçmədiyin
bütün yollar sıxılar,
yığılar bir addıma.

Əlin də, ayağın da,
Çiynin də, kürəyin də,
Beynin də, ürəyin də,
Hirsindən səbrinəcən,
Beşiyindən qəbrinəcən
bu dünyada sən adlanan nə varsa
sıxılar, yığılar bir addıma.

Onda bilərsən ki, bu dünya nədi,
acıdı, dadlıdı, onda bilərsən.
Bu dünyada "Allah" deyilənin də
boyu bir addımdı, onda bilərsən.

Onda gözlərinə heç nə görünməz;
atandan,
anandan,
balandan belə.
Yüz təlxək oynaya, üzün güləmməz,
qaçmaz dodaqların yalandan belə.

Qaçarsan yanından adamların da,
çəkilərsən tənhalığa, təkliyə.
Qanın qatılaşar damarlarında,
damarların sümük kimi bərkiyər.
Sıxılarsan, yığılarsan yay kimi,
sıxılarsan, çəkilərsən özünə, -
çəkilərsən özündən də o yana;
Evindən-eşiyindən,
Dünənindən, keçmişindən,
Bələyindən, beşiyindən,
Lap ananın bətnindən də o yana,
Lap atandan, babandan da o yana,
Lap elindən, obandan da o yana,
Bu dünyanın ayına,
ulduzunacan,
Lap Allahın özünəcən
sıxılarsan, çəkilərsən özünə, -
Güc verərsən ayağına, dizinə,
ancaq yenə gücün çatmaz
bir addımı atmağa...

...Onda bilərsən ki, bu dünya nədi,
acıdı, dadlıdı, onda bilərsən.
Bu dünyada "Allah" deyilənin də
boyu bir addımdı, onda bilərsən.
Bir addımın qabağında
diz çöküb
Hönkür-hönkür ağlayarsan, ölərsən.

QƏDRİMİ BİLMƏDİ BU ADAM MƏNİM

Bilmirəm hayandan tapdı ömrümü,
Bir dəli at kimi çapdı ömrümü,
Dağlara-daşlara çırpdı ömrümü,
Qədrimi bilmədi bu adam mənim, -
ilahi, al məni bunun əlindən!

Kaş mənim ömrümü bu yer üzündə
Bir özgə adama tuş eləyəydin,
Lap məni adam yox, quş eləyəydin,
Lap belə bir qara daş eləyəydin,
Məni bu adama sən necə qıydın, -
ilahi, al məni bunun əlindən!

Al məni, ver məni, özgələrə ver,
Qırıq aynalara, güzgülərə ver,
Bölünüm, yüz tikə, min tikə olum,
bu adam üzümə baxa bilməsin.
Məni aynaların qırıqlarından
toplaya bilməsin, yığa bilməsin.

Bölünsəm, dərdim də bölündü bəlkə,
hər dərdim yüz tikə, min tikə oldu.
Bir dərdim qalmadı özümdən yekə,
bütün dərdlərimdən mən yekə oldum.

Bu yerin üstündə, göyün altında
bölünsəm, hər tikəm bir yana düşsə,
Haçansa, kefinin xoş saatında,
ilahi, təzədən yadına düşsəm,
Təzədən toplasan qırıqlarımı,
Sınıq əllərimi, ayaqlarımı,
Ağzımı, burnumu, qulaqlarımı,
İlahi, təzədən calasan məni,
dünyanın ən gözəl güzgüsü ollam.
Təzədən dünyaya yollasan məni,
bu adam olmaram, özgəsi ollam, -
ilahi, al məni bunun əlindən!..

KİM BİLİR

İnsan insandı, qardaş, heyvan heyvandı;
arvad nə, kişi nə,
it nə, pişik nə?
İnsan insandı, qardaş, heyvan heyvandı;
sevilәni də, söyülәni də,
sağılanı da, yeyilәni də.
...bir də, balıqlar var,
bir də ki, quşlar...

Mən insan olmasaydım,
yəqin ki, quş olardım.
Lap it də olsaydım
elə bilərdim quşam,
qanadım hələ çıxmayıb.
Bir də ki,
kim bilir, atam balası,
Bəlkə, doğrudan da, it elə quşdu,
qanadları içində.
Bəlkə, doğrudan da, it elə quşdu,
ancaq itin beyni quş beyni deyil,
torpaqdan ayrılıb
uçmağı gəlmir,
göy üzündə qanad açmağı gəlmir...

...Bu dünya özü də bir ətcə quşdu,
körpəcə, yumruca quşdu bu dünya.
Arvadlı-kişili, itli-pişikli

bir gün görəcəksən uçdu bu dünya,
Uçub getdi,
ötüb keçdi quşları.
Çığrışa-çığrışa uçacaq quşlar
dünyamızın dalınca,
Qanadları yorulunca,
qırılınca uçacaq,
Ölüncə
uçacaq quşlar
dünyamızın dalınca.

Ölü-ölü quşlar töküləcək
göy üzünün boşluğuna,
Aşağıda, aşağıda,
uzaq-uzaq, özgə-özgə dünyaların
qumluğuna, daşlığına
ölü-ölü quşlar töküləcək.
...qarışıb itəcək quşlar
daşların arasında...
Özgə-özgə dünyaların adamları
daş yerinə,
Ölü-ölü quşları
atacaqlar bir-birinə.
Ayıran olmayacaq
quş hansıdı,
daş hansı...

...Bir də ki.
kim bilir, atam balası,
Bəlkə elə bizim dünyamızın da
çınqılları, daşları,
Uçub gedən dünyaların
ölü düşən quşlarıdı, quşları...

GÖY ÜZÜ DAŞ SAXLAMAZ

Durub göy üzünə daş atan oğlan,
göy üzü daş saxlamaz.
Oğul belə baş saxlamaz, atam balası,
Kim qırxıb başını,
salıb bu kökə?
Şalvarın, pencəyin özündən yekə,
Baxırsan, göy üzü gözündən yekə, -
durub göy üzünə daş atan oğlan.

Hələ ki, başına-gözünə qıymaz,
atdığın daşları saxlar göy üzü.
Atdığın daşları tutub əlində,
səni illər boyu yoxlar göy üzü.
Qırxıq başın tüklənincə,
O dumduru gözlərin
bulanınca, çirklənincə,
atdığın daşları saxlar göy üzü.

Yediyindən yeyərsən,
Geydiyindən geyərsən,
böyüyərsən, böyüyərsən, atam balası.
Gözlərin böyüyər sən böyüdükcə,
gözündə yaş böyüyər.
Əllərin böyüyər sən böyüdükcə,
göy üzündə
atdığın daş böyüyər.

Baxt gülsə üzünə bu yer üzündə,
ölümün ləngiyib gecikə bilsə.
O daşdan özünə bu yer üzündə
hasar çəkə bilsən,
ev tikə bilsən.
Bir göy qurşağıtək ömrün uzansa,
baxtına hər cürə rəngdən düşəcək.
Bir gün bu dünyada qəbrin qazılsa,
bəlkə də, başdaşın göydən düşəcək.

...Durub göy üzünə daş atan oğlan,
göy üzü daş saxlamaz...

İLAN BALASI

Böyüyür bu körpə ilan balası,
gah o başa, gah bu başa sürünür.
Sevinir udduğu havaya, suya,
torpağa sevinir, daşa sevinir.
Bir sevgi həvəsi dolur canına,
Gecələr gözünün itir yuxusu.
Çiçəyin qoxusu,
otun qoxusu,
Küləyin nəfəsi dolur canına.
...Özündən xəbərsiz,
səssiz-səmirsiz
Zəhərə çevrilir canında hər şey...

Bu ilan balası bir vaxt
canında
Gizlənən zəhərdən xəbər tutacaq.
Bəlkə qarğıyacaq
baxtını onda,
Bəlkə boğazını
qəhər tutacaq.
Ağlama, ağlama, ilan balası,
Baxtını qarğıma, ilan balası!
Bu da bir ömürdü,
dözəsən gərək,

Beləymiş taleyin əmri, buyruğu;
Döşünün altında -
sevən bir ürək,
Dişinin altında -
zəhər tuluğu.

Görənlər çığırar:
İlan var, ilan!..
Qovduqca qovarlar səni dünyada.
Hər yandan kəsilər
yolun-yolağan,
Tək bircə yol qalar sənə dünyada;
Başından
quyruğunacan,
Zəhərli dişindən
quyruğunacan
Tək bircə yol qalar, -
o yol özünsən,
Özün öz yolunsan, ilan balası.
Özün bu dünyada
öz əzizinsən,
Özün öz balansan, ilan balası.

Hara qaçacaqsan
göz qabağından,
Bu zalım dünyayla neyləyəcəksən?
Yüz yol çıxacaqsan
öz qabığından,
Özündən ayrıla bilməyəcəksən.

Öyrən,
yavaş-yavaş özünə öyrən,

Dünyanın hər cürə üzünə
öyrən.
Barış, canındakı zəhərli dərdlə,
iyrənmə özündən, ilan balası.
Bəlkə də, ən acı həqiqət elə
sənsən yer üzündə, ilan balası.
Sənsən haqqın yolu bu yer üzündə,
tanrı özü seçib bu yolu bəlkə.
Yüz cür sifətiylə, yüz cür üzüylə
dünya səndən keçib durulur bəlkə...

AYRILIQ

ÇİÇƏKLƏR DOĞULUR BU YAZ GECƏSİ

Çiçəklər doğulur bu yaz gecəsi,
bu yaz gecəsində sevməyə nə var?!

Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın
Hələ öpülməmiş dodaqlarından, -
bu yaz gecəsində ölməyə nə var?!..

...Çiçəklər doğulur bu yaz gecəsi
uzaq xəstəxana otaqlarında.
Başını dibçəkdən uzadıb baxır
yatan xəstələrin hər birisinə.

Hələ qorxaq ətri, utancaq ətri
qarışır otağın yad iyisinə,
dərman iyisinə, yod iyisinə...

Çiçəklər doğulur bu yaz gecəsi,
çiçəklər açılır güllə səsinə.
Güllə açılır;
Ağ-ağ köynəklərin yaxalığında,
Sağ-sağ ürəklərin yaxınlığında
güllər açılır,
Güllələr açılır, güllər açılır,
çiçəklər açılır bu yaz gecəsi...

Çiçəklər doğulur bu yaz gecəsi
. Parisdə,
Təbrizdə,
həyətimizdə.
Bu yaz gecəsində çiçəkləyəcək
bəlkə dərdimiz də, həsrətimiz də.

Çıxacaq yollara çiçəkli qızlar,
Nə baxmağa güc var, nə göz yummağa.
Nə çiçək verməyə bir kimsəmiz var,
Nə bir kimsəmiz var çiçək ummağa...

...Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın
Hələ öpülməmiş dodaqlarından, -
bu yaz gecəsində ölməyə nə var?!.

HƏSRƏT

Bir torpaq parçası qaçar dalımca
elə bil boyuma biçilib mənim.
Qopub kəndimizin ay işığıyla
qurbağa səsi dolu
axşamlarından.
Qopub evlərindən, adamlar
bir torpaq parçası qaçır dalımca.

Qatarda, maşında
Ürəyi bulanan Bənövşə nənəm,
Şəhərə gəlməyə,
məni görməyə
Könlü qubarlanan Bənövşə nənəm
bir parça torpağın düşər dalınca,
yüyürər, yüyürər, çatamnaz ancaq.

Bir torpaq parçası azar şəhərdə
Məni axtarmaqdan
bezər şəhərdə
İşıqlı reklamlar deşər gözü
Ağlamaq istəyər,
ağlaya bilməz,
Axırda özünü saxlaya bilməz,
Geniş küçələrin

Gümüş asfaltına atar özünü,
Təkərlər altına atar özünü...

...Bir torpaq parçası qaçar dalımca, -
kaş gəlib tapaydı bu gündən məni.
Bu şəhər içində
ayrı qoymayaydı özündən məni.

Gecələr o torpaq parçası üstə
Bir ağac əkəydim,
bir ev tikəydim,
Gəlin gətirəydim öz kəndimizdən...

AĞLAMA, BƏNÖVŞƏ NƏNƏ

Ağlama, Bənövşə nənə,
Axı nə var, ağlamalı?
Sovqat yolla beş nəvənə
Düyünçəli, bağlamalı.

Kim gözlədi, kim unutdu,
Kim bu dərdi xəbər aldı?
Oğulları dava uddu,
Nəvələri şəhər aldı.

Ağ saçları dərd eləmə
Yaşıl-yaşıl otlar varsa.
Göyü tutub dövrələmə
Ağlayan buludlar varsa, -
ağlama, Bənövşə nənə!..

Yazırsan, gözüm yoldadı,
Yazırsan, boynum bükülü.
Ot biçən əllər hardadı,
Otlar saralır, tökülür.

Məktub yazmağa vaxt hanı,
Hərdən özün yoxla bizi.

Saralıb-solan otların
Qarğışından saxla bizi, -
ağlama, Bənövşə nənə!..

Qov başından fikirləri,
Fikirdən beyin fırlanır.
Qatarların təkərləri
Dünyadan yeyin fırlanır.

Nə yaxında, nə uzaqda,
Elə bil ki, biçindəyik.
Hələ "adam" olmasaq da,
Qorxma, adam içindəyik, -
ağlama, Bənövşə nənə!..

ŞƏHƏRİN İŞIQLARI

Bu şəhərin işıqları
Mənə isinişir, bacım.
Gözlərimdən keçib-keçib
Ürəyimə düşür, bacım.

İşıq düşür üst-başıma,
Üstüm-başım işıqlanır.
İşıq düşür göz yaşıma,
Gözüm yaşı işıqlanır.

İşıq düşür günlərə də,
Aylara da, illərə də,
Bir az məndən irəlidə
Otuz yaşım işıqlanır.

...Uzaqlaşır, uzaqlaşır
Kəndimizin qaranlığı.
Bir az da qaranlıqlaşır
Kəndimizin qaranlığı.

Ah çəkirəm, ahım gedir,
Varım gedir, yoxum gedir,
Gecələri yuxum gedir
O kəndin qaranlığına.

Təzə don alım əyninə,
Təzə şal salım çiyninə,
Hara gedirsən, ay nənə?
- O kəndin qaranlığına...

Kəsdilər, yenə bitdiniz,
Günümü yaşıl etdiniz,
Ağaclar, hara getdiniz?
- O kəndin qaranlığına...

...Bu şəhərin işıqları
Yerimdən qopardı məni.
Aman, qoymayın, qoymayın,
İşıqlar apardı məni.

Ha dözdüm, dura bilmədim,
Bu dərdi yora bilmədim,
Daş atıb qıra bilmədim
Şəhərin işıqlarını.

Barışdım axır, barışdım,
Dərdimi açdım, danışdım,
Qarışdım, mən də qarışdım
Şəhərin işıqlarına.

İşıqlandım, işıqlandım,
Kiməm, bilinmirəm daha.
İşıqlandım, işıqlandım,
Baxın, görünmürəm daha...

DÜNYA, MƏNDƏN KİMLƏR KEÇDİ

Aylar keçdi, günlər keçdi,
Dünya, məndən kimlər keçdi?
Keçdi kifiri-göyçəyi,
Keçdi hündürü-alçağı.
İçimdə qartmaq bağladı
Ayaqlarının palçığı.
Bağrım başı tapdaq-tapdaq,
    məndən betər yol qalmadı.
Dar günümə saxlamağa,
Qısılıb ağlamağa
    içimdə salamat bir yer qalmadı.

Aylar keçdi, günlər keçdi,
Dünya, məndən kimlər keçdi?
Neçələri ayaq üstə
    yuxlaya-yuxlaya keçdi, -
        yuxusu qaldı canımda.
Neçələri asta-asta,
    ağlaya-ağlaya keçdi, -
    göz yaşının duzu qaldı canımda.

Gecələr küçələr boyu
gəzən qızlar gendən keçdi,
O gecələr, o küçələr
hamısı məndən keçdi, -
Gecələrin ulduzu,
küçələrin tozu qaldı canımda.

Aylar keçdi, günlər keçdi,
Dünya, məndən kimlər keçdi?
Görən hardan gəlirdilər,
Deyirdilər, gülürdülər,
Məni görüb yüyürdülər,
qalan qaldı, keçən keçdi.
Mən görəndə diriydilər,
bu tabutlar haçan keçdi?!.

...Bəs, bu kimdi görən, Allah,
gündüz bilməz, gecə bilməz.
Məndən özgə yol tanımaz,
məndən özgə küçə bilməz.
Keçər, bağrımın başını
ağrıda-ağrıda keçər.
Keçər, gözümün yaşını
axıda-axıda keçər.
İçimdə çapar atını;
İçimdə tapar suyunu,
İçimdə tapar otunu,
İçimi-içalatımı
dağıda-dağıda keçər, -
Otuz ildi keçər məndən,
keçər, keçər, keçə bilməz...

Dayan, dincəl, atam oğlu,
daha gecdi deyəsən.
Sən keçincə, atam oğlu,
ömrüm keçdi deyəsən.
Mən də keçdim yer üzündən,
elə bil ki, bir iynənin
gözündən keçdim - getdim.
Mən də keçdim özümdən,
özümdən keçdim-getdim.

ÖZÜNƏ QAYIDIR HƏR ŞEY, ÖZÜNƏ

Özünə qayıdır hər şey, özünə,
gözümə qayıdır göz yaşlarım da...

Qısır nəfəsini quşlar, böcəklər,
Günəş
istisini çəkir içinə,
Küləklər hirsini çəkir içinə,
Ətrini içinə çəkir çiçəklər.

Özünə qayıdır hər şey, özünə,
Qoy, ana, başımı qoyum dizinə,
mən də qayıtmışam...
Hardan qayıtmışam,
hardaydım, ana?
Mən niyə getmişdim, niyə qayıtdım?
Bəlkə də yatmışdın, səni oyatdım,
Bəlkə oyatmağa dəyməzdi, ana?!
- Yatmağa dəyməzdi bəlkə, ay oğul...
- Bəlkə qayıtmağa dəyməzdi, ana?!
- Getməyə dəyməzdi bəlkə, ay oğul...

...Bütün bu yolların sonunda nə var, -
bilirdinsə, ana,
Bütün bu yollar
dolanıb-dolanıb axırda yenə
Sənin yanına
gəlirdisə, ana,
Sən məni yanından niyə buraxdın?!.

ÖRTÜLDÜM QAPI KİMİ

Bu dünyanın üzünə
örtüldüm qapı kimi.
Gecəsinə, gündüzünə,
Nəğməsinə, sözünə,
Qızların ala gözünə
örtüldüm qapı kimi.

Anam, daha məndən nigaran olma,
Əlim cibimdədi, ağlım başımda.
Dörd yandan dərd gəlsə, ölərəm, amma
Kimsə xəbər tutmaz gözüm yaşından.
Kiridim, anam, kiridim,
Kiridim, tamam kiridim,
Bu qıfılım, bu kilidim,
örtüldüm qapı kimi.

Yoldan ötən, bu qapıda ləngimə,
qurdalanıb eşələnmə cibində.
Bu qapıya düşən açar tapılmaz,
balıq qarnındadı, dərya dibində.
Dəryalara baş vurası halım yox,
Balıqlara yem olası halım yox,
Bir qapıyam, damım yox, divarım yox,
yoldan ötən, bu qapıda ləngimə!..

...Qapılar vardı ki,
yerə diz qoyub,
Qıfılına, kilidinə üz qoyub
Öpmək istəyirdim, öpə bilmədim.
Qapılar vardı ki,
qıcıb dişimi,
Yumruğumu, təpiyimi, başımı
Çırpmaq istəyirdim, çırpa bilmədim.
Kiridim, anam, kiridim,
Kiridim, tamam kiridim,
Bu qıfılım, bu kilidim,
örtüldüm qapı kimi...

BƏTNİNDƏ KÖRPƏMİ GƏZDİRƏN QADIN

Hələ dünənəcən sənin balandım,
bir dəcəl, dəlisov oğuldum, ana.
Gündüzdən, gecədən,
çöldən, küçədən,
Düşmən tənəsindən,
dost gileyindən,
Neçə qız gözündən, qız ürəyindən
sivrildim, sıyrıldım, soğruldum, ana.
Təzədən qayıtdım öz əvvəlimə,
bir qadın bətninə yığıldım, ana, -
bətnində körpəmi gəzdirən qadın.

Bulanıq gözlərim duruldu birdən,
birdən ürəyimin dibi göründü.
Dünyanın yolları qırıldı birdən,
boynumda taleyin ipi göründü.
Ömrümü qab kimi saldım əlimdən,
çox sınmayan şeylər sınası oldu.
Bütün yollarımı aldın əlimdən,
bütün yollarımın sonu sən oldun, -
bətnində körpəmi gəzdirən qadın.

Bətnində körpəmi gəzdirən qadın,
başımı dizinə qoyub ağlaram.
Bu ötən ömrümün günahlarını
gözümün yaşıyla yuyub ağlaram.
Ürəyim min yerdən min bir dərd çəkib,
dərdimi-qəmimi boğa biləydin.
Bu ötən ömrümün üstən xətt çəkib,
kaş məni təzədən doğa biləydin, -
bətnində körpəmi gəzdirən qadın!..

Bəlkə, başqa adam olardım onda,
bu dərdi özümdən qova bilərdim.
Bəlkə sevinərdim, gülərdim onda,
bəlkə, lap səni də sevə bilərdim.

...Bir yol var
uzanar ölümə kimi;
O yol səbrimdi mənim.
Bətnində körpəmi gəzdirən qadın,
Bətnin qəbrimdi mənim...

KÖLGƏ

Sənin kölgən düşür burda hər şeyə;
Bu evə-eşiyə,
yorğan-döşəyə,
Körpəm mışıl-mışıl yatan beşiyə
sənin kölgən düşür gecəbəgündüz.
Kölgən düşür
qadınımın üzünə,
Gizlədir üzünün eyiblərini...

...Ağac kölgəsinə,
daş kölgəsinə,
Maşın kölgəsinə, quş kölgəsinə
ilişir, dolaşır, qarışır kölgən.
Bütün kölgələri çəkib canına
təzədən canıma daraşır kölgən.

Görəsən, bir azca səni unudub
birtəhər başımı qatarammı heç?
Görəsən, kölgənin ucundan tutub
gəlsəm, gəlsəm sənə çatarammı heç?

Bəlkə ən dözümlü kölgədi kölgən,
qırılan, cırılan, sökülən deyil.
Tanrı kölgəsidi, bəlkə də, kölgən,
ölüncə üstümdən çəkilən deyil.

Gecələr kölgənlə üstümü örtüb
yuxlaya biləydim bu dünyada kaş.
Kölgənə üzümü-gözümü sürtüb
ağlaya biləydim bu dünyada kaş.

Ağlaya bilmirəm...
yağır yağış-qar,
Çöldə kölgən qalır yağış-qar altda.
Keçir kölgən üstən
ağır maşınlar,
Kölgən tapdalanır
ayaqlar altda.

Kölgən dirsəklənib daşa-torpağa
dikəlmək istəyir, qalxmaq istəyir.
Dayanıb mənimlə qabaq-qabağa
gözümün içinə baxmaq istəyir.

Tez-tez bu şəhərdə aldanır gözüm,
sən donda görükür gözümə qızlar.
Bəlkə parça-parça doğrayıb-kəsib
kölgəndən don tikib özünə qızlar.

Kölgənə nə qədər əllər uzanır,
o küncə-bu küncə qısılır kölgən.
Aylar ötüb keçir, illər uzanır,
günbəgün gödəlir, qısalır kölgən.
Kölgən qısaldıqca
uzaqlaşırsan,
Bəlkə də, hardasa çılpaqlaşırsan...

Beləcə sən məndən, mən səndən uzaq
ölüncə yaşarıq tək-tək
dünyada.
Hələ bircə qarış kölgən qalıbsa,
mən qərib deyiləm, demək, dünyada.

Bir gün sən hardasa dil-dil ötəndə
son sözüm kölgənə yazılar sənin.
Kaş ki, vaxt bitəndə, əcəl yetəndə
qəbrimi kölgəndə qazalar sənin...

BU GÜZGÜYƏ BİR VAXT QOŞA BAXARDIQ

Bu güzgüyə bir vaxt qoşa baxardıq, -
bu güzgüdə yerin indi boş qalıb.
Bəlkə səndən bu güzgünün canında
dodaq qalıb, kirpik qalıb, qaş qalıb?

Göz yaşların canındadı, bəlkə də
damla-damla əriyəcək bu güzgü.
Bir gün sənin ayağınla dünyada
ayaq açıb yeriyəcək bu güzgü.

Bəlkə, səni axtaracaq, gəzəcək
milyon-milyon adamların içində.
Görən kimi tanıyacaq üzünü
ən qaranlıq axşamların içində.

Qaçacaqsan bu güzgünün əlindən,
Dönəcəksən o döngəyə, bu tinə.
Adamları, maşınları, evləri
Atacaqsan bu güzgünün cənginə.

Yenə, yenə doymayacaq bu güzgü,
bir şəhəri udub, udub gələcək.

Səni gözdən qoymayacaq bu güzgü,
yeri-göyü tutub, tutub gələcək.

Sən qaçdıqca yellənəcək saçların,
Bu güzgüyə pay düşəcək saçından.
İpək donun yelləndikcə,
güzgüyə
Pay düşəcək ətəyinin ucundan.

Qaçıb-qaçıb özünü yoracaqsan,
Qəfil birdən görəcəksən o daşı.
Bu güzgünü daş atıb qıracaqsan,
Bu güzgüdən dağılacaq göz yaşın.

Hər tikəsi qayıq təki üzəcək -
dörd tərəfi göz yaşınla dolunca.
Bu güzgünün bəlkə hər tikəsindən
dodaqların çığıracaq dalınca.

...Bu da belə bir nağıldı yalandan,
Sən ki yoxsan, getdiyin o gedəndi.
Bu güzgü də yerindədi, yerində,
Bu güzgü də yenə sağdı, bütövdü.

Sınan güzgü axı bir də calanmaz, -
bəlkə tanrı özü görüb bu işi?!
Bu güzgünün hər tikəsi, bəlkə də,
damla-damla göz yaşınla bitişib.

Bəlkə səndən bu güzgünün canında
dodaq qalıb, kirpik qalıb, qaş qalıb.

Göz yaşların canındadı hələ də,
göz yaşların qurumayıb, yaş qalıb.

Bu güzgüdən gəlib keçir xanımlar,
Özlərinə baxıb-baxıb keçirlər.
Dodağından dodaqları rəng alır,
Kirpiyindən kirpik taxıb keçirlər.
Göz yaşınla dolur, dolur gözləri,

Baxır yerə, baxır göyə, ağlayır.
Bu nə dərddi - heç bilmirlər özləri,
Heç birisi bilmir niyə ağlayır...

KÖHNƏ MƏKTUBLAR

Xəbər gələr daha ömrün qışından,
Soyuyarsan -
saçlarına qar düşər.
Ancaq köhnə kitabların içindən
Hərdən-hərdən
köhnə məktublar düşər.

Əyilərsən, götürərsən gizlicə,
boylanarsan -
arvad-uşaq görməsin.
Çəkilərsən otağın bir küncünə,
gizli-gizli oxuyarsan hər sözü.

Bu nə sevgi məktubudu, ilahi,
indiyəcən ağrıyır hər sözü də.
Yazan qızın nəydi adı, ilahi?
Yaddan çıxıb sifəti də, üzü də.

Oxuduqca lal sətirlər səslənər,
Yavaş-yavaş səsi düşər yadına.
Bir hərfdən - qaşı düşər yadına,
Bir hərfdən - gözü düşər yadına.

O gözlərdən yadigartək varaqda
Göz yaşının ləkəsini görərsən.

Birdən donu xışıldayar otaqda,
Pəncərədə kölgəsini görərsən.

Diksinərsən, boylanarsan qapıya;
"o kölgəni arvad-uşaq gördümü?!"
Tez məktubu atarsan külqabıya,
yandırarsan hər sözünü, sətrini.

Sözlər yanar - kağızı da yandırar,
Sözlər yanar - o qızı da yandırar.
Sözlər qaçar o alovun içindən,
Sən baxdıqca -
basar səni soyuq tər.
Sıra-sıra qara qarışqalartək
Qaçıb gedər qara-qara hərflər.

Təkcə o qız qaça bilməz bu oddan.
Bir quş olub uça bilməz bu oddan.
O qız yanar o alovun içində,
Göyə qalxar o alovun dilləri.
O alovun dillərinə sarmaşıb
Yanar, yanar uzun-uzun telləri.
Yanar bir vaxt saçlarını oxşayan
Uzun-uzun barmaqları, əlləri.

O qız yanar -
ərşə çıxar tüstüsü.
Kağız yanar -
külqabıda küllənər.
Qəfil birdən
külqabının içindən
Yerə düşüb bir üzük diyirlənər.

Lap özünü itirərsən - baxarsan,
O üzüyü götürərsən - baxarsan;
Bu üzüyü axı harda görmüsən?
Bu üzüyü görməmisən bəlkə heç.
Sən o qıza haçan üzük vermisən?
Ona üzük verməmisən bəlkə heç.

Arvadın da qəfil girər qapıdan:
- Əlindəki nədi? - deyər.
- Üzükdü.
- O üzüyü nə yaxşı ki, tapmısan,
neçə vaxtdı, itirmişdim, gəzirdim.

Sonra gələr, səndən alar üzüyü:
- Bunun rəngi niyə belə qaralıb?
Barmağına güclə salar üzüyü:
- Elə bil ki, bir balaca daralıb.

Külqabıdan tüstü qalxar hələ də,
o məktubun külü hələ işarar.
Maddım-maddım durub baxar arvadın,
o tüstüdən bir cüt gözü yaşarar.

- Heç olmasa pəncərəni aç, - deyər, -
burda necə oturmusan sən, necə?!
Bu nə yanıq qoxusudu, ilahi,
elə bil ki, adam yanıb indicə...

AYRILIQ

Yenə bu şəhərdə üz-üzə gəldik,
Neyləyək, ayrıca şəhərimiz yox.
Bəlkə də, biz xoşbəxt ola bilərdik.
Bəlkə də, xoşbəxtik,
xəbərimiz yox.

Aradan nə qədər il keçib görən, -
Tanıya bilmədim,
məni bağışla.
Mən elə bilirdim, sənsiz ölərəm,
Mən sənsiz ölmədim,
məni bağışla!

"Ölmədim" deyirəm,
nə bilim axı, -
Bəlkə də, mən sənsiz ölmüşəm elə,
Qəbirsiz-kəfənsiz
ölmüşəm elə.
Bəlkə də, biz onda ayrılmasaydıq,
Nə mən indikiydim,
nə sən indiki, -
Ayrıldıq, şeytanı güldürdük onda:
Bu ilin,
bu ayın
bu günündəki,

Elə bu küçənin bu tinindəki
məni də, səni də öldürdük onda.

...Sağımız-solumuz adamla dolu,
Qol-qola kişilər, qadınlar keçir.
Özündən xəbərsiz
ömründə min yol
Özünü öldürən adamlar keçir.

Keçir öz qanına batan adamlar,
Bir də ki, qan hanı?
Qan axı yoxdu...
Hamı günahkardı dünyada,
amma
Dünyada heç kəsin günahı yoxdu.

Bizsiz yazılmışdı bu tale, bu baxt,
Sapanddan atılan bir cüt daşıq biz.
Bəlkə bu dünyada
on-on beş il yox,
Min il bundan qabaq ayrılmışıq biz.

Halal yolumuzu dəyişib,
nəsə
Çaşmışıq, bir özgə yoldan getmişik.
Bəlkə min il qabaq səhv düşüb nəsə,
Minillik bir səhvə
qurban getmişik.

Dəyişib yerini bəlkə qış-bahar,
Qarışıb dünyanın şəhəri, kəndi.

Bəlkə öz bətnində
ögey analar
Ögey balaları gəzdirir indi.

Ömrüm başdan-başa yalandı bəlkə,
Taleyim başqaymış doğrudan elə.
O yoldan ötən qız
anamdı bəlkə.
Bəlkə də, oğlumdu bu oğlan elə.

Bu yalan ömrümdə
görən sən nəsən?
Bəlkə heç sevgilim deyilsən mənim.
Anamsan,
bacımsan,
nənəmsən,
nəsən?!..
Bircə Allah bilir, nəyimsən mənim.

Bizi kim addadar bu ayrılıqdan,
Çatmaz dadımıza
nə yol, nə körpü.
Ölüsən,
dirisən,
hər nəsən,
dayan!
Dayan, heç olmasa əlindən öpüm...

Deyirsən: "Ölüyəm, ölünü öpmə..."
Əlimin içində
soyuyur əlin.
Deyirsən: "Sən allah, əlimi öpmə,
əlimdən, deyəsən, qan iyi gəlir..."

BU EVİN KİŞİSİ

Əlini bağrının başına sıxıb,
Dişini dişinə sıxıb,
Dişlərinə qısılıb
yaşar bu evin kişisi.

Haçandı, haçandı, haçandı, Allah?!
Bu kişi bir dəcəl oğlandı, Allah;
Özgə bağa
oğurluğa girəndə,
Bağ yiyəsi qəfil üstün alanda,
Kal armudu
bərk-bərk sıxıb əlində
Qısılıb qalardı çəpər dalında -
indi dişlərinə qısılıb qalıb.

Beləcə yaşamaq düşüb boynuna:
Bu evdi, küçədi,
xəbəri olmaz,
Gündüzdü, gecədi,
xəbəri olmaz,
Gecə qaranlığa, gündüz işığa,
Arvada-uşağa, qaba-qaşığa
dişlərinin arasından boylanar.

Dişlərinin arasından ah çəkər,
ah çəkib yerinə girər gecələr.

Hərdən yuxusunda şaqqanaq çəkər,
hərdən yuxusunda gülər gecələr.

Diksinib yuxudan qalxar arvadı,
O elə güldükcə qorxar arvadı,
Oyadar,
oyadar,
oyada bilməz,
Axırda hönkürüb ağlar arvadı.

Ağlamaq səsinə açar gözünü,
o yana-bu yana baxar bu kişi.
Özü də diksinər öz gülüşündən,
dişini dişinə sıxar bu kişi.

Yenə bütün rənglər sönər, qaralar,
solar dişlərinin o tərəfində.
Bu dünyanın hər şeyi;
Şəhəri, küçəsi, evi, eşiyi,
Arvadı, uşağı, iti, pişiyi
qalar dişlərinin o tərəfində.

Beləcə, beləcə
hər gün, hər gecə
Əlini bağrının başına sıxıb,
Dişini dişinə sıxıb,
Dişlərinə qısılıb
yaşar bu evin kişisi.

Gündüzlər hamını sancar, acılar,
gecələr arabir gülər yuxuda.
Bir gecə beləcə baxtı açılar
elə gülə-gülə ölər yuxuda.

QARA PALTARLI QADIN

Kişilər bir olmur, atam balası, -
qorxağı var,
igidi var.
Amma hər kişinin öləndən sonra
qəbri üstə ağlayası
Bir qara paltarlı gözəl qadına
ümidi var.

Sən öləndə
kim olacaq gözlərini bağlayan?
Qardaşmı olacaq?
Yadmı olacaq?
Bu dünyada
bəlkə sənə ən çox ağlayan
Ən çox ağlatdığın qadın olacaq.

Göz yaşları yuduqca baş daşını,
Qəbrində qurcalanıb
deyəcəksən, ilahi,
İllər boyu ağlatdığım bu qadın
görən necə saxlayıb
bu qədər göz yaşını?!

Bircə kərə
nə saçını oxşamışam,
nə gözünü silmişəm,

Gözlərimə batır indi
saçlarının hər dəni.
İllər boyu
bu qadına mən axı dərd vermişəm,
İndi görən niyə çəkir dərdimi?!

Bu qadın
baş daşımı
öpüb sığallamaqdansa,
Yumruğuyla döysə, döysə yaxşıdı.
Qəbrimin üstündə ağlamaqdansa,
Məni söysə yaxşıdı.

Yeri, yeri, qara paltarlı qadın,
Kiri, kiri, qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridi,
baş daşımı bəsdi basdın bağrına.
Bütün mənə ağlayanlar kiridi,
sən də kiri, qəbrim damır, ağlama!..

LAL

NƏFƏS

Mənim bu dünyayla bir alverim var;
aldığım-verdiyim nəfəsdi, nəfəs.
Daha özgə bazar açan deyiləm,
ölüncə bu alver mənə bəsdi, bəs.

Aldım nəfəsimi quş dimdiyindən,
Ocaq tüstüsündən,
çiçək iyindən.
Üzümə çırpılan yağışa-qara,
küləklərə verdim öz nəfəsimi.
Nəfəsim toxundu gül dodaqlara,
aldı neçə-neçə qız nəfəsimi.

Canavar ağzından keçdi nəfəsim.
İlan boğazından keçdi nəfəsim.

İlahi, nə yaman əliaçıqsan,
bir quru nəfəsi az bildin mənə.
Yarpaqladı, çiçəklədi nəfəsim,
ilahi, dil verdin, söz verdin mənə.
Sözlər nəfəsimi dərdi, apardı,

Sevinci apardı,
dərdi apardı.

Çiçəyi, yarpağı sovulub-gedən
bir ağac kimiyəm bu yer üzündə.
Hələ ki, qorxmuram son nəfəsimdən,
hələ ki, diriyəm bu yer üzündə.

Amma uzaq deyil ölüm xəbərim,
dünyanın havası çirklənir, Allah.
Dözmür bu havaya şair ciyəri,
şairlər azalır, tükənir, Allah.

Artır canımın da hirsi-acığı,
bir az çirk qarışır hər nəfəsimə.
Yavaş-yavaş dünyanın çirki çıxır
bu şerimə-sözümə.

...İnsana, heyvana, hər nəyə desən
sən nəfəs vermisən axı, ilahi.
Qoyma, bu dünyanın çirki deyəsən
sənin nəfəsinə çıxır, ilahi.
Sən göydə, mən yerdə -
düşürük heydən,
Sən göydə, mən yerdə -
tək qalmışıq, tək.
Son şair boğulub öləndə, -
göydən
Ölü Allah düşəcək...

ÖZÜMÜ SEVƏ BİLMİRƏM

Üzümə qırışlar düşür,
üzümü sevə bilmirəm.
Bilmirəm, bu necə dərddi;
özümü sevə bilmirəm.

Haçan batdım günaha,
kim məni qarğışladı?
Yazdığım misralardan
deyəsən dərindi daha
alnımın qırışları.

Yola saldım gedənləri,
gələnlərdən xəbər yox.
Qabaqdan bir gecə gəlir,
arxasında səhər yox.

Yatıb qaldım, qapımızdan
ömür ötdü, gün ötdü.
İndən belə bircə qız da
ağlamaz məndən ötrü

Xəbərim yox, çöldə nə var...
Deyirlər ki, payızdı.

Dünya, səndən doydum daha,
Get, acları doyuzdur!..

Hansı damdan gəlir, Allah,
o mollanın əzanı?!.
Qoyma, məni aparacaq
bu payızın xəzanı.

Neçə dondan-dona düşdüm,
bu sonuncu donumdu.
Bu üz mənim son üzümdü,
bu üz mənim sonumdu.

Son nəfəsim dodağımdan uçanda,
bu üz mənim
özgə əllə yuyulası üzümdü.
Bir il-beş il bundan sonra, haçansa,
tabutuma qoyulası üzümdü.
Bu üz mənim son üzümdü
son günümün yiyəsi.
Bu dünyadan gedən üzün
nə yaxşısı, nə pisi?!.

...Bu qırışan üzümü
sevməyə də mənə güc ver, ilahi!
Bu sifətdə, bu görkəmdə özümü
sevməyə də mənə güc ver, ilahi!
İndən belə heç kəs məni sevməsə,
yenə güc ver, özümü sevə bilim.
Ağac öz son yarpağını sevəntək
bu qırışan üzümü sevə bilim.

Ölüm nədi?
Hamının son vətəni...
Son yarpağı qoparan son küləkdi.
Bu dünyada
sevgilərin çətini
Qocalıqda özümüzü sevməkdi...

KİM DEYİR, YUXUDA ÖLMƏK ASANDI

Deyirlər, yuxuda ölmək asandı...
Özün də bilmirsən necə ölürsən.
Səhər tezdən eşidirsən əzandı,
Yuxudaca kirimişcə ölürsən.

Bir göz qırpımında qurtulur canın,
Ruhun bədənindən uçur quş kimi.
Əlində qalmırsan dərdin, dərmanın,
Dərdə də salmırsan evdə heç kimi.

Kim deyir, yuxuda ölmək asandı?..
Kim bilir, necədi yuxuda ölmək?!
Bəlkə də, ən böyük dərddi, əzabdı,
Ən pis işgəncədi yuxuda ölmək.

Bir göz qırpımında yuxuda bəlkə
İllərcə belində daş daşıyırsan.
Nəfəsin kəsilir axırda bəlkə,
Ömrünü daşlara bağışlayırsan.

Bir göz qırpımında yuxuda bəlkə
Cəllad baltasıyla üzülür başın.

Orda qızıl qanın axanda bəlkə
Yastığa süzülür burda göz yaşın.

...Yuxuda ölməkdi
ən rahat əcəl...
Bu da, bir yalançı təsəllidimi?
Görəsən yuxuda
səni boğan əl
Düşmən əlidimi, dost əlidimi?!

Nədi bircə anda ömrə son qoyan?
Beynə axıb sızan bir damla qandı.
Kimdi qəbrin üstə ən bərk ağlayan?
Bəlkə də, yuxuda səni boğandı.

Gecə qorxu çökər yuxumuza da;
Tərpənər kiminsə qara kölgəsi.
Bəlkə hasar çəkək yuxumuza da,
Heç kəs yuxumuza girə bilməsin.

Bəlkə heç yatmayaq -
hər yatanın da
Əgər oyanmamaq qorxusu varsa.
Bəlkə heç yatmayaq -
ömrün sonunda
Onsuz da, bir əcəl yuxusu varsa.

Amma yuxun gəlir -
görürəm elə;
Daha yavaş-yavaş yumulur gözün.
Yat... sabah oyanmaq ümidi ilə...
Yuxun şirin olsun -
uyu, əzizim...

LAL

Lap yuxudan duran kimi
yoruluram, ilahi.
Tüstü kimi, duman kimi
lal oluram, ilahi.

İyrənirəm
hər sözdən, hər kəlmədən,
Lap balamın oxuduğu
nəğmədən.
Bir sözə də
daha dil bulamaq istəmirəm,
Yalquzağa dönsəm də,
ulamaq istəmirəm.

Dadı qaçıb şerin-sözün,
daha məni dinləndirən sözüm yox.
Adamlarla danışmağa həvəsim,
Allahla da danışmağa üzüm yox.

Ah çəkirəm, gülür ahım,
bu "ah" mənə inanmır.
Deyəsən, çoxdu günahım,
Allah mənə inanmır.

Kim-kimə inanır axı?!.
Adam dərddən ölsə də,
Ağlar gözdən öpən çətin tapıla.
Lap mələklər
göydən uçub gəlsə də,
Bir ovuc dən səpən çətin tapıla.

Mənim də bəxtimə bu vətən düşüb;
havayı açılmır çiçəkləri də.
Allahı yorulub, taqətdən düşüb,
bir az şorgözləşib mələkləri də.

Susmuşam, tərpənməz bu dil, bu dodaq,
mən daha lalam, lal -
bu yer üzündə.
Məni korlar görər dünyada ancaq,
məni karlar qanar bu yer üzündə.

Məni səndən özgə kim dindirər, kim?! -
İlahi, özümdən sənəcən lalam.
Bir quş qanadında göndərəcəyin
bir təzə məzhəbə, dinəcən lalam.

Mənə torpaq dili, daş dili öyrət,
bəlkə öz qəbrimdə dilləno billəm.
İlahi, sən mənə quş dili öyrət,
uçmağı özüm də öyrənə billəm...

ÇIĞIRTI

Öz səsindən asılıb
cavan-qoca çığırır.
Ağıllısı-dəlisi,
toxu-acı çığırır.
Qəbirlərin
ağzını yırta-yırta,
Ölülər çığırır torpağın altda, -
yoxsa torpaq çığırır?!
Çığırtımız gedib çatır Allaha,
yuxuda səksənib Allah çığırır.

...Sən niyə susursan, atam balası,
sən nəyi gözləyirsən?
Qulaqlar batıran bu çığırtıdan
səsini gizləyirsən.
Bəlkə qorxursan ki, səsin ilişər,
səsin düyün düşər
bu çığırtıda.

Birdən bu dolaşıq səs düyünündən
adam öz səsini ayıra bilməz.
Hərdən pıçıltıyla yara-yoldaşa
deyiləsi sözlər deyilə bilməz.

Demə, pıçıltıyla düşmən yıxılmaz,
Demə, pıçıltıyla qala alınmaz.
...Çığıra-çığıra dua oxunmaz,
Çığıra-çığıra layla çalınmaz...

Ay kimi, gün kimi batıram indi
susan dodaqların pıçıltısına.
Mən də öz səsimi qatıram indi
əsən yarpaqların xışıltısına.

Çöldə kin bilməyən, acıq bilməyən
quşların səsinə qatım səsimi.
Füzulidən bəri üzü gülməyən
bu qərib səsimi, yetim səsimi.

Bir az əllərimlə üzümü örtüm,
Nəfəsim ovcumda isinsin bir az.
Bir son yarpaq kimi
dodaqlarımdan
Qopan pıçıltım da isinsin bir az.

Nə çoxdu danışan...
Susum bu axşam,
Qoy barı bir söz də sabaha qalsın.
Bu ocaq alova çıxmasın tamam,
Qoy barı bir köz də sabaha qalsın.

Hamı çığırmaqdan doyanda bir gün,
Batanda hamının səsi, ilahi,
Əlim yana-yana gətirəcəyəm
Ovcumda o bircə sözü, ilahi.

Köz kimi közərən o pıçıltıdan
hamı öz səsini alışdıracaq.
Onda bir-birini dünyada bəlkə
hamı pıçıltıyla danışdıracaq.

- O nə çığırtıydı, - deyəcək hamı, -
nə yaxşı, eşidib kar olmamışıq.
Nə yaxşı, dilimiz söz tutur, Allah,
çığırıb-çığırıb lal olmamışıq...

KÖHNƏ SÖZLƏR

"Kim nə miqdar olsa,
əhlin eylər ol miqdar söz"
M.Füzuli

Daş gərək bezməsin öz bərkliyindən,
Bayquş da bezməsin
öz təkliyindən.
Tanrı özü yazıb yazılanları,
ha pozmaq istəsən -
bir xeyri yoxdu.
Demə: "Balıq deyil su ilanları...",
sevin ki, onların zəhəri yoxdu.

Hamı söz çıxarır sözün içindən,
şair öz sözündən bezməsin gərək.
Demə: "Göz dünyanı görmək üçündü...",
kor da öz gözündən bezməsin gərək.

...Bu köhnə sözlərə
kimdi o gülən?
Hanı təzə sözün, atam balası?!
Allah bu dünyadan
bezmirsə hələ,
Bəndə niyə bezsin, atam balası?

Daha dil dəyməyən bir söz qalmayıb;
Nə təzə dərdim var,
nə təzə sözüm.
Demə: "Yaşamağa həvəs qalmayıb...",
Mənim ölməyə də
yoxdu həvəsim.

Çoxları bəyənmir, yemir sözümü,
nə çıxar un kimi söz ələməkdən?
Burdan yamayırsan, ordan süzülür,
əl çək bu dünyanı təzələməkdən.

Bu köhnə dünyadı; elə-beləcə
gördüyün kimidi, özgə cür deyil.
Hamı öz ömrünü alıb-verəcək,
hamı al-verdədi,
kim tacir deyil?!

Ana sevgisinə, ata gücünə
havayı aldığın ömrü baha sat.
Aldanma heç kimə, satma heç kimə,
satsan, öz ömrünü sən Allaha sat!..

Amma Allaha da satma sözünü,
demə ki, satdığın varaqda sözdü.
Allah necə alsın özü-özünü,
Allahın CANI yox,
Allah da SÖZDÜ!..

Nə çoxdu dik gəzib
ucuz söz satan,

Nə çoxdu yendirən ayağa
sözü.
Sən özün tapdana-tapdana, atam,
Necə çatdırmısan Allaha sözü?!

Allahı dünyayla barışdırmısan,
qıraqda gəzməsin gözün Allahı.
Dünyanı Allahla bölüşdürmüsən;
Allahın qulusan,
SÖZÜN ALLAHI...

ÖLÜM KÖLGƏSİ

Gecə vaxtı yuxudan dik atılsan,
üzünə bir ölüm kölgəsi düşsə,
Torda balıq kimi dilin tutulsa,
sözünə bir ölüm kölgəsi düşsə,
Lap xəlvətcə öz bağrına basdığın
bir gözəl xanımın saçından düşsə,
Oturub hər gecə şeir yazdığın
o qara qələmin ucundan düşsə,
Düşsə qapındakı tut ağacından,
atandan, anandan, bacından düşsə,
Bir ölüm kölgəsi düşsə üzünə,
güzgüdə üzünü görə bilməsən,
Özün öz üzünə həsrət qalandan
heç kəsin üzünə gülə bilməsən,
"Ya bu gün, ya sabah ölərəm" deyib
bu gün də, sabah da ölə bilməsən,
Barış, o kölgəylə barışıb yaşa,
Qarış, o kölgəyə qarışıb yaşa...

Daha indən belə üstünə qaçıb
boynuna sarılmaz uşaqların da.
Ölüm kölgəsində bitən ağacın
axı kim sallanar budaqlarından?!.

Səndən uzaq gəzər qardaşın, bacın,
beləcə, tökülər yarpaqların da.

Bir də görərsən ki hamıya yadsan,
qəribsən, özgəsən öz evində sən.
Elə bil üstünə pərdə çəkilmiş
bir sınıq güzgüsən yas evində sən.

Heç kəsi görməyən bir kor güzgüsən,
özün diri-diri öz yasındasan.
Daha nə evdəsən, nə də qəbirdə,
evinlə qəbrinin arasındasan.

Evinlə qəbrinin qapısı birdi,
kim döyər qapını bu gündən sənin?
Bu gündən evinə kim qonaq gələr,
kim girər içəri qəbrindən sənin?!.

Evin var, qəbrin var, daha nə dərdin,
sıxma ürəyini, sevin bir azca.
Evindən bir azca rahatdı qəbrin,
qəbrindən istidi evin bir azca.

Bir axşam qəbrində bir şam yandırıb,
qızınsan oduna o yanan şamın, -
Ruhunu görərsən şam işığında,
ruhun görərsən ki, sənə oxşamır.

Ruhun da yaddısa, doğma kimin var,
səni kim itirib-axtarar indi?
Qorx ki, bu işığa qurd-quş yığıla,
bəsdi, yum gözünü, o şamı söndür.

Nə molla lazımdı, nə də ki, Quran,
Tanrı kirimişcə aparar səni.
Bir ölüm yuxusu istə Tanrıdan,
o yuxu dünyadan qoparar səni.
...Haçansa, bu şamı gəlib yandıran,
yuxudan oyadan tapılar səni...

TABUT

Aydın Məmmədovun xatirəsinə

Hələ çiyinlərdə gedir tabutun,
qəbrinin ağzı da açıqdı hələ.
Gözləyir o qəbrin dilsiz sükutu;
sənin sükut payın nə çoxdu hələ!..

Ən rahat, qorxusuz yoldasan indi,
dünyanın ən təmiz, ağ donundasan.
Bircə Allah bilir, hardasan indi;
ömrün əvvəlində, ya sonundasan.

Sən indi yumsan da gözünü, -
bəlkə
O sönən ağlınla nəsə qanırsan.
Beşikdə bilirsən özünü bəlkə,
Astaca-astaca yırğalanırsan.

Bəlkə sən deyilsən tabutda gedən,
bəlkə doğrudan da, körpə uşaqsan.
Tabutun qəbrinə çatana qədər
təzədən böyüyüb dil açacaqsan.

Hamı quruyacaq getdiyi yerdə,
sən axı onlara nə deyəcəksən?!

Bəlkə bu dünyayla bir ayrı dildə
danışıb-dərdləşmək istəyəcəksən.

Heç kəs qanmayacaq dilini onda,
danışıb-danışıb yorulacaqsan.
Təzədən çatacaq ölümün onda,
təzədən tabuta qoyulacaqsan.

Sus daha!.. Susmağı öyrən bu başdan,
bəxtinə yazılıb bu sükut axı.
Nəyinə lazımdı; hansı ağacdan
kəsilib-düzəlib bu tabut axı?!

Gedər əsə-əsə bu qara tabut,
qorxma, səni yolda salıb-itirməz.
Yüz il bar gətirsə bu qara tabut,
bir də səndən gözəl meyvə bitirməz...

MƏN KÜSÜB GEDİRƏM...

Mən küsüb gedirəm...
Qoy hamı qalsın,
Mən küsüb gedirəm bu yer üzündən.
Oğulam -
qoy dərdim anama qalsın,
Atayam -
qoy balam küssün özündən.

Dünya ucuz saydı, ya baha bildi?!
Nə satan tapıldı,
nə alan məni.
Nə Allah dünyaya bağlaya bildi,
Nə atam, nə anam, nə balam məni.

İlahi, səndən də sındı ürəyim,
məni küsdürənin yekəsi sənsən.
Dünyanın ən uzaq... ələ gəlməyən,
boğazdan keçməyən tikəsi sənsən.

Mən sənin yanına uça bilərdim.
uçmuram, beləcə küsüb gedirəm.
Mən sənin sirrini açа bilərdim,
açmıram, beləcə susub gedirəm.

Yandırıb gedirəm bu varağı da,
bu şerin külünü kim oxuyacaq?
Söndürüb gedirəm bu çırağı da, -
məni qaranlıqda itirmə ancaq.

İlahi, küssəm də, sənənəm yenə,
gözün axıracan üstümdə olsun.
Bu sonsuz dünyanın son nöqtəsinə
gedib çıxanacan üstümdə olsun.

...Orda, bu dünyanın lap qırağında,
Bir nəhəng boşluğun lap qabağında
oturub dincimi alaram bir az.
Boşluğa sallaram ayaqlarımı,
Uşaqtək yellərəm ayaqlarımı,
uşaqtək sevincək olaram bir az.

Bir ölüm işığı gəzər üzümdə,
boşluqdan səs gələr:
"Yubanma, tez gəl!..
Sənə, çoxdandı ki, bu yer üzündə
hər şey maraqsızdı, ölümdən özgə..."

İlahi, gəlirəm, eşit səsimi,
kimsəyə ümid yox, sən ovut məni.
Bu nəhəng BOŞLUĞA atdım özümü,
SƏNƏ arxayınam, ÖZÜN tut məni!..

ÇƏRPƏLƏNG UÇURAN BİR UŞAQ KİMİ

Dörd yanın bomboşdu ağ varaq kimi,
özündən savayı kimin var daha?
Çərpələng uçuran bir uşaq kimi
bağla ümidini göydə Allaha.

Ümid sapdan nazik... Soruşma, kimdi
bu sapla Allaha səni bağlayan?
Bəlkə Allahın da sənsən ümidi,
sənsən göy üzündə onu saxlayan.

Uzaqdan uzanır şeytan barmağı,
uzanır o sapı qırmaqdan ötrü.
Allahın qulusan, qoru Allahı,
qoru özünü də Allahdan ötrü.

Deyirsən, neyləyim, azalıb gücüm,
nə çoxdu Allaha qəbir qazanlar.
İlahi, nə çoxdu sənə and içib
məni söyə-söyə daşa basanlar.

Bir qarış tərtəmiz göyün qalmayıb,
ha göyə baxıram, görmürəm səni.

Daha yorulmuşam, heyim qalmayıb,
neyləyim, saxlaya bilmirəm səni.

Qollarım keyiyir, quruyur, Allah,
əllərim üzülür bu çərpələngdən.
Bu sapı boynuma dolayım, Allah,
qoy asım özümü bu çərpələngdən.

Küsmərəm ölüm də olsa qismətim,
qulun haqqı nədi payından küsə?
Bəs bu sap əlimdə niyə titrədi,
ilahi, eşitdin məni bəlkə sən?!.

Nə yaxşı, gün çıxdı, açıldı baxtım,
gördün öz qulunu gözünlə, Allah.
Bir boy da ucaldın, bir boy da qalxdın,
məni də qaldırdın özünlə, Allah.

Uçuruq, göy üzü yenə tərtəmiz,
dünyaya "əlvida" deyib gedirik.
Gedirik, ilahi, bu dünyanı biz
Allahsız, Şairsiz qoyub gedirik...

OĞLUMUN GÖZLƏRİ

Hayana yol alsam, yolum başlayır
oğlumun gözlərindən.
Gün çıxır, ay doğur, ulduzlar yanır,
qar yağır, dolu başlayır
oğlumun gözlərindən.

Tutur, yeri-göyü tutur gözləri,
Keçdiyim yolları udur gözləri,
doymur ki, doymur.
Kirpikləri bitir yol qırağında,
məni yolumdan çıxmağa
qoymur ki, qoymur.

Yanında üzüm ağdı, alnım açıqdı, Allah,
məni hər günahdan oğlum saxlayır.
Bu yol niyə belə palçıqdı, Allah,
yoxsa hayandasa oğlum ağlayır?!

Ağlayır -
göz yaşı düşür yoluma...
Yaş içində gəzirəm, mənim balam.
Gözlərindən
işıq düşür yoluma,

Yumma gözlərini, yumma,
azaram, mənim balam.

Nə vardı, nə yoxdu gözlərinəcən?
Dünya qaranlıqdı gözlərinəcən.
Tanrı məni
bu insan yuvasına atınca.
Gəlib sənin
gözlərinin işığına çatınca,
Ömrümün otuz üç ilini keçdim,
keçdim qaranlıqda əl havasına.

Daha səndən gizli deyil
dünyada bir addımım,
Gizlənə bilmərəm daha
gözündən, mənim balam.
Bir tanrıdı
sevə-sevə qorxduğum,
Bir də, sənsən -
bu dünya üzündə, mənim balam.

Nə yaxşı ki,
tanrıdan da özgə bizi görən var;
Yolumuza işıq salır
balaların gözləri.
Öz yolunu azanların
balaları kor qalar,
Qaranlıqda itib-batar
ataların özləri.

...Balalara tanrı qıymaz!..
Yox, batsaq da günaha, -

Qaranlıqda yanır hələ
balaların gözləri çıraq-çıraq.
Tanrı bizi görmür daha,
Ümid yoxdu Allaha, -
qaranlıqdan bizi ancaq
balalar çıxardacaq...

ÇARMIXDAKI İSA

Mən sənin oğlunam bu yer üzündə,
həsrətinlə göyə çox baxdım, Allah.
Axır ki, arzuma çatdım deyəsən,
ayağım üzüldü torpaqdan, Allah.

Daha yerlə göyün arasındayam,
çarmıxa çəkilib qalmışam daha.
Mismarlanıb ayaqlarım, əllərim,
özüm öz tabutum olmuşam daha.

Gəzir, qarışqatək gəzir canımda,
dalayır canımı bu gün işığı.
Qıyıb gözlərini baxır xanımlar,
baxır, süzür məni beldən aşağı.

Ölüm deyilən şey son yuxudursa,
əgər yatmışamsa -
yuxum ağrıyır.
Çarmıxa çəkilən quru canımdı,
bəs niyə görəsən ruhum ağrıyır?!

Bu ağrı uzanır bir kəndir kimi,
bağlayır ruhumu canıma, Allah.
Ruhum bədənimdən ayrıla bilmir,
uçub gələ bilmir yanına, Allah.

Bu ağrı -
canımın əziyyətidi,
Ruhuma atılan qarmaqdı yoxsa?
Bu ağrı -
dünyanın son ləzzətidi,
Bu ağrı -
sonuncu günahdı yoxsa?

Yox, mən bu ləzzətə dözmürəm daha,
mənə bu çarmıxdan qaçmağa güc ver.
Güc ver bu ağrıdan can qurtarmağa,
quş olub yanına uçmağa güc ver.

Dostlar göz yaşını silir gizlicə,
onlar qaranlığı gözləyəcəklər.
Çarmıxdan qurtarıb məni bu gecə
bəlkə də, hardasa gizləyəcəklər.

Harda?
Niyə?
Kimdən?
Necə gizlənim?
Mən öz taleyimdən
necə gizlənim?!

Yüz yol əllərimlə örtsəm də, - heç vaxt
gizləyə bilmərəm üz-gözümü mən.
Hamı görər məni ovuclarımda
qaralan o mismar deşiklərindən.

Mən o cür yaşayıb ölə bilmərəm -
azardan.

bezardan,
ya qocalıqdan.
Yox, mən bu çarmıxdan enə bilmərəm,
mən enə bilmərəm bu ucalıqdan.

Amma dözəmmirəm, - ya canımı al,
ya da al canımdan ağrını, Allah.
Yada sal, yada sal, məni yada sal,
yoxsa unutmusan oğlunu, Allah?!

...Qəflətən gün batdı, dünya qaraldı,
amma səni gördüm birdən-birə mən.
Əllərin ruhumu çarmıxdan aldı,
tapşırdım ruhumu o əllərə mən.

Gördüm -
qaranlığın içində sənin
əllərin ay kimi, günəş kimidi.
Gördüm -
mənim ruhum ovcunda sənin
özünə dən gəzən bir quş kimidi.

Daha bu çarmıxdan azaddı ruhum,
daha bu canım da ağrımır, Allah.
Ovcunda gör necə rahatdı ruhum,
bəs niyə ovcundan qan damır, Allah?!..

QAPI

Bu dünyanın dörd ili,
Dava ili, dərd ili.

1.QAPI

O ilin otları uzun,
dörd il idi biçən yoxdu,
uzanmışdı boyları.
O ilin qızları uzun,
dörd il idi çalınmırdı toyları,
uzanmışdı, uzanmışdı boyları.
O dörd ili yollara boylanmaqdan
qoca-qoca qarılar da
bəlkə boy atmışdılar...

...Şaxanım nənənin oğlu
davadan qayıdanda
ha uzatdı əlini
Qapının cəftəsinə
əli çatmadı, çatmadı.
Ancaq qapı elə həmin qapıydı,
qapı bir damcı da boy atmamışdı...

Üzün gülsün axşam-axşam,
Dərdin olsun yalan, qapım!
Uzaq eldən qayıtmışam,
Salam, qapım!.. Salam, qapım!..

Gec yatıb, tezdən oyanıb,
Hər qəfil səsdən oyanıb,
Çəpərlər üstən boylanıb
Gözü yolda qalan qapım.

Hörümçəkdən tor bağlayan,
Külək açan, yel bağlayan,
Dərd əlindən yarpaqlayan,
Təzə pöhrə olan qapım...

Şaxanım nənə oğlunun səsini eşitdi, qalxdı, ancaq qapıya gedə bilmədi. Sevincindən qıçları tutulmuşdu. Bir qapıya baxdı, bir qıçlarına... Dörd il bundan qabaq oğlunu davaya yola salanda ayaqlarının ucunda dikəlmişdi, qollarını salmışdı oğlunun boynuna, ağlamışdı. İndi də elə onu bacardı ki, birtəhər ayaqlarının ucunda dikəldi, qollarını uzatdı irəli...

Şaxanım nənənin qolları uçdu,
uçub getdi qolları.
Qapıları taybatay
açıb getdi qolları.
Oğlunun başı üstündən,
Gözünün yaşı üstündən
keçib getdi qolları.
Ağaclara, budaqlara çırpıldı,
Göydə bir cüt qanad kimi çırpındı.
İtib qaldı,
azıb qaldı qolları,
Yetim qaldı,
yazıq qaldı qolları.

...Quşlar alar qanadına -
yorulsa,
Atam oğlu,
dünya ölüm-itimdi!
Bu nə işdi -
ana sağdı, oğul sağ,
Göy üzündə bir cüt qol var,
yetimdi...

Şaxanım nənə elə o cür, ayaqlarının ucunda axır ki, birtəhər qapıya çıxdı, ha boylandı, baxdı, oğlunu görmədi. Aşağıdan, İap ayağının dibindən bir səs gəldi:

- Hara baxırsan, ay ana?!

Şaxanım nənə baxdı, oğlunu gördü, əvvəl bir şey başa düşmədi:

- Anan ölsün, a bala, - dedi, - niyə oturmusan? Ayağa dursana.

Şaxanım nənənin oğlu:

- Neyləyim, - dedi, - ay ana?!. Elə oturmağım da budu, durmağım da...

...Və Şaxanım nənə başa düşdü, qolları kor-peşman göydən endi, bir ucu öz çiyninə düşdü, bir ucu oğlunun çiyninə - bir cüt yetim qoludu, nə onundu, nə bunun...

Şaxanım nənənin oğlu altdan yuxarı anasının gözlərinə baxdı, alnı islandı:

- Ağlama, - dedi, - ay ana, ağlama!..

Şaxanım nənə:

- Ağlamıram, - dedi, - a bala, sudu...

Sudu dünyanın yarısı,
Əvvəli su, axırı su,

Sudu bizdən yuxarısı,
Sudu bizdən aşağısı...

Bulud qalxdı, haçalandı,
Yağış yağdı, ha çiləndi...
Göl olub gölməçələndi
Ağlar gözdən aşağısı...

Döz bu dərdə -
dözənəcən,
Bu dərd səni üzənəcən,
Oğul gəlib dizinəcən,
Hanı dizdən aşağısı?!

Kəndə xəbər yayıldı ki, Şaxanım nənənin oğlu qayıdıb gəlib. Xəbər çatdı Sonaya. Sona da ki, nə Sona!.. Bu kənddə Sona kimi istəyən yoxudu, Sona kimi gözləyən yoxudu: dörd ildi ki, Şaxanım nənənin oğlundan ötrü yollara boylanmaqdan uzanıb-uzanıb kəndin bütün qızlarını ötmüşdü...

Atıldı evin içindən, -
qaçdı Sona, nə qaçdı!..
Sevincindən
ürəyi atdana-atdana,
Kürəyində
hörüyü atdana-atdana
qaçdı Sona, nə qaçdı!..
Bu yol nə çox çəkdi, - dedi,
Ayaqlarım ləngdi, - dedi,
qaçdı Sona,
keçdi Sona,
ötdü ayaqlarını.

Ayaqları dalda qaldı,
Ayaqları yolda qaldı,
özü getdi,
özü çatdı
Şaxanım nənəgi-lə...

...Şaxanım nənənin oğlu
qucaqladı Sonanı,
Qollarının üstə aldı,
əzizləyə-əzizləyə apardı.
İkisi də
bir yastığa baş qoydular, yatdılar, -
aynan, ilnən yatdılar,
Səhərlər bir-birini
öpdülər, oyatdılar...
...və eləcə
Sonanın ayaqları
yolu yarı eləyincə
Şaxanım nənənin oğluna
burda
bir oğul doğdu Sona.
Beşiyini
evin içindən asdı,
Hörüyündən asdı, saçından asdı.
Gecələr beşik başına
əyildi başı Sonanın,
Uşaq ağladı, çığırdı,
dağıldı huşu Sonanın -
Yuxusu dağıldı, saçı dağıldı...

...və eləcə
Sonanın ayaqları

Şaxanım nənəgilin
qapısına çatanda
Sona özü
uşağını
əmizdirə-əmizdirə
pəncərədən baxırdı...

Pəncərədən baxan Sona deyildi, Şaxanım nənəydi. O necə baxmağıdı, ilahi?!. Sona diksindi, çaşdı:

- Nə olub, - dedi, - a Şaxanım xala, niyə elə baxırsan?!. Yoxsa yalandı, - dedi, - yoxsa, qayıdıb gəlməyib?!.

Şaxanım nənə baxdı, baxdı, handan-hana lap yavaşcadan pıçıldadı:

- Qayıdıb, - dedi, - a bala, qayıdıb.

"Gəlib" deməyə dili gəlmədi...

BİRİNCİ NƏĞMƏ

Dilin yansın, dil yiyəsi,
Söz deməyə dilim gəlməz.
Bu nə sirdi, sirr yiyəsi,
Gedən gedər, gələn gəlməz.

Dünya, yolların yorulsun,
Suların axsın, durulsun,
Ev yıxan, qapın vurulsun,
Bu qapıya gəlin gəlməz.

Göydə bulud dolar gedər,
Quşlar qanad salar gedər,
Oğulları alar gedər,
Analara ölüm gəlməz...

İKİNCİ NƏĞMƏ

Şirin-şirin yuxudaydıq,
Bir zalım oyatdı bizi.
Anaların qucağından
Bu dünyaya atdı bizi.

Düşdük yolların ağına,
Baxtımızın sorağına,
Qatdı bizi qabağına,
Əlində oynatdı bizi.

Biz ki yol nədi, bilməzdik,
Biz ki öl nədi, bilməzdik,
Bilsək dünyaya gəlməzdik,
Analar aldatdı bizi...

ÜÇÜNCÜ NƏĞMƏ

Kirpik gözə yiyə durmaz,
Ağız sözə yiyə durmaz,
Dünya bizə yiyə durmaz,
Dünyanın da yiyəsi yox.

Dərdimiz-sərimiz birdi,
Hər dərdin canı səbirdi,
Hər ömrün sonu qəbirdi,
Daha bunun niyəsi yox.

Bu ömrü bizə kim biçdi?
Fələyin felinə düşdük,

Bir dərzi əlinə düşdük,
Qayçısı var, iynəsi yox.

DÖRDÜNCÜ NƏĞMƏ

Ömür ötür yavaş-yavaş,
Daha gün-gündən qısadı.
Gəl duraq boy-boya, qardaş,
Görək kim-kimdən qısadı.

Axtardım itən yolları,
Üstə ot bitən yolları,
Dünyanın bütün yolları
Mənim səbrimdən qısadı.

Qəm eləmə, atam oğlu,
Keçən keçib, olan olub...
Əlim boş, ürəyim dolu,
Dilim ömrümdən qısadı.

BEŞİNCİ NƏĞMƏ

Bu ot hansı otdu görən,
Kimin üstə bitdi görən,
Kim kimi unutdu görən,
Kim kimin yadında qaldı?

Bilən hanı mən biləni,
Demədim mindən birini,

Nəğmələrin ən şirini
Dilimin altında qaldı.

Ağarmaz saçım qarası,
Ölürəm, anam balası,
Alnıma yazılan yazı
Telimin altında qaldı...

ALTINCI NƏĞMƏ

İlahi, öldü bu adam,
Gözləri bağlıdır daha.
Onu nə sevmək qorxudur,
Nə ölmək qorxudur daha.

Kimi var salsın yada ki?!.
Bu gün-sabah dünyadakı
Bir yaşıl otdur, ya da ki,
Bir quru qarğıdır daha.

Ağlamağa bir kəsi yox,
Ağacı yox, kölgəsi yox,
Yeri-yurdu, ölkəsi yox,
"Allahın" oğludur daha...

YEDDİNCİ NƏĞMƏ

Səngərlərə günəş doğur,
Oyan, oyan, yatan oğul!..
Hanı tüfəng tutan oğul,
Oğulun əlləri hanı?!..

Evdə yeri göründüsə,
Niyə gəlmir gələndisə?..
Bu gəlin o gəlindisə,
Xınalı telləri hanı?!..

Kim bu yurda qəm daşıdı?!..
Bu dağ deyil, baş daşıdı,
Bu göl deyil, göz yaşıdı,
Bəs bunun gölləri hanı?!..

SƏKKİZİNCİ NƏĞMƏ

Göz yaşında çimən dünya,
Üzün-gözün təmizdimi?
Qalanların yaddaşında
Ölənlərin əzizdimi?

Bizi görən güzgülərin
İndi görür özgələri,
Nə biləsən, ən gözəli
O üzdümü, bu üzdümü?

Dərdimizi az çək, dünya,
Hər gələn gedəcək, dünya,
Qalanların gecikdi, ya
Ölənlərin tələsdimi?!..

DOQQUZUNCU NƏĞMƏ

Bir stəkan çay tök, içim,
Şirin olsun, acı olsun.

Anan mənim anam olsun,
Bacın mənim bacım olsun.

Ev tikdik, uçulan deyil,
Bir kimsə köçürən deyil,
Baxtımız açılan deyil,
Qapımızı açan olsun.

Mənsiz ömrün uzun olsun,
Baş qoymağa dizin olsun,
Ağlamağa gözün olsun,
Ağarmağa saçın olsun!..

ONUNCU NƏĞMƏ

Bulud gəldi göy başına,
Dedi, anam, döy başına,
Hər kənddən hər ev başına
Oğul getdi, qayıtmadı.

Gün əridi, gecə qaldı,
Ağaclar eləcə qaldı,
Yarpaqları əlcə qaldı,
Budaqları boy atmadı.

Yollar yedi izlərini,
Oğulların dizlərini,
Anaların gözlərini
Yollar yedi,-
doyurtmadı...

2. AĞRI

Oğlu davada ölən gün
Ziba nənə göydəydi, -
əlləri göydə, gözləri göydə.
- İlahi, - deyirdi, - özün kömək ol,
yadından çıxartma bizləri göydə.
- İlahi, - deyirdi, - yerin ucadı,
boylanıb balamı görəsən bəlkə.
- Allah olanda nə olar, oğul, - deyirdi,
- Allahı da ana doğub, - deyirdi, -
boylanıb balamı görəsən bəlkə...

Allahı ana doğmamışdı,
amma anasının səsinə
yaman oxşadı Ziba nənənin səsi,
başından aldı ağlını.
Allah boylandı-baxdı,
Bir yaşıl ağacın altında tapdı
Ziba nənənin oğlunu.
Ziba nənənin oğlu
dalıqatlı uzanmışdı,
sinəsində süngü yarası.
Gözləri açığıdı,
başı üstə yarpaqları görürdü,
buludları görürdü -
Buludlarnan doluydu
yarpaqların arası,
Yarpaqlarnan doluydu
buludların arası,
Ağrıyırdı, ağrıyırdı yarası.
- Bu necə ağrıdı, - deyirdi, - Allah,
yoxsa bu ağrının axırı yoxdu?!..

- Kaş öləydim, dincələydim, - deyirdi, -
ölümdən sonra ağrı yoxdu...

Yavaş-yavaş
yarpaqlardan aralandı buludlar,
tutdu göyün üzünü, -
buludları görmədi.
Yavaş-yavaş
bir yarpaq
ennəndi-ennəndi tutdu gözünü -
yarpaqları görmədi.
Elə bildi ölüb daha,
sevindi.
...amma yarası hələ də ağrıdırdı...

Diksindi, səksəndi: - İlahi, yoxsa
ölümdən sonra da ağrı varımış?!..
Bilirdi ki, bu ölümün
ucu-bucağı yoxdu,
Bilirdi ki, bu ölümün
qurtaracağı yoxdu,
Və deməli beləcə
yüz il, min il keçəcək,
yüz il, min il ağrıyacaq yarası.
Yazığı gəldi özünə,
ağladı için-için,
ağlaya-ağlaya öldü,
haçan öldü, heç özü də bilmədi...

...amma gözləri hələ də açığıdı,
gözləri
düz Allahın gözlərinə baxırdı.

Allah dözə bilmədi,
yayındırdı gözünü -
Ziba nənəni gördü.
Ziba nənə "oğul" deyib ağlayırdı.
Allahın
ürəyi ağrıyırdı.
Allah dedi: - Ay ana!
Ziba nənə: - Nə var, ay oğul? - dedi.
Allah dedi: - Ay ana,
özgə oğulu neynirsən,
gəl mənim anam ol, - dedi.
Ziba nənə: - Yox, - dedi, -
səni mən doğmamışam!

Utandı, sıxıldı Allah,
qaldı göyün üzündə.
Ziba nənədən gizlicə
yazıq uzatdı əlini,
Ziba nənənin oğlunun
yumdu açıq gözlərini, -
Göz yaşından
islandı barmaqları.
Sürtdü ətəyinə barmaqlarını,
barmaqları yenə yaşıydı ancaq.
Yenə sürtdü ətəyinə barmaqlarını,
ancaq barmaqları yenə yaşıydı...

3. GÖZ YAŞININ NAĞILI

Ziba nənə ağlayanda
uzanardı sifəti...

Uzandı-uzandı getdi
Ziba nənənin sifəti.
Yollara qarışdı itdi
Ziba nənənin sifəti.
Bu yolların yoxuşları
dirəndi sinəsinəcən,
Axdı gözünün yaşları
gözündən çənəsinəcən.
Çənəsindən qəlbinəcən,
Qəlbindəki səbrinəcən,
Qəbrinəcən, qəbrinəcən
axdı gözünün yaşları...

...Ziba nənə ağlayanda
uzanardı sifəti...

"Oğul" dedi addımbaşı,
Eşidənlər dəli oldu.
Böyüdü gözünün yaşı,
Gözlərindən iri oldu.

Kim dindirdi, kim kiritdi?!
Ağac olub yolda bitdi,
Nənələr nəvə böyütdü,
Böyüdü gözünün yaşı.

Böyüdü gözünün yaşı,
Yatıb-yuxlaya bilmədi.
Böyüdü gözünün yaşı,
Bir gün ağlaya bilmədi.

...bir gün ağlaya bilmədi
ağlamaq istəyəndə...

Hanı indi Ziba nənə?!..
Dərdi qalıb özbaşına.
Döndü, döndü Ziba nənə
Özü boyda göz yaşına...

4. ÖLÜM

Nə davadan balan gəldi,
Nə evinə gəlin gəldi,
Gözün aydın, Ziba nənə,
Aç qapını, ölüm gəldi!..

Üzü yox səni çağıra,
nəfəsini qısıb ölüm.
Ölümlərin ən fağırı,
yazıq ölüm, kasıb ölüm.

Nəyin var ki, nə apara, -
bircə dərdindən savayı.
Qırış-qırış sifətindən,
əyri qəddindən savayı.

Bu ölüm sənə nə desin?
"Ana" desin? "Nənə" desin?
Anasansa balan hanı?
Nənəsənsə nəvən hanı?
Nəvəsiz, balasız qarı,
Qız qarı, yalqız qarı,
Yastıqlar zay oldu
gözün yaşından,
Başını qalxız barı!

Deyəsən səksəndin ölümdən axı,
Yuxun qaçdı deyəsən.
Heç kəs ac getməyib evindən axı,
Dur, qazan as, ölüm acdı deyəsən.

Çıx qapıya, ölüm küsüb getməsin,
sürt üzünü ayağına-əlinə.
Nə yaxşı ki, bu dünyada hər kəsin
haqqı çatır haqdan gələn ölümə.

Dünya batıb oğulların qanına;
Balıq kimi ha çırpınar, çapalar,
Nə yaxşı ki, ölüm gəlib aparar
Anaları oğulların yanına.

Anaları görüb çaşar oğullar,
bir oğul da anasını tanımaz -
Anasının dərd dolusu üzünü,
üz dolusu dərdini də tanımaz.
Alnındakı bir qırışı,
saçındakı bir dəni də tanımaz.
- Bu qarı kimdi? - deyər.
Ölüm deyər:
- Anandı!
- Yox, bu mənim anam deyil,
mənim anam cavandı...

Gözlərini döyə-döyə
ölüm qalar ortada,
İndi axı
öz başına nə daş salsın bu ölüm?
Qoca-qoca qarıları qaytarıb,

Cavan-cavan anaları
hardan alsın bu ölüm?

Ölum, nə var, nə döyürsən gözünü,
Niyə belə itirmisən özünü?
Ölüm, sən ki, aydan-gündən ayırıb
ömrümüzü bizə pay-pay
bölüşdürən ölümsən.
Bu dünyada
sən hamını bir-birindən ayırıb,
O dünyada görüşdürən ölümsən.

Milyon-milyon can alsan da,
cansızsan,
Dəmirdənsən, poladdansan, nədənsən?!
Ölüm, sənin balan yoxdu - sonsuzsan,
Ölüm, sənin anan yoxdu - yetimsən.

Nə baxırsan
anaların, oğulların üzünə?
Sonsuz ölüm, yetim ölüm, buyur seç;
Anaların arasında
ana axtar özünə,
Oğulların arasından oğul seç.

Atamız ol, başımızı sığalla,
Anan sənə layla çalsın, yatasan.
"Oğul" desək - sən nə nankor oğulsan,
"Ata" desək - sən nə zalım atasan.

Çıx get, ölüm, aramızda dayanma,
Sağımıza-solumuza dolanma, -

burda sənə yiyə duran tapılmaz,
anan olan, balan olan tapılmaz.

Diri-diri oğulları
ala bildin anaların əlindən,
Amma indi
çəpər kimi qısılıb bir-birinə,
Bərk-bərk tutub
çoxdan ölən balaların əlindən,
Bir ana da oğul verməz ölümə.
...Və hər oğul beləcə
· əlindən tanıyar öz anasını...

Hər oğul öz anasının əlini
tumarlayar, sığallayar, oxşayar,
Nə baxırsan, ay Allahın ölümü?!
Sağlıqla get, ölüm, sənə yaxşı yol!..

5.YUXU

Bir tənha qarının qapısına da
Bu səhər ölümün ayağı düşdü;
Gözləri yumuldu -
çeşməyi düşdü,
Saçları açıldı -
darağı düşdü.

Gözündə yaş qalmamışdı,
gözündən yaş düşmədi.
Ağzında diş qalmamışdı,
ağzından diş düşmədi.

Gözündə yaş yoxuydusa,
kirpiyi niyə nəmdi?
Ağzında diş yoxuydusa,
ölənəcən yediyi qəm nə qəmdi?

Dərdi-qəmi gözlərindən süzülüb
yastığına-balışına çıxmışdı.
Ağladıqca gözəl canı üzülüb,
nəyi varsa göz yaşına çıxmışdı.
Qurumuşdu gözünün içinəcən,
Qurumuşdu qoluna-qıçınacan,
Ağappaq saçınacan qurumuşdu.

Çiynimizdə quş kimiydi tabutu,
qəbri qəbirlərdən balaca düşdü.
Apardıq, basdırdıq, qayıtdıq, gəldik,
gün keçdi, gecə düşdü.

...Gecə yuxumuza girdi o qarı -
elə bil ki, bir az da qarımışdı.
Yeridikcə bükülürdü dizləri,
O əlləri, ayaqları, gözləri
elə bil ki, bir az da qurumuşdu.
Gözünü ovduqca - gözündən yerə
ovula-ovula qum tökülürdü.
Əlini vurduqca daşa-divara -
ovula-ovula qum tökülürdü.
Ayağına dəyən ot quruyurdu,
Dodağına dəyən su quruyurdu,
O qarı keçdikcə kəndin içindən -
Elə bil ki, kənd özü quruyurdu.
Quruyurdu bağçaları-bağları,

Çinardan söyüdəcən quruyurdu.
Çığrışırdı acından uşaqları,
Anaların döşündəki
südəcən quruyurdu.
Qan yox, qum axırdı damarımızdan,
İynə vursan, - qum kimi
qanımız ovulub töküləcəkdi,
Diksinirdik keçdikcə yanımızdan,
Elə bil o qarı toxunan kimi
hamımız ovulub töküləcəkdik.

Üstümüzə yağış yağdı qəflətən,
Sevindik - ilahi, bu nə yağışdı?!.
O qarı da yoxa çıxdı qəflətən,
Bəlkə elə o yağışa qarışdı.
Bu kəndin hər yerinə də
indi yağış yağırdı,
O qarının evinə də
indi yağış yağırdı.

Qapısının kilidi gül açırdı.
Qapısında tabutu gül açırdı.
O tabutun üstə çıxıb
güllərin arasında
durmuşdu o qarı da -
Ətəyini açıb göyə baxırdı.
Ətəyinə
göydən yağışqarışıq
qapqara tut yağırdı.
Buluddan da yuxarıda,
bir nəhəng tut ağacının başında,
İndi oğlu dayanmışdı
yeddi-səkkiz yaşında -

Davada da ölməmişdi, sağıydı,
Bir balaca, bir dəcəl uşağıydı.
Yalın ayaqlarıyla
çırpırdı budaqları;
Tut yağırdı
o qarının ətəyinə, başına,
Tutun qapqara rəngi
çıxırdı ağ saçına,
Tutun qırmızısından
rəng alırdı o qansız dodaqları.
O qarı yavaş-yavaş
gör kimə çevrilirdi,
Bir cavanca, qarasaç
gəlinə çevrilirdi.
O gəlin də gülə-gülə
ətəyini açıb göyə baxırdı;
Tut yağırdı göydən yerə.
GÜLLƏ kimi yağırdı!..

SONUNCU NƏĞMƏ

Bir dumanlı yuxu gördüm,
Yuxumdan düşdü bu duman.
Bir ah çəkdim ayılanda,
Ahımdan düşdü bu duman.

Tutdu yolumu-izimi,
Uddu neçə əzizimi.
Bəlkə də, ağlar gözümün
Ağından düşdü bu duman.

Nə o dağın adına yaz,
Nə bu dağın adına yaz,
Ürəyimin çalın-çarpaz
Dağından düşdü bu duman...

HEKAYƏ

Bağban Həsən bir gülməli adamdı,
Bu dünyada sevdiyi söz "atam"dı.
Daşa da "atam" deyərdi,
ağaca da,
adama da,
Mənə də "atam" deyərdi,
atama da.
Söyəndə də, döyəndə də
"atam" deyərdi.
...anadangəlmə
atadan yetim idi bağban Həsən...

***

Bağban Həsən evlənmədi, ata olmadı.
Totuq əllər
toxunmadı yaxasına.
Yuxusunda
çılpaq-çılpaq xanımları
görməyi arzulardı,
Çılpaq-çılpaq ağaclar
girərdi yuxusuna.
...bir gün yuxusuna bir ağac girdi;
üstü meyvə dolu armud ağacı -
bircə yarpağı da yoxuydu ancaq.
Armudlar yupyumru xanımlardılar,

Budaqlarda
bardaş qurub əyləşmişdilər,
Hamısı da dəymişdilər, yetişmişdilər,
Hansına əlini toxundurdusa
o saat qırılıb yerə düşdülər.
...səhərəcən
bir armud da qalmamışdı budaqda,
Səhərəcən təkcə yatdı yataqda...

***

Evlənsə
qız tapılardı
nə qədər desən,
Görünür, evlənmək yoxdu baxtında.
İllər ötdü... və lap qoca vaxtında
bir qız sevdi bağban Həsən.
Qız şəhər qızıydı, müəlliməydi,
Ananın bir dənəsiydi,
gəlmişdi kəndə.
Sonra anası da dözmədi, gəldi,
Və bir ev verdilər
ana-balaya,
Yazıq bağban Həsən düşdü bəlaya;
sığal çəkib üst-başına,
gündə yüz yol dolandı
o evin başına.
Hamı bir yerə yozdu
bu get-gəlin mənasını,
Yığışıb aldılar bağban Həsənə
qızın dul anasını...

***

Və o gündən gecələr
yatağını doldurdu
qadın nəfəsi, qadın əti.
Və o gündən gecələr
bağban Həsən yuxu görmədi.
Bir gün, bir ay, bir il
yuxu görmədi bağban Həsən.
Pis yaşamırdı deyəsən,
Bığaltı qımışırdı
soruşanda: - Necəsən?...
Eləcə
ölənəcən yaşardı bəlkə də,
Günlərin bir gecəsi
armud ağacı
girməsəydi yuxusuna;
üstü yarpaq dolu armud ağacı, -
bircə meyvəsi də yoxuydu ancaq.
Ha baxdı bağban Həsən, ha baxdı;
ən hündür budaqda,
gözdən uzaqda
bir armud vardı.
Əlini uzatsa əli çatmazdı.
O budağa çıxmağa
hünəri çatmazdı bağban Həsənin.
Ha baxdı bağban Həsən, ha baxdı,
Çağırdı: - Hardasan, a bəxtim?!.
Və birdən hardansa
qapqara bir quş
Girdi yuxusuna bağban Həsənin,
başladı armudu dimdikləməyə.

Bir daş atdı bağban Həsən,
quşa dəymədi.
Birini də atdı, yenə dəymədi.
Atdı birini də...
Armuda dəydi daş,
qırıldı armud,
çığırdı armud,
Çığıra-çığıra düşdü budaqdan.
Ha baxdı bağban Həsən, ha baxdı;
armud nə gəzirdi?!..
Bir qız üzüquylu düşmüşdü yerə,
qan axırdı saçlarının arasından.
...qara quş uçub getdi
bağban Həsənin yuxusundan...

***

Səhər ölüncə döydü
arvadını bağban Həsən.
Camaat yığıldı səsə,
qız da gəldi,
Hönkür-hönkür ağladı bağban Həsən
qızı görüncə.
Qız anasını da apardı, getdi.
...axşam ana-bala kənddən köçdülər...

***

Və o gündən gecələr
bir quru, qupquru armud ağacı
rahatlıq vermədi bağban Həsənə.
Girdi yuxusuna
gözünü yuman kimi.
Bir gün belə...

Bir ay belə...
Bir il belə...
Və günlərin bir gecəsi
bağban Həsənin evindən
səhərəcən balta səsi yayıldı, -
yayıldı çölə-eşiyə.
Səhər gün işığı düşdü
pəncərədən içəri,
düşdü yorğan-döşəyə.
Bağban Həsən yoxuydu,
bir balta varıydı yorğan-döşəkdə,
didim-didim didilmişdi tiyəsi...

... o gündən bağban Həsəni
"gördüm" deyən olmadı...

SEVGİ

Həlimənin saçları
dağılmışdı otların içinə,
Günəşin şəfəqləri
yavaş-yavaş dolaşdı
Həlimənin saçına.
Günəş qalxdı yavaş-yavaş,
günəş bir boy ucaldı, -
Və Həlimə yuxuda
duydu saçlarının dartıldığını.
Həmidin qolları
sürüşdü Həlimənin boynundan,
sürüşdü sinəsinə,
sürüşdü ayaqlarına.
Həmidin qolları
sürüşüb torpağa düşəndə
Həmid diksindi, oyandı yuxudan.
Və Həlimənin ayaqları
torpaqdan üzüləndə
Həlimənin qıçlarına dolaşdı
Həmidin qolları.
Günəş qalxdı yavaş-yavaş,
günəş bir boy ucaldı, -
Həmidin də ayaqları
üzüldü torpaqdan...

Sonra aşağıda qaldı çəmən də, -
Və kəndin üstündən keçib gedəndə,
Həlimənin səsinə -
Kişilər əllərində dəryaz
çıxdılar damların üstünə.

...keçdilər Cəbrayılın
hündür damının yanından.
Cəbrayıl gəlib damın
qırağında dayandı.
Əlindəki dəryazı
ha uzatdı irəli,
Həlimənin saçlarına dolaşan
şəfəqlərə çatmadı.
O dəryazın tiyəsi
bir çəngə tük kəsdi
Həlimənin saçından
Və Cəbrayıl
saxlaya bil-mədi özünü.
Başı üstə yıxıldı damdan yerə...

...keçdilər Mikayılın
yastı damının üstündən.
Mikayıl əlindəki dəryazı
ha qaldırdı yuxarı,
Həlimənin saçlarına dolaşan
şəfəqlərə çatmadı.
Həlimənin ayağını qanatdı
o dəryazın tiyəsi.
Həmid öpdü, öpdü
Həlimənin yarasından

Və Həmidin dişlərinin arasından
ürəyinə süzüldü Həlimənin qanı...

Günəş qalxdı yavaş-yavaş,
günəş bir boy ucaldı.
Aşağıda qaldı kəndlər,
Dağlar qaldı aşağıda,
Aşağıda qaldı ölkələr də.
Və günəş
günorta yerinə dikələndə
Həliməylə Həmid
görünürdü dünyanın hər tərəfindən.

...Günəş endi yavaş-yavaş,
günəş bir boy alçaldı.
Həmid duydu
qollarının gücdən düşdüyünü,
Həlimənin qıçlarından sürüşdüyünü.
Və Həmid ömründə birinci kərə
sevinmədi
Həlimənin dərisinin hamarlığına.

Günəş endi yavaş-yavaş,
günəş bir boy alçaldı.
Bir quş qanad çaldı,
qondu Həmidin çiyninə.
Birdən üçqat ağırlaşdı
Həmidin bədəni,
Və Həlimə elə bildi
ayaqları indi
qopacaq dibindən.

Günəş endi yavaş-yavaş,
günəş bir boy alçaldı.
Quş qanad çaldı, uçdu,
axşamın toranlığı uddu quşu.
Yamyaşıl otların üstə sərildi
Həliməylə Həmidin ayaqları,
sonra kürəkləri.
Yavaş-yavaş
Həlimənin saçlarından açıldı
günəşin şəfəqləri
Və Həmidin
sol qolunun üstə düşdü
Həlimənin başı...

DOĞULMA

Saçları yamyaş,
bədəni yamyaş, -
çöldə veyillənirdi Həmid
yağış içində.
Evdə qan-tər içindəydi Həlimə, -
saçları yamyaş,
bədəni yamyaş,
gözləri yaş içində...

Çöldə bir-birini ovuşdururdu
Həmidin barmaqları.
Addımı-addıma calaşdırırdı
Həmidin ayaqları.
Barmaqlarından, ayaqlarından
Həmidin xəbəri yoxuydu ancaq,
Həmid Həlimənin yanında idi.

Həlimənin yanındakı Həmidin
bir gözü Həlimədə.
Bir gözü pəncərədən zillənmişdi
küçədəki Həmidə,
Küçədəki Həmiddən də o yana,
yağışdan da o yana
zillənmişdi bir gözü, -
bir çəməni görürdü,

O çəməndə bir-birinə sarılan
Həmid ilə Həliməni görürdü,
Odlu-odlu, dadlı-dadlı
pıçıltılar, ufultular
gəlirdi qulağına...

...Ufuldadı, inildədi
yataqdakı Həlimə.
Otaqdakı Həmid hirsləndi birdən,
çöldəki Həmidi söymək istədi.
Salıb təpiyinin altına indi
çöldəki Həmidi döymək istədi.
Çəməndəki o ləzzətin acığını
çıxartmaq istədi onun canından.
...çəməndəki o ləzzətin ağrısını
tək-tənha çəkirdi Həlimə indi...

Ağrıdan böyüdü, irildi
Həliməmin gözləri.
Böyüdü, daşdı otaqdan,
böyüdü, dünyadan daşdı
gözləri Həliməmin.
Özgə bir dünyaya düşdü Həlimə,
çığırmaq istədi,
səsi gəlmədi.
...çığıra-çığıra
körpə bir Həlimə gəldi dünyaya...

Uzaq, özgə bir dünyada
uzanmışdı Həlimə,
Bu dünyada, ayağının ucunda
körpə bir Həlimə çabalayırdı...

Uzaq, özgə bir dünyadan
Həlimə gülümsədi
çəməndəki Həmidə,
bayırdakı Həmidə,
otaqdakı Həmidə.
Otaqdakı Həmid qopdu yerindən,
sevinə-sevinə çölə yüyürdü.
Çöldə, yağışda islanan
Həmidi basdı bağrına;
- Atasan, - dedi, - atasan!..
Yağışda islanan Həmid
Həlimənin yanından
qaçıb gələn Həmidin
köksünə qoydu başını,
axıtdı gözünün yaşını...

SÜD DİŞİNİN AĞRISI
(poema)

Füzuliyə, bir də, balam Rövşənə

Sentyabrın birində, məktəbdə dərslər başlayanda belə məlum oldu ki, dördüncü sinfin bütün uşaqları olub-qalan süd dişlərini də bu yay dişiyib qurtarıblar. O boyda sinifdə tək bircə nəfərin ağzında tək bircə dənə süd dişi qalmışdı, o da Səməd idi. Səməd ağzını açıb salam verən kimi uşaqlar o dişi gördülər və Səmədə güldülər.

Sonra bir qalın sapın bir ucunu Səmədin dişinə bağladılar, bir ucunu qapıya.

O yay kəndə şəhərdən təzə müəllimə gəlmişdi, bir cavan qızıdı, adı Çimnaz. Birinci dərs elə həmin o Çimnaz müəllimənin dərsiydi və deməli, qapını açıb Səmədin dişini çıxaran da Çimnaz müəllimə olmalıydı.

Doğrudu, Səməd qorxaq deyildi, amma qapının dalında Çimnaz müəllimənin dikdabanları taqqıldayanda Səmədin ürəyi yerindən qopdu, qapı dartılıb açılanda Səməd özü də yerindən qopdu, güllə kimi düz Çimnaz müəllimənin qucağına atıldı. Səmədin boyu Çimnaz müəllimənin sinəsinə güclə çatırdı və Çimnaz müəllimənin ürəyi Səmədin lap qulağının dibində döyünürdü.

Səmədin dişinə bağlanan o sap da qırılmışdı, bir ucu qapıdan sallanırdı. Sap qırılmışdı, amma o süd dişi hələ də Səmədin ağzındaydı.

Sonra Səməd keçib yerində otardu; o gün Çimnaz müəllimə dərsdə nə danışdı, nə dedi, Səməd eşitmədi - qulağında təkcə Çimnaz müəllimənin ürəyinin döyüntüsü səslənirdi. O axşam Səməd yorğan-döşəyə girəndə o ürəyin döyüntüsü hələ də qulağından getməmişdi.

O biri otaqda işıq yanırdı, atası qoşalülə tüfəngiynən əlləşirdi, deyəsən, səhər yenə ova çıxacaqdı. Divardakı qara çərçivəli şəkildən anası sevə-sevə atasına baxırdı.

Anası Səməd doğulanda ölmüşdü, Səməd gözünü açandan anasını həmişə elə o qara çərçivənin arasından, o ölüm pəncərəsindən sevə-sevə baxan görmüşdü.

Anası atasını yaman çox istəyirmiş, bu kənddə o cürə sevgi görünməmişdi, deyirlər. Bəlkə, elə Səməd doğulanda da anası o sevginin ucbatından ölmüşdü, o sevgini heç doqquz ay ürəyinin altında bəslədiyi öz doğmaca balasıynan da bölüşdürmək istəməmişdi.

İndiyəcən Səmədə həmişə elə gəlirdi ki, anasının ürəyinin döyüntüsü yadındadı, ancaq indi nə illah eləyirdisə o döyüntü-nü yadına sala bilmirdi; indi Səmədin qulağında səslənən təkcə Çimnaz müəllimənin ürəyinin döyüntüsüydü.

Və bu dəqiqə Səmədin öz ürəyinin başında, elə bil, nəsə yavaş-yavaş tumurcuqlanırdı, yetişirdi, şirinləşirdi. Səməd bunu bütün canıynan-qanıynan hiss eləyirdi, amma bunun nə olduğunu heç cürə başa düşə bilmirdi və canına dolan o şirinlikdən həm ləzzət alırdı, sevinirdi, həm də bir balaca qorxurdu.

Hələ meyvə nə olduğunu bilməyən, ömründə birinci kərə bar gətirən körpə ağac da öz canında tumurcuqlanan birinci meyvədən yəqin beləcə həm ləzzət alır, sevinir, həm də bir balaca qorxur.

...Səmədin ürəyinin başında tumurcuqlanan o meyvənin adı SEVGİYDİ...

Bu necə sevgiydi, gəldi başına,
Allahdan qorxmadı, mənim balam,
Baxmadı uşaq yaşına,
Ağzındakı
süd dişinə baxmadı, mənim balam -
bu necə sevgiydi, gəldi başına?!

Bu qoca dünyada bu az yaşınla,
Əzdin çox şeyləri bu süd dişinlə,
Daddın bu dünyanın çox acısından,
Keçdin zökəmindən, qızılcasından,
Sevgisində
ilişdin bu dünyanın.

Zalım sevgi bir gör sənə neylədi,
belə zalım əcəl yoxdu, dərd yoxdu.
Qaralır qolunda peyvənd yerləri,
mənim balam, sevgidən peyvənd yoxdu.

Bu sevgidi, mənim balam,
ömürlərdən uzun sevgi.
Bir əliylə
beşikləri yırğalayan,
Bir əliylə
qəbirləri qazan sevgi.

Bu sevgidi, mənim balam, -
bir dəlisov kəhər kimi
dalımızca çapan sevgi.
Harda olsaq, əcəl kimi
gəlib bizi tapan sevgi.

Bu sevgidi, mənim balam,
min ildi ki - həmən sevgi.
Gözündən yaş damcılayan,
əlindən qan daman sevgi...

...Bəs sən kimsən, mənim balam?
O çapıqlı üzün tanış,
O yamaqlı dizin tanış,
Çatılanda - qaşın tanış,
Ağlayanda - gözün tanış.
Uşaqların, körpələrin
ən fağırı, ən mağmını.
Hamıdan ləng tərpənəni,
hamıdan bərk yıxılanı.

Deyəsən, ləngidin yenə,
sevgi səni haxladı.
Yollarını dörd tərəfdən bağladı.
İndən belə bu sevgidi
suyun da, çörəyin də.
Sünbül kimi ürəyində
bu sevgi dən bağladı.

İynə boyda ömrümüzlə
dünyadan keçə-keçə,
Mənim balam, min illərdi
yaşayırıq beləcə.
Min illərdi
ürəyimiz damar-damar
Sevgiylə saplanıb bu yer üzündə.
Tozundan ulduzunacan,
Oğlanından qızınacan

Hər şey hesablanıb bu yer üzündə.
Bu dünyanın sevgisi də
ölçülüb, mənim balam.
Sayımıza bölünüb,
boyumuza biçilib, mənim balam.

Ancaq daha dəbdən düşən don kimi
Nə çoxdu dünyada sevgiyə gülüb
sifət turşudanlar, dodaq büzənlər.
Nə çoxdu dünyada qol-qola girib
sevgisiz gəzənlər, çılpaq gəzənlər.
Sevgisiz öpüşlər çılpaq,
Qızların dodaqları
sovulur yarpaq-yarpaq -
Nə çoxdu ağacı kökündən qırıb
üstündə bir yaşıl yarpaq gəzənlər.

Qırılan meşələr kimi,
Quruyan dənizlər kimi
sevgi də tükənir bu yer üzündə.
Dünyanı əlibоş dolanır sevgi,
O yana - bu yana boylanır sevgi,
Sevənləri gəzir gözü - tapammır,
Oğlanı tapanda
qızı tapammır -
Sevənlər təklənir bu yer üzündə.

Mənim balam, sən də təksən,
Təksən, yer üzündə təksən;
Ay kimi, gün kimi təksən,
Torpaqda dən kimi təksən,
Çöldə külək kimi təksən,

Canda ürək kimi təksən, -
Sən də təksən, mənim balam,
bu göyün altında təksən.
Dünyada sevgi adlanan
bu yükün altında təksən.

Dodaqların nəsə deyir, pıçıldayır,
Gözlərindən yaş tökülür, mənim balam.
Sümüklərin xırçıldayır, xırçıldayır,
Belin bükülür, bükülür, mənim balam.

Tanrı sənə necə qıyır -
çaşıb bu göyün yiyəsi.
Bu yük sənin yükün deyil,
hanı bu yükün yiyəsi?!

Çırmalasın biləyini,
girsin bu yükün altına.
Kürəyini, ürəyini
versin bu yükün altına.

...Bəlkə elə, mənim balam,
boş yerə çığıran mənəm.
Özüm burda dura-dura
özgəni çağıran mənəm.
Bəlkə bu göyün altında
Mənəm günaha batan da,
Sən girən yükün altından
çiynini qaçıran mənəm.

Nə çoxmuş dünyanın yükü;
sevgisi yük, nifrəti yük.

Görüşəndə - söhbəti yük,
Ayrılanda - həsrəti yük.

Bu dünya bir yük ağacı,
hər yükün kökü insanmış.
İnsanın yükü dünyaymış,
dünyanın yükü insanmış.

Alnımıza yazılanmış
çiynimizə düşən yüklər,
Mənim balam, bu yazıdan
qaçmaq müşkülmüş, sən demə.
Yük altından öz çiynini
qaçıranda böyüklər,
Balaların çiyninə
yük düşürmüş, sən demə.
Bilməmişəm, mənim balam, bağışla,
Çiynimdəki bu qabara bağışla!..

"BAĞIŞLA" ...Sözə bax, Allah! Hamı bir-birinə "bağışla" deyir və heç kəs heç kəsi bağışlamır.

Ancaq ayağımıza dəyən daş bizə "bağışla" demədi.

Daşla vurduğumuz quşa biz "bağışla" demədik.

Beləcə yaşayırıq; daşlar, quşlar, adamlar. Bizi ağrıdanlar, biz ağrıdanlar.

Quşlarnan uşaqlar bir az bir-birinə oxşayır. Uşaqlar da yuxuda uça bilir. Yuxuda uçan uşaq boy atır, deyirlər.

Yuxu ələ gələn deyil, yuxunun canı yoxdu. Bəlkə elə hər quş cana gəlib qanadlanan dirigözlü bir yuxudu - bir uşağın yuxusu. Bəs onda, uşaqların quşlara atdığı o daşlar nədi, ayaqlarından budaqlara bağladığı o quşlar nədi?

Mənim balam, görürəm, sən də o uşaqların arasındasan.

Bir ağacın başında dövrə vurub durmusuz. Budaqlardan sərçələr sizə baxır - ayaqlarının sapından xəbərsiz yazıq sərçələr. Uşaqlar qəfil çığrışır, sərçələr hürküşür-qalxır.

...Görən, sən də çığırdınmı, mənim balam?!.

Bu dünyada uşaqlara aldanan
quşlardan da yazıq nə var, ilahi?
Ayağından budaqlara bağlanan
quşlar necə qanadlanar, ila-hi?!

Yazıq quşlar ha çırpınar, çırpınar,
Qanadları
budaqlara çırpılar.
Göydən yerə ələnən quş tükündən
uşaqların saçlarına dən düşər.
Ağacları qoparammaz kökündən,
yazıq quşlar yorulub göydən düşər.

O balaca, o körpə cəlladların
ayağı altında, əzab içində
Ölən quşlar bir damardan ası-lı
ürək kimi titrəyər sap ucunda.

Quşlar deyil, bizik ölən bəlkə də,
Bilən hanı - ölü kimdi, diri kim?
Orda duran
əliqanlı uşaq mənəm bəlkə də,
Orda ölən o quş - mənim ürəyim.

Yarpaq yenər
o quşların açıq qalan gözünə,

Didim-didim ayaqların
qanlı sapı açılmaz.
İndən belə o quşların üzünə
Göy üzü bir bağlı qapı -
açılmaz.

Sərçəsini seçməyək bülbülündən,
O quş donlu ürəklərə ağlayaq.
Nə zamansa şairlərin əlində
Nəğmə yazan ləkələrə ağlayaq.

O quşlar da bir az bizə ağlasın,
Bu ürəksiz ömrümüzə ağlasın.
Bəlkə bizdən xəbərsizdi o quşlar,
Yaxşımızdan, pisimizdən xəbərsiz.
Bu ağaran saçımızdan xəbərsiz,
Bu qırışan üzümüzdən xəbərsiz.

Üstümüz-də ləkə qalıb
o quşların qanından.
Yüz cürə don dəyişmişik,
yenə o qan getməyib.
O sapların yeri hələ
sızıldayır budaqların canında,
O quşların səsi hələ
ağacların qulağından getməyib.

Bəlkə elə o quşlar son ayaqda
Ölə-ölə bizi söyüb, qarğıyıb.
Bəlkə elə biz o sapla o vaxtdan
O quşların ayağına bağlıyıq.
Bəlkə elə o dünyadan, yer altdan

Hər səhər o sapın ucundan çəkib
oyadar, oyadar bizi o quşlar.
O sapdan asılı oyuncaq təki
oynadar, oynadar bizi o quşlar.

Alnımızın qırışından,
Bağrımızın başından
biz o sapı açammarıq ölüncə.
Bu dünyanın torpağından-daşından,
Arvadların nazından, qarğışından
qopub-qopub uçammarıq ölüncə.
Ağlayarıq - bizə gülər o quşlar,
Gizlənərik - yenə görər o quşlar.
Gözümüzü yumarıq ki,
o quşları görməyək, -
Yuxumuza gəlib girər o quşlar.
O quşların ayağına yıxılıb
Yalvararıq; yaxamızdan əl çəkin.
Səhər-axşam dincliyimiz yox olub,
Barı gecə yuxumuzdan əl çəkin!..

...Yuxumuzda ölü quşlar dirilər,
Qanad çalıb silkələyər göyləri,
Ayaqların qanlı sapı gərilər,
Xırçıldayar ağacların kökləri.

Quşlar dartar ağacları dalınca,
Lap çinarı, lap palıdı qaldırar.
Bu torpaqdan
bərk-bərk tutar ağaclar,
Quşlar dartar, torpağı da qaldırar.

Quşlar dartar, qalxar evlər-eşiklər,
Bir-birinə dəyər itlər-pişiklər.
Arvadlar da, uşaqlar da çığrışar,
Qorxaqlar da, qoçaqlar da çığrışar.

Çığrışarıq:
- Qurtar bizi, ilahi!
Quşlar hara dartar bizi, ilahi?!
Bəlkə quşlar darta-darta aparıb
Boşluqlara atar bizi, ilahi!..

Daş götürüb daşlayarıq quşları,
Bircə-bircə tuşlayarıq quşları.
Uçan quşlar göy üzündən tökülər,
daşlayarıq lap bircə quş qalınca.
O bircə quş yenə bizə güc gələr,
yenə dartar dünyamızı dalınca.

Doğrudanmı bircə quşdu, ilahi,
bu dünyanı
şəhər-şəhər, ölkə-ölkə qaldıran?!
Bu dünyada ən sonuncu şairin
ürəyidi bizi bəlkə qaldıran.

Biz o quşu, Allah, necə daşlarıq!
Arvad-uşaq, cavan-qoca daşlarıq,
Bu dünyada ən sonuncu şairin
ürəyini daşladıqca daşlarıq.

O quşun da axırına çıxarıq, -
kimin daşı dəyər görən o quşa?!

Gözümüzü bərəldərik-baxarıq
göy üzündən qopub gələn o quşa.

Göy üzünün uzanar hər qarışı,
bu nə işdi, a göylərin ağası?
Görən niyə dünyamızla o quşun
heç azalmır, heç azalmır arası?

Əl at, bu dünyanın dağın-düzün tut,
dağın-düzün axı nədi günahı?
Bu dünyadan özün yapış, özün tut,
yıxılırıq, yıxılırıq, ilahi!

Bəlkə bir də görəmmədik o quşu,
Bəlkə özgə dünyalarla toqquşub
parça-parça dağılacaq bu dünya.
Göy üzündə o quş qərib düşəcək,
O quş görən hara gedib düşəcək,
görən hara yıxılacaq bu dünya?!
Qurtar bizi bu qorxudan, ilahi,
Oyat bizi bu yuxudan, ilahi!..

...O yuxudan dəli kimi oyanıb
gözümüzü açanda,
Qorxa-qorxa aralayıb yorğanı
quş ölüsü axtararıq
yerimizin içində...

...Ölü quşlar yerdə böyür-böyürə düşüb qalmışdı.
Uşaqlardan biri:
- Tez olun əkilin, - dedi, - Çimnaz müəllimə gəlir!..
Doğrudan da, yolun o başından Çimnaz müəllimə gəlir-

di, özü də düz onlara sarı gəlirdi. Deyəsən, o quşların başına açılan oyunu görmüşdü.

Uşaqlar yerdəki ölü sərçələri də qamarlayıb tez aradan çıxdılar. O ağacın altında təkcə Səməd qaldı, bir də bir ölü sərçə.

Çimnaz müəllimə gəldi, əyilib o sərçəni yerdən götürdü və Səmədə sarı çevrilib:

- Sabah ya atan, ya anan məktəbə gəlsin! - dedi.

Səməd dinmədi.

- Eşitmədin nə dedim?!

Səməd yenə dinmədi.

Onda Çimnaz müəllimə Səmədin qolundan tutdu:

- Harda olursuz? - dedi.

Səməd başıynan göstərdi.

Çimnaz müəllimə Səmədin qolundan dartdı:

- Gedək! - dedi.

Və Səməd kirimişcə Çimnaz müəllimənin böyrünə düşdü.

Getdilər, çatdılar, Səməd qapını açdı, girdilər içəri.

Səmədin atası evdə yoxudu.

Çimnaz müəllimə əlindəki ölü sərçənin başını tumarladı:

- Heç nə olmaz, gözləyərəm! - dedi.

Elə dedi ki, elə bil Səmədin atası gəlib bu sərçəni diriltdəcəkdi.

Sonra Çimnaz müəllimənin gözü divardakı şəklə sataşdı:

- Anandı? - dedi.

Səməd başını tərpətdi.

- Anan da evdə yoxdu?

Səməd başını buladı.

Çimnaz müəllimə o şəklə bir də baxdı:

- Nə gözəl anan var, - dedi. - Doğrudan belə gözəldi, ya şəkildə gözəl çıxıb?

Və Səməd axır ki, dilləndi:

- Bilmirəm, - dedi, - görməmişəm!

Və Çimnaz müəllimə o şəklin qara çərçivəsini deyəsən elə indi gördü, diksinib sərçəni əlindən saldı.

Səməd tez əyilib o sərçəni yerdən götürdü. Elə o dəqiqə də qapı açıldı, atası içəri girdi; çiynində tüfəng vardı, əlində də ovladığı bir cüt qırqovul.

Səməd atasının böyründən sivişib qapıdan çıxdı.

Çimnaz müəllimə Səmədin atasını görüb özünü itirmişdi.

Çimnaz müəllimə bu cavan ömründə indiyəcən heç bir kişidən qorxmamışdı, ancaq indi hiss eləyirdi ki, bu kişidən qorxur, ən qəribəsi də budu ki, bu qorxu ona ləzzət verirdi.

Çimnaz müəllimə birdən-birə bu kişinin əlindəki o bir cüt qırqovulnan, lap elə bu kişinin ovladığı-ovlamadığı bütün qırqovullarnan, kəkliklərnən, əliklərnən, ceyranlarnan, lap belə dovşanlarnan öz doğmalığını, yaxınlığını hiss elədi və o bir cüt qırqovulu göstərib dili topuq çala-çala:

- Deyəsən axı ovçusuz? - dedi.

Səmədin atası Çimnaz müəlliməni ayaqdan başacan süzüb:

- Hə, - dedi, - OVÇUYAM!..

Bir ov meydanıdı bu kənd, bu şəhər,
tüfəngsiz-gülləsiz bu necə ovdu?!
Bir azca ovçudu bütün kişilər,
qadınlar hamısı bir azca ovdu.

Bir oğrun baxışın gedər badına,
qadınlar ovlanar, qızlar ovlanar.
Uzun kirpikləri çatmaz dadına,
ala gözlər, qara gözlər ovlanar.

Nə yaxşı, qapımı açıb gəlmisən,
sən mənim ovumsan -

tanıdım səni.
Bəlkə bəxt quşusan, uçub gəlmisən,
bəs hanı çiynində qanadın sənin?

Divarlar gül açar -
əlin toxunsa,
Çəkilib tanrının əli bu evdən.
Bir az tütün iyi, barıt qoxusu,
Bir az da qan iyi gəlir bu evdən.

Nə yaman zillənib gözün divara -
o şəklə baxdıqca yaşarır gözün.
Çevirək o şəkli üzü divara,
bir ölən sevginin ruhu küsməsin.

Bəlkə bir yuxuydu o ölən qadın,
yumsam gözlərimi - qayıda bəlkə.
Sevgi Allahıydı o ölən qadın,
onsuz ALLAHSIZAM dünyada bəlkə.

Ölənə nə var ki, yazıq - qalandı -
Ölən öldü, qalan indi neyləsin?
Deyirlər: Allahlar ölmür...
Yalandı!..
Allah ölən yerdə bəndə neyləsin?!..

Yarızor, yarıxoş gedir ölənlər,
Kim deyir, əliboş gedir ölənlər;
Əli dəydiyindən aparır əli,
Gözü gördüyündən aparır gözü.
Qəbirlər artdıqca dünya daralır,
Ölənlər talayıb aparır bizi.

Bir azca aparır hər ölən adam,
Hər qalan adamın diriliyindən.
Çörəyin dadından,
suyun dadından,
Çiçəyin iyindən, gülün iyindən.

Dirilər hamısı bir az yarıcan;
bir quru kölgəyik,
bir boş qaraltı.
İlahi, çəkəcək bəlkə haçansa
torpağın üstünü
torpağın altı.

Bilirəm, ölənlər dirilmir -
ancaq
Mənim o dünyayla bir alverim var;
Bəlkə də ölümü ölümlə almaq,
Ölümü ölümlə dəyişmək olar.

Sən də, qəşəng xanım, məni bağışla,
səni qorxutmasın əlimdəki qan.
Mənim ovladığım bütün bu quşlar
o ölən qadına qurbandı, qurban.
Yüz quşun, min quşun ölümü, bəlkə,
onun ölümünə tən gələ bildi.
Axırda günlərin bir günü, bəlkə,
onu o dünyadan mən ala bildim.

...Yoxsa səni elə tanrı göndərib,
Yoxsa o dünyadan gələn mələksən?
O qadın öləndən ölüyəm, ölü -
Bəlkə də, sən məni dirildəcəksən.

Saçların nə yaman yumş-aqdı, yumşaq,
saçına dəydikcə -
əlim dirilir.
Mən elə bilirdim ölmüşəm, Allah,
yoxsa, canımdakı ölüm dirilir?!

Dirilir sinəmdə ürək, ilahi,
Diriyəm!
Diriyəm!
Diriyəm yenə!
Dirilər yaşasın gərək, ilahi...
İlahi, min rəhmət ölənlərinə...

...Səməd yalın əllərivnən həyətdə torpağı qazıb o ölü sərçəni basdırmaq istəyirdi.
Torpaq bərk idi, Səmədin barmaqlarını ağrıdırdı...

Dindirərik,
susar min-min diliylə,
Dünyanın daş səbri kimi səbir yox.
Qəbir çoxdu,
bir uşağın əliylə
Qazılan quş qəbri kimi qəbir yox.

Bircə ovuc qara torpaq
bəsidi,
Quşlar bizdən göz yaşı da istəməz.
Bircə qarış qəbir qazsaq
bəsidi,
Bircə barmaq başdaşı da istəməz.

Nə oxşarmış quşların,
uşaqların ölümü -
Hərəsindən
dünyada bir şey qalar;
Uşaqların doyunca
sürmədiyi bir ömür,
O quşların doyunca
uçmadığı göy qalar.

Atam oğlu, səbəb budu bəlkə də,
uşaqların
tabutu daş kimidi.
Bəlkə elə o tabuta yüklənən
uşaqların
yaşanmamış ömrüdü.

Nə yaxşı ki, tabutu yox quşların,
o tabutun altda necə dözərdik?
Bütün göylər o tabuta yüklənib
bəlkə elə çiynimizi əzərdi.
Bəlkə çatıb dadımıza bu uşaq,
Ölən quşa qəbir qazan bu uşaq
o tabutdan çiynimizi qurtarıb.
Başımızın üstdə duran bu göydən,
Bu günəşdən, bu ulduzdan, bu aydan,
bu buluddan çiynimizi qurtarıb.

Nə yaxşı ki, yaşayırıq beləcə,
hər günahı yuyub pozan tapılır.
Nə yaxşı ki, bu dünyada balaca
sərçəyə də qəbir qazan tapılır.

...Bəlkə mənim qəbrimi də qazan var,
gündüz qazır,
gecə qazır
qəbrimi.
Dimdikləyə-dimdikləyə torpağı,
bir balaca sərçə qazır qəbrimi.

Axı, hələ mən nə ömür sürmüşəm,
ölüm yəqin hələ məndən gen gəzir.
O sərçəni bəlkə yüz yol görmüşəm,
demişəm ki,
yazıq sərçə dən gəzir.

O sərçənin yemi bəlkə mənəm, mən,
O sərçənin dimdiyində dənəm mən,
dənləyir, dənləyir məni o sərçə.
Günlərimi, illərimi dənləyir,
Qara-qara tellərimi dənləyir,
dənləyir, dənləyir məni o sərçə.
O sərçənin dimdiyindən yayınıb
gizlənməyə heç yanda yer tapmıram.
O dimdiyin qabağında dayanıb
tablamağa canımda hey tapmıram.

Dimdikləyir, dimdikləyir o sərçə,
bu canımdan
neçə canlar ayrılır.
Məndən qopub
sütül-sütül, körpəcə
təzə dənlər ayrılır.

Dimdikləyir, dimdikləyir o sərçə,
ağrı qopur canımdan.
Canımdakı ağrılardan cücərib
qızım qopur,
oğlum qopur canımdan.

Atam oğlu, bəs mən necə, mən necə,
bəs mən kiməm,
bəs mən hardan qopmuşam?!
Bəlkə elə
atamı da dimdikləyib o sərçə,
Mən atamın canındakı
ağrılardan qopmuşam.

Bəlkə elə nə doğma var, nə yad var,
bu dünyada
hamımız bir bədənik.
Bəlkə elə biz adamlar, adamlar,
nəsil-nəsil dimdiklənən bir dənik.
Nə olsun ki,
ovuc-ovuc dən səpilib hər yerə,
Nə olsun ki,
başdan-başa
həyət-baca sərçədi.
Bəlkə elə bircə dəndi
bu dünyanın əvvəli,
Bəlkə "Allah" deyilən şey
elə bircə sərçədi.

Bəlkə elə
min illərdi beləcə

o sərçənin dimdiyindən
qopub-qopub gəlirik.
Min illərdi beləcə
dimdiklənən bircə dəndən
qopub-qopub gəlirik.
Ağrılardan, acılardan
keçib-keçib gəlirik.
Gündüzlərdən, gecələrdən
keçib-keçib gəlirik.

Qabaqda da, hələ bu cür
min-min ağrı-acı var,
min-min gündüz-gecə var.
Bir ölümsüz DƏN var bu yer üzündə,
bir ölümsüz SƏRÇƏ var...

Səməd o sərçəni basdırıb gələndə Çimnaz müəllimə evdə qırqovulları yolurdu.

Atası divara söykənib gülümsünə-gülümsünə baxırdı.

Ancaq divarda illər boyu anasının baxdığı o pəncərə örtülmüşdü, o qara çərçivəli şəklin üzü divara sarı çevrilmişdi.

Səməd çaşdı, bir o şəklə baxdı, bir atasına.

Atası da birdən ayılan kimi oldu, tez o şəklin üzünü bəri çevirdi. Və Səməd yenə çaşdı; o şəkildən baxa-baxa anası da gülümsünürdü.

Səməd gözünü o şəkildən çəkdi və o gün o qırqovulların ətini dilinə də vurmadı.

O gündən sonra Çimnaz müəllimə yenə hərdən-hərdən Səmədgilə gəlirdi, ancaq hər dəfə o gələndə Səməd sivişib aradan çıxırdı, evə lap gec, Çimnaz müəllimə çıxıb gedəndən sonra qayıdırdı, hər qayıdanda da, atasını yenə o cür gülümsünən görürdü.

Ancaq bir dəfə Səməd evə qayıdanda ha itələdisə qapı açılmadı.

Qapı içəridən bağlanmışdı.

Səməd ayaqlarının ucunda dikəlib pəncərədən baxdı və atasıynan Çimnaz müəlliməni gördü. Çimnaz müəllimə bir iri, ağappaq quş kimi uzanmışdı. Bu, bəlkə də, atasının ovladığı ən gözəl quşudu. Ancaq o quş diriydi. Çimnaz müəllimənin qolları atasının boynunu qucaqlayırdı, dodaqları atasının üzündən, gözündən öpürdü, ayaqları...

...Baxma, mənim balam, uşaq belə şeyə baxmaz!..

Ancaq Səməd baxırdı.

Divardakı o qara çərçivəli şəkildən anası da baxırdı, baxa-baxa gülümsünürdü, elə bil ki, sevinirdi. Nəyə sevinirdi, ilahi?!

Sonra Çimnaz müəllimə çıxıb getdi, evdə təkcə atası qaldı, bir də, anasının şəkli.

Ancaq o gün Səməd atasıynan bir kəlmə də kəsmədi, başını qaldırıb o şəklə bir kərə də baxmadı.

Səhər Çimnaz müəllimə Səməddi yazı taxtasının qabağına çıxaranda da, Səməd daş kimi susdu.

Çimnaz müəllimə:

- Yaz! - dedi.

Ancaq Səməd o qara taxtada heç nə yazmadı, gözünü o taxtaya zilləyib baxdıqca baxdı; elə bil ki, o qara taxta bu saat bir pəncərə kimi taybatay açılacaqdı, bir gözişləməz sonsuzluğa, bir ucsuz-bucaqsız qaranlığa açılacaqdı və Səməd o pəncərədən baxıb o qaranlıqda kimisə görəcəkdi.

KİMİ?!..

Beşikdən tabutacan
ömrümüz ağ üst-ə qara yazıdı.
Bəs onda, mənim balam,

bu taxtanın qara üzü
niyə ağnan yazılır?

Ömür deyilən şey - uzun, ya qısa -
Dünyanın ən çətin dərsiymiş demə.
Bu qara, qapqara yazı taxtası
Bizim ömrümüzün tərsiymiş demə.

Ulduz-ulduz yırtılan göy üzütək
O taxtanı söz-söz yırtan biz olduq.
O qara taxtanın
qara bətnindən
Doğulan sözləri tutan biz olduq.

Yazdıq-pozduq eninə-uzununa,
O qara taxtanın hər qarışında
əlimizin izi var.
Aldandıq, mənim balam,
o yazı taxtasına,
Elə bildik hər yazıya pozu var.
Yazdıq-pozduq -
sevincimiz-qəmimiz
Hər sözdən, hərfdən, cizgidən keçdi.
O qara taxtadan keçdik hamımız,
elə bil bir qara güzgüdən keçdik.

O güzgüdən əlimizlə yazılan
neçə-neçə adlar keçdi,
doğmalar, yadlar keçdi.
"At" da yazdıq,
"Ot" da yazdıq, -
O güzgüdən

ilxı-ilxı atlar keçdi,
çəmən-çəmən otlar keçdi.

Keçən keçdi -
bir də dönüb
O güzgüdən keçəmmərik.
O atları çapammarıq,
O otları biçəmmərik.
Mənim balam, bu nə işdi,
baxdım, baş açа bilmədim.
O güzgüdən hamı keçdi,
sən niyə keçə bilmədin?!

Çırpınarsan, çapalarsan
o güzgünün içində sən.
Bəlkə elə at çapırsan,
bəlkə elə biçindəsən.

Nədən belə islanmısan -
tərdən, ya göz yaşından?!
Bircə damla suyun çıxmaz
o güzgüdən qırağa.
O güzgü basar başından,
boyun çıxmaz o güzgüdən qırağa.

Qurıyan, çatlayan dodaqlarınla
çağırarsan, hay verməzlər səsinə, -
çırpınıb özünü heydən salarsan.
Körpə əllərinlə, ayaqlarınla
o yazı taxtasına
çarmıxlanıb qalarsan.

O qara taxtada qaralar, itər
o qapqara gözlərin, mənim balam.
O qara taxtada cücərər, bitər
yarpaq-yarpaq sözlərin, mənim balam.
O sözləri qoparan yox, dərən yox,
Yüz yol çağır -
harayına gələn yox.

Bir özgəsi çətin çatsın dadına,
o çarmıxı sən özün qır, mənim balam.
Dar gündə öz adın çatsın dadına,
özün öz adını çağır, mənim balam.

Yoxsa dilin topuq çalır, çaşırsan -
öz adın dilinə yatmır deyəsən.
Əlləşirsən, vuruşursan,
öz adına gücün çatmır deyəsən.

Gəl qınama özgəni də, yadı da -
gücün çatmır öz halalca adına.
Mənim balam, dar gündə öz adı da
bu dünyada yiyə durmur adama.

Kimdi qalan bu dünyada?
Ömür yolu
dünyanın ən gedər-gəlməz yoludu.
Mənim balam, bu dünyada
ölənəcən
hər kəs elə öz adının quludu.

Ölənəcən canımızla
yemləyirik adımızı.

Ətimizlə-qanımızla
yemləyirik adımızı.

Lap canı olmasa da,
Əti-qanı olmasa da, -
Yenə, yenə bu dünyada hər şeyin
adı öz canından çıxır.
Daşın, suyun, yerin, göyün
adı öz canından çıxır.
Öz adına gedir gücü,
hər şey heydən düşüb qalır.
"Su" deyincə - su yorulur,
"Daş" deyincə - daş yumşalır.
"Yer" deyincə -
yer bir az da batır yerə,
"Göy" deyincə -
göy bir az da göydən düşür.
İçimizi bir sevgi yeyən kimi,
Tablamayıb "sevirəm" deyən kimi
sevgimiz heydən düşür.

...Bəs, sən necə, mənim balam?
Öz adını çağırmağa,
O yazı taxtasından
qopub-qopub o çarmıxı qırmağa
hələ heyin qalıbmı?
Yer üzündə
ayaq qoyub durmağa
hələ bir qarış yerin,
Göy üzündə
baxmağa bir qarış göyün qalıbmı?

O bir qarış yerin-göyün arasında
böyüməyə,
qalxmağa bir qarış boyun qalıbmı?!

Yerdə yerin,
göydə göyün yoxdusa, mənim balam,
Öz adını çağırmağa
daha heyin yoxdusa, -
Yenə qorxma,
çağırmağa yenə bir ad taparsan,
ondan kömək, ondan imdad taparsan.

Onu çağır dar gündə, dar ayaqda.
öz dərdini ona de, mənim balam.
Bu qara taxtaya, bu kor taxtaya
tut üzünü:
- Ana!.. - de, mənim balam.

...Qara taxta, gözünü aç,
Gör məni, gör, qara taxta.
O qaragöz, o qarasaç
Anamı ver, qara taxta.

Qara taxta, tanrıdan qorx,
"Yox" demə, yox, qara taxta!
Qara taxta, anamı doğ,
Ana-mı doğ, qara taxta!..

O gün Səməd məktəbdən evə qayıdanda anası yenə gülümsünə-gülümsünə divardan baxırdı.

Atasının qoşalülə tüfəngi də divardan asılmışdı, ancaq özü evdə yoxudu.

Səmədin gözləri dolmuşdu, Səməd ağlamaq istəyirdi. Üzünü anasına tutub:

- Gülmə! - dedi.

Amma anası yenə gülümsünə-gülümsünə baxırdı.

Səməd stulu ayağının altına qoyub qalxdı, anasının üzünü divara sarı çevirdi.

Sonra tüfəngi divardan açıb götürdü, patronların yerini bilirdi, getdi, bir cüt patron gətirdi, tüfəngi doldurdu, çaxmaqların ikisini də çəkib ayaqda qoydu.

Sonra bir qalın sapın bir ucunu o çaxmaqlara bağladı, bir ucunu qapıya, elə üzüdivara dayanan o şəklin altındakı o stulun üstündəcə oturdu, tüfəngin qundağını yerə dirəyib bir cüt lüləsini düz ürəyinin başına dayadı.

Səmədin üz-gözündə bir qəribə maraq vardı; elə bil ki, bu saat kiminləsə ömründə oynamadığı ən qəribə bir oyunu oynayacaqdı.

Səmədin bağladığı sap tüfəngnən qapının arasında dartılıb tarım çəkilmişdi. Səməd gah o sapa, gah qapıya baxa-baxa gözləyirdi; NƏYİ gözləyirdi, ilahi?!

Ölüncə
neçə-neçə qapıdan keçir adam,
Dünya -
üz tutduğumuz qapılarla doludu.
Bəlkə də,
üzümüzə çırpılan qapılardan,
Üzümüzə açılan
qapılar qorxuludu,

Mənim balam,
hamımız doğulanda ağlarıq,

Anaların canından
qovulanda ağlarıq.
Bəlkə yaşamaq deyil
dünyaya gəlməyimiz.
Bəlkə doğulan kimi
başlayır ölməyimiz.

Ayağımız yer tutandan eləcə
Addadıqca ildən-ilə, ölürük.
Bu dünyada birdəfəlik ölüncə,
Allah bilir, neçə kərə ölürük.

Bir nazlı xanıma çevrilən kimi
bir gözəl qız ölür, mənim balam.
Bığ yeri tərləyən kimi
bir dəcəl uşaq ölür.
Bu dünyada az yaşayan
az ölür, mənim balam.
Bu dünyada çox yaşayan çox ölür.

Görən olmur ölənlərin qanını,
Biz ki, sağıq, sağ adama kim ağlar?
Kim nə bilir,
əl-ayağı tir-tir əsən bu qarı
bir nazlı xanımın alıb canını,
Bu yazıq qocanın donqar belində
ucaboylu bir cavanın qəbri var.

Həm ölüyük, həm diriyik, ilahi,
biz necə insanlarıq?!
Bu dünyada yeriyən
canlı qəbristanlarıq.

Mənim balam,
nə baxırsan alnımdakı qırışa,
Bir vaxt mən də uşaqdım - sən yaşında.
İllər ötdü, öldü-getdi o uşaq,
Basdırdım o uşağı
alnımın qırışında.

O uşağa heç kəs yas saxlamadı,
Heç doğmaca anam da ağlamadı.
Heç özüm də ağlamadım, özüm də -
Heç bilmədim,
o uşağın əli haçan
qopub düşdü əlimdən,
o uşağın üzü haçan
itib-batdı üzümdə.

Mənim balam, zalım əcəl gəlincə,
Gəlib bizi bu dünyadan dərincə,
Adımızı öyrənincə
dünyanın baş daşları,
Ömrümüz uzandıqca uzanacaq.
Alnımızın artacaq qırışları,
Alnımızda
təzə-təzə qəbirlər qazılacaq.

Tale atıb-tutacaq
bizi saman çöpütək,
Aylar, illər
dalğa-dalğa ötəcək üstümüzdən.
Əlimizdən
neçə-neçə əllər qopub düşəcək,

Neçə-neçə üzlər itib-batacaq
üzümüzdə.

Özümüzü
ha aldadıb ovutsaq, xeyri yoxdu,
Üzümüzü
əlimizlə ha tutsaq, xeyri yoxdu,
Xeyri yoxdu, gözəl olaq, ya kifir, -
Doğulandan ölənəcən
aylar, illər uzunu,
Tale yazıb-pozub qaraladıqca
hamının üz-gözünü,
Sifətimiz varaq-varaq çevrilir.

Dünən baxıb keçdiyimiz güzgülər
bu gün tanımır bizi.
Nə yaxşı ki, bu dünyada biz hələ
tanıya bilirik hər gün, ilahi,
tanıya bilirik bir-birimizi.

Nə yaxşı ki, özümüzü
tanıya bilirik hələ.
Güzgülərdə üzümüzü
tanıya bilirik hələ.

Hələ sovuşmayıb qara saçımız,
alnımız qırışıb qat-qat olmayıb.
Hələ alnımızın qırışlarından
güzgülər çatlayıb çat-çat olmayıb.

Hələ batmamışıq min-min günaha -

Mənim balam, vaxtdı daha,
bu dünyadan gedək, gedək,
bir gözəl üzlə gedək
tanrının qapısına...

Qapının açılmağıynan tüfəngin açılmağı bir oldu.
O qapını açan adamı sən görmədin, mənim balam. O adam axı kim idi?!
Bəlkə qonşu uşaqlardan biriydi, səni oynamağa çağırırdı.
Bəlkə Çimnaz müəlliməydi, yenə sizə gəlmişdi.
Bəlkə də o qapını açan doğmaca atan özüydü.
...Mənim balam, bəlkə elə o qapını açan MƏN idim...

CANAVAR OVU
(poema)

Meşələrdən üzübəri
nə yüyürür bu yalquzaq?
Görən kimi deyib gəlir?
Səndən uzaq!..
Məndən uzaq!..

Göyə üz tutub ulayır,
Ay qorxudan çıxa bilmir.
Ulduzlar diksinir göydə,
Gözlərinə baxa bilmir.

Onu kim saxlar yolundan?
Yerin-göyün yiyəsidi.
Dəstəyi Allah əlində
Bir bıçağın tiyəsidi.

Nə yarı var, nə yoldaşı,
Görən-görən uzaq qaçır.
Dünyanın bəyi-bayquşu
Bir tənha yalquzaq qaçır.

Hara qaçır?
Kimdən qaçır?

Ayaq açan gündən qaçır.
Nə dini var, nə məzhəbi,
Hər məzhəbdən, dindən qaçır.

Sürü-sürü canavarlar
Dolaşır dərəni-dağı.
Onun da qisməti budu;
Azadlığın tənhalığı.

...Darıxma təklik əlindən,
ulama, ulu yalquzaq!
Özü öz azadlığının
əsiri, qulu yalquzaq.

Yoluna göz dikib indi
bəlkə yüz tüfəng lüləsi.
Ölüm sənin sevgilindi,
sən ölümün sevgilisi.

Sən həm ovsan, həm də ovçu,
düşmüsən öz izinə.
Sevə-sevə öldürməkçin
yar gəzirsən özünə.

Bu dünyada hansı sevgi
vəfalıdı ölümdən?
Öldürdüyün səninkidi,
kimsə almaz əlindən.

Öldürdüyün səninkidi,
elə sən də onunsan.

Bu dünyada
ölənəcən neyləsən də, onunsan.

İndən belə arxayın gəz,
at dünyanın qəmini.
Qorxma, heç kəs poza bilməz
ölüm kəsən kəbini.

Bir tüfəngin lüləsində
gizlənən quşdu ölüm.
Bir də gördün, qanadlanıb
üstünə uçdu ölüm.

Gəldi, qondu, yuva qurdu
ürəyinin içində.
Qanın süzüldü, qurudu
dimdiyinin ucunda.

Göydə uçan quşlara bax,
hərəsi öz kefində.
Kefində ol, səni Allah
sağ saxladı bu gün də.

Başında ölüm havası
yaşamaq xoşdu, sevin.
Sinəndəki quş yuvası
hələ ki, boşdu, sevin.

Hələ ki, Allah göydədi,
bir quşun qanadında.
Sən Allahın yadındasan,
Allah sənin yadında.

Allah kimi təksən, sevin,
tənhasan Allah kimi.
Səni alıb-satan olmaz,
bahasan Allah kimi.

Ümidin yox dar ayaqda
bir Allah bəndəsinə.
Üz tutub get
lap uzaqdan gələn bayquş səsinə.

Səs ver o bayquşun səsinə sən də,
sən də səs ver o yazığa, sevinsin
O da yalquzaqdı quşlar içində,
özü kimi yalquzağa sevinsin.

Eləcə, ulayın ağız-ağıza,
Allah səsinizi eşitdi bəlkə.
Sizə göy üzündən mələk donunda
bir dost da, sirdaş da düşürtdü bəlkə.

Bəlkə özü düşdü, ay işığında
sizə dost olmağa, sirdaş olmağa.
O tənha bayquşa "bacımsan" deyib,
tənha yalquzağa qardaş olmağa.

Bir də qayıtmadı bu göy üzünə,
yer üzü Allaha xoş gəldi bəlkə.
Allahsız ovçular düşdü izinə,
ovçu güllәsinə tuş gəldi bəlkə.

...Sus, ulu yalquzaq, ulama bəsdi,
bəsdi, çək gözünü bu göydən daha.

Yaxşı ki, bir bulud aranı kəsdi,
yaxşı ki, çatmadı səsin Allaha...

Amma o yalquzağın səsi göydə Allaha çatmasa da, yerdə bəndələrinə çatmışdı.

Bütün kənd bir-birinə dəymişdi.

Bu səhər o yalquzağın qorxusundan nə qoyun-quzunu otlağa buraxmışdılar, nə uşaqları məktəbə buraxmışdılar. Uşaqlar kefdəydi, amma qoyun-quzu acından mələşirdi.

Əjdər kişigilin həyətindəki ağappaq quzu da susmaq bilmirdi.

Ötən qış oğlu naxoşlayanda, Əjdər kişi bu quzunu üç qızdan sonra tapdığı on üç yaşlı o uşağa qurban demişdi, boynuna da bir qırmızı lent bağlayıb əhd eləmişdi ki, uşaq sağalan kimi bu quzunu kəsib qonum-qonşuya paylasın. Amma sağalandan sonra, uşaq heç kəsi o quzuya yaxın buraxmadı. Özü otarırdı, özü suvarırdı. Evdə qənd qalmırdı, hamısını o quzuya yedizdirirdi.

Bu gün də, o ac quzuya quru-quru neçə qənd yedizdirmişdisə, yazıq heyvan indi acından yox, susuzluğundan mələyirdi. Tərs kimi, evdə içməli su da yox idi. Həyətin o başında, çəpərin qırağıyla axan arxın bulanıq suyunusa bu uşaq ömründə o quzuya içirtməzdi. Odur ki, yavaşca çəpərin qapısını açıb quzunu həyətdən çıxartdı.

Əjdər kişigilin evi kəndin ayağında, çayın qırağındaydı. Amma bu uşaq o çayın suyunu da bu quzuya layiq bilmirdi.

Aşağıda dumduru bir bulaq vardı. Getdilər, o bulağın suyundan əvvəlcə quzu içdi, sonra uşaq özü içdi və başını qaldıranda uşağı titrətmə tutdu.

Canavar onların beşcə addımlığında dayanmışdı, baxırdı.

Ay Allah bəndəsi, nə qorxacaqsan,
Qorxudan titrəmə, gözümə dik bax.
Sən -
on üç yaşında dəcəl uşaqsan,
Mən -
on üç yaşında qoca yalquzaq.

Bir gündə göz açdıq dünyaya bəlkə,
Göz açıb dünyanı nə gündə gördük?
Düşdü üstümüzə
bir sirli kölgə,
Allahı başımız üstündə gördük.

Onun kölgəsində
necə yaşadıq?
Üz tutub Allahdan soruşaq, desin.
Ay Allah bəndəsi, biz ki yaşıdıq,
Niyə mən qocayam, sən uşaq?..
Desin.

Bir tale, bir bəxt var hərədən ötrü,
Bəxtin də oyanan, yatan vaxtı var.
Yoxsa ayrı vaxt var hərədən ötrü;
Canvar vaxtı var,
adam vaxtı var?!

Göydən damla-damla yağan yağışmı?
Buluddan vaxt damır -
yaxşı bax göyə.
Niyə quşun vaxtı quş kimi uçmur,
Qarğalar üç yüz il yaşayır -
niyə?!

Bu çay da haçandı axır beləcə,
Ayları, illəri axıdır, axır.
Bu tayı gündüzdü, o tayı gecə,
Ortada bir uzun yuxudu, yuxu.

Biz də yuxudayıq bəlkə, ay uşaq,
Ayılsaq, görmərik bir-birimizi.
Mən ki, sənə dəyib-toxunmamışam.
Görən hardan gəlir
bu qan iyisi?!

Qorxma, sil burnundan açılan qanı,
Mən alan deyiləm canını, qorxma.
Dünyanın o gözəl, dadlı heyvanı
Gör necə kəsdirib yanını, qorxma.

Bir dön böyründəki o quzuya bax,
Baxışı bir ürkək qız baxışıdı.
Onsuz da, böyüyüb qoyun olacaq,
Elə quzu vaxtı ölsə yaxşıdı.

Ağlama, ay uşaq, tox tut özünü,
Pozma nahaq yerə kefini, kiri.
Dünya yaranandan
qurdla quzunun
Bir yerdə kəsilib kəbini, kiri.

Tanrı hər quzuya bir qurd göndərib,
Hər qurda bir quzu, -
haqq-hesab budu.
Bu cığal dünyada min ildən bəri
Bəlkə də, ən düzgün haqq-hesab budu.

Tanrı mənə yazıb
bu quzunu da,
Bəs səni qorxudan nədi, ay uşaq?
Sənin qorxun basıb
bu quzunu da,
Qorxudan qaçacaq dadı, ay uşaq.

Səni kişilikdən salar bu qorxu,
Ay kişi qırığı, axı yazıqsan.
Hələ qabaqdadı ömrünün çoxu,
Yeri get, dərsini oxu, yazıqsan.

Sən də belə qorxma ölümdən, quzu,
İnan dünyagörmüş bu yalquzağa.
Canın qurtaracaq zülümdən, quzu,
Bıçaq görməyəcək boğazın daha.

Onsuz da, hamıya bir can verilib,
Canı verən kimdi?
Canı alan kim?!
Sənin ölüm hökmün çoxdan verilib;
Boynuna qırmızı lent bağlanan gün.

Bilirəm, o evdə əzizlənirsən,
Hamı sevə-sevə aldadır səni.
Sənə öz ovcundan
qənd yedizdirən
Bu dəcəl uşaqdı cəlladın sənin.

Səni bu uşağa qurban deyiblər,
Mələ!.. vaxtın daha tamamdı, quzu.
Bu gün bu uşağın yolunda əgər

Qanın axacaqsa -
halaldı, quzu.

Amma nə qəşəngsən, ay canıyanmış,
Heç sənə baxmaqdan doymaq da olmur.
Həm ağzım, həm də ki, gözüm sulanmış,
Neyləyim, heç sənə qıymaq da olmur.

Sənə baxa-baxa içim yumşalır,
Elə bil ağzımda dişim yumşalır.
Qorxuram -
büsbütün yumşalam belə;
Heç yeyə bilməyəm indi mən səni.
Qorxuram -
buraxam əlimdən səni,
Bu gecə sübhəcən ac qalam belə.

...Nə oldu, ay uşaq, güldü sifətin?
Sən də sevindinmi, ay gözəl quzu?
Yox!.. Çətin ac qallam mən bu gün -
çətin,
Yeri get, ay uşaq!
Bəri gəl, quzu!..

Amma o quzunun addım atmağa heyi nə gəzirdi?

O yazığı bu uşaqdan da betər titrətmə tutmuşdu, bir topa ağ bulud kimi durduğu yerdəcə yırğalanırdı. Birdən o ağ buludun üstündə elə bil ildırım çaxdı, canavar atılıb o quzunu boğazlayanda uşaq yerindən qopdu, ağlaya-ağlaya evlərinə sarı götürüldü:

- Vay dədə!.. Vay dədəəə!..

Bayaq bu uşaq o quzunu həyətdən çıxaranda evdə heç kim xəbər tutmamışdı. Amma indi onun hönkürtüsünə evdəkilərin hamısı bayıra tökülüşdü. Və uşaq barmağıyla gözünün yaşını silib, elə həmin barmağını da aşağıya, bulağa sarı tuşladı:

- Canavar quzunu...

Amma sözünü bitirə bilmədi, yenə ağlamağa başladı.

Əjdər kişi tez girdi evə, divardan asdığı qoşalülə tüfəngini götürdü, cumdu bulağa sarı.

Bulağın yan-yörəsindəki daşların üstündə qan ləkəsi vardı. Quzunun boynundakı lent də qopub yerə düşmüşdü. O qırmızı lent Əjdər kişinin balaca qızının idi. O lenti görəndə Əjdər kişi yaman pərt oldu; elə bil canavar quzunu yox, onun doğma qızını qaçırtmışdı.

Əjdər kişi üzünü uzaqda görünən meşəyə sarı tutub var səsiylə qışqırdı:

- Oğğraaşş!..

Amma ürəyi bununla soyumadı, çaxmağı çəkib qoşalüləsinin iki güllәsini də göyə boşaltdı.

O yalquzaq qaça-qaça meşəyə çataçatdaydı. Güllə səsini eşidib dayandı. Dişlərini aralayıb quzunun boğazını buraxdı; quzu şappıltıyla yerə düşdü. O yalquzaq bir ayağını ölü quzunun üstünə qoyub başını arxaya çevirdi və uzun-uzadı uladı:

- Uuuuu!..

Əjdər kişi uzaqdan-uzağa o yalquzağın səsini eşitdi.

O səsdə bir qəribə hədə vardı; Əjdər kişinin özünə də, tüfənginə, güllәsinə də...

Və Əjdər kişi başa düşdü ki, o yalquzaq bu tərəflərə bir də gələcək. Mütləq gələcək!

Evə qayıdan kimi tüfəngi doldurub divardan asdı və arxayınca yerinə girib yatdı...

Arxayın yat -
tüfəng durub keşikdə,
Tüfəngə arxayın olub
yatır bu ev-eşik də.

Tüfəng yaman vəfalıdı -
itdən, atdan vəfalı.
Çox evladdan vəfalıdı,
çox arvaddan vəfalı.

Allahdan qorxmayan kafir
bu tüfəngdən qorxmazmı?
Koroğlunu yıxan tüfəng
canavarı yıxmazmı?

Yıxar!.. Yıxar!..
bu isti yay gecəsində
rahat yat,
bu tüfəngin kölgəsində
rahat yat.

Ulduzlarla dolub indi
yerin-göyün arası,
Yatır o tox yalquzaq da
gecənin bu anında,
Çıxır, çıxır canındakı
yorğunluğu, ağrısı,
Amma bütün hirsi, kini
canındadı, canında.

Hanı sənin
Hirsin, kinin?
bu tüfəngin içində.

Bu tüfəngin içindədi
sənin bütün gücün də.

Səcdə qıl bu tüfəngə sən,
Uca tut onu din kimi.
Bu tüfəngin içindəsən
Çıraq içində cin kimi.

Bu tüfəngin içindəsən;
Uyuyursan xısın-xısın.
Lüləsi -
gözündən iti,
Gülləsi -
qolundan uzun.

Səni sevən -
sevsin onu,
Səndən də artıq istəsin.
Balaların "can" deyib
Bu tüfəngi əzizləsin.

Nə olsun ki, canı yoxdu,
Quru dəmirdi, taxtadı.
Onu ana doğmasa da,
Körpə kimi qundaqdadı.

Bəlkə böyüyəcək hələ,
yüz oyundan çıxacaq.
Qundağı -
kök atıb batacaq yerə,
Lüləsi -
boy atıb damdan çıxacaq.

Ötüb bütün ağacları,
Qalxacaq göyə sarı.

Uşaq kimi dırmaşıb bu yaşında,
o tüfəngin başından
baxacaqsan
Yaxını-uzağı
gözdən keçirib
Sən o yalquzağı axtaracaqsan.
Və birdən
lap aşağıda,
bu tüfəngin dibində
ulayacaq o yalquzaq,
Diksinib az qala yıxılacaqsan.

Gör necə ulayır
bu qürd oğlu qurd,
Deyəsən yenə də acıb ulayır.
Bir dərin dərə kimi
ağzını açıb ulayır.

O dərənin dibində
bəs o cür ağaran nədi?
Səni mələyə-mələyə
köməyə çağıran nədi?

Fikir vermə -
mələdikcə qoy mələsin o quzu.
Səni aldadır eləcə
həzin-həzin o quzu.

İlan dili çıxarsa da,
inanma, yalandı daha.
Bu qurd da, o quzu da,
ikisi bir candı daha.

Yıxılsan, elə bilmə ki,
qurd özü udacaq səni.
Yox, bu qurdun qarnındakı
o quzu udacaq səni...

Gecə yarısı Əjdər kişi diksinib oyandı.

Yuxuda nə görmüşdüsə qarnına sancı dolmuşdu. Ayaq-yolu həyətin o başında, arxın qırağındaydı. Gündə azı üç dəfə getdiyi o yolu qaranlıqda yuxulu-yuxulu addımladı. Aftafa boş idi. Götürdü. Elə əyilib arxın suyundan doldurmaq istəyirdi ki, yerində quruyub qaldı.

Arxın o tərəfindəki yastı çəpərin arxasından ona qaranlıqda işım-işım işıldayan bir cüt göz zillənmişdi.

Əjdər kişi aftafadakı suyun axıb şalvarının balağından damcıladığını hiss elədi. Amma aftafanı deyəsən axı hələ doldurmamışdı.

Tfu!..

Yaxşı ki, bu biyabırçılığı qaranlıqda görən yox idi. Necə yəni yox idi? Bəs ona zillənən o bir cüt göz nə idi?!

Əjdər kişi əlindəki aftafanın lüləyini o bir cüt gözün düz ortasına tuşlayıb:

- Rədd ol!.. - dedi.

Və qəflətən qulağına o qaranlıqdan bir qəribə gülüş səsi gəldi. Əgər canavar deyilən məxluq gülməyi bacarırdısa, heç şübhəsiz ki, bu canavar gülüşüydü.

Sonra o bir cüt göz qaranlıqda necə peyda olmuşdusa, eləcə də yoxa çıxdı. Ancaq o gülüş səsi hələ bir xeylək Əjdər kişinin qulağından çəkilmədi.

Ayaqyoluna dəydi, çıxdı, getdi evə sarı, amma qapını açıb içəri girmədi. Elə qapının böyründə, divarın dibindəcə çömbəlib oturdu, kürəyini divara söykəyib fikrə getdi; doğrudanmı, indicə qaranlıqda işıldayıb onu qorxudan bir cüt canavar gözüydü? Yoxsa onu qara basırdı? Doğrusunu bir Allah bilir, amma şalvarının balağı hələ də nəm idi, qurumamışdı...

Eləcə fikirləşə-fikirləşə Əjdər kişini yuxu apardı. Və səhər hava işıqlananda onu yuxudan bayırda qopan səs-küy oyatdı.

İtlər hürüşürdü, adamlar çığrışırdı:

- Kəndə canavar girib, canavar!.. Qoymayın, qaçdı!.. Yolunu kəsin, vurun, öldürün!..

Sonra bir-iki güllə səsi də eşidildi.

Və Əjdər kişi güllə kimi yerindən atıldı, evə cumub tüfəngini götürdü, qaça-qaça küçəyə çıxıb o canavarı qovan adamlara qoşuldu.

O adamlardan da qabaqda hürə-hürə itlər yüyürürdü.

Amma Əjdər kişi ha boylandısa, o canavarın özünü görə bilmədi.

...Əslində, o canavar özü də bu dəqiqə heç onu qovanları görmürdü. Kəndin içiynən arxasına baxmadan qaçırdı və arxadan onu qovan adamların söyüşünü, onu qovan itlərin hürüşünü eşidirdi...

Qovur, qovur səni bu it sürüsü,
Bu qorxaq itlərin
igid sürüsü.
Ağızları
köpüklənə-köpüklənə,
Bir-birinə güvənib
ürəklənə-ürəklənə
qovur səni bu itlər.

Qaçırsan, dişini sıxıb dişinə,
hara dönsən -
yolu kəsir it səsi.
Qarışır it hürüşünə
güllə səsi, fit səsi.

Dəyib bir-birinə evlər, həyətlər,
bu nə qovhaqovdu, nə vurhavurdu?
Gör necə qudurub it oğlu itlər,
qovur küçə-küçə qurd oğlu qurdu.

Ölüncə qab dibi yalayanların
sən bir hirsinə bax, hikkəsinə bax.
Qapılarda quyruq bulayanların
qabağından qaçmaq
zülümdü, Allah!

Bəs niyə qaçırsan?!
Ayaq saxla sən.
Yeri bu həyasız sürünün üstə.
Yüz itdən birini
qorxuda bilsən,
Yüz qorxu gələcək
birinin üstə.

Qorxudan qorxu doğacaq,
qorxu küçükləyəcək.
Zəhmin basan bu itlərin
çoxu küçükləyəcək.

Bu kəndin hər döngəsinə,
dalanına dolacaq,

Səni qovan adamların
canına dolacaq
o qara qorxu;
Gözlərinin giləsi
böyüyəcək qorxudan,
Tüfənglərin lüləsi
əyiləcək qorxudan -
güllələr yan keçəcək.
Hamı, hamı o qorxudan keçəcək.

...Bu kəndi bürüyən nədi?
sənin qorxundu, qorxun!
Arxanca yüyürən nədi?
sənin qorxundu, qorxun.

Səni qovan öz qorxundu,
arxanca düşüb gəlir.
Yüz-yüz gözdə, ürəkdə
böyüyüb, şişib gəlir.

O qorxunun qabağında
sən necə balacasan.
O qorxudan can qurtarıb
axı hara qaçasan?!

Axı harda gizlənəsən,
hansı kolun dalında?
Yarpaqları tir-tir əsir
səni görən kolun da.

Sən qaçdıqca -
ayağının altdan qaçır

daşlar qorxu içində.
Səni görüb -
hürküb uçur
quşlar qorxu içində.

O qorxudan qaçıb bəlkə
bu gecənin rəngi də.
Bax, hava da işıqlanıb,
çalır məktəb zəngi də.

Günəş qalxıb gör haracan,
hər yan işıq içində.
Dörd bir tərəf ölüm saçan
bir yaraşıq içində.

Ölüm saçır -
çiçəklərin
ətri də, qoxusu da.
Ölüm saçır -
şırıltıyla
çaydan axan o su da.

Gör bu kənddə səndən ötrü
neçə tüfəng saxlanıb.
Güllələri sığallanıb,
çaxmaqlar yağlanıb.

Xatalıdı bütün yollar;
bağ yolu, bostan yolu.
Açıq qalan bircə yol var;
o da, qəbristan yolu.

Ora üz tut, ora yüyür,
Üz tut qəbrə-gora, yüyür!..
...Ölümdən gizlənməyə,
Ölümü gözləməyə
ordan yaxşı yer hanı?!..

O yalquzaq yüyürə-yüyürə qəflətən səmtini dəyişib qəbristanlığa sarı üz tutanda onu qovanlar çaşdılar. Bütün yolları kəsmişdilər, amma bu kənddə hamının gec-tez gedəcəyi bu qəbristanlıq yolu yadlarından çıxmışdı.

Qəbristanlığı dörd tərəfdən hasara almışdılar. Ancaq darvazası açıq idi. O yalquzaq bir göz qırpımında özünü darvazadan içəri atıb hasarın dalında gözdən itdi.

Amma onu qovanlar darvazadan içəri keçmədilər. İtləri də qəbristanlığa buraxmadılar. Çünki o itlər bu adamlara lap canlarını qurban eləsəydilər də, yenə mundar idilər. Amma o yalquzaq bu adamların lap canını alsaydı da, yenə mundar deyildi.

İtlər səs-səsə verib hürüşürdülər. Əli tüfəngli kişilər dırmaşıb hasarın üstən içəri boylanırdılar; ancaq irili-xırdalı baş daşlarının arasında o yalquzaq gözə dəymirdi.

O baş daşlarına neçə-neçə doğma, əziz adamın şəkli vurulmuşdu. Amma bu kişilər indi o şəkillərə heç gözlərinin ucuynan da baxmırdılar. Bəlkə də, o şəkilləri görüb kövrəlməkdən, yumşalmaqdan, sayıqlığı itirib o yalquzağı əldən çıxarmaqdan qorxurdular.

...O yalquzaq bu qəristanlıqdakı ən hündür baş daşının arxasında gizlənmişdi və gözlərini iri-iri açıb heyrətnən dörd tərəfə baxırdı...

Burda dörd tərəfim baş daşlarıdı,
çaşdım o daşları görəndə, Allah.

Bu ətdən, sümükdən yaratdıqların
yoxsa daşa dönür öləndə, Allah?

Diş kimi torpağa batıb bu daşlar,
yoxsa diş çıxarıb bu torpaq belə?
Yoxsa bircə-bircə dadıb bu daşlar
axırda hamını udacaq belə?

Mənə bu daşlardan neçə göz baxır,
gör necə kinlidi baxışları da.
Elə bil indicə yerindən qopub
üstümə cumacaq baş daşları da.

Hələ göz-göz olub hasarın üstən
içəri boylanan tüfənglərə bax.
Hələ hürə-hürə hasar dalında
özünü dağıdan köpəklərə bax.

O qara tüfənglər, qara köpəklər
gör necə susayıb qanıma, Allah.
Könlünə qurd əti düşüb itlərin,
itlər tamah salıb canıma, Allah.

Yox, mənim canıma it dişi batmaz,
o mundar itlərə yem olmaram mən.
Əcəlim bir itin ağzındadırsa,
onda bu dünyada MƏN olmaram mən.

Yox, mənim qismətim güllədi, güllə, -
indi bir quş kimi yatır yuvada.
İlahi, o quşu üstümə göndər
atılıb tutaram onu havada.

Dimdiyi bağrımın başını yarsın,
Deşsin ürəyimi,
canımı alsın.
Qoy cumsun qanıma yerikləyənlər,
Qoy soysun dərimi, soysun-çıxarsın.

Qoy saman təpsinlər dərimə -
saman.
Canımdakı hər ağrının, acının,
Hirsin, kinin, acığın yerinə -
saman.
Parçalayıb yediyim hər qoyunun,
İçdiyim bulaq suyunun yerinə -
saman.

Sonra ya bir evdə, ya bir sinifdə
bir qurd heykəlitək qoysunlar məni.
Uşaqlar oynasın dörd bir tərəfdə,
hərdən çırtma vurub döysünlər məni.

Hərdən sığal çəksin belimə qızlar,
qızınım bir ilıq qız nəfəsinə.
Çıxmış gözlərimin yerinə qızlar
bir cüt muncuq taxsın göz əvəzinə.

Baxsın dörd tərəfə
muncuq gözlərim,
Gecə də, gündüz də açıq gözlərim.
Baxsın -
gözlərimdən heç nə qaçmasın,
Ən gizli sirləri bilim beləcə.

Ən fağır oğlanın, utancaq qızın
Xəlvət öpüşünü görüm beləcə.

Beləcə, dərs alım -
bir sevgi dərsi,
Unudum pisliyi, yamanlığı da.
Xış-xış xışıldasın, tel-tel cücərsin
İçimin qupquru samanlığı da.

Cücərsin -
yamyaşıl çəmənə dönsün,
İçim başdan-başa çəmənə dönsün.

Otları upuzun, yupyumşaq çəmən -
orda qurdla quzu gəzsin yanaşı.
Bütün sevənlərə o çəməndə mən
yer verim -
hamısı gəzsin yanaşı.

Gəzin! Verdim sizə, verdim cənnəti!..
Yox, cənnət deyilsə -
bu çəmən nədi?..
...Qıraqda deyil ki qurdun cənnəti,
Qurdun cənnəti də
öz içindədi...

Mənim içimdədi cənnətim, Allah,
tez ol, yetir məni o cənnətə sən.
Özün al canımı, bu sabah-sabah,
özün ötür məni o cənnətə sən...

O yalquzaq gizləndiyi daş daşının arxasından sıçrayıb çıxanda Əjdər kişinin güllәsi onu havada haxladı. Özü də, düz alnının ortasından dəyib bir göz qırpımında canını aldı. Sonra dörd tərəfdən atılan güllələr onun cansız bədənini deşik-deşik eləyib yerə mismarladı.

O yalquzaq qəbristanlığın ortasında üzüqoylu düşüb qalmışdı.

Amma heç kəs ona yaxınlaşmağa ürək eləmirdi.

Əjdər kişi hamıdan ürəkli çıxdı, gəldi, üstən aşağı o yolquzağın deşik-deşik olmuş bədəninə baxıb başını buladı:

- Heyif!.. - dedi, - Dərisi zay oldu...

Sonra ayağıyla vurub o yalquzağı arxası üstə çevirdi.

O yalquzağın şüşə kimi donuq gözləri açıq idi. O ölü gözlər altdan yuxarı düz Əjdər kişinin üzünə baxırdı və o gözlərdə bir qəribə, kinayəli təbəssüm vardı.

Əjdər kişi tez əyilib bir cüt barmağıyla o yalquzağın gözlərini qapadı. Sonra üzünü hələ də darvazanın ağzında durub içəri girməyə ürək eləməyən əli tüfəngli kişilərə tutdu:


- Aparıb bunu basdırarsız. - dedi, - Özü də kənddən uzaqda basdırarsız... Çalasını da laap dərin qazın!..

Və ağır-ağır yeriyib qəbristanlıqdan çıxdı, hələ də darvazanın ağzında hürüşən itlərin böyründən keçib evinə sarı getdi...

İKİNCİ KİTAB

KƏPƏNƏK QANADLARI

(nəğmələr)



ÜMİDİM YOX BİR ADAMA

Ümidim yox bir adama,
Tanrı çatacaq dadıma,
Yenə salacaq yadına,
Yenə dindirəcək məni.

Mən əlinə düşən kimi,
Sevinəcək uşaq kimi,
Bir sınıq oyuncaq kimi
Bir də qondaracaq məni.

Saçlarıma dən salacaq,
Ürəyimə qəm salacaq,
Yenə əlindən salacaq,
Yenə sındıracaq məni...

***

Mən ki qəfəsləri açıb
Uçurtdum dustaq quşları.
Bəs onda göydən başıma
Kim yağdırdı bu daşları?!

Küsən dostu mən dindirdim,
Ağlayanı sevindirdim,
Mələklərə evləndirdim
Üzü dönük qardaşları.

...Yoxuydusa bir qonağı,
Bu nə evdi tikdim axı?
Kimdən ötrü əkdim axı
Bu kölgəsiz ağacları?!

YIXILIR

Çaşıb solunu-sağını,
Hamı bir ucdan yıxılır.
Yadırğayıb uçmağını,
Quşlar ağacdan yıxılır.

Üz tutub haqqın yoluna
Gedənlərin vay halına,
Baş əymir dünya malına,
Qəpik-quruşdan yıxılır.

Öz dərdini çəkir hərə,
Öz dibinə çökür hərə,
Öz alnını iki yerə
Bölən qırışdan yıxılır.

Qocalar ağıldan, huşdan,
Cavanlar bir şux baxışdan,
Xanımlar bir yalvarışdan,
Bir aldanışdan yıxılır.

...Belədi, atam, belədi,
Buyruq Allahdan belədi,
Bu dünya çoxdan belədi,
Lap yaranışdan yıxılır...

***

Gecə birin yarısıdı,
nə dünəndi, nə sabah.
İki günün arasında
canım sıxılır, Allah.

Ulduzlardan yuxarısan,
Qorxuram yıxılasan.
Sən də bir az yuxulusan,
mən də yuxulu, Allah.

Düşüb ev-ev, küçə-küçə
Dünyanı gəzir əcəl.
Bütün ölənlər bu gecə
səndən çıxılır, Allah.

Doğulan sənə vurulur,
Sən verən dinə vurulur,
Bir olan minə vurulur,
bəndən çoxalır, Allah.

...Nə qədər ki, göy üzü var,
Göydə hamının gözü var.
Sən də bax, bəlkə nəsə var
səndən yuxarı, Allah?!

***

Nə var Allahdan yuxarı?
Nə var qəbirdən aşağı?
Çəkdiyim ahdan yuxarı?
Bildiyim sirdən aşağı?

Niyə günün gündüzündə
Quşlar azır göy üzündə?
Göz yaşları quş gözündən
Tökülür dən-dən aşağı.

Demə. biz ki quş deyilik,
Allaha tanış deyilik...
Ruhum, dur, yığış, gedirik,
Sən yuxarı, mən aşağı...

TANIYIR

H.Mehdiyevə

Qaranlıqda bir-birini
Quşlar səsindən tanıyır.
Qu quşunu zalım əcəl
Son nəğməsindən tanıyır.

Mən ayrı quşam, ayrı quş,
Yarı bülbül, yarı bayquş,
Bu dünyanı mən boyda quş
Öz qəfəsindən tanıyır.

...Ha yusa da üz-gözünü,
Çaşır görəndə özünü,
Adam öləndə özünü
Son nəfəsindən tanıyır...

SON NƏFƏS

Əmimin xatirəsinə

Bu kimin son nəfəsiydi,
dəydi, toxundu üzümə?
Kim məni qonaq elədi
görəsən son nəfəsinə?!

Aldım o son nəfəsi mən,
Oldum onun yiyəsi mən,
O son nəfəs ciyərimdən
keçdi isinə-isinə.

Çox şeyləri verdim bada,
Bir də çətin əlim çata,
Amma çatdım bu dünyada
son nəfəsin son sözünə.

O son söz bəs nə deyirdi?
O son nəfəs nə deyirdi?
- Sevin özünə, - deyirdi, -
özünə sevin, özünə!..

***

Yoldan ötən xanımlara
Baxım, gözümü aldadım.
Qoy özgələr aldadınca,
Özüm-özümü aldadım.

Ömrün-günün bu çağında
Nə umuram sabahımdan?!
Oturum yol qırağında,
Yorğun dizimi aldadım.

Başım dik, belim bükülü,
Yanmışam, külüm tökülür,
Bir az üfürüm bu külü,
Sönən közümü aldadım.

Ömrümün son gecəsində,
Üstümü əcəl kəsəndə,
Ölməyim son nəfəsimdə,
Son nəfəsimi aldadım...

GEDƏCƏK

Çətini biz ölüncədi,
Gedəcək, hamı gedəcək,
Biz dünyadan gedən tə-ki
Dünyanın qanı gedəcək.

Solacaq bağçası-bağı,
Quruyacaq son budağı,
Dənizin suyu, balığı,
Sahilin qumu gedəcək.

Birtəhər, pismi, yaxşımı,
Yola salıb son axşamı,
Söndürüb sonuncu şamı
Ən son adamı gedəcək...

ŞAM

Füzulinin xatirəsinə

Yüz illərdi bir şam yanır,
Küləklər söndürə bilmir.
Yüzlərlə əllər uzanır,
İşığını dərə bilmir.

Qaranlıqsa solu-sağı,
Yanan şamın nə günahı?!
Əriyir, tökülür yağı,
Ölür, ölür, ölə bilmir.

Gilə-gilə, damla-damla
Günbəgün üzülən canla,
Ağlayır hər ağlayanla,
Hər gülənlə gülə bilmir.

Qızındırır yazıqları,
Qorxuzur yalquzaqları,
İşıqladır uzaqları,
Öz dibini görə bilmir...

BAXMAZ

Qəm ki, doldu bir ürəyə,
Üstünə-altına baxmaz.
Baxmaz yediyin çörəyə,
Atdığın addıma baxmaz.

Gözlərin yaşarar qəmdən,
Ürəyin qaşınar qəmdən,
Bu sifətdə, bu görkəmdə
Güzgü də adama baxmaz.

Baxtın düşər səndən uzaq,
Yüz yol çağır:
- A baxt!.. A baxt!..
Qumdan evcik hörən uşaq
Sularda batana baxmaz.

DƏRD

Göz yaşları süzüldükcə
Adamın quru üzünə,
İçimizdə batan dərdlər
Bir-bir çıxar su üzünə.

Qazancımız birdi bizim;
Bu dünyanın dərdi - bizim,
Çevrilərik dərdimizin
O üzündən bu üzünə.

Milyon-milyon qəbir varsa...
Bir qəbirsiz şair varsa...
Üzündə bir sağ yer varsa,
Dünyanın tfu üzünə!..

SÖZ

Sevənlər tutdu dünyanı,
Sevdi, unutdu dünyanı,
Mən də sevdim, bu dünyanın
Ən gözəl sözünü aldım.

Aldım sözün ağrısını,
Yavanını, yağlısını,
Neçə sözün əyrisini
Düzəldib, düzünü aldım.

Məni də yola saldı söz,
Mən getdim, sizə qaldı söz,
Yenə təptəzə qaldı söz,
Mən sözün tozunu aldım.

ÇIXIR

V.Bayatlıya

Ələ qələm alan kimi,
Sətirlər qaralan kimi,
Köynəyə çıxan qan kimi
Kədərim varağa çıxır.

Canımda sözlər sıxılır,
Artır, üst-üstə yığılır,
Yüz nəğmə batır, boğulur,
Bir nəğmə qırağa çıxır.

Küsən çox şair sözündən,
Öpən yox şair gözündən,
Şeirin astarı üzündən
Baha çıxır, baha çıxır...

***

Bu şeri də cırıb atdım,
Uçdu kağız parçaları.
Göydə quşlar dimdiklədi
Misraları, hecaları.

Hər sözüm -
bir quşun dəni,
Dimdikləndi dərdim-qəmim,
Dimdikləndi bu qəlbimin
Ağrıları, acıları.

Bəxtim açıldı bu sabah,
Göydə uçan şerimə bax!..
Axır ki, ucaldım, Allah,
Mən də gördüm ucaları...

***

Bir quş kimi uçdum özüm,
Bir budaqtək qondum sənə.
Mən sənə inandım, sözüm,
Mən sənə aldandım, sənə.

Bu dünyadan üz çevirdim,
Tək səni sevdim-sevildim,
Tək sənin dadını bildim,
Tək sənə dadandım, sənə.

Sən məni tutdun qarğıştək,
Ayrılmadıq gözlə qaştək,
Divara hörülən daştək
Hörüldüm, suvandım sənə...

DAŞ ÇATMADI BU DİVARA

Hərə bir daş qoydu bura,
Mən də öz daşımı qoydum.
Daş çatmadı bu divara,
Axırda başımı qoydum.

Burda məni tapmaz artıq
Nə bədbaxtlıq, nə xoşbaxtlıq,
Öz başıma qonan Şahlıq,
Şairlik quşunu qoydum.

Bu divar qalxdı, ucaldı,
Yoxsa yenə borclu qaldım?!
Əlimi cibimə saldım,
Qəpik-quruşumu qoydum...

DİVAR

Varaq deyil, divardı bu,
Başımı vurduğum divar.
Cırmaqlaya-cırmaqlaya
Yorulub durduğum divar.

Bir tək-tənha ağac kimi
Dibində bitdiyim divar.
Ağlayanda balınc kimi
Üzümü sürtdüyüm divar.

Varaq deyil, divardı bu,
Gendən ağarar hər gecə.
O üzündən kimsə məni
Səslər, çağırar hər gecə.

Mən ölsəm, deməyin təkəm,
ağlayın bizə, ağlayın.
Məni deyib haray çəkən
o yetim səsə ağlayın.
Bu divarın bu üzündə
ölən Ramizi basdırın,
Bu divarın o üzündə
qalan Ramizə ağlayın...

***

Mənimki Allaha qaldı,
Alınmadım, baha qaldım,
Özüm baxa-baxa qaldım
Hamını ötürdüyümə.

Ürəyim ətdi, daş deyil,
Kirpiyimdəki yaş deyil,
Sevinin, əlim boş deyil,
Gülməyin gətirdiyimə.

Gözüm yuxu yata bilməz,
Ana bilməz, ata bilməz,
Qızıl olsa, çata bilməz
Tapdığım itirdiyimə...

BİR ADAYAM, QƏRİB ADA

Məhəmməd Hadinin xatirəsinə

Bilmirəm yuxuydu, nəydi,
Bu dünya qırmızı geydi,
Saçlarıma bir əl dəydi
Anamın əlindən əziz.

Bir dostum, arxam olmadı,
Mənsiz darıxan olmadı,
Ha yandım, baxan olmadı,
İndi yox külümdən əziz.

Bir adayam, qərib ada,
Doğmalarım döndü yada,
Daha mənə bu dünyada
Nə qaldı ölümdən əziz?!.

DÜNYA GÖZƏ DİRƏNƏNDƏ

Dözmək olmur, bıçaq kimi
Dünya gözə dirənəndə.
Yazmaq olmur, söz qələmə,
Qələm sözə dirənəndə.

Bu yol yolların ağırı -
Çəkəmməzsən ayağını,
Üzüb dizdən aşağını
Yoxuş dizə dirənəndə.

Bu yolu hamı tək keçdi,
Kim keçdisə demək keçdi,
Üzməyi öyrənmək gecdi
Yol dənizə dirənəndə...

QAYIQ

Bu qayığın içi bizim,
Çölü dənizin, dənizin,
Dalğalarda dizin-dizin
Gedər bu qayıq, bu qayıq.

Dəniz dolu bardaq kimi -
Uzandıqca barmaq kimi,
Dalğaları pambıq kimi
Didər bu qayıq, bu qayıq.

Ömrümüzü dalda qoydu,
Qayığı dalğalar oydu,
Bu dənizdən nə biz doyduq,
Nə də bu qayıq, bu qayıq.

YOL

Ya bir geniş yolu tut get,
Ya düş ensiz cığırına.
Bütün yollar gedib çıxır
Ömrümüzün axırına.

Bu yollarda duran olmaz,
Durub nəfəs dərən olmaz,
Çağırsaq, hay verən olmaz,
Hay vermərik çağırana.

Yükünü alıb belinə,
Hərə düşər öz yoluna, -
Şükür yükün yüngülünə,
Şükür yükün ağırına!

Yolda haxlarıq ölümü...
Yarıb torpağı nar kimi,
Dünya bir qara pul kimi
Atar bizi daxılına.

DAŞ

Əli Kərimin xatirəsinə

Bu sulara kim daş atdı?
Bu suları kim oyatdı?
Sular oyandı, daş yatdı,
ağlama, daşım, ağlama.

Ağaclarım yaşıl-yaşıl,
Yarpaqları aşıb-daşır,
Yarpaqların arasında
Daşla vurdular bir quşu,
ağlama, ağacım, ağlama.

Daş altından bir quş uçdu,
Gözündəki bu nə yaşdı?!
Qəbrimin üstündəki daş
Bir quşa atdığım daşdı,
ağlama, bacım, ağlama!..

DƏRDİMİ DANIŞDIM SUYA

Nazim Hikmətin xatirəsinə

Dərdimi danışdım suya,
Ürəyim qarışdı suya,
Ürəyimdən düşdü suya,
Bir gəmi üzdü, bir gəmi.

Dərdimə həmdəm olmadı,
Yelkənləri nəm olmadı,
Balıqlara yem olmadı,
Bir gəmi üzdü, bir gəmi.

Sahildə bir liman qaldı,
Göylərində duman qaldı,
Ürəyim qaldı, mən qaldım,
Bir gəmi üzdü, bir gəmi.

GƏMİ

- Hara gedirsən, ay gəmi?
- Uzaqlara, uzaqlara.
- Məktub yazsam, verərsənmi
Balıqlara, balıqlara?
- Yosunları dərərsənmi,
Yosun köynək hörərsənmi
Uşaqlara, uşaqlara?..

- Hara gedirsən, ay gəmi?
- Yaxınlara, yaxınlara.
- Məktub yazsam, verərsənmi
Qohumlara, qohumlara?
- Yosunları dərərsənmi,
Yosun köynək hörərsənmi
Xanımlara, xanımlara?

UZAQLARDAN GƏLƏN QATAR

Uzaqlardan gələn qatar
Keçdi, bizləri görmədi.
Əllərində gül dəstəsi
Duran qızları görmədi.

- Uzaqlardan gələn qatar,
  söylə, uzaqlar necədi?
Orda çiçəklər necədi,
  orda yarpaqlar necədi?

- Yarpaqları yaşıl-yaşıl,
  çiçəkləri dizdən olur.
Onların da səhər-axşam
  söz-söhbəti sizdən olur.
Bu dağın dalı dağları,
  dənizləri dəniziniz.
Onların da "uzaqlar"ı
  elə sizsiniz, sizsiniz...

ÇIRPIN MƏNDƏN

Birdəfəlik köçüb gəldim,
Yeri, göyü ölçüb gəldim,
Qaranlıqdan keçib gəldim,
Ulduzları çırpın məndən.

İpək köynək istəyirəm,
Qızıl eynək istəyirəm,
Bir qız sevmək istəyirəm,
Bu qızları çırpın məndən.

Oyaq qalmaq istəmirəm,
Tez qocalmaq istəmirəm,
Şair olmaq istəmirəm,
Bu sözləri çırpın məndən.

DÜNYA MƏNƏ TANIŞ GƏLİR

Gedirəm, izim böyüyür,
Susuram, sözüm böyüyür,
Baxıram, gözüm böyüyür,
Dünya mənə tanış gəlir.

Bunun dağı-daşı tanış,
Bunun yayı-qışı tanış,
Gözlərimin yaşı tanış,
Dünya mənə tanış gəlir.

Bir dəfə də gəlmişəmmi?
Gəlmişəmmi, görmüşəmmi?
Yaşamışam, ölmüşəmmi -
Dünya mənə tanış gəlir.

ULDUZLU GÖYLƏRİN ALTINDAN KEÇDİM

O gecə gen dünya mənə darıydı,
Ürəyim sinəmi sancan arıydı,
Yaxşı ki, ulduzlu göylər varıydı,
Ulduzlu göylərin altından keçdim.

Tapıldı hər dərdin birdən əlacı,
Bildim ki, dünyanın yox mənə borcu,
Mən nə birinciyəm, nə də sonuncu,
Ulduzlu göylərin altından keçdim.

Daddım bu dünyanın hər bəhərindən,
Daddım sevincindən, qəm-kədərindən,
Daddım qızlarından, meyvələrindən,
Ulduzlu göylərin altından keçdim.

TƏK ADAM

Gəzər küçələri, gəzər tinləri,
Səhərdən axşama təkdi bu adam.
Fil çəkə bilməzdi o çəkənləri,
İlahi, gör nələr çəkdi bu adam!..

Ürəyi sızladı dost yarasından,
Xəbəri olmadı öz yarasından,
Uçulan evinin xarabasında
Özgəyə təzə ev tikdi bu adam.

Bu gün o adamı gördüm güzgüdə;
Yox-yox, mən deyiləm,
yox-yox, özgədi!..
İlahi, gör məni necə gizlədib,
Elə güzgüdə də təkdi bu adam...

ÖZ İÇİNDƏ

Dırnağından telinəcən
Bu adam sənsən beləcə,
İndi bacar, ölənəcən
Bu adamın döz içində.

Üz-gözünə yel də döyər,
Gün də vurar, qar da döyər,
Ürək ki, yumurta deyil,
Niyə bişər öz içində?!

Uçar divar-divar için,
Yer-yerdən yarılar için,
Döyülər, qaralar için,
Heç nə görünməz içində.

Dünyanın dadını gördün,
Gəzdin, hər addımı gördün,
Hər yandan qayıtdın-gəldin,
İndi buyur, gəz içində!..

***

Bu sevgim, məzhəbim, dinim,
Bu hirsim, qəzəbim, kinim.
Cibimdəki bıçaq kimi
İçimə qatlandım, atam.

Üstümdən illər ötüşdü,
Gün döydü, yellər ötüşdü,
İçimdə bişdim, yetişdim,
İçimdə dadlandım, atam.

Hər gecə hörümçək kimi
Hördükcə hördüm qəbrimi,
Öldüm, dirildim, qəbrimin
Üstündən atdandım, atam.

Bu dünya yem bilir məni;
Yer üzü gəmirir məni,
Göy üzü sümürür məni,
Qoyma, qanadlandım, atam.

Mən nə çəkdim?.. Ağlım bilər,
Dərdim bilər, ağrım bilər,
Sən bilmədin, oğlum bilər;
Mələkdim, şeytandım, atam?!..

GETMƏDİM

Ha ki, yüyür, ha ki, tələs,
Addım-addım, nəfəs-nəfəs
Bu dünya ölçüyə gəlməz,
Dünyanı ölçüb getmədim.

Heç kəs öymədi adımı,
Çoxu çapanda atını,
Mən gizlətdim qanadımı,
Quş kimi uçub getmədim.

Doğradım-çapdım özümü,
Yoğurdum-yapdım özümü,
Nə yaxşı, tapdım özümü,
Böyrümdən keçib getmədim.

DEMƏ, ŞAİRİNKİ DİL DAVASIDI

Demə, şairinki dil davasıdı,
Şapalaq vurmağa qolumuz da var.
Bir az başımızda ağlımız da var,
Bir az cibimizdə pulumuz da var.

Çox qoçaqlar yoxa çıxdı ortada,
Kimin baxtı kimi yıxdı ortada?
Nə olsun ki, bir şey yoxdu ortada,
Hələ sağımız da, solumuz da var.

Min ildi doğulub-ölürük, atam,
Ağlasaq, kiriyə bilirik, atam,
Hələ ki yeriyə bilirik, atam,
Hələ ki getməyə yolumuz da var.

***

Sən qapıdan çıxanacan
Bütün yollar bağlanacaq.
Gözündən yaş axanacan
Bütün qəmlər ağlanacaq.

Sevinənlər sevinəcək,
Sevilənlər seviləcək,
Neçə sağlıq deyiləcək,
Neçə baş sığallanacaq.

Qaçanda hər şeyin dadı,
Yeməyin, içməyin dadı,
Bu süfrədə sənin adın
Axır ki, soraqlanacaq.

Bu dünyanın var-yoxundan,
Savabından, günahından,
Kababından, arağından
Sənə də pay saxlanacaq...

BU DÜNYADA BİZ HƏRƏMİZ

Bu dünyada biz hərəmiz
Bir günahın yiyəsiyik.
Hərdən-hərdən çəkdiyimiz
Gizli ahın yiyəsiyik.

Ölüncə, illər uzunu
Dəyişsək də yüz cür donu,
Yenə bu ağzın, bu burnun,
Bu qulağın yiyəsiyik.

Baxt quşudu uçub gedən,
Başımıza sıçıb gedən,
Cini çoxdan qaçıb gedən
Bir çırağın yiyəsiyik.

***

Qanadım var, göyüm var,
Quşam, qəfəsim yoxdu.
Uçmağa hər şeyim var,
Təkcə həvəsim yoxdu.

Yol getməyə yolum var,
Qulluğum var, qulum var,
Xərcləməyə pulum var,
Təkcə həvəsim yoxdu.

Nə dərd var, nə əzab var,
Nə hirs var, nə qəzəb var,
Ölməyə yüz səbəb var,
Təkcə həvəsim yoxdu...

***

Çəp-çəp baxır göylər bizə,
Yağışlar çəpəki yağır.
Ölənəcən belimizə
Taleyin təpiyi yağır.

Daşlayırıq göy üzünü,
Mələklər göydə diksinir,
Qanadları sınır, sınır,
Ağappaq lələyi yağır.

Yerdən göyə baxa-baxa
Deyirik ki: "Qardı yağan..."
...Mələklər qırılıb daha,
Lələklər, hələ ki, yağır...

***

Bu şəhərə düşən axşam
Bir ağrıyan can kimidi.
Göy üzündə qızarışan
Ulduzlar çiban kimidi.

Allah da göydə təkdi, tək,
Onun da dərdini çəkək,
Bu dünyada dərdsiz ürək
Susuz dəyirman kimidi.

...Qapı çırpıldı yenə də...
Tüpürüb dərdə-qəmə də,
Bu dünyadan gedə-gedə
Qapını çırpan kim idi?!.

***

Bu mənəm, bu da, üç balam,
Bəs niyə uşaq kimiyəm?
Qaranlıqda azıb qalan
Bir yetim işıq kimiyəm?

Demə: "Nədi işin-peşən?",
Canında dərdi tərpəşən,
Saz görsə, əti ürpəşən
Təkqollu aşıq kimiyəm.

Mənəm bəxti sərxoş çıxan,
Yer qazsa -
su yox, daş çıxan,
Dolu qabdan da boş çıxan
Bir sınıq qaşıq kimiyəm.

Ağrım özümdən oyaqdı,
Ağlım sözümdən oyaqdı,
İlahi, bir yağış yağdır,
Bir az bulaşıq kimiyəm...

DARIXIR

Bu nə təhər darıxmaqdı,
Axı, belə kim darıxır?!
Cibimdə əlim darıxır,
Ağzımda dilim darıxır.

Darıxır qabım-qaşığım,
Darıxır yorğan-döşəyim,
Evdə qalsam, ev-eşiyim,
Yol getsəm, yolum darıxır.

Yoluma qızlar çıxsalar,
Gülüb üzümə baxsalar,
Yaxama bir gül taxsalar,
Yaxamda gülüm darıxır.

Hara atım bu kədəri?
Yox hesabı, yox qədəri,
Görünür məndən ötəri
Hardasa ölüm darıxır...

GƏLİN,
AÇIN YUMRUĞUMU

Sıxılmaqdan əlim şişib,
Dırnağım ovcumu deşib,
Barmaqlarım düyün düşüb,
Gəlin, açın yumruğumu!

Nə gedib yata bilirəm,
Nə qələm tuta bilirəm,
Nə bir daş ata bilirəm,
Gəlin, açın yumruğumu!

Mən ki, bir fağır oğuldum,
Birdən yay kimi yığıldım,
Boğuldum, Allah, boğuldum,
Gəlin, açın yumruğumu!

Uçdu mən quran qalalar...
Yaxşı ki, var gül balalar,
Dedilər: "Ovcunda nə var,
Gələk, açaq yumruğunu?!.."

ADAM

Dostum Natiq Səfərova

Görən səni kim ovudur,
Ay məni ovudan adam?
Özgə dərdi görən kimi
Dərdini unudan adam.

Xoş sözüylə, qılığıyla,
Balaca boy-buxunuyla,
Süfrəsinin var-yoxuyla
Yeri-göyu tutan adam.

Dünyada nə su, nə od var,
Dünyada nə dost, nə yad var,
Tanrıdan özgə bir ad var;
Adam,
Adam,
Adam,
Adam!..

***

Üz tutduğum adamlar da
Üzümə durdular mənim.
Bir quyuya salladılar,
İpimi qırdılar mənim.

Yalandan yaş axıtdılar,
Kəfənimi toxutdular,
Yasinimi oxutdular,
Duamı qıldılar mənim.

O quyu necə dardı, dar!..
Mən çıxanda mat qaldılar,
Yenə könlümü aldılar,
Dostlarım oldular mənim...

BÜTÜN DOSTLAR SAĞ OLA KAŞ

Mən öləndə ağlamağa
Bütün dostlar sağ ola kaş.
Gözlərimi bağlamağa
Neçə cüt barmaq ola kaş.

Boynunu büküb qapıda,
Bir qız göz yaşı axıda...
Üç balam şirin yuxuda,
Qadınım oyaq ola kaş.

Güc tapmasam ev tikməyə,
Qapımda ağac əkməyə,
Kəfən yox, məni bükməyə
Bir yaşıl yarpaq ola kaş...

ÇOX DOSTLARIN DÖNDÜ ÜZÜ

Çox dostların döndü üzü,
Kim dost edər indi bizi?!.
Aralığa düşən buzu
Çapmağa bir əl qalmadı.

Dünya bircə qarış deyil,
Niyə hamı tanış deyil?!.
Heç kəsin əli boş deyil,
Öpməyə bir əl qalmadı.

Daha biz də bu gün-sabah
Yarı suyuq, yarı torpaq,
Gözümüzə qara torpaq
Səpməyə bir əl qalmadı...

***

Eşidən yox sözümüzü,
Adımız bir cərgədə yox.
Gün döyür baş-gözümüzü,
Sığınmağa kölgə də yox.

Dünyada qəribik nəsə,
Yarı köhnə, yarı təzə.
Bir ölkə yox bizi gəzə,
Biz gəzən bir ölkədə yox.

Ötürdük yenə axşamı,
Ölüm gələnə oxşamır,
O dünya bundan yaxşımı?
Bəlkə də, hə...
Bəlkə də, yox!..

ŞÜKÜR

Şükür hər ötən axşama,
Hər gələn sabaha şükür.
Şükür çiynimdə başıma,
Başımda papağa şükür.

Qapım döyülür deyəsən,
Cəlladmısan, əcəlmisən?!..
Hər kimsənsə, xoş gəlmisən,
Hər gələn qonağa şükür.

Buyur, boynumu baltala!..
Getsəm də torpaq altına,
Yenə də, lənət şeytana,
Yenə də, Allaha şükür!..

GİLƏNARLAR ÇİÇƏKLƏYİR

Vaxtsız ölən dostlarımın xatirəsinə

Gecənin tən yarısında
Gilənarlar çiçəkləyir.
Yerlə göyün arasında
Gilənarlar çiçəkləyir.

Qız gözütək qəşəng, iri,
Nazla açılır hər gülü,
Qışdan çıxan o dipdiri
Gilənarlar çiçəkləyir.

Hər qış neçə dost azalır,
Adı daş üstə yazılır...
...Yoxsa bizsiz də yaz olur,
Gilənarlar çiçəkləyir?!.

***

Yüz yol ah çək, dərd azalmaz,
Bir dərd yüz ahdan böyükdü,
Bir gecənin qaranlığı
Yüz-yüz çıraqdan böyükdü.

Kim yaratdı bizi yoxdan?!..
İndi baxsın bir qıraqdan,
Dünyada tamah-tamahdan,
Günah-günahdan böyükdü.

Başımızda qapaz varsa,
Yaşamağa qəfəs varsa...
Bir quruca nəfəs varsa,
"Var" yenə "yox"dan böyükdü.

...Min illərdi ölə-ölə,
Ölüm nədi bilə-bilə,
Doğulursa insan hələ,
İnsan Allahdan böyükdü...

***

Sənsən mənim solum-sağım,
Sənsən yaxınım-uzağım,
Səndən özgə kim var axı
meydanda, Allah?

Keşikçisən, yerin uca,
Dustağınıq gündüz-gecə
Dünya adlı bu qopqoca
zindanda, Allah.

Nə bir dinib-danışırsan,
Nə hal-əhval soruşursan,
Bir ruh kimi dolaşırsan
hər canda, Allah.

Sənsən hamının son andı,
Sənsiz nə varsa, yalandı,
Mələk də sənin qulundu,
Şeytan da, Allah.

Gözümüzü özün qapa,
Göz yumunca haqqı tapaq,
Hər ağızdan bir söz qopar
son anda, "Allah!.."

***

Görünmədin bir kimsəyə,
Çətin mən də tapım səni.
Qanadım yox uçum göyə,
Göy üzündə tapım səni.

Bir buludun üstündəmi,
Göyə qalxan tüstüdəmi,
Məsciddəmi, kilsədəmi,
Hansı dində tapım səni?

Mən bu Allahsız ölkədə
Azmışam yolu bəlkə də,
Hansı dalanda, döngədə,
Hansı tində tapım səni?

Kim bilir, necəsən, necə?!
Kim bilir, bəlkə bu gecə
Sən idin qapımdan keçən,
Tanımadı qapım səni...

FİKİR İÇİNDƏ

K.V.Nərimanoğluna

Bu şəhərdə heykəllərin
hamısı fikir içində.
Büstlərin yarısı yoxdu,
yarısı fikir içində.

Heykəllərin donuq gözü
Yuxarıdan süzür bizi;
Cavanı, qocası, qızı,
qarısı fikir içində.

Baş açmadıq bu nə sirdi?
Bizi bura kim gətirdi?!
Nə qısa bir ömür sürdük
bir uzun fikir içində...

NƏ HİRSLƏ OXUYUR BU QUŞ

Nə hirslə oxuyur bu quş,
Mahnı deyil, qarğışdı bu.
Elə bil hürür adama,
Yarı it, yarı quşdu bu.

Yoxdu quşlar arasında
Dilini bilən bu quşun.
İtlər səs verir səsinə
Bayaqdan hürən bu quşun.

Nə çoxdu hirsi-hikkəsi,
Canındakı qurd kinidi.
Yazıq hürməsin, neyləsin,
Bəlkə günü it günüdü.

...Quş olub hür, it olub uç,
Kimdi görən bu ölkədə?!
İti qab dibi yalayan,
Quşu hürən bu ölkədə...

MƏN DƏ TANRI QUŞU OLSAM

Ə.Əylisliyə

Gün doğsa da, işıqlanmaz
ömrün qara günləri.
Tanrıyla kim barışdırar
bəxtindən küskünləri?

Canımıza hardan dolub
bu dəlilik havası?
Ağaclar da Məcnun olub,
başında quş yuvası.

Quşa dönüb mollalar da,
qonub minbər başına.
Əzan verib, bu şəhəri
basdırarlar axşama.

Mən də Tanrı quşu olsam,
mən də qonsam minbərə.
Hər nə desəm, küfr çıxar
bəlkə bütün dinlərə.

Bəlkə məni dörd bir yandan
nişan alar ovçular.
O minbərdən damla-damla
qanım yerə damcılar.

Bir yaralı molla uçar
sənə sarı, ilahi.
İnsaf elə, bu yaramı
özün sarı, ilahi!..

DƏLİ

Hər bir dərdə dözən adam
Heç bir şeydən dəli olur.
Özü də xəbər tutmadan
Qəflətən gülməli olur.

Düz yolda çaşır ayağı,
Qarışdırır solu-sağı,
Və bu işdə nə Allahın,
Nə bəndənin əli olur.

Beynini gəmirən zəli
Deyir ki, dəlisən, dəli!..
Hər yandan üzülür əli
Və adam ölməli olur...

***

Əli Allah ətəyində,
Günahı var mələyin də...
Sevgini qız ürəyində
Əkən kimdi, dərən kimdi?

Min günaha bata-bata
Ömrünü sürür hər adam,
Kimdi yanımızda yatan,
Yuxumuza girən kimdi?

Göy üzü aylı-ulduzlu,
Allah baxır gizli-gizli,
"Bəlkə bir Allah təmizdi?" -
Görən kimdi?.. Bilən kimdi?!..

GİZLƏNMƏYƏ BİR YER GÖSTƏR, GİZLƏNİM

Gizlənməyə bir yer göstər;
gizlənim,
Səhər-axşam, axşam-səhər
gizlənim,
Oğlumdan da, qızımdan da
gizlənim,
Hamıdan da, özümdən də
gizlənim,
Kağızdan da, qələmdən də
gizlənim,
Ömürdən də, ölümdən də
gizlənim.

Bir yer göstər;
nə ev olsun, nə qəbir,
Bir daş altda, bir daş üstə;
gizlənim.
...Allah, harda gizlənmisən?
Cavab ver!..
Çıx, mənə də bir yer göstər,
gizlənim...

TANRI BİZƏ ÖMÜR VERDİ

Çıxdıq zülmətdən işığa,
Tanrı bizə ömür verdi.
Özgələrə -
danışmağa,
Bizə -
susmağa dil verdi.

Qıfıl asdı dilimizdən,
Qalxdıq, basdı belimizdən,
Nə aldısa əlimizdən -
Əvəzində səbir verdi.

Çox ömrü toya döndərdi,
Kimini aya göndərdi,
Bizi də suya göndərdi -
Əlimizə xəlbir verdi...

ƏYİLDİM, SULARA BAXDIM

Əyildim, sulara baxdım,
Axtardım cavan üzümü.
Sular axdı, sular axdı,
Apardı cavan üzümü.

Qaçdım daş-qaya bilmədim,
Qaçdım, haxlaya bilmədim,
Tutub saxlaya bilmədim
Sularda axan üzümü.

...Üz-gözüm qırışdı, anam,
Bu nə tordu, düşdüm, anam?!
Ölənəcən qurtarmaram
Daha bu tordan üzümü...

YARPAQ

Ötdü-getdi cavan yaşım,
Çatdım ömrün yarısına.
Yavaş-yavaş enir başım
Ürəyimin ağrısına

Başım üstdə dan sökülür,
Dağılır gecənin külü,
Bu dünyanın üzü gülür,
Ağı çıxır qarasına.

Saçımın da artır ağı,
Əsir ömrümün budağı,
Çevrilirəm bir yarpağın
Yaşılından sarısına.

Bir səhər görsəm ölümü,
Əlimdən salsam qələmi,
Yarpaq kimi qoyun məni
Varaqların arasına.

KİLİD

İynəmiz var, sapımız yox,
Çömçəmiz var, qabımız yox,
Bağlamağa qapımız yox,
kilid budu, açar budu.

Hərə bir cür gün qazanar,
Kim uduzar, kim qazanar?
Kilidlənər darvazalar,
həyət budu, hasar budu.

Gün gələr əllidə, yüzdə
Bağlanar ağız da, göz də,
Kilidlənər ömrümüz də,
tabut budu, mismar budu!..

TELEQRAF DİRƏKLƏRİ

Öz şerinə qurban gedən şairlərin xatirəsinə

"Ağlarsan gecə gələn teleqraf xəbərlərinə..."
Nazim Hikmət

Bu teleqraf dirəkləri
Yoluşdurar küləkləri,
Küləklərin saçlarına
Dolanıbdı biləkləri
teleqraf dirəklərinin.

Səhər-səhər kim dindirdi,
Kim dindirdi, sevindirdi,
Toy paltarı geyindirdi
teleqraf dirəklərinə?

Axşam-axşam kim ağlatdı,
Qoluna qara bağlatdı,
Asıldı bu gecə vaxtı
teleqraf dirəklərindən?!

Səssiz getdi, tanınmadı,
Satılmadı, alınmadı,
Bir nəğməsi çalınmadı
teleqraf dirəklərində.

...Keçirib boynu ilgəyə
Son əlac qalsa ölməyə,
Tanrı barı çox görməyə
teleqraf dirəklərini...

AĞI

Rəsul müəllimlə Nigar xanımın xatirəsinə

Zalım dünya öz işində,
Gəlişində-gedişində,
Gəl ağlayaq yetmişində
Sevgilitək ölənlərə.

Ürəyi min cür dərd görüb,
Gözü min cür sifət görüb,
Gözəl-göyçək ömür sürüb,
Gözəl-göyçək ölənlərə.

Keçib kolundan-kosundan,
Tikanların arasından,
Qan sızdıqca yarasından
Əldə çiçək ölənlərə...

SOYUYUR

Bu adam ölür deyəsən,
Əlimdə əli soyuyur.
Yavaş-yavaş sönür gözü,
Alnının təri soyuyur.

Səslər batır qulağında,
Dadlar itir damağında,
Cadar-cadar dodağında
Min öpüş yeri soyuyur.

Quruyur gözümüzdə yaş,
Ya bu adam, ya qara daş,
Və beləcə yavaş-yavaş
Ölüdən diri soyuyur.

***

Ə.Məmmədova

Qəbrim üstə istəmirəm
Bir dost-tanış ağlasın.
Bir az külək uğuldasın,
Bir az yağış ağlasın.

Qəbrimi bulud sulasın,
Bəlkə bitdim təzədən.
Bir tək-tənha qurd ulasın,
Bir şikəst quş ağlasın.

Qəbrimi lap dərin qazın,
Bir səs-səmir gəlməsin.
Kim ağlasa, xısın-xısın,
Yavaş-yavaş ağlasın.

Ölüm Allah əmridisə,
Qəbrə gir, sakit uzan!..
Hərdən Ölüm əmri yazan
Allah da kaş ağlasın...

QOŞULAQ

Dərd-qəmin üstən atdanaq,
Bir az sevinək, şadlanaq,
İçimizdən qanadlanaq,
Uçan quşlara qoşulaq.

Görməyib biz görənləri,
Dərməyib biz dərənləri,
Yada salaq ölənləri,
Bu yağışlara qoşulaq.

Tüpürək əyri işlərə,
Qəpiklərə-quruşlara,
Dünyada nə söyüşlərə,
Nə qarğışlara qoşulaq.

Dediyimiz düz olmasa,
Bu dünyaya bəs olmasa,
Deməyə bir söz olmasa,
Susaq, daşlara qoşulaq...

BOŞALIB

Dağlar da alçalıb bir az,
Daşlar da yumşalıb bir az,
Bu dünya boşalıb bir az,
Hər şeyin bağı boşalıb.

Çox barmaqdan üzük düşüb,
Çox igidlər yazıq düşüb,
Əldən yumruq uzaq düşüb,
Dodağın ahı boşalıb.

Baxır dünyanın damına,
Dükanına, hamamına,
Gücü çatmır adamına,
Göydə Allahı boşalıb...

AYAĞIM

Neynirəm, baxmır sözümə,
Əlimdən çıxır ayağım.
Hərdən güc verib dizinə,
Yolumdan çıxır ayağım.

Mən təkəm, ayağım qoşa,
Deyir, dayan, yorulmuşam,
Bu yolları səhər-axşam,
Başıma qaxır ayağım.

Yolların yoxuşun çəkir,
Elə bil qurğuşun çəkir,
Nə çəkirsə başım çəkir,
Bəs niyə qorxur ayağım?!..

GÜZGÜ

Ağrımaz bir ağrımızla,
İşi yoxdu ağlımızla.
Ağzımızla-burnumuzla,
Başımızı qatan güzgü.

Tərs baxsaq da sifətinə,
Bircə kəlmə çətin dinə,
Həmişə su qiymətinə
Bizi bizə satan güzgü.

Yüz cür üz görüb qorxmusan,
Yenə bizsiz darıxmısan,
Bəlkə bizi sən doğmusan,
Anam güzgü?..
Atam güzgü?..

Daha bizdə hal qoymadın,
Gizlənməyə yer qoymadın,
Açılmayan sirr qoymadın,
A dünyanı tutan güzgü!..

AYDINLIQ

Bu dünyada hər nə varsa,
Gedir üzü aydınlığa.
Yaş ötdükcə qoca dünya
Çəkir bizi aydınlığa.

Qopub dərdimdən-ağrımdan,
Gün kimi doğub bağrımdan,
İçimin qaranlığından
Çıxır sözüm aydınlığa.

Çatdı ömrümün gündüzü,
Deyəsən gün vurdu sizi,
Qaranlığım yordu sizi,
İndi dözün aydınlığa!..

DÜNYA QƏFİL İŞIQLANSA

Qəfil gün doğsa bir gecə,
Dünya dümağ işıqlansa;
Şəhər-şəhər, küçə-küçə,
Otaq-otaq işıqlansa,
Görərik kimlərin əli
kimlərin cibindən çıxır.
Kimlər əyilə-əyilə
kimlərin evindən çıxır.

Qəfil gün doğsa bir gecə,
Min-min gizli günah görsək,
Üstünü örtə bilməsə,
Bu dünyanı çılpaq görsək,
Başımıza hava gələr,
ağlımız çaşar bəlkə də.
Hamı birdən baş götürüb
dünyadan qaçar bəlkə də.

Bu dünyada bəs kim qalar,
Kim böyüdər uşaqları?!.
...Nə yaxşı ki, bu dünyamız
Yavaş-yavaş işıqlanır...

BOĞULUR

Dünyanın suyu çirklənir,
Suyunda balıq boğulur,
Çirklənir, göyü çirklənir,
Göyündə Allah boğulur.

Çox batan yerində batır,
Dadına gələn də batır,
Ağıllı dərində batır,
Dayazda axmaq boğulur.

Kimisi nəğməli-sazlı,
Kimisi başı qapazlı,
Kimisi paltar-palazlı,
Kimisi çılpaq boğulur.

GÖZÜ YAŞLI YORĞUN EŞŞƏK

Gözüyaşlı yorğun eşşək,
Kirimişcə yükünü çək,
Bu yol da gec-tez bitəcək,
Yorulmaq sənə qalacaq.

Sən belə fağır olanda,
Yükün lap ağır olanda,
Kürəyin yağır olanda,
Ümid palana qalacaq.

Bu palan zalımdı, zalım!..
Səni hər gün zora salıb,
Axır bir gün yola salıb,
Səndən balana qalacaq...

BU NƏ DAĞDI, BU NƏ SÜRÜ

Bu nə dağdı, bu nə sürü,
Sən bu dağda sürüyə bax.
Ətdən əti, süddən südü,
Papaq-papaq dəriyə bax.

Bu sürünün köpəyi yox,
Bu çobanın köməyi yox,
Çomağı yox, tütəyi yox,
Görən deyər, dəliyə bax.

Sürü gedər aram-aram,
Durub gendən çağıraram,
Bəlkə elə canavaram,
Çoban, bir dön geriyə bax!..

CANAVAR

V.Səmədoğluna

Bəlkə də mən canavardım
Dünyanın əzəl vaxtında.
Hələ fərli dil açmayıb
Hər şeyin susan vaxtında.

Hər ağacı, kolu adsız,
Qarışqası, fili adsız,
Çox şeylərin hələ adsız
Dolanıb gəzən vaxtında.

Biriydi hamının baxtı,
Yoxdu xoşbaxtı, bədbaxtı,
Balıqların uçan vaxtı,
Quşların üzən vaxtında.

Bəlkə söz də hədər idi,
Hər nə vardı gözəl idi,
Canavar da gözəl idi
Dünyanın gözəl vaxtında.

QOYUN OLMAQ ÇƏTİN ŞEYMİŞ

Bu dünyanın əzabı çox,
Haqqından haqq-hesabı çox,
Qoyunundan qəssabı çox,
Qoyun olmaq çətin şeymiş.

Boynundan çatı sallanıb,
Bir çəngə ota aldanıb,
Yeyib, kökəlib, dadlanıb
Qoyun olmaq çətin şeymiş.

Kötüklər qaralan yerdə,
Bıçaqlar can alan yerdə,
Çobanlar qurd olan yerdə
Qoyun olmaq çətin şeymiş.

İt olub hürmədik Aya,
Yıxdı bizi abır-həya,
Qoyun olmaya-olmaya
Qoyun olmaq çətin şeymiş.

QUZU

Bu həyətdə yatan quzu,
Yuxunda gördüyün nədi?
Nəfəsini dadlı, uzun
Ot kimi dərdiyin nədi?

Bağlanıb baxtın, bağlanıb,
Qırmızı bantın bağlanıb,
Tumarlanıb, sığallanıb
Bu evə gəldiyin nədi?

Sevinmə ki, hələ toxsan,
Yaşıl otdu hara baxsan,
Mən bilirəm, qurbanlıqsan,
Bəs sənin bildiyin nədi?!..

ÖLDÜR MƏNİ, OYNAMARAM BU TOYDA

Aman Allah, bu nə işdi, nə işdi,
Aylar, illər necə gəldi, ötüşdü,
Bu qız haçan belə dəydi, yetişdi,
Bu boy-buxun buna haçan verildi?

Dünən hələ bu boydaydı, bu boyda,
İndən belə ağlamaqdan nə fayda?
Öldür məni, oynamaram bu toyda,
Öldür məni, bəlkə bir də dirildim.

Bəlkə bir də bu qız çıxdı rastıma,
Yanıq verdim düşmənimə, dostuma,
Lampa olub işıq saldı üstümə,
Kölgə olub ayağına sərildim.

...Atam oğlu, boşla boş nağılları,
Bu qız getdi, uzaq oldu yolları,
Kiminçinsə qucaq oldu qolları,
Dodaqları bir öpüşlə dərildi...

ƏLVİDA

Səni sevdim sevilmədən, -
Dodağımda öpülməyən,
Hələ sənə deyilməyən
Sözlərim qaldı, əlvida!

Güc yox ümid bəsləməyə,
Təzə sevgi gözləməyə,
Sifətimi gizləməyə
Dizlərim qaldı, əlvida!

Uçmadım quşlar içində, -
Yadlar, tanışlar içində,
Yağan yağışlar içində
Gözlərim qaldı, əlvida!..

GEDƏN KİMDİ, QALAN KİMDİ

Gedən kimdi, qalan kimdi,
Gedən sənsən, qalan mənəm.
Dünyanın bu azad vaxtı
Ağam sənsən, qulun mənəm.

Şərimdə saçının ətri,
Ətir qoxuyur hər sətrim,
Gecə-gündüz səndən ötrü
Xeyir-dua qılan mənəm.

Öz başımı tutub qaldım,
Baxtım yatdı, yatıb qaldım,
Bir sevgidən yetim qaldım,
Anam sənsən, balan mənəm...

TƏKİ SƏNİN ÜZÜN GÜLSÜN

Mənim üzüm gülən deyil,
Təki sənin üzün gülsün.
Məni görsə "əmi" deyib
Oğlun gülsün, qızın gülsün.

Mən ki sənə yaraşmadım,
Söz demədim, dalaşmadım,
Ulduzumuz barışmadı,
Qoy yenə ulduzun gülsün.

Yüz il qocalma, qarıma,
Bir səhər çıxıb yoluma
Duz səpsən köhnə yarama,
Yaram gülsün, duzun gülsün...

YAYLIĞINI YEL APARIR

Saçların dağılıb tamam,
Yaylığını yel aparır.
Qaçıram, tuta bilmirəm,
Qoyma, məni tər aparır.

Yuyundum, tərdə yuyundum,
Axır yoruldum, dayandım,
Qayıtdım, gördüm toyundu,
Gördüm səni ər aparır.

Saçına güllər taxırsan,
Ovcuna xına yaxırsan,
Sən orda göyə baxırsan,
Burda məni yer aparır...

SƏNİNKİDİ BU PƏNCƏRƏ

Səninkidi bu pəncərə,
İpək pərdəsi tərpənir.
Pəncərəndə özgəsinin
Qara kölgəsi tərpənir.

Keçib soldan-sağdan indi,
Baxıram uzaqdan indi,
Mən çəkdiyim ahdan indi
Dünyanın üzü tərpənir.

Tərpənir otu-yarpağı,
Tərpənir daşı-torpağı,
Yerdən göyə uçur ahım,
Ayı-ulduzu tərpənir.

Tərpənir qapın-pəncərən,
Diksinib baxırsan çölə;
Zəlzələdi, yoxsa elə
Pəncərən özü tərpənir?!..

QAPINI DÖYƏ BİLMİRƏM

Qapını döyə bilmirəm,
Qapına sürtüm üzümü.
Qapın bir az əzizləsin
Bu yazıq, yetim üzümü.

Qorxdum qonşular görələr,
Buna min cür rəng verələr,
Qapından zorla, birtəhər
Qopartdım, dərdim üzümü.

Qoy həsrət qalım telinə,
Əlim çatmasın əlinə,
Kaş bircə, tabut yerinə
Qapınla örtüm üzümü...

BİLİRƏM GƏLƏN DEYİLSƏN

Bilirəm gələn deyilsən,
Gözləyirəm yenə səni.
Özgənin olsan da, -
tanrı
Çox görməsin mənə səni.

Küsmərəm, gəldin-gəlmədin,
Sən getdin, mən ki ölmədim,
Heyif, gətirə bilmədim
"Sevgi" adlı dinə səni.

Yollarına sərilim kaş,
Divarına hörülüm kaş,
Yüz yol ölüm-dirilim kaş,
Sevim dönə-dönə səni...

APAR

Qəbrim də yoxdu ki, deyəm;
Üstünə bir gül dər apar.
Ya lap hava qaralanda,
Ya lap səhər-səhər apar.

Nə olsun sağam, diriyəm,
Onsuz da, sənsiz ölüyəm,
Ürəyində bir azca qəm,
Boğazında qəhər apar.

Elə bilir, oğlu sağdı,
Hələ dünənki uşaqdı,
Ölmüşəm, xəbəri yoxdu,
Anama da xəbər apar.

AX, BU QIZIN BARMAQLARI

Ax, bu qızın barmaqları
Barmaqlarıma dəymədi.
Ürəyim ağrıyan gecə
Gəlib qapımı döymədi.

Ax, bu qızın barmaqları
Bir məktub yazarmı görən?
Bir gün eşitsə ölmüşəm,
Qəbrimi qazarmı görən?

Ax, bu qızın barmaqları
Bir üzük taxdı belinə.
Qız idi, dinə bilmədim,
İndi nə deyim gəlinə?!

Ax, bu qızın barmaqları,
Uzun-uzun barmaqları,
Döymədi, anam, döymədi
Qapımızı barmaqları...

BAYATILI QOŞMA

Ağacda xəzəl ağlar
Dibində gözəl ağlar...

Düşən nəydi -
nə yarpaqdı, nə yaşdı,
Bunun hansı qızdı, hansı ağacdı?
Qız ağaca, ağac qıza qarışdı,
Kirpikləri yarpaqladı bu qızın.

Qızlıq donu yarpaqlardan biçildi,
Kimi sevdi, kim götürüb qaçırdı?
Ağ köynəyi düymə-düymə açıldı,
Qara baxtın kim bağladı bu qızın?

Dindirdilər, bir dərdimiz min oldu,
Nəğmə oldu, kitab oldu, din oldu,
O ağaca balta vuran kim oldu,
Kim gözünü torpaqladı bu qızın?!.

***

Bir xəfifcə külək əsdi
ürəyimin yanından.
Əsdi ətəyi yellənən
bir nazik qız donundan.

Bu nə gözəl qızdı, Allah,
lap qəbirdə sevməli.
Bir də, bir də doğulmalı,
bir də, bir də sevməli.

Gecələri səhərəcən
dizinə baş qoymalı.
Yuxuda da onu görüb,
diksinib oyanmalı.

Əcəl günü, son nəfəsdə
son sevdaya düşməli.
Bir cüt quştək bir qəfəsdə
onunla sevişməli.

Sonra... sonra arxayınca,
kirimişcə ölməli.
- Bəsdi, kiri, axmaq qoca,
gülməlisən, gülməli!..

***

Səhər ölmək istəyirəm,
Gecə ölsəm, bağışla.
Bilmirəm necə yaşadım,
Necə ölsəm, bağışla.

Tanrıdan bəxt borc alsaydım,
Sənə də saxlayardım.
Ağlamağı bacarsaydım,
Sənə gün ağlayardım.

Gizli ölmək istəyirəm,
Xəbər tutsan, bağışla.
Qorxuram unutmayasan,
Yox, unutsan, bağışla.

Qışda ölsəm, qəm eləmə,
Yerim isti olacaq.
Ruhum uçub cəhənnəmə
Gedən tüstü olacaq.

Səssiz ölmək istəyirəm,
Səsim gəlsə, bağışla.
Sənsiz ölmək istəyirəm,
Sən də ölsən, bağışla!..

YAVAŞ-YAVAŞ SEVDİM SƏNİ

Yavaş-yavaş sevdim səni,
Hər gün bir az da sevdim.
Ən çox bu qış sevdim səni,
Qarda, ayazda sevdim.

Gör bir nə tez isinişdik
Havalar soyuyanda.
Adamlar qalın geyinib,
Ağaclar soyunanda.

Qar altından baş qaldıran
Çiçəktək sevdim səni.
İstisinə qızındığım
Ocaqtək sevdim səni.

Hələ bu cür sevməmişdim
Ömrüm boyu heç kimi.
Səni sevdim qar üstündə
Yem axtaran quş kimi.

Qorxa-qorxa bu sübh çağı
Nə baxırsan göyə sən?
Deyirsən ki, günəş çıxıb,
Qar əriyir deyəsən...

BU QIŞI DA SALDIM YOLA

Bu qışı da saldım yola,
Bu qar da əridi, anam.
Qoşulub əriyən qara
Ağlasam, yeridi, anam.

Dönüb baxtın üzü bizdən,
Kim qurtarar bizi bizdən?
Bu dünyada özümüzdən
Dərdimiz diridi, anam.

Gün bürüdü dörd bir yanı,
Baxtıma doğan gün hanı?
Saatım yoxsa dünyanın
Vaxtından geridi, anam?!.

YAĞIŞ YUYUR, GÜN QURUDUR

Bu yerləri, bu göyləri
Yağış yuyur, gün qurudur.
Bu dünyada çox şeyləri
Yağış yuyur, gün qurudur.

Gözümüzün yaşını da,
Bağrımızın başını da,
Qəbrimizin daşını da
Yağış yuyur, gün qurudur.

Gələn nədi, gedən nədi?
Bələk nədi, kəfən nədi?
Bu dünya öz kefindədi,
Yağış yuyur, gün qurudur.

...Ulduzların tozunu da,
Lap günəşin özünü də,
Lap yağışın özünü də
Yağış yuyur, gün qurudur...

BİR OVUC SUDA

K.Abdullaya

Bu səhər
yudum üzümü-gözümü
bir ovuc suda.
Gördüm ayaqdan başacan
özümü bir ovuc suda.

Tanıdım qurdu, quzunu,
Bu dünyanın hər üzünü,
Adamların yaxşısını,
pisini bir ovuc suda.

Tapdım olub keçənlərin,
Bu dünyadan köçənlərin,
Yüz il qabaq içənlərin
izini bir ovuc suda.

Atdım hər dərdin daşını,
Durdum, dik tutdum başımı,
Əritdim gözüm yaşının
duzunu bir ovuc suda...

KƏPƏNƏK QANADLARI

Uçub getdi, izi qaldı,
Tanrı məndən razı qaldı,
Əllərimdə tozu qaldı
Kəpənək qanadlarının.

Kəpənəklər uçur, uçur,
Göymü baha, yermi ucuz?
Qəlbimə dəydi bir ucu
Kəpənək qanadlarının.

...Özümü duyub ağlayam,
Gözümü yumub ağlayam,
Üzümü qoyub ağlayam
Kəpənək qanadlarına.

Sevmirəm səni, bağışla,
Bağışla, yenə bağışla,
Bağışla məni, bağışla
Kəpənək qanadlarına.

QARA-QARA QARIŞQALAR

Qara-qara qarışqalar
kəpənəyi neylədiniz?

Toplaşdınız, top oldunuz,
Qanad-qanad qopardınız,
Daşıdınız, apardınız,
kəpənəyi neylədiniz?

Ayrıldı gün işığından,
Sıyrıldı göy qurşağından,
Qulağım batdı, tutuldu
Güllərin qışqırığından,
kəpənəyi neylədiniz?

Dərdi düşər ağızlara,
Haraylar, çağırar sizi.
Nə yedirər, doyuzdurar,
Nə qışdan çıxarar sizi,
kəpənəyi neylədiniz?!.

***

Dərd dərdi əridir, udur,
Dərd dərdin dibinə çökür.
Dərd dərdin əlindən tutur,
Dərd dərdin ipini çəkir.

Nə uzundu dərdin ipi,
Dolanır dörd bir tərəfi,
Dünyanın dərdli tərəfi
Dərdsiz tərəfini çəkir.

Dünyadan bezmir yenə də,
Şükür deyib bu günə də,
Adam lap öz dərdini də
Sevinə-sevinə çəkir.

***

Bu dərd köhnədi, uludu,
Demə "nəm çəkib, suludu...",
Səhra kimi qupqurudu,
Göz yaşı da qorxur ondan.

Batmaz canavar dişi də,
Bacarmaz heç bir kişi də...
Arvadların söyüşü də,
Qarğışı da qorxur ondan.

Bu dərdi az tərpət -
yatır,
Oyanmağa həsrət yatır...
Bu qəbirdə bir dərd yatır,
Başdaşı da qorxur ondan.

HAMI DİŞ-DİŞƏ, GÖZ-GÖZƏ

Hamı diş-dişə, göz-gözə,
Ovçu kimi fürsət gəzər,
Quş quşun başını üzər,
Daş da əzib daşı yeyər.

Kimdi alıb-satan bizi?!
Yeyər dişi batan -
bizi,
Dişi batsa, atam, bizi
Darağın da dişi yeyər.

Bu yurdun toyu-yası bu!..
Dirisi bu!.. Ölüsü bu!..
Yeyən bilməz -
toy plovu,
Yoxsa ehsan aşı yeyər...

***

Sən də gec-tez bezəcəksən,
adam hər şeydən bezir.
Quş da uçmaqdan yorulur,
Allah da göydən bezir.

Şair də sözdən iyrənir,
söz də şairdən bezir.
Lap yüz ilin ölüsü də
bir gün qəbirdən bezir.

Küçədə rastına çıxsa
yüz il qabaq ölənlər, -
Qorxma, salam ver - keç, qorxsun
qoy arxanca gələnlər.

Yüz il sonra sən də çıxsan
bir adamın rastına, -
Salam ver - keç səndən bir az
diri olan dostuna.

Ölülərlə dirilərin
yaxşı tutur dostluğu.
Haçan olub bir ölünün
bu dostluğu pozduğu?!

...Get, əlimi üzdüm səndən,
Getməsən, dalaşarıq.
Gəl ayrılaq, küsdüm səndən,
Ölərəm, barışarıq...

***

Bəxtim məndən küsübdü,
Elə mən də küsmüşəm.
Bu dünyanın
göyündən-yerindən də
küsmüşəm.

Anam, sən də gen dayan,
Get, dərdimə gendə yan,
Başımı tumarlayan
Əlindən də küsmüşəm.

Batmışam min günaha,
İşim qalıb Allaha,
Ölərdim, amma daha
Ölümdən də küsmüşəm...

***

Göz yaşım quruduqca
Gözlərim çılpaqlaşır.
Dizimə baş qoyan yox,
Dizlərim çılpaqlaşır.

Başım-beynim ayılır,
Qabıq-qabıq soyulur,
Şeirlərim soyuyur,
Sözlərim çılpaqlaşır.

...Nə çox dəli var, atam,
Baxıram, mat qalıram,
Görən mən qocalıram,
Ya dünya uşaqlaşır?!..

***

A.Məsuda

Bir səhər yuxudan durub
Özünü uşaq görəsən.
Görəsən hamı evdədi,
Ölənləri sağ görəsən.

Qorxasan, qaçıb gedələr, -
tez qapını bağlayasan.
Geri dönüb içəridə
bir təzə qonaq görəsən.

Görəsən ki, qapqaradı
o qonaq başdan-ayağa.
Ondan başqa hamısının
üst-başını ağ görəsən.

Pəncərədən içəriyə
dola, dola gün işığı.
İçəridə boş-boşuna
yanan bir çıraq görəsən.

Söndürəsən o çırağı -
hamı birdən yoxa çıxa.
... Otaqda bir qara qələm,
bir də, ağ varaq görəsən...

OCAQ

Sildim gözümün nəmini...
Dəftərimi, qələmimi,
Bütün dərdimi, qəmimi,
Hirsimi atdım ocağa.

Atdım şerin də daşını,
Sözlə dava-dalaşımı,
Ocaq yandıqca,
yaxşımı-pisimi atdım ocağa.

Alovu göydə oynadı,
Şeytandı-nəydi, oynadı?!
Bu ocaq yenə doymadı,
Özümü atdım ocağa...

DAŞ ATAN BİLİRMİ NƏ GÜNAH EYLƏR?

Ə.Elçibəyə

Sənə bir daş atar yerindən duran,
Səni sevdiklərin daşqalaq eylər.
Bir əlində daş var, birində Quran,
Daş atan bilirmi nə günah eylər?!

Silərsən gözündən axan yaşları,
Öpüb əzizlərsən sən o daşları,
Deyərsən: "Var olun, qan qardaşlarım,
Məni təzə daşa kim qonaq eylər?!"

Hər daş özü boyda köz olub yanar,
Cana damğa kimi basılıb yanar,
Qanlı yaraların qızarıb yanar,
Səni başdan-başa çilçıraq eylər.

Bircə tilsimin var -
Sevgi tilsimi,
Kim qırar tanrıya bağlı bir simi?!
Tanrı tanrıdırsa, öz elçisini
Min bir daş altında yenə sağ eylər.

Sən dözərsən ağrısına,
Daş dözməz, daş haray eylər.
O daşlardan tanrı sənə
Bir ev tikər, saray eylər...

NƏ GECƏYDİ, NƏ GÜNDÜZDÜ

Nə gecəydi, nə gündüzdü,
Baxdıq, göz-gözü görmədi.
Aralığı bulud kəsdi,
Allah da bizi görmədi.

Gecə-gündüz oldu yalan,
Ay da, gün də batdı, anam,
Torpaqda can verən ilan
Göydə ulduzu görmədi.

Kor oldu, qaldı yurdumuz,
Qaldı quzumuz, qurdumuz,
Dağılanda buludumuz
Qurd gördük, quzu görmədik.

GÖY ÜZÜ DURURMU HƏLƏ?

Çoxdandı göyə baxmıram,
Göy üzü dururmu hələ?
Buludu, günəşi, ayı,
Ulduzu dururmu hələ?

Tüstüdən qaralmayıb ki?
Quşları qırılmayıb ki?
Allahı yorulmayıb ki?
Bəndəsi dururmu hələ?

...Ölümdən qoçaq çıxmışam,
Dilimdə "Allah" çıxmışam,
Bu gecədən sağ çıxmışam,
Gündüzü dururmu hələ?!

***

Nəyi nəyə vurdumsa da,
Heçə çıxdı hamısı.
Allah birdi, insan iki,
Üçə çıxdı hamısı.

Əkən getdi, bitən qaldı,
Qurda-quşa yem oldu.
Bu qəfəsdə bir mən qaldım,
Necə çıxdı hamısı?!

Gözündə yaşı aldadıb
Hərə bir cür ağladı.
Gündüz günəşi aldadıb
Gecə çıxdı hamısı.

Bilinmədi yasdı, toydu,
Yeyən yedi, doyan doydu,
Payız gəldi, sayan saydı,
Cücə çıxdı hamısı...

HAMI QARDAŞ OLSA DA

Anara

Öz itini hamı öyər,
Lap qudurmuş olsa da.
Ayranına kim turş deyər?
Ayranı turş olsa da.

Sözlər var ki, dilə gəlməz,
Dil bir qarış olsa da.
Əldən çıxan ələ gəlməz,
Barmağın beş olsa da.

Xarabadı bu ev-eşik,
Daş üstə daş olsa da.
Niyə düşmən kəsilmişik?
Hamı qardaş olsa da.

Nə oyağam, nə yuxulu,
Gözlərim yaş olsa da.
...O quş nə qəşəng oxuyur,
Adı Bayquş olsa da...

BU OXUYAN KİMDİ AXI?

Bu oxuyan kimdi axı?
Səsi də yoxdu, oxuyur.
Vecinə deyil, qar yağır,
Hava soyuqdu, oxuyur.

Kimdi, kimin qardaşıdı?
Bəlkə qəribdi, naşıdı?
Bəlkə də, kefi yaxşıdı,
Bəlkə də, toxdu, oxuyur.

Bəlkə lap dəlidi, dəli,
Özündən yoxdu xəbəri,
Bəlkə lap nə vaxtdan bəri
Özü də yoxdu... Oxuyur...

ŞERİN-SÖZÜN AXIRINA YETİŞDİM

Bir qoca uşağam mən bu yaşımda,
Bir dəli ağıl var hələ başımda, -
Bircə mən çaşmadım hamı çaşanda,
Hamı çaşmayanda mən çaşa bildim.

Dalımca çox qaçdı ölüm - çatmadı,
Dedim: "Mənə bir çat görüm!" - çatmadı,
Dünyada çox şeyə əlim çatmadı,
Dərdin yekəsindən yapışa bildim.

Öz dərdimə, öz ağrıma yetişdim,
Dünyanın son nağılına yetişdim,
Şerin-sözün axırına yetişdim,
Axır tikəsindən yapışa bildim...

***

Ürəkdən gəlməyən sözün
Bir ucu ürəkdə qalır.
Bir çöp kimi, tikan kimi
Orda çürüməkdə qalır.

Az qalır səni çürüdə,
Ağrısını kim kiridər?!
O ağrı içdiyin suda,
Yediyin çörəkdə qalır.

Sən torpağa bürünəndə,
Yaxşı-pisin ələnəndə,
Min-min sözün ələnəndə,
Tək o söz ələkdə qalır...

DÜNYA NƏ GÜNDƏYDİ, NƏ GÜNƏ QALDI

Dünya nə gündəydi, nə günə qaldı,
Ümid nə Allaha, nə dinə qaldı,
Kim axı dünyanı bu günə saldı,
Kim saldı dünyanı qoz qabığına?!

Gün gələr, dünyanın buzu çatlayar,
Dünyaya baxanın gözü çatlayar...
Nəğməsi deşilər, sözü çatlayar,
Şairlər sığışmaz söz qabığına.

Ömrün axırına az qalır daha,
Bir-bir tanıyıram dostları daha.
Açılır hamının astarı daha,
Çıxır yavaş-yavaş üz qabığına.

...Güclüyəm, yazığam öz içimdə mən,
Hamıdan uzağam öz içimdə mən,
Qəbrimi qazaram öz içimdə mən,
Adımı yazaram öz qabığıma...

***

Başıma döyən yağışın,
Yağan qarın içində, -
Mən də bir ev istəyirəm
Dörd divarın içində.

Tanrı göydən dərdi məni,
Yerə göndərdi məni.
Qarışdım, gözündən itdim
Adamların içində.

Çətindi susuz dəryada
Yelkənsiz qayıq olmaq,
Bayquş kimi ayıq olmaq
Yatanların içində.

Günaha batıb boğulur,
İlahi, min-min adam.
Əlini ver, mən də varam
Batanların içində...

***

Əlimdən qopan əllər
Bir də gəlməz əlimə.
Haçan keçdi bu ömür?
Nə qaldı ki, ölümə?!

Mən bu dünya üzündə
Bir vaxtsız qonağıydım.
İlahi, ölürəmsə,
Deməli, mən sağıydım.

Bu sifət -
mən deyildim,
Bu bədən -
mən deyildim.
Kimiydi, Allah bilir,
Bu adam mən deyildim.

Bu güzgüdən üzümə
Neçə cür üzlər baxıb.
İlahi, o üzlərin
Hansı mənimdi axı?

Min adam var canımda,
Hansıdı indi ölən?
Barı bu son anımda
Xəbər ver: Kimdi ölən?!..

***

Buruldum son döngəni,
son tini də buruldum.
Başa vurdum bu günü,
əldən düşdüm, yoruldum.

Daha burdan o yana
nə döngə var, nə tin var.
Bir dümdüz yol, bir də ki,
xoşbəxtlik dolu gün var.

...Amma məni poz daha,
Məndən adam olmaz daha:
O YOLU başlamağa,
O GÜNÜ yaşamağa
axtar, gör indi kim var?!.

***

Bir gör neçə ömür keçdi
Gecədən gündüzə kimi.
Dünya neçə yol dəyişdi
O gözdən bu gözə kimi.

Baxmadı göz yaşımıza,
Nəyi gəldi xoşumuza?
Günü döydü başımıza,
Qarı çıxdı dizə kimi.

Kimi çiçək dərdi getdi,
Kimi ürək qırdı getdi,
Neçə şair öldü - getdi
O SÖZdən bu SÖZə kimi.

Nəydi ki, Tanrının qəsdi?
Verdiyi quru nəfəsdi.
Hərəyə bir ömür kəsdi
Bu dünyada CƏZA kimi...

***

Verdiyini kəsir hərə,
Bu ondan, o bundan kəsir.
Üzümüzə gülə-gülə
Hamı əl altından kəsir.

Kəsir qardaş-qardaşından,
Yağan bulud -
yağışından,
Ağlayan göz -
göz yaşından,
Ağız da, dadından kəsir.

Hərə bir cür ölçüb-biçir,
Nə çoxdu oğrusu, bici,
Hamı Allaha and içir,
Allahın adından kəsir.

...Allah kəsir verdiyindən;
Dən düşür quş dimdiyindən,
Gülün-çiçəyin iyindən,
Ocağın odundan kəsir.

Xanımların qaş-gözündən,
Kiminsə bol süfrəsindən,
Kiminsə son nəfəsindən,
Axır saatından kəsir...

***

Natiqin xatirəsinə

Hamı vaxtından tez ölür,
Bir il, bir ay, bir həftə.
Harda olsan ölüm görür;
Hədəfdəsən, hədəfdə.

Harda olsan ölüm görür;
İclasda, toyda, yasda.
Hər gün sənə yaxın gəlir,
Addım-addım, bir az da.

Bu günəcən çox qapıdan
Qoşa girdiz ölümlə.
Gizlənpaç oynayır adam
Gecə-cündüz ölümlə.

Hamı vaxtından tez ölür;
Bir ay, bir gün, bir saat.
Bacarırsan, azdır görüm,
Aldat, ölümü, aldat.

Dost-tanışın arasında
Gizlən onun gözündən.

Harda səni yaxalasa,
Hirslənib çıx özündən.

Çıx özündən, - qoy eləcə
Əliboş qalsın ölüm.
Yenə düşüb küçə-küçə
Səni axtarsın ölüm.

...Hamı vaxtından tez ölür;
Lap bir saat, bircə an.
Yuxuya da ölüm girir,
Nə yatmısan?.. Qalx! Oyan!..

ÇATMAZ

Minsək də quş qanadına,
Qalxsaq da göyün qatına,
Yenə, yenə öz baxtına
Biri çatar, biri çatmaz.

Güləndən çoxdu ağlayan,
Allaha ümid bağlayan,
Hamı deyi "ağıllıyam",
Ortada bir dəli çatmaz.

Zalım əcəl haxlayınca,
Ölən ölər arxayınca,
Bir ölənin arxasınca
Yüyürsə min diri, -
çatmaz...

***

Burda bir gül kolu gördüm;
Yarpaqlar qan içində.
Baxdım, sağı-solu gördüm,
Torpaqlar qan içində.

Burda dava çoxdan bitib,
Hər yanda çal-çağırdı.
Ölən ölüb, itən itib,
Bayraqlar qan içində.

Burda hamı uşaq kimi
Pay verməsən küsəndi.
"Ağıllılar" baş kəsəndi,
"Axmaqlar" qan içində.

Tutalım ki, mən aşığam,
Axı necə saz çalım?!
Simlər qırıq, mizrab sınıq,
Barmaqlar qan içində.

KÖHNƏ NAĞIL

Bircə-bircə ovladılar
Qoçaqları, qaçaqları.
Qızıl gülləymiş, sən demə,
Dünyadan alacaqları.

Bircə-bircə ovladılar
Gözəlləri, göyçəkləri.
Qızıl teştə qan qusmaqmış
Dünyada görəcəkləri.

Bircə-bircə sındırdılar
Şeir yazan barmaqları.
Od vurdular, yandırdılar
Sözü qızıl varaqları.

...Qorxaqları, kifirləri
Göz üstündə saxladılar.
Bır qəpiklik şeirləri
Oxudular, ağladılar...

***

Əlim qələm tutan gündən
Sözün əlindən qaçıram.
Budaqdan qaçan quş kimi
Mən də qələmdən qaçıram.

Hər yazdığım sözdən küsüb,
Özümə düşmən oluram.
Yazmadığım şeirlərin
Havasından dəm oluram.

Yazdığım söz mənim deyil,
Hər itin-qurdun malıdı.
Yazmadığım sözlər mənə
Yazdığımdan vəfalıdı.

Yazmadığım - qəbrə qədər
Gizli qalan sirrimdi.
Son nəfəsim bəlkə də
Ən vəfalı şerimdi...

TƏRS NƏĞMƏ

Yazmadığım şeirləri
Pozuram ömrüm uzunu.
Gəzmədiyim şəhərlərdə
Azıram ömrüm uzunu.

Toyda ağlamağım gəlir,
Yasda gülmək tutur məni.
Yasda sevinirəm; sağam!..
Toyda ölmək tutur məni.

Mən öləndə, - məni bəlkə
Beşikdə aparar balam.
Başım üstə layla çalıb
Qəbrimi yırğalar anam...

***

Bulud kimi ölmək -
bir yaz yağışında.
Ümid kimi ölmək -
bir qız baxışında.

Bir yel qanadında
yarpaq kimi ölmək.
Bir qəbir altında
torpaq kimi ölmək.

Bir gül kimi ölmək -
bir güldan içində.
Bülbül kimi ölmək -
bir hicran içində.

Bir səs kimi ölmək -
bir kar qulağında.
Bir söz kimi ölmək -
bir lal dodağında.

Gündən-günə ölmək,
Dönə-dönə ölmək,
Öldükcə dirilmək,
Sonra yenə ölmək...

OYUN

Vidadi Məmmədovun xatirəsinə

Nə pis yuxu tutdu məni
günün günortasında.
Bu şəhərin, bu küçənin,
bu ömrün ortasında.

Bir qış günü yatdım, ancaq
durub gördüm payızdı.
Bu kartları dəyiş, Allah,
mən bu ömrü uduzdum.

Gecəsini, gündüzünü
götür, bir də qarışdır.
Düş, gözümün qabağında,
burda, yerdə qarışdır.

Qara günlər arasından
bəlkə bir ağ gün çıxa.
Ya çıxa qətlimə fərman,
ya ölüm hökmün çıxa.

Amma cığallıq eləmə,
düz oyna, təmiz oyna.
Mən gedirəm cəhənnəmə,
ilahi, mənsiz oyna!..

GEDƏK BİZ OLMAYAN YERƏ

Gəl, əl-ələ tutub gedək,
Gedək biz olmayan yerə.
Hər dərdi unudub gedək
Dərdimiz olmayan yerə.

Burda qoyaq özümüzü,
Bu qırışan üzümüzü,
Bu köhnələn sözümüzü,
Gedək söz olmayan yerə.

Bir kimsə tutmasın xəbər,
Gəl, çıxıb gedək birtəhər
Bu ev, bu küçə, bu şəhər,
Bu dəniz olmayan yerə.

...Atam oğlu, az çapala,
Sən deyən çətin tapıla,
Bu Ramizi kim aparar
Bu Ramiz olmayan yerə?!.

***

Əgər geri dönə bilsən,
hansı yaşa dönərsən?
Qanad çalıb illər üstən
uçan quşa dönərsən.

Bircə qarış sağ-salamat
yer tapmazsan qonmağa.
Dəli kimi gah o başa,
gah bu başa dönərsən.

Dərddən ulaya-ulaya
qalarsan göy üzündə.
Və beləcə, ya duaya,
ya qarğışa dönərsən.

...Yolunu get, yola baxma,
Bu ömürdü, fala baxma,
Baxma, dönüb dala baxma,
baxsan daşa dönərsən...

BU QARANLIQDA

R.Məcidə

Məni yolda tutdu bu kafir gecə,
Ana bətnindən də qara bir gecə,
Suda batan kimi batdım eləcə
Yox oldum qəflətən bu qaranlıqda.

İtirdim, özümü tamam itirdim,
Yolumu, izimi tamam itirdim,
Mən hardan gəlirdim? Hara gedirdim?
Kimdən soruşum mən bu qaranlıqda?

Kimdən xəbər alım özümü, kimdən?
Məni nə dost tapar burda, nə düşmən,
Dünyanın ən qərib adamıyam mən:
Nə ev var, nə vətən, bu qaranlıqda.

Batdım, qaranlıqda boğuldum, çıxdım,
Qorxdum, o qorxudan ağardım, çıxdım,
Bəlkə də, təzədən doğuldum, çıxdım,
Bir ana bətnindən bu qaranlıqda...

QORXU

Dünyanın xoş üzündən də
Hərdən-hərdən qorxur adam.
Dostların sevgisindən də
Hərdən-hərdən qorxur adam.

Səksənir əsən küləkdən,
İyrənir açan çiçəkdən,
Öz başına sığal çəkən
Doğma əldən qorxur adam.

Ya gündüz olsun, ya gecə,
Özü də bilmir heç necə,
Elə durduğu yerdəcə
Qəfil birdən qorxur adam.

MƏN DURMUŞAM YERİMDƏ

Hamı mənə sarı gəlir,
Mən durmuşam yerimdə.
Yol getməyə yolu gəlir,
Mən durmuşam yerimdə.

Göydən məni görür Allah,
Darıxıb ölür Allah.
Mənə sarı gəlir Allah,
Mən durmuşam yerimdə.

Uzaqdan bir adam gəlir,
Məni ağladan gəlir.
Yolumu bağladan gəlir,
Mən durmuşam yerimdə.

Bu nə səsdi, bu nə əzan?!
Xəbər gəlir ölümdən.
Yer axtarma, qəbirqazan,
Mən durmuşam yerimdə...

DÜNYAYA ÇOXDAN BAXIRAM

Dünənki uşaq deyiləm,
Dünyaya çoxdan baxıram.
Ortaya düşən deyiləm,
Durub qıraqdan baxıram.

Dünya səsli, çığırtılı,
Kim eşidər pıçıltımı?!.
Bu küləyin uçurduğu
Sarı yarpaqdan baxıram.

Anam, heç nədən qorxmuram,
Nə görsəm də, mən qorxmuram.
...Yerdən, bəndədən baxmıram,
Göydən, Allahdan baxıram...

***

Tanrı verib bizi-bizə,
Baxır göydən gözü bizə,
Yel əsdikcə üzümüzə
Tanrının nəfəsi dəyir.

Biz nəyik? İnsan meşəsi...
O nəfəs becərir bizi;
Cücərir dodağın sözü,
Budağın meyvəsi dəyir.

Gün ötür xeyirdə-şərdə,
Biz hardayıq, tanrı harda?!..
...Göy üzündə amma hərdən
Gözümüzə nəsə dəyir...

NƏRDİVAN

Hara çıxır bu nərdivan,
Bəlkə yerdən göyə çıxır?
Kimi mahnı deyə-deyə,
Kimi söyə-söyə çıxır.

Kimi basır başımızdan,
Kimi dartır qıçımızdan,
Ən hündürə çıxan adam
Hamımıza yiyə çıxır.

Dırmaşır, hamı dırmaşır,
Adam-adama dırmaşır.
Bizə baxıb tanrı çaşır:
"Bu zalımlar niyə çıxır?!.."

Çıxır qocası-cavanı,
Bir deyən yoxdu: "Dayanın!..
Son ucu bu nərdivanın
Yenə o dünyaya çıxır..."

ÇÖRƏYİN DAŞDAN ÇIXIRSA

Çörəyin daşdan çıxırsa,
Qabqacağı neyləyirsən?
Bir məclisdə yerin yoxsa,
Qanacağı neyləyirsən?

Şaxta canından keçəndə,
Səni doğrayıb biçəndə, -
Üzün-gözün kül içində,
Bu ocağı neyləyirsən?

Dön, sağına-soluna bax;
Hamı ağıllı, sən axmaq,
İndən belə adam olmaq
Gecdi axı, neyləyirsən?!..

MƏN Kİ, BAXTIMDAN KÜSMƏDİM

Mən ki, baxtımdan küsmədim,
Neyləyim, budu qismətim,
Dünyanın ən fağır iti
Məni görəndə şir olur.

Hesablama itənləri,
Gələnləri-gedənləri,
Yaxşı-pis ötən günlərin
Axır adı "ömür" olur.

Hər ömür tələdi-tələ,
İçində çırpınır hərə;
Ya özün dönürsən külə,
Ya da, başına kül olur...

***

Dünya qurub tələsini,
Durub güdür hələ səni...
Bu bazarda tərəzinin
Dilini bilən qazanır.

Ən ucuz nədi? Qəm-kədər...
Buyur, ye xirtdəyə qədər,
Qorx ki, onda da deyələr:
"Filankəs filan qazanır!.."

Bu bazardan doydum, anam,
Düyün düşüb doğru-yalan...
Bu dünyada bir doğulan,
Bir də ki, ölən qazanır...

HÖRÜMÇƏK

Bu hörümçək ölə-ölə
Özünün torunu hörür.
Uzaqlara çatmır əli,
Sağını-solunu hörür.

Candan çıxır hər ilməsi,
O tordu evi, türməsi,
Qocalıb, tor görür gözü,
Gözünün torunu hörür.

Yel vurduqca toru əsir,
Titrəyir əl-qolu, əsir,
Bəlkə öz qəbrini qazır,
Bəlkə öz gorunu hörür...

***

Hardasa su şırıldayır,
Bir qulaq as, səsi gəlir.
Suda üzən balıqların
Təngiyən nəfəsi gəlir.

Diksinmə göyə baxanda,
Bizə uzaqdan-yaxından
Gələn quşlar caynağında
Öz dəmir qəfəsi gəlir.

Kimdi o göydən şığıyan?!
Dünya dolub işığıynan,
Bəlkə də, göy qurşağıynan
Düşüb Allah özü gəlir...

SEVGİ MƏKTUBU KİMİ

Dağlar arasında dərə -
dərindi yuxu kimi.
Dağ-dağa duman göndərər
sevgi məktubu kimi.

Göydə yeddi sətir cızan
o göy qurşağına bax.
Kimdi onu yazan? Allah!..
sevgi məktubu kimi.

Bir bax bu ağ kəpənəyə,
sanki qoşa varaqdı.
Uçur çiçəkdən-çiçəyə,
sevgi məktubu kimi.

...Haçan aşar bu sümükdən,
ətdən olan hasarı?!
Ruhum uçar göyə sarı,
sevgi məktubu kimi...

ŞAİR OLMAQDAN ÖTRÜ

Solmaza

Bir az günəş, bir az hava,
bir az yağış olmalı.
Bir az ağac, bir az yuva,
bir az da quş olmalı.

Bir az gecə, bir az küçə,
bir az işıq olmalı.
Bir az cavan, bir az qoca,
bir az uşaq olmalı.

Bir az özgə, bir az doğma,
bir az tanış olmalı.
Bir az nəğmə, bir az dua,
bir az qarğış olmalı.

Bir az sevgi, bir az günah,
bir az savab olmalı.
Bir az şübhə, bir az sual,
bir az cavab olmalı.

Bir az dünən, bir az bu gün,
bir az sabah olmalı.
Bir az kafir, bir az mömün,
bir az Allah olmalı...

***

R.Həsənə

Kaş ki, bu Odlar yurdunda
Qızına biləydi adam.
Bir yaşıl ağac altında
Uzana biləydi adam.

Uzanaydı ömür kimi,
Qazılaydı qəbir kimi,
Baş daşına şeir kimi
Yazıla biləydi adam.

Nə bir ata çörəyinə,
Nə dost-qardaş kürəyinə,
Pis gündə öz ürəyinə
Qısıla biləydi adam.

***

Hara qaçırsan, ay adam,
Bir dayan, nəfəsini dər.
Çiçəklərin ətrini dər,
Küləklərin hirsini dər.

Otur üstündə bir daşın,
Bir az açılsın qırışın,
Göydə uçub gedən quşun
Yerdəki kölgəsini dər.

Gör dünya nə deyir sənə,
Verib yeri-göyü sənə,
Əy başını öz sinənə,
Ürəyinin səsini dər.

...Sözüm ağlına batmasa,
Dünya könlünə yatmasa,
Əlin heç nəyə çatmasa,
Bu dünyadan özünü dər...

KÖLGƏ DÜŞÜR

Kölgə düşür üzümüzə,
Üzümüzdən kölgə düşür.
Kölgə düşür sözümüzə,
Sözümüzdən kölgə düşür.

Kölgə düşür aydan-gündən,
Adamın öz kirpiyindən,
Allah bilir, bizə kimdən,
Kimə bizdən kölgə düşür.

Kölgəsinə baxa-baxa,
Cana doyur adam daha,
Öləndə də, bu torpağa
Kölgəsiylə birgə düşür.

***

Atamın xatirəsinə

Rəhmət deyək min-min ağız
Bu evi tikən kişiyə.
Kölgəsində durduğumuz
Ağacı əkən kişiyə.

Ağactək yerə kök atıb,
Çiynində min cür yük tutub,
Başını hər vaxt dik tutub
Belini bükən kişiyə.

Hasardan düşən daş kimi,
Üzükdən düşən qaş kimi,
Ağızdan düşən diş kimi
Yeri görükən kişiyə...

QIYMADIN BİR KİMSƏNİ OYATMAĞA

Hacının xatirəsinə

Günlər yarpaq kimi qopmur ömürdən,
Qopur diş kimi, dırnaq kimi.
Hər keçən gündən iz qalır
Üzümdə cırmaq kimi.

Çətini yaşamaqdı,
ölmək nədi ki? Heç nə.
Son dəfə nəfəsini çəkib içinə
bir dərin suya baş vurmaq kimi.

Su içindən gəlir dünyaya insan,
Nə var su içində ölməkdən asan?
Xeyri yox, lap dönüb balıq olasan,
əcəl durub yol üstə qarmaq kimi.

...Qıymadın bir kimsəni oyatmağa,
Bu səhər üz tutub sübh əzanına -
getdin.
Bizdən ayrıldın daha,
Ən əziz dostun yanına getdin.
Daha nə dərdin?
yanında dostun var Allah kimi...

BİLƏCƏRİ QƏBRİSTANI

Şirinin xatirəsinə

Biləcəri qəbristanı,
bir dost tapşırdıq sənə.
Nə tez əldən verdik onu,
nə tez tapşırdıq sənə.

Burdan keçən qatarlara
əl eləyək, dayansın.
Hamısı səs-səsə versin;
bəlkə o dost oyansın

Bir oyanıb desin görüm,
bu necə əcəliymiş?
Dünyanı gəzsən də, ömrün
sonu Biləcəriymiş?!..

...Biləcəri qəbristanı,
dostumuzu əzizlə.
Hara getsək, dönəcəyik;
gözlə, bizi də gözlə!..

***

R.Həsənoğluna

Yolu çaşa-çaşa gəldim,
hər yan dumandı, gördüm.
Dünyayla baş-başa gəldim,
üz-gözüm qandı, gördüm.

Gərək işıq yanana yox,
it hürənə gedəsən.
Mən də getdim; itlər susdu,
işıqlar yandı, gördüm.

Bir qapını döyən kimi
on pəncərə açıldı.
Hər açılan pəncərədən
bir div boylandı, gördüm.


Qorxdum, qaçdım dəli kimi
nəfəsim kəsilincə.
Döndüm, gördüm qovan yoxdu,
qorxum yalandı, gördüm.

Oturdum bir daş üstündə,
nəfəsimi dərməyə.
Dərdiyim son nəfəsimdi,
ömür tamamdı, gördüm.

ÜÇÜNCÜ KİTAB

BİR YAĞIŞLI NƏĞMƏ

(ilk şeirlər)



NƏĞMƏ QIRĞINI İLİ

ONBİRLİK ÜSTÜNDƏ

O mənim bacımdı, mən ona qardaş,
Onu əzizləyib saxlayaram mən.
Axar gözlərimdən on bir damcı yaş,
Onbirlik üstündə ağlayaram mən.

Qıymaram, qoymaram əyilə, sına,
Onu qoruyaram son nəfəsəcən.
Dilimin ucunda haqq qapısına
Gedən son misraya, axır sözəcən.

Gəlir təzə şeir, hecasız şeir,
O "gül"süz.
"bülbül"süz,
"hicran"sız şeir.
Onun əllərində dünya oyuncaq,
Çayları dolayıb ayaqlarına.
Mənim onbirliyim ürkək, utancaq,
Eşidir, inanmır qulaqlarına.

Varaqlar qorxudan ağarır belə,
Elə bil

qar örtür
əkin yerini.
Görən misralarmı dağılır belə,
Yoxsa ki, bacımın hörüklərimi?!

Əgər ölürsənsə -
gücsüzəm demək,
Verimmi ömrümü sənin yolunda?!
Mənim onbirliyim
nəhəng balıqtək
Çırpınır, can verir əsrin torunda.

Baxıram, qorxuram özüm-özümdən,
Bu tora gör kimlər düşüb qalacaq;
Xırdalar keçəcək torun gözündən,
Vurğun ilişəcək,
Müşfiq qalacaq.

İsitməz külümü nə od, nə atəş,
Dərdimi gizlində saxlayaram mən.
Axar gözlərimdən on bir damcı yaş,
Onbirlik üstündə ağlayaram mən...

1965

BİR DURNA OXUYUR

Bulaşıb dimdiyi nəğməylə, qanla,
Ayrılır Allahın verdiyi canla,
Bir durna oxuyur -
nə deyir görən?
Gileydən yoğrulub nəğməsi, sözü:
"Bir durna teliyçin
durna öldürən
İgid Eyvazım da küsdürüb bizi.
Yeddi min ox atdı
yeddi min dəli,
Hər oxun ağrısı, əzabı qaldı.
O şiş papaqlarda
durnanın teli,
Şişlərdə durnanın kababı qaldı.
Bu dərdə söz qoşdu əli sazlılar,
Silib gözlərini biləkləriylə -
Uçan durnalara
şeir yazdılar
Ölən durnaların
lələkləriylə..."

Titrəyir bir sazın qırılan simi,
Bir durna oxuyur -
can verir, nədi?!

Hecası pozulan misralar kimi
Durna qatarları uzanıb gedir.
Gedir -
arxasınca yerə qar düşür,
Düşür -
dünyamıza soyuqlar düşür.

Düşür şerimə də bu qışın qarı,
Misralar sığınır biri-birinə.
Köçür şerimizin durna qatarı
Vidadi şerinə, Vaqif şerinə.
Köçür -
arxasınca yerə qar düşür,
Düşür -
şerimizə soyuqlar düşür...

1965

GÜNAH İÇİNDƏ

Sergey Yesenina

Bükülüb kəfəntək ağ varaqlara,
Tabuttək qapqara kitab içində;
Bütün şeirlərim qan içindədi,
Bütün şeirlərim günah içində.

Dünya qaranlıqdı, hava ayazdı,
Mən bura gəlmirdim, yolumu azdım,
İlahi, öləndə sən məni basdır
Bir isti, işıqlı çıraq içində.

Getdi, daha dost da, tanış da getdi,
Ən son papiros da alışdı-getdi,
Ruhum tüstüsünə qarışdı-getdi,
Ürəyim boğuldu araq içində.

Bu gecə dünyanın canı çıxacaq,
Göydən ulduzların qanı axacaq,
Qorxuram ölmüşəm... gözlərim ancaq
Hələ də boylanır maraq içində...

1965

QARA ƏL

Qara əl -
arxamca uzanan kölgə,
Ondan nə ayrılmaq, nə qopmaq olur.
Qara əl şairlə doğulur bəlkə,
Bəlkə də, şairdən qabaq doğulur.

Şair doğulanda gəlir qara əl,
Dayanır şairin başı ucunda.
Bəlkə mamaçadan,
anadan əvvəl
Qara əl şairi tutur ovcunda.

O sıxır ovcunda
şairi bərk-bərk,
Çırpınır ovcunda şair balıqtək.
O sıxır şairi,
daşa döndərir,
Sıxır dərdini də, qorxusunu da.
Qara əl inanmır,
adam göndərir
Gecələr şairin yuxusuna da.

O sıxır şairi,
suya döndərir;
Su axır şairin bəbəklərindən,

Su axır boynundan,
kürəklərindən,
Su axır -
şairin saçından daşır,
Şair -
qara əlin ovcundan daşır,
Qarışır çaylara, sellərə şair,
Qarışır aylara, illərə şair...

...Bəlkə də, şairi öldürməzdi heç
Nə düşmən qarğışı,
nə dost çəpiyi.
Qara əl şairi itələyir:
- Keç!..
Sonra da, ardınca çəkir tətiyi.

Şair uzananda yaralı, xəstə,
Canında rahatlıq duyur qara əl.
Sonra da, şairin qəbrinin üstə
Birinci gülləri qoyur qara əl...

1966

NƏĞMƏ QIRĞINI İLİ

Federiko Qarsia Lorkaya

Kimin xatırındadı
nəğmə qırğını ili?
Nəğmələri öldürürdülər.
Nəğmələr
şairlərin qapısını
döyürdülər:
- Açın!
Gizlənək...
Qapını açan oldu,
Nəğməsiylə bir vuruldu
qapısı ağzında.
Kimisi də bağladı
qapını bərk-bərk,
Otağın bir küncünə
qısılıb gizlənərək.
Nəğməsi öldürüldü
qapısı ağzında,
Beş cüt qanlı barmağın
izi qaldı qapısında.

Nəğmələri dəfn etmədilər.
Qarğalar dimdiklədi
ölü nəğmələri.

Və... sayı artdı bülbüllərin.
Nə bir səs, nə həmirti...
Boğazından asılmış
gitaralar
küləkdə yellənirdi.
Sonra bir qoca gəzdi
dünyanın
qanlı torpaqlarını,
Örtdü ölü nəğmələrin
açıq göz qapaqlarını...

Kimin xatırındadı
nəğmə qırğını ili?!
Təzə-təzə vərəqlərə sarındı
nəğmələrin köhnə yaraları,
Bağrımıza basmışıq sınıq gitaraları;
torpaq ətri qoxuyuruq.
Nəğmə qırğınında ölən
nəğmələri oxuyuruq...

1967

***

Bir nəğmə toxumu basdırdım yerə,
    becərdim,
        cücərdi,
            ucaldı nəğməm,
Qalxdı qol-budaqlı bir ağac kimi.
O ağacın kölgəsində uzandım.
    yatdım, getdim yuxuya.

Bir toxum da basdırdılar sağımda,
    solumda da basdırdılar birini.
Oyandım,
    böyrümdə bir meşə gördüm;
Nəğmələrin kölgəsində
        şairlər yatmışdılar.
Yenə yatdım,
    yenə getdim yuxuya...

Sancıldı yuxuma balta səsləri,
    doğrandı, doğrandı, doğrandı yuxum,
    qıvrıldı, qovruldu, bağlandı yuxum.
Bağlandı -
        yuxumun qaldım içində.

...Gözümü açanda meşə yoxuydu,
kötük-kötük qaralırdı
nəğmələr.
Şairlər oturmuşdular
kötüklərin üstündə.
Mən də qalxdım,
nəğmənin kötüyündə oturdum.
Oturduq eləcə,
susduq eləcə...

...Yoldan keçən,
dindirmə,
qan ağlarıq!..

1968

İLXILAR

İlxılar keçdi, ilxılar;
madyanları, qulunları,
qamçıya qul olanları.
Tapdaladılar, keçdilər
İncilləri, Quranları.

At belində çapanların
əllərində qılıncları.
At belində qırardılar
bellərindən quluncları.

İlxılar keçdi, ilxılar;
oddan, alovdan, tüstüdən.
İlxılar keçdi, ilxılar;
illər, nəğmələr üstündən.
O illərin üzü ləkə,
Nəğmələrin üzü ləkə
nal izindən, nal izindən.

Göydə günəş batanacan
ilxılar keçdi, ilxılar.
Biz bu çölə çatanacan
ilxılar keçdi, ilxılar.

Yaxşı ki, keçdi ilxılar...
...Görən yenəmi ilxı var?!

1968

QARĞIŞ

Lap beşikdə, bələkdə
Eşitdik bu qarğışı:
"Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı...".

Bir qürbət ölkə gəzmək
Düşmədi payımıza.
Bu vətəni kəfəntək
Ölçdülər boyumuza.

Qayçıtək Arazı da
Aralığa atdılar.
Bu kəfəni bir az da
Kəsdilər, qısaltdılar.

Kimin əli çıxdısa,
Kimin dili çıxdısa
bu kəfənin altından,
Əlini də kəsdilər
Dilini də kəsdilər
bu vətənin adından.

...Bu kəfəni bir aç-bax;
hələ diriyik, Allah!

Bu kəfəndən ağappaq
bizə köynək tik, Allah!

Biz də bəndənik axı,
Bizə nə dərd, nə qəm ver.
Ölməyə yox, ilahi,
Yaşamağa vətən ver!..

1966

NƏ VARLIDI BU TORPAQ

Nə varlıdı bu torpaq;
Burda quş dimdiyindən
Yerə düşən dən - bitir.
Hər şeydən yaxşı ancaq
Bu torpaqda qəm bitir.

Qəm bitir bu torpağın
Daşında, qayasında.
Buludundan qəm yağır,
Dərd çıxır quyusundan.

Yoxlasan, burda hərə
Bir dərd ilə xəstədi.
Burda körpələr belə
Dərd çəkməyə ustadı.

Bizi yaxşı tanıyır
Bu dünyanın dərdləri.
Bizi deyib gəlirlər
Adlayıb sərhədləri.

Burda dərdlər kef çəkir,
Hamısı dipdiridi.

Bura bütün dərdlərin
Sığınacaq yeridi.

...Nə varlıdı bu torpaq,
Bir əkirsən - dörd bitir.
Hər şeydən yaxşı ancaq
Bu torpaqda dərd bitir.

1966

***

Torpaq örtdü hər şeyi;
yollar, izlər örtüldü.
Axtarıb-axtarıb tapammadığım,
Tapanda doyunca öpəmmədiyim
ala gözlər, qara gözlər örtüldü.
Şairlərin neçəsini azdırıb,
Cavanını, qocasını azdırıb,
dünyada tək mənim şair bəxtimə
düşən sözlər örtüldü, -
torpaq örtdü hər şeyi.

Bu nə torpaqdı, Allah?!
Ürəyimin başından
qabardı-qalxdı, Allah.
Bir ah çəkdim, ahımdan səpələndi,
qəbir kimi təpələndi üstümdə.
Uddu, uddu, uddu bu torpaq məni;
Nə vətəndə, nə qürbətdə,
Nə şəhərdə, nə kənddə,
Uzaqda yox, yaxında, lap yaxında,
Ürəyimin torpAHında
basdırdı Allah məni, -
Torpaq... torpaq... torpaq örtdü hər şeyi...

1970

TORPAQ

Torpaq yuxudan yumşaq,
göy üzü gözdən duru.
Bu torpaqla göyün arasında
ölməklə necəsən
bu gecə yarısında?!

Torpaq elə yumşaqdı ki,
adam öləndə belə
Yıxılıb
öz kobud bədəniylə
bu torpağı ağrıtmağa utanır.

Torpaq yuxudan yumşaq...
Kimin yuxusundan, atam?!
Sənimmi?
Mənimmi?
Bizim yuxumuza yıxılan adam
parçalanar
parça-parça.

Torpaq yuxudan yumşaq...
Elə yumşaqdı ki,
bizdən sonra yüz il də
saxlar ləpirlərimizi.

Yurdsuz pişiklər gecələyər
    ləpirlərimizdə.
Sonra torpaq daşlaşar,
    daşlaşar ləpirlərimiz,
        daşlaşar pişiklər...

...Və yüz il sonra bir adam
    əyilib bir daş qaldırar
        ləpirimizdən,
            bir itə atmaq istər -
Və əlində qorxudan
        miyoldayar daş...

1970

AĞ YELKƏNLİ GƏMİLƏR

Sulara atılan daş kimi, atam,
batıram şəhərin dibinə mən də.
Qumlarda çırpınan
bir cüt balıqtək
Çırpınır gözlərim hər səhər-axşam
bu ipək pəncərə pərdələrində.
...Və bir qarış o yana
sürüşkən pəncərə şüşələrində
üzür, ağ yelkənli gəmilər üzür.

Ağ yelkənli gəmilərə
yetişməz əlim,
Mənə kəndir sallamazlar
gəmilərin divarlarından.
Ağ yelkənli gəmilərin
əzib keçdiyi
Ölü balıqlar üzür damarlarımda...

1967

DƏNİZ NAĞILI

Balıqların donuq bəbəklərində
sızlar ulduzların yuxusuzluğu.
Bəlkə də, göylərin ətəklərində
Tanrı özü əkib bu ulduzluğu.

Dəniz göyə baxar div iştahıyla,
dəniz dalğa-dalğa göyə yeriklər.
Balıqlar dırmaşıb ay işığıyla,
göydə ulduzları dənləyəcəklər.

Gecənin qəribə qəribliyində
dənizə göylərdən balıqlar düşər.
Sonsuz üfüqlərin göy ipliyindən
xırdaca-xırdaca yumaqlar düşər.
Bir qoca kapitan baxar qayadan,
dəniz -
gəmilərsiz
boş nənni kimi.
Dənizsiz darıxar qoca kapitan,
səsini itirən müğənni kimi.

Sahil qumlarının ləpir ümidi
verilər dalğalar ixtiyarına.
Bir tənha gəminin bir tənha fiti
çırpılar qağayı qanadlarına.

Qoca kapitanın son nəfəsiylə
ağrısı-acısı canından çıxar.
Balıqlar oxuyar titrək səsiylə,
sudan yarıbalıq xanımlar çıxar.

Uzadar əlini dəniz qızına...
Donuq bəbəkləri şüşələnəndə -
Birdən
gözlərində bir dəniz sınar,
Sınar xəstaxana şüşələrində...

1967

***

Balıqçı süfrəsində,
Boşqabların içindəki
balıqların gözündə
dəniz ağlayır.
Una bulaşıb dəniz,
Yağ içində qızardıblar
dənizi.

Zənbildən
çiy balıqların
gözündəki çiy dəniz
Heyrətlə baxır
boşqabların içindəki
bişmiş dənizə.
Pəncərə önündəki
akvariumun içində,
Yosun barmaqlıqların
arxasından
zolaq-zolaq balıqlar
Heyrətlə baxır
boşqabların içindəki
bişmiş dənizə.
Əgər dəniz bu isə...
Əgər dənizin sonu
sapılcada bitirsə...
Yaşasın akvarium!..

1967

ÖLÜ DƏNİZ

İlahi, bu yuxu nə pis yuxuydu,
Gecə yuxumuza girmişdi dəniz.
...Yüyürdük sahilə -
dəniz yoxuydu,
Biz gəlib çatınca ölmüşdü dəniz.

Dəniz qurumuşdu göz yaşı kimi,
Nə suyu qalmışdı, nə balıqları.
O ölən dənizin
baş daşı kimi
Dikəlib qalxırdı qayalıqları.

Hər qaya dibində
bir su pərisi, -
Pərilər yas tutub ağlaşırdılar.
Axtara-axtara itən dənizi
Göydə qağayılar çığrışırdılar.

Əliboş qalmışdı balıqçılar da,
Neçə tordan çıxıb qaçmışdı dəniz.
Görəsən yerəmi batmışdı dəniz?
Görəsən göyəmi uçmuşdu dəniz?

Hər tərəf qum idi; qupquru, dən-dən, -
səhraya dönmüşdü bu dəniz daha.
...Birdən balıqçılar qopdu yerindən,
cumdu pərilərdən acıq çıxmağa.

Bütün əldən çıxmış o balıqların,
Bütün olmuşların, olacaqların,
bütün bədbaxtların acığını da.
Evdə yol gözləyən ac uşaqların,
kifir arvadların acığını da.

Pərilər qışqırıb haray çəkirdi,
Yetişə bilmirdi haraya quşlar.
Havada çırpınıb lələk tökürdü,
Çırpırdı özünü qayaya quşlar.

Hər qaya dibində
bir su pərisi:
- İlahi, - deyirdi, - hardasan, harda?!
Sonra pərilərin kəsildi səsi,
Sonra çıxıb getdi balıqçılar da.

O ölən dənizdən
axı nə qaldı?
Qum örtdü, gizlətdi son ləpirləri.
Qum üstə bir ölü qağayılardı,
Bir də ki, zorlanmış su pəriləri...

1970

***

Qılçığını təmizləyə-təmizləyə
yedik, yedik bu balığı.
Ağzı sulana-sulana
pişik baxdı qıraqdan.
Süfrəmizdə
bir qalaq qılçıq qaldı
haçansa sağ balıqdan.
İndi budu -
o qılçıqlar
tikan-tikan dikəlir.

Bu balığın
nəyinə lazımdı axı
Ömrü boyu canında
gəzdirdiyi o tikanlar,
hansı gününə lazımdı?
Sağlığına,
yoxsa ki, ölümünə lazımdı?
Bu balıqlar
niyə belə yazıqdı,
Görən niyə
balıqların
tikanı üzdə deyil,
Niyə axı
kirpi deyil balıqlar?!..

1970

DƏNİZƏ QAR YAĞIR

Dənizə qar yağır.
Qar yağır
qayıqlara,
qayalıqlara.
Şaxta baba, nə olar,
bir dəfə də dənizə gir,
hədiyyə apar
balaca balıqlara.

Dənizə qar yağır.
Amerika kosmonavtları kimi
suya enir
qar dənələri.
Mister Heminquey,
qocanı
dənizə buraxmayın,
dənizə qar yağır.

Dənizə qar yağır.
Köhnə gəmilərə bənzərəm,
köhnə, yorğun gəmilərə.
Dalıqatlı uzanmışam
sahildə,
gözlərimə qar yağır.

Qışı limanda qalacaq gəmilər,
Mehmanxana olacaq gəmilər.
Bu gecə səhərəcən
limandakı bir gəmidə
yatmaq istəyirəm mən, -
evim olsa da...

Dənizə qar yağır;
ağappaq, yupyumşaq.
Çal gəminin fitini, kapitan!
Sahilə çıxsın
bir dəstə balıq,
bir dəstə uşaq.
Qartopu oynayaq...

1968

"NAZİM HİKMƏT" GƏMİSİ

Bu nəğmə
göz yaşından
islanmır.
Salam, İstambul, İstambul...

Səsləndi
"Nazim Hikmət" gəmisinin
fiti
Oyatdı yuxudan
limanda yatan
sərsəri iti.
Oyandı
yük daşıyan hamballarn gözündə
pulqazanmaq ümidi.
İstambulun ümidi
Nazimədir yenə də,
hey gidi dünya, gidi...

Bura İstambuldu, Lidiya İvanovna.
Çıxaq
xatirə ovuna.
Bazarlarda qovuna bax,
qovuna...
Yəqin rast gələcəyik

Nazimin
alverçi qohumuna.
Nəyi olmasa da istambullunun,
var yaxşıca bığ eşməyi.
Yaxşı görmürsünüz, doktor,
çıxarın çeşməyi.

Bura İstambuldu,
seyr et, gözüm.
Ayaqlarım gəzin, gəzin.
Məsçid minarəsindən
boylanır Nazim:
"Gəzin, quzum, İstambulu,
Ürəyimdə
iki İstambul da var
bundan savayı;
Bir xatirə İstambulu,
bir arzu İstambulu.

Bu gəmi mənim evimdi,
Evimi gördüm, sevindim.
Bu gəmidə yer verin
İstambul yurdsuzlarına,
avaralarına.
Bir sevincək sərxoşun
divara çırpdığı qədəh kimi
Çırpacam ürəyimi
bu gəminin divarlarına.

Osman oğlu Haşım, qardaşım!
Siz burda nə axtarırsınız?

Belə arıq, belə cılız.
Kapitan, ona yük verməyin!
Yıxılıb ölə bilər.
...Bir dəfə də yıxılıb ölmüşdü".

...İstambula duman çökür.
Bir gəmi ayrılır
sahildən.
Nazim qalır limanda,
Nazim itir dumanda.
Bu gəmi
göz yaşından
islanmır,
Əlvida, İstambul, İstambul...

1968

QARANLIQ

***

Bu nəhəng qaranlığın
ən uzaq bir küncünə
bir parça işıq düşür.
Qaranlıqda
vargəl eləyən adam
o işığı tutub gedir, -
amma gedib çatmadan
yenə dönür arxaya.
Gedir, gedir, yenə gedir
qaranlığın içiylə,
Amma peysəriylə, kürəyiylə, çiyniylə
duyur, duyur arxadakı o bir parça işığı,
O işığa
arxayın olub gedir, -
gedir, gedir, yenə dönür arxaya...

...Gözləri yumulur daha,
onu ev-eşik çəkir,
isti yorğan-döşək çəkir.
Axı niyə dönüb getmir evinə?
O işıqmı
bu adama keşik çəkir görəsən,
Bu adammı
o işığa keşik çəkir?!..

1970

***

Təkcə gücsüzlüyündən
yıxılmır, atam balası,
Arabir gücündən yıxılır adam.
Başını dik tutub gəzdiyi yerdə
içindən yıxılır adam.
İllər boyu neçə dərdə
dözüb dayanır,
Qəfil sevincindən yıxılır adam.

Dünya qaçır ayağının altından -
yıxılmır,
Bu dünyanın ən dəlisov atından
yıxılmır,
Amma bir kəpənəyin qanadından,
bir otun ucundan yıxılır adam.

...Gülmə hər yıxılana,
atam balası, gülmə, -
Elə bilmə
bu dünyada təkcə gücsüzlüyündən
ya da ki, acından yıxılır adam...

1970

***

Necə hündür olur-olsun,
bu dünyada üstündən
heç olmasa bircə kərə
heç olmasa bircə pişik keçməyən
hasar yoxdu.
Bütün hasarlardan keçir pişiklər,
bu dünyada heç kəs bilmir
pişiklərin bildiyini...

...Hasarı hündür, qapısı hündür,
Bu həyət kimindir? Bu ev kimindir?
Görən kim yaşayır bu dar dalanda?
Görən nə var bu hasarın dalında?!
Öz gözümlə gördüm indi
bir pişiyin adam kimi çığırıb
bu hasardan yıxılıb öldüyünü...

1968

***

Nə çöldə, nə meşədə, -
Adam ən çox evində-eşiyində,
özü-özündə itir.
Bir körpə beşiyində,
bir qadın sevgisində itir.
Yumub-açınca gözünü, -
özünü sevgiyə xərcləyir adam.

...Amma, atam,
hirsi, qəzəbi, kini
Yumruq kimi sıxır, sıxır adamı -
Və bir ovuc qum kimi
sıxıla-sıxıla bərkiyir adam.

...Amma, atam,
yenə, yenə su təki
Axtarıb yol tapır adama sevgi;
oyur, oyur, yeyir, yeyir adamı.
Nə adam?
Adam hanı?
O "adam" dediyin budumu, atam?
Bir damla sudumu adam?!..

1970

SƏMA MİLYONÇUSU

Ürəyim həmişə əyində gəzən
Nimdaş paltar kimi süzülüb tamam.
Bu axşam
ulduzlu göylərdən kəsib,
Sökülən qəlbimi yamayacağam.

Qəlbim böyüyəcək azadlıq kimi,
Sönmüş ümidləri səsləyəcəyəm.
Ayı da bir gümüş manatlıq kimi
Göydən cibxərcliyi istəyəcəyəm.

Mənimçün bəzənib vitrinlər axı:
- Bunu istəyirəm...
Yox, bundan çəkin!..
Sonra uzadaram ay manatlığı,
Bu ay manatlığı kim xırdalar, kim?!

Səhər radiolar verər səs-səsə,
Qəzetlər danışar -
(nə gop, nə hiylə):
"Dünyada qəribə bir adam gəzir,
Öz ay manatıyla,
səma cibiylə".

Sonra əzizləyər yuxular məni,
Heç kəs
yuxularda dəyməz kefimə.
Təkcə kosmonavtlar qorxudar məni,
Birdən kosmonovtlar girər cibimə.

...Ürəyim həmişə əyində gəzən
Nimdaş paltar kimi süzülüb tamam.
Bu axşam
ulduzlu göylərdən kəsib,
Sökülən qəlbimi yamayacağam.

1967

BİR YAĞIŞLI NƏĞMƏ

Ürəyim incələr yağış yağanda,
Yadıma doğmalar, əzizlər gələr.
Nədənsə gecələr yağış yağanda
Yuxuma dəryalar, dənizlər gələr.

Gecə yağış yağar -
min səs, min səda,
Tikanlı nəğmələr dinləyər gecə.
İynələr sancılan,
iynələr batan
Zənci bədənitək inləyər gecə.


Gecə yağış yağar -
qəmlə köklənən
Bir şair qəlbini əzizləməkçin.
Gecə yağış yağar -
gündüz çirklənən
Günahkar dünyanı təmizləməkçin.

Səma sahibkarı kövrələr yenə,
Açar sandıqları, dəfinələri.
Gecə yağış yağar -
yağar şerimə,
Yuyar hecaları, qafiyələri.

Gözlərim yorulub yorğun ay kimi,
Söndürüb işığı
yatacağam mən.
İndi otağımı kəlağay kimi
Gecənin çiyninə atacağam mən.
İndi otağıma dolacaq gecə,
Gecəni yanımda qalacaq gecə,
Səhər açılanda mənim evimdən
Qupquru çıxacaq
bir otaq gecə...

1967





SƏTTAR BƏHLULZADƏNİN BARMAQLARI

Yadından çıxıb
qalacaq barmaqları
bir papiros qutusunda.
Bir divar uçuğunda
qalacaq barmaqları.
Barmaqlarını tapa bilməyəcək
şəkil çəkmək istəyəndə, -
axtaracaq otaqları...

...Bayırdan
pəncərəni döyəcək barmaqları,
çağıracaq onu küçəyə.
Barmaqlarının dalınca düşəcək:
- Dayanın, barmaqlarım!..
Saçlarımı darayın, barmaqlarım...

Çeçələ barmaq
ayaqdan iti,
Baş barmaq
ayaqdan ağır.
Orta barmaq söz eşitməz,
ha ki çağırırsan, çağır.
Şəhadət barmağı baş alıb gedər,

aparar ardınca qardaşlarını.
Adsız barmaq
hayandasa ayrılacaq onlardan,
Siləcək
bir qızın göz yaşlarını.

O qaçdıqca
qaçacaq barmaqları,
Küçələri dolaşacaq barmaqları.
Barmaqlarına
çata bilməyəcək,
Gecəni səhərəcən
yata bilməyəcək...

...Və xəbər tuta bilməyəcək
səhərəcən
külqabıda tüstülənən
barmaqlarından...

1968

XATİRƏ KAFESİNDƏ

Qaranlıq
ayağını
qoydu pilləkanlara.
Gecə
qara qəhvə kimi
töküldü
otaq - stəkanlara.
Bir xatirə kafesi
tikildi
bu gün tək olanlara.
- Bir cüt qənd-ulduz
salıb
qarışdırın gecəni
xatirə qaşığıyla.
Köhnə xatirə
köhnə şərabtək
Bir qurtum içsən
sərxoş edəcək.
- Ey...
məni də buraxın
xatirə kafesinə!
Xatirə sərxoşları,
yanınızda yer verin
xatirə keflisinə.
Nə desəniz edərəm,

nə yesəniz alaram.
Sizinçün rəqs edərəm,
tar, kamança çalaram.

Sonra...
yola salaram
sərxoş qonaqları
gecənin yarısında.
Lümlüt soyundurub
çimizdirərəm ürəyimi, -
ərköyün uşaq kimi
əl-qol atıb oynasa da,
Dağıtsa da üstümə
xatirə köpüyünü.

Tərtəmiz olacaq
çimməndən sonra,
Elə ayaq üstəcə
yuxulayacaq ürəyim -
Xatirə kafesinin
balaca sahibkarı...

1968

MƏNİM TELEFONUM

Tünelə yeriyən bir qatar kimi
Yeriyib girərəm
bu tənhalığa.
Gizlicə-gizlicə gəlib arxadan
uşaq əlləritək
yumşaq bir yuxu
örtər gözlərimi,
yataram daha...

Yuxu dənizində yatar ev-eşik...
Avar - çəngəl-çıçaq...
qayıq - qabqacaq...
Mənim telefonum -
qara bir pişik,
Mənim telefonum
ölü bir pişik,
Sənin bircə dənə zənginə bənddir,
Atılıb üstümə
cırmaqlayacaq.

1968

SƏS HAQQINDA LƏTİFƏ

Bu gün şəhərimiz səssiz kinoydu.
Nəhəng maqnitafona
yığıb səsləri
sallamışdıq dənizə.
Dözə bilmədilər
balıqlar ancaq,
Üzə-üzə
sahilə atdılar maqnitafonu.
Səslər qayıtdılar
şəhərimizə.

Bir maşın fiti
küçələrdən keçə-keçə,
Çığıra-çığıra saldı özünü
səssizcə gedən
bir "Moskviç"ə.
Qəzet oxuya-oxuya
yeriyən çeşməkli qoca
səksənib atıldı səkiyə,
Sonra baxdı
yanından
çığıra-çığıra ötən
təkərli təhlükəyə.

Həyətimizə girdi
Alabaşın səsiylə
Məstan pişiyin səsi
dalaşa-dalaşa.
Məstan pişik göydə qapdı
Alabaşın səsini,
hürdü Alabaşa.
Özü öz səsindən qorxub
dırmaşdı ağaca.

Maqnitafondan sıyrılınca,
Düşüb relslər üstə
qatar dalınca
qaçdı "dayan" deyən bir oğlan səsi.
Bir qız "əlvida"sız getdi vaqonda...
Ölüsü içindən
dirilib qaçan
bir tabut kimi
Sahildə qalmışdı maqnitafon da...

1967

KARUSELDƏ FIRLANMAQ İSTƏYİRƏM

Bu gecə işıqları
küçə uşaqlarıtək
yiyəsiz, ürkək.
Əlimdə cib fanarım,
balaca işıq Qavroşu,
gəzirəm küçələri.
Vitrindəki
o "gözəl" də yatmayıb.
Sındırasan şüşələri,
çıxarasan o "gözəli"
küçəyə.
Ancaq...
milsəner də yatmayıb.

Dənizkənarı parkın
qoca gözətçisi
uzanıb skamyada.
Skamyada
gündüz əyləşən qızın
ayağının istisi,
Bir də öpüşlər qalıb,
boyatlaşıb indiyə.

Reklam kağızlarına
bürümək istəyirəm
bu neon lampaları, -
yalındır əyinləri.
Evlərdə xumarlanır
yatacaq lüstürləri,
(işıq ərköyünləri).

...Bu idmançı qız heykəli
üşüyür deyəsən.
İcazə verin,
atım pencəyimi
çiyninizə.
Əllərinizi isidərdim
ovuclarımda,
İdmançı oğlan heykəli
inciməsə.
Nəsə...
...Karuseldə
fırlanmaq istəyirəm
bu gecə
Bir fırladan olaydı,
fırlanaydım sübhəcən.
Görəsən, çağırsam milsəneri,
fırladarmı karuseli?..

1968

GECƏ QATARLARI

Gecə qatarları gedər... gedər...
Yad ölkənin
sahilinə sərilən Sindibad kimi
gedib çıxar səhərə.
Vaqon - restoranlarda
xərclərik yuxuları.
Gecə qatarları gedər...
Gedər
irəli... irəli...
yuxarı... yuxarı...
Tükənər
bir qatarın buxarı,
Qalar
"Gecə yarısı" vağzalında.
Hayandasa
gözləmə salonunda
mürgüləyər adamlar.
Gecə qatarları gedər,
gedər...
Yalvarsa da nə qədər,
atarlar
biletsiz alverçi qadının
zənbilini qatardan.
Özünü də düşürərlər aşağı.
Qaranlığı
söyə-söyə

zənbilini axtarar alverçi qadın.
Gecə qatarları gedər...
gedər...
Onların dalınca ağlamaq
hədər.
Onları yolundan saxlamaq
hədər.
Hədər olsa da,
bir gecə qatarını
saxlamaq istərəm,
Bir gecə qatarını
səhərəcən izlərəm
bir maşında.
Qəfil doğan günəşdən
gözlərim qamaşanda
çırparam qatara maşını,
Axan qanım
bulayar üst-başımı.
Sərnişinlər tökülüşər
qatardan.
Əsnəyə-əsnəyə baxar adamlar
bu qəribə sürücüyə,
bu qəribə maşına,
bu qəribə ölümə.
Sonra qatar düzələr öz yoluna, -
gedər... gedər...
Bu qatarın dalınca
ağlamaq hədər,
Bu qatarı yolundan
saxlamaq hədər...

1969

GECƏYƏ ÇARMIXA ÇƏKİLMİŞ ADAM

Mən bu gecənin altında
asfalt altında qalan
torpaq kimiyəm.

Uzun-uzun ayaqlarım, əllərim
hayandasa sürüşüb
bu gecənin altından
çıxar qırağa.
Gözlərim -
asfaltın altında.
Ürəyim -
asfaltın altında.

...Bu gecənin altından
sürüşüb çıxan əllərim
bir-birindən aralı,
bir-birini görməz.
Kimsə zəncir doladı
sağ əlimin biləyinə.
Eşidirəm
əlində zəncirin o biri ucu
Sol əlimi
axtara-axtara gedən adamın

ürəyimin üstündən keçən
addımlarının səsini...

...Bu gecənin altından
sürüşüb çıxan ayaqlarım
bir-birindən aralı,
bir-birini görməz.

Kimsə sağ ayağımın
barmaqlarını doğrayır
əlində balta.
Sağ ayağımdan uzaqda
kimsə sol ayağıma
keçirmək istəyir
bir uşaq çəkməsini...

Mən bu gecənin altında
asfalt altında qalan
torpaq kimiyəm.
Üstümdən maşınlar keçir,
təkərlər didir köksümü.
Kaş ki, çırpına biləydim,
Üstümdən şütüyən o maşınları
bir-birinə çırpa biləydim, Allah!..

1968

SONUNCU AVTOBUSUN NƏĞMƏSİ

Dünyanın dəlisov oyaqlarıyla
Ulduzlar danışmaz qorxularından.
Gecə
yalın-yalın ayaqlarıyla
Keçər
insanların yuxularından.

Yuxular sərilər narın qum kimi,
İsidər gecənin ayaqlarını.
Bir böyük qaranlıq
xırda tum kimi
Çırtlayar şəhərin işıqlarını.

Təkərlər yorular
yuxulu göztək,
Kirpik ağacların uzaqlığında.
Gedər son avtobus
nəğmə deyərək,
Əriyər gecənin yumşaqlığında.

Uzanar əlləri
dar dalanların,
Hörülər evlərin yuxu torluğu.

Uyuyar karlığı telefonların,
Yatar güzgülərin
gecə korluğu.

Şəhər havasında yağış qoxusu,
Damla milçək
bulud-miçəkdanında.
Yatar oğlanların
pişik yuxusu
Qızların evinin pilləkanında.

...Bir tənha nəğməni yola salınca
Ulduzlar çatılar üfüq qaşında.
Gedər son avtobus...
Onun dalınca
Allah da boylanar
Ay balışından...

1967

SONUNCU PAPİROSUN NƏĞMƏSİ

İndi barmaqlarım səs kimi titrək,
Uzun səkilərin uzun yuxusu.
Sonuncu qatarı
yola salantək
Yola salacağam
son papirosu.

Quru gözlərimə birdən yaş dolar,
Birdən kövrələrəm, tənhalaşaram.
Bu ögey şəhərdə bütün daşlara,
Bütün ağaclara doğmalaşaram.

Hanı məni sevən?
Hanı mən sevən?
Ürəyim yeriklər addım səsinə.
Bir vaxt qapısını çırpdığım evin
Həsrətlə baxaram pəncərəsinə.

Tutar boğazımı qəhər bu gecə,
Çağırsam -
bir kimsə hay verməz mənə.
Sevgiylə doludu şəhər bu gecə,

Niyə o sevgidən
pay verməz mənə?

Gecə baxtı gülər utancağın da,
Görməzlər yuxuda sevişənləri.
Yerə düşər
səhər duracağında
Yuxu qatarların sərnişinləri.

Açılar səhəri
hər səhər kimi -
Ən qatı papiros çəkənlərin də.
Yenə ilk papiros
ilk əsgər kimi
Ölər barmaqların səngərlərində...

1967

SONUNCU NƏĞMƏNİN NƏĞMƏSİ

Sözlər pişik kimi yumşaq, mehriban,
qısılıb qaldılar biri-birinə.
O qopdu dünyanın qarmaqlarından,
üzdü son axşamın
son səhərinə.

Bir şair ömrünün son gecəsində
ən adi misralar ilahiləşdi.
Bir balıqqulağı içərisində
bir nəğmə damlası mirvariləşdi.

Ulduzlar varağa səpildi dən-dən,
səpildi bir qızın göz yaşlarıtək.
Yuxular yıxıldı kirpiklərindən,
dağıldı üzünə
qız saçlarıtək.

O saldı qələmi titrək əlindən,
tabuttək örtüldü göz qapaqları.
Töküldü gecənin ətəklərindən
nəğmə oyaqları, söz oyaqları.

Qopdu son misrası son nəfəsindən,
uçdu uzaqlara -
uçdu quş kimi.
Bir uzaq dənizin gen sinəsində
bir qayıq göründü boş ovuc kimi.

Son nəğmə... Son qayıq... Üzəcək elə,
açacaq sirrini küləyə ancaq.
Səni aparacaq uzaq sahilə,
sənsiz qayıdacaq geriyə ancaq...

1967

***

Bu gecə lüstürdən asılan adam
Köçdü ulduzlara -
nağılı qaldı.
İşığı söndürmək çıxdı yadından,
İşığı sübhəcən yanılı qaldı.

Səhər bəxti güldü mollaların da,
Sifəti örtüldü aynaların da,
Amma gecə yanan lampaların da
Canında qəribə bir ağrı qaldı.

Dünya qaranlıqdı, dözə bilmədi,
Əlləri cibində gəzə bilmədi,
İşıqlı şeirlər yaza bilmədi
Bu gecə lüstürdən asılan adam...

1967

***

Dost da ovutmaz məni,
ağlaram xısın-xısın.
O budaqdan as məni;
gözüm yaşı qurusun.

Döydüyüm qapıların
üzü daşdandı, daşdan.
Hara qaçım, gizlənim
gözdən yağan bu yaşdan?

Əl dəymə, islanmışam
təpədən dırnağacan.
İslanmışam bu axşam
qələmdən varağacan.

Söz də ovutmaz məni,
ağlaram xısın-xısın.
O budaqdan as məni;
gözüm yaşı qurusun...

1970

AĞLANMAYAN DƏRD DƏ VAR

Ağlanmayan dərd də var;
göz yaşından yuxarı.
Nə bir kərə ah çəkir,
nə səsini çıxarır.

Bir küncündə ürəyin
kirimişcə uyuyur.
Tüstülənir eləcə,
nə sönür, nə soyuyur.

Yanından başılovlu
çaparaq dərdlər keçir.
Dərd demə, atam oğlu,
elə bil atlar keçir.

Çat-çat olub yarılır
neçə yerdən ürək də.
Qanlı ləpirlər qalır
o dərdlərdən ürəkdə.

...Ağlanmayan dərd də var;
bir damla yaşa həsrət.
Quru-quru
adamın axırına çıxan dərd...

1970

***

Bir tikansız kirpisən,
qanadsız quşsan daha.
Səninki gətirmədi,
çıx bu yoldan qırağa.

Çıx bu yoldan, qoy bu yol
hara gedirsə getsin.
Ağlama, çətin səni
kimsə gəlib kiritsin.

Can vermə "qəm" deyilən
bu qəssab bıçağına.
Sağ çıx bu gecədən də,
sabahın acığına.

Canda nəfəs qalıbsa,
yaşamağa ümid var.
Yenə kirpi olmağa,
quş olmağa ümid var.

Bəlkə qanad gətirdin...
Bəlkə tikan bitirdin...

1970

***

Bir quş var göy üzündə,
ulduzların qohumu.
Hər gecə qanadıyla
yelpikləyir yuxumu.

Bir tənha yalquzaq da
hər gün girir yuxuma.
Deyir: - Qan qardaşınam,
sən məndən qorxma, qorxma...

Bir ilan da, yuxuma
gəlib girir gizlicə.
Gördüyüm yuxuları
bir-bir yozur hər gecə.

Deyir: - Oyan, yazıqsan,
qaç, bu evdən uzaq ol.
Ya bir quş ol, ya ilan,
ya da ki, yalquzaq ol...

1970

YENƏ DƏ ALDANDIM BU ÇİÇƏKLƏRƏ

BU İYİRMİ YAŞIN ASTANASINDA

Bu iyirmi yaşın astanasında
Bir az nəfəs dərim, dayanım bir az.
Bu iyirmi yaşın astanasında
Yəqin ağlamaq da günah sayılmaz.

Üzümə-gözümə yaxşı-yaxşı bax;
Eh, məndə nə var ki gözə gəlimli?!
Gözlərim özümdən bir az da qorxaq,
Əllərim özümdən bir az rəhmli.

Mən sevdim qızları -
küsdü ulduzlar...
Ulduzlar qızların gözüdür, dedim.
Mən dedim, göylərdən ucadı qızlar!..
Gözlər ürəklərə güzgüdür, dedim.

Qızlardan ucaymış göylər, sən demə,
Gözlər ürəklərə güzgü deyilmiş.

Mən gizli saydığım şeylər, sən demə,
Dünyada heç kəsdən gizli deyilmiş.

...Bu iyirmi yaşın astanasında
Alnıma tökülən telə ümid yox.
Bəlkə də, ömrümün yarısı keçdi,
Parisi görməyə hələ ümid yox...

1966

SOĞAN ACISI

Soğan soya-soya ağlayan qadın,
ömrün soğan kimi acıdı, acı.
Mələksən, qırılıb qolun-qanadın,
dərdi verən Allah vermir əlacı.

Gözündən süzülən yaşı kim silər?
"Göz yaşı" dediyin nədi?
Acı su.
Bir şirin öpüşlə başlar sevgilər,
Sonunda həmişə soğan acısı.

O öpüş yandırmaz dodaqlarını,
soyuyub od dolu o qucaq indi.
Sayar bircə-bircə barmaqlarını
hər gecə yuduğun qabqacaq indi.

Gələr "ər" dediyin hər gecəyarı,
bir qaşıq xörəyin baxmaz dadına.
Yuxuda dilindən qopan adların
biri də bənzəməz sənin adına...

Soğan soya-soya ağlayan qadın,
gözünün yaşını silə bilmərəm.

Neyləyim, mən sənə özgəyəm, yadam,
neyləyim, yanına gələ bilmərəm.

Bir sevgi gəzirəm dünyada mən də,
O sevgi hardadı?
Bilmirəm ancaq.
...Kim soğan soyacaq mənim evimdə,
Soğan soya-soya kim ağlayacaq?!..

1970

SEVMƏDİYİM QADINLAR

Sevmədiyim qadınların
gözəli də çoxuydu.
Hərəsi bir şirin nağıl,
hərəsi bir yuxuydu.

Əllərimi tellərinə vurmadım,
Həsrət çəkib ürəyimi yormadım,
Boyun büküb yollarında durmadım
sevmədiyim qadınların.

Sevmədiyim qadınların
neçələri sevildi,
Toy çalındı,
şəhərlərin küçələri sevindi,
Neçələri
ər evində təpikləndi, söyüldü
sevmədiyim qadınların.

Sevmədiyim qadınlarla
aşıb-daşır yer üzü,
Yer üzünün
Yerevanı, İstambulu, Parisi,
Atdı Eyfel qülləsindən özünü
sevmədiyim qadınların birisi...

1968

MƏN SƏNİ SEVMİRDİM

Mən səni sevmirdim...
Amma gecəydi,
Bir bomboş vağzaldı, bir də biziydik.
Yuxulu gözlərin gözümə dəydi,
Yuxulu gözlərin tərtəmiziydi.

Yuxulu gözlərin yuxu görürdü,
Sən özün ən şirin yuxuydun ancaq.
Yuxulu gözlərin yuxu görürdü,
Mən sənin yuxunda yoxuydum ancaq.

Mən gələn qatarın hayında idim,
Bir sərin gecəydi, bir ılıq nəfəs.
Bir də ki, mən sənin yanında idim,
Yaxında olanlar yuxuya girməz.

Sonra qatar gəldi, yuxun dağıldı,
İstədim söz deyəm, karıxdım yenə.
Qatar gecikirdi, mən darıxırdım,
Sən mindin qatara, darıxdım yenə.

O gedən qatarın dalınca baxdım,
Dedim, bu gecəni çətin dözərəm.

Bir az da keçsəydi, ağlayacaqdım,
Yaxşı ki, gülməyim tutdu özümə.

Sonra da, yol boyu uzandı kölgəm,
Sonra da, tək-tənha qayıtdım evə.
O qatar, o gecə, o dünya bəlkə
Tək bundan ötrüydü; MƏN SƏNİ SEVƏM...

1970

DÜNYANIN SƏN OLAN YERİ

Boşaldı dünyanın sən olan yeri...
Dünyanın
sən olan yerindən indi
Tozlana-tozlana maşınlar keçir,
Nazlana-nazlana xanımlar keçir,
Cavanlar keçir
tüpürüb siqaret kötüklərini.
Dünyanın sən olan yerindən ancaq
mən keçə bilmərəm.

Baş alıb qaçaram gecələr ilə,
Uzun yollar ilə, küçələr ilə,
Dünyanın sən olan yerindən elə
baş alıb qaçaram, qaça bilmərəm.

Yenə də, açılar səhər qəfildən,
yenə də, sökülər qızıl dan yeri.
Bütün yer üzünün hər tərəfindən
görünər dünyanın sən olan yeri.

Dünyanın sən olan yerinə bir gün
yağış yağacaq.
Gecə köynəyində, ürkək-utancaq,
çıxarsan eşiyə, gözlərsən məni,
üşüyə-üşüyə gözlərsən məni.

Qoşulub ağlarsan
yağan yağışa,
Əlimdən nə gələr?..
Məni bağışla!..

...Nə sən kiriyirsən, nə yağış kəsir,
yağışa qarışıb axarsan, kiri.
Ağlaya-ağlaya bu yaz gecəsi
əriyib yağışa çıxarsan, kiri.
Baxdıqca qorxuram
yağan yağışa,
Ağlaya bilmirəm...
Məni bağışla!..

1970

ÖMRÜMÜN YAĞIŞLI GÜNLƏRİ

güzgülü şeir

Ömrümün yağışlı günləri başlar,
Yağışlı günləri başlar ömrümün.
Bu yağan yağışlar, yağan yağışlar,
Bilmirəm, nəyini xoşlar ömrümün?!..

...Bu gələn payızın suları soyuq,
Küləkləri hirsli, yağışı incik.
Mənim əllərimin sığalı soyuq,
Sənin gözün yaşlı, baxışın incik.

Düşür çiynimizə payız yarpağı,
Elə bil ölüdü, tabutdan düşür.
Ağaclar hamısı çılpaqdı axı,
Bəlkə düşən yarpaq buluddan düşür.

Bir yalan sevgidən yorulmaq asan,
Bir ölən sevgini diriltmək çətin.
Günəşli günlərdə vurulmaq asan,
Yağışlı günlərdə unutmaq çətin...

.....

...Yağışlı günlərdə unutmaq çətin,
Günəşli günlərdə vurulmaq asan.
Bir ölən sevgini diriltmək çətin,
Bir yalan sevgidən yorulmaq asan.

Bəlkə düşən yarpaq buluddan düşür,
Ağaclar hamısı çılpaqdı axı.
Elə bil ölüdü, tabutdan düşür,
Düşür çiynimizə payız yarpağı.

Sənin gözün yaşlı, baxışın incik,
Mənim əllərimin sığalı soyuq.
Bu gələn payızın yağışı incik,
Küləkləri hirsli, suları soyuq.

1966

***

Əlimdə son kibritim
Söndü sənin ahından.
Səni öpdüm, kiritdim,
Dedim; keç günahımdan.

Ay işığı bulaşdı
Gözlərinin yaşına.
Sən məni bağışladın
Bəlkə ay işığına.

Qaranlıqda oturduq
Biz üz-üzə, diz-dizə.
Nə mən sənə baxırdım,
Nə sən mənə...
Nə isə...

Bu gecəni varağa
Yazmaq olmaz -
günahdı.
Bu gecə keçdi daha,
Aç gözünü, sabahdı.

Bir azca gecə qalıb
Gözlərinin içində,

O da uçub gedəcək
Sən gözünü açanda.

Bu gecənin sirrini
Yuyacaq bu dəniz də.
Bizdən
bu qumlar üstə
Qalmayacaq bir iz də.

Balıqlar danışacaq
Bu sirri bir-birinə.
Balıqlar daşıyacaq
Bu sirri lap dərinə,
Lap dənizin dibinə...

...Balıq dili bilən yox,
Bu sirrin səsi çıxa.
Bu dəniz quruyanda
Sirrimiz üzə çıxar...

1966

MƏHƏBBƏT OYUNU

Bu məhəbbət oyunu
qəribəydi, qəribə

İçəridən bağlanan
otaqlar da qəribə.
Pəncərədən boylanan
budaqlar da qəribə.
O aldadan, aldanan
dodaqlar da qəribə.

Qəribəydi, qəribə;
Udüzanın verdiyi
öpüş-öpüş cərimə.

Qəribəydi, qəribə,
nə qəribə oyundu.
Şam kimi bir dümağ qız
paltarını soyundu.
Beş cüt kibrit barmağın
alovunda yuyundu.
Kirpikləri yumuldu,
Ən ləzzətli ufultu...

Sus!..
Az danış, az soruş;
"Bu oyun necə bitdi?".
Budaqdan boylanan quş
Utandı, uçdu-getdi.

Qəribəydi, qəribə;
bir qız başı əyildi.
Bəlkə oyun deyildi,
bəlkə oyun deyildi?!..

1966

KÖHNƏ MƏHƏBBƏTLƏR LİMANI

Qəzəb oyuncağı...
sevgi savaşı...
Səssiz qələbənin bic gülüşləri.
Bir qız gözlərinin son yalvarışı,
Bir qız dodağının ilk öpüşləri.

Bir "körpə xanımın" gəlinciyindən
Qırılan düymələr
yolların üstə.
Ən uzaq illərin yelləncəyindən
Yıxılıb düşərsən qollarım üstə.

Köhnə məhəbbətlər, köhnə nağıllar
Sıyrılar illərin dumanlarından.
Batmış gəmilərtək üzə çıxarlar
Qəlbimin ən uzaq limanlarında.

Uzaq limanların işığı sönsə,
Ən uzaq limandan qayıdan mənəm.
Dünyanın ən gözəl gəmisi sənsən,
Dünyada ən igid kapitan mənəm.

Gəmilər əl edər bayraqlarıyla,
Dalğalı suları hamarlayarlar.
İşıqlar yuxulu barmaqlarıyla
Dənizin saçını tumarlayarlar.

Gecənin sonuncu duracağında,
Bu dəcəl görüşün son anında biz,
Yenə ayrılarıq səhər çağında
Köhnə məhəbbətlər limanında biz.

Üfüqlər bulanar
günəş balına,
Dəniz də yalayar dodaqlarını.
Yeyər aclığından həsrət-balina
Xırdaca xatirə balıqlarını.

İtər məhəbbətlər limanı sonra,
Tilsimlər qırılar,
ovsunlar düşər.
İndi dalğalara atılan tora
Yosunlar ilişər,
yosunlar düşər.

Son ümid yellənər sınıq əliylə,
Təzədən görüşmək gümanı ağlar.
Qağayı diliylə,
balıq diliylə
Köhnə məhəbbətlər limanı ağlar.

1967

***

Bu ağac öləcək.
Üzündən-gözündən tökülür ölüm,
bu ağac öləcək bu gün, ya sabah.

Bu ağaca qonan
o quş öləcək.
Üzündən-gözündən tökülür ölüm,
o quş da öləcək bu gün, ya sabah.

O quşa dən səpən
bu qız öləcək.
Üzündən-gözündən tökülür ölüm,
bu qız dá öləcək bu gün, ya sabah.

Bu qızı sevməyə dəyməz,
O quşa baxmağa dəyməz,
Ağaca çıxmağa dəyməz.

Ağaca çıxmadım,
Quşa baxmadım,
Qızı sevmədim.

Quş uçdu isti bir yerə,
Qız getdi... qız getdi ərə,
Ağac da ki, durur hələ;
bir mənəm, bir də, bu ağac.
Kəndir tapıb, bu ağacdan
asılmağa qaldı əlac...

1968

YENƏ DƏ, ALDANDIM BU ÇİÇƏKLƏRƏ

Bu şəhərin ağacları
dərd əlindən çiçəkləyib,
Xanımları
gözlərinin kədərini rəngləyib,
Kişiləri borc altında.
Darıxmaqdan oğlanları-qızları
öpüşür ağac altında.
Ağacları
dərd əlindən çiçəkləyib.

Çiçəklərdən çəkə bilmir gözünü,
baxır, baxır, doymur adam.
İstəyir assın özünü,
ağaclara qıymır adam.

...Yenə də, yaz gəlib bu yad şəhərə,
Necə çıxdım mən bu yaza?..
Bilmədim.
Yenə də, aldandım bu çiçəklərə,
Yenə də, özümü asa bilmədim...

1968

***

Ölmək istəmirəm bu axşamüstü,
Qızlar lampa kimi işıqlı, isti,
Kaş bir lampa yana başımın üstə,
Bir qızın dizinə qoyam başımı.

Dərdim damla-damla əriyənəcən,
Gözlərim ağlayıb kiriyənəcən,
Alnımı qırışlar bürüyənəcən
Bir qızın dizinə qoyam başımı.

Dünya ümidimi qıranda belə,
Məni əldən salıb yoranda belə,
Lap cəllad boynuma vuranda belə
Bir qızın dizinə qoyam başımı...

1970

SENTİMENTAL YAĞIŞ

Qız barmaqlarından nazik,
sentimental bir yağış
Piano dilləritək
çalır küçələri.
Belə gündə pişiklər də həzinləşər,
öpmək istər sərçələri.

Belə gündə
darıxıram evimdə,
Musiqili filmdə
sözsüz rol oynayan müğənni kimi.
Bir yağış nəğməsi
oxumaq istəyirəm.
Buludların yağış barmaqlarına
toxunmaq istəyirəm.

Damlalar dupduru qız gözləritək, -
yağır buludların göz bəbəkləri.
Buludlar kor olacaq bu gecə,
açılacaq
torpağın gözləri-göbələkləri.

Qəflətən göylərin yanaqlarında
günəş təbəssümtək görünən kimi,

Bu qəfil günəşə sevinəcəyik, -
sevgisindən əl üzdüyün bir qızın
qəfil öpüşünə sevinən kimi.

Çarpayılarımızı
günəşə çıxaracağıq, günəşə.
Çarpayılardan asıb,
günəşdə qurudacağıq
Bu yağışlı gecədə
islanan yuxularımızı.

...Qız barmaqlarından nazik,
sentimental bir yağış
Piano dilləritək
çalır, çalır küçələri.
Belə gündə pişiklər də həzinləşər,
öpmək istər sərçələri...

1969

***

Çarpayım boyuma qısa, ömrüm həsrətinə, -
    ürəyimdən keçən nəğmələrin
        ləpir yerində laxtalanar qanım.
Gecələr adını yazaram
    evimin divarlarına,
Üstəgəl mənim adım,
    bərabərdi məhəbbət.
Səhər -
    günahsız uşaqları
        döyərəm yalandan.

Evimin divarında,
Hördüyü hörümçək torunda
    bir qoca hörümçək öldü bu gecə yarı.
Tor saplarında
    içi yeyilmiş kəpənək günlərimin
            quru qanadları.

...Haçansa, günlərin bir günündə -
Bir telefon dəstəyini
    bıçaq dəstəyi kimi
        sıxacaqsan əlində.
Deyəcəksən:
    - Gözləmə, bəsdi, canım!..

Amma... bağışla məni, xanım,
gözləyirəm səni yenə... yenə...
Çarpayım boyuma qısa, ömrüm həsrətinə, -
ürəyimdən keçən nəğmələrin
ləpir yerində laxtalanar qanım...

1968

İKİ GÜN SONRA

İki gün sonra
bir qız
çığırdı telefona:
- Sevirəm!..
İki gün sonra
şüşəsalan gətirdi
sınıq pəncərənin
təzə şüşəsini.
İki gün sonra
çöldəki qar
ağladı günəşə.
İki gün sonra gəldi
illərlə gözlənilən məktub.
İki gün sonra
yaşamağa dəyərdi artıq.

Heyif ki, sən yox idin...

1968

***

Sən ölən gün
dünyadakı
bütün qarışqaların
ən qarası yeriyəcək
üzündə.
Üzünə milçəklərin
ən sırtığı qonacaq.
Və dünyanın
ən boz qarğası gəlib
açıq gözlərini
dimdikləyəndə
Bircə damcı göz yaşı da
düşməyəcək gözündən.

Ömrün boyu
öpüb əzizlədiyin
Gözəl-gözəl xanımların
heç birisi
sənə ağlamayacaq,
Ağlayanda sifəti
bir az da kifirləşən
Kifir, kifir, lap kifir
bir qadından savayı.

Nə illah eləsən də,
düşməyəcək yadına -
Bu qadını haçan, harda görmüsən?!.
Sən ölən gün -
yəqin belə olacaq,
Belə olsa -
yəqin bil ki, ölmüsən...

1970

***

Bir ölüm havası dəydi üzümə,
Nə gözəl, nə sərin havaymış, Allah.
Sən demə, ürəyim ölümdən ötrü
Darıxan bir bomboş yuvaymış, Allah.

Sən demə, çaşmışam, yolu azmışam,
Dünyaya gəlməyim yalanmış mənim.
Sən demə, dünyada anasızmışam,
Sən demə, bu ölüm anammış mənim.

Sürtdüm üz-gözümü əl-ayağına,
Dedim; buraxmaram səni dünyada.
Dedim; indiyəcən hardaydın, ana,
Niyə tək qoymuşdun məni dünyada?!.

İslatdı əlini gözümün nəmi,
Telimi qaldırıb alnıma baxdı.
Tanıya bilmədi deyəsən məni,
Çevrildi, atama-anama baxdı.

Bir bala vermişdim, dedi, mən sizə,
Hanı, a zalımlar, o balam hanı?
Bu mənim balama oxşamır nəsə,
Nə kökə salmısız mənim balamı?!..

1970

KENTAVR

Siz məni uzaqdan sevdiniz, xanım,
oxşatdınız
at belində çapıb gələn igidə.
Mən kentavram, xanım, -
nə adamam, nə atam;
Adamlar içində - at,
Atlar içində - adam.

İnsan bədəni üstə
at başı gəzdirənlər
darıxmaz,
Amma çətindi bir az
at bədənində
insan başı gəzdirmək, xanım.

Mən nəyəm?
Yarı insan - yarı at şikəstliyi.
Atlarla insanların
içində bu vaxtacan
Nə bir at sevib məni,
nə bir qız əzizləyib.

Elə siz də uzaqdan
məni sevdiniz, xanım,
Sevgimiz bəri başdan
daşa toxunub, daşa.

İkimiz -
bir yataqda qoşa yata bilmərik,
İkimiz -
bir çəməndə otlamarıq baş-başa.

Bilirəm, tapan olmaz
dərdimin əlacını.
Amma bir son ümidtək
durub gözlərəm sizi,
minin, gəzdirim sizi,
tumarlayın saçımı.

...Xanım, bilsəniz, atlar
necə zəhlətökəndi,
Gecə-gündüz
dadlı-dadlı otlardan
danışmaqdı işləri.

Bir qamçı tapın, xanım,
atlarla insanların
dünyasından
çapıb gedim özümü...

1969

YORĞUNLUQ

BU KƏNDİN YANINDAN QATARLAR KEÇİR

Bu kəndin yanından qatarlar keçir...
Gecələr yuxuda diksinir bu kənd,
Gecələr ötürür köksünü bu kənd,
İtirir, itirir çəkisini bu kənd, -
bu kəndin yanından qatarlar keçir.

Keçən qatarlara minir cavanlar,
Sevinir cavanlar bu yol uzunu;
daşır ürəkləri, daşır gözləri, -
Sünbül qılçığını, gül qoxusunu,
tələşli gözləri, yaşlı gözləri
çırpıb üst-başından
keçən qatarlara minir cavanlar.

Məktublar gələcək sonra şəhərdən;
Analar oxuyub ağlayacaqlar,
Sandıqlara qoyub saxlayacaqlar.

Köpəklər qovacaq kəpənəkləri,
Bacılar yığacaq göbələkləri,

Təzə çiçəkləri, çiyələkləri, -
Şəhərə bağlama yollayacaqlar.

...Məktublar gələcək sonra şəhərdən,
Bu kənddən gedənlər gəlməzlər ancaq...

Köpəklər həsrətlə dikir gözünü
Bu kəndin böyüyən uşaqlarına.
Hirsli kəpənəklər çırpır özünü
Keçən qatarların işıqlarına.

...Bu kəndin yanından qatarlar keçir...

1970

FATMANIN OĞLU İSMAYIL

Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?

Yoxsa ağlını, a yazıq,
Allah əlindən almışdı?
Bu şəhərin dərdi azdı,
elə bircə sən qalmışdın, -
Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?

Bir qız gəzər kənd içində,
Hər gün qapıdan keçəndə
Fatma xalaya baş çəkər.
Samavarına od salar,
yorğanına qumaş çəkər, -
Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?

Zalım oğlu, darıxmadın?
Qalstuk taxdın - taxmadın,
Bir qız da sənə baxmadı, -
Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?

Sevdin, sevdin bu şəhərin
solğun üzlü qızlarını,
xəstəhal ulduzlarını.
Yenə əridə bilmədin
ürəyinin buzlarını, -
Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?

Kənddən bir adam görəndə
yekə-yekə danışmağın,
hey basıb-bağlamağın var.
Yorğan-döşəyə girəndə
gecələr ağlamağın var, -
Fatmanın oğlu İsmayıl,
bu şəhərdə nə işin var?!..

1968

ELƏ BELƏCƏ

Çıxıb gedəcəyəm elə beləcə,
Bir də görəcəyəm kəndimizdəyəm.
Qurbağa səsiylə dolu bir gecə,
Ay da ki, çay da ki kefin istəyən.

Qohumlar dinəcək gileyli-incik:
- Şəhərli olmusan tamam ay balam!..
Kənddə şəhərliyəm, şəhərdə kəntçi,
Niyə, sağlığına pis yaşamıram.

İtlər də elə bil küsüb adamdan,
Qoyunlar
qoyuntək baxar adama.
Nələr qazanmışam -
çıxar yadımdan,
Nələr itirmişəm -
düşər yadıma.

Burda həm doğmayam, həm də ki qərib,
Bu hissi kim məndə oyadıb, Allah?
Çəpərlər nə qədər alçalıb-enib,
Ağaclar nə qədər boy atıb, Allah!...

Həzin qoxusuyla gülün-çiçəyin
Səma dolub indi, yer dolub indi.

Şəhərdən çiynimə qonan milçəyin
Gözləri heyrətdən dörd olub indi.

Qızlar göz altından baxacaq mənə:
- Deyirlər şəhərdə şairdir-nədir...
Sonra soruşacaq Bənövşə nənəm:
- A bala, işlərin nə təhər gedir?

Adım gizlənsə də küncdə-bucaqda,
Deyərəm:
- Şəhərdə məşhuram tamam...
Nənəm sevə-sevə aldanacaqdır,
Mən də sevə-sevə aldadacağam.

Gecə də yeriyər üzü günəşə,
Heç xəbər tutmaram haçan səhərdi.
Əvvəl darıxaram -
nahaq gəlmişəm,
Sonra sevinərəm -
yaxşı ki gəldim.

...Çıxıb gedəcəyəm elə beləcə,
Bir də görəcəyəm kəndimizdəyəm.
Qurbağa səsiylə dolu bir gecə,
Ay da ki, çay da ki kefin istəyən.

1970

TƏNHA QARILAR

Ölür kəndimizdə tənha qarılar,
Yenə kölgə düşür toya-şənliyə.
Şəhərə qüssəli xəbərlər gedir,
Nəvələr gəlirlər üç-dörd günlüyə.

Bir yanda gəlinlər xısınlaşırlar,
Astadan, alçaqdan danışır onlar.
İynədən-düymədən,
kənddən-şəhərdən,
Asfaltdan-palçıqdan danışır onlar.
Günahkar-günahkar
baxır nəvələr;
Nədir günahları, -
bir kimsə bilmir...

...Haçansa,
beş ilmi,
on ilmi əvvəl
Nəvələr hərəsi bir uşağıydı,
Bu ölən qarılar sağıydı onda,
bu ölən qarılar yol gözlərdilər.
Dava illərindən bu günə kimi
oğul gözlərdilər,
yol gözlərdilər...

Saatlar uzandı, günlər uzandı,
kirpiklər uzandı yol gözləməkdən, -
oğullar gəlmədi.
O gözlər inadkar,
yollar günahkar,
Yollar o gözlərə dözə bilmədi.
Yollar gizləndilər
asfalt altında...

Qarılar durdular çiyin-çiyinə,
Bayram günlərində şam yandırdılar.
Ölən oğulların gələcəyinə
Az qala kəndi də inandırdılar.

...Sönür komaların işığı tək-tək,
Kimsə yatanları oyatmayacaq.
Analar ölürsə -
oğullar demək
Daha qayıtmadı, qayıtmayacaq.

Ölür kəndimizdə tənha qarılar...

1970

BAYATI

Üç əsgər də qayıtmadı
düşərgəyə.
Komandir neyləsin, bacım?..

42-ci ildən qaçıb
illərin meşəsindən
keçə-keçə
Altmış səkkizinci ilə
gəlmək istəyirdilər:
Zeynal əmim,
Əvəz dayım,
bir də poçtalyon İskəndər...

43-cü il bir söyüd ağacı idi.
Kölgəsində
Əvəz dayım uzanmışdı,
gicgahında güllə yeri.
Yavaşca keçdilər
qırx üçüncü ilin yanından,
budaqlarına ilişə-ilişə.
Çatdılar
Nar ağacı Qırx Beşə.
Üstü narla doluydu.
Silkələdilər,
bir nar düşdü

Zeynal əmimin ayağının altına;
mərmi kimi partladı.

Qalan illər
yolka ağaclarına
bənzəyirdi.
Gördülər,
yolka ağacı deyil,
Ziba nənədi,
İskəndərin
yolunu gözləyirdi.
Boynundan,
qollarından,
ayaqlarından
asılmışdı
İskəndərin cəbhə məktubları.
İskəndər
məktubları
açıb yığdı çantasına.
İstədi
Ziba nənəni qucaqlasın,
gördü ağacdı,
yolka ağacı...

...Üç əsgər də qayıtmadı
düşərgəyə.
Komandir neyləsin, bacım?!..

1968

GECƏ NAĞILI

Hər gecə
əsgərlər keçər kəndimizdən;
Keçər
kəndimizin keçən davada
ölən cavanları
səssiz-səmirsiz...

...Təkcə xəstə Əliş görər onları,
davadan başında qalan havadan
gecələr ağrıdan yata bilməyən
xəstə Əliş,
Onların dalınca
yüyürüb-yüyürüb çata bilməyən
xəstə Əliş.

Papiros istəyər onlardan Əliş,
Papiros çəkəndə
ağrını bir azca unudan Əliş.
Tənbəki bükərlər Əlişdən ötrü
bir qəzet parçasına,
bir məktub varağına,
Tullayarlar yolun bir qırağına.
Əliş papirosu götürər,
çəkməz...

Əsgərlər, əsgərlər gedəndən sonra,
Əsgərlər lap gözdən itəndən sonra
yolun o başından
gələr Ziba nənə,
bu ilin qışında ölən Ziba nənə.
Soruşar:
- Əsgərlər keçmədi ki?
Əsgərlər içində
İskəndər keçmədi ki?!..
Əliş:
- Yüyür - deyər, - bəlkə çatarsan.
Qaçar Ziba nənə, yüyürər,
çatmaz...

...Və beləcə
Əliş öləndən
hər gecə
əsgərlər keçər kəndimizdən
və Ziba nənə gecikər,
çatmaz əsgərlərə,
çatmaz İskəndərə...

1968

DƏLİ ƏLİŞLƏ BİZİM ƏLƏSGƏRİN NAĞILI

I

Əvvəl Ələsgərdi Əlişin adı.
Müharibəyəcən belə yaşadı.
Yarımçıq qayıtdı müharibədən,
Dedilər:
Ələsgər qayıdıb-gəlib,
Gördülər,
qayıdan Ələsgər deyil,
Əlişdir, dəli Əliş...
Rus dili müəllimimiz
demişkən:
"Kontujnı" Əliş,
"Nenujnı" Əliş.
Əliş qayıtmışdı,
adamlar hələ
Deyirdi,
Ələsgər qayıdıb gələr.
Əlişin arvadı da gözləyirdi
Ələsgəri.
Əliş yazıq da başladı
Ələsgəri gözləməyə.

Ələsgər qayıdıb gəlmədi ancaq.
Adamlar
Əlişə öyrəşdi axır,
Əliş baxdı
Ələsgərin arvadına
fağır-fağır.
Ələsgərin arvadı
atmadı Əlişi.

II

Əliş "kontujnı" idi,
amma "nenujnı" deyildi.
Papağında ulduz yeri vardı,
döşündə medalı vardı.
Bir də velosipedi...
Velosipedinin
bircə sol pedalı vardı,
Əliş sağ ayağıyla
irəli itələyərdi velosipedi.
Məktub daşıyardı Əliş evlərə,
İtlər də Əlişə hürməzdi qəsdən.
Hirslənib söyərdi Əliş itlərə,
İtlər onu adam saymırlar deyə.

III

Əliş zarafata dözən deyildi,
İllah uşaqların zarafatına.
Uşaqlar Əlişə sataşardılar,
Bir dəfə qutuya məktub saldılar
Ələsgərin arvadının
adına.
Guya Ələsgərdi məktubu yazan,

Qürbətdə əsirmiş guya nə vaxtdı,
İndi əsirlikdən qayıdacaqdı.
Əliş nə biləydi
bu nə iş idi.
Məktubu oxuyub,
inanıb yəqin,
Sonra hayandasa gizlətmiş idi.
Öləndə cibindən tapıldı məktub,
Göz yaşı pozmuşdu sətirlərini.

IV

Əlişin cibində
pul olmazdı heç,
bircə şahı da.
Əliş deyərdi:
Allah var,
Amma çox yuxarıdadır,
ya da biz çox aşağıda.

V

Yuxu kimiydi, yuxu kimi...
Əlişin
Ələsgərin arvadının
yatağına girməsi.
Hıçqırığını
papiros kötüyütək sıxardı
dişlərində.
Əlişin öpüşləri
daha "utancaq" idi,
daha "ağıllı" idi
Ələsgərin öpüşlərindən.

VI

Nə zamansa kəndimizdə
bir Ələsgər doğulmuşdu.
Qaldırdılar
Əlişin tabutunu.
Birdən bir ağ atlı çıxdı
buludların içindən.
Gördülər ki,
Ələsgərdir ağ paltarlı,
ağ atlı.
Yerə düşdü atından.
Adamlar yol verdilər -
Ələsgər də yapışdı
Əlişin tabutundan.
Apardılar
Əlişi dəfn etməyə.

1968

YORĞUNLUQ

Dava illərinin qadınlarına

Ayın orağa bənzədiyi
həmin gecədə,
Bütün günü
sünbül biçən qadınlar
yorulub yatmışdılar
sünbüllərin içində.
Sıznaq-sıznaq,
didim-didim olan
yorğun qollarından başqa
Bütün bədənləriylə
girmişdilər yuxuya.

İbrahimin anasının qulağına
yuxuda bir səs gəldi.
Sol gözünü açdı...
Sağ gözü
iki gözçün hesablanmış
bütöv, dadlı bir yuxunun
ləzzətinə dözmədi,
öz-özünə açıldı.
Və...
bu gözlər gördülər ki,
Allah göydən düşüb,

ayı oraq kimi
alıb əlinə,
biçir zəmini.
Sonra qulaqlar oyandılar,
Eşitdilər
orağın
sünbül qarışıq kəsib tökdüyü
səsləri.
Sonra İbrahimin anası
bütün bədənini
dartıb çıxartdı
yuxunun içindən.
(Qolları onsuz da oyaqdı!)
Qollarına dirsəklənib
ayağa qalxdı.
Səslədi yatanları.
O biri qadınların
əvvəl qulaqları oyandı,
sonra gözləri.
Sonra bütün bədənlərini
dartıb çıxartdılar
yuxunun içindən.
Bir təhər,
yuxusuz qollarına
dirsəklənib qalxdılar.

Təkcə Həlimə qalxa bilmədi.
Beş aydı ki, hamiləydi.
Bütün bədənini
dartıb çıxartdı
yuxunun içindən -
bətnindəki körpədən savayı.

Bətnindəki körpəni
qoyub yuxuda,
qollarına dirsəklənib
qalxmaq istəyirdi ki...
Gördü
qolları da təzəcə yatıb.
Sıznaq-sıznaq,
didim-didim olan
yorğun qolları.
Bətnindəki körpəni
oyadardı,
Qollarını oyatmağa
qıymadı.
Qollarını
iki ekiz körpə kimi
qoydu dizlərinin üstünə,
Başladı
qollarına layla çalmağa.


...Qadınlar
düşdülər Allahın arxasınca.
Allah zəmini biçirdi,
Qadınlar
dərz bağlayırdılar.

1969

DÖRDÜNCÜ KİTAB

HAMI OĞUL BÖYÜTMÜŞDÜ

(povest və hekayələr)



BELƏ-BELƏ İŞLƏR

Həsən kişinin bu dünyada nəyi var idi?

Bir kəhər atı var idi.

Nəyi yox idi?

Arvadı yox idi, uşaqları yox idi.

Həsən kişi bu dünyada nədən qorxurdu?

Özünün ölməyindən qorxurdu. Qorxurdu ki, bir gün ölər, kəhər at bu dünyada tək-tənha qalar. Kim bilir onda yazığın günü necə keçər?

Həsən kişi bu dünyada day nədən qorxurdu?

Kəhər atın ölməyindən qorxurdu. Qorxurdu ki, bir gün kəhər at ölər, Həsən kişi bu dünyada tək-tənha qalar. Kim bilir onda yazığın günü necə keçər?

Həsən kişi nə deyirdi?

Deyirdi ki, bu külleyi-aləm ibarətdi xırda-xırda dünyalardan. Yəni hər adamın öz balaca dünyası var. Özü də, bu dünyalar üçtərəfli-üçtərəflidi. Bir tərəfində adam özü durur, bir tərəfində ölüm, bir tərəfində də kəhər at. Hər kəs dünyaya gələn kimi başlayır öz kəhər atına sarı qaçmağa, o yandan da ölüm başlayır kəhər ata sarı qaçmağa. Elə ki, ölümdən qabaq çatıb atıldın kəhər atın belinə, çapıb-çapıb çoxlu özgə dünyalar görəcəksən və ölüm səni haxlayanacan ləzzət alacaqsan. Yox, elə ki, ölüm səndən qabaq çatıb atıldı kəhər atın belinə, qalacaqsan pay-piyada öz balaca dünyanda, öz balaca dünyanda dolaşa-dolaşa da axırda çərləyib öləcəksən.

Həsən kişi deyirdi ki, mən öz kəhər atıma ölümdən qabaq çatmışam.

Ancaq Həsən kişinin kəhər atında çoxlarının gözü vardı. Ancaq cavanlar Həsən kişiyə göz verib işıq vermirdilər. İllah Əfrayıl. İllah ki, İsmayıl. İllah da ki, İsrəfil.

Həsən kişi özü də başa düşürdü ki, kəhər at onun babı deyil. Kəhər at yemən-göynən əlləşirdi. Həsən kişinin yemən olsa-olsa iki metrəlik işi qalmışdı, göynən haqq-hesabı da ruhu çürüdəcəkdi.

Həsən kişi bunu başa düşə-düşə bir də nədən qorxurdu?

Bir də ondan qorxurdu ki, birdən kəhər at da bunu başa düşər. Başa düşər ki, Həsən kişi onun babı deyil, day Həsən kişini öz yəhərində saxlamaz.

...Ancaq kəhər at bunu çoxdan başa düşmüşdü.

...Ancaq kəhər atın Həsən kişiyə yazığı gəlirdi.

Həmişə səfərdən qabaq kəhər atın beli qaşınardı. Həmişə beli qaşınanda kəhər at duyardı ki, sabah Həsən kişinin harasa səfəri var. Və bir dəfə kəhər atın beli qaşınan axşamın sabahı dava başladı.

...Həsən kişi soruşardı ki, bu dünyada ən dəhşətli heyvan hansıdı?

Deyərdilər:

- Pələng.

Həsən kişi deyərdi:

- Yox, ağcaqanaddı. Fikirləşin ki, pələng xırdalaşıb-xırdalaşıb olub ağcaqanad boyda, kimə neyləyəcək?.. İndi də fikirləşin ki, ağcaqanad böyüyüb-böyüyüb olub pələng boyda!..

...Və deməli, kəhər atın beli qaşınan axşamın sabahı dava başladı.

Camaatı yığdılar kəndin ortasına. Sədr Şərifnən vayenkom danışdılar.

Sədr Şərif dedi ki, camaat, qoşunumuza igid-igid cavanlar lazımdı.

Həsən kişi də lap qabaqda, camaatın arasındaydı. Həsən kişi gözüynən axtarıb sədr Şərifin gözünü tapdı, sonra onun gözünü də öz gözünün arxasınca sürüyə-sürüyə dönüb baxdı Əfrayıla, dönüb baxdı İsmayıla, dönüb baxdı İsrəfilə.

Vayenkom dedi:

- Camaat, konnı armiyaya, yəni, atlı qoşunumuza beldən nazik, ayaqdan qıvraq atlar lazımdı.

Sədr Şərif gözüynən axtarıb Həsən kişinin gözünü tapdı. Bütün camaat gözünü zillədi Həsən kişiyə. Həsən kişi gözünü zillədi ayağının altına, gördü dünya ayağının altından qaçır. Dünya Həsən kişinin ayağının altından qaça-qaça balacalaşdı, balacalaşdı, gedib durdu kəhər atın ayağının altında...

Və bir gün camaat yenə yığıldı kəndin ortasına. Əsgər gedən cavanları yola salırdılar.

Əfrayılın anası Əfrayılın boynunu qucaqlayıb ağlayırdı.

İsmayılın anası İsmayılın boynunu qucaqlayıb ağlayırdı.

İsrəfilin boynunu gün yandırırdı.

Atlı qoşuna göndərilən atları da bir tərəfdə hörükləmişdilər.

Hər at gedən evdən bir cavan da gedirdi və camaat hamısı yığılmışdı cavanların başına.

Atların arasında təkcə Həsən kişinin başı görükürdü...

...Kəhər atı yola salandan sonra Həsən kişi lap adamayovuşmaz oldu.

Hamı əsgər gedən cavanlardan məktub gözləyirdi, Həsən kişidən savayı. Ancaq Həsən kişiyə bir-birinin dalınca üç məktub gəldi.

Əfrayıldan məktub gəldi: Həsən kişi, atlı orduya düşmüşəm. Məlumun olsun ki, sənin kəhər atın da burda çıxıb mənim rastıma. İndi kəhər atın belindəyəm. Sağlıq olsun, bir yerdə qayıdıb gələcəyik.

İsmayıldan məktub gəldi: Həsən kişi, atlı qoşuna düşmüşəm. Desəm inanmazsan, burda rastıma bir at çıxıb, eynən sənin kəhər atındı. Sağlıq olsun, bir yerdə qayıdıb gələcəyik.

İsrəfildən məktub gəldi: Həsən kişi, qonnı armiyaya düşmüşəm. Allahın göstərişiynən sənin kəhər atın da burda çıxıb mənim urcahıma. İndi kəhər at mənim altımdadı. İnşallah, Allah deyən olsa bir yerdə qayıdıb gələrik.

Həsən kişi ha gözlədi, kəhər atdan məktub gəlmədi.

...Sonra Əfrayılın qara kağızı gəldi.

...Sonra İsmayılın qara kağızı gəldi.

...Sonra İsrəfilin qara kağızı gəldi.

Təkcə kəhər atın qara kağızı gəlmədi.

Və bir gecə Həsən kişi yuxuda eşitdi ki, kimsə onu çağırır. Qapını açıb həyətə çıxdı, dedi:

- A məni çağıran, kimsən?

Böyürdən səs gəldi ki, qorxma, Həsən kişi, bizik...

Həsən kişi dönüb gördü ki, Əfrayıldı. Əfrayıldan beş addım o yana İsmayıl dayanmışdı, İsmayıldan beş addım o yana İsrəfil. Həsən kişi ha boylandı, kəhər atı görmədi.

Həsən kişi dedi:

- Balalarım, həyətdə niyə dayanmısız, evə keçin.

Sonra birdən yadına düşdü ki, axı bunların qara kağızı gəlib, axı bunlar ölüblər. Və Həsən kişi qorxdu.

Həsən kişi dedi:

- Balalarım, mənim günahım nədi, niyə mənə belə baxırsız?

İsrəfil dedi:

- Həsən kişi, günahkarın böyüyü elə sənsən. Vaxtında yüz yol dedik ki, kəhər at sənin babın deyil. Allah da götürmədi ki, kəhər kimi at sənə qismət olsun. Bunlar hamısı Allahın sənə göndərdiyi cəzalardı. Əgər vaxtında kəhər atı birimizə satsaydın, nə dava olardı, nə biz gedərdik, nə də kəhər at.

Sözün bu yerində Həsən kişini ağlamaq tutdu. Əlinin dalıynan gözünün yaşını silib baxdı ki, nə Əfrayıl var, nə İsmayıl var, nə də, İsrəfil. Fikirləşdi ki, əgər bu yuxudu mən görüməmsə bəs həyətin ortasında neynirəm? Yox, əgər yuxu deyilsə, bəs bunlar nə oldular?..

Həsən kişi Allahdan qorxan adam idi. Yazığı titrətmə tutdu, titrəyə-titrəyə gedib yorğan-döşəyə girdi, o girən day yorğan-döşəkdən qalxmadı. Aylar ötdü, Həsən kişinin qızdırması ötmədi. Dava qurtardı, Həsən kişinin naxoşluğu qurtarmadı. Və bir səhər gün çırtlayıb aləmi işıqlandıranda Həsən kişinin nəfəsi qaralmağa başladı...

Həsən kişi bu dünyaynan üzülüşürdü ki, qulağına at tappıltısı gəldi. Həsən kişi o tappıltını yüz səsin içində tanıyardı. Birtəhər yorğanı itələyib qalxdı, birtəhər qapını itələyib açdı.

Kəhər at həyətin ortasında dayanmışdı.

Kəhər atın yəhərində kimsə vardı, ancaq Həsən kişinin gözündə işıq qalmamışdı, yəhərdəkini tanıya bilmədi. Dizində hey də qalmamışdı, kəhər ata sarı bir addım da ata bilmədi.

Elə-belə, qarasına səslədi ki, Əfrayıl!..

Yəhərdəki cavab vermədi.

Yenə səslədi ki, İsmayıl!..

Yəhərdəki cavab vermədi.

Bir də səslədi ki, İsrəfil!..

Yəhərdəki yenə cavab vermədi.

Həsən kişi doluxsuna-doluxsuna dedi ki, ay insafsız, ölürəm axı, hər kimsən kəhəri yaxın sür, heç olmasa ölənə macal kəhərin boynunu qucaqlayım...

Həsən kişi bu sözü deyəndə kəhər atın yəhərindən bir əl uzandı. O əl həyətin ortasından düz evin qapısınacan uzandı, yavaşca Həsən kişinin biləyindən yapışdı və o əlin sahibi dedi ki, Həsən kişi, yoxsa məni tanımadın? Mən sənin ölümünəm, səni aparmağa gəlmişəm. Görürəm bu dünyada piyada olmaq sənə əl vermir.

O əl Həsən kişini qaldırıb kəhər atın belinə mindirdi. Həsən kişi kəhər atın belində, öz ölümünün tərkində bu dünyadan çapıb getdi. Və Həsən kişinin bədəni qapının ağzında üzüqoylu yerə yıxıldı.

Həsən kişinin bədənini aparıb basdırdılar.

Camaat danışırdı ki, Həsən kişini kəhər atın dərdi öldürdü, kəhər at davaya getməsəydi, bəlkə o da ölməzdi.

Ancaq Həsən kişi ölən günün səhəri sədr Şərif dedi ki, kəhər at heç davaya-zada getməmişdi.

Camaatın ağzı açıla qaldı ki, necə yəni getməmişdi?

Sədr Şərif dedi:

- Getməmişdi, vəssəlam. O vaxt atları kənddən çıxarıb aparanda kəhər at yolda əlimizdən buraxılıb qaçdı. Ha qovduq tuta bilmədik. Axırda dörd tərəfdən araya alıb başladıq qamçılamağa. Zalım oğlu vayenkomun qamçısı kəhərin bir gözünü tökdü. Kor atın davada nə işi vardı? Kəndə də qaytara bilməzdim, Həsən kişi kəhəri o gündə görsəydi gözümü tökərdi. Odur ki, kəhəri yolüstü bir kəndin məktəbinə satdıq. O biri il yolum ordan düşəndə öyrəndim ki, kəhər bütün qışı məktəbə odun daşıyıb. Uşaqları yaza çıxarıb, özü yaza çıxmayıb...

Sədr Şərif bu sözdən sonra bir camaata baxdı, bir göyə baxdı və başını yırğalayıb dedi ki, belə-belə işlər...

1970

HAMI OĞUL BÖYÜTMÜŞDÜ

Yetim Qulu o qapıda, bu qapıda yetimçiliknən böyümüşdü; damdan yıxıla-yıxıla, çayda boğula-boğula, dünyanın bütün pis naxoşluqlarını çıxara-çıxara böyümüşdü. Ancaq damdan yıxılanda qıçı sınmamışdı, çayda boğulanda batıb ölməmişdi, o ki qaldı naxoşluqlara, burda məsələ bir az qəlizləşir.

Çünki yetim Qulu uşaq vaxtı hansı naxoşluğa düşürdüsə, kənddəki neçə-neçə uşağı da həmin naxoşluğa salırdı.

Qulu çiçək çıxartdı, kənddəki neçə-neçə uşaq da çiçək çıxartdı. Qulu tamam sağaldı, heç o çiçəyin izi-tozu da qalmadı, ancaq kənddəki neçə-neçə uşağın sir-sifətində o çiçəkdən çopur qaldı.

Qulunun başı yara tökdü, kənddəki neçə-neçə uşağın başı da yara tökdü. Qulu tamam sağaldı, heç o yaranın izi-tozu da qalmadı, ancaq kənddəki neçə-neçə uşağın başında o yaradan keçəllik qaldı.

Bəli, yetim Qulu böyüdü, bir cavan oğlan oldu.

Tay-tuşları başladılar evlənməyə: sifəti çopurlar da evləndilər, başı keçəllər də. Təkcə yetim Qulu bu qıvrımsaç başıynan, bu gül kimi sifətiynən evlənmədi ki, evlənmədi.

Yetim Qulu evlənməyə qorxurdu. Qorxurdu ki, evlənə - uşağı ola, ölə - uşağı yetim qala...

Yetim Qulu evlənmədi ki, uşağı yetim qalmasın.

Tay-tuşları oğul-uşaq sahibi oldular, Qulu ölmədi.

Oğul-uşaq böyüdü, beş yaşına çatdı, on yaşını ötdü, on beş yaşından adladı, - Qulu ölmədi və başladı peşiman olmağa. Fikirləşdi ki, ey dadi-bidad, evlənsəydim, indi oğlumun on beş yaşı olardı...

Yetim Qulu evlənsəydi, oğlu indi iyirmi yaşına çatardı ki, dava başladı.

Oğul-uşağı apardılar davaya.

Qulu fikirləşdi ki, ey dadi-bidad, evlənsəydim, oğlum olsaydı, indi davaya gedəcəkdi...

Oğul-uşaqdan başladı qara kağızlar gəlməyə.

Poçtalyon Səməd camaatın qapısını qorxa-qorxa döyməyə başladı, poçtalyon Səməd camaatın qapısını döyəndə camaat qorxmağa başladı və Qulu fikirləşdi ki, ey dadi-bidad, evlənsəydim, oğlum olsaydı, davaya getsəydi, indi qara kağızı gələcəkdi...

Və bu cürə fikirləşə-fikirləşə günlərin bir günü hiss elədi ki, poçtalyon Səmədən qorxur.

Yazıq poçtalyon Səmədin bu kənddə qorxmadığı bircə adam vardısa, o da Quluydu, qorxa-qorxa döymədiyi bircə qapı vardısa, o da Qulunun qapısıydı.

Bu yandan da ki, Qulu başladı ondan qorxmağa.

Hər dəfə poçtalyon Səməd qapısını döyəndə, Qulunun ürəyi düşürdü, rəngi-rufu qaçırdı.

Yetim Qulu onun nəyindən qorxurdu, niyə qorxurdu, - o yazıq heç cürə başa düşə bilmirdi. Ancaq yetim Qulu elə sidq-ürəkdən qorxurdu ki, yazıq poçtalyon Səməd bundan da qorxmağa başladı, bunun qapısını da qorxa-qorxa döyməyə başladı.

Və ikisi də bir-birindən o cürə qorxa-qorxa, çəkinə-çəkinə axırda bir-birini elə bir şeyə inandırdılar ki, kimə desən inanmaz.

Əgər günlərin bir günü bu kəndə bir qara kâğız gəlsəydi və belə məlum olsaydı ki, həmin qara kağız yetim Qulunun davadakı oğlundan gəlib, - nə Qulu bir damcı heyrətlənərdi, nə də poçtalyon Səməd.

Bəli, bunlar ikisi də səmimi qəlbdən inanmışdılar ki, yetim Qulunun bir cavan oğlu var, özü də davadadı... Ancaq qəribə burasıydı ki, ikisi də Qulunun oğlundan məktub-zad gözləyib eləmirdilər. Qulunun oğlundan təkcə qara kağız gələ bilərdi...

Yetim Quluynan poçtalyon Səməd bir-birindən bu cürə qorxa-qorxa, çəkinə-çəkinə ayları ötürdülər, illəri yola saldılar və günlərin bir günü baxıb gördülər ki, dava qurtarıb.

Davadan qara kağızı gəlməyənlər özləri bir-bir qayıdıb gəlirdilər. Bu hesabnan gərək Qulunun oğlu da qayıdaydı.

Yetim Qulu bütün kəndin gözünün qabağında həsrətnən oğlunun yolunu gözləyirdi və bu boyda kənddə bir adamın ağlına da gəlmirdi ki, yaxşı, bu Qulu hansı oğlunun yolunu gözləyir?.. Bu Qulunun oğlu nə gəzir?!..

Çünki hamı gözləyirdi, bütün kəndin gözü yoldaydı, davaya gedən oğul-uşağından qara kağız gələnlər də gözləyirdilər.

Yetim Qulu da gözləyirdi...

...Qayıdanlar qayıtdılar, camaatın bir parası gözünü yoldan çəkdi.

Qayıtmayanlar qayıtmadılar, qalan camaat da yavaş-yavaş başladı inanmağa ki, bu qayıtmayanlar deyəsən heç bir də qayıtmayacaqlar, bunlar da gözlərini yoldan çəkdilər.

Belə-belə, bütün kəndin gözü yoldan çəkildi və bütün kənd gözünü zillədi Quluya; çünki Qulunun gözü hələ də yoldaydı.

Davadan gələnlər də özlərini itirmişdilər, təəccübnən gah camaata baxırdılar, gah Quluya. Heç cürə başa düşə

bilmirdilər ki, bu əhvalat nə olan şeydi?..

Camaat əhvalatı bunlara da başa saldı və davadan gələnlər bu əhvalata güldülər.

Doğrudu, bu əhvalat əslində gülməli deyildi, ağlamalıydı. Ancaq bu davadan gələnlər min cürə odun-alovun içindən çıxmışdılar, min cürə ölüm-itim görmüşdülər və indi bu dünyadakı çox-çox ağlamalı şeylər bunlara gülməli görünürdü.

Davadan gələnlər başladılar Quluya sataşmağa; hamısı cürbəcür nağıllar quraşdırıb danışırdı, o nağıllardan belə çıxırdı ki, guya bunlar hamısı davada yetim Qulunun oğluna rast gəlmişdilər, onnan bir yerdə vuruşmuşdular və nəzərə alanda ki, bu adamların heç birisi davada bir-birinə rast gəlməmişdi, onda belə məlum olur ki, yetim Qulunun oğlu quş kimi bir şey imiş, bunun yanından onun yanına uçurmuş, onun yanından bunun yanına uçurmuş.

Ancaq o quşu harda vurmuşdular, kim vurmuşdu, - bunu Quluya deyən yox idi.

Bəli, davadan gələnlər danışırdılar, yetim Qulu kövrələ-kövrələ, doluxsuna-doluxsuna qulaq asırdı, xəlvətə çəkilib ağlayırdı və camaatın başı Quluya elə qarışmışdı ki, poçtalyon Səməd heç kəsin yadına düşmürdü.

Məsələ beləydi ki, yetim Qulunun oğlundan söhbət düşəndə poçtalyon Səmədin də əhvalı dəyişirdi, gözü dolurdu və söhbətin o yerində ki, day yetim Qulu özünü saxlaya bilmirdi, bir xəlvətə çəkilirdi ki, doyunca ağlasın, poçtalyon Səməd də camaatın arasından çıxıb büzüşə-büzüşə evinə gedirdi...

Və günlərin bir günü o yazıq yenə eləcə büzüşə-büzüşə evinə gedəndən bir az sonra kəndə xəbər yayıldı ki, bəs poçtalyon Səməd ölür...

...Poçtalyon Səməd can verirdi.

Yazığı dalıqatlı taxtın üstünə uzatmışdılar, arvadı başının üstündə durmuşdu, uşaqları ayağının böyründə dayanmışdılar.

Poçtalyon Səmədin arvadı hönkür-hönkür ağlayırdı, ancaq uşaqları hələ çox balacaydılar, ağlamırdılar. Və bəlkə də, poçtalyon Səmədin arvadı ona görə belə hönkür-hönkür ağlayırdı ki, uşaqları hələ çox balacaydılar, ağlamırdılar.

Poçtalyon Səmədgilə çoxlu adam yığılmışdı və o yazığın dodaqları tərpənəndə, son nəfəsdə Qulunu çağıranda bu adamlar çaşıb özlərini itirdilər... Ora yetim Qulu, bura yetim Qulu!..

Qulunu tapıb gətirdilər.

Yetim Qulu içəri girəndə poçtalyon Səməd tamam hərəkətdən düşmüşdü, nəfəsi də gəlmirdi, ancaq ölməyinə də hələ ölməmişdi.

Gözləri açığıdı, qapıya zilləmişdi, Qulunu gözləyirdi.

Hamı Qulunu gözləyirdi.

Poçtalyon Səmədin arvadı da bir qıraға çəkilib kirimişdi, ağlamırdı.

Elə sakitlik idi ki, milçək uçsa vızıltısı eşidilərdi. Və doğrudan da, milçək uçurdu, vızıltısı eşidilirdi.

O milçək vızıldaya-vızıldaya düz poçtalyon Səmədin gözünün qabağında hərlənirdi. Ancaq poçtalyon Səmədin o milçəyi qovmağa heyi yox idi. Qorxusundan gözünü də qırpa bilmirdi. Çünki bilirdi ki, gözünü qırpsa day açmağa heyi çatmayacaq, elə o cür gözüyumulu ölüb gedəcək, Qulunu da görməyəcək.

Və elə ki, Qulu girdi içəri, gəldi dayandı o yazığın başının üstündə, hamı da maraqnan başladı gözləməyə ki, görən poçtalyon Səməd buna nə deyəcək, o yazıq yavaşcadan pıçıldadı:

- Qulu, sən Allah bu milçəyi qov...

Qulu milçəyi qovdu.

Poçtalyon Səməd yenə yavaşcadan pıçıldadı:

- Qulu, ölürəm, halal elə...

Qulu başını tərpətdi, yəni ki, halal eləyirəm.

Və poçtalyon Səməd bu dəfə lap yavaşcadan pıçıldadı:

- Qulu, bu neçə ili səni aldatmışam, Allah günahımdan keçsin... döşəyin ucunu qaldır, uşağın qara kağızı ordadı...

Camaatın gözü bərəldi: hansı uşağın qara kağızı?.. Nə qara kağız?..

Qulu əyilib döşəyin ucunu qaldırdı.

Hamı dörd göznən baxırdı; ancaq döşəyin altı bomboş idi...

Camaat rahat nəfəs aldı.

Yetim Qulu çevrildi poçtalyon Səmədə desin ki, bəs döşəyin altında heç nə yoxdu.

...Poçtalyon Səməd ölmüşdü...

1970

AĞRI

İskəndər davadan doqquz il qabaq evlənmişdi, uşağı olmamışdı. Getdi davaya, doqquz ay sonra məktub aldı ki, oğlu olub.

Əvvəl sevindi. Sonra ürəyinə nə damdısa kefi pozuldu; durduğu yerdə ağlamaq tuturdu, gözündən yaş axırdı.

Komandir soruşdu:

- Niyə ağlayırsan?

İskəndər dedi:

- Oğlum olub. Doqquz il olmayıb, mən davaya gedən kimi olub.

- Oğlun olub, lap yaxşı. Ta niyə ağlayırsan?

İskəndər dedi:

- Qorxuram öldürələr, oğlumu görməyəm.

Komandirin ona yazığı gəldi, dedi:

- Məktub yaz, oğlunun şəklini göndərsinlər.

Və İskəndər komandirə demədi ki, kənd yerində şəkil çəkdirmək nə boyda işdi. Uşağı gərək aparalar rayona. Rayonnan kəndin arası da bir dünya yoldu. Rayonda da ki, indi şəkil çəkən tapıla, ya tapılmaya.

İskəndər komandirə heç nə demədi, ancaq yadına davadan üç-dörd il qabaq özünün şəkil çəkdirməyi düşdü. İskəndər o şəkli rayonda yox, şəhərdə çəkdirmişdi. Getmişdi şəkil çəkilən yerə. Şəkil çəkilən yerdə hərəsi divarın yarısı boyda iki yekə şəkil vardı. Birində bir adam çəkmiş-

dilər, altında at, əlində qılınc, çiynində tüfəng. Amma çiyninin üstündə başı yox idi, başının yerində deşik vardı.

İskəndərə dedilər:

- Keç o şəklin dalına, ayağının altına stul qoy, qalx, başını o deşikdən çıxart, şəklini çəkək. Bu at da sənin olsun, qılınc da, tüfəng də...

İskəndəri uşaq vaxtı bir dəfə at yıxmışdı, elə o qorxandı ki atdan qorxurdu.

Və İskəndər başını o biri şəkildəki adamın çiyninin üstündəki deşikdən çıxartdı. O adam yekəpərin biriydi, nəhəng bir ştanqı da qaldırıb saxlamışdı başının üstündə. Başının üstündə deyəndə ki, başı yox idi və İskəndər öz başını həmin adamın çiyninin üstündəki deşikdən çıxardandan sonra o ştanq qaldı İskəndərin başının üstündə.

İskəndər gözünü dolandırıb şəkildəki o yekəpər adamın ayaqlarına, qollarına baxdı, fikirləşdi ki, bir azdan bu ayaqlar, qollar özününkü olacaq, bəh-bəh eləyib ağzını marçıldatdı. Sonra gözünü dolandırıb başının üstündəki ştanqa baxdı və başının tükləri biz-biz oldu. Zalım oğlunun ştanqı heç elə bil şəkil deyildi, doğruçuydu. İskəndər fikirləşdi ki, ay Allah, indi bu ştanq doğruçu ola, düşə başıma, xurdxəşil eləyər.

Və şəkil çəkənə dedi ki:

- Tez ol, çək görüm, bağrım yarıldı.

Şəkil çəkən aparatı çıqqıldatdı və hırıldadı.

İskəndər başını o ştanqın altındakı deşikdən çıxartdı və rahat nəfəs aldı.

İskəndər həmin şəkli apardı kəndə.

İskəndərgildə nuhdan qalma bir divar güzgüsü vardı. Güzgünü divardan düşürtdü, üzüqoylu atdı sandığın içinə, sandığın ağzını da qıfılladı və həmin şəkli vurdu güzgünün yerinə.

İskəndər çöl işindən yorğun qayıdanda həmin şəkildəki pəhləvan İskəndərə baxırdı, o dəqiqə yorğunluğu canından çıxırdı. Süfrəyə çörək gələndə həmin şəklə baxırdı, iştahı ikiqat artırdı. Davaya gedən gün axırıncı kərə həmin şəklə baxdı və arvadına dedi ki:

- Qorxma, mənə güllə batmaz!..

Ancaq indi İskəndərin ürəyinə dammışdı ki, öləcək. Öləcək, oğlunu görməyəcək.

Və günlərin bir günü İskəndər səngərdə, elə oturduğu yerdəcə yuxulamışdı, tüfəngi də qucağında, birdən yuxuda həmin şəkil çəkilən yeri gördü.

Orda, otağın ortasında yekə bir şəkil vardı, o şəkildə bir beşik çəkmişdilər, beşikdə də bir uşaq. Uşağın çiyninin üstündə başı yox idi, deşik vardı.

Və qapı açılırdı, İskəndərin arvadı qucağında uşaq girirdi içəri, keçirdi şəklin dalına, qucağındakı uşağın başını şəkildəki uşağın çiyninin üstündəki deşikdən çıxarırdı, İskəndər baxırdı, deyirdi:

- Yox, bu deyil!..

Arvadı gedirdi, qucağında ayrı uşaq, təzədən gəlirdi.

Belə-belə, arvadı neçə yol getdi-gəldi, amma o uşaqların heç birisinin sifəti İskəndərin ürəyinə yatmadı.

Axırda İskəndərin də, şəkil çəkənin də ümidi tamam kəsilmişdi ki, qapının dalından ağlamaq səsi gəldi. Sonra qapı açıldı, İskəndərin arvadı, qucağında bir uşaq, girdi içəri.

Uşaq ağlayıb özünü öldürürdü.

İskəndərin arvadı keçdi şəklin dalına, ağlayan uşağın başını güc-bəlaynan bir təhər şəkildəki deşikdən çıxartdı. O uşağın sifətini görən kimi İskəndərin qanı qaynadı. Uşağın ağzı-burnu, gözü-qaşı eynən İskəndərinkiydi. Hətta ağzının üstündə, burnunun altında eynən onunku kimi bir qalın, cod bığı da vardı.

İskəndər ləzzətnən bığını tumarladı və şəkil çəkənə dedi:

- Çək!

Ancaq şəkil çəkən o bığlı uşağın şəklini çəkə bilmədi. Çünki birdən elə bil yer tərpəndi. İskəndər yuxudan dik atılıb gördü ki, vur çatlasındı. İskəndərgilin üstünə düşmən tankları gəlirdi, düşmən saldatları yüyürürdü.

İskəndər tüfəngi qaldırdı üzünə, elə bir düşmən saldatını seçib nişan almaq istəyirdi ki, möcüzə baş verdi. İskəndər tüfəngi tuşlayıb sol gözünü qıyan kimi tüfəngin lüləsiynən o saldatın arasında bir beşik peyda oldu. Beşikdə bir uşaq dimdik dayanıb əllərini uzatmışdı İskəndərə sarı, ağlayıb özünü öldürürdü.

İskəndər səksənib sol gözünü açdı, beşik də yox oldu, beşikdəki uşaq da.

İskəndər üç dəfə "lənət şeytana" dedi, üç dəfə böyrünü çimdiklədi və İskəndər bunları eləyənəcən həmin düşmən saldatını vurub aşırtdılar.

İskəndər tüfəngi qaldırdı üzünə, bir ayrısını nişan aldı. Ancaq sol gözünü qıyan kimi yenə həmin beşik peyda oldu, həmin uşaq da içində.

İskəndər yenə sol gözünü açdı və başa düşdü ki, belə getsə bu beşikdəki uşaqdan yaxasını qurtara bilməyəcək.

Birdən ağlına nə gəldisə, tüfəngi üstlərinə gələn düşmən tanklarından birinə tuşladı və sol gözünü qıyan kimi yenə həmin beşik gəlib durdu tüfəngin lüləsiynən o tankın arasında, içində də həmin uşaq.

İskəndər başladı gözləməyə.

Tank gəldi, yaxınlaşdı, elə indicə o beşiyi bastalayıb keçəcəkdi ki, İskəndər dözmədi, səngərdən bayıra atıldı, çığıra-çığıra düz o tankın üstünə cumdu.

Day sonrasından İskəndərin xəbəri olmadı. Bir də gözünü açıb gördü ki, qospitaldadı, başı sarıqlı uzanıb.

O qospitalda yaralı çox idi. Hər gün dava-dərmandan savayı hərəsinə bir parça şakalad da verirdilər; yesinlər, qana gəlsinlər. Çünki bu yaralılar çoxlu qan itirmişdilər. Sağalandan sonra da, yenə cəbhəyə qayıtmalıydılar, yenə vuruşub çoxlu qan axıtmalıydılar; həm düşmənin, həm də, özlərinin qanını.

İskəndərin başının yarası tez sağaldı, heç balaca çapığı da qalmadı. Amma həkimlər ha əlləşsələr də, başının ağrısı getmədi ki, getmədi. Bu ağrıynan təzədən düşmən üstünə getmək müşkül məsələydi. Odur ki, İskəndərə axırıncı dəfə bir parça şakalad verdilər, üstəlik ona üstü möhürlü bir kağız da verib dedilər ki:

- Bu müharibəynən səninki qurtardı. Get evə, arvad-uşağın yanına...

İskəndər o kağızı da, şakaladı da qoydu cibinə, qospitaldan çıxıb yola düşdü, gah qatarnan, gah maşınnan, gah piyada neçə kənddən, şəhərdən keçə-keçə axır ki gəlib doğma kəndə gedən yola yetişdi.

***

...Günün elə vaxtıydı ki, nə gecəydi, nə səhər; ulduzlar batmışdılar, ay hələ batmamışdı, göyün bir tərəfində dayanıb dururdu.

Göyün o biri tərəfi bomboş idi.

Yol da bomboş idi.

İskəndər bu bomboş yolun qırağıynan, otların arasıynan gedirdi, gedə-gedə göydəki aya baxırdı və az qalmışdı ki, ağappaq, yepyekə bir göbələyi tapdalasın. İskəndər ayağını havada saxladı, yuxarıdan aşağı başladı göbələyi süzməyə.

Bu göbələk göbələkdən çox dovşana oxşayırdı, təkcə qulaqları çatmırdı.

Bəlkə elə qulaqları da çatırdı, bəlkə elə dovşan idi, qulaqlarını başına çəkib yatmışdı.

İskəndər aşağı əyildi:

- Sən dovşansan, ya göbələk? - dedi.

Dovşan göbələk kimi susurdu.

İskəndər ayağını bir az da yuxarı qaldırdı və o göbələyin düz qulağının dibində təpiyini yerə çırpdı.

Göbələk dovşan kimi götürüldü.

O dovşan bu çəmənlikdə yatan bütün məxluqatın yuxusuna haram qata-qata qaçırdı.

O kəpənəyi yuxudan eləyən də o dovşan oldu.

Kəpənək dovşanın lap ayağının altından qanad çala-çala qalxdı, o yana uçdu, bu yana uçdu və havada çaşıb qaldı.

Ay da batmışdı, alatoranlığıydı.

Hər şey - otlar, çiçəklər alatoran rəngindəydi, əslində rəngsiz idi. Kəpənəyi də bu rəngsizlik çaşbaş eləmişdi.

Ancaq göyün o biri tərəfi get-gedə qızarırdı, sonra günəş göründü. İskəndər başını qaldırıb günəşə baxdı və gözü qamaşmadı. Çünki o günəşin işığı hələ yerə gəlib çatmamışdı. Ancaq o işıq günəşdən ayrılmışdı, göynən başaşağı gəlirdi.

Kəpənək də günəşi görüb qanadlarını çala-çala yuxarı qalxdı. Yuxarıda, yerdən bir xeylək hündürdə günəşin işığı kəpənəyi haxladı və kəpənək məst oldu, bir an havada quruyub qaldı, qanadları tərpənmədi. Sonra elə o cür, o işığın ucunda aşağı yenməyə başladı.

Ancaq o işıq kəpənəyi ötüb keçdi, İskəndərin gözlərinə doldu və İskəndər gözlərini yumdu.

İskəndər gözlərini açanda günəşin işığı yerə çatmışdı. Hər şey öz rəngindəydi; otlar yaşılıydı, çiçəklər qırmızı...

Bayaqkı alabəzək kəpənək də o rənglərin üstündə atılıb düşürdü, özüyçün kef eləyirdi.

İskəndər də düşmüşdü o kəpənəyin dalınca, sağına-soluna keçirdi:

- Bir şey göstər, ay Allahın gözəl məxluqu!.. - deyirdi, - Bir ot göstər, çiçək göstər. Nəyə qonsan mənimdi, əhd eləyirəm, bir şey göstər götürüm aparım balama, deyim kəpənək xalan göndərdi...

Kəpənək uçurdu, dolanırdı, amma heç nəyə qonmurdu, heç nəyi göstərmirdi.

Eləcə uça-uça o kəpənək İskəndəri çəməlikdən çıxartdı, yamacla üzü aşağı düşürtdü, çayın qırağına gətirdi.

...O tısbağa çayın sahilə yaxın, dayaz yerində, yekə bir daşın üstünə sərilmişdi, ensiz, yumşaq başını enli, bərk çanağının altından çıxarıb özünü günə verirdi.

Kəpənək uça-uça gedib düz o tısbağanın başının üstündə hərlənməyə başladı, deyəsən bərbəzəkli çanağından xoşu gəlmişdi, qonmaq istəyirdi.

İskəndər çayın qırağında dayanmışdı, kəpənəyə yalvarırdı:

- Qonma, - deyirdi, - ay Allahın gözəl məxluqu!.. Mundarlama əhdimi... O tısbağanı hansı uşağın yanına aparmaq olar?!..

Özü deyirdi, özü eşidirdi. Kəpənək kəmali-səliqəynən tısbağanın üstünə qonmağa hazırlaşırdı.

İskəndər kəpənəkdən ümidini kəsdi, üzünü tutdu tısbağaya:

- İnsafın olsun, - dedi, - məni oğul-uşaq yanında biyabır eləmə!.. Yeri get, nə tapmısan o daşın üstündə axı?!.. Gül kimi çayı qoymusan orda.. - əyilib əlini suya vurdu, - Suya bax.. - dedi, - bəh-bəh-bəh!..

Yox, balam, deyəsən o tısbağanın da tərpənmək fikri yox idi.

İskəndər yerdən bir xırdaca daş götürüb o tısbağaya tulladı; özü də, tuşlamadı, elə-belə tulladı ki, bəlkə qorxub gedə.

Və tısbağa sərildiyi o yekə daşın üstündən sürüşdü, düşdü suyun içinə. Ancaq kəpənək yenə o daşdan uzaqlaşmadı, uçurdu, hərlənirdi, o daşın başına dolanırdı.

Birdən İskəndərin ürəyinə nəsə bir pis şey damdı, özündən ixtiyarsız suya girdi, getdi, getdi, su dizinəcən qalxdı, sapoqlarına doldu, qurşağına çıxdı və İskəndər o daşa gəlib çatdı.

Daşın üstünə qan tökülmüşdü.

O tısbağa da daşın böyründə, çayın dibində dalıqatlı düşüb qalmışdı.

İskəndər o tısbağanın parçalanan başını, çanaqnan örtülən yekə, yöndəmsiz bədənini gördü. İskəndər eşitmişdi ki, tısbağalar yüz il, iki yüz il yaşayır. Bəlkə bu tısbağanın da yüz yaşı vardı və yüz ildi ki, bu tısbağanın yekə, yöndəmsiz bədəni o iri, ağır çanağı öz üstündə gəzdirirdi, o çanağın havayı hamballığını eləyirdi. Amma bu günəşli gündə o çanaq bu tısbağanın balaca, ensiz, yumşaq başını xırdaca bir daşdan qoruya bilmədi.

Birdən İskəndərin bu iri, ağır çanağa acığı tutdu, az qaldı ki bir təpik ilişdirsin, ancaq üzünü çevirdi və çıxıb getdi.

İskəndər pərt olmuşdu, çırtma vursan qanı çıxardı, heç bilmirdi ki, necə yeriyir. Və deyəsən heç suyun içiynən yeridiyini də bilmirdi...

...İskəndər çayın qırağındakı dəyirmanacan elə yeridi.

Dəyirmanın qabağında bir araba dayanmışdı, arabaya bir cüt öküz qoşulmuşdu. Arabanın içində çuval tayları

vardı, böyründə də adamlar; biri başıpapaqlıydı, üçü başıyaylıqlı.

Başıpapaqlı dəyirmançıydı, İskəndərə uzaq qohumluğu çatırdı.

Başıyaylıqlılardan biri Güllü arvadıydı.

Bu həmin Güllü arvadıydı ki, davadan on-on beş il qabaq öz doğmaca ərini qolçomaq çıxardıb tutdurmuşdu. O vaxtacan bu kənddə heç kəsin Güllü arvadı görməyə gözü yox idi, çünki o cür əzazil adamnan bir yastığa baş qoyurdu. Amma ərini tutdurandan sonra Güllü arvad lap camaatın gözündən düşdü, çünki o kişi nə qədər əzazil adam olsa da, hər halda Güllü arvadın əriydi, onnan bir yastığa baş qoymuşdu...

Başıyaylıqlıların o birisi Nisə bacıydı.

Nisə bacı bir ucaboy, incəbel gəliniydi. Ancaq indi belinin incəliyi qalmamışdı, çünki hamiləydi. Davanın bu vurhavur vaxtı hamilə olmaq bir az qəliz haqq-hesab sayılsa da, məsələ bundaydı ki, Nisə bacı törə Məmmədin arvadıydı, törə Məmmədi də davaya aparmamışdılar, çünki boyu çatmırdı.

Əslinə qalsa, davadan qabaq Nisə bacı törə Məmmədi heç adam saymırdı. Ancaq törə Məmməd o vaxt da onun dərdindən dəli-divanəydi. Camaatın da törə Məmmədə yazığı gəlirdi, çünki bilirdilər ki, bu sevda baş tutan iş deyil. Amma bu kəndin cavanları hamısı davaya gedəndən sonra, günlərin bir günü Nisə bacı çöldə ona necə baxdısa, törə Məmməd elə həmin axşam Nisə bacıgilə elçi göndərdi, bir ay sonra da toy eləyib Nisə bacını apardı evinə.

O gündən törə Məmmədin çiçəyi çırtdadı, amma bir şeyi başa düşə bilmədi ki, davadan qabaq Nisə bacının dərdindən dəli-divanə olanda bu camaatın ona niyə yazığı gəlirdi? Və indi Nisə bacını evinə aparıb özünə arvad eləyəndən sonra bu camaatın ondan niyə zəhləsi getməyə başladı?!..

Başıyaylıqlıların üçüncüsünü İskəndər əvvəlcə tanımadı. Çünki İskəndər davaya gedəndə o qız bir burnufirtıqlı uşağıydı; ayaqyalın, başıaçıq, kəndin içində o yan-bu yana qaçırdı. İndi böyüyüb yetişmişdi. Doğrudu, ayaqları yenə yalınıydı, amma başında bir təptəzə, güllü yaylıq vardı. Burnu da ki, maşalla, tərtəmiz idi.

İskəndəri görən kimi hamısının gözü bərəldi, ağızlarını ayırıb ona baxa-baxa qaldılar.

İskəndər də özünü itirdi, bir yuxarıdan aşağı özünə baxdı, gördü ki, qurşağacan suyun içində dayanıb və lap çaşdı.

Yavaş-yavaş sudan çıxdı, elə ayağı quruya dəyən kimi əvvəlcə dəyirmançı özünə gəldi, cumub İskəndərin boynunu qucaqladı:

- Xoş gəlmisən! - dedi.

Dəyirmançı buraxan kimi İskəndər keçdi Güllü arvadın cənginə. Güllü arvad İskəndəri bağrına basıb marçamarç öpdü.

İskəndər Güllü arvadın cəngindən qurtarandan sonra həmin başıyaylıqlı, ayağıyalın qız başındakı yaylığı düzəldə-düzəldə, yalın ayaqlarını bir-birinin dalında gizlədə-gizlədə İskəndərə yaxınlaşdı, nazlana-nazlana əl verib görüşdü.

Nisə bacı bir az ləngidi, barmaqlarını ovuşdurdu, sonra başını tərpədib İskəndərə salam verdi.

İskəndər də başıyla onun salamını aldı və Nisə bacının böyüyüb yumrulanan qarnını görəndə kefi kökəldi, yadına düşdü ki, bir azdan oğlunu görəcək, üzünü tutdu Nisə bacıya:

- Bizim uşaq necədi? - dedi.

O yaylıqlı qız pıqqıldadı.

Nisə bacı utanıb başını aşağı saldı, cavab vermədi.

İskəndər bu dəfə üzünü Güllü arvada çevirdi:

- Bizim uşaq necədi?..

Güllü arvad:

- Ay İskəndər, bir hövsələn olsun!.. - dedi, - Gəlmisən, gedərsən, uşağı da görərsən. Hələ bir də görək frontda işlər necədi, nə əcəb səni belə buraxıblar, yoxsa dava qurtarıb?!..

Güllü arvad bunların hamısını birnəfəsə dedi.

Güllü arvad bunları deyəndə İskəndər heç kəsə baxmırdı, əyilmişdi, sapoqlarını çıxarırdı. Çünki sapoqlarının içi suynan doluydu və o su İskəndərin barmaqlarını üşüdürdü.

Elə sapoqlarını çıxara-çıxara:

- Bilmirəm, - dedi, - davadı da... Bəlkə qurtarıb, bəlkə yox...

İskəndər bunu deyəndə Güllü arvad səksəndi, sonra gözlərini zillədi dəyirmançının gözlərinə, sirli-sirli başını tərpətdi.

Güllü arvadın belə sirli-sirli başını tərpətməyində nəsə çox pis bir şey vardı, həmin pis şeyi Nisə bacı dəyirmançıdan əvvəl hiss elədi və rəngi ağardı.

Sonra həmin pis şeyi dəyirmançı da hiss elədi, üz-gözünü büzüşdürüb başını buladı, yəni ki, yox, ola bilməz!

Amma o yaylıqlı qız hələ heç nə hiss eləmirdi, elə yaylığını qurdalaya-qurdalaya baxırdı.

İskəndər sapoqlarını çıxartdı, suyunu boşaltdı, günün altında qoydu ki, qurusun.

Sonra corab yerinə ayaqlarına doladığı patavaları açdı, suyunu sıxdı, hərəsini bir öküzün belinə sərdi. Sonra ayaqyalın gəlib durdu sapoqların yanında, üzünü Güllü arvada tutub yenə soruşdu:

- Bizim uşaq necədi?..

Güllü arvad yenə başladı ki:

- Ay İskəndər, bir hövsələn olsun, uşaqdı da...

Ancaq bu dəfə sözünün dalını gətirə bilmədi, çünki birdən İskəndəri gülmək tutdu:

- Ay arvad, - dedi, - nə hövsələ-hövsələ deyib durmusan, hövsələm nə gəzir?! Bu boyda yolu kimdən ötrü vurub gəlmişəm? Uşaqdan ötrü! Yoxsa mənim bu vədə burda nə ölümüm vardı?!..

Güllü arvad yenə səksəndi, yenə dəyirmançıya baxdı, ancaq dəyirmançı gözünü qaçırtdı, başladı öküzlərə baxmağa.

Və Güllü arvad guya zarafatnan, gülə-gülə:

- Ay İskəndər, - dedi, - nə çox uşaq-uşaq deyirsən, birdən uşağın eşqi güc eləyər, frontu qoyub qaçarsan ha?

Nisə bacı bayaqdan gözünü ayağının altına zilləmişdi, başını qaldırmağa qorxurdu, ancaq bunu eşidəndə başını qaldırıb Güllü arvada baxdı, gördü ki, Güllü arvad heç zarafat eləyənə oxşamır və yazığın lap matı-qutu qurudu.

Güllü arvad bu dəfə gülə-gülə soruşmadı:

- Bura bax, ay İskəndər!.. - dedi, - Dakumentdən-zaddan bir şeyin var?!..

İskəndər gülə-gülə:

- Var, - dedi, - ay arvad!.. O da var!..

Əlini saldı cibinə, bir az qurdaladı, ancaq nədənsə heç nə çıxartmadı, elə o cür, əli cibində quruyub qaldı...

Nisə bacı da ürəklənmişdi, başını qaldırıb baxırdı, hamının gözü İskəndərin cibindəydi.

...Və İskəndər yavaş-yavaş əlini cibindən çıxartdı, ovcunda əl boyda bir kağız vardı, ancaq kağız olduğu da bilinmirdi, islanıb yamyaş olmuşdu, xəşilə dönmüşdü, üstünə də nə bulaşmışdısa qapqaraydı və bu dəqiqə İskəndərin ovcundan da, şalvarının cibindən də qapqara damcılar süzülürdü.

İskəndər də, ovcundakına baxa-baxa mat-məəttəl dayanmışdı, özü də day gülmürdü.

Güllü arvad gördü İskəndərdən bir hərəkət yoxdu, boynunu uzadıb diqqətnən onun ovcundakına baxdı, amma

deyəsən gördüyündən ağlı bir şey kəsmədi. Üzünü tutdu dəyirmançıya:

- Gəl gör bunun ovcundakı nədi? - dedi.

Dəyirmançı gəldi, ehmalca barmağıynan İskəndərin ovcundakından bir az sivirib yaladı və yerə bir tikə kağız qırıntısı tüpürdü... eləcə, kağız qırıntılarını yerə tüpürə-tüpürə dəyirmançı İskəndərin ovcundakını tamam sivirib yaladı, sonra Güllü arvada sarı dönüb ağzını marçıldada-marçıldada:

- Şaqalatdı... - dedi.

Elə dedi ki, guya bütün məsələ İskəndərin ovcundakının şakalad olub-olmamağındaydı və bunun şakalad olmağıynan da hər şey düzəlirdi.

Güllü arvad tərs-tərs dəyirmançıya baxdı, sonra üzünü tutdu İskəndərə:

- Şaqalatı gördük, - dedi, - ağzın şirin olsun... Dakumenti göstər!..

İskəndər qupquru quruyub qalmışdı, gah dəyirmançının marçıldayan ağzına baxırdı, gah yerdəki kağız qırıntılarına baxırdı:

- Dakumentim yoxdu... - dedi.

Nisə bacı diksinib başını qaldırdı, İskəndərə baxıb yerində büzüşdü.

Güllü arvad da diksindi:

- Necə yəni yoxdu?! - dedi.

İskəndər:

- Varıydı... - dedi, - Amma indi yoxdu...

Və dəyirmançının ağzına baxıb key-key gülümsündü.

Dəyirmançı da çaşmışdı, ağzını marçıldatmırdı, gözlərini döyürdü.

O yaylıqlı qız da deyəsən nəsə başa düşmüşdü, daha başındakı yaylığı qurdalamırdı, yalın ayaqlarını gizlətmək də yadından çıxmışdı.

Güllü arvad birdən əlini atıb İskəndərin yaxasından yapışdı, elə dartdı ki, yaxası cırıldı. Qışqıra-qışqıra:

- Başımızı şaqalatnan aldadırsan?! - dedi, - Qaçmısan, köpəy oğlu?!..

Nisə bacı hönkürüb ağladı və Nisə bacı ağlayan kimi olub-qalan şəkk-şübhə də dağıldı, hamı inandı ki, İskəndər qaçıb. Dəyirmançı yüyürüb İskəndərin qollarından möhkəm-möhkəm yapışdı, elə bil qorxurdu ki, Güllü arvadın əlindən çıxar.

Güllü arvad o yaylıqlı qızın üstünə qışqırdı:

- Kəndir gətir!..

Qız yüyürüb dəyirmana girdi, o dəqiqə də, əlində uzun bir kəndir, qayıdıb gəldi.

Kəndiri görəndə İskəndər qolunu dartdı, ancaq dəyirmançı buraxmadı, lap möhkəm yapışdı.

Güllü arvad kəndirlə İskəndərin qollarını sarıdı və qolları sarınandan sonra İskəndər bir qollarına baxdı, bir sapoqlarına:

- Yaxşı, bəs sapoqları necə geyəcəm? - dedi.

Özü də elə dedi ki, elə bil zarafat eləyirdi.

Güllü arvadın hirsi təpəsinə vurdu, İskəndərin təpəsinə bir qapaz ilişdirdi:

- Sapoqsuz da keçinərsən, - dedi, - Camaat frontda qanın tökür, bu qoyub qaçıb, nədi-nədi, bir burnufirtıxlı oğlu olub!

Güllü arvadın hirsi qapaznan soyumadı, cumub İskəndərin sərdiyi patavaları öküzlərin belindən götürdü, yumrulayıb çaya tulladı.

Sonra qayıtdı ki, sapoqları da götürüb çaya tullasın, ancaq dəyirmançı ondan qabaq sapoqların üstünü kəsdirdi, sağ əlinin yekə pəncəsiynən sapoqların ikisinin də boğazından yapışdı, qulaylanıb gücü gəldikcə uzağa tulladı. Ancaq çaya tullamadı.

Sonra Güllü arvada baxıb yaltaq-yaltaq gözlərini döydü:

- Bəs indi neyniyək?

Güllü arvad:

- Öküzləri tərpət, - dedi, - bu köpəy oğlunu aparaq kəndə!

Dəyirmançı sapoqları tulladığı tərəfə boylanıb soruşdu ki:

- Bəs dəyirman necə olsun?

Güllü arvad da o tərəfə baxıb, hirsli-hirsli:

- Dəyirmanı yeməzlər! - dedi.

Və dəyirmançı o dəqiqə gözlərini o tərəfdən çəkdi, ələ-ayağa düşdü:

- Bu saat... bu saat...

Dəyirmanın qapısını qıfılladı, dəhnənin suyunu sovdu, dəyirmana gələn arxın ağzını ayrı səmtə çevirdi və su azaldıqca arxdakı balıqların necə çaxnaşmağına tamaşa elədi.

...O balıqlar suyun azaldığını görüb tələsə-tələsə üzüyuxarı, axan suyun tərsinə üzürdülər, üzə-üzə gedib yenə çaya yetişmək istəyirdilər, yenə suyun bolluğuna düşmək istəyirdilər. Ancaq çayın yolu kəsilmişdi, yuxarıda su da qurtarmışdı, arxın dibi görünürdü. Balıqlar təzədən geri dönürdülər, axıb gedən suyun dalınca cumurdular, heç olmasa o suyu haxlamaq istəyirdilər, haxlaya bilmirdilər. Su axıb gedirdi, balıqlar çabalaya-çabalaya özlərini arxın dibindəki çala-çuxura salırdılar, çünki o çala-çuxurda heç olmasa bir azca su vardı.

Dəyirmançı arxın qırağında dayanmışdı, arxın dibində susuzluqdan boğula-boğula ağzını açıb-yuman balıqlara baxırdı, burnunun altında nəsə mızıldanırdı, bəlkə elə o balıqları sayırdı.

Güllü arvad dəyirmançıya qışqırdı ki:

- Nəyə baxırsan orda? Niyə gəlmirsən?!..

Və dəyirmançı tez üzünü döndərdi, bu dəfə arxın qırağındakı ağaclara baxa-baxa bir az o tərəf-bu tərəfə hərlən-

di, guya öküzləri vurmaqçın çubuq qırmaq istəyirdi.

Bayaq tulladığı sapoqlar o ağaclardan birinin böyrünə düşmüşdü.

Dəyirmançı çubuq axtara-axtara, guya özündən xəbərsiz gedib düz o ağacın altına çıxdı, o ağacdan bir budaq qırdı və həmin budağı qıranda guya özündən xəbərsiz sapoqları ayağıyla vurub ağacın dalına itələdi...

Güllü arvad İskəndərə qışqırdı:

- Min arabaya!

İskəndər arabaya mindi, lap dalda, çuval taylarının böyründə oturdu, ayaqlarını salladı aşağı.

Dəyirmançı da mindi, lap qabaqda, çuval taylarının üstündə əyləşdi, əlindəki çubuğu öküzlərin başının üstündə yelləyib hayladı:

- Ho-ho! Ho-ho!..

Öküzlər tərpəndilər.

Güllü arvad arabaya minmədi. Ona baxıb Nisə bacıynan yaylıqlı qız da minmədilər, pay-piyada düşdülər arabanın dalınca.

Yol yamacın yuxarısından keçirdi, öküzlər yamacnan yoxuşa qalxırdılar ki, yola çıxsınlar.

Nisə bacı töyşüyürdü, üz-gözündən tər axırdı, bir yandan yoxuş nəfəsini kəsirdi, bir yandan gün yandırırdı.

Öküzlər axır ki qalxıb yola çıxanda Nisə bacı lap əldən düşmüşdü, az qalırdı yıxılsın.

İskəndərin Nisə bacıya ürəyi yandı:

- Piyada niyə gedirsən, - dedi, - min arabaya.

Nisə bacı İskəndərin səsini elə bil yuxuda eşitdi, yuxulu-yuxulu arabaya sarı yeridi, ancaq minmək istəyəndə özünə gəldi, çevrilib Güllü arvadın üzünə baxdı.

Güllü arvadın hirsi yenə təpəsinə vurdu, İskəndərin üstünə çığırdı:

- Düş arabadan, köpəy oğlu!...

İskəndər düşdü.

Güllü arvad Nisə bacıya:

- Min, - dedi.

Nisə bacı özü minə bilmədi, Güllü arvadla o yaylıqlı qız köməkləşib mindirdilər.

Güllü arvad qıza:

- Sən də min, - dedi.

Qız da mindi.

Güllü arvad İskəndərin qollarına sarınan kəndirin o biri ucunu arabanın dalına bağladı, bərk-bərk düyün vurub:

- Baxx belə! - dedi, - Yeri arabanın dalınca, ölməzsən!

Sonra özü də arabaya mindi, dəyirmançını səslədi:

- Sür!...

Dəyirmançı dönüb aşağı boylandı, bayaq sapoqları gizlətdiyi tərəfə baxdı və ürəyi qırıldı. Burdan baxanda sapoqlar görünürdü. Bu yoldan lap kor da keçsəydi görərdi.

Bir istədi ki, arabadan atılıb aşağı qaçsın, bir yer tapıb sapoqları yaxşı-yaxşı gizlətsin, ancaq gözü Güllü arvadın gözünə sataşanda əl-ayağı qurudu.

Güllü arvadın sir-sifətindən zəhrimar yağırdı, o da sapoqları görmüşdü, dəyirmançının ürəyindən keçənləri də bilirdi.

Və Güllü arvad yavaşcadan dəyirmançıya dedi:

- Sür!..

Elə dedi ki, dəyirmançının tükü qabardı, başa düşdü ki, sapoqlar əldən çıxdı. Və dəyirmançı bütün hirsini, acığını tökdü öküzlərin üstünə: bir çubuq, iki çubuq.

Öküzlər götürüldülər.

Və İskəndər özünü saxlaya bilmədi, yıxıldı. Araba İskəndəri sürüdü.

İskəndər çabalayırdı, bir təhər ayağını yerə dirəyib qalxmaq istəyirdi, bacarmırdı. Yaxşı ki, yol torpaq idi, yoxsa İskəndərin yalın ayaqlarında sağ-istahat qalmazdı.

Dəyirmançı qızışmışdı, çubuğu çubuq dalınca vururdu, öküzlərə aman vermirdi.

Və bütün bunlar hamısı elə qəflətən olmuşdu ki, Güllü arvad da, Nisə bacı da, o yaylıqlı qız da arabanın içində donub qalmışdılar, key-key İskəndərə baxırdılar.

Araba İskəndəri sürüyürdü, İskəndərin gözləri Nisə bacının gözlərinə baxırdı, dodaqları tərpənirdi, əyilirdi, büzüşürdü, elə bil İskəndər nəsə demək istəyirdi, deyə bilmirdi.

Birdən Nisə bacının dodaqları da eynən İskəndərin dodaqları kimi başladı tərpənməyə, əyilməyə, büzüşməyə və Nisə bacı lap yavaşcadan pıçıldadı:

- Axı günahdı...

Və birdən elə bil ki Güllü arvad da ayıldı, var səsiylə dəyirmançının üstünə qışqırdı:

- Saxla arabanı! Saxla!

Dəyirmançı çubuğu havada saxladı.

Öküzlər yavaşıdılar, dayandılar.

İskəndər yerdə üzüqoylu düşüb qalmışdı.

Güllü arvad yavaşcadan:

- Qalx... - dedi.

İskəndər qalxmadı.

Güllü arvad çığırdı:

- Qalx ayağa, köpəy oğlu!

Güllü arvadın çığırtısına hamı səksəndi, dəyirmançı da çevrilib dala baxdı.

Və İskəndər yavaş-yavaş qalxdı, belini düzəltdi, ancaq Güllü arvada baxmadı.

Güllü arvad yenə çığıra-çığıra:

- Necədi?!.. - dedi, - Ürəyinə yatmır?! Elə bilirdin frontu qoyub gəlmək havayıdı?!

Güllü arvad çığırıb ürəyini boşaldandan sonra dəyirmançıya:

- İndi sür! - dedi.

Sonra üzünü İskəndərə sarı çevirdi, İskəndərin dərisi sıyrılan yalın ayaqlarına baxdı, şalvarının cırılan dizlərini gördü və yenə dəyirmançıya sarı döndü:

- Ancaq adam kimi sür! - dedi.

Araba tərpəndi.

***

Kəndəcən heç kəs dinib danışmadı.

Kəndə girəndə arabanı birinci uşaqlar gördülər, arabaya bağlanan İskəndəri də gördülər, ancaq əvvəlcə tanımadılar, səs-səsə verib qışqırışdılar:

- İşpiyon tutublar! İşpiyon!.. İşpiyon!..

Camaat tökülüşüb gəldi və hamı gördü ki, tutulan "işpiyon" deyil, İskəndərdi.

Və uşaqlar çaşıb qaldılar; əgər bu tutulan İskəndəriydisə, bəs onda işpiyon kim idi?

Amma camaat uşaq deyildi, o dəqiqə məsələni başa düşdülər, İskəndərin üstünə elə cumdular ki, sədr Şərif olmasaydı yazığın işi bitmişdi. Sədr Şərif qışqırıb camaatı saxladı, sonra üzünü Güllü arvada tutub dedi ki:

- Bir danış görüm nə olub?

Güllü arvad hər şeyi danışdı. İskəndəri harda görmüşdülər, necə tutub gətirmişdilər, hamısını dedi, təkcə İskəndərin sapoqlarından danışmadı, bir də, bu arabanın o yazığı necə sürüməyini demədi.

Güllü arvad danışıb qurtarandan sonra sədr Şərif gözünü zillədi İskəndərin gözünün içinə, zəhmli-zəhmli baxdı.

Amma İskəndər gözünü qaçırtmadı, üstəlik hələ bir gülümsündü də.

Və sədr Şərif birdən var səsiylə qışqırdı:

- Tfu səndəki qeyrətə!.. - dedi, - Biyabır elədin kəndimizi!... O boyda Sovet höküməti bu boyda uşağa satmısan, əclaf?!..

Sədr Şərif "o boyda sovet höküməti" deyəndə əlini qaldırıb başının üstündə silkələdi, "bu boyda uşaq" deyəndə əlini yendirib yerdən üç qarış yuxarını göstərdi.

Və İskəndər yemən sədr Şərifin əlinin arasındakı o üç qarış boşluğa elə diqqətnən baxdı ki, elə bil o uşaq doğrudan da ordaydı və sədr Şərif əlini yanına salanda İskəndər diksindi, başını qaldırıb camaata baxdı, arvadını gördü.

İskəndərin arvadı, qucağında uşaq, dayanmışdı, gözləri yumuluydu. Allah bilir, bəlkə də huşa getmişdi.

İskəndər qışqırıb arvadını çağırdı.

Arvadı səksəndi, ancaq gözlərini açmadı, təkcə qucağındakı uşağı möhkəm-möhkəm bağrına basdı. Uşağın canı ağrıdı, başladı ağlamağa.

İskəndərin arvadı uşağı yırğaladı ki, kirisin. Kirimədi.

Bir az da bərk yırğaladı, yenə kirimədi.

Və bu dəfə elə bərk yırğaladı ki, day buna yırğalamaq da demək olmazdı, elə bil qucağındakı düşmən balasıydı.

Uşaq səsini xırp kəsdi.

Və uşaq səsini kəsəndə İskəndərin arvadı gözlərini açıb uşağa baxdı. Uşaq gözlərini elə qorxa-qorxa göyürdü ki, İskəndərin arvadı dözə bilmədi, uşağın başını sinəsinə sıxıb ağladı.

Bayaqdan bəri camaatın səs-küyündən qulaq tutulurdu, amma İskəndərin arvadı ağlayan kimi bu səs-küy yavaş-yavaş azaldı, axırda tamam kəsildi. Hamı o arvadın ağlamağına qulaq asırdı, elə bil ömürlərində ağlayan-zad görməmişdilər.

O sakitliyin içində İskəndərin arvadı birdən özü öz səsindən hürküb kiridi, başını qaldırıb İskəndərə baxdı və bayaqkından da betər hönkürdü. Bu dəfə uşaq da qoşuldu anasına, hıçqıra-hıçqıra ağladı.

Və İskəndər dözmədi, yerindən dik atılıb arvadına sarı cumdu; kəndirlə arabaya bağlanmağı deyəsən yadından çıxmışdı. Kəndir dartılıb tarım çəkildi.

İskəndər bir dartındı, iki dartındı, kəndirin heç halına da təfavüt eləmədi.

İskəndərin o cürə dartınmağı deyəsən öküzlərin xoşuna gəlmədi, durduqları yerdən üç-dörd addım da qabağa yeridilər, arabanı da çəkdilər dallarınca.

Araba da İskəndəri dalınca çəkdi.

İskəndər bir o arabaya baxdı, bir öküzlərə; qəflətən arabaya bir yumruq ilişdirdi, arabanın təkərinə bir təpik vurdu, dəli kimi başladı arabanı təpikləməyə, yumruqlamağa, axırda tamam heydən düşdü, arxası camaata sarı oturdu yerə, elə o cür də qaldı...

Mikayıl kişi camaatın lap arxasında dayanmışdı, səssizcə camaatdan aralandı, İskəndərin yanına gəldi, əyilib başladı kəndiri açmağa.

Mikayıl kişi o kəndiri açıb qurtaranacan İskəndər başını qaldırmadı. Qolları açılandan sonra da tərpənmədi.

Mikayıl kişi əvvəl elə bildi ki, İskəndər qorxur, başını qaldırıb camaata baxmağa ürək eləmir.

Yavaşcadan dedi:

- A bala, İskəndər...

İskəndər yenə tərpənmədi.

Mikayıl kişi İskəndərin çiynini dümsüklədi:

- A bala, sənnənəm axı...

İskəndər yenə başını qaldırmadı.

Mikayıl kişi əyildi, İskəndərin çənəsindən tutub qaldırdı, üzünə baxdı və birdən özünü itirdi. Dikəlib üzünü çevirdi camaata sarı, elə key-key baxdı ki, camaat da çaşdı.

Sədr Şərif qışqırdı ki:

- Nə olub?

Mikayıl kişi yavaşcadan dedi:

- Yatıb...

Elə yavaşcadan dedi ki, elə bil İskəndəri oyatmaqdan qorxurdu.

Və birdən sədr Şərif də səsini alçaldıb yavaşcadan soruşdu:

- Necə yəni, yatıb?..

Camaatın arasına səs düşdü ki, İskəndər yatıb... Hərə bir söz deyirdi; hirslənəni, güləni vardı, İskəndərə yazığı gələni vardı. Və qəribə burasıydı ki, gülənlər xısın-xısın gülürdülər, danışanlar xısın-xısın danışırdılar, elə bil İskəndəri oyatmaqdan qorxurdular. İskəndərin arvadı da kirimişdi, ağlamırdı, elə bil o da İskəndəri oyatmaqdan qorxurdu.

Və Güllü arvad qəflətən çığıranda hamı diksindi, bircə İskəndərdən savayı. Güllü arvad Mikayıl kişinin üstünə qışqıra-qışqıra:

- A kişi, - dedi, - nə quruyub qalmısan? Əl-ayağını pişik yeyib? Bir təpik vurub o dezertir köpəyoğlunu oyada bilmirsən?!..

Güllü arvadın Mikayıl kişiyə o sözləri deməyi çox pis çıxdı. Əvvəla, sözlər özü pis sözlər idi. İkincisi, o sözləri Güllü arvad deyirdi. Üçüncüsü də, o sözləri Güllü arvad Mikayıl kişiyə deyirdi, həmin Mikayıl kişiyə ki, oğlunun qara kağızı srağagün gəlmişdi və arvadı indi bu camaatın içində yox idi, evdə oturub ağlayırdı.

Mikayıl kişi dönüb tərs-tərs Güllü arvadın üzünə baxdı və yerindən qopub düz onun üstünə yeridi:

- Nə səsinin cır yerinə salmısan, ay arvad? - dedi, - Onsuz da adam üstünə ad qoyub tutdurmaq sənin köhnə peşəndi. Nə bilirsən dezertirdi, niyə yazığın üstə ad qoyursan?!

Güllü arvad heyrət içində əvvəlcə dönüb sədr Şərifə baxdı, sonra camaata:

- Bu nə deyir, a camaat? Dərd bunun başını xarab eləyib!.. - dedi.

Mikayıl kişi:

- Dərdimnən işin olmasın, - dedi, - evdə ağlayanım var...

Güllü arvad başını buladı:

- Yoox, vallah bu kişinin ağlı çaşıb! - dedi, - A kişi, bir mən deyiləm ha, bəs dəyirmandakı o qədər adama nə deyirsən?!

Dönüb Nisə bacıya baxdı ki, bəlkə Nisə bacı bir söz deyə. Amma Nisə bacının söz deyən halı yox idi, ayaq üstə dayansa da, quruca şəkiliydi, təkcə nəfəsi gedib-gəlirdi.

Güllü arvad Nisə bacıdan əlini üzdü, gözünü dolandırıb bayaq dəyirmandakı o yaylıqlı qızı axtardı, tapmadı. Sədr Şərif o qızı idarəyə göndərmişdi ki, rayona zəng eləsin; İskəndərin dalınca milis gəlsin.

Güllü arvadın ümidi təkcə dəyirmançıya qalırdı. Dönüb sağa-sola baxdı, amma dəyirmançı da camaatın arasında gözə dəymirdi. Birdən ürəyinə nə damdısa, başını qaldırıb yuxarıdan, kəndin üstündən keçən yola sarı boylandı.

Dəyirmançı yolnan dala baxa-baxa gedirdi.

Güllü arvad bilirdi ki, o dəyirmançı dəyirmana gedir və nədən ötrü gedir, orasını da bilirdi.

Diksinib gözünü dəyirmançıdan çəkdi, pərt-pərt camaata baxdı, elə bil Güllü arvadı bir günah iş üstündə yaxalamışdılar.

Amma heç kəs ona baxmırdı, hamının gözü İskəndərdəydi. İskəndər hələ də yatırdı.

Güllü arvad İskəndərin yalın ayaqlarına baxdı, sonra çevrilib yenə dəyirmançının dalınca boylandı və birdən öz-özünə pıçıldadı:

- Bu saat gəlirəm!.. - dedi, - Bu saat... Bu saat...

Və yerindən götürüldü...

...Dəyirmançı dəyirmanın qabağında balıqları tığ vurmuşdu, özü də balıqların böyründə, daşın üstə oturmuşdu, İskəndərin sapoqlarını geymək istəyirdi, geyə bilmirdi. Sapoqlar ayağına keçmirdi.

Güllü arvadı görəndə diksinib sapoqları əlindən saldı, cəld yerindən qalxıb keçdi sapoqların qabağına, balıqları göstərib:

- Yaxşı balıqlardı, - dedi, - hi-hi-hi...

Güllü arvad ona yaxınlaşa-yaxınlaşa:

- Görürəm. - dedi, - Balıqçılığın da var?!

Dəyirmançı dedi:

- Yox əşi... Dənə gələn balıqlardı da... Suyu sovanda görürsən bir-ikisi düşüb qalır...

Güllü arvad birdən dəyirmançını süpürlədi, dartıb sapoqların qabağından qırağa çəkdi:

- Bəs bu nədi, a nemes oğlu nemes?!..

Dedi, saldı yumruğun, təpiyin altına, vur ki vurasan...

Dəyirmançının bacardığı bu oldu ki, elə bir təhər sivişib aradan çıxdı.

Sonra Güllü arvad o sapoqların böyründə, daşın üstündə oturdu, sapoqları qabağında cütlədi, baxıb-baxıb birdən hönkür-hönkür ağladı.

Güllü arvad ağlaya-ağlaya:

- Ay Allah, - deyirdi, - mən nə günahın yiyəsiyəm? Niyə bu camaatın məndən zəhləsi gedir?!..

Sonra deyirdi ki:

- İlahi, day dözə bilmirəm, biryolluq bu kənddən baş götürüb gedəcəm...

Və bunu deyəndən sonra lap bərkdən ağlayırdı, çünki bilirdi ki, yalan deyir, bu kənddən heç hara baş götürüb gedən deyil.

Eləcə, ağlaya-ağlaya qızışırdı, otları yoluşdururdu, torpağı cırmaqlayırdı. Qəflətən əli bir daşa toxundu, dırnaqlarıynan eşib o daşı torpaqdan çıxartdı, ovcunda sıxdı. Daş itiydi, ətinə batırdı, ovcundan qan süzülürdü, ancaq daşı sıxdıqca sıxırdı.

Güllü arvad o daşı ovcunda o vaxtacan sıxdı ki, hər şey yadından çıxdı; dava da, İskəndər də, bu kənd də, camaat da... Təkcə ovcundakı ağrı qaldı. İndi Güllü arvad o ağrıdan ağlayırdı və o ağrıdan ağlamaq ona ləzzət verirdi...

***

Güllü arvad orda ağlayanda İskəndər burda yuxudan oyanmışdı, gözlərini açıb gülümsünə-gülümsünə camaata baxırdı. Gülümsünməkdən savayı əlacı da yox idi, çünki camaat da ona baxıb gülümsünürdü.

Camaat ona görə gülümsünürdü ki, İskəndər qorxmasın, başa düşsün ki, burda heç kəs onun pisliyini istəmir, qalxıb adam kimi öz arvad-uşağıynan görüşsün.

İskəndər bunu başa duşdu, qalxıb arvadına sarı bir-iki addım atdı.

Hamı fikirləşirdi ki, İskəndər indi arvadını bağrına basacaq, uşağını öpüb duz kimi yalayacaq. Və bunu fikirləşəndə çoxlarının gözü indidən yaşarırdı.

Amma İskəndər heç arvadına yaxınlaşmağa macal tapmadı.

Qəflətən böyürdən at ayağının tappıltısı gəldi. İskəndər səsə çevrildi və at belində yolnan üzübəri, camaata sarı

gələn milsəneri gördü. O milsəneri rayondan göndərmişdilər; çiynində paqonu, belində tapançası. Paqonu cütüydü, amma bir qolu yox idi. Atdan düşən kimi cumub İskəndərdən yapışdı, sədr Şərifdən soruşdu ki:

- Frontdan qaçan budu?!

Sədr Şərif istədi desin ki, bu yazığın frontdan qaçıb-qaçmamağı hələ məlum deyil...

Amma o milsəner tək əliynən İskəndərdən elə bərk yapışmışdı ki, sədr Şərif dillənməyə ürək eləmədi.

Mikayıl kişi sədr Şərifdən ürəkli çıxdı, gülümsünə-gülümsünə gedib İskəndəri o milsənerin əlindən aldı:

- A bala, nə olub, nə qaçaqaçdı? - dedi, - Bir əvvəl soruş, öyrən, bəlkə bu yazıq heç frontdan qaçmayıb...

Mikayıl kişinin belə deməyi milsəneri çaşdırdı, dönüb camaata baxdı, gördü hamı gülümsünür, lap çaşdı.

Sonra Mikayıl kişi düz İskəndərin gözünün içinə baxıb soruşdu ki:

- A bala, düzünü de, qaçmısan, ya qaçmamısan?!

Mikayıl kişi elə baxırdı ki, elə bil İskəndər "qaçmışam" deyəydi, Mikayıl kişi burdaca yıxılıb öləcəkdi.

İskəndər dedi:

- Qaçmamışam... Buraxıblar...

- Elə bircə səni buraxdılar?

İskəndər başını tərpətdi:

- Hə...

- Niyə buraxdılar?

İskəndər:

- Yaram vardı, - dedi, - başımdan dəymişdi...

Mikayıl kişi bir diqqətnən ona baxdı, sonra əlini İskəndərin alnına sürtdü, saçlarının arasında gəzdirdi:

- Yaran hanı?.. - dedi.

İskəndər günahkar-günahkar:

- Sağaltdılar... - dedi, - Amma ağrısı qalıb...
- Elə ağrıya görə buraxdılar?
İskəndər başını tərpətdi:
- Hə...
Mikayıl kişi çevrilib camaatı göstərdi:
- Kimin ağrısı yoxdu ki, a bala?! - dedi.
Camaat elə bil sehirlənmişdi. Hamı Mikayıl kişiyə baxırdı; İskəndərin arvadı da, sədr Şərif də, milsəner də...
Mikayıl kişi üzünü İskəndərin arvadına tutdu:
- Niyə dayanmısan, a qızım? - dedi, - O uşağı bəri gətir!..
İskəndərin arvadı kirimişcə, qucağında uşaq, gəldi.
Mikayıl kişi uşağı İskəndərə göstərdi:
- Öp!.. - dedi.
İskəndər öpdü.
Sonra Mikayıl kişi üzünü İskəndərə tutub:
- Get!.. - dedi, - Sən Allah, çıx get!.. Hamıynan bir yerdə qayıdıb gələrsən...
Və İskəndər səssizcə çevrildi, ağır-ağır addımlayıb yalın ayaqlarını yerə basa-basa getdi, uzaqlaşıb gözdən itdi...

1971

HƏRƏ GÖRDÜYÜNÜ GÖRÜR

Əliş anadan olanda bir ağzı vardı, bir burnu, iki əli, iki ayağı, iki gözü.

Əliş davadan qayıdanda iki əli vardı, iki ayağı, bir ağzı, bir burnu, bir gözü.

Ancaq bir məsələ də var ki, Əliş davadan qayıdanda gözlərinin ikisi də yerindəydi, di gəl ki, bir gözü yox idi. Əlişin iki gözündən biri şüşəydi, ancaq camaat bunu o saat başa düşmədi. Əlişin gözünü çıxaran güllə beynini də tərpətmişdi, ancaq camaat bunu da o saat başa düşmədi.

Dedilər, Əliş qayıdıb... Əliş, nə Əliş!.. döşdə medal işıldayır, ağızda diş!..

Əlişgilin evi kəndin lap ayağındaydı və Əliş kəndin başında görünən kimi onu görən-görən kənd aşağı götürüldü.

Əvvəl Əliş elə bildi dədəsinə muştuluğa qaçırlar. Sonra gördü, yox əşi, muştuluğa qaçan bir olar, iki olar, elə Əlişi görən-görən kənd aşağı götürülürdü. Birdən ürəyinə nə damdısa çiynindəki əsgər torbasını tullayıb o da qaçanların dalınca düşdü.

Lap dalda Mikayıl kişi qaçırdı. Mikayıl kişi Əlişin dədəsinin dostuydu, arvadının dayısıydı, özü də qıçdan axsağıdı.

Əliş çatıb arxadan Mikayıl kişini süpürlədi, o üzündən, bu üzündən öpə-öpə dedi ki, a kişi, nolub, nə qaçaqaçdı, muştuluq-zad qaçmır ki... Ölümdən qayıdıb gəlmişəm, heç olmasa bir xoşgəldin eləyin!..

Əliş bir-iki söz də deyəcəkdi, ancaq karıxıb susdu.

Mikayıl kişi ağlayırdı.

Elə ağlaya-ağlaya dedi ki, Əliş, bəs muştuluq-zad haqq-hesabı deyil, camaat xəbərə qaçdı, sən də qaç, bəlkə özünü çatdırasan. Dədən can üstündədi, bəlkə keçinməmiş səni görə...

Əliş Mikayıl kişini itələyib qaçdı.

Mikayıl kişi səndələdi, ancaq yıxılmadı. Amma day qaçmadı da. Elə o cür, Əlişin dalınca baxa-baxa yerində donub qaldı.

Əliş bir-bir qabaqda qaçanlara çatıb ötürdü. Kimə çatırdısa, itələyib yenə qaçırdı. Elə bil bu adamları itələməsəydi, bu genişlikdə yol qaçmaqda ona darlıq eləyəcəkdi.

Əlişin itələdiyi adamlar da Mikayıl kişi kimi yerlərində donub qalırdılar, day qaçmırdılar.

Əliş qaça-qaça ağlayırdı, ağlaya-ağlaya söyürdü; göyü söyürdü, yeri söyürdü, özünü söyürdü...

...Axır ki, Əliş evlərini gördü.

Əlişgilin qapısına o qədər adam yığılmışdı ki, iynə atsan göz çıxarardı. Birdən qapı taybatay açıldı, Əlişin arvadı hönkürə-hönkürə çıxıb yolyuxarı ərinin qabağına yüyürdü.

Arvadı hönkürə-hönkürə nəsə deyirdi, ancaq Əlişin söz eşidən halı qalmamışdı və arvadıynan rastlaşanda onu da var gücüynən itələdi. Arvadı səndələdi, ancaq Əlişin yolboyu itələdiyi o biri adamlar kimi özünü saxlaya bilmədi, yıxıldı, ağzını daş parçaladı, burnundan qan açıldı... və Əlişin arvadı kiridi:

- Qurbanın olum, Əliş!.. - dedi, - Keçindi!.. Dədən keçindi...

Əliş elə bil bu sözə bəndiydi; əli-ayağı boşaldı, birdən evləri də, evlərinin ağzındakı camaat da uzaqlaşıb-uzaqlaşıb dünyanın lap o başında dayandı və Əliş başa düşdü ki, indən belə qaçmaqnan dədəsinə çatmayacaq...

Əliş arvadına sarı əyildi.

Arvadı elə bildi ki, Əliş indi təpiknən onu vuracaq, əliynən başını tutdu.

Ancaq Əliş arvadının əlindən tutub dedi ki, qalx...

Və bunu elə sakit, elə arxayın dedi ki, arvadı çaşdı, elə bildi Əliş ya o deyəni eşitməyib, ya da düz başa düşməyib, yavaşcadan pıçıldadı:

- Əliş, dədən keçindi...

Əliş o pıçıltıdan da yavaş bir səsnən dedi ki, eşitdim, qalx...

Arvadı qalxdı.

Əliş arvadının ağzını parçalayan daşı təpiknən vurub yolun qırağına itələdi və Əlişin oğlu hardansa çıxıb yüyürə-yüyürə dədəsinin boynuna atılanda Əliş oğlunu itələmədi, o üzündən-bu üzündən öpdü. Əlişin oğlu köynəyinin sol qoluynan onun sağ yanağındakı göz yaşını sildi. Əlişin sol yanağı qupquruydu, ancaq oğlu hələ çox balacaydı və heç nə başa düşmədi...

...Axır ki, Əliş evlərinə çatdı.

Qapıdakı camaat sağa-sola ayrılıb Əlişə yol verdi.

Əliş sağındakı qohumları bir-bir qucaqlayıb öpürdü, hıçqıra-hıçqıra deyirdi:

- Bu nə işdi mənim başıma gəldi?!..

Əlişin solundakı qohumlar bir-bir onu qucaqlayıb öpürdülər, deyirdilər:

- Qəm yemə, Əliş, iş adam başına gələr...

İbrahimin anası Əlişin sağında dayanmışdı, İbrahim solda duranların içindəydi və axşam evdə deyəndə ki: - Bu Əliş zalımın üreyi daşdı-nədi, o boyda dədəsi ölmüşdü, gözündən bir damcı yaş çıxmadı, - İbrahimin anası heç nə başa düşmədi, hirslənib dedi ki: - Bəs o ağlamaqdan qıpqırmızı qızaran göz kiminkiydi, səninkiydi, ya mənimki?!..

Və bu dəfə İbrahim heç nə başa düşmədi.

Ancaq bir məsəl var ki, Allahdan gizlin olmayan bəndədən gizlin ola bilməz və günlərin bir günü camaat başa düşdü ki, Əlişin bir gözü şüşədi... Sonra başa düşdülər ki, Əlişin başı deyəsən o söz... Sonra da başa düşdülər ki, Əlişin tutması var, tutanda ürəyi gedir... Və lap sonra camaat bunların hamısını bir yerdə və birdən başa düşdü. Yəni, camaat başa düşdü ki, Əlişin bir gözü şüşədi, Əlişin başı o söz, özü də, Əlişin tutması var, tutanda ürəyi gedir...

Camaat ki, bunların hamısını başa düşdü və Əliş də başa düşdü ki, camaat bunların hamısını başa düşüb, - Əliş dönüb yazıq oldu. Əliş elə qəfildən dönüb yazıq oldu ki, camaatın ona yazığı gəlməyə heç macalı olmadı.

Əliş yazıq olandan on-on beş gün sonra onu poçtalyon qoydular; çünki poçtalyon Səməd təzə ölmüşdü, həmin poçtalyon Səməd ki, dava vaxtı evlərə məktublarnan qara kağızları daşıyardı və kənddə ən yazıq adam idi.

Davada adamı olan bütün evlərin yiyələri poçtalyon Səmədin qılığına girərdilər, yaltaqlanardılar, elə bil həmin evlərə qara kağız gətirib-gətirməmək onun özündən asılıydı. Poçtalyon Səməd də, davada adamı olan bütün evlərin yiyələrinin qılığına girərdi, yaltaqlanardı və bu yaltaqlığın özündə də, bir gün həmin evlərə qara kağız gətirmək qorxusu vardı.

Belə-belə, poçtalyon Səməd ölənəcən gözüqırpıq yaşadı. Axırda camaat da bu fikrə gəldi ki, görünür yazıqlıq nəsə elə bu peşənin özündədi, poçtalyon olmaq ancaq yazıq adamların alnına yazılıb və Əliş yazıq olandan on-on beş gün sonra onu poçtalyon qoydular...

Əliş poçtalyon olandan on-on beş gün sonra rayona poçt dalınca getdi, rayondan velosiped belində qayıtdı. Velosiped elə köhnəydi, elə cırıldayırdı ki, Əlişi camaatın gözündə bir az da yazıqlaşdırdı.

Əlişin yazıqlığına təkcə arvadı inanmırdı; o vaxt Əliş itələyib yıxanda arvadının qabaqdan bir cüt dişi laxlamışdı, indi də hər dəfə barmağını o laxlayan dişlərə vuranda Əlişin yazıq olduğuna inana bilmirdi.

Ancaq bir səhər Əliş hələ yuxuda olanda arvadı o bir cüt dişi dibdən möhkəm sapla düyünlədi, sapın bir ucunu da velosipedin dal təkərinə bağladı. Əlişin oğlu mindi velosipedə, ayağını yerə vurub velosipedi itələdi. Arvadın ağzı qannan doldu, tüpürdü, sapı velosipedin təkərindən açdı, o bir cüt dişi basdırdı yerə və inandı ki, indi evdə şüşə gözünü əynindəki əsgər köynəyinin döş cibinə qoyub yatan təkgöz Əlişdən bu dünyada yazıq adam yoxdu.

O gündən arvadının da Əlişə yazığı gəlməyə başladı və o gündən arvadı day Əlişi istəmədi; hər gecə Əlişin yanına girəndə elə bilirdi ki, əsil ərinin, davadan qabaqkı iyid Əlişin papağını yerə soxur. Həmin Əlişin ki, qucaqlayanda adamın sümükləri sızıldayırdı, döyəndə yumruğunun ağrısı bir aya çəkilməzdi...

Və bir gecə arvadı Əlişin yanına girmədi. O biri gecə də girmədi. Bir ay keçdi, yenə girmədi.

Əliş hər gecə yerində uzanıb arvadını gözləyirdi, ancaq özü qalxıb arvadının yanına girməyə ürək eləmirdi...

...Davadan qabaqkı iyid Əliş araba sürərdi, ot çalınanda arabaynan ot daşıyardı. Arabaya dörd öküz qoşulardı; Əliş davada olanda sədr Şərif o öküzlərin üçünü qocalmışdılar deyən ətliyə vermişdi. İndi arabaya qoşulan dörd öküzdən təkcə biri Əlişinkiydi, arabanı da indi Səttər sürürdü.

Səttər Əlişin əmisi oğluydu, boy-buxunu, sir-sifəti eynən davadan qabaqkı iyid Əlişin özüydü. Təkcə davadan qabaqkı iyid Əlişin bığı Səttərin bığından daha qalınıydı, daha kişiyanaydı. Əliş davadan qayıdandan sonra Səttəri

görəndə bığlar arasındakı o fərqi tək gözüylə də hiss elədi, sevindi. Hərçənd ki, Əlişin indiki bığı bir qara qəpiyə dəyməzdi...

...Arvadıynan yatmadığı gecələrin ikinci ayında Əliş rayondan poçt gətirirdi və kəndə bir az qalmış yolun qırağında Səttərin arabasını gördü.

Öküzləri arabadan açıb otlağa buraxmışdılar. Səttər özü görünüb-eləmirdi.

Otlaqda öküzlərdən savayı iki buğa da vardı, lap aralıda da Mikayıl kişinin cavan inəyi otlayırdı. İnək deyəndə ki, hələ nübarını doğmamışdı, düyəydi, bu qədər erkəyin arasında özünü tək görüb nazlanırdı.

Əliş velosipeddən düşdü, velosipedi söykədi arabaya və öz öküzünə sarı getdi.

Öküz tamam qocalmışdı, onu tanımadı. Əliş gəlib lap böyründə dayananda da öküz başını qaldırmadı.

Əlişin öküzü görünür doymuşdu, indi də elə-belə, otnan oynayırdı. Əliş fikirləşdi ki, bu da qocalıqdandı, öküz qocalıb acgöz olub.

Öküzün gözünə otların arasında qəribə bir ot sataşmışdı; bu ot o birilərindən uzunuydu, ətliydi. Öküz də indi o biri otlara dəyməyib təkcə bu bir dənə otu qırpmaq istəyirdi.

Başını ota sarı uzadıb dodaqlarını araladı, otu qırpdı. Sonra başını geri çəkib baxdı; ot yerindəydi.

Təzədən ota sarı əyildi. Ağzını ota yaxınlaşdırdıqca gözlərini qıyırdı, gözlərini qıydıqca ot elə bil uzanırdı, uzana-uzana o biri otlardan bir boy yuxarı qalxırdı. Əlişin öküzü gözlərini o qədər qıydı, qıydı ki, ot o qədər uzandı, uzandı ki, axırda öküzün gözlərinin çərçivəsindən qırağa çıxdı. Öküzün gözləri qıyılıb-qıyılıb tamam yumulanda ağzı ota toxundu. İki dişiynən otun belindən tutub sıxdı, sonra başını geri çəkib baxdı; ot yerində yox idi.

Birdən öküzün boynunun damarları titrədi, başını çevirib yana baxdı.

Əliş də çevrildi; bayaqkı buğalar Mikayıl kişinin düyəsini aralığa almışdılar və düyənin bayaqkı naz-qəmzəsindən heç nə qalmamışdı.

Doğrudu, düyə hələ çox cavandı və heç cürə başa düşə bilmirdi ki, o buğalar nə istəyir. Ancaq nə qədər cavan olsa da, başa düşürdü ki, o buğalardan bir xeyir gələn deyil.

Səttərin öküzləri hələ də ağızlarını otdan ayırmamışdılar. Əliş başa düşdü ki, bu öküzləri lap körpəlikdə axtalayıblar. Əlişin öküzünü vaxtından gec axtalamışdılar, o vaxtacan öz erkəkliyini dadmışdı, indi də Mikayıl kişinin düyəsi başa düşməyən şeyi Əlişin öküzü başa düşürdü.

Birdən Əlişin öz öküzünə yazığı gəldi. Səttərin öküzlərinə də yazığı gəldi. Sonra yadına düşdü ki, arvadı iki aydı yanına girmir, özünə də yazığı gəldi və o buğalardan elə zəhləsi getdi ki, tüfəngi olsa ikisini də vurardı.

Əliş yüyürüb yola çıxdı, qucağını daşnan doldurub buğaları daşa basdı.

Buğalar Mikayıl kişinin düyəsindən aralandılar.

Buğalar aralananda Mikayıl kişinin düyəsi o buğaların dalınca bir addım atdı. O addımı görəndə Əlişin gözü qaraldı, başa düşdü ki, o buğaların qovulmağı düyənin ürəyindən deyilmiş, o dəqiqə ürəyindən boğazınacan isti, bulanıq bir şey axdı, - ağzını açsaydı qusardı.

Əliş yüyürüb velosipedinə atıldı, elə atıldı ki, at olsa beli qırılardı, - var gücüynən kəndə sürdü.

Arvadı evdə yox idi, çayın qırağında paltar yuyurdu.

Əliş evin qənşərinə çıxıb aşağı boylandı; arvadının ancaq kürəyini gördü. Arvadından aralıda, çayın qırağında Səttər dalıqatlı uzanıb özünü günə verirdi; Əlişin arvadı Səttərin köynəyini yuyub qayaya sərmişdi və Səttər köynəksiz idi.

Bayaqkı isti, bulantıq şey yenə Əlişin ürəyindən boğazınacan axdı, qışqırıb arvadını çağırmaq istədi, ağzını açan kimi qusdu.

...O gecə Əliş arvadının yanına girdi və arvadını zorladı...

O gecədən sonra Əliş arvadından da, Səttərdən də qorxmağa başladı və hər dəfə rayona poçt dalınca gedəndə qayıdanbaş evin qapısını qorxa-qorxa açmağa başladı, Əliş qorxurdu ki, bir gün bu qapının dalında arvadıynan Səttəri görəcək və bir də elə bir şey görəcək ki, ya bu evi yernən yeksan eləyəcək, ya da, bu qapıdan həmişəlik baş götürüb gedəcək... Və o günün qorxusundan Əliş hər dəfə arvadından xəbərsiz rayona poçt dalınca gedəndə arvadına məktub yazmağa başladı.

Əlişin məktub yazmağı beləydi ki, qoltuq cibindən bir dəftər çıxarardı, döş cibindən bir karandaş, - bir varaq cırıb dəftəri qoyardı dizinin üstünə, varağı qoyardı dəftərin üstünə, yazardı ki, hörmətli arvadım filankəs, mən sağ və salamat varam, sənin də sağ və salamat olmağını o bir Allahdan arzu eləyirəm...

Əlişin bütün məktublarında birinci cümlə belə olardı, o ki qaldı ikinci gümləyə - o cümləni Əliş əvvəlcə yazardı, sonra da karandaşnan elə bərk-bərk pozardı ki, həmin cümlə uzunu varaq deşilərdi.

Sonra Əliş o varağı tutardı gözünə, həmin deşikdən göyə baxardı; gün olanda günə baxardı, bulud olanda buluda baxardı, baxıb-baxıb doyandan sonra varağı qoyardı dizinin üstünə, məktubun qalan cümlələrini yazardı.

Əlişin bütün məktublarında qalan cümlələrin canı bu olardı ki, gedirəm rayona poçt gətirməyə, saat filanda qayıdacam...

Qayıdacağı "saat filanı" Əliş bütün məktublarında qalın-qalın yazardı, özü də həmişə evə məktubda yazdığı "saat filandan" gec qayıdardı.

Məktubu yazandan sonra Əliş gözünə dəyən uşaqlardan birini çağırardı, məktubu verib tapşırardı ki, arvadına çatdırsın.

Uşaqlar əvvəl o məktubları aparıb yerinə çatdırardılar, ancaq sonra gördülər ki, o məktublar Əlişin arvadının heç vecinə deyil, o arvad o məktublara heç gözünün ucuynan da baxmır, day aparmadılar.

Ancaq uşaqlar o məktubları yenə Əlişdən alırdılar, inada düşmüşdülər, o məktublardakı ikinci cümləni oxumaq istəyirdilər. Deyirdilər, bəlkə bir gün Əliş o cümləni yazar, pozmaq yadından çıxar...

Belə-belə, Əlişin o uşaqlarda neçə-neçə məktubu yığıldı, di gəl ki, o ikinci cümləni pozmaq bircə dəfə də Əlişin yadından çıxmadı.

Ancaq bir gün İbrahim uşaqlara dedi ki, o cümləni oxumuşam. Uşaqlar neylədilərsə İbrahim o cümləni demədi.

Əlişin İbrahimə verdiyi məktub da eynən o biri məktublara oxşayırdı. O məktubun da birinci cümləsi buydu ki, hörmətli arvadım filankəs, mən sağ və salamat varam, sənin də sağ və salamat olmağını o bir Allahdan arzu eləyirəm.

Ancaq o məktubda Əliş ikinci cümləni yazmışdı, pozmaq yadından çıxmışdı. O məktubun ikinci cümləsi söyüşüydü; o cümlədə Əliş Allahı söymüşdü...

İbrahim o cümləni uşaqlara demədi. Desəydi, bəlkə də uşaqlar Əlişdən çəkinərdilər, day Əlişi dolamazdılar.

Böyüklər Əlişi dolamırdılar və dolaya da bilməzdilər. Əliş yekə-yekə kişilərnən durub-oturmurdu, çünki yekə-yekə kişilərə inanmırdı. Əliş xırda-xırda uşaqlarnan durub otururdu, çünki xırda-xırda uşaqlara inanırdı.

Yekə-yekə kişilər çaya dinamit atıb partladırdılar, sonra suya girib çaynan axan ölü balıqları tuturdular. Yekə-yekə kişilər Əlişə deyəndə ki, suya girib balıq tutsun, Əliş suya girmirdi, çünki yekə-yekə kişilərə inanmırdı.

Xırda-xırda uşaqlar çaya daş atırdılar və özlərini elə göstərirdilər ki, guya dinamit atıblar. Sonra xırda-xırda uşaqlar suya girib özlərini elə göstərirdilər ki, guya balıq tuturlar. Və xırda-xırda uşaqlar Əlişə deyəndə ki, suya girib balıq tutsun, Əliş suya girirdi, çünki xırda-xırda uşaqlara inanırdı.

Sonra xırda-xırda uşaqlar bir-bir sudan çıxıb əkilirdilər. Əliş çayın ortasında təkcə dayanıb balıq gözləyirdi. Bir saat, iki saat gözləyirdi. Ən qəribəsi də buydu ki, Əlişin əlinə həmişə bir balıq keçirdi və sudan həmişə qucağında balıq çıxırdı.

Əlişin yekə-yekə kişilərnən söhbəti tutmurdu, çünki yekə-yekə kişilər öz işlərindən-güclərindən danışırdılar.

Əlişin xırda-xırda uşaqlarnan söhbəti tuturdu, çünki xırda-xırda uşaqların nə işləri vardı, nə gücləri.

Və Əliş xırda-xırda uşaqlara and içib deyirdi ki, şüşə gözü görür.

Uşaqlar bir-birinə göz vurub soruşurdular ki, nəyi görür.

Əliş deyirdi:

- Gülləni görür, gözümü çıxaran həmin gülləni. Gecə yatanda da görürəm. Görürəm gəlir, gəlir, amma gəlib gözümə çatanacan səhər açılır.

Uşaqlar soruşurdular:

- Əliş, indi bu quşlar ki var, ovçular vururlar ha, bu quşlar da güllələni görürlər?

Əliş deyirdi:

- Əlbəttə görürlər.

- Bəs onda niyə güllədən qaçıb yayınmırlar?

Əliş deyirdi:

- Çünki güllə olduğunu bilmirlər. Bilsələr güllədi, qaçıb yayınarlar. Heç görmüsüz ki, bir quşu iki dəfə güllənən vursunlar?

Uşaqlar deyirdilər:

- Yox.

Əliş deyirdi:

- Vot i fiso.

Ancaq iş burasındadı ki, Əlişin öz oğluynan söhbəti tutmurdu. Bəlkə ona görə tutmurdu ki, Əlişin oğlu bu xırda-xırda uşaqlardan da xırdaydı. Əlişin oğlu iki iliydi ki, birinci sinifdə oxuyurdu və hələ də "Əlifba" kitabındakı hərfləri tanımırdı.

Əliş "Əlifba" kitabını açıb balıq şəkli çəkilən, balıq sözü yazılan səhifəni oğluna göstərərdi, soruşardı ki, burda nə yazılıb?

Oğlu susardı.

Əliş əlacsız qalıb soruşardı ki, a bala, çayda nə olur?

Oğlu barmağını alnındakı çapıq yerinə sürtüb deyərdi:

- Daş.

Əliş hirslənib özündən çıxardı ki, a bala, çayda su olur, balıq olur.

Oğlu deyərdi:

- Daş!..

Və Əliş bu dəfə "Əlifba" kitabındakı at şəkli çəkilən, at sözü yazılan səhifəni açardı, soruşardı ki, burda nə yazılıb?

Oğlu susardı.

Əliş barmağını at şəklinin üstünə qoyub soruşardı ki, bu nədi?

Oğlu deyərdi:

- Yabı.

...Və Əlişin oğlu "Əlifba" kitabındakı ata yabı deyə-deyə o ili də ikinci sinfə keçmədi.

Əlişin oğlu o ili də birinci sinifdə qalanda Əliş əlini oğlundan tamam üzdü, inandı ki, bundan adam olmayacaq və öz oğlundan əli üzülən kimi o biri uşaqlar da gözündən düşdülər, inandı ki, bunlardan da adam olmayacaq və bir də uşaqlarnan durub-oturmadı...

Bu həmin vaxtlarıydı ki, məktəbdə dərslər təzə qurtarmışdı. Və uşaqlar gördülər ki, Əlişsiz darıxırlar.

Bu bir də həmin vaxtlarıydı ki, böyüklər bütün günü biçənəkdə olurdular, ot biçirdilər. Və həmin bu vaxtlar kəndə məktub-zad gəlib eləmirdi. Çünki bütün ilİ kəndə məktub yazanlar bu kəndin şəhərdə oxuyan, şəhərdə işləyən cavan-cuvanlarıydı. Bu kənddə onların anaları, bacıları vardı. Və İndi bu cavan-cuvanlar hamısı vaxt tapıb kəndə qaçmışdılar. Çünki əsl kişilər davaya gedib qayıtmayandan sonra bu cavan-cuvanlar hərəsi bir evin kişisiydi. Və indi kəndə qaçıb gəlmişdilər ki, kişilik borclarını versinlər, yəni, ot biçib qoysunlar ki, qışda həyətlərindəki malqara ac qalmasın. Otu biçib hərəsi öz evinin böyründə taya vurandan sonra yenə çıxıb gedəcəkdilər şəhərə.

Əlişin bir inəyi vardı, iki qoyunu, üç keçisi. Və Əliş bütün günü biçənəkdə olurdu. Ancaq ot biçmirdi. Deyirdi:

- Qoy camaat hələ biçsin, mən öz payımı bir günə biçəcəyəm!..

Əliş belə deyəndə arvadı bilmirdi gülsün, ya ağlasın.

Biçənəyi iki yerə bölmüşdülər. Bir tərəfin otunu hər kəs özü üçün biçirdi, o biri tərəfi kolxoz üçün ayırmışdılar.

Və sədr Şərif hər dəfə biçənəyə gələndə kolxoz üçün ayrılan tərəfin otu gözünü deşirdi. Hirslənib cin atına minirdi, deyirdi ki, a camaat, insaf da yaxşı şeydi axı, heç olmasa günortayacan kolxoza biçin, günortadan sonra özünüzə.

Mikayıl kişi deyirdi:

- A sədr, vallah elə günortayacan kolxoza biçirik. Purosta gün yandırır deyən iş ləng gedir, gözə görünmür.

Mikayıl kişi "purosta" deyən kimi biçənəkdəki arvadlar pıqqıldayıb ağızlarını tuturdular.

Sədr Şərif bir arvadlara baxırdı, bir Mikayıl kişiyə baxırdı, bir gözünü dolandırıb göydəki günəşə baxırdı və dodağının altında uzun bir söyüş söyürdü. Söyüş o qədər uzunuydu ki, bir ucu göydəki günəşdən başlayıb o biri ucu kişili-arvadlı biçənəkdəki camaatın hamısını bir-birinə calaya-calaya gəlib Mikayıl kişidə qurtarırdı.

Sədr Şərif dodağının altında mızıldanan kimi camaat bilirdi ki, söyüş söyür.

Söyüş söymək sədr Şərifin köhnə xasiyyətiydi. Uşaq olanda da söyərdi, - özündən yekələri söyərdi. Böyüdü, özündən xırdaları söyməyə başladı. Söyə-söyə bığı çıxdı. Söyə-söyə getdi şəhərə, üç-dörd il oxuyub qayıtdı və qayıdanda şəhərdən özüynən bir qucaq xoruz səsi eşitməmiş söyüş də gətirdi.

Və bir gün camaat yığışıb onu sədr seçəndə Şərif qulağına inanmadı, dodağının altında yağlı bir söyüş söydü.

Şərifi sədr seçəndə dedilər ki, Şərif hamıya bir göznən baxan adamdı, heç kəsə ayrı-seçkilik qoyan deyil. Söyəndə hamını söyür. Söymək də ki var, ərk eləməkdəndi. Ərk eləmək də ki var, məhəbbətdəndi. Şərif hamını söyür, çünki hamıya məhəbbəti var.

Şərif sədr olandan sonra camaata məhəbbəti deyəsən bir az da artdı, çünki indi lap tez-tez söyürdü.

Sədr Şərifin üç cürə söyüş söyməyi vardı.

Kişiləri var səsiynən qışqıra-qışqıra söyərdi, özü də hər sözü ayrı-ayrı deyərdi, bütöv deyərdi.

Uşaqları elə-belə atüstü söyüb keçərdi.

Arvadları söyəndə dodağının altında mızıldanardı və nə dediyini təkcə özü bilərdi.

Sədr Şərif dava başlananacan neçə illər camaatı belə söydü. Dava ki başladı, kəndin kişiləri ki getdilər davaya, sədr Şərif gördü day uşaqlara söyə bilmir. Çünki uşaqları həmişə dədə söyüşüynən söyərdi, indi də bu uşaqların dədələri davadaydılar, ölüm ağzındaydılar. Və sədr Şərifin bu uşaqlara dədə söyüşü söyməyə dili gəlmirdi.

Ancaq söyüş söymək sədr Şərifin qanına yerimişdi, kənddə də ki, söyməyə təkcə arvadlar qalmışdı. Sədr Şərif dava qurtaranacan duz dörd il dodağının altında mızıldana-mızıldana arvadları söydü. Dava qurtardı, kişilərin qayıdanı qayıtdı. Və bir gün sədr Şərif hirslənib kişiləri söyəndə qışqırmadı, dodağının altında mızıldandı. Camaat da başa düşdü ki, sədr Şərif bu dörd ildə dodağının altında mızıldana-mızıldana söyməyi vərdiş eləyib...

...İndi də sədr Şərif dodağının altında mızıldanan kimi biçənəkdəkilər başa düşdülər ki, söyüş söyür.

Sədr Şərif dodağının altında mızıldana-mızıldana çıxıb getdi.

Sədr Şərif neçə gün dalbadal biçənəyə gəldi, hər gələndə də mızıldana-mızıldana çıxıb getdi. Ancaq bir gün sədr Şərif biçənəyə gəlib kolxoz üçün ayrılan tərəfin otunu görəndə bağrının başı göynədi. Otlar soluxmuşdular, göz görə-görə ayaq üstə keçinirdilər, ölürdülər. Sədr Şərifin ürəyi ağrıdı ki, yaxşı, bəs bu otların gunahı nədi?!..

Biçənəyin camaat üçün ayrılan tərəfinin otu biçilib yarıdan ötmüşdü. Sədr Şərifin hirsi vurdu başına və bu dəfə mızıldanmadı, biçənəkdəki kişiləri arvadlara, arvadları uşaqlara qatıb var səsiynən qışqıra-qışqıra qəliz bir söyüş söydü.

Camaat çoxdandı sədr Şərifin qışqıra-qışqıra söyüş söyməyini yadırğamışdı. Odur ki, bu qəliz söyüşü eşidən-

də diksindilər, çaşıb qaldılar. Arvadlar qızarıb pörtdülər. Kişilərin qeyrət damarı tərpəndi. Ancaq heç birisi dinib danışmadı, çünki danışan gərək dava eləyəydi.

Mikayıl kişinin arvadı çoxdan ölmüşdü və Mikayıl kişi dedi ki, a Şərif, qışqırıb söyməynən deyil. Kişisən, bir özün biç, gör bu istidə biçmək necə olur?

Sədr Şərif qışqırdı ki, biçərəm, hələ o tərəfə də keçərəm!..

Mikayıl kişi dedi:

- Biçərsən, ancaq nəfəsin də kəsilər!

Sədr Şərif Mikayıl kişinin əlindən dəryazı qapıb qışqırdı ki, kim kişidi, döşümə çıxsın. Görək kim-kimin nəfəsini kəsər?!..

Əlişin sədr Şərifdən zəhləsi gedirdi, lap çoxdan zəhləsi gedirdi. Nəyə görə zəhləsi gedirdi, heç özü də bilmirdi. Zəhləsi gedirdi, vəssalam.

Və bayaq sədr Şərif var səsiynən qışqıra-qışqıra öz qəliz söyüşünü söyəndə hansı arvadın adını çəkirdisə, elə bil o dəqiqə həmin arvadın əynindən tumanını dartıb çıxarırdılar, qalırdı tumançaq, lüt ətbala. Sədr Şərif öz qəliz söyüşünü söyüb qurtaranacan biçənəkdəki bütün arvadların adını çəkdi, Əliş də o arvadların hamısını tümançaq gördü, lümlüt gördü. Və sədr Şərif öz qəliz söyüşünün axırında qəflətən Əlişin arvadının adını çəkəndə Əliş diksinib tez arvadına sarı çevrildi; arvadı dizlərini qucaqlayıb oturmuşdu, özu də əynində heç nə yox idi, çılçılpağıydı.

Kişilərdən heç biri Əlişin arvadına sarı baxmırdı, Sətərdən savayı. Ancaq sədr Şərif o arvadın adını çəkən kimi Sətər də diksinib gözünü qırpdı, Əlişin arvadına sarı day baxmadı.

Biçənəkdəki kişilər pərt olmuşdular, başlarını aşağı sallamışdılar. Əliş başa düşdü ki, sədr Şərif öz qəliz söyü-

şünü söyəndə bu kişilər hamısı biçənəkdəki arvadları tumançaq görüblər; bu onun arvadını görüb, o bunun arvadını. İndi də bir-birinin üzünə baxmağa utanırlar.

Və sədr Şərif Mikayıl kişinin əlindən dəryazı qapıb "kim kişidi döşümə çıxsın" deyəndə Əliş elə bildi ki, bu saat bu kişilər hamısı yerlərindən dik atılacaqlar... hamını qabaqlayıb yerindən dik atıldı. Ancaq Əliş yerindən atılanda kişilər də, arvadlar da hırıldadılar. Ən pisi buydu ki, Əlişin arvadı da hırıldadı. Və camaat Əlişə hırıldayanda Səttər də yerindən atıldı, gəlib durdu sədr Şərifin qabağında, dedi ki, kişi mən!..

Əlişin Səttərə acığı tutdu. Çünki Səttərin deməyindən belə çıxırdı ki, Əliş kişi deyil. Bir də, Əlişə ən acıq gələn buydu ki, Səttər yerindən atılan kimi Əlişin arvadı səsini kəsdi, day hırıldamadı.

Əliş qanlı-qanlı Səttərin üzünə baxdı, Səttər yazıq-yazıq Əlişin üzünə baxdı, sədr Şərif heç birisinin üzünə baxmadı.

Və Mikayıl kişi gülə-gülə gəlib durdu biçənəyin qalın yerində, Əlişi çağırıb dedi ki, burdan sən biçəcəksən.

Sonra gülə-gülə Əlişin durduğu yerdən iki dəryaz uzunu sağa getdi, iki addım qabağa, Səttəri çağırıb dedi ki, burdan da sən biçəcəksən.

Sonra gülə-gülə Səttərin durduğu yerdən də iki dəryaz uzunu sağa getdi, iki addım qabağa, istədi sədr Şərifi çağırıb desin ki, burdan da sən biçəcəksən...

Ancaq sədr Şərif onun üzünə necə baxdısa Mikayıl kişi gülüşünü xırp kəsdi, boynunu qısıb dedi ki, a Şərif, uşaqlardı da, zarafat eləyirlər.

Sədr Şərif acıqlı-acıqlı dedi:

- Zarafat yorğan altda olar.

Və Mikayıl kişi pərt oldu. Çünki sədr Şərif o yazığın yaralı yerinə toxunmuşdu. Çünki Mikayıl kişi çoxdandı yorğan altda zarafat eləmirdi.

Mikayıl kişi sədr Şərifdən aralandı, yazıq-yazıq gəlib oturdu camaatın arasında, gözünü zillədi Əlişə. Mikayıl kişi Əlişə baxdı, baxdı, birdən yumruğunu qaldırıb var gücüynən dizinə çırpdı, qışqırdı ki, biç, gözünə dönüm, Əliş!..

Və birdən Əlişin dərisinin altına, qollarının içinə külək doldu. Bu külək Əlişin qollarını yana atdı və Əlişin dəryazı qabağındakı otları biçib keçdi.

Mikayıl kişinin gözləri heyrətdən böyüdü. Çünki Əlişin biçdiyi otlar yenə əvvəlki kimi dimdik dayanıb dururdular, elə bil heç biçilməmişdilər. Ancaq bu cəmi bircə an çəkdi və həmin bircə anı təkcə Mikayıl kişi gördü. O bircə andan sonra biçilən otlar köklərindən aralandılar, yellənə-yellənə yerə töküldülər.

Səttər gördü ki, Əliş biçir, tez özü də biçməyə başladı.

Sədr Şərif gördü ki, Əliş də biçir, Səttər də, tez özü də biçməyə başladı.

Otlar dəryazların ağzında xışıltıynan doğranıb yerə tökülürdülər. Elə bil quruyub qaysaqlanan qarı ayaqlaya-ayaqlaya bir dəstə adam yeriyirdi...

...Mikayıl kişi gözlərini yumdu və quruyub qaysaqlanan qarı ayaqlaya-ayaqlaya yeriyən bir dəstə adam gördü. O bir dəstə adam Mikayıl kişinin arvadının tabutunu aparırdı. Tabutun üstünə güllü yorğan örtmüşdülər; yorğan o arvadın gəlinlik cehiziydi.

O bir dəstə adam quruyub qaysaqlanan qarı ayaqlaya-ayaqlaya gəlib qəbristanlığa çatdı. Bir təzə qazılan qəbrin yanında tabutu yerə qoydular.

Mikayıl kişinin arvadı vərəmdən ölmüşdü. Oğlunun qara kağızı gələndən sonra dərddən vərəmlədi, iki il naxoş yatdı, sapsarı saraldı, qupquru qurudu, qan qusub öldü.

Mikayıl kişi yorğanın ucunu qaldırdı ki, rəhmətlik arvadının qaxacıyıb taxtaya dönən sifətinə axırıncı dəfə baxsın və səksəndi.

Yorğanın altındakı sifət o rəhmətlik arvadın toy gecəsindəki sifətiydi. O toy gecəsi yengə qapının dalında durub pusanda Mikayıl kişinin o vaxt hələ qız olan arvadı yüyürüb yorğan-döşəyə girmişdi, üz-gözünü də basdırıb möhkəm-möhkəm yorğana bürünmüşdü. Və o vaxt hələ Mikayıl olan Mikayıl kişi yorğanı qaldıranda həmin bu sifəti görmüşdü. Bu sifətin gözləri bərk-bərk yumuluydu. Mikayıl o vaxt bu sifəti marçamarçnan öpəndə də o gözlər açılmadılar, o gözlər ta o vaxtacan açılmadılar ki... yengə sevinə-sevinə şad xəbərə qaçdı.

Ancaq indi bu gözlər qəflətən açıldılar və Mikayıl kişinin vərəmdən ölən arvadının tabutdakı bədəninin toy gecəsindəki sifəti Mikayıl kişiyə göz vurdu...

Mikayıl kişi çığırıb gözlərini açdı.

Mikayıl kişinin çığırtısını nə qəbristanlıqdakı o bir dəstə adam eşitdi, nə də biçənəkdəki camaat. Çünki Mikayıl kişinin çığırtısı Əlişin arvadının çığırtısına qarışdı. Əlişin arvadının çığırtısını qəbristanlıqdakı o bir dəstə adamın eşidib-eşitməməyi qaranlıq məsələdi, ancaq biçənəkdəkilər eşitdilər.

Əlişin arvadı çığıran kimi Səttər əlindəki dəryazı tulladı, sağ ayağının üstə hoppana-hoppana camaata sarı gəldi. Səttərin sol ayağının baldırından qan axırdı. Səttər otu biçəndə ləng tərpənmişdi və Əlişin dəryazı Səttərin baldırını doğramışdı. Ancaq biçənəkdəkilər bir şeyi bilmədilər ki, Əlişin arvadı o dəryaz Səttərin baldırını kəsəndən qabaq çığırdı, yoxsa sonra. Bunu Səttər də bilmədi, Əlişin arvadı da bilmədi. Bunu təkcə Əliş bildi və lap hirsləndi.

Əlişin arvadı o dəryaz Səttərin baldırını kəsəndən qabaq çığırmışdı və Əlişin arvadı çığırmasaydı, bəlkə də, Əliş heç dəryazı Səttərin baldırına çalmazdı.

Səttər çıxandan sonra qaldılar ikisi; sədr Şərifnən Əliş. Əliş keçdi Səttərin yerinə və sədr Şərifi hədələdi ki, əldən iti ol, yoxsa Səttərin gününə salaram.

Sədr Şərif peşman olmuşdu, başa düşürdü ki, səfehlik eləyib. Bu nə vaxtın hirslənməyidi? Nə vaxtın yarışa çıxmağıdı? Özü də kimlərnən? Biri ağzından süd iyi gələn uşaq, o biri dəli, düdəmə.

Ancaq Əliş Səttəri o hala salandan sonra sədr Şərif dəryazı tullaya bilməzdi, deyərdilər qorxdu.

Sədr Şərif biçməyə başlayandan Əlişə sarı bir dəfə də dönüb baxmamışdı. Əliş Səttəri o hala salanda da dönüb baxmadı. Ancaq indi hiss eləyirdi ki, nəfəsi kəsilir. Bir də hiss eləyirdi ki, Əliş yaxınlaşıb, lap yaxınlaşıb. Və sədr Şərifin sol ayağının baldırını əsməcə tutmuşdu.

Ancaq sədr Şərif heç nə eləyə bilməzdi. Baldır kəsmək biçinçilik yarışlarının dədə-baba qaydasıydı. Ləng tərpənənin baldırını dəryaz ağzına verərdilər, heç kəs də incimməzdi. Arada düşmənçiliknən bir-birini şikəst eləyənlər də olurdu. Mikayıl kişinin axsamağı da həmin axsamaq idi.

Əliş görürdü ki, sədr Şərifin nəfəsi kəsilir, - ləzzət alırdı. Görürdü ki, camaat day hırıldamır, - ləzzət alırdı. Sədr Şərif şalvarının balaqlarını çırmalamışdı. Əliş görürdü ki, sədr Şərifin sol ayağının baldırını əsməcə tutub, - ləzzət alırdı. Sədr Şərifin baldırı tüksüzüdü, yupyumruydu və Əlişin bu baldırdan zəhləsi gedirdi. Sədr Şərifin baldırında bircə dənə çapıq, bircə dənə yara yeri olsaydı, Əlişin bu baldıra dəryaz yendirməyə əli qalxmazdı. Ancaq sədr Şərifin baldırı yumurtaya oxşayırdı və Əlişin bu baldırdan zəhləsi gedirdi.

Əlişin qollarına dolan külək onun dəryazını sağa atırdı, sola atırdı. Axır ki, həmin dəqiqə gəlib çatdı, Əliş gördü ki, dəryazı bu dəfə də aparsa sədr Şərifin baldırı əldən gedəcək. Və elə həmin dəqiqə sədr Şərif Əlişə sarı çevrildi.

Əlişin şüşə gözü hardasa arxada, biçilən otların arasında düşüb qalmışdı.

Sədr Şərif Əlişin kor gözünün çuxurunu gördü. Bu çuxur uçurumdan da dəriniydi. Sədr Şərif gördü ki, dizdən aşağı kəsilən bir ayaq fırlana-fırlana bu uçurumun dibinə düşdü. Səksənib ayaqlarına baxdı və sol ayağının dizdən aşağısını görmədi.

Əlişin qollarına dolan külək onun dəryazını elə bir güclə yana atdı ki, qolları bu gücə dözmədi. Birdən-birə elə bil qollarındakı bütün damarlar açıldılar, qollarına dolan külək bu damarlardan pırıltıynan çıxıb uçdu, Əlişin dəryazını da özüynən apardı. Əlişin ürəyi getdi və Əliş yıxıldı.

Əliş yıxılan kimi sədr Şərif əlindəki dəryazı tulladı, sol ayağını qorxa-qorxa otların arasından çıxartdı, sol ayağının pəncəsini qorxa-qorxa yerə basıb addımladı, elə bil indicə yıxılacaqdı. Sədr Şərif camaata sarı çevrilmədi, heç nə demədi, elə o cür addımlaya-addımlaya biçənəkdən çıxıb getdi. Və camaat gördü ki, sədr Şərif axsayır, sol ayağını çəkir. Ancaq ayağı heç cızılmamışdı da. Və sədr Şərif niyə axsayırdı, camaat başa düşmədi.

Biçənəkdəkilər quruyub qalmışdılar. Sədr Şərif ta uzaqlaşanacan heç kəs yerindən tərpənmədi. Əliş özünə gəlib ayağa qalxanda da, biçənəkdəkilər hələ özlərinə gəlməmişdilər.

Əliş tək gözünü bu quruyub qalan adamlara zillədi və başa düşdü ki, bu adamların hamısından güclüdü.

Əliş başa düşdü ki, bu kişilər bir də onun tək gözünə dik baxa bilməyəcəklər, bu arvadlar bir də onun dalınca hırıldaya bilməyəcəklər, bu uşaqlar bir də onu dolaya bilməyəcəklər.

Və Əliş iri addımlar ata-ata sədr Şərifin getdiyi yolnan biçənəkdən çıxıb getdi.

Əlişin arvadı səssizcə yerindən qalxdı, səndələyə-səndələyə ərinin dalınca düşdü; elə bil yuxuda yeriyirdi.

Eləcə getdilər, biçənəkdən çıxdılar, uzaqlaşıb gözdən itdilər...

Hamı Əlişgilin dalınca baxırdı, təkcə Səttərdən savayı.

Səttər oturduğu yerdə əyilmişdi, baldırının yarasını üfürürdü.

Mikayıl kişi çevrildi:

- Ağrıdır?.. - dedi.

Səttər pərt-pərt gülümsündü:

- Yox əşi, - dedi, - ağrıtmır...

Amma ağrıdırdı...

1970

ANALARDAN UZUN QIZLAR

Yazın axırlarıydı. Ot dizəcən qalxmışdı. Bağlarda meyvələr, evlərdə qızlar yetişirdi. Oğlanların qanı qaynayırdı, qızlara elə baxırdılar ki, o yazıqlar utandıqlarından qıpqırmızı qızarırdılar.

Qızlar da ki, nə qızlar!..

Bu kənddə ən ucaboy qızlar dava vaxtı yetişən qızlar idi. Çünki məsəl var, deyərlər; qızın boyu ər evinəcən uzanar. Yəni, qızların boy atmağı ərə gedənəcəndi.

Dava başlanan gündən bu kənddə toy çalınmadı. Oğlanlar hamısı getdi davaya və qızlar başladı boy atmağa; boy ata-ata analarına çatdılar, analarını ötdülər.

Həlimə anasından azı bir qarış uzun idi. Həlimə Həmidin əmisi qızıydı. Həmid İbrahimin əmisiydi. Həmid davadan qayıdan kimi Həliməyə vuruldu.

Davadan qayıdanda Həmidin iyirmi beş yaşı vardı. Amma ayıb olmasın, hələ arvad görməmişdi. Doğrudu, davadan gələnlərin arasında ən qalın bığ da, ən dərin çapıq da Həmidinkiydi. Ordeni-medalı da heç kəsinkindən az deyildi. Ancaq o cavanların hamısı davadan qız şəkli, arvad şəkli gətirmişdi, bircə Həmiddən savayı.

O şəkilləri əvvəlcə bu cavanların anaları, bacıları gördülər. Sonra bütün kəndin qızları, gəlinləri o şəkillərdən xəbər tutdular. Axı necə də xəbər tutmayaydılar? O şəkillər bu cavanların köynəklərinin döş cibindəydi. Köynək də ki var, çirklənən şeydi. Çirklənən şeyi də ki, yuyarlar.

Bu kənddə qızlar-gəlinlər paltar yuyanda çay qırağına yenərdilər, çör-çöp yığıb ocaq qalayardılar, qazan asıb su isidərdilər, pal-paltarı yuyub çayda suya çəkərdilər.

Cavanlar bir-bir davadan qayıdıb gələndən sonra köynəklər bir-bir başladı çirklənməyə. Analar-bacılar o köynəkləri götürüb çay qırağına yenməyə başladılar. Özü də, çay qırağına yenəndə həmişə günün elə saatını seçirdilər ki, orda bir dəstə ucaboy-incəbel qız da olurdu.

O analar-bacılar bu qızların gözünün qabağında əvvəlcə o koynəklərin döşündəki ordenləri, medalları açıb yığırdılar bir daşın üstünə. Guya bu ordenləri, medalları açıb evdə qoya bilməzdilər. Sonra o köynəklərin ciblərindəki şəkilləri çıxarıb atırdılar daşın üstünə. Ancaq elə atırdılar ki, şəkillər üzüqoylu düşmürdü, o qızların hamısı o şəkilləri görürdü. Və bu anaların-bacıların hərəsindən ötrü o qızlardan birisinin o şəkilləri görməyi xüsusən vacib idi.

Qızlar o şəkillərə baxa-baxa gülüşürdülər, zarafatlaşırdılar, bic-bic pıçıldaşırdılar... Sən demə, bu kəndin cavanlarından ötrü uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhərlərdə bu cürə qəşəng-qəşəng qızlar dəli-divanəymiş...

Bunu fikirləşəndə çay qırağındakı bu qızların ürəyi fərəhnən dolurdu. Elə bil özləri də gözəlləşirdilər. O qədər gözəlləşirdilər ki, şəkillərdəki o qızlara yazıqları gəlirdi. Axı o qızların günahı nəydi ki, çay qırağındakı bu qızlar belə gözəliydilər və bu kəndin cavanları o qızları gözüyaşlı qoyub bu qızların yanına qayıtmışdılar.

Həmid davadan qayıdandan bir həftə sonra köynəyi çirkləndi. Anası əlində köynək çay qırağına yendi və hamıya məlum oldu ki, Həmid davadan cibində qız şəkli gətirməyib.

Doğrudu, əvvəlcə heç kəs buna inanmadı. Çünki Həmid, necə deyərlər, yar-yaraşıqlı oğlanıydı və fikirləşəndə ki, bu neçə ili uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhər-

lərdə Həmidə bircə qız da aşiq olmayıb, şəkil bağışlamayıb, - çay qırağındakı bu qızlar pərt olurdular.

Həmidin anası görünür bu qızların pərt olmağını istəmirdi. Odur ki:

- Həmid şəkil gətirməyib... - deyəndə səsini, sifətini elə əzib-büzdü ki, qızlar yenə şübhəli qaldılar.

O şübhə bəlkə həmişə elə o cür qalacaqdı... Ancaq günlər keçirdi, davadan təzə-təzə cavanlar qayıdıb gəlirdilər və günlərin bir günü o cavanlardan birisinin köynəyinin döş cibindən bir qız şəkli çıxdı ki, o şəkli neçə həftə bundan qabaq bir başqasının cibində də görmüşdülər...

Çay qırağındakı qızlar-gəlinlər az qala min cürə fikrə düşəcəkdilər. Ancaq kənddəki rus dili müəlliməsi onları başa saldı ki, bu şəkil elə-belə şəkil deyil, "otkrıtka"dı, bu şəkildəki qız da elə-belə qız deyil, artiskadı.

O müəlliməsinin deməyindən belə məlum oldu ki, bu artiska öz şəklini davadan gələn bu cavanların heç birisinə bağışlamayıb. Bunlar özləri pul verib o şəkli alıblar və kimin şəhərə yolu düşsə o da pul verib bu şəkildən ala bilər.

Sonra rus dili müəlliməsi hardansa bir val tapıb gətirdi; o valda həmin artiskanın oxuduğu mahnı yazılmışdı. Valı çaldırıb qulaq asdılar.

O artiska hansı dildə oxuyurdu, nə oxuyurdu, nədən oxuyurdu, - çay qırağındakı qızların heç birisi bunu bilmirdi. Ancaq onu bilirdilər ki, o mahnıdakı sözlər gözəl sözləriydi, o mahnını oxuyan artiska da gözəliydi, çay qırağındakı bu qızların hamısından gözəliydi. Çünki belə səsin yiyəsi ancaq gözəl ola bilərdi, çünki bu qızlardan heç birisinin belə səsi yox idi.

Və birdən bu qızlar hamısı bir-birindən utandılar, sıxıldılar. Utandılar ki, indiyənəcən özlərini gözəl sayıblar; halbuki, ovuclarının içi qabar-qabarıydı, dabanlarının altı

çatdaq-çatdağıydı, səsləri bu qədər qalınıydı, kobuduydu və bu səsnən bu qədər söyüş bilirdilər...

Mahnı qurtarmışdı, val boş-boşuna fırlanırdı və qızlar ağlamaq istəyirdilər. Ancaq birdən güldülər.

Qızlar gülürdülər və güldükcə də gözlərindən yaş axırdı. Çünki qızlar bilirdilər ki, bu artiska öz şəklini heç vaxt bu kənddəki cavanların heç birisinə bağışlamaz. Lap dünyadakı bütün kişilər qırılsa, təkcə bu kəndin cavanları qalsa, yenə bağışlamaz. Çünki bu cavanlardan tər iyi, yun iyi, peyin iyi gəlirdi. Dörd il davada olmuşdular, dünyanı əldən-ayaqdan salmışdılar, ancaq o tər iyi, yun iyi, peyin iyi yenə canlarından çıxmamışdı, yəqin ki, ölənəcən də çıxmayacaqdı.

Həmidin anası da o qızlara qoşulub gülürdü, hamıdan bərk gülürdü, ancaq gözündən yaş axmırdı.

Və birdən o qızların hamısının Həmidin anasından zəhləsi getdi. Hamısı inandı ki, Həmid elə doğrudan da cibində qız şəkli-zad gətirməyib. Bu Həmid haranın zibiliydi ki, buna uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhərlərdə bir qız da aşiq olaydı, hələ üstəlik şəkil də bağışlayaydı...

...Və birdən Həmidin anası da pərt oldu, hirsləndi, valda mahnı oxuyan artiskanı da söydü, uzaq-uzaq ölkələrdə, böyük-böyük şəhərlərdə yaşayan qızları, arvadları da söydü. Dedi ki, Allah bilir nə yuvanın quşudular. Dedi ki, cibində qız şəkli, arvad şəkli gətirən bu cavanların hamısı oralarda pis-pis naxoşluğa tutulub və heç birisinin uşağı-zadı olmayacaq. Axırda da dedi ki, Həmid mələk kimi oğlandı, Həmid kimi oğlan bütün sovet ittifaqında tapılmaz və burdakı qızların hamısının Həmidə minnəti olsun...

Dedi, ağladı və ağlaya-ağlaya çıxıb getdi...

...Doğrudu, Həlimə özgəsi deyildi, Həmidin doğmaca əmisi qızıydı. Ancaq o val çalınanda, o artiska oxuyanda

Həlimə də çay qırağındakı o qızlarnan bir yerdə, gözündən yaş axa-axa gülmüşdü. Və Həmid ona vurulanda Həlimə iki ayağını bir başmağa dirəyib dedi ki, iki dünya bir ola mən Həmidə getmərəm!..

İlahi, bu vurulmaq nə qəribə şey imiş?!.. Adamına baxmazmış, yerinə baxmazmış. Sən demə, bu cürə kənddə də bir könüldən min könülə aşiq olmaq mümkün imiş. Lap sovet hökümətinin qazı, işığı, hamamı, ayaqyolusu olan bütün gözəl-gözəl şəhərlərindəki kimi aşiq olmaq mümkün imiş. Elə aşiq olmaq mümkün imiş ki, yer üzündə qazın, işığın, hamamın, ayaqyolunun olduğu da yaddan çıxarmış. Halbuki, bu kənddə kişilər, arvadlar ağac dalına, kol dalına keçəndə görən-görən üzünü yana çevirirdi. Qızlar tələsə-tələsə yamacnan yuxarı qalxıb yalın dalında gözdən itəndə görən-görən üzünü yana çevirirdi. Çünki bilirdilər ki, o qızlar çiyələk yığmağa getmirlər, çiçək dərməyə getmirlər... Sən demə, gündə azı iki dəfə bu kənddən çıxıb o cürə tələsə-tələsə yalın dalında gözdən itən həmin qızlardan birisinə də bir könüldən min könülə aşiq olmaq mümkün imiş...

Həlimə hər gecə Həmidin yuxusuna girirdi, amma gündüzlər rastlaşanda Həmid utandığından ona baxa bilmirdi, dizləri əsirdi, dili topuq çalırdı. Dava təzə qurtarmışdı, sovet ittifaqında beş qıza bir oğlan düşürdü, amma Həlimə deyirdi ki, iki dünya bir ola mən Həmidə getmərəm!..

Həlimə qonşunun oğlu Həşimi istəyirdi. Çünki Həşim davadan cibində beş dənə qız şəkli gətirmişdi. Beşi də birbirindən qəşəng...

Hər dəfə Həliməynən rastlaşanda Həşimin gözləri od tutub yanırdı. O gözlər Həlimənin dodaqlarına, döşlərinə, ayaqlarına baxırdı. Birdən Həlimənin dodaqları, döşləri, ayaqları da başlayırdı ot tutub yanmağa. Və bir səhər Hə-

şim çəpər dibində onun qabağını kəsib deyəndə ki, bu gecə səni yuxumda görmüşəm, - Həlimə utandığından qıpqırmızı qızardı; o gecə Həlimə də Həşimi yuxusunda gördü...

...Və o gecənin səhəri Həmid yuxudan oyananda eşitdi ki, Həlimə Həşimə qoşulub qaçıb...

Anası bu xəbəri gətirəndə Həmid taxtın üstündə uzanmışdı. Bütün günü uzandığı yerdən qalxmadı. Üzüqoylu düşüb qaldı, gözlərini zilləyi divara.

Anası da bütün günü qapının ağzından çəkilmədi. Əlləri qoynunda dayanıb gözlərini zillədi Həmidin kürəyinə. Yazıq arvad ha dindirdi, - Həmid dinmədi, çay gətirdi, içmədi, çörək gətirdi, yemədi.

Həmid uzanıb gözlərini divara zilləmişdi; divarda çopur vardı. Bir yekə suvağ parçası qopmuşdu, amma yerə düşməmişdi, divardan sallanıb qalmışdı. Həmid də o suvağ parçasına baxırdı, ancaq heç nə görmürdü. Dünya bomboş idi, qapqaranlıq idi. Bu dəqiqə bu dünyada təkcə Həmidin ürəyindəki ağrı varıydı və bir də, Həşim Həliməni qucağına alıb bu bomboş, qapqaranlıq dünyaynan qaça-qaça uzaqlaşırdı. Onlar uzaqlaşdıqcan Həmidin ürəyindəki ağrı da uzaqlaşırdı. Həliməynən Həşim uzaqlaşıb, uzaqlaşıb axırda bu dünyanın lap o başında gözdən itdilər. Həmidin ürəyindəki ağrı da o qədər uzaqlaşdı ki, axırda Həmid o ağrını day hiss eləmədi. Həmid indi o ağrını hiss eləmirdi, ancaq görürdü; dünya bomboş idi, qapqaranlıq idi, təkcə bu dünyanın lap o başında qıpqırmızı, yupyumru bir şey qıvrılırdı, yumulurdu, açılırdı.

...Bu dünyanın lap o başında Həmidin ürəyi ağrıyırdı...

Həmid o ağrıyan ürəyinə baxa-baxa gözlərini yumdu, yuxuladı. Nə qədər yatdı, Allah bilir, ancaq gözlərini açanda day ürəyini görmədi, divardan sallanan həmin o suvağ parçasını gördü.

Yavaşca yerindən qalxdı, getdi, barmağını divara sürtə-sürtə yavaş-yavaş, ehtiyatnan həmin o suvağ parçasına yaxınlaşdırdı. Elə bil o suvağ parçası diri bir şey idi; sərçəydi, ya nə bilim nəydi və Həmid onu hürkütməkdən qorxurdu.

...Qəflətən o suvağ parçasını qamarladı, dartıb qopartdı, ovcunda əzdi, yerə atıb tapdaladı...

Sonra yenə qayıdıb taxtın üstündə oturdu, anasına dedi ki, su ver.

Anası o dəqiqə əl-ayağa düşdü, xörək gətirdi, çörək gətirdi, samavara od saldı. Yazıq arvad bütün bunları eləyənəcən Həmid səssizcə yerindən qalxdı, qapının ağzındakı vedrədən əyilib doyunca su içdi və çıxıb getdi.

Anası başını qaldıranda Həmidi evdə görmədi. Yazıq arvad tez qapıya cumdu, o yan-bu yana baxdı; Həmid yox idi...

...Bir az aralıda, divarın dibində bir dəstə uşaq oynayırdı. Oynamaqları da ki, bir-birinə şillə vurmağıydı. Yəni uşaqlardan biri üzünü divara çevirib dayanırdı, bir əlini dirsəkdən büküb qulağının dibinə qoyurdu, o biri əlini qoltuğunun altından keçirib bu tərəfdən çıxarırdı, ovcunu açırdı, uşaqlar da arxadan bunun ovcuna şillə vururdular. Bu da çağırıb şillə vuran uşağın adını deyirdi, əgər düz deyirdisə canını qurtarırdı, bu çıxırdı, yerinə o keçirdi. Yox əgər düz demirdisə yenə döyülürdü.

Həşimin balaca qardaşı da oynayan uşaqların arasındaydı.

İbrahim də o uşaqların böyründə dayanmışdı. Amma oyuna qatışıb-eləmirdi. Bir tərəfdə səssizcə durub gözləyirdi. Ta o vaxtacan gözləyirdi ki, Həşimin balaca qardaşı ələ keçirdi, üzünü divara çevirib ovcunu açırdı. O yazıq ovcunu açan kimi İbrahim səssizcə irəli yeriyirdi, onun ovcuna gücü gəldikcən bir şillə ilişdirirdi. O şillənin zər-

bindən Həşimin balaca qardaşı, yalan olmasın, beş addım qıraға tullanırdı. İbrahim də səssizcə onun yerinə keçirdi, üzünü divara çevirib ovcunu açırdı ki, vurun.

Bayaqdan bəri İbrahim bu qaydaynan Həşimin balaca qardaşına düz üç dənə tutarlı şillə ilişdirmişdi. O yazıq dördüncü dəfə üzünü divara çevirib ovcunu açanda əlləri tir-tir əsirdi. Ondan olsaydı, çoxdan oyundan çıxıb qaçardı. Ancaq qaçmağı qeyrətinə sığışdırmırdı, uşaqlardan utanırdı.

Və İbrahim o yazığın titrəyən əllərinə baxa-baxa irəli yeriyib dördüncü şilləni vurmağa hazırlaşırdı ki, Həmidin anası o yandan qışqırdı:

- İbrahim! Ay İbrahim!..

Həşimin balaca qardaşı cəld əlini yanına saldı. Çevrilib sevinə-sevinə dedi:

- Nənən çağırır.

İbrahim acıqlı-acıqlı mızıldandı:

- Eşitdim.

Sonra uşaqlardan aralanıb könülsüz-könülsüz bir-iki addım atdı və birdən dala qanrılıb hirsli-hirsli dedi ki, bu saat gəlirəm!

Özü də, uşaqlara yox, Həşimin balaca qardaşına dedi.

Nənəsinin yanına çatanda da İbrahimin hirsi hələ soyumamışdı. Soruşdu ki, nə var?!

Nənəsi yazıq-yazıq dedi:

- Qurbanın olum, İbrahim, Həmidi görmədin?..

Doğrudu, İbrahim bayaqdan bəri Həşimin balaca qardaşından Həmidin acığını çıxırdı, ancaq Həmidin özünün də İbrahimin gözündə bir qəpiklik qiyməti yox idi. Çünki Həmid maymağın biriydi, Həlimə kimi qızı əldən çıxartmışdı.

Hirsli-hirsli dedi:

- Yox, görmədim!

Nənəsi yenə yazıq-yazıq, ağlamsına-ağlamsına:

- Qurbanın olum, İbrahim, - dedi, - cum Həmidin dalınca, harda olsa tap, gözdən qoyma, birdən uşağın dəliliyi tutar, Allah eləməmiş, başına bir iş-zad gətirər...

Nənəsi bunu deyəndə Həmid birdən-birə İbrahimin gözündə balacalaşdı, gücsüzləşdi, əlsiz-ayaqsız bir uşaq oldu. O uşağın özündən başqa heç kəsə gücü çatmırdı, hər kəs o uşağın başına nə oyun istəsəydi açardı, Həşim də o uşağın istədiyini əlindən alıb qaçmışdı.

Və Həmid İbrahimin gözündə o cürə balacalaşdıqca, İbrahim özü öz gözündə böyüdü, gücləndi, əlli-ayaqlı bir pəhlivana çevrildi. O pəhlivan indi gərək Həmiddən muğayat olaydı, onun üstə göz olaydı ki, Allah eləməmiş, başına bir iş-zad gətirməsin...

...İbrahim nənəsindən ayrılıb Həmidi axtarmağa getdi.

Hasar dibindəki uşaqlar onu çağıranda İbrahim dönüb dala baxdı və Həşimin balaca qardaşını gördü. Həşimin balaca qardaşı ovcunu üfürə-üfürə ağlayırdı. Bunu görəndə İbrahim möhkəm pərt oldu. Pərt oldu ki, bayaqdan Həmidin acığını bu balaca uşaqdan çıxırmış, halbuki, əsl döyülməli adam Həşimin özüydü...

...İbrahim Həmidi çayın qırağında tapdı.

Həmid daşın üstündə oturmuşdu, suya baxırdı.

Gün batmışdı, ancaq hava istiydi. İbrahimin üz-gözündən tər axırdı.

Həmid daşın üstündən qalxanda İbrahim diksindi. Həmid əyilib əlini suya vuranda İbrahimin lap ürəyi düşdü. Amma Həmid köynəyini, şalvarını soyunub daşın üstünə yığanda İbrahimin ürəyi yerinə gəldi, çünki özünü çayda boğmaq istəyən adam köynəyini, şalvarını soyunmazdı.

İbrahimin öz ürəyindən də bu saat möhkəm çayda çimmək keçirdi. Ancaq şalvarın altından əyninə bir şey gey-

məmişdi, utanırdı. Əslində, elə tumançaq da çimərdi, amma bir biyabırçı iş də vardı ki, müsurmançılığın ən əsas vəzifəsini İbrahim hələ yerinə yetirməmişdi.

Odur ki, əlacı kəsildi, bir daşın üstündə oturdu, ciblərini eşələyib üç-dörd dənə qoz-fındıq tapdı, sındırıb ləzzətnən yeyə-yeyə başladı həsədnən Həmidə tamaşa eləməyə...

Günün ən çimməli vaxtı indiydi, çayın ən çimməli yeri buraydı. Burda çayın yatağı dümdüzüydü, hamarıydı, çay elə bil axmırdı, lal-dinməz dayanmışdı, fikirləşirdi ki, axsın, ya axmasın.

Həmid də dalıqatlı suyun üzündə uzanıb gözlərini yummuşdu, tərpənib-eləmirdi.

İbrahim axırda bu lal-dinməz sulara baxmaqdan darıxdı, əlindəki iri, gönüqalın bir qozu suya tulladı, - bayaqdan ha əlləşirdi, sındıra bilmirdi.

O qoz Həmidin lap qulağının dibində suya düşdü, batıb-çıxdı, elə batıb-çıxdığı yerdə də lal-dinməz dayandı, tərpənmədi. Elə bil fikirləşirdi ki, üzsün, ya üzməsin. Elə o cür fikirləşə-fikirləşə də batıb getdi suyun dibinə. Qulağının dibində o qozun batmağından Həmidin xəbəri olmadı...

Bu dəqiqə Həmidin qulağının dibində gəmi də batsaydı, xəbəri olmazdı. Çünki Həmid bu dəqiqə çox uzaqdaydı; onun olduğu yerdə yaz hələ təzə girirdi, havalar səriniydi, dava da qurtarmamışdı. Və orda bu çaydan da iri, dərin bir çay axırdı, həmidgil o çayın qırağında, tankın böyründə dayanmışdılar, papiros çəkirdilər.

Həmidiydi, bir də, Həmidin bakılı, kəkilli dostuydu.

Həmidin dostu hər qullab vuranda başını dala əyirdi, tüstünü elə üfürürdü ki, tüstü kəkilinin ortasından, saçlarının arasından sivişib burula-burula yuxarı qalxırdı, Həmid də gülürdü...

Dostu birdən əlindəki papirosu yerə tulladı, belini düzəldib kəkilini tumarladı, Həmidin çiyninin üstən o tərəfə boylanıb gülümsədi.

Həmid də döndü, uzunsaçlı, uzunqıçlı bir qız gördü. O qız düz onlara sarı gəlirdi, özü də Həmidə baxıb gülümsəyirdi.

O qız hardan gəlirdi, hara gedirdi, - soruşmadılar. Çünki soruşmamış da bilirdilər. Yollar əsirlikdən qayıdan o cürə qızlarnan doluydu.

Qız yorğun idi, ac idi. Süfrə açdılar. Qız yeyirdi, Həmidin dostu gülümsəyə-gülümsəyə qıza baxırdı, qız da Həmidə baxıb gülümsəyirdi.

Qız yedi-doydu. Hava qaralmışdı, lap uzaqda bir canavar ulayırdı.

Həmidin dostu qıza dedi:

- Getmə, gecə vaxtıdı, özgə torpağıdı, yüz cürə şey olar, qal, səhər gedərsən.

Qız Həmidə baxıb gülümsədi və qaldı.

Qız tankın içində yatdı. Həmidgil çöldə, tankın böyründə uzandılar, şineli çəkdilər üstlərinə.

Həmid xeyli vaxt yata bilmədi, aya, ulduzlara baxdı, lap uzaqda, çölün düzündə ulayan canavarın səsinə qulaq asdı, lap yaxında, tankın içində yatan qızın nəfəsinə qulaq asdı, birdən öz-özünə, lap yavaşcadan pıçıldadı:

- İlahi, yazığım gəlir...

Həmidin dostu da hələ yatmamışdı, oyaq idi. Soruşdu:

- Kimə yazığın gəlir? Niyə yazığın gəlir?..

Həmid cavab vermədi. Çünki heç özü də əməlli-başlı bilmirdi ki, kimə yazığı gəlir... Bircə bunu bilirdi ki, ürəyi yaman yumşalıb. Hətta ona elə gəlirdi ki, əlləri-ayaqları da yumşalıb. Həmid indi nə əlini tərpədə bilərdi, nə ayağını. Həmidin uzandığı torpaq da, bəlkə lap böyründəki tank da indi yumşalmışdı, yupyumşaq idi...

Həmidin dostu qalxıb-oturdu, donquldana-donquldana:

- Əşi, səhərəcən bu quru yerdə yatsam ölərəm, - dedi, - belim əzildi...

Həmid dinmədi.

Dostu bir papiros yandırdı, bir qüllab vurub:

- Doğrudu, öküz olmağına öküzsən, - dedi, - amma özüm ölüm qızın səndən xoşu gəldi...

Həmid dinmədi.

...Səhər Həmid yuxudan duranda qız çayda ayaqlarını yuyurdu, Həmidə baxıb gülümsədi. Amma bu, dünənki gülümsəməkdən deyildi, nəsə bir az ayrı cürüydü.

Qız ayaqlarını yudu, quruladi, köhnə-yırtıq çəkmələrini geydi, Həmidnən görüşüb ayrıldı, bir-iki addım atdı, birdən qayıdıb Həmidi qucaqladı, əvvəl yavaşca üzündən öpdü, sonra bərk-bərk dodaqlarından öpdü. Yenə gülümsədi. Ancaq bu dəfə elə gülümsədi ki, elə bil indicə ağlayacaqdı. Çevrildi və qaçıb getdi.

Həmid yerində donub qalmışdı, qızın dalınca baxırdı. Qız ta gözdən itənəcən baxdı, sonra da gözünü yoldan çəkmədi.

Həmidin dostu gözlərini ovuşdura-ovuşdura, sinəsini qaşıya-qaşıya tankın içindən çıxanda da, Həmid hələ yola baxırdı.

Dostu çayda əl-üzünü yudu, sonra başını qaldırıb Həmiddən soruşdu:

- Getdi?..

Həmid yavaşcadan pıçıldadı:

- Hə...

Dostu öskürüb boğazını arıtladı:

- Yaxşı qızıydı, - dedi, - çox yaxşıydı...

Dostunun bu sözlərində, əslinə qalsa, bir elə pis şey yox idi. Ancaq o öskürəknən bir yerdə bu sözlər birdən

çox pis oldular, elə pis oldular ki, Həmidin ağlı başından çıxdı, dostunun üstünə atıldı, yaxasından yapışıb silkələdi, dartıb köynəyinin düymələrini qırdı, qışqırdı:

- Yalan deyirsən!..

Dostu yalvardı:

- Burax...

Həmid buraxandan sonra dostu elə bil ki, birdən-birə gücdən düşdü, yazıqlaşdı, bir daşın üstündə oturdu, pərt-pərt Həmidə baxıb yavaşcadan pıçıldadı:

- Doğrudu... yalan deyirəm...

Sonra gülümsədi, lap bayaq qız Həmidə baxıb gülümsəyən kimi gülümsədi, - elə bil indicə ağlayacaqdı.

Həmid əyilib qırılan düymələri yerdən götürdü, gəlib daşın üstündə, dostunun yanında oturdu, ikisi də susdular.

O çayın qırağında o cürə yan-yana oturub susanda Həmidin bakılı, kəkilli dostunun ölməyinə hələ iki gün qalırdı və uzaqlarda, dünyanın bir kəndində Həlimə adlı bir qız böyüyürdü, boy atırdı, qəşəngləşirdi və o kəndin də böyründən çay axırdı...

...O kəndin böyründən axan çayın qırağında, daşın üstündə oturub Həmidə tamaşa eləyən İbrahim yaman darıxırdı. Bir az da keçsəydi lap ürəyi partlayacaqdı, ancaq Allahın ona yazığı gəldi, Həmid sudan çıxdı.

Elə çıxan kimi də onu gördü. O dəqiqə Həlimə də yadına düşdü, anası da. Kefi pozuldu, acıqlı-acıqlı düz onun üstünə yeridi və İbrahimin canına qorxu doldu, - oturduğu daşın üstən dik qalxdı.

Doğrudu, İbrahim bayaqdan bəri özünü pəhlivan sayırdı. Ancaq onun pəhlivanlığından Həmidin ki xəbəri yox idi. Həmiddən ötrü İbrahim balaca uşağıydı. Həmid indi istəsə bu uşağın qulağını da darta bilərdi, başına qapaz da vura bilərdi...

Ancaq Həmid İbrahimə güldən ağır bir söz demədi. Çünki söz deməyə heyi yox idi. Heç ayaq üstə durmağa da heyi yox idi; İbrahim o daşın üstündən qalxan kimi Həmid o daşın üstündə oturdu, gözlərini yenə zillədi suya...

İbrahim də Həmidin böyründə dayanmışdı, ona tamaşa eləyirdi.

Həmidin saçından, çiynindən, kürəyindən su damcılayırdı. Kürəyində bir yekə yara yeri vardı, yəqin ki, güllə yarasıydı; o yaradan da su damcılayırdı.

Bu daşın üstündə büzüşüb oturan adam İbrahimin əmisiydi və İbrahimin bu dəqiqə dünyada bu adamdan əziz heç kəsi yox idi.

İbrahim Həmidin kürəyindəki o yaranı sığallamaq istəyirdi, ancaq ürək eləmirdi.

Yavaşca əlini o yaranın altına tutdu; o güllə yarasından su damcılayırdı, o damcılar bir-bir İbrahimin ovcuna tökülürdü və İbrahim lap uzaqda bir qəbir görürdü. O qəbir İbrahimin atasının qəbriydi, o qəbrin üstünə yağış yağırdı. Atasının qara kağızı düz üç il bundan qabaq gəlmişdi. Ancaq İbrahim bu gün birinci kərəydi ki, o qəbri görürdü. Bu gündən sonra ta böyüyənəcən, qocalanacan, ölənəcən Allah bilir neçə kərə o qəbri görəcəkdi, hər görəndə də, o qəbrin üstünə yağış yağacaqdı...

Həmidin kürəyindəki güllə yarasından su damcılayırdı. İbrahim o yaranı sığallamaq istəyirdi, - sığallaya bilmirdi. Həmidə şirin-şirin sözlər demək istəyirdi, - deyə bilmirdi... Çünki o şirinliyində sözlər dünyanın heç bir dilində yox idi. Ancaq heç bir dildə olmayan o sözlərin şirinliyini İbrahim bu dəqiqə dodağında, damağında, dilində, dişində, lap ürəyinin başında hiss eləyirdi. Bütün bədəni saçından dırnağınacan o sözlərin şirinliyilə dolmuşdu. O sözlərin ki, İbrahim Həmidə demək istəyirdi, - deyə bilmirdi...

Və İbrahimin özünə hirsi tuturdu. Çünki o sözləri Həmidə deyə bilsəydi, heç şübhəsiz ki, Həmidin bu dünyada dərdi-zadı qalmazdı, heç vecinə də gəlməzdi ki, Həşim adlı bir adam Həlimə adlı bir qızı götürüb-qaçıb, bu dəqiqə hardasa onlar qucaqlaşırlar, öpüşürlər, yatırlar...

...İbrahim birdən sevinə-sevinə qışqırdı:

- Əmi, ay əmi!...

Həmid diksinib çevrildi.

İbrahim elə o cür sevinə-sevinə, qışqıra-qışqıra dedi:

- Əmi, ay əmi!.. Həlimə xoruldayır!.. Dədəmin goru haqqı xoruldayır!.. Yatanda özüm görmüşəm!..

Həmid çaşıb qaldı, key-key onun üzünə baxdı.

İbrahim də özünü itirdi, bu dəfə lap yavaşcadan, günahkar-günahkar pıçıldadı:

- Dədəmin goru haqqı xoruldayır... Yatanda özüm görmüşəm...

Sonra Həmidə baxıb yazıq-yazıq gülümsədi. Elə gülümsədi ki, elə bil indicə ağlayacaqdı...

1971

YAĞIŞLI BİR GÜNÜN GÜNORTASINDA

Yağışlı bir günün günortasında kəndin ortasında bir yük maşını dayandı.

Sürücü düşdü.

Bizim əsgərlər düşdülər.

Maşındakıları düşürtdülər.

Bu kəndin böyründən dəmir yolu çəkmək istəyirdilər. Neçə günüydü kəndə xəbər yayılmışdı ki, bəs nemes plenlərini gətirib işlədəcəklər və neçə günüydü ki, camaatın yuxusuna əcayib-əcayib şeylər girirdi.

Ancaq maşından düşürülən nemes plenlərini görəndə Mikayıl kişi ağzını doldurub tüpürdü:

- Pay atonnan, adam yiyəsi!.. - dedi. - Bunlar lap narmalni adamlarıymışlar ki!..

Elə bil bu nemes plenləri mütləq əcayib adamlar olmalıydılar və "narmalni" adam olmaqla çox yekə bir cinayət eləmişdilər.

Ancaq Mikayıl kişinin gözü bu "narmalni" adamların arasında da bir əcayibini tapdı; həmin əcayib nemesin saqqalı vardı, bığı yoxdu.

İbrahim o bığsız saqqalı görən kimi qəhqəhə çəkdi.

İbrahimin anası davada ölən ərinin qara, eşmə bığını yada salıb hönkürdü.

Tərs kimi elə bu vaxt yağış da kəsdi və hamı gördü ki, anası ağlayır, İbrahim gülür.

İbrahimin anası da bunu gördü, çöndü, İbrahimin qulağının dibindən bir tərs şapalaq tutuzdurdu və elə o cür, ağlaya-ağlaya yerindən götürüldü, cumdu o saqqalı olan-bığı olmayan nemesin üstünə, bir əliynən saqqalından yapışdı, bir əliynən yaxasından, - dartdı, diz üstə gətirdi yerə, yumruqla ki, yumruqlayasan, təpiklə ki, təpikləyəsən.

Nemes olan bəndə, heç deynən səsini çıxardırsan? Ay tövbə!..

Mikayıl kişi olmasaydı, o yazığın işi bitmişdi. Mikayıl kişi bir təhər, güc-bəlaynan İbrahimin anasını tutub çəkdi qırağa, ha dartındı - buraxmadı və İbrahimin anası bir az da bərkdən ağladı.

Bu dəfə o biri arvadlar da qoşuldular İbrahimin anasına, ağlaşdılar.

Sədr Şərif arvadlara acıqlandı ki, ağlamasınlar.

Əvvəlcə:

- Düşmən qabağında ağlamasınlar, - demək istəyirdi, ancaq sonra gözünün qırağıynan həmin o saqqalı olan-bığı olmayan nemesə sarı baxdı; o yazıq hələ də palçığın içində diz üstə düşüb qalmışdı, qorxa-qorxa İbrahimin anasına baxırdı, - sədr Şərif fikirləşdi ki, əşi, nə düşmənbazlıqdı, bu diziynən palçıq eşəndən nə düşmən?!..

Və arvadlara:

- Düşmən qabağında ağlamasınlar, - demədi.

Sədr Şərif acıqlanan kimi arvadlar səslərini kəsib day ağlamadılar. Ağlamadılar deyəndə ki, ağlayanlar elə yenə ağlayırdılar, ancaq xəlvətcə keçdilər ağlamayanların arxasına və bir azdan orda kiridilər.

Arvadlar kiriyən kimi o saqqalı olan-bığı olmayan nemesin dizləri nəm çəkdi, gördü ki, day bu palçığın içində diz üstə qala bilmir, dönüb yazıq-yazıq sədr Şərifin üzünə baxdı.

Sədr Şərif də məsələni başa düşdü və başıyuxan o yazığa işarə elədi ki, qalxsın.

Saqqalı olan-bığı olmayan nemes gözü arvadlarda ola-ola yavaş-yavaş qalxdı, qalxa-qalxa əlinin dalıynan şalvarının dizindəki palçığı çırpmaq istəyirdi ki, əli havada quruyub qaldı. Çünki bu arvadların gözündə elə bir şey gördü ki, elə bil indi dizindəki palçığı çırpsaydı, bu arvadlar cumub onu parça-parça eləyəcəkdilər, heç kəs də onu bu arvadların əlindən ala bilməyəcəkdi.

Odur ki, o yazıq dizindəki palçığı çırpmadı...

Piralı baba arvadların arasında dayanmışdı, baxırdı; o saqqalı olan-bığı olmayan nemes tamam ayağa duranacan tamaşa elədi, sonra gözünü dolandırıb o biri nemes plenlərinə sarı baxdı, - o yazıqlar da yağışın altında islanıb cücəyə dönmüşdülər, bir az da bu arvadların qorxusundan büzüşmüşdülər, çəkinə-çəkinə baxırdılar.

Və Piralı baba yeridi qabağa, gəldi durdu bizim əsgərlərin böyüyünün qabağında, soruşdu ki:

- A bala, o nemes-nemes ki deyirdilər ha, bunlardı?

Bizim əsgərlərin böyüyü dedi:

- Bunlardı!..

- Yaxşı, bəs bunların top-tüfəngi hanı?

Bizim əsgərlərin böyüyü elə bildi ki, Piralı baba zarafat eləyir, güldü.

Piralı baba gülmədi, çünki zarafat eləmirdi və bizim əsgərlərin böyüyünün gülməyini də ayrı cürə başa düşdü, çevrilib üzünü tutdu camaata:

- A camaat, - dedi, - çox baxıb gözünüzü ağrıtmayın. Onsuz da, bu nemeslər o nemeslərdən deyil. O nemesləri elə qırıblar ki, heç toxumluğa bircəciyi də qalmayıb!..

Piralı baba bunu deyəndə Mikayıl kişi elə bil bayaqdan axtardığını tapdı, sevinə-sevinə:

- A camaat!.. - dedi, - Bəs mən nə deyirdim?!..Bəs mən nə deyirdim?!..

Mikayıl kişinin nə dediyindən heç kəsin xəbəri yox idi, heç axtarsan özünün də xəbəri yox idi, bircə bunu bilirdi ki, bu nemeslərin o nemeslərdən olmadığı görən kimi ürəyinə dammışdı.

Və elə ki bu nemeslərin o nemeslərdən olmadığı məlum oldu, arvadlar yenə ağlaşmağa başladılar. Çünki arvadların bu nemeslərə yazığı gəldi, başa düşdülər ki, bu nemesləri də bu günə salan o nemeslər olublar.

Sədr Şərif gördü ara qarışıb məzhəb itib, belə getsə camaat bir azdan bu nemeslərnən qohum çıxacaq, üzünü tutdu camaata:

- A camaat, - dedi, - qulaq asın görün nə deyirəm!.. Bu nemeslər o nemeslərdən olmağına o nemeslərdəndilər və həm də, o nemeslərdən deyillər... Bu nemeslər o vaxtacan o nemeslərdəniydilər ki, o nemesləri bu nemeslərin gününə salmamışdılar...

Sədr Şərif çox danışdı, axırda özü də hər şeyi qatıb-qarışdırdı və bu nemeslər o nemeslərdən idilər, ya o nemeslərdən deyildilər, - heç kəs başa düşmədi.

Ancaq bu nemeslər hər nəydilərsə, adamıydılar və bu adamlar ac idilər.

Bu adamların ac olmağını camaat onda bildi ki, uşaqlar acdılar, camaatın arasından çıxıb yüyürdülər evə, bir azdan əllərində yekə-yekə dürməklər qayıdıb gəldilər və dürmək yeyən uşaqları görən kimi nemes plenləri udqunmağa başladılar.

Sədr Şərif kişilərdən birinə dedi ki:

- Arvadlardan ikisini də götür, get, iki yekə qazan bozbaş bişirtdir!.. Əsgərlər yol gəliblər, acdılar... Bunların da ki, halını özün görürsən...

Kişi tərpənmədi.

Sədr Şərif soruşdu:

- Eşitmirsən nə deyirəm?!..

Kişi dedi:

- Eşitməyinə eşidirəm, bizim əsgərlərə bozbaşı da bişirtdirərəm... Bəs bu nemes köpəy uşağına nə bişirtdirim? Bunlara da, bozbaş?!..

Sədr Şərif hirsləndi ki:

- Musurman oğlu musurman!.. Nə deyirəm onu elə!.. Get, iki yekə qazan bozbaş bişirtdir.

Kişi getdi...

...Bəli, bozbaş bişdi, idarənin həyətində süfrə açıldı. İdarənin həyətini yağış o qədər də tutmamışdı, quruydu və əvvəlcə süfrəni elə yerdə açmaq istəyirdilər, otların üstündə.

Ancaq Piralı baba sədr Şərifi çəkdi qırağa, dedi ki:

- Biz heç!..

Gözüynən bizim əsgərləri göstərdi ki, bunlar da heç...

Sonra başıynan nemes plenlərinə işarə elədi, dedi:

- O ki qaldı bunlara, bunlar əslində adam deyillər... Ancaq nə qədər adam olmasalar da, köpəy uşağı qulturnu adamdılar. Bir də ki, necə olsa düşməndilər, süfrəni açarıq yerdə, elə bilərlər stolumuz-zadımız yoxdu... Onsuz da musurmanın adı pis çıxıb...

Piralı babanın sözü sədr Şərifin də ağlına batdı və süfrəni yerdə açmadılar, stol üstündə açdılar.

Yuxarı başda sədr Şərif əyləşdi, bizim əsgərlərin böyüyü əyləşdi, bir də, bizim əsgərlər əyləşdilər.

Aşağı başda nemes plenlərini oturtdular.

Nemes plenləriynən bizim əsgərlərin arasında kəndin camaatından, daha doğrusu, kalxozun aktivlərindən beş-

altı nəfəri də əyləşdi; Piralı babaynan Mikayıl kişi də o beş-altı nəfərin arasındaydı.

Süfrəni çox səliqəynən bəzəmişdilər; qabqacaq, çəngəl-bıçaq, qaşıq, filan hamısı ədəb-ərkannan düzülmüşdü.

Özü də Piralı baba tapşırmışdı ki, qabqacağın, çəngəl-bıçağın ən yaxşısını, ən bahalısını nemes plenlərinin qabağına düzsünlər. Çünki bizim əsgərlər heç, özümüzünküydülər... ancaq bu nemes köpəy uşağı gərək görəydilər ki, "musurman qalxozçusu" çöldən-zaddan gəlməyib, hər şeyi var... görəydilər, gözləri çıxaydı.

Piralı babadan olsaydı, bozbaşın yağlısını da nemes plenlərinin qabına çəkərdilər. Çünki bizim əsgərlər heç, özümüzünküydülər... ancaq bu nemes köpəy uşağı gərək görəydilər ki, "musurman qalxozçusu" ac-zad deyil, belə ləzzətli-ləzzətli xörəklər yeyir... görəydilər, gözləri çıxaydı.

Doğrudu, qabqacağın, çəngəl-bıçağın yaxşısını nemes plenlərinin qabağına düzdülər, ancaq bozbaşın yağlısını da bunların qabına çəkməyə heç kəsin əli gəlmədi.

Bir də ki, bozbaşın nə yağlısı, nə yavanı?

Girişdilər bozbaşa, nə girişdilər!..

Hamı şirin-şirin yeyirdi, təkcə Mikayıl kişininki bozbaş yemək deyildi, əməlli-başlı əzabıydı, işgəncəydi.

Mikayıl kişi ömründə bu qaydaynan bozbaş yeməmişdi.

Dünyanın gözəl vaxtlarında, yəni o vaxtlarda ki, dava yox idi, Mikayıl kişinin arvadı vardı, bozbaş bişirərdi, bir dərin boşqaba çəkib qoyardı ərinin qabağına, Mikayıl kişi də bir büküm yuxanı doğrayardı o boşqabdakı bozbaşın suyuna, qaşıqnan o boşqabdakı kartofu, noxudu da əzib qatardı bir-birinə, ləzzətnən yeyərdi.

İndi də, süfrənin başında əyləşən kimi Mikayıl kişi əlini uzatdı, bir büküm yuxa götürdü, istədi ki, doğrasın boş-

qaba, Piralı baba dirsəyiynən onu dümsüklədi, gözünü ağartdı ki, acgöz olma, dost var, düşmən var...

Və Mikayıl kişi götürdüyü o bir büküm yuxadan bir qulaq kəsdi, qalanını qoydu stolun üstünə.

Bir tikə o yuxadan dişlədi, bir qaşıq bozbaşın suyundan içdi. Yenə bir tikə yuxadan dişlədi, bir qaşıq bozbaşın suyundan içdi. Belə-belə, Mikayıl kişi o bir qulaq yuxanın axırına çıxdı, ancaq Piralı babanın qorxusundan bir də əlini süfrəyə uzadıb yuxa götürməyə ürək eləmədi, bozbaşın suyunu başladı elə-belə, teyxa içməyə...

Bir qaşıq, iki qaşıq...

Bozbaşın suyu yağlıydı, çox yağlıydı və Mikayıl kişi bilirdi ki, bunun axırı yaxşı olmayacaq.

Ancaq bir iş vardı ki, Mikayıl kişi bu zülümlərin hamısını havayı yerə çəkirdi, çünki Piralı baba ona fikir-zad verib-eləmirdi, bayaqdan gözlərini zilləmişdi nemes plenlərinə, key-key baxırdı.

Əslində, o yazıqlar da bir əcayib iş-zad tutmamışdılar, oturmuşdular, şirin-şirin bozbaşlarını yeyirdilər.

Ancaq iş burasındaydı ki, bu nemes plenləri bozbaşı lap musurman kimi yeyirdilər; yəni, neçə büküm yuxanı doğramışdılar bozbaşın suyuna, qaşığı almışdılar əllərinə, daraşmışdılar bozbaşın canına. Sümük gəmirənləri də vardı, ilik sümürənləri də.

Piralı baba baxırdı və fikirləşirdi ki, ey dadi-bidad, əgər bunların bozbaş yeməyiynən musurmanın bozbaş yeməyində bir elə tafavut-zad yoxdusa, bəs bu köpəy uşağı dünyanın yarısını nə təhər almışıymışlar?!..

...Piralı baba o cürə çox fikirləşdi, bir yana çıxa bilmədi.

O vaxtacan bozbaşın axırına çıxdılar, nemes plenlərini yenə mindirdilər maşına, apardılar.

Camaat dayanmışdı, maşının dalınca baxırdı.

Piralı baba da camaatın arasında dayanmışdı və hələ də fikirləşirdi...

...İlahi, yəni doğrudanmı o nemes deyilən şey elə bu idi?!

Camaat da pərt olmuşdu, arvadlar doluxsunmuşdular.

Bu kənddə davada adamı ölməyən adam yoxudu, camaatın yarası təzə-təzə köz bağlayırdı; davadı, deyirdilər, ölüm-itim olar, ağzında nemes deyirsən, o cürə canavarın ağzından qurtarmaq özü böyük işdi!..

Ancaq indi bu nemesləri görəndən sonra birdən o davanın olmağı da, o adamların ölməyi də bu camaata çox insafsız bir şey kimi göründü... İlahi, yəni doğrudanmı o nemes deyilən şey elə bu idi?!..

Hamı səssiz-səmirsiz dağılışdı.

Arvadlar ağlamağa getdilər.

Maşın çoxdan gözdən itmişdi, görünmürdü.

Ancaq Piralı baba hələ də dayanmışdı, baxırdı. Handanhana Mikayıl kişiyə sarı çevrildi, pərt-pərt gülümsündü:

- Gördün də?!.. - dedi.

Mikayıl kişi başını tərpətdi.

Piralı baba birdən acıqlı-acıqlı qışqırdı:

- Sən öl, - dedi, - bunlar nemes deyildilər!..

Mikayıl kişi gözünü döyə-döyə qaldı; yəni ki, nemes deyildilər, bəs nəydilər?!..

Piralı baba dinmədi, düz Mikayıl kişinin gözünün içinə baxıb mənalı-mənalı gözlərini qıydı; yəni ki, day orasını mən demirəm, özün başa düş!..

...Və Mikayıl kişi başa düşdü.

1971

EVİN TİKİLMƏSİN, AMERİKA!..

Coğrafiya dərsiydi...

Əsəd kişinin oğlu Mədəd əlində çubuq xəritənin qabağında quruyub qalmışdı, gözlərini döyə-döyə gah xəritəyə baxırdı, gah əlindəki çubuğa, gah müəllimə və fikirləşirdi ki, ey dadi-bidad, niyə dünya bu qədər haqsızlıqnan doludu?!..

Dünya doğrudan da haqsızlıqnan doluydu.

Məsələn, bu dəqiqə dünyada bir Amerika Birləşmiş Ştatları vardı, həmin Amerika Birləşmiş Ştatlarında iki yüz milyonacan adam yaşayırdı və o iki yüz milyonacan adamdan bircəciyinin də xəbəri yoxuydu ki, bəs bu dəqiqə yer üzündə bir belə kənd də var, bu kənddə bir Əsəd kişinin oğlu Mədəd də var, əlində çubuq quruyub qalıb xəritənin qabağında, ha əlləşir Amerika Birləşmiş Ştatlarını göstərə bilmir.

Yox balam, bu dünya çox haqsız dünyadı!..

Amma bu dünyanın gözəl vaxtları da vardı; o vaxtlar Mədəd hələ məktəbə getmirdi, əlindəki bu çubuq da o vaxtlar hələ oxlovuydu. Mədədin nənəsi bu oxlovnan kündə yayardı, dadlı-dadlı kökələr bişirərdi, Mədəd də o kökələrdən yeyib ləzzət alardı.

O vaxtlar Mədədgilin qara eşşəyi də hələ xotuğuydu. Mədəd əlində kökə qaçardı çölə, xotuq da qoşulardı Mədədə, axşamacan oynaqlaşıb kef eləyərdilər. Kaş ki, ikisi də elə o boyda qalaydılar, heç böyüməyəydilər.

Amma yoox, böyüdülər. Xotuq böyüdü eşşək oldu, Mədəd böyüdü məktəbli oldu.

Eşşək olandan sonra o xotuq nələr çəkirdi, - bir Allah bilir, bir də özü. Ancaq Mədədin aləmində məktəbli olmağın zülmü yerə-göyə sığmazdı.

İllah ki, bu coğrafiya müəllimi yazıq gədəyə göz verib işıq vermirdi. Keçən il də sinifdə saxlamışdı. Mədəd də müəllimin çubuğunu oğurlayıb sındırmışdı, - o çubuqnan uşaqlar xəritədəki yerləri göstərirdilər.

Ancaq sonra başa düşdü ki, çubuq-zad sındırmaqnan çox uzağa getmək olmaz və bu il dərslər təzə başlayanda nənəsinin oxlovunu oğurlayıb məktəbə gətirdi; indi uşaqlar xəritədəki yerləri Mədədin nənəsinin oxlovuynan göstərirdilər.

...Cəhənnəmə ki, göstərirdilər! Gora ki, göstərirdilər! Göstərdikləri başlarına dəysin! Ode, hamısı quzu balası kimi rahatca oturublar yerlərində, indi hansını durğuzsan elə gözüyumulu gəlib barmağını qoyar Amerikanın üstünə, dil-dil ötər; kapitalizm belə gəldi, imperializm elə getdi! Amma qıraqda dindirirsən, ağzının suyu axa-axa deyir; Amerikada hər adama iki maşın düşür... Yalansa səni elə Amerikada öləsən! Göstərə bilmirik, göstərə bilmirik, - deyirsən yəni bu Amerikadan heç xəbərimiz yoxdu?! Tutalım, lap hər adama iki maşın düşdü; sağı dərya, solu dərya, o maşınları harda sürəcəksən, ay axmaq?!..

- ...Mədəd! Ay Mədəd!..

Mədəd diksinib oxlovu əlindən saldı.

Çağıran Mədədin balaca qardaşıydı. Ayaqyalın, başaçıq məktəbin pəncərəsinin altında dayanmışdı, çığırırdı:

- Mədəd, ay Mədəd! Tez ol evə gəl! Eşşəyimiz ölür!..

Mədəd necə sinifdən bayıra atıldı, necə evə yüyürdü, - heç özünün də xəbəri olmadı. Bir də gördü qapılarının ağzındadı.

Mədədgilin qapısına xeyli adam yığılmışdı, qara eşşək də ortada uzanmışdı, xırıldayırdı, ağzından köpük daşırdı, gözündən yaş axırdı.

Əsəd kişi də əlacsız-əlacsız gah onun üzünə baxırdı, gah bunun üzünə baxırdı.

Yazıq heyvan eşşəkliyinə salıb harda su içmişdisə, ağzına zəli getmişdi, boğazında yapışıb qalmışdı, indi də eşşək boğulurdu, ölürdü.

Bayaqdan hərə bir cürə dərman deyirdi, yazıq heyvanın boğazına min cürə zir-zibil tökmüşdülər, ancaq zəli köpəyoğlu qopmurdu ki, qopmurdu.

Mədəd bu yay o zəlilərdən Allah bilir neçəsini tutmuşdu, aparıb təbiət müəlliminə vermişdi, təbiət müəllimi də o zəliləri şüşə qaba, spirtin içinə salmışdı, o zəlilər də şüşə qabda, spirtin içində bir az çabalayıb ölmüşdülər, gorbagor olmuşdular...

- ...İspirt! İspirt! Ay dədə, boğazına ispirt tökün!..

Mədədin sözü o dəqiqə hamının ağlına batdı. Çünki məsəl var, deyirlər, araq öldürəni fələk diriltməz, fələk öldürəni araq dirildər.

Doğrudu, bu məsələdə söhbət araqdan gedirdi, amma bu kəndin camaatı çox ayıq camaatıdı və bu kənddə uşaqdan böyüyəcən hamı çox gözəl bilirdi ki, spirtnən araq ikisi də elə bir şeydi. İntəhası loru dildə araq deyirlər, mədəni dildə spirt.

Məsələn, Zöhrab müəllim spirt içirdi, hamamçı Hüsü araq. Hamamçı Hüsü arağı içib, loru dilnən deyilsə, dəmlənirdi, Zöhrab müəllim spirti içib, mədəni dilnən deyilsə, sərxoş olurdu. Və bu dəmlənməknən sərxoş olmağın arasındakı fərq nə boydaydısa, araqnan spirtin arasındakı fərq də düz o boydaydı...

...Və odur ki, Mədəd "ispirt" deyib çığıran kimi hamı dönüb Bilal kişiyə baxdı.

Bilal kişi bu kəndin məşhur araq çəkəniydi. Hər şeydən çəkirdi; tutdan, gavalıdan, zoğaldan. Qabaqlar lap açıq-aşkar çəkirdi, aparıb erməni kəndlərində satırdı. Ancaq indi hökumət təzə qərar çıxarmışdı, araq çəkməyi qadağan eləmişdi və Bilal kişi də, indi guya arağı gizlincə çəkirdi.

Ancaq bu necə gizlincə araq çəkmək idi ki, Bilal kişinin bacasından qalxan tüstünün iyini hamamçı Hüsü indi də kəndin o başında burnuna çəkib "oxxay" deyirdi. Və bu kənddə hamamçı Hüsünün burnundan da saz burunlar vardı, çünki başqa şeyi deyə bilmərəm, burun məsələsində Allah bu kəndi mağmın eləməmişdi.

Əslinə qalsa, Bilal kişi özü də hökumətin qərarından narazı-zad deyildi. O qərar qoca vaxtı Bilal kişinin əlindən tutmuşdu. Çünki Bilal kişi day açıq-aşkar uzun-uzun yolları yortub uzaq-uzaq kəndlərə araq aparıb satmırdı, qərara hörmət eləyirdi, həmin kəndlərdən müştərilər özləri gəlib Bilal kişinin evindən gizlincə araq aparırdılar, qərara hörmət eləyirdilər.

Camaat da qərara möhkəm hörmət eləyirdi və kənddə hamı özünü elə göstərirdi ki, guya Bilal kişinin araq çəkməyidən heç kəsin xəbəri yoxdu.

...Hörmət hörmətliyində, - ancaq Mədəd "ispirt" deyib çığıran kimi hamı dönüb Bilal kişiyə baxdı və Bilal kişi bir balaca özünü itirdi.

Doğrudu, Bilal kişi özünü ona görə itirmədi ki, camaat dönüb buna baxdı, ona görə itirdi ki, Hümmət yoldaş da camaatın içindəydi və Mədəd "ispirt" deyib çığıranda hamı dönüb Bilal kişiyə baxdı, təkcə Hümmət yoldaş baxmadı.

Nəzərə alanda ki, Hümmət yoldaş bu kəndin sovet sədriydi, Bilal kişinin araq çəkməyini də çox gözəl bilirdi, - onda belə çıxır ki, Hümmət yoldaşın bu camaatla bir yerdə dönüb Bilal kişiyə baxmamağında nəsə bir iş vardı.

O iş nəydi, - Bilal kişi bilmirdi, ancaq gedib araq gətirməyə də ürək eləmirdi.

Bilal kişi bir az gözlədi. gördü, yox, balam, deyəsən Hümmət yoldaşın buna sarı baxmaq fikri-zadı yoxdu.

Bu tərəfdə yazıq eşşək can verirdi, o tərəfdə camaat yazıq-yazıq Bilal kişiyə baxıb imdad istəyirdi, o biri tərəfdə də Hümmət yoldaş elə bil ki, daşıydı, dayanmışdı, Bilal kişiyə sarı baxmaq heç yadına da düşmürdü.

Bilal kişi bir az da gözlədi, gördü, yox, balam, bu Hümmət yoldaşın deyəsən heç Allahı-zadı yoxdu, belə getsə yazıq heyvan əldən gedəcək və birdən hirs vurdu təpəsinə, bir fikirləşdi ki, cumub Hümmət yoldaşın yaxasından yapışsın, desin, adam oğlusan, bir bəri bax, eşşək əldən getdi!..

...Və bunu fikirləşə-fikirləşə Bilal kişi özündən xəbərsiz yerindən qopdu, Hümmət yoldaşın üstünə cumdu, di gəl ki, lap çataçatda qeyrəti laxladı, - ancaq elə cummuşdu ki, day dayana bilməzdi, elə o cür güllə kimi qaça-qaça Hümmət yoldaşın böyründən keçdi, dövrə vurub başına dolandı, qayıdıb yüyürdü evinə.

Bilal kişi evinə niyə yüyürdü, bunu hamı başa düşdü, ancaq Hümmət yoldaşın başına dolanmağı nəydi, - bunu heç kəs başa düşmədi.

Bunu təkcə Hümmət yoldaş başa düşdü və Bilal kişi əlində bir şüşə araq qayıdıb gələndə Hümmət yoldaşı camaatın içində görmədi.

Arağı qara eşşəyin boğazına tökdülər.

Hamamçı Hüsü lap yaxına gəldi, əyildi, burnunu lap eşşəyin ağzına söykədi, iynədi, ləzzətnən ağzını marçıldadıb soruşdu ki:

- Zoğaldı?..

Məlum olmadı kimdən soruşdu və özü də başını qaldırıb dedi:

- Zoğaldı!..

Əvvəlcə qara eşşəyin boğazındakı xırıltı kəsildi. Sonra bir gözünü açdı, hamamçı Hüsüyə baxdı, yumdu. Sonra iki gözünü də açdı, baxdı, yenə yumdu. Yumdu və başladı rahatca nəfəs almağa.

Hamamçı Hüsü də rahatca köksünü ötürdü, qalxdı, Bilal kişiyə sarı çevrildi:

- Savab iş gördün, - dedi, - Bilal kişi!.. Eşşək olanda noolar?!..

***

...Bilal kişi:

- Eşşək olanda noolar, - dedi, - Hümmət yoldaş?!.. Eşşəyin Allahı yoxdu?!..

Hümmət yoldaş:

- Allahnan işin olmasın, - dedi, - məsələ eşşəkdə deyil!

(...Məsələ eşşəkdə deyil, tülkü oğlu tülkü! Özün eşşək kimi bilirsən ki, məsələ eşşəkdə deyil...)

Bilal kişinin arvadı qapının ağzında durmuşdu, baxırdı.

Alatoranlığıydı, mal-qaranı örüşdən təzəcə gətirmişdilər, inəyi təzəcə sağmışdı, tərliydi, təngənəfəsdi, iri-iri döşləri titrəyirdi, yoğun-yoğun baldırları əsirdi.

Hümmət yoldaşın bir uzun, arıq arvadı vardı, neçə il idi ki, naxoşluqdan baş açmırdı. Həftə səkkiz - mən doqquz qan axması tuturdu.

(...Məsələ eşşəkdə deyil, tülkü oğlu tülkü!..)

Bilal kişinin balaca oğlu da anasının böyrünə qısılıb durmuşdu. Kitabları bu otaqda, pəncərənin ağzındaydı, gəlib götürmək istəyirdi, ancaq Hümmət yoldaşın qorxusundan ürək eləmirdi.

(...Böyüyüb professor olacaq! Beləsininki professor olar!.. Bizimki kitab görəndə elə bil ilan görür...)

Doğrudu, Hümmət yoldaşın üz-gözündən zəhrimar yağırdı, ancaq Bilal kişi hər halda arvadına göz elədi; arvadı çörək gətirdi, xörək çəkdi, süfrəyə göy-göyərti qoydu. Keşnişiydi, turpuydu. Hümmət yoldaş neçə il idi ki, turp əkirdi, bir şey çıxmırdı; gah yarpağa verirdi, başı olmurdu, gah başı olurdu, di gəl ki, içi boş olurdu.

(...Məsələ eşşəkdə deyil, tülkü oğlu tülkü!..)

Bilal kişi yenə arvadına göz elədi; arvadı çıxdı, bir şüşə araq gətirdi, qoydu süfrənin ortasına, yenə çəkilib durdu qapının ağzında.

Bilal kişi arağı süzdü stəkanlara, sonra da yazıq-yazıq baxdı Hümmət yoldaşın üzünə.

Və Bilal kişinin oğlu süfrədəki bu dəmdəsgahı görəndə ürəkləndi, asta-asta gəlib pəncərənin ağzından kitablarını götürdü, vurdu qoltuğuna, qayıdıb Hümmət yoldaşın böyründən keçəndə möcüzə baş verdi, Hümmət yoldaşın üzündə təbəssümə oxşayan bir şey göründü (...Yox, balam, beləsindən professor nədi, lap ministir çıxar!..), Hümmət yoldaş bir əliynən uşağın başını sığalladı və o biri əlini qəflətən stolun üstünə çırpdı, Bilal kişinin üstünə qışqırdı:

- Qoymaram gənc nəsli zəhərləyəsən! - dedi.

"Gənc nəsil" qorxusundan dik atıldı, kitablarını möhkəm-möhkəm basdı bağrına, sivişib aradan çıxdı.

Və Bilal kişi oturduğu yerdə büzüşdü, balacalaşdı, ağzını açıb nəsə demək istədi, dili topuq çaldı.

Bilal kişinin arvadı gördü ki, işlər xarabdı, Hümmət yoldaş bir də qışqırsa kişini lap kişilikdən salacaq, düz Hümmət yoldaşın üstünə yeridi, səsinin cır yerinə salıb çığırdı:

- Nə səsinin yoğun yerinə salmısan?! - dedi.

- Hökumətsən, get hökumətliyini elə! - dedi, - Get evdə arvadının üstə xoruzlan!

Və elə bunu deməyi gördü.

Bilal kişi büzüşdüyü yerdən qəfil elə bir səsnən qışqırdı ki, arvad cəhənnəm, özü diksindi.

- Rədd ol, - dedi, - həyasızın qızı həyasız! Arvada arvad deyiblər, kişiyə kişi! - dedi, - Özümüz bilərik...

Bilal kişi arvadının üstünə qışqırdıqca böyüdü, dikəldi, belini düzəltdi, yenə əməlli-başlı kişiyə oxşadı. Arvadı gördü ki, əri adam şəklinə düşüb, arxayınlaşdı, yenə kirimişcə gedib durdu qapının ağzında.

Bilal kişi dodağının altında hələ də donquldanırdı. Ancaq sözünü day nə arvadı başa düşürdü, nə Hümmət yoldaş. Bilal kişi özü də day nə arvadına baxırdı, nə Hümmət yoldaşa, - gözünü qabağındakı araq dolu stəkana zilləmişdi və Bilal kişi bu dəqiqə donquldana-donquldana nə deyirdi, bunu bu dünyada bəlkə elə bircə həmin stəkan başa düşürdü.

Bilal kişi birdən stəkanın boğazından yapışdı, birnəfəsə çəkdi başına, - "uff" elədi və Hümmət yoldaş heç cürə başa düşə bilmədi ki; o ufultu hardan çıxdı; Bilal kişinin ağzından çıxdı, yoxsa stəkanın içindən?

Sonra Bilal kişi turpun lap yekəsini götürdü, yarısını dişlədi, yarısını tulladı stolun üstünə və Hümmət yoldaş gördü ki, turpun içi boşdu...

Bir balaca fikrə gedən kimi oldu.

Hümmət yoldaş fikrə gedən kimi Bilal kişi yumruğunu sinəsinə çırpdı, ağlamsına-ağlamsına qışqırdı:

- Öldürün məni, öldürün! - dedi, - Öldürün üçüncü dərəcəli mayirbə invalidini! Nemes öldürə bilmədi, siz öldürün!..

Sol əlinə davada güllə dəymişdi, baş barmağı qatlanmırdı. Sol əlinin baş barmağıyla gözünün yaşını sildi və düz Hümmət yoldaşın gözünün içinə baxdı.

Hümmət yoldaş:

- A kişi, hirslənmə, - dedi, - bilməmişik, bir qələtdi eləmişik. Yazarıq Moskvaya, sənə orden göndərərlər!..

Və Bilal kişinin arvadı heç cür ayırd eləyə bilmədi ki, Hümmət yoldaş bu sözləri ciddi dedi, yoxsa Bilal kişini dolamaq üçün dedi.

Bilal kişi hələ də Hümmət yoldaşın gözünün içinə baxırdı, ancaq Hümmət yoldaşın gözünün içinə baxa-baxa Bilal kişinin gözləri birdən-birə elə bil ki, dalın-dalın çəkildi, uzaqlaşdı və lap uzaqda Bilal kişinin gözündən bir damcı yaş düşdü.

Bilal kişi bu dəfə nə o bir damcı yaşı sildi, nə Hümmət yoldaşa bir kəlmə söz dedi, ancaq necə oldusa Hümmət yoldaş birdən-birə Bilal kişinin o uzaqdakı gözlərinə baxa bilmədi, gözlərini yayındırdı və yenə süfrədəki həmin içiboş turpu gördü...

...Day sonrası Hümmət yoldaşın yadında deyildi. Sonrası buydu ki, Bilal kişi bir də gördü Hümmət yoldaşın qabağındakı stəkan boşdu; Hümmət yoldaş o stəkandakı araği içmişdi, yoxsa yerə tökmüşdü, - orası Bilal kişiyə məlum olmadı.

Stolun üstündəki şüşəni nə vaxt boşaltdılar, nə təhər boşaltdılar, - orası da nə Bilal kişinin yadındaydı, nə Hümmət yoldaşın.

Sonra Bilal kişi ha əlləşirdi, arvadına göz vurmaq istəyirdi ki, gedib bir şüşə də araq gətirsin, göz vura bilmirdi, gözlərinin ikisi də yumulurdu.

Yaxşı arvad kişini elə gözüyumulu da başa düşər.

Bilal kişinin arvadı getdi, bir şüşə də araq gətirdi, qoydu stolun üstünə, ancaq bu dəfə çəkilib qapının ağzında durmadı, iri-iri döşlərini Bilal kişinin çiyninə söykəyib dayandı:

- Az için bu zəhrimarı, - dedi, ancaq sevinə-sevinə dedi, elə o dəqiqə də stəkanları arağnan doldurdu.

Bilal kişinin də üz-gözündən sevinc tökülürdü, gözləri də indi uzaqda deyildi, öz halalca yerində, burnunun böy-

ründəydi. Ancaq Hümmət yoldaş hələ də Bilal kişinin gözlərinə baxmağa ürək eləmirdi. elə bilirdi ki, Bilal kişinin gözləri hələ də uzaqdadı...

...Uzaqda, Bilal kişinin gözləri olan yerdə Hümmət yoldaşın adı Hümmət idi, Bilal kişinin adı Bilal idi, ağaca çıxırdılar, çayda çimirdilər. Bilal kişinin arvadı da bir burnufırtıqlı qız uşağıydı, ağaca çıxanlarnan ağaca çıxırdı, çayda çimənlərnən çayda çimirdi. Bir dəfə də o qıznan çayda çiməndə Bilalnan Hümmət qəflətən hiss eləmişdilər ki, tumançaqdılar. O qızın lümlüt olmağını da hiss eləmişdilər. Hümmət barmağını o qızın sinəsinə uzatmışdı, gözlərini döyə-döyə soruşmuşdu ki, bu nədi?.. çiban çıxıb?!.. O burnufırtıqlı qız hırıldamışdı və Bilal o qızın burnunun üstündən bir şapalaq ilişdirmişdi, - rədd ol, - demişdi, - həyasızın qızı həyasız!..

...Hümmət yoldaş Bilal kişinin arvadının iri-iri döşlərinə baxırdı; o artiskanın adı nəydi, Allah, iri-iri döşləri vardı...

Çoxdanın söhbətidi, cavanlığıydı, Hümmət yoldaş o artiskanı bir dəfə kinoda görmüşdü, lümbələnlüt görmüşdü, üç gecə yerində qurcalanmışdı, yata bilməmişdi.

(...Heyif o artiskadan, cavan öldü yazıq!.. Döşündə xərçəng naxoşluğu tapıblar, deyir, bir döşün kəsiblər, apires eləyib əvəzinə iskustvenni döş düzəldiblər...)

Hümmət yoldaş o artiskanı sonra bir dəfə də kinoda görmüşdü, yenə lümbələnlüt görmüşdü, ha baxmışdı əsil döşüynən "iskustivenni" döşünü ayırd eləyə bilməmişdi.

(...Evin tikilməsin, Amerika!..)

Hümmət yoldaş Bilal kişinin arvadının iri-iri döşlərinə baxırdı; yox, vallah naxoşluğuydu, heç allah bəndəsinin bu irilikdə cağ-əməlli döşü ola bilməzdi.

Hümmət yoldaşın Bilal kişiyə yazığı gəlirdi (Allah heç kafını da arvadsız qoymasın!), o biri otaqda dərs əzbərlə-

yən uşağa da yazığı gəlirdi (Allah heç ministiri də yetimçiliknən böyütməsin!), Hümmət yoldaşın ürəyi rəhmnən dolmuşdu, Bilal kişigilə niyə gəlmişdi, nədən ötrü gəlmişdi, - tamam yadından çıxmışdı. Elə-belə, uzaqdan-uzağa, alaqaranlıq hiss eləyirdi ki, nəsə bir vacib işdən ötrü gəlib, ancaq o vacib iş nəydi, - heç cürə yadına sala bilmirdi.

Hümmət yoldaş araq dolu stəkanı qaldırdı, tutdu gözünün qabağına, diqqətnən baxdı. Birdən elə bil ki, yadına nəsə düşdü, ancaq elə o dəqiqə də stəkanın şüşəsindən yenə Bilal kişinin arvadının iri-iri döşlərini gördü (kərəminə şükür, Allah, bizimkinin dərdi məlum, dərmanı məlum!), stəkanı çəkdi başına, sonra gözünü zillədi boş stəkanın içinə, yenə diqqətnən baxdı, nəfəsini də çəkmirdi, elə bil nəsə gözləyirdi. Ancaq gözlədiyi stəkanın içindən çıxmadı, handan-hana özü bir dərindən "uuff" elədi, stəkanı qoydu yerə:

- Yaxşı araqdı, - dedi, - yaxşıdan da yaxşıdı!

Bilal kişi:

- Mən pis araq çəkmərəm, - dedi, - o ki qaldı zoğal ola!

Hümmət yoldaş:

- Hər zoğalın belə arağı olmaz, - dedi, - zoğal var, zoğal var!

Bilal kişi:

- Ustasına baxır, - dedi, - zoğal-moğal boş sözdü, daşdan da çəkərəm. - arvadını dümsüklədi ki, - Çəkərəm, ya çəkmərəm?

Bilal kişinin arvadı:

- Çəkərsən, - dedi, - daşdan da çəkərsən. - sonra Hümmət yoldaşın üzünə baxıb gülümsündü və dedi ki, - Daş var, daş var...

(İlahi, bu insan nə qəribə məxluqdu! Bu gün üzünə gülür, sabah üstündə ağlayırsan...)

Hümmət yoldaş:

- Hamımız öləcəyik, - dedi, - Bilal!.. Yaxşılıq qalacaq!

Bilal kişi:

- Doğrudu, - dedi.

İçdilər...

***

...Gecəydi, ikisi də qol-qola girmişdilər, yırğalana-yırğalana gedirdilər. Guya ki, Bilal kişi Hümmət yoldaşı evinə ötürürdü.

- Oxxay! Gecəyə bax, Bilal! Nə ölməli gecədi, Allah!

- Elə demə, Hümmət yoldaş, ayağının altda ölüm, elə demə!..

Hümmət yoldaşın ayağının altında bir qurbağa qurulmuşdu; o qurbağa lap sütülüydü, cavanıydı, təzə-təzə dünyanı seyrə çıxırdı, Hümmət yoldaşın ayağının altında da ölmək istəmirdi.

- Hümmət yoldaş, yəni o doğrudu ki, Amerikada qurbağa yeyirlər?..

- Yeyirlər, Bilal, yeyirlər.

- Evin tikilməsin, Amerika!..

Qurbağa ayın işığında dayanmışdı, tir-tir əsirdi.

- Allah sənə insaf versin, Bilal, yazığı qorxutdun. Yeri get, a qurbağa, bura Amerika deyil...

Qurbağa dayanmışdı, tir-tir əsirdi.

- Amerikada beləsini yemirlər, Bilal!.. Orda iri-iri qurbağalar olur, toyuq boyda, eləsini yeyirlər... Yeri get, a qurbağa!..

Qurbağa ayın işığında dayanmışdı, əsirdi.

(Əstəfürulla! Bu gecə vaxtı işə düşmədik?!..)

- Onu sənə deyən qələt eləyir, Bilal! Amerikada qurbağa-zad yemirlər, tısbağa yeyirlər... Hansı köpəyoğlu gül

kimi tısbağanı qoyub qurbağa yeyər, Bilal?! Yeri get, a qurbağa, çəkil ayın işığından, işığı mundarlama!..

Qurbağa gördü ki, yox, balam, bu xına o xınadan deyil, ayın işığından qırağa tullandı, hoppana-hoppana çıxıb getdi.

Bilal kişi:

- Get, get, - dedi, - sənidən qurbağa olsa, mən bığımı qırxdıraram! - Hümmət yoldaşa sarı döndü, - Bunun əcəli ilan ağzındadı... - dedi.

Hümmət yoldaş dinmədi.

- Paaa!.. Zəhminə qurban olum, Hümmət yoldaş! Bu yazığın kölgəsi qaldı ki!..

Hümmət yoldaş gözünün ucuyla baxdı; doğrudan da, qurbağa özü yox idi, ancaq ayın işığında, yerdə bir iri qurbağa kölgəsi görünürdü və o kölgə hələ də tir-tir əsirdi.

Hümmət yoldaş özü də bilirdi ki, zəhmli adamdı, amma ta bu dərəcədə yox.

Hümmət yoldaş Bilal kişinin gözünün içinə baxıb mənalı-mənalı başını yırğaladı, yəni ki, görürsən də?!

Bilal kişi də başını yırğaladı, yəni ki, görürəm... Sonra bir dərindən ah çəkdi, yəni ki, eh, Hümmət yoldaş, bu zəhmnən sənin yerin bilirsən gərək hara olaydı?!

Hümmət yoldaş köksünü ötürdü:

- Bilal, - dedi, - get o yazığı çağır, gəlsin kölgəsini aparsın.

Bilal kişi sağa-sola göz gəzdirdi. Qurbağa bir az aralıda, çəpərin dibində dayanmışdı, gözlərini bərəldib baxırdı.

Bilal kişi yırğalana-yarğalana qurbağaya sarı addımladı:

- A yazıq, - dedi, - gəl kölgəni apar...

Qurbağa bir addım dala sıçradı.

Bilal kişi:

- Ay axmaq, - dedi, - elə bilirsən bütün qurbağalar axmaqdı? Elə bilirsən bu qurbağaların heç juliki-zadı yoxdu?

Bu saat bir gözünə döndüyüm çıxar, götürər kölgəni, aparar, qalarsan tumançaq, lüt ətbala...

Bilal kişinin sözü yenə qurbağaya kar eləmədi, qurbağa bir addım da dala sıçradı və gözlərini bir az da bərəltdi.

Bilal kişi qurbağadan əlini üzdü, əlacsız qalıb Hümmət yoldaşa sarı çevrildi. Ancaq Hümmət yoldaş Bilal kişiyə sarı baxmırdı, dayanmışdı, gözünü zilləmişdi yuxarı, baxırdı.

Bilal kişi də baxdı; düz Hümmət yoldaşın başının üstündə teleqraf məftilindən bir iri qurbağa ölüsü sallanmışdı, yel vurduqca tərpənirdi və yerdəki bu zəhrimara qalmış qurbağa kölgəsinin yiyəsi də o gorbagorudu...

Bilal kişi Hümmət yoldaşın üzünü görmürdü, ancaq başa düşürdü ki, bu dəqiqə elə Hümmət yoldaşın üzünü görməmək məsləhətdi.

(...Nə pis oldu, Allah, nə pis oldu! Mərdimazarı axtarmaqnan deyil ha!..)

Bilal kişinin bir ürəyindən keçdi ki, səssizcə çevrilsin, hələ də çəpərin dibində dayanıb gözlərini bərəldə-bərəldə baxan o balaca qurbağanın dalınca düşsün, getsin, getsin, lap dünyanın o başınacan getsin, təki Hümmət yoldaşnan göz-gözə gəlməsin.

Ancaq Hümmət yoldaş qəflətən başını döndərdi, çiyninin üstündən Bilal kişiyə sarı baxdı, özü də, belə gizlicə, oğrun-oğrun baxdı və Bilal kişi karıxdı, gecikdi, üzünü çevirə bilmədi, göz-gözə gəldilər.

Hümmət yoldaşdan iniltili bir səs çıxdı:

- Bu nədi, Bilal?!

Bilal kişi lap yavaşcadan:

- Qurbağadı... - dedi və günahkar-günahkar gülümsündü.

- Bunu kim bu günə salıb, Bilal?!

Bilal kişi yenə lap yavaşcadan:

- Uşaqların işidi... - dedi, ancaq bu dəfə gülümsünə bilmədi.

Və birdən Hümmət yoldaşdan bir dəli nərə qopdu:

- Hamısını tutmaq lazımdı, Bilal! Qoduxluğa basmaq lazımdı! Bu gün qurbağa öldürürlər, sabah toyuq öldürərlər, birisigün qoyun, tabirisigün inək!.. - Hümmət yoldaş eləcə sadalaya-sadalaya, böyüdə-böyüdə gedirdi. Hümmət yoldaş sadaladıqca Bilal kişinin gözləri böyüyürdü və Bilal kişinin gözləri böyüyüb-böyüyüb lap hədəqəsindən çıxanda birdən Hümmət yoldaşın səsi qırıldı, hıçqıra-hıçqıra, - Qurbağalarımızı öldürürlər, Bilal!.. - dedi, - Gözümüz görə-görə öldürürlər... Bəs o qanı biz nədən ötrü tökdük?! Nədən ötrü vuruşduq?! Bu uşaqların onda heç izi-tozu da yoxuydu, amma bu qurbağalar varıydı, Bilal! Varıydı, ya yox?!..

Bilal kişi:

- Varıydı... - dedi və özü öz sözündən diksindi.

Çünki bu qurbağalar o vaxt doğrudan da varıydı, necə ki, bu çay vardı, bu kənd vardı, bu evlər, həyətlər vardı və belə çıxırdı ki, Bilal kişigil o vaxt bu qurbağalardan ötrü də vuruşmuşdular, qan tökmüşdülər...

Bilal kişi birdən zar-zar ağladı:

- Vay-vay, Allah, - dedi, - necə oğullar getdi...

Eləcə ağlaya-ağlaya bir-birinə sarı addımladılar, gəlib üz-üzə dayananda ikisi də birdən kiridilər, bir-birinin gözünün içinə baxdılar, baxıb-baxıb bərk-bərk qucaqlaşdılar və təzədən ağladılar...

- ...Niyə onlar öldü, biz qaldıq?! Nəyimiz artığıydı, Bilal, nəyimiz artığıydı?!..

Bilal kişi bir az da bərkdən ağladı, çünki ölənlərdən, doğrudan da, heç nəyi artıq deyildi.

- Yox, biz gərək ölək, Bilal! Biz hara, bu gözəlliyində gecə hara?! Allaha da xoş getməz, Bilal, biz gərək ölək...

Bilal kişi lap bərkdən ağladı, çünki gecə doğrudan da çox gözəl gecəydi. Bu dəqiqə bu ayın işığı dünyanın uzaq-uzaq yerlərində neçə-neçə qəbirlərin üstünə düşürdü, o qəbirlərdə bu kəndin neçə-neçə oğulları yatırdı, neçəsinin də ki, Allah bilir, hələ heç qəbri də məlum deyildi...

- Moskvada neizvesni saldatın qəbri var ha, Bilal, görmüsən?

Bilal kişi ağlaya-ağlaya:

- Görmüşəm, - dedi, - televizerdə görmüşəm...

Hümmət yoldaş Bilal kişinin gözünün içinə elə baxdı ki, Bilal kişi diksindi, kiriyib özünü yığışdırdı.

Hümmət yoldaş baxdı, baxdı, birdən lap yavaşcadan pıçıldadı:

- O qəbirdəkini mən tanıyıram, Bilal! - dedi. Elə dedi ki, Bilal kişi o dəqiqə inandı.

Sonra Hümmət yoldaş sağa-sola göz gəzdirdi və xəlvətcə başıynan beş-on addım aralıdakı köhnə bir həyətə işarə elədi, guya ki, o işarəni Bilal kişidən savayı da bir adam görə bilərdi.

- Paa?!..

Bilal kişinin ağzı açıla qaldı, handan-hana özünə gəldi, həmin həyətə sarı boylandı, sonra Hümmət yoldaşın üzünə baxıb yazıq-yazıq soruşdu:

- Özünə demişdin?!

Hümmət yoldaş başını buladı.

Və Bilal kişi doluxsundu:

- Yazıq arvad, - dedi, - gözləyə-gözləyə getdi...

Hümmət yoldaş:

- Ağlama, Bilal, - dedi.

Bilal kişi ağlamırdı, ancaq Hümmət yoldaş bunu deyəndən sonra Bilal kişi başladı ağlamağa.

***

...Qəbristanlıq kənddən aralıydı və Hümmət yoldaşla Bilal kişi gəlib qəbristanlığa çatanda bəlkə də gecə yarıdan keçmişdi.

Bir qəbrin böyründə dayandılar; qəbir təzəydi, torpağı da hələ heç əməlli-başlı bərkiməmişdi. Hümmət yoldaş əyilib o qəbrin torpağından bir ovuc götürdü.

Bilal kişi səssiz-səmirsiz dayanmışdı, qəbrə baxırdı və gözünün yaşı bığından, çənəsindən süzülüb damcı-damcı qəbrin üstünə tökülürdü...

- Bilirəm ürəyindən nə keçir, Bilal! Elə bilirsən mənim ürəyim daşdı, elə bilirsən demək istəmirdim?! İstəyirdim, Bilal, amma ixtiyarım yoxudu... - Hümmət yoldaş səsini alçaltdı, - Təkcə mən deyiləm ha, - dedi, - o qəbirdəki saldatı hökumət də tanıyır, amma demir, çünki demək məsləhət deyil...

Bilal kişi dinmədi. Ağlayırdı...

- O yazıqlar hamısı elə bilir o qəbirdəki balasıdı, Bilal! Bəs o yazıqların gümanını kəsmək olar?!

Bilal kişi yenə dinmədi. Ağlayırdı...

- Bir də ki, deməyin də mənası yoxudu, Bilal! Yazıq arvad tamam haldan düşmüşdü, heyi-hərəkəti qalmamışdı, aparıb Moskvaya çıxartmaq olmazdı...

Bilal kişi ağlayırdı və ağladıqca sifəti uzanırdı, uzanırdı... Hümmət yoldaş baxırdı; Bilal kişinin gözünün yaşı yanaqlarınyan axıb-axıb çənəsinə gedib çatanacan Hümmət yoldaşın nəfəsi darıxırdı.

(İlahi, bu sifət haracan belə uzanacaq?! İnsanda da bu uzunluğunda sifət olarmı?!..)

Hümmət yoldaş dözmədi, çığırdı:

- Ağlama, Bilal! - dedi, sonra birdən özü də hönkürüb ağladı, ovcundakı torpağı bərk-bərk sıxdı:

- Gedirəm, Bilal! - dedi, - Elə bu gecə gedirəm!..

Elə dedi ki, özü də inandı, kiridi və sakitləşdi.

- Gedəcəm, Bilal, bu torpağı səpəcəm o qəbrin üstünə, ana-balanı görüşdürəcəm, qayıdıb gələcəm...

Bilal kişi də kiridi, sakitləşdi, Hümmət yoldaşın ovcundakı torpağa baxdı:

- Qoyarlar?!.. - dedi.

- Torpağa qadağa yoxdu, Bilal!..

***

...Hümmət yoldaşla Bilal kişi stansiyaya gələndə "Bakı-Moskva" qatarı təzəcə keçib getmişdi.

Növbətçi İsa skamyaya yayılıb oturmuşdu, göyə baxırdı. Hümmət yoldaşı görüb əvvəlcə özünü yığışdırdı, sonra gördü ikisi də dəmdi, arxayınladı.

Hümmət yoldaş dedi:

- Moskva poyuzu keçməyib ki?

Növbətçi İsa baxdı, dedi:

- Hələ var...

Sonra növbətçi İsa yavaş-yavaş əhvalatı öyrəndi, Hümmət yoldaşın ovcundakı torpağa baxdı; Hümmət yoldaş o torpağı sıxıb-sıxıb daş kimi eləmişdi.

Növbətçi İsa:

- Torpaq heç, - dedi, - aparırsan, savab eləyirsən. Amma gül də aparsan pis olmaz...

Söz Hümmət yoldaşın ağlına batdı və Bilal kişi gül yığmağa getdi.

Hümmət yoldaşın əynində bircə nazik köynək vardı. Növbətçi İsa:

- Getməyinə gedirsən, - dedi, - amma qorxuram Moskva soyuq ola. Sizin ev uzaqdı, gedək, mənim pencəyimi gey...

Hümmət yoldaş:

- Poyuza çatarıq? - dedi.

- Çatarıq!

Növbətçi İsa Hümmət yoldaşı evinə apardı, çarpayını göstərdi, dedi:

- Sən otur, mən bu dəqiqə pencəyi gətirim.

Hümmət yoldaş elə o çarpayıdaca yuxuladı.

Növbətçi İsa Hümmət yoldaşın ayaqqabılarını çıxartdı, yerini rahatladı, əlini açıb ovcundakı torpağı tullamaq istədi, ancaq neyləsə əlini açа bilmədi.

Hümmət yoldaş elə o cür ovcundakı torpağı sinəsinə sıxıb yatdı...

...Hümmət yoldaş orda yatanda Bilal kişi çayın qırağında, kolların üstündə gül axtarırdı.

Gül yox idi; yayın axırıydı, kollar hamısı bar gətirmişdi. Bilal kişi kolları yoluşdururdu, hirsindən ağlayırdı, çəpərlərdən adlayıb çayın qırağındakı bostanlara girirdi, o bostanlarda, tağların üstündə də bircə dənə çiçək adında şey yox idi, təkcə iri-iri qarpızlar, yemişlər sallanırdı. Bilal kişi o qarpızları, yemişləri tapdalayırdı, əzirdi, yenə hirsindən ağlayırdı:

- Yeyin, - deyirdi, - tıxın, şişin, dama dönün!..

Və eləcə yıxıla-yıxıla, dura-dura, bostanları tapdalaya-tapdalaya, kolları yoluşdura-yoluşdura Bilal kişi çayın qırağıynan getdi, getdi, yoruldu, çölün düzündə, otların üstündə uzandı. Əli nəsə bir heyvanın bədəninə toxundu, başqa vaxt olsaydı bəlkə də qorxardı, ancaq indi qorxmadı, başını o heyvanın isti, yumşaq qarnının üstünə qoyub yatdı...

...Səhər tezdən Bilal kişi Əsəd kişinin oğlu Mədədin səsinə oyandı:

- Baho, eşşəyimiz burdaymış ki!

Bilal kişi gözünü açıb gördü ki, çölün düzündə Əsəd kişinin eşşəyiynən qucaq-qucağa yatıb.

Mədəd sevinə-sevinə:

- A Bilal dayı, - dedi, - nə yaxşı bunu tapmısan! Tamam əlimizi üzmüşdük. Dedik, yəqin canavar-zad parçaladı...

Bilal kişi dinmirdi, elə bil nəsə fikirləşirdi, yadına salmaq istəyirdi.

Mədəd dil boğaza qoymurdu:

- Keçmə eşşəyin piyanlığından, - deyirdi, - a Bilal dayı. Dünən o piyan olan evdən qaçıb, düşüb kəndin canına. Çayın qırağında da bostan-zad qoymayıb, hamısını tapdaq-tapdaq eləyib.

Bilal kişi fikirli-fikirli:

- Ağzında eşşək deyirsən, - dedi, - o ki qaldı piyan ola!..

Sonra Bilal kişiylə Mədəd eşşəyi qabaqlarına qatıb kəndə sarı yollandılar. Mədəd atılıb-düşürdü. Bilal kişi hələ də fikirliydi.

Kəndə girəndə Bilal kişi qabaqdan növbətçi İsayla qoşa gələn Hümmət yoldaşı gördü, diksindi. Hümmət yoldaş da diksinən kimi oldu.

İkisi də səssiscə bir-birinin böyründən keçib getdilər, nə bu onun üzünə baxdı, nə o bunun...

1973

TFU, ADAM YİYƏSİ!..

"Bakı-Moskva" qatarı hər gecə saat üçün yarısında bu kəndin böyründən keçəndə bir dəqiqə dayanırdı.

O bir dəqiqənin xətrinə növbətçi İsa hər gecə rahat yorğan-döşəkdən çıxıb stansiyaya gəlirdi, o qatarı qarşılayıb bir dəqiqə muğayat olurdu, sağ-salamat yola salıb yenə qayıdırdı evinə və yolnan gedə-gedə bu aylı-ulduzlu göyün altında özünün o qədər də balaca adam olmadığını fikirləşirdi, o fikirnən də girirdi yerinə, yatıb gözəl-gözəl yuxular görürdü.

O qatarın vaxtını elə bil növbətçi İsanın beyninə yazmışdılar.

Hər gecə yuxunun ən şirin yerində də, o vaxt gəlib çatan kimi qurcalanıb oyanırdı. Arabir qurcalananda arvadına nə təhər toxunurdusa o da oyanırdı, yuxulu-yuxulu bütün bədəniynən ərinə sıxılırdı, səsiynən-nəfəsiynən pıçıldayırdı:

- Nə var?!.

Növbətçi İsa yarı pərt, yarı acıqlı:

- Heç nə!.. - deyirdi.

Tez-tələsik ayaqlarını sallayıb çarpayıdan düşürdü. Arvad köksünü ötürürdü, o biri böyrü üstə çevrilib təzədən yuxulayırdı. Növbətçi İsa da pal-paltarını geyib küçəyə çıxırdı, yanını basa-basa stansiyaya sarı yollanırdı...

Bu gün də növbətçi İsa axşam-axşam, ertədən yerinə girdi. O qatarın vaxtınacan bir az yatıb yuxusunu almaq istədi. Amma nə illah elədisə, gözünə yuxu getmədi.

Kefi yox idi. Lap gündüzdən yox idi; o qəzeti görəndən qanı qaralmışdı.

Qəzetdə növbətçi İsanın Bakıdakı qardaşından yazmışdılar. Yazmışdılar, Amerikaya gedir. Amerikada, o nədi, professorların bir böyük yığıncağı vardı; bunu da çağırmışdılar.

...Get, qardaş, gedən vaxtındı.

Böyümüsən, qəzetdə yazırlar, televizorda göstərirlər, sovet hökuməti darlıq eləyir, Amerikaya gedirsən. Get-get, görüm haracan gedəcəksən?!

Bu camaat bu gün o qəzeti oxuyub necə sevinirdi; oğullu-uşaqlı, itli-pişikli, bütün kənd sevinirdi. Bəəh!.. Musa müəllim belə gəldi, Musa müəllim elə getdi...

Bir adamdan bir kəndin yadında nə qədər şey qalarmış?!

Elə bil o Musa deyilən adam bu dünyaya göz açıb, bu kəndin içiynən tumançaq ora-bura qaçan gündən bəri bu camaatın işi-gücü gecəbəgündüz o adam neyləmişdisə hamısını sinədəftərə yazmaqdan ibarət olmuşdu; ağaca belə çıxardı, çayda elə üzərdi... Hər günü, hər saatı yadlarındaydı. Danışırdılar, sevinirdilər, ləzzət alırdılar.

Yalandı, qardaş, hamısı yalandı!

O tumançaq Musadan bu kəndin yadında heç nə qalmamışdı. O danışılanların hamısını sonradan, güc-bəlaynan, yaddaşlarını ələk-vələk eləyib tapmışdılar, bircə-bircə yığmışdılar, toplamışdılar. Sən bu kəndin yaddaşını zorlamısan, biqeyrət eləmisən.

Tfu, adam yiyəsi!

Oxuyun, sevinin, axır ki, bu kənddən də bir böyük adam çıxdı; hardan çıxdı, hara çıxdı?

Nə deyim, qardaş, oxumaq zəmanəsidi. Oxudun, professor oldun. Bə kimin hesabına oldun, atam balası?!.

Ata dərdi çəkmədin, ana dərdi çəkmədin. Çiynimdə daş daşıdım, ev tikdim, xəbərin olmadı. O gün divarım çatlayıb.

Mən tikən evin divarı çatlamaz. O divar gücə düşüb çatlayıb. Neçə vaxtıdı gecələr o divardakı daşların xırçıltısını eşidirdim. O divar da səni yadına salmaq istəyirdi. Evimin daş-divarı da sənnən öyünmək istəyir, mən nəyəm axı?!

Televizorda baxırlar, deyirlər, bəəh, Musa müəllim nə qəşəng kişidi. Mən də baxıram; qəşəngsən, qardaş, sözüm yoxdu, qəşəngsən!..

Ağzımız, burnumuz, gözümüz, qaşımız - hamısı bir, amma mənim üzümə it tamah salmaz, güzgü görəndə yan qaçıram. Çünki dərimiz bir deyil. Səninki dəridi, mənimki qabıq. O dəridən məndə də vardı, soyuldu getdi. On qat getdi!..

Atamız ilnən naxoş yatdı, becərdim, xəbərin olmadı. Amma öləndə hamı başsağlığını sənə verdi, qəzetlərdə yazdılar. O qəzetləri də, bu kəndin içində bax beləcə yığışıb oxudular; öyünə-öyünə, sevinə-sevinə oxudular. O gün qəzetlərdə səndən çox heç kəsə başsağlığı verilməmişdi, ona sevinirdilər.

Anamız bircə hərf tanımırdı, amma o qəzetlərdən o da xəbər tutdu.

- Ölsəm, götürənim Musadı, - dedi.

O qəzetləri əlində yelləyə-yelləyə:

- Gorun çatlasın, a kişi, - dedi, - bir dur, gör nə oğul böyütmüsən. Adın qəzetlərdən düşmür...

Anamızın naxoşluğu-zadı yox idi, amma elə o ilin içində öldü; mən bilirəm niyə öldü, qardaş, o arvadı qəzet həvəsi öldürdü.

Pul göndərdin ki, qəbirlərini düzəltdirim, dala qaytardım. Sənin o pulu göndərməyindən hamı danışır, mənim qaytarmağımı deyən yoxdu.

Getdim, bir ətək xərc çəkdim, mərmər kəsdirdim, qəbirlərini düzəltdirdim. O qəbirlərin mərməri də çatlayacaq, bilirəm çatlayacaq. Çünki ikisinin də ruhu gecəbə-

gündüz o mərmərə səndən danışır. Çünki o mərmər də bu dəqiqə hıqqanıb, gücənib səni yadına salmaq istəyir. Bəəh, Musa müəllim! Tfu!..

***

Növbətçi İsanın tüpürcəyi sinəsinə düşdü. Əliynən sildi, qalxıb yerin içində oturdu.

Qatarın vaxtına az qalırdı.

Bircə sevincimiz vardı, qardaş, onu da əlimizdən aldın...

Növbətçi İsa bu gündən belə o "Bakı-Moskva" qatarının bu kənddə bir dəqiqə dayanmağına bir də o cürə sevinə bilməyəcəkdi. Niyə sevinə bilməyəcəkdi, özü də bilmirdi, amma sevinməkdən keçmişdi.

İlahi, o qatarın hər gecə bu kənddə bircə dəqiqə dayanmağı növbətçi İsanın ömrünə nə boyda genişlik gətirmişdi. O gecələrin aydınlığında o qatara baxa-baxa növbətçi İsa elə bil Bakını da, Moskvanı da görürdü və Bakıdan, Moskvadan da onu görürdülər.

...Amerikaya gedirsən, qardaş, Bakıdan Moskvaya getmək sənincün nədi ki?! Bəlkə indiyənəcən o qatarda gecələr bu kənddən yüz dəfə keçmisən. Məni görmüsən, gülmüsən, öl demisən, baxa-baxa qal, sənin günün elə budu! Bəlkə elə bu gecə də o qatarda olacaqsan. Bakıdan Amerikaya birbaşa yol yoxdu axı, gərək əvvəl Moskvaya gedəsən. Taparam səni, taparam. Heç nə eləmərəm, qardaş, tək bircə söz deyərəm, yoldan qalarsan. Bir söz deyərəm, ağır olar, yüz paravoz qoşula çəkə bilməz!..

Növbətçi İsa ayaqlarını sallayıb çarpayıdan düşdü.

Arvadı yatmamışdı, oyaq idi; yorğan-döşəyə girəndən gözünə yuxu getməmişdi. Növbətçi İsa yerin içində qurcalandıqca, o yan bu yana çevrildikcə arvadı böyründə diksinirdi, büzüşürdü, ancaq cınqırını çıxartmağa da ürək eləmirdi.

Növbətçi İsa işığı yandırmadı. Qaranlıqda əl havasına pal-paltarını tapıb geyindi. Elə qapını açıb çıxmaq istəyirdi ki, arvadı dözmədi, qalxıb yerin içində oturdu, yavaşcadan, qorxa-qorxa pıçıldadı:

- Gedirsən?

Növbətçi İsa dişini dişinə sıxıb:

- Gedirəm! - dedi.

Arvadı:

- Getmə, - dedi və ağladı:

...Ağla, tök gözünün şorabasını, ölsəm ağlamazsan, ağla!..

Növbətçi İsa qapının dalında durmuşdu, baxırdı: qapı aralıydı, ayın işığı qapının arasından düz arvadının üzünə düşürdü, gözünün yaşına qarışırdı. O arvadın gözünün yaşı o işığı tamam islatmışdı, nəm eləmişdi. Elə bil ki, bu dəqiqə o ayın işığı da bu arvadın gözünün yaşıynan dilbir olub növbətçi İsanı yolundan saxlamaq istəyirdi.

...Hamısı sənin tərəfindi, qardaş; arvadı da, qızı da, ayı da, ulduzu da!..

Növbətçi İsa qapını var gücüynən çırpdı, elə çırpdı ki, o ayın işığı qapının arasında qalıb xıncım-xıncım oldu. O sınan işığın xırçıltısını növbətçi İsa özü öz qulağıynan eşitdi və bəlkə bu dəqiqə göydəki ay da ağrıdan diksinib dik atıldı...

***

...O göydəki aydan növbətçi İsanın ürəyi çoxdan sınmışdı; o ay növbətçi İsanı aldatmışdı, satmışdı, ayağa vermişdi.

Amma bir vaxtlar növbətçi İsa ən çox bu göy üzünə güvənərdi. Axı nə olmuşdusa hamısı bu göyün altında olmuşdu, o günün işığında, bu ulduzun, ayın altında olmuşdu.

Haçan idi, Allah, haçan idi?.. Növbətçi İsa bir cıqqılı uşağıydı, yerdən boyu göbələkcən qalxmamışdı, özünü

gücnən gəzdirirdi, üstəlik bir uşaq da şəlləyirdilər belinə; o da kim ola, kim ola? Musa müəllim!

...Bəəh, Musa müəllim! Kabinetinə girənin bağrı yarılır, deyirlər, gülməyin yox, zarafatın yox, ağır adamsan. İnanıram, qardaş, elə o vaxtdan ağır idin. Amma orası heç, orasına yenə bir təhər dözmək olardı, hələ bir de görüm niyə o cür ağlayırdın? Qabaqda ki, belə gözəl günlərin varmış, o ağlamağın nə idi?..

Kiritdikcə kirimirdin.

- Ağlama! - deyirdim, - Qurban olum, qaqaş, ağlama!..

Deyirdim, deyirdim, başlayırdım ağlamağa. O dəqiqə kiriyirdin.

Pəəh, hələ əməlli-başlı dil açmamışdın, amma dilini tapmışdım; elə sən belimdə qurcalanan kimi başlayırdım ağlamağa. Mən ağlayırdım, sən ağlamırdın. Səninki məni ağlatmağımış. Çox ağlatmısan məni, qardaş, çox ağlatmısan!..

Böyüdün, ayaq açdın, şələni belimdən açdılar, düşdüm dalınca: orda Musa, burda Musa. Ağaca kim dırmaşdı? Musa! Yamaca kim qaçdı? Musa!

Ağlayırdım:

- Dayan! - deyirdim, - Qurban olum, qaqaş, dayan!..

Ay dayandı ha! Musa hanı? Qaçdı-getdi... O gedəndi gedirsən, hələ də dayanmamısan. Get-get, görüm haracan gedəcəksən?!

Məktəbə getdin, məni məktəbdən qaytardılar.

- Evdə-eşikdə işləsin, - dedilər, - onsuz da bundan oxuyub bir yana çıxan olmayacaq. Qoy Musa oxusun, Musa fərasətli uşaqdı.

Fərasətli uşaq idin, qardaş, ona sözüm yoxdu. Fərasətin orasındaydı ki, uşaq idin. Aramızda nə vardı ki? Bir il, iki il. Amma sən uşaq idin, mən yox. Hər şey yadıma gəlir, anadan olandan bu günəcən nə olub, hamısı yadımdadı, lap ana-

mın döşündən necə süd əmməyim də yadıma gəlir, təkcə uşaq olmağım yadıma gəlmir, qardaş, heeç yadıma gəlmir.

Amma sən uşaq idin...

O aclıq ilində, - davadan qabağı deyirəm, çox qabağı deyirəm, quraqlıq ki olmuşdu, taxıl ki yoxudu, bir gün gəldin evə, qoynun-qoltuğun taxılnan dolu. O gecə atamız bir boş kisə götürdü, getdi, sonra kürəyində o kisə, ağzınacan taxılnan dolu, hıqqına-hıqqına, əyilə-əyilə, gizlənə-gizlənə girdi içəri, kisəni aparıb evin bir küncündə, yükün dalında gizlətdi.

Sonra, qardaş, sabahısı gündümü, o birisi gündümü, orası yadımda deyil, sədr Şərif axşamüstü bizə baş çəkdi. Atamız evdə yoxudu, biçindəydi.

Sədr Şərifin hərdən-hərdən, atamız evdə olmayanda bizə o cürə baş çəkməyi olurdu. Gələrdi, evimizə, eyvanımıza baxardı, anamıza baxardı:

- Necəsən? - deyərdi, - Kişiynən aran necədi? Bir şeydən korluğun-zadın yoxdu ki?!..

Deyərdi, gülərdi, anamız da gülərdi. Eləcə dayanardılar, bir-birinə baxıb gülərdilər, sonra sədr Şərif gülə-gülə çıxıb gedərdi, anamız da evin ortasında dayanıb bir xeylək də öz-özünə gülərdi.

O axşamüstü də, eləcə dayanmışdılar, bir-birinə baxıb gülürdülər, atamız da biçindəydi, sən də bilmirəm hansı cəhənnəmdəydin, mən də evin bir küncündə yükə qısılıb durmuşdum; sədr Şərifnən anamız bir-birinə o cürə baxıb güləndə mənim həmişə qorxudan ağlamağım gəlirdi, ancaq ağlamağa da qorxurdum.

Birdən qapı açıldı, sən girdin içəri, sədr Şərifnən anamızın arasında çömbəldin, qoyun-qoltuğunu silkələdin, bir ətək taxıl töküldü. Bax onda, qardaş, anamızın ağappaq ağarmağı yadımdadı.

Sədr Şərif gülüşünü xırp kəsdi:

- Bu nədi?! - dedi.

Kimdən soruşdu? Səndən, məndən, anamdan?! Orasından baş açmadım. Amma anamız ağladı, orası yadımdadı.

Sonra sədr Şərif səni də götürdü, getdi.

Anamız evin ortasında dayanmışdı, ağlayırdı.

Mən yükə qısılıb durmuşdum, tir-tir əsirdim.

Taxıl dolu çuval da yükün dalındaydı.

Qorxurduq, qardaş, deyirdik bu saat sədr Şərif bütün kəndi bir-birinə vuracaq, hay-haray qopardacaq, dərimizə saman təpəcək.

Gecədən bir xeylək keçdi; nə sədr Şərif vardı, nə sən.

Amma sakitlik idi.

Sonra sədr Şərif gəldi. Səssizcə, haysız-küysüz. Sən də qucağındaydın, yatmışdın. Girdi içəri, səni qoydu yerə, başını sığalladı:

- Fərasətli uşaqdı, - dedi, - kalxozun anbarı bir tərəfdən sökülübmüş. Yəqin yağışın-zadın işidi. Yaxşı ki, camaat duyuq düşməyib.

Yenə başını sığalladı:

- Maşallah, - dedi, - fərasətli uşaqdı.

Anamıza baxdı, güldü. Anamız da güldü. Eləcə, gah ağlayırdı, gah gülürdü.

Sədr Şərif gəldi yaxına, bir əliynən anamızı qucaqladı, dedi:

- Ağlama.

Anamız da ki, gah ağlayır, gah gülür.

Sədr Şərif də ki, "ağlama" deyib, qucaqlayır. Qucaqlayır, deyir "ağlama".

Mən də yükə qısılıb durmuşam, tir-tir əsirəm. Bir yandan da ki, tər yuyub məni aparıb; o nə tər idi, Allah, o nə tər idi?!..

Sədr Şərif:

- Bu nə tərdi, - dedi, a gədə? Əridin, axdın, töküldün. Yazıqsan, bir çıx havaya, tərin soyusun...

Çıxdım, qapının ağzında oturdum; tər də ki, məndən axır, axır. Ağlamaq istəyirəm, ağlaya bilmirəm, gözümdə yaş qalmayıb, gözümün yaşı da tərə çıxıb axır, axır...

Hamısı o tərnən getdi, qardaş, boy-buxunum, yar-yaraşığım, oğlum-uşağım, hamısı o tərnən getdi. Canımda nə vardısa getdi, bir quruca qabığım qaldı; bu saat bütün dünya yığıla, sıxa, bir damcı suyum tökülməz!..

Amma o gecə, o qapının ağzında eləcə oturmuşdum, tər də ki, məndən axır, axır; üzüm-gözüm, boynum-boğazım od tutub yanır. Əlimi sürtürəm, elə bil üz-gözümə darı səpiblər. Sızanaq dalınca sızanaq çıxır. Heç nəyi görmürəm, yeri-göyü tər basıb. Təkcə uzaqda görürəm ulduzlar qızarışır, göyün üzü də görürəm sızanaq-sızanaqdı.

Bax onda ayı gördüm; o nə ay idi mən gördüm, ilahi?! Ağappaq, tərtəmiz. Göyün üzündə dayanmışdı, baxırdı; düz gözümün içinə baxırdı, qardaş, düz ürəyimin içinə baxırdı...

Sədr Şərif çıxdı, köynəyinin yaxası açıq:

- Nə var, - dedi, a gədə, tərin hələ soyumayıb? Amma səndə də günah yoxdu, bala, istidi, vallah istidi!..

Dedi, güldü, köynəyinin yaxasını düymələdi, getdi.

Mən də ki oturmuşam, aya baxıram; tər də ki, məndən axır, axır...

Anamız çıxdı:

- Nə var, - dedi, a gədə, tərin hələ soyumayıb?!

Dedi, ağladı, - şarap, - qulağımın dibindən bir şapalaq tutuzdurdu, girdi evə.

O şapalağın ağrısını bilmədim. Təkcə göydəki ayın diksinməyini gördüm, təkcə o ayın üzündəki ləkəni gördüm. Yoox, ləkə deyildi, qardaş, mənim üzümə dəyən o şapalağın yeriydi.

O vaxtdan bu dünyada bildiyim bir şey var; o ayın üzü mənim üzümdü...

***

Növbətçi İsa başını qaldırıb aya baxdı; axı bu ayın günahı nə idi?!

Maşın düzəldiblər, dedilər, aya uçurlar. Bu haqq-hesabda Musa müəllimin də barmağı var, dedilər. Bəəh, Musa müəllim! Uzat o barmağını, qardaş, gözümü çıxart, ancaq o aynan işin olmasın, o aya dəyib-toxunma!..

Növbətçi İsa birdən diksinib gözünü qırpdı, sonra gözlərini gen-gen açıb təzədən aya baxdı; ayın oraq vaxtıydı və o orağın lap böyründə bir ulduz görünürdü. Böyründə nədi, o ulduz lap o orağın tiyəsinə dirsəklənib durmuşdu, o aynan ulduz qolboyunudu.

...Dayan, dayan, o kitabda necə yazmışdın, qardaş? Bir qəşəng kitab idi, üstündə ay şəkli çəkmişdilər, lap yuxarıda da sənin adını yazmışdılar. Öz adını aydan yuxarı çıxartmışdın. Həə, o kitabda yazmışdın ki, aya günün kölgəsi düşür...

Deməli, bu saat bu aya günün kölgəsi düşüb. O oraq ki görünür, bu ayın kölgə düşməyən tərəfidi. Bəs onda o ulduz nədi, atam balası? O orağın lap altında, o orağa dirsəklənib dayanan o ulduz nədi?!..

Növbətçi İsa fikrində o orağın uclarını uzadıb bir-birinə calayırdı, o ayın halqasını tamamlayırdı; o ulduz düz o halqanın ortasında qalırdı. Növbətçi İsa o halqanı lap daraldırdı, lap kiçildirdi, amma o ulduz yenə o halqanın ortasındaydı.

Bu nə möcüzəydi, Allah?!.

Axı bu aya günün kölgəsi düşürdüsə, deməli bu ayın kölgə düşən tərəfi öz-özlüyündə vardı, görünməsə də vardı və əgər bu ayın kölgə düşən tərəfi vardısa, onda gərək bu ulduz o ayın arxasında qalıb görünməyəydi.

Belə, qardaş, belə!..

Sən demə, o kitabında yazılanların hamısı yalanmış!..

Amma az qala ürəyimi sındırmışdın; yerdən, göydən, ulduzdan, aydan...

Bu gecə hamısının acığını səndən çıxaram. Heç nə eləmərəm, qardaş, tək bircə söz deyərəm, yoldan qalarsan. Bir söz deyərəm, ağır olar, yüz paravoz qoşula çəkə bilməz!..

Növbətçi İsa eləcə aya baxa-baxa gedirdi və lap yaxından o gələn qatarın tıqqıltısı eşidilirdi.

Növbətçi İsa stansiyaya o qatarnan bir vaxtda çatdı; Musa müəllim yəqin ki, yumşaq vaqonda olmalıydı.

Növbətçi İsa pəncərəni taqqıldatdı, yavaşcadan:

- Musa... - dedi.

Səs gəlmədi.

O biri pəncərəni taqqıldatdı:

- Musa!..

Yenə səs gəlmədi.

Üçüncü pəncərəni taqqıldatdı:

- Musa müəllim!..

Yenə səs yox idi.

Qatar tərpəndi, növbətçi İsa pəncərələri taqqıldada-taqqıldada o qatarın böyrüncə qaçırdı:

- Musa!.. Musa müəllim!.. Musaa!..

O qatar növbətçi İsanı ötdü, keçdi, növbətçi İsanın səsi o qatarın taqqıltısına qarışdı; qatar gedirdi, təkərlər taqqıldayırdı, növbətçi İsa dayanmışdı, o qatarın dalınca ağlayırdı:

- Dayan! - deyirdi, - Qurban olum, qaqaş, dayan!..

***

...Gecənin elə bir aləmiydi ki, bütün kənddə yəqin bircə nəfər də oyaq adam tapılmazdı; ən gec yuxuya gedənlər də yatmışdılar, ən tez yuxudan duranlar da hələ oyanmamışdılar.

Növbətçi İsa kəndin içiynən ayaqlarını sürüyə-sürüyə evinə qayıdırdı.

Qəfil böyürdən öskürək səsi eşitdi, dayandı; bu gecə vaxtı kim ola?

Çərkəz kişi öz qapısının ağzında, daşın üstündə oturmuşdu, barmağıynan papirosunu yumşaldırdı, hələ yandırmamışdı.

Növbətçi İsa:

- Bu gecə vaxtı xeyir ola? - dedi.

Çərkəz kişi:

- Heç əşşi, - dedi, - yatmışdım, burnuma yanığ iyisi dəydi, durdum.

Sağı-solu iylədi, üzünü tutdu növbətçi İsaya:

- Hım?! - elədi.

Növbətçi İsa da yan-yörəni qoxuladı; amma kişinin sözünü qəribliyə salma, yanıq iyi doğrudan da gəlirdi, özü də, qınayan olmasa, dəyərdin ki, o yanıq iyi lap yuxarıdan, göyün ətəyindən gəlir.

Növbətçi İsa özündən ixtiyarsız başını qaldırıb göyə baxdı; lap yuxarıda bir təyyarə uçurdu, işığı yanıb-sönürdü.

Çərkəz kişi də başını qaldırıb göyə tamaşa elədi:

- Bəh-bəh-bəh! Ay gözünə dönüm, gör nə uçur. Belə zəmanədən kim inciyər, qardaş, adamı quş eləyib qaldırıb göyə...

Növbətçi İsa dinmədi.

Çərkəz kişi o təyyarəyə baxa-baxa gözlərini qıydı, elə bil fikrində nəyisə hesablayırdı. Birdən çevrildi növbətçi İsaya sarı:

- Sən bilən, indi Musa müəllim Amerikaya çatar, ya yox?

Növbətçi İsa gözünü təyyarədən çəkdi, amma yenə dinmədi.

Çərkəz kişi gözlərini bir az da qıydı:

- Sən bilən, indi Amerikada günün hansı vaxtı olar?

Növbətçi İsa:

- Səhərdi. - dedi.

Elə-belə, ağzına gələni dedi ki, bu sarsaq sorğu-sualdan canını qurtarsın. Eynən elə o cür "axşamdı" da deyə bilərdi. Çevrildi ki, getsin, Çərkəz kişi yenə dilləndi:

- Sən bilən, indi o Amerikada hansı günün səhəridi? Bu günkü günün səhəridi, ya sabahkı günün?..

Növbətçi İsa dönüb ehtiyatnan Çərkəz kişinin gözünün içinə baxdı. Çərkəz kişi eləcə, gözlərini qıyıb dayanmışdı, cavab gözləyirdi.

Və növbətçi İsa:

- Dünənki günün səhəridi. - dedi.

Çərkəz kişi:

- Bəəlii!.. - dedi, - Deməli, bu gecə ki var, içində bu dəqiqə biz oturmuşuq, bu gecə Amerikaya hələ sabah gedib çıxacaq da?!.

Növbətçi İsa bir az fikirləşib:

- Elədi. - dedi.

- Deməli, bu dəqiqə bir yaxşı samalyota minib uçsaq Amerikaya, bu gecəni sabah gedib orda haxlaya bilərik də?

Növbətçi İsa bir az fikirləşib:

- Elədi. - dedi.

- Çox gözəl! Tutalım ki, samalyotnan getmişik, həmin bu gecəni sabah Amerikada haxlamışıq, oturmuşuq içində. Yaxşı, bəs onda Amerikaya baxanda yenə bu dünyada bir elə ölkə olarmı ki, orda hələ dünənki günün səhəri olsun?

Növbətçi İsa yenə fikirləşdi, dedi:

- Olar.

- Deməli, sabah Amerikadan da bir samalyota minib həmin ölkəyə uçsaq, bu gecəni həmin ölkədə gedib yenə haxlaya bilərik də?

Növbətçi İsa bu dəfə bir az çox fikirləşdi, amma axırda yenə:

- Hə. - dedi.

Və birdən Çərkəz kişi səsini qaldırdı:

Onda belə çıxır ki, bir yaxşı samalyotumuz olsa, elə ömürbillah bu gecəni qovub-qovub heç əldən buraxmarıq ki... Elə deyil?!

Növbətçi İsa dinmədi.

- ...deməli, ölüncə elə bu gecənin içində qalarıq da?!.

Və növbətçi İsa diksindi, qorxa-qorxa Çərkəz kişinin üzünə baxdı.

Çərkəz kişi bəlkə də bayaqdan özüyçün çərənçilik eləyirdi, amma növbətçi İsa Çərkəz kişinin gözündə də nəsə qorxuya oxşayan bir şey gördü və yavaşcadan, lap yavaşcadan:

- Yat, - dedi, - a kişi... Yat...

Çevrildi, getdi.

Çərkəz kişi yatdı, yatmadı, orasından növbətçi İsanın xəbəri olmadı.

Növbətçi İsa göyə baxa-baxa gedirdi.

...İlahi, bu insan niyə naşükürlük eləyir?! Nə yaxşı ki, hər gecənin bir səhəri var; bir azdan gün çıxacaq, dünya üzü işıqlanacaq. İşığına qurban olum, ilahi!..

Növbətçi İsa ləzzətnən, ciyər dolusu nəfəs aldı.

...Amma o yanıq iyisi doğrudan da gəlirdi; o yanıq iyisi lap yuxarıdan, göyün ortasından, o ayla ulduzun qolboyun olduğu yerdən gəlirdi. Kim bilir, bəlkə də o ulduz o ayın görünməyən tərəfini yandırıb, deşib çıxmışdı...

1975

DAŞ
(povest)

Müslüm kişi həyətdə daş yonurdu.

Arvadı evin qabağında, pəncərənin altında döşəkcə qoyub oturmuşdu, kürəyini söykəmişdi divara, baxırdı. Baxdı, baxdı, birdən lap yavaşcadan pıçıldadı:

- Ölürəm... - dedi.

Müslüm kişi eşitdi, amma başını qaldırmadı. Çünki belə sözü arvadından çox eşitmişdi. Dedi:

- Axmaq-axmaq danışma!..

- Vallah, ölürəm...

Müslüm kişi yenə başını qaldırmadı. Çünki bilirdi ki, arvadı indi ağlayacaq. Neçə il idi ki, o zəhrimar naxoşluq bu arvadı tapandan Müslüm kişinin günü beləydi.

Ancaq arvad ağlamadı.

Müslüm kişi yenə başıaşağı daşı yonurdu, amma qulağı səsdəydi, gözləyirdi.

Arvad ağlamırdı.

Birdən Müslüm kişinin ürəyinə nə damdısa başının tükü biz-biz oldu, ancaq yenə başını qaldırmadı. Çünki arvadına sarı baxmağa qorxurdu. Niyə qorxurdu, - orasını fikirləşməyə də ürək eləmirdi.

Müslüm kişi hələ yer üzündə heç bir daşı belə canfəşanlıqla yonmamışdı. Yonurdu, barmağını sürtüb tumarlayırdı, tumarlayıb üz-gözünü turşudurdu. Guya ki, çopur tapmışdı. Yenə yonurdu.

Yondu-yondu, daş lap yastılandı, Müslüm kişi gördü bir az da yonsa, bu daşın zayı çıxacaq, əlini daşdan çəkdi və başını qaldırıb qorxa-qorxa arvadına baxdı.

Arvadı pəncərənin altında oturmuşdu, baxırdı.

Müslüm kişidən hıçqırığa oxşayan bir səs çıxdı; nə gülmək kimi gülməkdi, nə ağlamaq kimi ağlamaq. Birdən bütün bədəni boşaldı. Yonduğu o yastı daşın üstündə oturdu, gözünü zillədi arvadının gözünə. Baxdı, baxdı, deyəsən bir şirin söz demək istəyirdi, ancaq diksinib susdu.

Arvadı ölmüşdü.

Eləcə, pəncərənin altında oturmuşdu, kürəyini söykəmişdi divara, baxırdı, amma heç nə görmürdü, ölmüşdü.

Pəncərənin sağından, solundan, divarla üzüyuxarı bir cüt tənək dırmaşmışdı. Yuxarıda, pəncərənin üstündə qolboyun olub sarmaşmışdılar. Yaşıl-yaşıl yarpaqların arasından qapqara salxımlar sallanırdı. Bir balaca sərçə də qonmuşdu, üzümləri dimdikləyirdi.

...Bu ilin üzümü heç!.. Bu ilin üzümü getdi!..

Quşlar dənləyəcək, uşaqlar talayacaq, mürəbbəsi bişməyəcək, çaxırı çəkilməyəcək!..

Hamısı da bu arvadın ucbatındandı.

İlahi, yəni doğrudanmı bu arvad elə bu gün öldü?!

Yox, bu arvad lap çoxdan ölmüşdü. Neçə il idi ki, canını tapşırmışdı, ancaq özünün xəbəri yox idi; yeriyirdi, yeyirdi, yatırdı.

Bu arvadın ölməyini təkcə Müslüm kişi bilirdi. Neçə il idi ki, bilirdi, ancaq açıb deməyə ürək eləmirdi. Eləcə yeriyirdilər, yeyirdilər, yatırdılar.

...İlahi, yoxsa bu arvad özü də, axır ki, ölməyindən xəbər tutdu, adam kimi canını tapşırdı, getdi?!

Bəs bu arvadın ölməyini onun özünə kim dedi, kim xəbər verdi?!

...Hamısını o bapbalaca sərçə elədi.

Gəldi, qondu, düz bu arvadın başının üstündəki salxımı dimdiklədi, onu heç vecinə də almadı. Çünki bu arvadın ölməyini o sərçə də bilirdi. Bunu neçə il idi ki, bütün sərçələr bilirdilər. Ancaq o sərçələr də Müslüm kişi kimi illər uzunu bunu bu arvada bildirməyə ürək eləməmişdilər, bu arvadı görəndə hürkmüşdülər, qaçmışdılar.

...Axır ki, bu dünyada bir ürəkli sərçə tapıldı!..

Günortaydı. Müslüm kişinin peysərini gün yandırırdı. O günün işığı düz arvadının açıq gözlərinə düşürdü. Müslüm kişi baxırdı, ürəyi darıxırdı; elə bil ki, o işığın bu arvadın gözlərinə düşməyində nəsə bir günah iş vardı və Müslüm kişi bu dəqiqə bu arvadın da, o işığın da qabağında günahkar idi.

Müslüm kişi özündən xəbərsiz ayağa durdu, pəncərəyə sarı addımladı.

Tənəkdəki sərçə hürkdü, uçub getdi.

Və birdən elə bil ki, arvadının kirpikləri tərpəndi... Vallah, tərpəndi!

Müslüm kişi irəli atıldı, iki əlini də birdən uzadıb arvadının gözlərini bərk-bərk yumdu.

...Qurtardı!..

Kərəminə şükür, Allah, deyəsən qurtardı.

Səninki də buracanmış, arvad, öldün, canın dincəldi...

Ancaq bu arvaddan da çox Müslüm kişinin öz canı dincəlmişdi, bütün dünyanın canı dincəlmişdi.

Müslüm kişi dayanmışdı, arvadının sifətinə baxırdı; o sifət elə bil get-gedə büzüşürdü, daralırdı, balacalaşırdı və o sifət o cürə büzüşdükcə, daraldıqca, balacalaşdıqca, elə bil ki, yavaş-yavaş dünyanın havası çoxalırdı, işığı artırdı, ağacın, yarpağın rəngi-rufu açılırdı, otun-çiçəyin ətri, qoxusu dörd bir yanı bürüyürdü. Bu arvad dünyadan aldıqla-

rını geri qaytarırdı və dünya göz görə-görə cana gəlirdi, ətə-qana dolurdu.

Bu arvad bu dünyanın başına nə oyun gətirmişdi, ilahi?!

Bir adam bu dünyadan nə qədər şey ala bilərmiş?!..

...Yoox, arvad, sən bu dünyadan heç vaxt bir adamın payına düşəni almamışdın. Bu dünyanı soymuşdun, talamışdın, işığını, havasını, ətrini, qoxusunu canına çəkdikcə çəkmişdin, doydum deməmişdin. O naxoşluğun da yəqin elə acgözlüyündən idi. Yoxsa noolmuşdu ki, durduğun yerdə bütün bədənin şişirdi; sifətin, dodaqların, qolların, ayaqların şişirdi, damarların şişib zol-zol dayanırdı.

Qara qandı, deyirdilər, mundar qandı...

Eləcə, illər boyu bu dünyanın işığını, havasını, ətrini, qoxusunu - hamısını canına çəkib mundarladın, naxoş qana döndərdin, qara qana döndərdin. Mən yazıq da düşdüm çöllərə, lilli-lilli gölməçələrdən zəli yığdım, gətirdim. O zəliləri dodaqlarına, qollarına, ayaqlarına qoydular. O zəlilər gecəbəgündüz o qara qanı sordular, sümürdülər, top kimi şişənəcən, ağızları öz-özünə açılanacan, qopub düşənəcən, ölənəcən sümürdülər!..

O zəlilərin o qanı necə sümürdüklərini Müslüm kişi gecələr yuxusunda da eşidirdi.

Doğrudu, Müslüm kişi həmişə yerini arvadından ayrı salırdı, ancaq arvadı deyəsən yenə hərdənbir yanına girirdi. O arvad haçan gəlirdi, haçan gedirdi, - Müslüm kişi xəbər tutmurdu. Amma səhərlər oyananda gah yastığın üstündə, gah yerin içində heysiz-hərəkətsiz düşüb qalan, içi qanla dolu yupyumru, qapqara zəlilər tapırdı, aparıb həyətdə basdırırdı, üstünü torpaqlayırdı. Ancaq toyuqlar yenə hərdənbir eşələyib o zəliləri çıxarırdılar, dimdikləyib azara düşürdülər, mundar olurdular və Müslüm kişi həyəti qazıb o toyuqları da o zəlilərin böyründə basdırırdı.

...Qurtardı!..

Kərəminə şükür, Allah, deyəsən qurtardı.

Həyətdəki toyuqlar da elə bil nəsə başa düşmüşdülər, sevinə-sevinə, qaqqıldaşa-qaqqıldaşa o baş-bu başa gəzirdilər.

Nə qədər ki, bu arvadın ölməyini hələ heç kəs bilmirdi, camaata hay düşməmişdi, bu toyuqları hinə salmaq məsləhət idi. Yoxsa bir azdan camaat tökülüşüb gələcəkdi, bu həyətdə it yiyəsini tanımayacaqdı, - ondan sonra axtar görüm bu toyuqlardan neçəsini tapacaqsan!..

Ancaq Müslüm kişi bu dəkkədə, bu arvadı burda belə qoyub o toyuqları hinə salmağa ürək eləmirdi, utanırdı. Kimdən utanırdı, niyə utanırdı, özü də bilmirdi, - eləcə dayanmışdı, gözaltı bir o toyuqlara baxırdı, bir arvadının yumulu gözlərinə... və utanırdı.

Yox, vallah, Müslüm kişi o toyuqları hinə salmaq istəmirdi. Qoy lap hamısını oğurlasınlar!.. Toyuqlu-cücəli kim istəyir vursun qoltuğuna, aparsın, yesin, yumurtasından qayğanaq eləsin!..

...O çil-çil fərə deyəsən axı yumurtdamaq istəyir. Ora bax, sən Allah, yerişinə bax...

Yox, vallah-billah, bu dəqiqə Müslüm kişinin yadına yumurta-zad düşmürdü, o toyuqları hinə salmaq da ürəyindən keçmirdi.

Ancaq o toyuqlar niyə elə bərkdən qaqqıldaşırdılar?

Bu yazıq arvada niyə dinclik vermirdilər?!

Günah idi, vallah o toyuqları o cürə başlı-başına qoymaq günah idi. Bu arvad bu dünyada az zülüm çəkməyib, heç olmasa o dünyada qulağı dincəlsin.

- ...Ha kiş!.. ha kiş!..

Müslüm kişi həyətin o başından-bu başından toyuqları bir-bir qovub hinə salırdı.

...Yox, balam, bu çil-çil fərəni yumurtdamaq lap qarıxdırıb. Ode, hasarın dibində oturdu... Qoy otursun, onsuz da səsini çıxartmır...

Həyət iriydi, toyuq çoxuydu. O toyuqları hinə yığanacan Müslüm kişi bütün həyəti bir-birinə vurdu, əldən-ayaqdan düşdü, yoruldu, töyşüdü, üz-gözünün tərini sildi, gözünün içinə toz getdi, ağrıtdı. Əlləri tamam toz içindəydi. Yonduğu həmin o daşın tozuydu. Bayaq arvadının gözlərini yumanda, bu arvadın gözlərinə də bəlkə o tozdan getmişdi, ağrıtmışdı; Müslüm kişi bu arvadı öləndən sonra da ağrıtmışdı.

...Günahımdan keç, arvad, günahımdan keç!..

Yoox, Müslüm kişinin günahı yox idi, günah hamısı o daşdaydı; yonduqca yonulurdu, tozu dünyanı götürmüşdü.

Axı o daşı yonmaq Müslüm kişinin nəyinə lazımıydı? Eləcə, bir qalaq daşdı, neçə vaxtdı hasarın dibində üst-üstə yığılıb qalmışdı, bu səhər birini götürdü, gətirdi, başladı yonmağa.

...Amma bu hasarı bir daş da qaldırmaq pis olmazdı, vallah, pis olmazdı...

Ancaq bir Allah şahiddi ki, bayaq o daşı yonanda, bu hasar heç onun yadına da düşmürdü, o daşı elə-belə, darıxdığından yonurdu.

Müslüm kişi gözünün ucuynan bayaq yonduğu həmin o daşa baxdı; daş lap incəlib yastılanmışdı, heç hasara hörüləsi halı qalmamışdı.

...Heyif o daşdan, zay oldu getdi!..

Amma yox, o daş yenə nəsə bir şeyə oxşayırdı.

Nəyə oxşayırdı, Allah, nəyə oxşayırdı?!

Müslüm kişi diksindi, əti ürpəşdi.

...Başdaşıydı, əməlli-başlı, yamyastı başdaşıydı...

Müslüm kişi indiyənəcən bu kənddə rəhmətə gedənlərdən ötrü neçə-neçə bu cür başdaşı yonmuşdu. Yox, Müslüm kişi heç vaxt bu gözəlliyində başdaşı yonmamışdı. Bu necə başdaşıydı, Allah, baxanda adamın tamahı düşürdü, ölməyi gəlirdi. Bəlkə o arvad da bu başdaşını görüb tamahlanmışdı, ölmüşdü.

Günahımdan keç, arvad, günahımdan keç!..

Yox, vallah, bu başdaşından Müslüm kişinin xəbəri yox idi. Bu başdaşını Müslüm kişinin əlləri elə-belə, özü özbaşına yonmuşdu. Tumarlaya-tumarlaya, sığallaya-sığallaya yonmuşdu. Nə vaxtsa, neçə-neçə illər bundan qabaq Müslüm kişinin əlləri eynən elə bu cür, özü özbaşına bu arvadın dizlərini, ayaqlarını tumarlamışdı, sığallamışdı. Onda bu arvad hələ Müslüm kişinin arvadı deyildi, onda bu arvad hələ heç arvad da deyildi, bir sütülcə qızdı, Müslüm kişinin əmisi qızıydı...

***

...Əmi də ki, nə əmi!..

Ağlın kəsən gündən görəsən nə atan var, nə anan. Tək bircə əmin var. Ağzın onun ağzına oxşayır, burnun burnuna.

- İlahi, - deyəsən, - nə yaxşı ki, əmim var, əmimə qurban olum!

Qurban ol, bala, qurban ol!..

- ...Ay arvad, o baltanı bəri elə, odun qaldı!..

- ...A gədə, a Müslüm, hardasan? Adın qalsın, odun qaldı!..

Bir balaca komanı qışdan çıxartmağa nə qədər odun lazım olarmış?

O necə odun doğramaqdı, ilahi?!..

- ...O necə odun doğramaqdı, a gədə, yoxsa yazığın gəlir?! Baltanı cəllad kimi vur, cəllad kimi! Ay belə ha!..

Əmisi baxırdı. Balta yenirdi, qalxırdı. Balta ağırıydı, hər dəfə o baltanı qaldırıb-yendirəndə Müslümün qolları xırçıldayırdı. Deyirdin, bu saat çiyinlərindən qopacaq.

Bir dəfə, beş dəfə; on beş dəfə...

Sonra Müslümün qolları yavaş-yavaş keyiyirdi. Müslüm öz qollarını hiss eləmirdi. O balta özü qalxırdı, yenirdi, Müslümün qollarını da özüynən bir yerdə qaldırırdı, yendirirdi, - yoox, day o qollar da Müslümünkü deyildi, o baltanın özününküydü.

...Ancaq gecələr yorğan-döşəyə girəndə o bir cüt qol yenə Müslümünkü olurdu, ağrıyırdı, göynəyirdi, sızıldayırdı.

Yorğan-döşəyi yerdən salırdılar. Ocağın qırağında əmisi yatırdı. Bir az bu tərəfdə əmisi arvadıynan əmisi qızı yatırdılar. Müslümün yeri lap bu tərəfdə, qapının ağzındaydı.

Bayırda külək əsirdi, vıyıldayırdı. İçəridə ocaq yanırdı, çatıldayırdı. Burda, qapının ağzında Müslüm yazığı tər yuyub aparırdı. Bəs orda, ocağın qırağında əmisi nə təhər yatırdı? Yatmaq var, yatmaq var, yorğana elə bürünürdü ki, heç burnu da görünmürdü, təkcə xorultusu gəlirdi.

Ocağın böyründə həmişə bir qalaq odun olurdu.

Əmisi gecələr, yuxunun içində hərdən-hərdən əlini yorğanın altından uzadıb bir parça odun götürürdü, atırdı ocağa və hər dəfə əmisi ocağa odun atanda Müslümün qulağına ordan, yorğanın altından ağlamaq səsi gəlirdi. Əmisi yuxuda ağlaya-ağlaya mızıldanırdı, nəsə deyirdi. Müslüm qorxa-qorxa bir o yorğana baxırdı, bir əmisinin yorğandan bayıra çıxan əlinə. Sonra o əl yavaş-yavaş çəkilib yorğanın altına girirdi, əmisinin ağzını yumurdu, ya nəydisə, - o dəqiqə ağlamağı kəsilirdi, xorultusu yenə bütün evi alırdı başına.

...Ev deyildi. Hamam idi...

İstidən, tərdən Müslüm yazığın əllərinin qabarı, sıznağı od tutub yanırdı, pörşələnirdi. Müslüm əllərini üfürür-

dü. Hər sızнağı, qabarı ayrıca üfürürdü, kar eləmirdi; nəfəsi də isinmişdi, ağırlaşmışdı.

Qapının dalında külək əsirdi, vıyıldayırdı. Müslüm əllərini qaldırıb qapının qabağına tuturdu. Kaş bu qapıda bir dəlmə-deşik olaydı, bir azca külək gələydi, Müslüm yazığın əlləri sərinləyəydi, rahatlanaydı.

Amma dəlmə-deşik nə gəzirdi? Bu qapının yanında qala qapısı da yalandı.

...Yat, bala, yat, o küləyi yuxunda görərsən!..

Hamısı yatırdı; əmisi də, əmisinin arvadı da, qızı da. Bu isti heç birisinin vecinə deyildi. Amma yox, ode, əmisi qızı yorğanı ayağıynan itələdi... Yazıq qız neyləsin, bu istidə bu cürə yorğana bürünüb yatmaqmı olar?!..

Əmisi qızı gecələr həmişə paltarlı yatırdı. İsti qarıxdırırdı, yuxuda o qədər qurcalanırdı ki, donu lap yuxarı qalxırdı... Yazıq qız neyləsin, bu istidə adamın əlacı olsa, dərisini də çıxardar!..

Ancaq o qızın o cür üstüaçıq yatmağı günah idi.

Doğrudu, Müslüm özgəsi deyildi, amma necə olsa kişi xeylağıydı.

...Yox, vallah, o qızın üstünü örtmək lazımdı...

Ancaq adamın əli də gəlmir, yazıqdı, qoy bir az sərinləsin. Bir də ki, hələ nə yaşı var, uşaqdı.

...Harası uşaqdı, ay uşaq, harası uşaqdı?!..

Gündüzlər əmisi qızı doğrudan da uşaq olurdu; su daşıyırdı, keçi sağırdı, tövlə təmizləyirdi. Bu qızın əlləri, ayaqları necəydi, qəşəngiydimi, kifiriydimi, Müslüm bilmirdi. Kənddəki bütün qızların əllərindən, ayaqlarından Müslümün xəbəri vardı, bircə bu qızdan savayı. Bu qız əlləriynən, ayaqlarıynan bir yerdə Müslümün əmisi qızıydı, qeyrətiydi, namusuydu.

Ancaq gecələr ocağın işığında ağaran o bir cüt çılpaq ayağın Müslümün əmisi qızına heç bir dəxli-zadı yox idi.

Bu qızın ayaqları bu dəqiqə yuxusunda da ora-bura çapırdı, iş dalınca, buyruq dalınca qaçırdı, ilişirdi, yıxılırdı, dizi əzilirdi, dabanı çatdayırdı.

...Yoox, bu qızın dünyasında bu toxluqda, bu rahatlıqda ayaqları ola bilməzdi...

Şeytan səni yoldan çıxardır, ay uşaq, lənət şeytana de!

Lənət şeytana!..

Yox, vallah, bu qızın üstünü örtmək lazımdı...

Müslüm elə uzandığı yerdən əlini uzadırdı, yorğanı əmisi qızının üstünə çəkirdi, ancaq yorğanın altındakı o bir cüt ayaqdan əlini çəkə bilmirdi.

İlahi, birdən bu qız oyansaydı, Müslümün əlini öz ayaqlarında görsəydi, neylərdi?..

Dəli olardı, vallah, dəli olardı!..

Dəli özünsən, a dəli, bir o qıza yaxşı bax, nə bilirsən yatıb?!

...Yoox, yatıb! Vallah yatıb!..

Hamısı yatırdı; əmisi də, əmisinin arvadı da, qızı da. İçəridə ocaq yanırdı, çatıldayırdı. Əmisi yuxunun içində yenə hərdən-hərdən əlini yorğanın altından uzadıb bir parça odun götürürdü, atırdı ocağa və hər dəfə ocağa odun atanda yenə yuxuda ağlaya-ağlaya mızıldanırdı, nəsə deyirdi.

- Sümüyüm isinmir, qardaş! - deyirdi.

- Qardaş, - deyirdi, - sümüyüm isinmir!..

- Sümüyüm isinmir, qardaş, sümüyüm isinmir!..

Nə qardaş?!

Hansı qardaş?!

Əmisinin qardaşı nə gəzirdi?!

Əmisinin qardaşı vardısa, onda deməli Müslümün atası da olmalıydı...

***

"...Ay belə ha!.. Düz tapmısan, bala, düz tapmısan!.. Səndə də hövsələ var, a gədə, elə bil göydən düşmüsən. Heç soruşmursan ay əmi, atam kimdi, anam kimdi? Sağdılarsa hardadılar, ölüblərsə qəbirləri hanı?!

Bilmirəm, bala, bilmirəm.

Bəlkə sağdılar, bəlkə ölüblər, - orasını bilmirəm. Bildiyimi bilirəm, bala, bilmədiyimdən xəbərim yoxdu.

Anan heç, onu soruşma, anan arvad idi, arvaddan danışmaq biqeyrətlikdi.

O ki qaldı atana, atan kişiydi, bala, kişiydi!

Bu kəndin itindən-pişiyindən, qarğasından, qurbağasından da soruşsan, deyər kişiydi!..

Kişiydi, bala, amma adam deyildi.

Sənin atanıydı, mənim atamın balasıydı, amma adam deyildi, canavar idi...

Hələ bir de görüm canavar görmüsən, ya yox?..

Görmüsən, nə vaxt görmüsən? Qışda görmüsən, harda görmüsən? Çöldə görmüsən, necə görmüsən? Dayanmışdı deyirsən, baxırdı, sonra neynədi? Çıxdı getdi deyirsən, səni görmədi?

Yoox, o baxan canavar deyilmiş, it imiş!..

İtin gözü baxar, bala, canavarın gözü görər. Baxmaq hələ görmək deyil, a gədə, canavarın baxmağa vaxtı nə gəzir, canavar gərək baxmamış görə!.. Nəyi ki görmək lazımdı, görə, nəyi ki lazım deyil, görməyə. Canavar başlasa baxmağa, ac qalar, acından ölər!..

...Bəh, canavar qardaş, bir o quzuya bax, sən Allah, nə qəşəng quzudu!..

Bəs o quzunun böyründəki nədi? Deyəsən itə oxşayır axı!

Bəs o itin böyründəki nədi? Deyəsən çobana oxşayır axı!..

Bəs o çobanın böyründəki nədi? Deyəsən çomağa oxşayır axı!..

Dayan görüm, əşi, çomaq nədi, zad nədi. Görmürsən tüfəngdi, vallah-billah tüfəngdi!.. Yoox, canavar qardaş, o quzu heç, o quzuya yaxın düşmək axmaqlıqdı, o quzunun xatası var.

Bu dünyada xatasız quzu yoxdu, a gədə, canavar başlasa baxmağa, ac qalar, acından ölər!..

...Quzunu gördü, atıldı, boğazladı, vurdu qoltuğuna, çıxdı aradan; qaç, canavar qardaş, qaç, asta qaçan namərddi!..

Bəs o nədi elə, dalımızca qaça-qaça gəlir? Deyəsən itə oxşayır axı!.. Bu quzunun böyründə sən demə iti də varmış, - bərk qaç, canavar qardaş, ay belə ha!.. Bu quzunun bir xatasından sovuşduq, bu quzunun əti bir az da dadlandı.

Bəs o nədi elə, qulağımızın dibindən vıyıldadı, - keçdi? Deyəsən, gülləyə oxşayır axı!.. Bu quzunun böyründə sən demə çobanı da varmış, - bir az da bərk qaç, canavar qardaş, ay belə ha!.. Bu quzunun bir xatasından da sovuşduq, bu quzunun əti lap dadlandı.

Quzunun xatası çoxaldıqca əti dadlanır, a gədə, xatasız quzunun nə ləzzəti?!

Bəəh, bu nə dadlı quzudu, Allah, ləzzətindən yemək olmur, - ye, canavar qardaş, ye!..

...Sənin atan canavar idi, bala, canavar idi!..

Heç nəyə baxmamışdı, hər şeyi görmüşdü. Bu kəndi çalmışdı, çapmışdı, talamışdı. Torpağın bərəkətlisini, ağacın barlısını, qızın qəşəngini - hamısını qamarlamışdı.

Allahı gətirir, deyirdilər. Yalan sözdü. Allahı bir onda gətirmişdi ki, Allahı yox idi.

Gözünü bərəltmə, a gədə, Allah yoxdu, orası düzdü. Qəzetdə də düz yazırlar, iclasda da düz deyirlər. Allah yoxdu, bala, amma adamın gərək Allahı ola.

Adamın gərək qorxusu ola, a gədə; otdan, ağacdan, küləkdən, yağışdan, baş ağrısından, qarın ağrısından - bir şeydən adamın qorxusu ola!.. Bir işi tutanda adam fikirləşə; bu mundar işi ki mən tuturam, birdən qarnım ağrıyar, özümü saxlaya bilmərəm, bir ayıb şey-zad eləyərəm, camaat içində xəcil olaram... O adam ki, mundar işi tutur, qarın ağrısından qorxmur, eləsinin yanından burnunu tut qaç, iyindən boğularsan!..

...Sənin atan tüpürmüşdü, bala, tüpürmüşdü.

Ota, ağaca, küləyə, yağışa, baş ağrısına, qarın ağrısına, - hər şeyə tüpürmüşdü!

Camaata tüpürmüşdü, bala, camaata tüpürmüşdü!..

Qudurasan qurbağa, durdu adam vurmağa, - qamçısı əlində, əli belində...

- ...Vurma, qardaş, yazığam! Qardaş, səni yazıq ilan vursun, vurma, yazığam.

- ...Bir loxma çörək ver, qardaş, acam! Qardaş, səni ac ilan vursun, acam.

Nə qardaş?!

Qardaşım deyildi, başımın ağasıydı. Qardaşı deyildim, ayağının tozuydum, qapısının nökəriydim, muzduruydum.

Pəəh, qardaş, atam balası, bu nə sirr idi? Bəylik almadın, xanlıq almadın, hardan ağa oldun, nə təhər ağa oldun?!

...Bir atamız vardı, cındırından cin hürkərdi. Bir tikə torpağı vardı, beş addım o yana, beş addım bu yana. Ortasında ağac əksən kölgəsi qırağa düşərdi. Əkmədi, bala, o ağacı atamız əkmədi, başına gün döyə-döyə öldü.

Öldü, bir tikə torpağı qaldı.

İki qardaş idik, bir tikə torpağımız vardı. Bir tikəni yarıya böləndə, hər adama nə düşər? Yarım tikə, - deyirsən, düz tapmadın, a gədə! Bir tikəni yarıya böləndə, hər adama yenə bir tikə düşür...

İki qardaş idik, adama bir tikə torpağımız vardı. Ortasında ağac əksən, kölgəsi qırağa düşərdi.

Əkdi, bala, o ağacı sənin atan əkdi!..

Öz torpağında bir ağac əkdi, kölgəsi mənim torpağıma düşdü.

Bir gün gəldim, gördüm əl-ayağın uzadıb, rahatca uzanıb torpağımda. Üzümə baxdı, hırıldadı. Nə deyə bilərdim axı? Öz ağacının kölgəsində uzanmışdı.

Sənin atan mənim torpağımı əlimdən belə aldı.

Aldı, mənim torpağımda da bir ağac əkdi, kölgəsi özgə torpağına düşdu. Onu da aldı.

Aldı, bir ağac da əkdi!

Eləcə, ağac dalınca ağac əkdi, onun-bunun torpağına kölgə sala-sala getdi, onun-bunun torpağını ala-ala getdi. Qudurdu, bala, qudurdu. Əkdiyi ağacın kölgəsi bəs eləmədi, silkələdi, meyvəsi haracan düşüb diyirləndisə, oracan mənimdi dedi.

...Çayın qırağındakı o bağı görürsən? O nə bağdı elə?

Kolxoz bağıdı?!

Ay sağ ol!

Kolxoz bağıdı, bala, yəni ki, hamımızın bağıdı. Amma vaxt vardı o bağın yiyəsi bircə sənin atanıydı. O bağı eləcə ağac-ağac salmışdı, onun-bunun hesabına qarış-qarış böyütmüşdü; bir qarış, beş qarış, on beş qarış, - bu torpağı! Bir ağac, beş ağac, on beş ağac, - bu bağı! Bir arvad, beş arvad, on beş arvad, - gözünü bərəltmə, a gədə, zarafat eləyirəm, arvadı bircə dənəydi, bircə sənin ananıydı, bir qəşəng qı-

zıydı, bir əmlik quzuydu... Tfu!.. Anan heç, onu soruşma, anan arvad idi, arvaddan danışmaq biqeyrətlikdi!..

Bir də ki, hələ uşaqsan, a gədə, nə bilirsən arvad nədi...

Anamız öləndə uşaq idik. Atamızın üzünə baxdı, ağladı:

- Ölürəm, a kişi, - dedi, - halal elə... Bəlkə pis arvad olmuşam, günahımdan keç!..

Atamız bilirsən nə dedi, bala?!

- Sən mənə arvad olmamısan. - dedi, - Yıxılı evimin dirəyi olmusan, suyu olmusan, çörəyi olmusan, arvad olmamısan!..

"Arvad olmamısan", - dedi, bala, anamız öləndə üzünə dedi.

Arvad gərək arvad ola, a gədə, dirək-mirək boş sözdü.

Yıxılı evi dirək saxlamaz. Get qucaqla o dirəyi görüm, nə ləzzət alacaqsan?!

...Sənin anan arvad idi, bala, arvad idi!

Gün vuranda üzü işıldayırdı, yel vuranda donu xışıldayırdı.

Adam üzünə baxmağa ürək eləmirdi. Üzünə baxmağa üzümüz nə gəzirdi? Gözümüzün içinəcən tük basmışdı, çirk basmışdı. Qorxurdun baxarsan, üzü çirklənər, üzü səpər, yara tökər!..

Sənin anan belə arvad idi...

Amma vaxt vardı çirkin, pasağın içində itib-batmışdı. Bir yetim qızdı, yuyanı yox, darayanı yox, qarnı ac, ayağı yalın, başıaçıq, saçı pırtlaşıq, gözü bulaşıq. İt üzünə tamah salmazdı.

İt tamah salmazdı, amma sənin atan tamah saldı. Çünki it deyildi, canavar idi!..

- Yetim qızdı, - dedilər, - xərci-borcu yox. Özünə arvad gətirib, evinə qulluqçu.

Özünə arvad gətirmişdi, bala, evinə qulluqçu gətirməmişdi. O yetim qızı gətirdi, evin yuxarı başına keçirtdi, evin xanımı elədi.

- Orda oturma, xanım, nəm olar!..

- Onu yemə, xanım, kal olar!..

- Qapını bağla, a gədə, xanıma soyuq dəyər!..

- A gədə, pəncərəni aç, xanıma istidi!..

Pəncərəni açdım, qapını bağladım, qaldım qapının dalında; nökər oldum, bala, öz atam yurdunda nökər oldum.

- ...Xanım, atam evinin gəlini, bir loxma çörək ver, acam!.. Ac gününü yadına sal, xanım, bir loxma çörək ver!

Xanım dediyin nədi, ac gün nədi, a gədə?!

Ac günü yadında nə gəzirdi? Tamam yadından çıxmışdı, yerli-dibli çıxmışdı, pəəh, ilahi, nə gözəl yadından çıxmışdı!

Çörəyi bilirsən necə yeyirdi? Bir tikə dişləyirdi, üz-gözünü turşudurdu, ovurdundan-ovurduna ötürürdü, çeynəməyə ərinirdi, elə bil o çörəyin boynuna minnət qoyurdu.

Acından qarnım quruldayırdı, bir tikə çörəkdən ötrü burnumun ucu göynəyirdi, ancaq baxırdım, xoşum gəlirdi. Çünki o çörəkdən elə bil mənim hayıfımı alırdılar. O çörək deyilən şeyi mən heç belə yazıq kökdə görməmişdim. O çörək deyilən şeyin qabağında həmişə biz özümüz yazıq olmuşduq.

...Uşaq idik, hər il qışağzı atamız bir kisə unu gətirərdi, yıxardı evin küncünə; bir o kisəyə baxardıq, bir özümüzə. Bir cüt qardaşıydıq, bala, bir atamızdı, bir anamız. O bir kisə un bizi gərək qışdan yaza çıxaraydı. Yalansa, onu siçan yesin. O kisədə o can nə gəzirdi? Yoox, o bir kisə unu biz gərək qışdan yaza çıxaraydıq; ölə-ölə, dirilə-dirilə, bir qarnı ac, bir qarnı tox. Ölmə eşşəyim, ölmə, yaz gələr, yonca bitər!

Allah kəssin o çörəyi ki, biz yeyirdik. Hər loxmanı dişləyəndə, bir gözümüz kisədəydi. Çünki hər loxma o kisədən gedirdi.

Bu dünyada iki cür çörək yemək var, bala. Bir var elə-belə, harda əlinə çörək düşdü yeyəsən, bir də var yediyin kisədən gedə.

O adam ki, elə-belə, harda əlinə çörək düşdü - yeyib, eləsinin canından aclıq qorxusu tez çıxar. Qarnı doyunca çörək tapsa, çıxar. Amma o adamın ki, yediyi kisədən gedib, eləsinin canından aclıq qorxusunu çıxartmaq müşkül məsələdi. Çörəyini nə qədər bol eləsən, xeyri yoxdu. Nə qədər çox yesə, canındakı qorxu o qədər artacaq. Çünki yediyi kisədən gedir, orası yadından çıxmayıb. Çünki bir gözü həmişə kisədədi. Kisə oldu-olmadı, bir gözü kisədədi!

...Sənin anan elə-belə, harda əlinə çörək düşdü - yemişdi, yediyi kisədən getməmişdi.

Kisə nədi, zad nədi? Yetim qız idi, həmişə onun-bunun əlinə baxmışdı, vermişdilər - yemişdi, verməmişdilər - ac qalmışdı.

Ac qalmışdı?

Nə vaxt ac qalmışdı?

Bəlkə heç ac qalmamışdı?

Yetim ola, ac qalmaya?! Yoox, ac qalan günü çox olmuşdu, - ancaq hamısı yadından çıxmışdı, tamam yadından çıxmışdı, pəəh, ilahi, nə gözəl yadından çıxmışdı!

Onun yadından çıxmışdı, elə bilirsən mənim yadımdadı?

Yoox, yadımda deyil.

Öz ac günlərim hamısı yadımdadı. Bircə-bircə yadımdadı. Amma sənin ananın bircə dənə ac günü yadımda deyil, vallah, yadımda deyil!

Yetim qız idi, deyirəm, ayağı yalın, başı açıq, saçı pırtdaşıq - elə bilirsən yadımdadı?!

Yox, yadımda deyil.

Nə ayağının yalın vaxtı, nə başının açıq vaxtı, nə saçının pırtdaşıq vaxtı, - heç birisi yadımda deyil...

Bəs niyə deyirəm?

Yetim olan necə olur, orasını bilirəm, bala, ona görə deyirəm.

Amma sənin anan yetim olan vaxtı necəydi, yadımda deyil!.. Bu kənddə kimi istəyirsən dindir, heç kəsin yadında deyil.

Xanım olan vaxtı necəydi, hamının yadındadı. Gün vuranda üzü necə işıldayırdı, yel vuranda donu necə xışıldayırdı, - orası yadımızdadı, amma yetim olan vaxtı necəydi, öldür, yadımıza düşməz.

...Bir Binyət kişi vardı, bala, rəhmətlik bilirsən nə deyirdi:

- Allah xanıma ömür versin, - deyirdi, - görəndə ağrımuğrum canımdan çıxır. Heç elə bil bu kəndin adamı deyil!..

Binyət kişi nə dediyini bilən idi. Rəhmətlik dünya görmüş adamdı, Rusiyətdən bəri ayağı dəyməyən yer qalmamışdı. Üç qarış boyu olanda bu kənddən çıxmışdı, üç qarış saqqalı olanda qayıdıb gəlmişdi. Qazancı bircə elə o saqqalıydı. Bu kənddən nə kökdə getmişdisə, o kökdə də qayıtmışdı. Gedəndə yamağı beşiydi, qayıdanda on beş.

- A kişi, - dedilər, - bu nə kökdü düşmüsən? Bu neçə ili harda veyillənirdin? Niyə özünə bir gün ağlamamısan?

- Ağlamışdım, - dedi, - özümə yaxşı gün ağlamışdım, bu kəndin adamı qoymadı!

Çox gəzdim-dolandım, deyir, o şəhər sənin-bu şəhər mənim. Orda hambal, burda hambal. Cib boş, qarın boş. Şalvarı yamayırsan, köynək süzülür, köynəyi yamayırsan, şalvar süzülür. Belə-belə, gəldim çıxdım Həştərxana.

Həştərxanda işim rast düşdü, deyir, baxtım açıldı, nə açıldı. Sağdan gətirdi, soldan gətirdi. Burdan beş, ordan on beş. Əynimin paltarından tutmuş bədənimin dərisinəcən hamısını təzələdim. Güzgüyə baxırdım, özümü tanımırdım. Əslim-nəslim hamısı yadımdan çıxmışdı. Bəy oğlu bəy yanımda qələt eləyərdi. Küçəyə çıxırdım, qaradavoy çest verirdi. Bir dəfə də elə o cür, çəkməmi cırıldada-cırıldada küçəynən gedirdim, qulağıma böyürdən bir səs gəldi:

- Can kətçi, yerişinə qurban olum!..

Çöndüm, gördüm bir qoca kişidi. Saç tökülüb, diş tökülüb, əyin-baş tökülüb. Bir dəridi, bir sümük. Üfürsən canı çıxar. Baxıram, tanımıram. Kiməsə oxşadıram, amma kimə?.. Orası yadıma düşmür.

Dedi:

- A bala, deyəsən axı tanımadın?

Dedim:

- Yox, ay əmi, tanımadım.

Dedi:

- A bala, filan kənddən deyilsən?

Dedim:

- Hə...

- Filankəsin oğlu deyilsən?

Dedim:

- Hə...

- Baban da filankəs deyil?

Dedim:

- Hə...

Dedi:

- A bala, bəs elə mən eviyıxılmış da o kənddənəm!.. Mən o kənddən çıxanda sənin dədən bir ağzısulu uşağıdı, küçədə tumançaq gəzirdi... Səni görən kimi tanıdım, ba-

la, yerişindən tanıdım. Bu yeriş ki var, bu dünyada təkcə bizim kəndin adamındadı!..

Bunu dedi, o qocalığında adam eləmədi tənbəllik, üzünü çöndərdi, başladı sındıra-sındıra küçəynən yeriməyə. Arabir də çiyninin üstündən mənə sarı qışqırır ki:

- Necədi?

Baxıram, görürəm, baho, yerişi elə mənim yerişimdi ki, durub.

Bir az da zəndnən baxıram, görürəm elə özünün də bir suyumu əməlli-başlı mənə oxşayır. Kim görsə elə biləcək ya dədəmdi, ya babam. Can yetim, baxtın açılıb. Gücnən adam olub adam içinə çıxmışıq, indi belə dədəynən-babaynan bu Həştərxanda baş saxla görüm, necə saxlayacaqsan?!..

Gözümün qırağıynan bir o yan-bu yana baxdım, gördüm, yox, bizə baxıb-eləyən yoxdu. Kişi də ki, ləzzətnən yeriməyindədi... Baxıram ki, bu yazığın hay-hayı gedib, vay-vayı qalıb. Məndən bunu adam eləyən onsuz da olmayacaq. Yanıma da salsam, məni adamlıqdan salacaq...

Deyir, səssizcə sivişib aradan çıxdım, bir də o küçəyə sarı addımımı da atmadım.

...Pəəh, evin yıxılsın, kətçi, o gündən evim yıxıldı!

Day əvvəlki kimi şəstnən durub-otura bilmirəm. Camaatnan danışıram, dilim topuq çalır. Elə bilirəm bütün Həştərxan zatıma bələddi. Yeddi arxa dönənimi tanıyırlar, ağacdan yıxılanımı, çayda boğulanımı, çolağımı, çopurumu, keçəlimi, hamısını tanıyırlar. Güzgüyə baxıram, deyir, özümü görmürəm, dədəmi, babamı, nənəmi, xalamı, əmimi, dayımı, itimizi, pişiyimizi, - hamısını görürəm... Tək başımı yenə bir təhər dolandırırdım, bu qədər camaatı mən bu Həştərxanda necə dolandırım, nəynən dolandırım?!

Beləcə, yavaş-yavaş, nə qazanmışdım, hamısı getdi, yenə düşdüm quş həddinə.

Hər şey cəhənnəm, yerişimi də itirmişdim. Gül kimi yeridiyim yerdə öz-özümə diksinirdim, başlayırdım ayağımı yan atmağa. O yerişnən otuz ilə bir təhər özümü gətirib bu kəndə çatdırmışam...

Binyət kişi belə deyirdi, bala, camaat gülürdü, çünki rəhmətlik zarafatcıl adam idi.

Zarafat zarafatlığında, ancaq elə bu kəndin içində də, hamı kimi düz-əməlli yeridiyi yerdə rəhmətliyin hərdənbir öz-özünə diksinib, ayağını yan atmağı olurdu. Ölənəcən də o xasiyyət canından çıxmadı.

Amma orası heç, orası ayrı söhbətdi, a gədə, məsələ Binyət kişinin özündə deyil, sözündədi:

- Allah xanıma ömür versin, - deyirdi, - görəndə ağrımuğrum canımdan çıxır. Heç elə bil bu kəndin adamı deyil!..

...Hamımız bu kəndin adamıydıq; arvadlı-kişili, uşaqlıböyüklü...

Bu kəndin adamı ayrı şeydi, a gədə, bu kəndin adamını görəndə can deyilən şeydən ağrı çıxmaz!

Görürdün, bude, filankəs, kürəyində bir şələ odun, ləhləyə-ləhləyə gəlir. O dəqiqə kürəyin ağrıyırdı, yadına düşürdü ki, evdə odun yoxdu, sabah bu odundan gedib bir şələ də gərək sən gətirəsən. Uşaq görürdün, - çörək deyib ağlayır, - uşağın yadına düşürdü. Arvad görürdün, - arvaddan başqa nəyə desən oxşayır, - arvadın yadına düşürdü.

Yoox, bala, bu kəndin adamını Allah bir-birinə qənim yaratmışdı, göz dağı yaratmışdı...

Hamımız bu kəndin adamıydıq!

Lap elə sənin atan da...

Nə qədər ki, adam idi, bu kəndin adamıydı. Özü də bunu bilirdi. Ürəyinin içində, içinin içində, içinin içinin içində özü də bilirdi!..

Bu camaata bilirsən niyə zülüm eləyirdi, a gədə?! Çünki bu kəndin adamlığını öz canından çıxartmaq istəyirdi; qamçı gücünə, təpik gücünə, yumruq gücünə çıxartmaq istəyirdi. Çünki bu camaatın gözünə baxırdı, özünü görürdü. İndisini yox, neçə-neçə il əvvəlini görürdü; ac-yalavac, çılın-çılpaq bu kəndin içində sülənən bir uşaq görürdü. Şaraqq, - qamçısı şaqqıldayırdı, burda bu camaatın başına dəyirdi, orda o uşağın başına dəyirdi. Qamçı, təpik, yumruq, şillə, - eləcə, günlərin bir günü bu camaatın gözünə baxdı, özünü görmədi; bir canavar gördü, bala, dişlərini qıcırdıb baxırdı. Ürəyi dincəldi, canı dincəldi, - axır ki, bu kəndin adamlığını öz canından çıxartmışdı, o canavara yedirtmişdi, yem eləmişdi.

...Amma sənin anan heç elə bil bu kəndin adamı deyildi. Elə-belə, heç nədən, durduğu yerdəcə bu kəndin adamı deyildi.

Baxırdıq, canımızın ağrısı çıxırdı, hirsi çıxırdı. Adam nədi, daşa əli dəysə daş yumşalardı.

O üstü bayraqlı evi görürsən? Kolxoz idarəsini deyirəm... Ay sağ ol!..

O mülkü bir vaxt sənin atan tikdirmişdi. Sənin anan o mülkün içində xanım kimi çox gəzmişdi, o mülkün daş-divarına əl-ayağı çox dəymişdi. Şura hökuməti ki gəldi, o mülkü sənin atandan ki aldıq, kolxoz idarəsi elədik, Şərif yoldaş üç gün o idarənin qapı-pəncərəsini açıq qoqdu, dedi:

- Qoy xanımın havası çəkilsin.

Üç gün o idarəyə girmədi, dedi:

- Qoy daş-divarı bərkisin.

Bərkidi, a gədə, bərkidi. Top atalar dağılmaz!

...Amma sənin atan elə bilirdi dağılacaq, yıxılacaq, yerən yeksan olacaq.

Acdan-yalavacdan hökumət olmaz, deyirdi.

Ac idik, bala, orası düzdü. Hökumət neynəsin, il pis idi, quraqlığıdı; göydə bulud yox, yerdə su yox, gözümüzün yaşı da qurumuşdu... Ac idik, bala, acından bitimizi yeyirdik.

Bit çoxudu, a gədə, taxıl yoxudu!

Orasını sənin atan da bilirdi.

Rayondan gəldilər, axtardılar, tapdılar, qazdılar; bir quyu dolusu taxılı çıxdı.

- Bu nədi, - dedilər, - a canavar oğlu canavar?! Bunu hansı günə saxlamısan?!

Bilirsən nə dedi, bala:

- Sizə ehsanlıq saxlamışam, - dedi.

Ay özün öləsən!..

Taxıl da ki, nə taxıl!

Bircə dənə buğda ələ gəlmədi. Hamısını bit basmışdı, bit yemişdi. Taxıl nədi, a gədə, bir quyu dolusu bitiydi, qaynaşırdı.

Bit nəyimizə lazımıdı, bala, bitimiz onsuz da çoxudu. Orasını sənin atan da bilirdi. Şələ-şüləsini yığdıq arabaya, xoruzunu verdik qoltuğuna, bu kənddən sürgün elədik, qovduq - getdi.

Oturmuşdu arabanın içində, baxırdı; böyüyə-kiçiyə, arvada-kişiyə, itə-pişiyə, hamıya baxırdı. Düz gözümüzün içinə baxırdı, a gədə; gözümüzün içində özünü görmək istəyirdi. İndisini yox, neçə il əvvəl bu kəndin içində sülənən o çılın-çılpaq, ac-yalavac uşağı görmək istəyirdi. Deyirdi bəlkə o uşağa yazığımız gələ, ürəyimiz yana, yumşalaq, qovmayaq.

...Aayy özün öləsən!

Bax, canavar qardaş, bax! Bu bizim gözümüz, bu sən, - nə qədər istəyirsən bax. Sağı yumaq - sola bax, solu yumaq - sağa bax. Amma o uşağı görməkdən gözünü çək, o uşağı qulağının dalını görəndə görərsən!

...Başa düşdü, a gədə; canavar idi, eşşək deyildi, başa düşdü. Arabanın içində büzüşdü, əzildi, ovuldu, töküldü, əridi, yox oldu, - təkcə gözləri qaldı. Eləcə, yiyəsiz-zadsız bir cüt gözüydü, baxırdı; ağaca, ota, öküzə, inəyə, ata, - hər şeyə baxırdı...

Gözləri eləcə, baxa-baxa qaldı.

Araba da getdi, özü də getdi, neçə-neçə illər keçdi, amma gözləri hələ də baxır. Bir ora bax, a gədə, o çəpərə sarı bax. O araba o vaxt o çəpərin böyründə dayanmışdı. O bir cüt gözü görürsən? Baxır... Neçə ki, bu dünya durur - baxacaq, bu kənd durur - baxacaq; evimizə-eşiyimizə, yorğanımıza-döşəyimizə, hər şeyimizə baxacaq. Damımızda deşik axtaracaq, divarımızda sökük axtaracaq, yorğanımızda cırıq axtaracaq, - bax, canavar qardaş, baax, gözün deşilsin!

Atan belə!..

Amma anamnan işimiz yoxudu, bala, vallah, işimiz yoxudu...

Şərif yoldaş eləcə də dedi:

- Sənnən işimiz yoxdu, - dedi, - xanım... Amma itdi, qurddu, hər nədi, ərindi... - dedi. - Özün bilərsən, istəsən gedərsən, istəsən qalarsan. Özün bilərsən...

Şərif yoldaş o sözü dedi, amma birce dəfə də başını qaldırıb anan tərəfə baxmadı. Çünki baxmağa qorxurdu; qorxurdu baxa, yumşala, hirsi soyuya...

Atan arabanın içində oturmuşdu, bala, anan arabanın böyründə dayanmışdı. Bütün kənd yığılmışdı arabanın başına. Nəçənnik Piri özü rayondan gəlmişdi. Ancaq heç kəs anan tərəfə baxmırdı; cavan, qoca, arvad, uşaq, heç kəs baxmırdı.

Təkcə arabaya qoşulan öküzlər baxırdılar. Yan-yörələrindəki otu qırpa-qırpa hərdən başlarını qaldırıb anan tərəfə baxırdılar, sonra yenə əyilib otu qırpırdılar, qırpa bil-

mirdilər. Ağızlarını çəkirdilər, ot e'ləcə uzana-uzana qalırdı. Çünki yumşalmışdılar, a gədə, çünki o öküzlərin dişləri də yumşalmışdı!..

Şərif yoldaş birdən əlindəki çubuğu qaldırdı, öküzlərə bir çubuq, iki çubuq. Öküzlər götürüldülər. Araba getdi, atan da arabanın içində.

Anan qaldı, biz qaldıq...

Anannan işimiz yoxudu, vallah, işimiz yoxudu. Amma birdən çığırdı, yerindən atıldı, arabanın dalınca yüyürdü, qaçdı. Necə qaçdı, Allah, necə qaçdı! Quzu canavarın dalınca qaçdı, a gədə!.. Yoox, quzu dediyin o qələti eləməzdi. Quzu demə, qoyun de!..

Getdilər, bala, getdilər; canavarlı-qoyunlu, ağalı-xanımlı.

Hara getdilər, deyirsən? Mən nə bilim, a gədə? Sibirə, Aşqabada, Ərdəbilə, Mazandarana, cəhənnəmə, gora, - mən nə bilim hara getdilər?!

U-u-uxx, nə var, yenə nə deyirsən?!

Deyirsən o vaxt sən hardaydın?

Kim, a gədə, mən, ya sən?!

Özünü deyirsən...

Dayan görüm, doğrudan axı o vaxt sən hardaydın?

Atan arabanın içində oturmuşdu. Anan arabanın böyründə dayanmışdı. Bəs sən hardaydın?!

Eeee-he!..

Sən o vaxt yoxudun, bala, yoxudun...

Yəni ki, varıdın, amma sən deyildin, bir əl boyda şey idin; adamdın, canavardın, quzuydun, nəydin, Allah bilir, - oturmuşdun arabada. Amma pis oturmuşdun, bala, pis oturmuşdun. Şərif yoldaş ki, çubuğu çırpdı öküzlərə, öküzlər ki götürüldülər, araba ki tərpəndi, onda gördüm təpəsi üstə gəlirsən. Atıldım, tutdum. Mən olmasam get-

mişdin, anan yasına oturmuşdu, kəllən dağılmışdı, a gədə, beynin çoxdan soxulcanlara yem olmuşdu...

İndi işlət o beynini, işlət. Özün fikirləş; bu mənim adamlığım, o da sənin anan!

Heç sən tərəfə gözünün ucuynan da baxmadı, çığırdı, qaçdı. O arabanın dalınca qaçdı, bala, o canavarın dalınca getdi.

Tfu, qoyun yiyəsi!..

Amma orası heç, orası ayrı söhbətdi, a gədə, - gedən getdi, qalandan danış.

Qalmışdın ortalıqda, götürənin yoxudu. Niyə yoxudu, bəs mən nəydim?! Almışdım səni qucağıma, durmuşdum.

- Rədd elə getsin, - dedilər, - bundan adam olan deyil.

- Canavarın belindən gələn canavar olar, - dedilər, - rədd elə getsin!

- Yoox, - dedim, - yoox! Mən o canavarlığı bunun canından çıxardaram. Mən bunu adam eləyərəm!..

Mən səni adam eləyərəm, bala, o baltanın, çəkicin, daşın, ağacın gücünə adam eləyərəm. Bu ata-mata söhbətini yığışdır. O canavarın dərdini az çək. Mənim ürəyim yanmır, səninki də yanmasın!..

...Nədi?

Gecələr yuxuda ağlayıram, deyirsən?

Nə deyirəm, deyirsən?

Sümüyüm isinmir, qardaş, deyirəm?!

Deyərəm, bala, deyərəm. Sümüyüm isinməz, bala, isinməz. Çünki sümük deyil, qığırdaqdı!..

Bilirsən niyə ağlayıram, a gədə?!

Elə bilirsən o canavara ağlayıram?

Yoox!..

Yatan kimi yuxuma girir. Gözümü yuman kimi onu görürəm. O canavarı yox, o uşağı görürəm; neçə-neçə illər

bundan qabaq, ac-yalavac, çılın-çılpaq bu kəndin içində sülənən o uşağı...

Görürəm ayaqyalın, başıaçıq, qarın-buzun içində itib-batıb; yüyürür, yıxılır, imələyir, ağlayır, ufuldayır, sızıldayır. O nə qardı elə, Allah, o nə buzdu?! O nə yerdi elə, Allah, Sibir yanında qələt eləyər!

Sibir?..

Nə Sibir?!

Elə belə sözdü deyirəm, Sibirə göndərən kim idi?!

O canavarın dərdini çəkmə, bala, ürəyini buz kimi saxla; bu dəqiqə hardadısa, yeri istidi. Bu dünyadadısa, yəqin Aşqabadda-zadda olar. O dünyadadısa, yəqin cəhənnəmdədi. Yeri istidi, a gədə, yerindən arxayın ol!

...Hardasa indi bəlkə oturub, istidən xumarlanır, gülür. Mənə gülür. Çünki bilir bu dəqiqə yuxuda ona ağlayıram. Çünki bilir kişi deyiləm, ürəyim yumşaqdı. Çünki ürəyimə çox tüpürüb, a gədə, tüpürüb-tüpürüb yumşaldıb!

Bu Şura hökuməti ki, var, adamdan nə desən eləyər; çobanı alim eləyər, muzduru narkom. Amma kişi olmayanı kişi eləyə bilməz. Kişilik gərək adamın qanında ola.

Amma mən səni kişi eləyərəm, bala, mən səni adam eləyərəm. O baltanın, çəkicin, daşın, ağacın gücünə adam eləyərəm. O necə odun doğramaqdı, a gədə, yoxsa yazığın gəlir? Baltanı cəllad kimi vur, cəllad kimi! Aayy belə haa!.."

***

Əmisi baxırdı; balta yenirdi, qalxırdı. Hər səhər əmisi yuxudan durub qapıya çıxanda Müslümü həyətdə odun doğrayan görürdü.

Sonra əmisi arvadı oyanıb qapıya çıxırdı.

Əmisi qızı yatırdı; haylayıb-haraylayıb, dürtmələyib-dümsükləyib oyadınca yatırdı. Doğrudanmı yatırdı?!

...Tfu! Bəsdi, ay uşaq, yatırdı, yatmırdı, o məsələynən qurtardıq. Gecəninki gecədə qaldı. İşini gör, odununu doğra!..

Balta qalxırdı, yenirdi.

Əmisi qızı oyanırdı. Yenə həyətdə o baş-bu başa dolanırdı. İş dalınca, buyruq dalınca qaçırdı. Ayaqları qarı şappıldadırdı. Müslüm o qıza sarı heç gözünün qırağıynan da baxmırdı. Ancaq o ayaqların şappıltısını eşidirdi. O ayaqların şappıltısı Müslümün əlindəki baltanın səsinə qarışırdı; o baltanın dəstəyi Müslümün əlində yumşalırdı, yumşalırdı.

...Tfu, biqeyrət köpəyoğlu!..

Yoox, yalandı, o gecəki ayaqların bu həyətdəki qıza heç bir dəxli-zadı yoxdu!..

...Yalan deyirsən, köpəyoğlu, gözünün içinəcən yalan deyirsən. Nəfəsin yalan gedir-gəlir!..

Şaxtaydı, Müslümün nəfəsindən buğ qalxırdı. Müslüm özü öz nəfəsini görürdü; o nəfəs havada buğlana-buğlana düz əmisinin üstünə gedirdi.

Müslüm özü öz nəfəsindən qorxurdu, öz nəfəsini baltalayırdı, nəfəsindən qalxan o buğu-buxarı doğrayırdı, tökürdü.

- ...Bəsdi, a gədə, nəfəsin kəsildi! O odunu tulla, görmürsən düyündü, ona balta batmaz.

...Odun?

Nə odun?!

Həəə, oduuun!.. Odun, ağac, meşə, çaqqal, tülkü, dovşan, ayı, şir... Əlbir olub bir ayı bir şir ilə, ovladılar dovşanı tədbir ilə...

- ...Paaah! Bu gədəyə nooldu, ay arvad?! Titrəyir, sayıqlayır. Naxoşlamısan, a bala, min dalıma, aparım evə. O döşəyi sal görüm, a qız, lap ocağın böyründən sal. Uzan, bala, uzan... Ay arvad, ordan keçi piyi gətir!

...Keçi?

Nə keçi?!..

- ...Paaah, Allahına qurban olum, adam yiyəsi! Keçiynən nə işin var, a gədə?! Eşidən deyər keçi kəsmişik, yemişik, sənə verməmişik. Keçi nə gəzir? Keçi yox, keçi piyi!.. Ay arvad, o keçi piyi nooldu? Darıxma, a gədə, bu dəqiqə canını sürtərik, ovxalayarıq, üstünü bərk-bərk basdırarıq, yatarsan, tərləyərsən, olarsan adam. Çətini tərləyənəcəndi. Tərləməsən səndən çətin adam ola!.. Mənim istədiyim nədi, a gədə? İstədiyim odu adam olasan. Neçə ki, canımda can var, tərlədəcəm səni, tərlədəcəm, - bir belə dön görüm, kürəyini ovxalayım. Pəəh, kürək deyil, maşalla, lay divarıdı. Elə bilirsən havayıdandı? Yoox. Bu kürəkmürək hamısı o baltanın hesabınadı!.. Amma bilmirsən, bala, bilmirsən. Deyirlər, orda-burda dalımca danışırsan. Deyirsən, əmim məni çox işlədir. O gün Şərif yoldaş bir elə camaatın içində üzümə nə desə yaxşıdı? Könlünə ağalıq düşüb, deyir, özün dədəsinə muzdurluq eləyirdin, indi də balasını özünə muzdur saxlamısan... Xoox, qorxdum!.. Bilirsən nə dedim, a gədə? Düz tapmısan, dedim, Şərif yoldaş, ağayam. Çarığımın yamağına baxma, dedim, ağayam. Öz sözümün ağasıyam, demişəm, eləyəcəm. Mən səni adam eləyəcəm, bala, mən səni kişi eləyəcəm!.. Kişi ol, a gədə, ağzının sözünü bil, söz qarnını deşməsin. Bir sözü deyəndə fikirləş, gör kimə deyirsən, kimdən deyirsən. Adam hər qarnındakını ağzından çıxarmaz. Bir belə dön görüm, qarnını ovxalayım... Pəəh! Amma səndə də qarın var ha, adamın əlini sındırır. Daş udmusan, nədi?!. Yoox, görürəm, yavaş-yavaş kişi olursan. Bu qarın ki, səndə var, kişi olursan. Kişinin qarnı belə olar, a gədə, arvad deyilsən ki, göbəyin yumşaq ola...

...Arvad?

Nə arvad?!

Həəə, arrvaaad!

İlahi, o il dünyada nə qədər arvad var idi... Hara baxırdın arvadıdı, yer üzü arvadnan aşıb-daşırdı. O hansı il idi elə, Allah, hansı il idi?

İli neynirsən, a bala? Məsələ ildə deyildi, adamın özündəydi. O sən idin, qanın qaynayırdı, bu dünyada arvad deyilən şeydən başqa gözün heç nə görmürdü.

O boyda yolu görmürdün, yolnan gedən arvadı görürdün. Yoox, o arvad yolnan getmirdi, o yol özü o arvadın ayağına düşüb gedirdi...

O boyda çayı görmürdün, çayda paltar yuyan arvadı görürdün. Yoox, o arvad çaya paltar yumağa gəlməmişdi, o çay özü axıb gəlmişdi ki, o arvad paltar yusun.

Hara baxırdın arvadıdı, nəyə baxırdın arvad görürdün; camışa, inəyə, qoyuna, keçiyə, toyuğa, cücəyə, itə, pişiyə, nəyə baxırdın, arvad görürdün.

Amma səndə də günah yoxudu, bala, bu kənddə hər şeyi arvadnan ölçürdülər, arvadı hər şeynən ölçürdülər. Filankəsin arvadı camış kimidi deyirdilər, oturduğu yerdən dura bilmir. Filankəsin arvadı toyuq kimidi, "tıss" eləyənə yatır. Filankəsin arvadı adamı it kimi qapır. Filankəsin arvadı pişik kimi adama dırmaşır...

...Pişik kimi adama dırmaşan dəllək Əbilin arvadıydı. Özü də, hər pişik kimi yox, qəssab Qəzənfərin pişiyi kimi...

Amma adamın üstündə Allah var, qəssab Qəzənfərin pişiyi qəşəng pişik idi. Tükü ağappağıydı, yupyumşağıydı. Qucağına alırdın, tumarlaya-tumarlaya gözlərini yumurdun, dəllək Əbilin arvadını görürdün; yoğun-yoğun qıçlarını, iri-iri döşlərini görürdün, qucaqlayıb öpürdün, öpüb qucaqlayırdın, qollarının arasında sıxırdın, sıxırdın - o pişik ağrıdan miyoldayırdı, üz-gözünü cırmaqlayıb qolları-

nın arasından çıxırdı, atılıb qaçırdı. Neçə gün üstün-başın ağappaq pişik tüküynən dolu olurdu.

Təkcə sən deyildin, bala, o il bu kənddə üz-gözü cırmaq-cırmaq, üstü-başı ağappaq pişik tüküynən dolu sən yaşda neçə-neçə oğlan uşağı vardı.

...Evin yıxılsın, Əbil!..

Dəllək Əbil hər dəfə başınızı ülgücləyəndə öz tükünüznən bir yerdə o ağappaq pişik tükünü də üstünüzdən təmizləyərdi. Sonra adam başına hərənizdən üç yumurta alardı, başınızı yumurta kökünə salardı, deyərdi xoş getdiz...

Əbildən ötrü bu kənddə hər başın öz qiyməti vardı; üç yumurta, beş yumurta, bir parça qənd, bir sıxma düyü...

O hesabnan Əbildən ötrü bu kənddə ən qiymətli baş qəssab Qəzənfərin başı olmalıydı.

Qəssab Qəzənfər hər dəfə başını qırxdırmağa gələndə qoltuğunda bir şaqqa ət gətirərdi. Əbilin arvadı o əti götürərdi. Qəzənfər başını açıb oturardı. Əbil Qəzənfərin başını yuyardı, sabunlayardı. Sonra ülgücü alardı əlinə, bir o ülgücün ensiz tiyəsinə baxardı, bir qəssab Qəzənfərin enli peysərinə baxardı, - ülgücü çəkərdi qayışa, itilərdi, itilərdi.

Qəzənfər də eləcə, başıaşağı oturub gözünü zilləyərdi çəkməsinin burnuna, səssiz-səmirsiz gözləyərdi, gözləyərdi. Birdən var səsiynən bağırardı:

- Nə var, - deyərdi, - a kişi?! Nəyi gözləyirsən?!

Dəllək Əbil diksinib tez özünü yığışdırardı, əlindəki ülgüclə qəssab Qəzənfərin saçını təpəsindən peysərinəcən ehmalca sivirib yaltaq-yaltaq hırıldayardı:

- Amma səndə də heç hövsələ-zad yoxdu. - deyərdi, - Vallah, səndən qan iyi gəlir!..

Qəssab Qəzənfərdən doğrudan da qan iyi, cəmdək qoxusu gəlirdi. O iy, o qoxu dəllək Əbilin burnuna, ağzına, gözünə, qulağına dolurdu. O iyin, qoxunun arasından dəl-

lək Əbilin nəfəsinə neçə il idi ki, bir qoxu da dəyirdi, ürəyinin başına vururdu, beyninin içinə vururdu; qəssab Qəzənfərdən dəllək Əbilin arvadının qoxusu gəlirdi...

Cürbəcür otlar, çiçəklər kimi bu kənddə hər arvadın da ayrıca öz ətri, qoxusu vardı və hər kişidən səhərlər öz halalca arvadının qoxusu gəlirdi.

Bu kənddə üst-başından arvad qoxusu gəlməyən vurtut üç-dörd dul kişi tapılardı.

Amma yox, o dul kişilərin böyründən keçəndə də adamın burnuna hərdən-hərdən bir tanış qoxu dəyirdi; o dul kişilərdən qozbel Fatmanın qoxusu gəlirdi.

Qozbel Fatma bir tək-tənha arvad idi. Kəndin ayağında bir balaca koması vardı. Deyirlər bir vaxt anası da vardı; dərddən öldü yazıq, çərlədi-öldü...

***

"Pəəh!.. Deməli, onu da bilirsən, a gədə, Fatmanın anasından da xəbərin var. Yoox, qardaşoğlu, belə ki görürəm, sən bilməyən şeyə qurd düşər!

Həə, Fatmanın anası dərddən öldü, bala, çərlədi-öldü. Ölməyəydi, neyləyəydi? Gözünün ağı-qarası bircə balan ola, o da ki elə; beldən şikəst, dildən pəltək, ağıldan kəm...

Amma sir-sifətdən pis deyildi. Bircə belinin qozu olmasaydı, bu kənddə heç bir qızdan-gəlindən əskikliyi olmazdı.

Ancaq o sir-sifətin sən demə xətası varmış!..

Çoxdanın söhbətidi, a gədə, sənin yadına gəlməz. Sən onda hələ ananın qarnındaydın.

Sən ananın qarnındaydın, bala, amma mənim qarnım boşudu; qarnım boş, ayağım yalın, kürəyim qamçı altında...

- ...Vurma, qardaş, yazığam!.. Qardaş, səni yazıq ilan vursun, vurma, yazığam.

Tfu!.. Yenə söhbəti qarışdırdım. Məsələ məndə deyil, Fatmadadı.

Anasının ili heç hələ düz-əməlli çıxmamışdı. Bir gün gördük baho, Fatmanın qarnı qalxıb.

Bütün kənd bir-birinə dəydi. Yazığın dili yox, - dindirəsən. Qalmışıq qovrula-qovrula:

- İlahi, - deyirik, - görən bu oğraşlığı kim eləyib?! Görən o uşaq bu kənddə kimə oxşayacaq?!

Kimə oxşayır oxşasın, lap belə bu kəndin itinə, pişiyinə oxşasın, yenə biyabırçılıqdı, bala, yenə biqeyrətlikdi!..

Fatmanın qarnı da ki, eləcə, günü-gündən böyüyür. Fatma da ki öz kefindədi. Nə bu dünyadan xəbəri var, nə qarnındakı o uşaqdan. Qarnının böyüməyini görürdü, ancaq bu nə işdi, başa düşmürdü. Yəqin elə bilirdi belindəki o qozdan biri də qarnına çıxır.

Hərdən görürdün qarnını qucaqlayıb oturub. Başını əyib, qulağını diriyib qarnına, qulaq asır. Bəlkə qarnındakı o uşaq tərpənirdi, səs eləyirdi, ya nəydi, bir də görürdün başını qaldırdı, baxdı bizə, güldü.

Biz də ki, ölüb yerdən-yerə keçirik!..

Neyniyəsən, a gədə, öldürməli deyil - aparıb öldürəsən, azdırmalı deyil - aparıb azdırasan. Hamısı Allahın işidi deyirik, nə yazılıbsa, o da olacaq.

Hamısı Allahın işiydi, bala!..

Bir gün Fatmanın çığırtısına çıxdıq bayıra, gördük yıxılıb yerə, çapalayır, ağlayır, qarnını yumruqlayır, yumruqlayır.

Görünür, yazığın vaxtı çatmışdı, ağrısı tutmuşdu. Ancaq bu ağrı nə olan şeydi, başa düşmürdü, - eləcə ağlayırdı, qarnını yumruqlayırdı.

O uşağı Fatma bəlkə o cür, özü öz qarnında yumruqlayıb öldürdü. Bəlkə Allahın bizə yazığı gəldi, bu kəndi biyabır eləmək istəmədi. Hər nəydisə, o uşaq ölü doğuldu.

Birimiz də o uşağın üzünə baxmadıq. O uşaq bu kənddə kimə oxşayırdı, orasını bir Allah bildi. Eləcə yuduq, kəfənlədik, aparıb basdırdıq.

Biri ölməsə deyir, biri dirilməz!..

Fatma elə bil o uşağa bənd imiş. O uşaqdan sonra yazığın dili-ağzı açıldı. Heç olmasa, nə dediyini başa düşdük. Ağlı da elə bil düzəlmişdi; o Fatma ki, anası öləndə gözündən bircə damcı yaş da axıtmamışdı, anasının ölümündən bəlkə heç xəbər də tutmamışdı, indi gecə-gündüz o qəbristanlıqdan əl çəkmirdi, o uşağın qəbrini qucaqlayıb ağlayırdı.

Əvvəl elə bildik yazıq dərddən ağlayır. Sonra gördük yoox, balam, bu ağlamaq heç dərddən ağlamağa oxşamır. Elə bil yazığın nəsə bir yeri ağrıyır; o qəbri qucaqlayır, üzgözünü büzüşdürür, ufuldayır, sızıldayır, ağlayır.

- Niyə ağlayırsan, - deyirik, - yoxsa bir yerin ağrıyır?

Deyir:

- Həə, ağrıyır!

- Haran ağrıyır? - deyirik.

Deyir:

- Qarnım ağrıyır!

"Qarnım ağrıyır" deyir, o qəbri göstərir. Elə bil o qəbirdəki bu yazığın balası deyil, ağrısıdı.

Bir gün belə, bir ay belə, beş ay belə...

O yazıq o cür hələ bəlkə çox zülüm çəkəcəkdi. Allah Binyət kişiyə rəhmət eləsin, dünyagörmüş adamdı; bir gün getdi, o qəbri yaydı, yastıladı, yernən bir elədi, yerin itirdi.

O gündən Fatmanın ağrısı da yavaş-yavaş sakitləşdi, kəsilidi. Ağrısı kəsildi, bala, amma döşünün südü kəsilmədi.

İnsan deyilən məxluqda nə qədər süd olarmış?!

Zalım qızı elə bil yediyi çörəyi, içdiyi suyu, udduğu havanı da südə çevirirdi.

Haçan görürdün əyni-başı yamyaş idi; südü döşündən daşırdı, tökülürdü. O südün tamını bu kənddə təkcə pişiklər bilirdilər. Düşmüşdülər yazığın dalınca; durduğu yeri yalayırdılar, getdiyi yolu yalayırdılar.

Ancaq o pişiklərin bayramı çox sürmədi. O pişiklərin boğazına şərik çıxan tapıldı, Fatmanı o pişiklərin əlindən alan tapıldı. Pəəh!.. Güllələr atıldı, ocaqlar çatıldı, qoyunlar kəsildi, qazanlar asıldı. Nə olub, nə olub? Xanım doğub! Nə olub, nə olub? Canavarın oğlu olub!..

O nə dəmdəsgahdı, Allah, o nə vurçatdasındı?!

Tüfəng səsi, dümbək səsi, tar-qaval, zurna-balaban. Qazanlar pıqqıldayır, çənələr şaqqıldayır. Ona pay, buna pay; o yetimə, bu yetimə, qapıdan keçənə, yoldan ötənə.

O gün bu kənddə hamının dişinə bir şey dəydi, hamının qarnı doydu.

O yemək-içməyin, o dəmdəsgahın içində bircə o doğulan uşaq ac idi. Bircə sən ac idin, bala, uzanmışdın ananın böyründə, acından çığırırdın.

- ...O uşağı əmizdir, ay xanım, yazıqdı, bağrı çatdadı!..

Necə əmizdirsin? Xanımın südü nə gəzir?!

Ağzında xanım deyirsən, - sənin anan xanım idi, bala, inək deyildi ki, südü olaydı.

...Süd dediyin Fatmadaydı.

Ora Fatma, bura Fatma. Tapdılar, gətirdilər, oturtdular. Səni verdilər qucağına; əmdin, doydun, kiridin.

O gündən ta böyüyənəcən, ayağın yer tutanacan, ağzın loxma kəsənəcən sən oldun, Fatmanın döşü oldu.

Fatma da ki, oldu xanımın bacılığı. Qabağından qalanı yeyirdi, əynindən düşəni geyirdi, - hər dəfə xanımı görəndə sevindiyindən bilmirdi neyləsin.

Ancaq o canavarı görəndə yazığı titrətmə tuturdu, rəngi-rufu qaçırdı. Deyirdin bu dəqiqə bağrı yarılacaq, öləcək.

O nə qorxmaqdı, Allah, axı o canavardan bu Fatma nə pislik görmüşdü?!

Adamın üstə Allah var, bir dəfə üstünə çığırmamışdı, söyməmişdi, döyməmişdi.

Amma yoox, dünyanın işini bilmək olmaz, a gədə, o canavardan nə desən çıxardı. Bəlkə o canavarnan Fatmanın öz haqq-hesabı vardı, o biqeyrətliyi Fatmanın başına elə o canavar gətirmişdi; bu qəbristanlıqda yatan, qəbrinin yeri də itən o uşaq bəlkə elə sənin atabir qardaşın idi, bacın idi.

...Yaxşı, yaxşı, gözünü bərəltmə görüm, elə-belə sözdü deyirəm. Ağlıma gəldi, dedim. Görməmişəm, bilmirəm. Bildiyimi bilirəm, bala, bilmədiyimdən xəbərim yoxdu!

Fatma səni necə əmizdirərdi, orasını görmüşəm; bir dəfə, yüz dəfə, min dəfə... Görmüşəm, bilirəm, deyirəm.

...Nə var, a gədə, nə pis-pis baxırsan? Deyəsən axı inanmırsan? Özün bilərsən, istəyirsən inan, istəyirsən inanma. Məndən deməkdi, səndən eşitmək. Mən gördüyümü dedim, bir az da sən gördüyündən danış!.."

***

Müslümün gördüyü nə idi?

Səhərin alatoranlığında, ya axşamın alaqaranlığında, bir də görürdün bu kənddəki dul kişilərdən biri, əlində ya külüng, ya bel evdən çıxdı, kəndin içiynən üzüaşağı düşdü, Fatmanın qapısından ötəndə yavaşcadan öskürdü, keçdigetdi. Camaatın eşitdiyi elə bircə bu öskürək idi. O yazıqlar da bəlkə elə bostan belləməyə gedirdilər. Ancaq babalı deyənlərin boynuna, deyirdilər, guya o belnən-külüngnən o dul kişilər dağın-dərənin xəlvətində çuxur qazırdılar. Ayıb olmasın, Fatmanın belinin qozuna yer eləyirdilər...

Bu kəndin qızı-gəlini yalda-yamacda bir çala-çuxur görəndə, lap belə tülkü yuvası, dovşan yuvası, ilan yuvası, nə

olur-olsun, - pıqqıldayıb üzlərini yan tuturdular.

Bu kəndin uşaqları o dul kişilərin balalarını cırnadanda:

- Allah dədənizin külüngünə qüvvət versin, - deyirdilər.

Və sədr Şərif iclasda-zadda hərdən-hərdən dönüb tərs-tərs o dul kişilərə sarı baxırdı, yumruğunu çırpırdı stola:

- Bu kənddən feodalizmin kökünü kəsmək lazımdı! - deyirdi.

İdarənin divarına da çöldən bir iri şəkil çəkdirmişdi. O şəkildə yarı maşına, yarı divə oxşayan əcayib-qərayib bir şey bir sürü beli, külüngü qabağına qatıb qovurdu. Şəklin altında da iri-iri hərflərnən yazmışdılar:

"RƏDD OLSUN ƏL ƏMƏYİ, YAŞASIN YENİ TEXNİKA!"

Sədr Şərifin ən xoşladığı söz "yeni" sözüydü: yeni texnika, yeni nəsil, yeni həyat...

O yeni texnikanı bu kəndə yeni nəsil gətirməliydi. O yeni texnikanın köməyiynən yeni nəsil bu kənddə yeni həyat qurmalıydı.

Bundan ötrü yeni nəsil neyləməliydi?

Oxumalıydı, savadlanmalıydı.

Elə neçə il bundan qabaq şəhərdən gələn o müəllim də bunu istəyirdi; kənd-kənd gəzib muzdur balalarını yığırdılar. Bu kənddən də Müslümün tay-tuşlarından üç-dördü getdi. Əmisi oğlu da o uşaqların arasındaydı.

Əmisi o vaxt necə sevinirdi, Allah!

Əlini vurdu oğlunun kürəyinə:

- Get, bala, get, - dedi, - get, oxu, adam ol, adam içinə çıx!..

İndi neçə il idi ki, əmisi burda, bu kənddə baltanın, çəkicin, daşın, ağacın hesabına Müslümü adam elədikcə, əmisi oğlu orda, o şəhərdə, dəftərin, kitabın, kağızın, qələmin, nə bilim, nəyin, nəyin hesabına adam olmaqnan məşğuluydu.

...Gör o vaxtdan neçə il keçib, ancaq o müəllimin sifəti hələ də Müslümün yadındadı.

O müəllimi nəçənnik Piri öz maşınında gətirmişdi.

O maşını Piriyə təzə vermişdilər. O günəcən Pirini həmişə at belində görmüşdülər; böyründə bir cüt milsəner, kənddə-kəsəkdə oğurluq-zad olardı - gələrdi, qaçaq-quçaq sorağı alardı - gələrdi.

O gün də nəçənnik Piri bu həndəvərdə qaçaqların sorağını alıb gəlmişdi. Milsənerlər də böyründəydi. Biri sağında, biri solunda. O müəllimi də yolüstü götürmüşdülər. Qabaqda, maşınsürənin yanında oturtmuşdular. Kəndin ortasında düşürtdülər, tapşırdılar sədr Şərifə, yenə mindilər maşına. Maşın tərpəndi, tırıltıynan-gurultuynan, - yüz cürə səs çıxarda-çıxarda, tozu-tüstüsü göz çıxarda-çıxarda getdi, uzaqlaşdı, gözdən itdi.

Maşın getdi, müəllim qaldı.

O müəllim bir çeşməkli kişiydi. Bu kənddə birinci dəfəydi çeşməkli adam görürdülər. Əvvəl-əvvəl elə bildilər ki, bəs o maşının dilini bilən də, o maşını sürən də elə bu çeşməkli adamdı. O çeşmək də elə bu adamın özündən çox o maşına aid olan bir şeydi.

Və o maşın bu adamsız çıxıb gedəndə camaat bərk təəccübləndi. Gözlərini döyə-döyə bir bu adamın çeşməyinə baxdılar, bir o maşının dalınca baxdılar; elə bil o maşının bir cüt təkəri yaddan çıxıb qalmışdı, ya nə bilim nə olmuşdu.

Sədr Şərif camaatı nigarançılıqdan qurtardı. Məlum oldu ki, bu kişi müəllimdi, çeşmək taxmağı da çox oxumağındandı. Çünki çox oxuduqca adamın gözünün işığı zəifləyir, amma əvəzində beyni işıqlanır.

Sədr Şərif orasını lap ucadan dedi, barmağını vurdu gicgahına:

- Beyni işıqlanır, - dedi, - yoldaşlar!..

Və camaat güldü; çünki sədr Şərifin öz gözünün işığına söz olmazdı. Zalım oğlu istəsə sərçəni dimdiyindən vurardı.

...Həə, Şərif yoldaş, deməli, oxuduqca adamın gözünün işığı zəifləyir. O hesabnan görəsən adam nə qədər oxusa kor olar? Orasını bu müəllim yoldaşdan bir soruşmaq lazımdı...

Soruşdular, müəllim güldü, amma camaat gülmədi.

...Həə, müəllim yoldaş, deməli gəlmisən bizim balaları aparasan, oxudasan, kor eləyib göndərəsən üstümüzə. Kor oğuldan bizə əltutan olmaz. Bəs otumuzu kim biçəcək, odunumuzu kim yaracaq?! Bir də ki, biz kətçiyik, kətçininki kitabnan tutmaz. Kətçinin kitabı otdu, ağacdı, torpaqdı, sudu!.. Nədi, müəllim, deyəsən boğazın qurudu axı, - ay uşaq, ordan müəllimə su verin!

Cumdular, bir kasa su gətirdilər, verdilər müəllimə.

...İç, müəllim, boğazını yaşla!.. Bulaq suyudu, sopsoyuq, dupduru.

- Deməli, içim deyirsiz...

...İç müəllim, iç. İçməyib neyləyəcəksən? Suyu içərlər də, qardaş, yeməzlər ki!..

- Bəs mən desəm suyu yeyirlər, onda necə?

...He-he-he, ay sənin zarafatın olsun, müəllim!.. Ay uşaq, müəllim kasanı görüb-karıxıb. Sən deyən bozbaşdı, müəllim, bu kasa dolusu; soğanıynan, kartofuynan, noxuduynan, ətiynən. Dupduru suyun nəyini yeyəcəksən?

- Yəni deyirsiz elə dupdurudu?

...Dupdurudu, müəllim, göz yaşı kimi!

Onda müəllim cibindən bir girdə şüşə çıxartdı:

- A camaat, - dedi, - bu şüşə ki var, böyüdən şüşədi. Hər şeyi yüz dəfə böyüdür, görünməyəni göstərir.

Qabaqda duranlardan birini çağırdı:

- A kişi, bəri gəl görüm!

Kişi, bir gözü şüşədə, çəkinə-çəkinə gəldi.

Müəllim şüşəni tutdu suyun üstünə:

- İndi bu şüşədən suya bax görüm!

Kişi çəkinə-çəkinə əyildi, gözünü qıydı, baxdı.

- Nə görürsən?

Kişi sonra danışırdı ki, nə görmədim, a camaat, o dupduru bulaq suyunda nə görmədim?! Balıqdan savayı nə desəz vardı; yüz başlı, yüz əlli, yüz ayaqlı yüz cürə şey qaynaşırdı...

O kişi bunların hamısını sonra danışırdı. Ancaq onda iyrənib başını qaldırdı, ağız dolusu o kasadakı suya tüpürdü.

Kişinin tüpürcəyi suyun üzündə ləngər vura-vura üzürdü.

Müəllim o şüşəni tutdu tüpürcəyin üstünə:

- İndi də zəhmət çək, - dedi, - öz tüpürcəyinə bax!..

Deyəsən kişini maraq üstələdi, əyilib baxdı.

Baxdı və qusmağa getdi.

Müslümün əmisi də elə onda irəli yeridi, üzünü tutdu camaata:

- Nə özünüzü naza qoymusuz? - dedi. - Yoxsa bu uşaqlara paxıllıq eləyirsiz?! Qorxursuz gedələr, adam olalar, siz görməyəni görələr, siz bilməyəni bilələr, bu kətçilik canlarından çıxa!..

Getdi, oğlunun qolundan tutdu, gətirdi müəllimin yanına:

- Birinci bunu yaz, - dedi.

Sevinə-sevinə əlini vurdu oğlunun kürəyinə:

- Get, bala, get, - dedi. - Get, oxu, adam ol, adam içinə çıx!

Sonra üç-dörd adam da uşağını yazdırdı.

Sonra müəllimə bir kasa bozbaş gətirdilər.

Yedi:

- Sağ olun, - dedi.

Sonra dedi:

- Yaxşı, mən gedim, siz də uşaqları yola hazırlayın!..

Müəllim rayona gedəcəkdi; yol uzunuydu, at gətirdilər.

Birdən-ikiyə at minməmişdi. Köməkləşib mindirdilər, cilovu verdilər Müslümün əmisinin əlinə. Çəkə-çəkə düşdü qabağa; kənddən çıxdılar, getdilər.

Əmisi kəndə qayıdanda şər qarışırdı.

Bir də gördülər budu gəlir; qan-tər içində, ləhləyə-ləhləyə. At yox idi.

At yox idi, amma müəllimi gətirmişdi; at belində aparmışdı, öz belində gətirmişdi...

***

"Necə oldu, Allah, necə oldu?!

Dəyməyin, a camaat, karıxdırmayın, qoyun bir-bir yadıma salım, yalan olmasın. Yalan olmasın, Allah, yalan olmasın!

Deməli, bələ!..

Özümüzçün asta-asta gedirdik; bu oturub atın belində, mən cilovu çəkirəm.

Dəqiqədəbir soruşur ki, rayona çox qalıb?

Deyirəm:

- Çatarıq.

Deyir:

- Bəlkə yolu bir az kəsə eləyəsən.

Deyirəm:

- A kişi, yolnan nə işin var? At gedir, sən getmirsən ki. Oxuduğundan-bildiyindən danış, qulaq asaq. Yoldu da, heç bilməyəcəksən havaxt çatdıq.

- Yoox, - deyir, - gərək o biri kəndlərə də baş çəkəm. Bəlkə yolu bir az kəsə eləyəsən.

Neyləyim, qardaş, ağa deyir sür dərəyə - sür dərəyə. Kəsə deyirsən, kəsə olsun. Elə ən kəsə yol dərədən idi, -

atın ağzını çevirdim dərəyə...

...O köpəyuşağını da elə dərədən çıxaçıxda gördük. Yoxuşun başını kəsib durmuşdular. On-on beş adam olardı. Atlısı da vardı, piyadası da.

O dəqiqə bildim nə yuvanın quşudular, görən kimi. Ürəyimdə deyirəm, a gidi dünya, nəçənnik Piri bu köpəyuşağını bu saat harda axtarır, bunlar hardadı!

Cilov da ki, əlimdədi. Bu da ki, atın belindədi. Bir dəli şeytan deyir, atıl min tərkinə, çapın, aradan çıxın.

Amma yaş o yaş deyil. Minincə, çapınca üstümüzü alarlar. Bir istədim cilovu verəm buna, deyəm, çap, canını qurtar! Amma yazığın çapmağı nə gəzir? Atın üstə gücnən oturub. Yıxar, deyirəm, çırpar dağa-daşa, şilküt eləyər.

Görürəm, yoox, qaçmağa onsuz da güman yoxdu. Deyirəm, bəlkə dilnən birtəhər canımızı qurtardıq. Bir də ki, bizə neyləyəcəklər? Qaçaq adamyeyən-zad deyil ha. Tüfəngimiz yox, tapançamız yox, mən muzdur, bu müəllim baba, - qaçağın biznən nə işi?!

Uzaqbaşı atı alıb buraxacaqlar. Ode, gör neçəsi piyadadı. Amma başçıları yəqin elə o ağ atın belindəkidi. Köpəyoğlunun oturuşuna bax, bəydi elə bil!..

Amma elə doğrudan da bəy idi. Bəy idi, a camaat, bəy idi. Adı yadımda deyil, amma sifətini görən kimi tanıdım. Hələ neçə il bundan qabaq, Şura hökuməti gəlməmişdən, qardaş nökəri olanda, o canavargildə - kefdə, məclisdə, filanda bu köpəyoğlunu çox görmüşdüm, qabağına şiş-şiş kabab gətirmişdim.

Ay o şişlər onun qarnını deşəydi!..

Ancaq məni tanımadı. Xoşbəxtlikdəndimi, bədbəxtlikdəndimi, bilmirəm, ancaq tanımadı.

- Bura bax, - dedi, - a muzdur oğlu muzdur. Allahın o gen yolunu qoyub özünü dərəyə niyə salmısan?

Deyirəm ki, bəs kəsə gedirdik.

Güldü.

- Amma çoox kəsə getmisiz, - dedi, - gəlib çıxmısız o dünyaya!

Ay o dünyaya özün gedəsən!..

Müəllim də ki, oturub atın belində, dinmir-danışmır, elə arabir çeşməyini düzəldir.

- Bu kimdi, a kişi?

- Müəllimdi, - deyirəm, - şəhərdən gəlib. Balalarımızı oxutmağa aparacaq.

Bir bərkdən şaqqanaq çəkdi:

- Ay uşaq, - dedi, - müəllimi atdan düşürdün. Yazıqdı, öyrəşməyib, altı qabar olar.

"Hop" eləyib düşürtdülər.

Müəllim də ki, dinmir-danışmır, elə arabir çeşməyini düzəldir.

Köpəyoğlu atın üstdən əlini uzatdı, gülə-gülə vurdu bunun çiyninə:

- A müəllim, - dedi, - bu muzdur tayfasına baş qoşma. Bunları mən tanıyıram, çox zatıqırıq tayfadı. Bu saat istəyirsən tüfəngi verim əlinə, beynini göyə sovursun!..

Deyir, üzümə baxıb gülür, tüfəngi də ki çiynindədi.

Ürəyimdə deyirəm, ver, köpəyoğlu, ver, göstərim muzdur nə olan şeydi! Alnını elə odlayım ki, tüstüsü təpəndən çıxsın. Kəlləni elə partladım ki, beynin qulağından pırtdasın.

Deməyinə deyirəm, amma ürəyim tir-tir əsir.

Axı məndə o fərasət hanı? Birdən-ikiyə nə vaxt tüfəng atmışam?!..

Köpəyoğlu indi tutalım elə gerçəklədi, tüfəngi verdi, dedi, vur. Mən də tüfəngi çevirdim bunun özünə, atdım, gülləm boşa getdi. Onda evim yıxıldı, qardaş, işim bitdi; yekə tikəmi qulağım boyda eləyəcəklər!

Bəli, mən durmuşam içimi yeyirəm. O köpəyoğlu da baxır mənə, gülür. Gülməyinə gülür, a camaat, amma gözündən cin yağır.

Yox, deyirəm, yoox, bu köpəyoğluynan zarafat eləmək olmaz. Uzaqbaşı müəllimi tuşlamaram, yan ataram.

Amma görsə yan atıram, vallah, dərimə saman təpər!..

Əşşi, tutalım lap elə tuşladım. Guya tuşlasam, dəyəcək? Yüz il tuşlayam, yenə dəyməz, lap elə dəysə də, öldürməz.

Mən atan güllə o müəllimi öldürməzdi. Yüzün atsaydım, yüzü də tutsaydı, yenə öldürməzdi. Vallah-billah öldürməzdi!

Amma Allah üzümə baxdı, tüfəng atası olmadım.

O köpəyoğlunun gözü deyəsən məndən su içmədi. Tüfəngi vermədi.

Məni buraxdı, müəllimdən yapışdı:

- Deməli, müəllimsən? - dedi.

O da, kirimişcə başını tərpətdi:

- Hə, - dedi, - müəlliməm.

- Deməli, çox oxumusan, çox bilirsən?

- Hə, - dedi, - bilirəm.

- Onda sənə bir sual verəcəm, - dedi, - tapdın, canın qurtardı, tapmadın, özündən küs!..

- Buyur, - dedi.

Dedi:

- De görüm, dil uzundu, burun uzundu, ya qulaq?

Müəllim dedi:

- Adamına baxır.

Özü də lap sakitcə dedi. Səsində bir damcı qorxu-hürkü yox idi. O müəllimin arxayınçılığı deyəsən bu köpəyoğlunun xoşuna gəlmədi, bir üstdən aşağı tərs-tərs baxdı:

- Məsələn, mənim nəyim uzundu? - dedi.

Dedi, pis-pis hırıldadı, qaçaqlar da ki, uğunub-getdilər.

Onda o müəllimdə təpər gördüm!

Kirimişcə çeşməyini düzəltdi, altdan-yuxarı diqqətnən bunu süzdü:

- Məsələn, sənin burnun uzundu, - dedi, - inşallah, ovarlar, düzələr!..

O köpəyoğlunun sifəti nə günə düşdü, o nə sifət idi, Allah?!

Birdən gülüşünü xırp kəsdi, xəncəri belindən sivirdi:

- Amma sənin dilin uzundu. - dedi, - Noolar, müəllim, bu saat kəsərik. Əvvəl dilini, sonra başını kəsərik, qurdquşa yem elərik!.. Amma musurmanıq, neçə ki dilin ağzındadı, kəlmeyi-şəhadətini de!..

O da kirimişcə durub, dinmir-danışmır.

- Niyə dinmirsən, - dedi, - müəllim, yoxsa kəlmeyi-şəhadətini bilmirsən? Hər şeyi bilirsən, bircə onu bilmirsən?!..

Qaçaqların arasında bir başı əmmaməlisi vardı; çiynində tüfəngi, belində xəncəri, altında atı. Köpəyoğlu yəqin molla-zaddı, qoşulmuşdu bunlara, gülləyə tuş gələnini, gorbagor olanını cənnətə yollayırdı.

Ay yalansa onu cəhənnəmdə bişəydi!..

Üzünü tutdu ona:

- Molla ağa, - dedi, - bu müəllimin bir musurmançılığızadı yoxdu, amma biz gərək musurmançılığımızı eləyək. Bunun yasinini bəri başdan oxu, qoy ölməmişdən bir Allah kəlamı eşitsin.

O da atdan düşdü - gəldi, müəllimin böyründə, bir daşın üstündə oturdu, başladı yasin oxumağa.

O nə zülümdü, ilahi, diri adama yasin oxudasan!..

Bir qıraqda durmuşam, ürəyimdən qara qanlar axır. Cilovu əlimdə sıxdıqca sıxıram, gözüm dolub, amma ağla-

mağa da qorxuram. Deyirəm, ağlayaram, köpəyoğlu bir az da qızışar. İndi bəlkə ürəyinə rəhm düşəcək, bəlkə elə zarafat eləyir.

Amma yoox, zarafata oxşamırdı...

Bəli, mən ölüb qurtarmışam, ancaq müəllim olan bəndə heç deyinən bir tükün tərpənir? Ay tövbə!..

Kirimişcə dayanıb-durub, yuxarıdan-aşağı mollanın ağzına baxır, hərdənbir çeşməyini düzəldir.

...İlahi, o arıq canda o boyda təpər hardandı?!

Birdən mollanın sözünü kəsdi, yasinini yarıda qoydu, dedi:

- Deyəsən axı qələt elədin, molla, burasını bir balaca qələt elədin.

Harasını qələt eləmişdi, onu da dedi. Gözünə dönüm, oğul yiyəsi!

Mollanın gözü çıxdı kəlləsinə. Dana kimi gözünü döyə-döyə altdan yuxarı bir o müəllimə baxdı, bir dönüb o köpəyoğlunun üzünə baxdı, yəni ki, bəs indi neyləyim?.. Yasinin dalını oxuyum - necə oxuyum, oxumayım - bəs neyləyim?!

Paah!..

Onda o köpəyoğlunda sifət gördüm. Bayaqkı sifəti yalan oldu!

Üz-gözü əyişdi-üyüşdü, atın belində qurcalandı, müəllimin qulağına sarı əyildi:

- Görürəm qulaqdan sazsan, - dedi, - mollada qələt tutursan!.. Mən elə bilirdim dilin uzundu, sən demə, qulağın dilindən uzunumuş!

Ürəyimdə deyirəm, uzunqulaq özünsən, eşşək köpəyoğlu!..

Ancaq elə onu deməyi gördüm; onda gördüm xəncəri yendirdi, müəllimin qulağını sivirdi, atdı yerə.

İlahi, insanda necə təpər olarmış!

Müəllim deyilən bəndə, heç deynən səndən səs çıxdı?! Allahın bir quruca ufultusu da çıxmadı. Elə o cür kirimişcə dayanıb, bir ucdan çeşməyini düzəldir. Çeşmək də ki gözündə duruş gətirmir. Qulaqsız çeşmək neyləsin? Bir tayı elə sürüşür, düşür. Əli tamam qan içindədi.

Axır ki, çeşməyi çıxartdı. Çıxartdı, gözlərini gördüm. O necə gözlər idi, Allah?! Dipdiri, dupduru. Kim deyir işığı azdı? Yalandı, a camaat, bir cüt göz dolu işıq idi!..

Üzünü çevirib mənə baxdı. İlahi, o nə cür baxmağıdı?! Elə bil adamı özünə çəkirdi; özünə, gözünə, gözünün bəbəyinə, içinə, beyninə, ürəyinə çəkirdi. Gözləri məni çəkdi, apardı; ev-eşiyim, arvad-uşağım, ağlım-huşum, yaşım-yaddaşım, nəyim vardısa, hamısıynan bir yerdə çəkib apardı. Nəyim qaldı, Allah, nəyim qaldı?!..

Bir də gördüm şaqqanaq çəkib gülürlər; o köpəyoğlu atın belində, o molla daşın üstündə, o qaçaqların atlısı, piyadası, hamısı yerə baxıb hırıldaşır, gülüşür.

Müəllimin o kəsilən qulağı yerdə nə oyun çıxarırdı!

Tərpəşirdi, çırpınırdı, atdanırdı, düşürdü.

O köpəyuşağı da baxıb gülüşürdü; özünə gücləri çatmırdı, a camaat, qulağını lağa qoyub gülürdülər.

Birdən özü də baxdı, qulağını gördü, üz-gözünü turşutdu, elə bil kərtənkələyə-zada baxırdı, üstdən ayağıynan basdı, tapdaladı, əzdi-əzişdirdi, yernən bir elədi.

...O köpəyoğlunun gülləsi də elə onda açıldı.

Düz ürəyinin başından dəydi. Əvvəl çeşməyi düşdü, çilikləndi. Sonra iki əliynən sinəsindən yapışdı, səssizcə yıxıldı...

Mən də ayaq üstə donub qalmışam, ayaqlarım mıxlanıb yerə, huşum başımdan gedib.

Onda ayıldım ki, üç-dörd qaçaqdı, cilovu əlimdən dartırlar, ala bilmirlər.

Biri tüfəngi çiynindən aşırtdı, elə sinəmə dirəmişdi ki, o köpəyoğlu atın üstdən xəncərnən vurub tüfəngin lüləsini itələdi, üzünü tutdu mənə, lap yavaşcadan:

- Cilovu ver, - dedi.

Mən də cilovu ovcumda sıxıb durmuşam. Ha istəyirəm əlimi açam, açılmır.

Bir də dedi:

- Cilovu ver!

Dedi, xəncəri qaldırdı.

Deyirəm, bu saat biləyimi kəsib atacaq. Neyləyim axı, neyləyim? Əlim açılmır ki, açılmır!..

...Amma köpəyoğlu cilovu kəsdi.

Atı apardılar.

Hamısı getdi; bir mən qaldım, bir də o meyit.

O köpəyoğlu gedəndə çiyninin üstdən qanrılıb meyitə baxdı, lap yavaşcadan:

- Aparıb basdırarsan, - dedi.

Atı tərpətdi, bir-iki ayaq getdi, yenə saxladı, yenə qanrılıb meyitə baxdı, birdən üzünü çevirdi mənə, səsi boğula-boğula çığırdı:

- Bu ölən bilirsən kim idi?! - dedi.

- Müəllim-zad deyildi, bəy idi! - dedi, - Bəy idi, a muzdur oğlu muzdur, bəy idi!..

- Amma zatıqırıq bəy idi, - dedi, - özünü muzdura tay tutan bəy idi. Ona görə də, Allah bəlasını verdi!

Yenə yavaşcadan:

- Aparıb basdırarsan, - dedi.

Dedi, çıxdı-getdi...

Amma köpəyoğlu yalan deyirdi.

O müəllimin ölümünə paxıllıq eləyirdi, o müəllimi də özlərinə çıxmaq istəyirdi.

Aaayy özün ölәsən!

...Yoox, bəy deyildi!
Bəy deyildi, a camaat, bəy deyildi!
Müəllim idi, vallah-billah, müəllim idi..."

Müəllimin meyitini idarədə uzatdılar.

Arvadlar yığışdılar, ağı deyib ağlaşdılar.

Əmisi müəllimin o sınıq çeşməyini də gətirmişdi, lap ən xırdaca şüşə qırığınacan yığıb toplamışdı. O bir parça cilovu da gətirmişdi. Təkcə o kəsilən qulağı gətirməmişdi.

Bəlkə müəllim o qulağı elə tapdalayıb əzmişdi ki, heç tikəsi də ələ gəlməmişdi. Bəlkə əmisi o qulağı bu meyitə layiq bilməmişdi, - hər nəydisə, gətirməmişdi.

Gecəni meyit kənddə qaldı.

Səhər elə kənddə də basdırmaq istəyirdilər, ancaq rayondan gəldilər, dedilər, olmaz.

Apardılar rayona, qoydular vaqona, göndərdilər Bakıya.

Bu kənddən oxumağa gedən uşaqlar da elə o qatarnan getdilər.

Müslümün əmisioğlu da getdi...

***

Hər il yaydan-yaya şəhərdə məktəblər bağlanardı, əmisioğlugil gələrdilər kəndə.

Hər gələndə, əmisi əvvəl oğlunun gözünə baxardı. Deyəsən gözləyirdi ki, nə vaxt çeşmək taxacaq. Deyəsən çeşmək taxmayınca oğlunun bir şey oxuyub-bilməyinə inanmırdı.

Doğrudu, əmisi axıracan çeşmək üzünə həsrət qaldı, amma adamın üstə Allah var, əmisioğlu çox şey bilirdi.

Hər gələndə, uşaqlar yığışardılar başına, ağızlarını ayırıb qulaq asardılar.

O necə sözlər idi, Allah!..

Zalım oğlu heç elə bil bu dildə danışmırdı.

Uşaqlar günlərnən əlləşirdilər, vuruşurdular, o sözlərdən birini də düz-əməlli deyə bilmirdilər.

Söz çox idi. O sözləri təkcə Müslümün əmisioğlu gətirmirdi. Dünyanın hər tərəfindən bu kəndin üstünə qəribə-qəribə sözlər tökülüşüb gəlirdi.

Əvvəl-əvvəl camaat o sözlərdən hürkürdü, çəkinirdi. Sonra yavaş-yavaş isinişirdilər, qıra-qıra, sındıra-sındıra, dilləri necə yatırdısa eləcə də deyirdilər; o sözləri yavaş-yavaş əhliləşdirirdilər, özlərininki eləyirdilər.

Nə vaxtsa, qədim-qədim zamanlarda, bu camaatın ulu-ulu babaları da vəhşi-vəhşi heyvanları, itləri, pişikləri, qoyunları, keçiləri yəqin elə bu cür yavaş-yavaş özlərinə isinişdirmişdilər, əhliləşdirmişdilər, özlərininki eləmişdilər.

...Elektrik, elektriçka, Çankayşi, Çörçül, Çemberlen, Çəmbərəkənd...

Yoox!.. Çəmbərəkənd yox, bala, Çəmbərəkənd o şəhərdə bir məhləydi. O məhlədə bir qarı vardı, əmin oğlugilin məktəbində süpürgəçilik eləyirdi. O qarının bir nəvəsi vardı, bir yetim qız idi, atası yox, anası yox, bircə nənəsiydi.

Yay idi. Hansı ay idi? Deyəsən axı dava başlayan ay idi?.. Həə, davadan bir-iki həftə qabağıydı. Əminoğlu şəhərdə məktəbi bitirdi, gəldi, özüynən də bir göyçək gəlin gətirdi:

- Arvadımdı, - dedi.

Şəhərdəki o Çəmbərəkənd məhləsindən də, o məhlədəki qarıdan da, o qarının nəvəsindən də, süpürgəsindən də əmingil elə o vaxt xəbər tutdular. Ancaq o vaxt o qarı day bu dünyada yox idi, - canını tapşırmışdı Allaha, nəvəsini tapşırmışdı əmin oğluna, süpürgəsini tapşırmışdı o məktəbin "zavxoz"una, bu dünyadan köçüb getmişdi.

Gedən getmişdi, bala, gələndən danış!..

Əmin oğlu o gəlini gətirəndə sən evdə deyildin, heç bu kənddə də deyildin; əmin o vaxt səni qonşu kənddə bənna yanına şəyirdliyə qoymuşdu.

Axşamüstü işini qurtardın, qayıtdın əmingilə.

Qan-tərin, toz-torpağın içində itib-batmışdın, elə yorulmuşdun heç başını qaldırmağa heyin yox idi. Eləcə, başıaşağı girdin həyətə, ayağını sürüyə-sürüyə keçdin, evin qapısını açdın, elə içəri girmək istəyirdin ki, burnuna bir qəribə arvad iyi dəydi. Diksinib dayandın.

Bu kənddə heç bir arvadın belə iyisi yox idi.

Bu kənd nədi, a gədə, - o arvad deyilən şeyi ağlın kəsən gündən bəri orda-burda nə qədər arvad görmüşdünsə, heç birisinin bu cür iyisi yox idi.

Bəs onda bu iy sənə niyə belə tanış gəlirdi?!

Bu iy sənə çoxdan tanışıydı; hələ heç bilmirdin arvad nədi, arvad iyi nədi, istini soyuqdan, gündüzü gecədən, şirini acıdan ayıra bilmirdin, - ancaq bu iy sənə tanışıydı. Lap körpəlikdən, beşikdən, bələkdən, lap ananın qarnında olandan tanışıydı.

...Sənə qurban olum, ay ana!.. Yoxsa qayıdıb gəlmisən?!..

Anan gəlməmişdi, bala, əmin oğlu gəlin gətirmişdi.

Pəəh!.. Amma o gəlin doğrudan da göyçək gəlin idi!

Gün vuranda üzü işıldayırdı, yel vuranda donu xışıldayırdı.

...Çayını iç, a gədə, ağzını ayırıb o gəlinə elə baxma, əmin oğlunun acığı tutar!..

Çay içirdiz.

Otağın bu başında, yerdə bardaş qurub oturmuşduz; əminoğlu, sən, əmin özü, arvadı, qızı.

Təzə gəlin hələ yerdə bardaş qurub oturmağı bacarmırdı. Şəhər adamıydı, öyrəşməmişdi. Otağın o başında bir

köhnə sandıq vardı. Üstünə bir təzə yaylıq salmışdılar. Təzə gəlin də o sandığın üstə oturmuşdu; bir əlində nəlbəki, bir əlində qənd, çay içirdi.

O necə qənd dişləmək idi, Allah, o necə çay içmək idi?!

Nə çayın qurtultusu gəlirdi, nə qəndin xırtıltısı. Elə bil ağzındakı qənd deyildi, yağ idi. Ağzının bir qırağıynan qənddən dişləyirdi, o biri qırağıynan gülümsünürdü. Eləcə, üstdən aşağı baxırdı, gülümsünürdü. Zalım balası o köhnə sandığın üstə elə oturmuşdu ki, elə bil şah qızıydı, taxtda əyləşmişdi.

Sən də oturmuşdun, altdan-yuxarı baxırdın.

O gəlin heç o sandığın üstə oturmasaydı da, yenə ona altdan-yuxarı baxacaqdın. O gəlin lap dərənin dibində, sən dağın təpəsində olsaydın da, yenə ona altdan-yuxarı baxacaqdın.

Altdan yuxarı baxmayaydın, neyləyəydin? O hardaydı, sən harda?!

Altdan yuxarı baxırdın; qıçları, döşləri, saçları...

...Gözünü çək, a gədə!

Gözünü çəkirdin, əmin qızını görürdün.

Əmin qızı xırtaxırtnan qənddən dişləyirdi, qurthaqurtnan çaydan içirdi. Baxırdın, həm gülməyin tuturdu, həm yazığın gəlirdi. Elə bil o qızın əl-ayağında, üz-gözündə nəsə bir şey çatmırdı, ya nəsə bir ayıb şey vardı. O ayıb şey nəydi axı?

O gəlində nə vardısa, elə bu qızda da o vardı; qıçları, döşləri, saçları, ağzı, burnu, gözü, qaşı... Bığı yox, saqqalı yox, yazıq qız buynuz çıxartmamışdı ki!

Amma yoox, o qız buynuz çıxartsaydı, ya o qızın ağzının üstə bığı olsaydı, ya gözünün üstə qaşı olmasaydı, onda hər şey qaydasında olardı. Ancaq indi o gəlində nə vardısa, hamısı guya bu qızda da vardı. Elə ayıb görünən də, bu qızı gülməli eləyən də orasıydı...

...Buynuz-muynuz heç, amma görəsən bu qızın bığı olsaydı, nə olardı?!

Nə olardı, deyirsən? Bir cüt əmin oğlu olardı!

Pəəh!.. Bığın mübarək, əmioğlu!..

Getdin şəhərə, kişi oldun, gəldin. Bığın var, arvadın var, - day kişiyə bundan artıq nə lazımdı ki?!

Bəs o biri məsələ necə?

O şəhərdə adam olub adam içinə çıxmağın necə?!..

Yoox, qardaş, o məsələdə deyəsən bir balaca axsamısan. Adam olub adam içinə çıxsaydın, bu kənddə nə işin vardı? Bu qoyunun, keçinin, toyuğun, cücənin içində nə işin vardı?!

Həə, özün oxuyub adam olmusan, deyirsən, indi də gəlmisən bu kənddə məktəb açasan, bu camaatı oxudub adam eləyəsən!

Bəs indiyənəcən bu camaat nə idi, ay əmioğlu? Adam deyildi, bəs nə idi?

Avam idilər, deyirsən?! Avam oldun, qoyun oldun, ikisi də birdi, deyirsən. Qoyun nədi, avam adam lap qotur keçidən də pisdi, deyirsən, qurda versən qurd yeməz, deyər yavandı.

Oxut bu camaatı, qardaş, savadlandır, ağıllandır, yağlandır; ver qurd yesin, ləzzət aparsın.

O ki qaldı məktəbə, onun fikrin eləmə. Bu kəndin ortasında sənə bir məktəb tikim ki, görən desin məsciddi!..

Nədi?

Məscid lazım deyil?

Bəs nə lazımdı?

Həə, otaq lazımdı...

Düz deyirsən, qardaş, bu ev day sənə əl verməz. Bir otaqdı, gör neçə adamıq. Bu qədər adamın yanında neyləyəcəksən? Barmağını tərpətsən göz çıxardar. Sən də ki, təzə bəysən axı. Bu gəlini bura niyə gətirmisən? Üzünə

baxmağa gətirməmisən ha, - qoy onun üzünə biz baxaq.

...Ürəyinə ayrı şey gəlməsin, əmioğlu, o gəlinin üzü, gözü, yerişi, duruşu nəsə mənə tanış gəlir. Lap səsinə, nəfəsinəcən tanış gəlir. O qədər tanış gəlir ki, baxıram, ağlamağım tutur. İstəyirəm ayağını qucaqlayam, başımı qoyam dizinə, ağlayam, ağlayam. O da başımı tumarlaya, sığallaya, layla deyə, yuxulayam, yatam.

Hə, nə oldu, əmioğlu, deyəsən yatdın axı.

Yat, qardaş, yat. Bu tutun altında yatmağın ləzzəti ayrıdı. Bu tutu bu həyətin ortasında əkənin ölüsünə də rəhmət, dirisinə də!

Amma əcəb yatmağın var, lap quzu kimi yatırsan. Səsin yox, səmirin yox, - heç kişi yatmağına oxşamır...

Kişi olan əmim kimi yatar. Bude, xorultusundan ağac silkələnir, budaq budağı qılınclayır, yarpaq yarpağı şapalaqlayır. Səhərəcən belə xoruldasa, sən öl bu budaqların, yarpaqların hamısını bir-birinə qırdırıb qurtaracaq, bu yazıq ağacı lüt qoyacaq!

Amma yay ki gəldi, bu ağacın altında yatmağın ləzzəti doğrudan ayrı şeydi!

Bəs o yazıqlar görəsən o evdə, o istidə-bürküdə necə yatırlar?!

Anannan bacın yenə heeç, öyrənmiş candılar, amma o gəlin səhərəcən vallah bişəcək, cızdağı çıxacaq. Nə isə, əmioğlu, heç arvad olmaq da bir kişilik deyil!..

Amma sən rahat yat...

O ki qaldı otaqdı-zaddı, elə şeyin fikrini eləmə. Bircə həftənin içində, bu həyətin o başında sənə bir otaq tikim ki, bu kənddə tayı olmasın.

Elə günü sabahdan başlayarıq. Qumunu, çınqılını çaydan siz daşıyıb gətirərsiz, palçığını tutarsız. Daşını dərədən mən çıxardıb gətirrəm, divarını hörərəm...

Sabah deyəndə də ki, bu da sabah!

...Nə isə, əmioğlu, səhərin gözü açılır. İşi deyir isti-isti görərlər. O külüng hanı?..

Həə, qardaş, mən getdim daş dalınca. Palçıq yadınızdan çıxmasın!..

Müslüm arabanı daşnan yükləyib gətirəndə əmisioğlugil həyətdə palçıq tuturdular.

Beləə!..

Deməli daşımızı gətirdik, palçığımızı tutduq, ta nəyi gözləyirik ki?!

Həə, əmioğlu, indi o metrəni ver, bu evin yerini ölçək, nişanlayaq; bu eni... bu uzunu.

Evi özülündən başlayarlar, qardaş. O beli bəri ötür, o birisini də özün götür, başlayaq özülünü qazmağa.

Elə dərin qazma, əmioğlu, quyu qazmırsan!..

...Hə, özülü qazdıq, qurtardıq. Şəhərdən o şirni gətirmişdin ha, adı nədi, qənfet, - o qənfetdən bir-ikisini gətir, ataq bu evin özülünə; bu evdə ömrün-günün şirin olsun!

İndi də o qumdan, çınqıldan tökək, bu evin özülünü bərkidək. Evin özülü boş olsa, üstündə dam-daşın saxlamaz, ayağı başın saxlamaz. Evi saxlayan özüldü, deyir, şahı saxlayan vəzirdi!

Beləə!..

Özülü də bərkitdik, əmioğlu; indi o daşlardan ver, divarı hörək. Bismillah!..

Müslüm:

- Bismillah! - dedi, daşı daşın üstünə qoydu, daşı daşın böyrünə qoydu, palçıqladı, suvadı. O dörd divar axşamacan qarış-qarış dikəldi, Müslümün göbəyinəcən qalxdı.

...Hə, əmioğlu, bu günlük bəsdi. Belə getsə, inşalla, bir həftə nədi, beş günə bu otağın canını alarıq. Amma bu gördüyün hələ otaq deyil. O gəlin bu yarımçıq dörd diva-

ra baxıb necə dedi? Deyir, hovuza oxşayır. Düz deyir, qardaş, vallah oxşayır...

O yarımçıq dörd divar doğrudan da hovuza oxşayırdı. O dörd divarın arası dizəcən gömgöy otuydu, yel vurduqca yırğalanırdı. Elə bil gömgöy su idi, yırğalanırdı. O hovuzun təkcə balığı çatmırdı.

...Ancaq elə o gecə o hovuzda bir cüt balıq peyda oldu.

Gecəydi. Evdə yatanlar evdə yatmışdılar, həyətdə yatanlar həyətdə. Müslüm də, əmisi də, əmisinin oğlu da tutun altında uzanmışdılar, getmişdilər yuxuya.

Gecənin bir yarısı Müslümün qulağına pəncərə taqqıltısı gəldi.

Əmisi oğlu pəncərəni döyüb yavaşcadan arvadını çağırırdı:

- Çimnaz!.. Çimnaaz!..

Əmisi oğlunun səsi lap yaxından gəlirdi, ancaq Müslüm baxdı, əmisi oğlunu görmədi.

...Evin qapısı yavaşcadan açıldı. Təzə gəlin çıxdı qapıya, ayın işığında dayanıb o yan-bu yana baxdı. Əynində bir napnazik, ağappaq köynək vardı. Elə bil o köynəyi də bu ayın işığından biçmişdilər. O gəlinin özünü də bu ayın işığından, bu gecənin qaranlığından yoğurmuşdular. Əlləri, ayaqları, sinəsi, çənəsi, yanaqları, hamısı bu ayın işığındandı. Saçları, qaşları, kirpikləri bu gecənin qaranlığındandı. Lap gözlərinin o bir cüt giləsi də bu gecənin qaranlığından qopmuşdu, par-par parıldayırdı, tərpəşirdi, elə bil bir cüt canlı məxluq idi, çırpınıb kirpiklərinin arasından çıxmaq istəyirdi, təzədən qaranlığa qarışmaq istəyirdi...

Amma yoox, o gəlin qaranlığa qarışmadı. Qaranlıqdan Müslümün əmisi oğlu çıxdı, o gəlini qucaqlayıb apardı. Eləcə, qucaq-qucağa getdilər, o yarımçıq dörd-divarın ara-

sına girdilər, - oturdular, uzandılar, neylədilər, Allah bilir, day orasını Müslüm görmədi...

Həə, orasını sən görmədin, bala, görmədin.

Bəlkə sən görən hamısı yuxuydu.

Bu dəqiqə əmin oğlunu da, o gəlini də, həyətdəki o ağacı da bəlkə elə yuxunda görürdün; o ağacın tutu yetişib qaralmışdı, tumurcuq-tumurcuq qabarmışdı.

Yoox, tut nə gəzirdi?!

O ağacdakı tut deyildi. O qara-qara tutların hərəsi bir qarışqa topasıydı. O budaqların üstündə, yarpaqların arasında yüz-yüz qarışqa topası vardı; eləcə, iri-iri, qara-qara qarışqalardı, topa-topa sıxlaşmışdılar, baş-başa verib elə bil nəsə gizli bir şey danışırdılar, qiybət eləyirdilər.

Bəlkə o qarışqaların yeri hündürüydü, o yarımçıq dörd-divarın arasında əmin oğluynan o gəlin neynirdisə, hamısını görürdülər. Nə görürdülər axı?!

Yoox, heç nə görmürdülər. Hamısı yuxuydu; o ağac da, qarışqalar da...

O necə yuxuydu, Allah?!

O ağacı çıpmadılar, silkələmədilər, - ancaq birdən-birə o ağacdakı bir elə tutdan biri də qalmadı. O yüz-yüz qarışqa topası dağıldı, səpələndi. O qarışqalar Müslümün canına daraşdılar, dərisinin altına keçdilər, damarlarının içinə doluşdular.

İndi Müslümün damarlarıynan qan axmırdı, qoşun-qoşun qarışqa yeriyirdi. O qarışqalar düz Müslümün ürəyinəcən gedib çıxırdılar, ürəyinin başına yığışırdılar, toplaşırdılar. Amma yox, Müslümün ürəyi də day ürək deyildi, yumruq boyda bir qarışqa topasıydı, sinəsinin altında çırpınırdı, qaynaşırdı, uğuldaşırdı...

...Yat, bala, yat!..

Səhər Müslüm oyananda əmisi oğlu hələ şirin yuxudaydı, ləzzətnən, lap dərindən nəfəs ala-ala yatırdı; hər nəfəs alanda sinəsi elə qalxırdı ki, deyirdin bu dəqiqə özünü də qaldıracaq.

Müslüm əmisi oğlunun o qalxıb-enən sinəsinə baxdı, birdən öz sinəsi də atdandı-düşdü, sinəsinin altındakı o qarışqa topası tərpəndi, dəbərişdi. Elə bil Müslümü içəridən itələdilər, düz o yarımçıq dörd divarın yanına sarı itələdilər.

O dörd divarın arasındakı gömgöy ot əzilmişdi; eynən o gəlinin boyu uzunu əzilmişdi.

Müslüm baxırdı, bu otun üstə o gəlinin izini yox, özünü görürdü; bu başı, bu kürəyi, bu ayaqları...

Ancaq o otun üstə Müslümün əmisi oğlundan heç bir iz, nişan yox idi.

Müslüm bir balaca çaşdı, karıxdı.

...Çaşma, bala, çaşma. Əmin oğlu bu gecə burda bilirsən neyləyirdi? Kürəyində göyü yırğalayırdı... Sən əmin oğlunun izini göydə axtar, bala, göydə axtar!..

Müslüm başını qaldırıb göyə baxdı.

Amma göyün üzü tərtəmiz idi. Gün təzəcə doğmuşdu, qırmızısı yavaş-yavaş göyün üzünə çıxırdı. Bu əzilən otlar da o günün işığından yavaş-yavaş dirilirdilər, dirçəlirdilər, altdan yuxarı o işığa sarı dartınıb dikəlirdilər və bu otlar dikəldikcə o gəlini də yavaş-yavaş özləriynən qaldırırdılar.

Amma o gəlin boylu-buxunluydu, ətli-canlıydı; o gəlini qaldıranacan bu otlar yəqin hələ çox zülüm çəkəcəkdilər.

...Nə bilirsən zülüm çəkəcəkdilər, a gədə? Bəlkə elə kef çəkəcəkdilər!.. Sən bu otların dərdini çəkmə, yeri, öz işini gör!

O gün Müslüm xeyləx iş gördü, gün batanacan o dörd divarı hördü. O dörd divar qalxdı, Müslümün sinəsindən, çənəsindən ötdü. O dörd divarın arasında, o gəlinin boyu

uzunu əzilən otlar da o gün xeyli iş gördülər, yavaş-yavaş qalxdılar, o gəlini də qaldırdılar; başını, kürəyini... Ancaq ha əlləşib vuruşdular, o gəlinin ayaqlarına gücləri çatmadı. O gəlinin bir cüt ayağı eləcə, o dörd divarın arasında, otların üstə qaldı.

...Həə, bala, deyəsən o gəlinin ayaqlarını qucaqlamaq istəyirdin axı, başını qoyub ağlamaq istəyirdin. Bu sən, bu da o gəlinin ayaqları; qucaqla, ağla!..

Amma o gəlin öz kefindəydi; nazlana-nazlana həyətdə gəzib dolaşırdı, gülüb-danışırdı. Əmisi oğlu da gülürdü. Bu deyirdi - o gülürdü, o deyirdi - bu gülürdü.

Və Müslüm ağlamaq istəyirdi. Sinəsinin altındakı o qarışqa topası qalxıb-qalxıb lap xirtdəyinə dirənmişdi.

...Yoox, burda ağlama, bala, camaatın kefinə soğan doğrama! Ver özünü bir xəlvətə, nə qədər istəyirsən ağla. Lap belə özünü öldür, başını daşdan-daşa vur!..

Amma ona qalsa, indi bu həyətdə Müslümün əlinin altında heç daş da qalmamışdı; nə başını vurmağa, nə divara hörməyə.

Müslüm külüngü götürüb həyətdən çıxdı, kəndin arasıynan üzüaşağı düşüb - getdi.

Kənddən aralıda, günbatan tərəfdə bir yastı təpə vardı. Bu kəndin günəşi həmişə o təpənin dalında batardı. İndi də o günəş batmışdı, ancaq hələ tamam itməmişdi, bir qırağı o təpənin dalından görükürdü. Elə bil o günəş axırıncı dəfə çiyninin üstdən qanrılıb bu kəndə baxırdı. Baxırdı görsün bir künc-bucaqda, dəlmə-deşikdə işığından-zadından ilişib qalmayıb ki...

Ancaq bu kənd o günəşdən bu gün nə işıq almışdısa, hamısını deyəsən qaytarmışdı. Evlərin damından, pəncərələrin şüşəsindən, çəpərlərin üstündən, ağacların təpə-

sindən günəşin işığı çəkilib getmişdi, bütün rənglər, parıltılar sönmüşdü, soluxmuşdu.

...Müslüm yolnan gedə-gedə gəlib kəndin ayağına çatmışdı, kənddən çıxaçıxdaydı, lap elə düz Fatmanın evinin yanından keçirdi.

O qarışqa topası hələ də Müslümün xirtdəyinə dirənmişdi. Müslüm ağlamaq istəyirdi. Ancaq ağlamadı. Qəflətən çeçədi, öskürdü; nə pis yerdə öskürdü, Allah, nə pis yerdə öskürdü!

Müslüm diksinib qorxa-qorxa Fatmanın qapısına sarı baxdı, əlindəki külüngü bərk-bərk qoltuğuna sıxdı, elə bil o külüngü bədəninə pərçimləyib gizlətmək istəyirdi. Tezliklə addımını yeyinlətdi, keçdi, getdi, kənddən çıxıb uzaqlaşdı.

Amma Fatmanın qapısı deyəsən açıldı. Vallah, açıldı. O qapının cırıltısını Müslüm özü öz qulağıynan eşitdi; bu nə işdi düşdük, Allah, bu nə biyabırçılıqdı başımıza gəldi?! İndi bu Fatmadan canını qurtar görüm necə qurtaracaqsan?!..

...He-he-he!.. Yəni bu Fatmadan belə canını qurtarmaq istəyirsən?! İnanan daşa dönsün!.. Yoox, bala, Fatmanın gəlməyi deyəsən axı lap ürəyincədi. Bəlkə elə əmingildən də Fatmanın həvəsinə çıxmısan. Yoxsa bu nə vaxtın daş çıxartmağıdı belə, bu dar vaxtı hansı axmaq gedib o dərədən daş çıxardar? Lap elə tutalım çıxartdın, o daşı dalında daşıyacaqsan, ya nədi? Heç olmasa, araba gətirəydin, doldurub aparaydın. Həə, sabah gətirəcəksən, deyirsən. Bu gün, axşam sərinində, o dərədə daşı çıxardıb üstüstə yığacaqsan, sabah arabaynan daşıyıb aparacaqsan... Noolar, bala, o da olar! Amma əvvəl-əvvəl bir "Allah qoysa" deyinən, bir də deyinən; "Fatma qoysa!.."

Odee, düşüb dalınca gəlir. Addımını eşidirsən?.. Tıp-tıp!

Bəlkə heç Fatma deyil, bəlkə elə sənin öz ürəyindi, tıp-pıldayır... Amma yoox, səndə ürək nə gəzir? Səndəki ürək deyil axı, qarışqa topasıdı. Qarışqa topası tıppıldamaz!..

Yoox, Fatmadı, bala, addımını tappıldada-tappıldada gəlir. Hələ bir qulaq ver, donu da xışıldayır; xışş!.. xışş!..

Fatmanın donu doğrudan da xışıldayırdı. Hava bir balaca sərinləmişdi, xırdaca-xırdaca yel əsirdi. Müslüm tələsə-tələsə çölün düzüynən gedirdi və arxadan o donun xışıltısını eşidirdi.

...O necə xışıltıydı, Allah, Fatmanın donu nə gözəl xışıldayırdı!..

Yox, bu arxada xışıldayan heç cür Fatmanın donu ola bilməzdi. O donun xışıltısı çox gözəl idi; o xışıltıda Fatmanın yöndəmsizliyi yox idi, belinin qozu yox idi. Ancaq Fatmaydımı, cindimi, şeytandımı, hər kimdisə düşmüşdü Müslümün dalınca, dabanqırma gəlirdi və Müslüm qanrılıb dala baxmağa ürək eləmirdi, qorxurdu.

...Nədən qorxursan, a gədə, yoxsa Fatmanı hürkütməkdən qorxursan? Qorxma, bala, qorxma, çətini elə o dərəyə çatanacandı... Bude, gəldik, çatdıq; bu sənin dərən, bu sənin daşın...

O dərədə daş çox idi. O gömgöy daşları küləklər, yağışlar, sellər-sular yumuşdu, yemişdi, hamarlamışdı, tumarlamışdı.

...Hələ bir o daşa bax, a gədə! Pəəh, daş demə, yumurtadı, yumurta!..

Amma o daşın bir suyumu doğrudan da yumurtaya oxşayırdı. Bir yumruca daş idi, yarıyacan torpağa pərçimlənib durmuşdu. Özü də elə düz Fatmanın belinin qozu boyda olardı.

...Hə, bala, çətini elə bu daşı çıxardanacandı. Bu daşı ki çıxartdın, day qalanıynan işin olmasın. Qalanını Fatma özü eləyəcək!

Fatmanın donu Müslümün lap qulağının dibində xışıldadı və Müslüm əlindəki külüngü düz o daşın qulağının dibindən ilişdirdi. Bir də, bir də!

Amma o daş deyəsən torpağa möhkəm pərçimlənmişdi, çıxmaq bilmirdi.

Fatmanın donu da ki, özüçün ləzzətnən xışıldamağındaydı.

Müslüm külüngü bir az da bərkdən vururdu, bir az da, bir az da; elə bil o külüngün səsiynən o donun xışıltısını batırmaq istəyirdi.

...Yoox, Fatma deyildi. Fatmanın donu heç vaxt belə gözəl xışıldaya bilməzdi. Heç əmisi oğlu gətirən gəlinin donu da belə gözəl xışıldamırdı. Bəs onda bu donun xışıltısı Müslümə hardan belə tanış gəlirdi?! Elə bil bu xışıltını nə vaxtsa çoxdan, çoxdan, laap çoxdan eşitmişdi...

Müslüm birdən diksinib dayandı. O donun xışıltısı da qəflətən kəsildi. Tamam səssizlik oldu və o səssizliyin içində Müslümün qulağına bir səs gəldi:

- Can bala, anan qurban, bu daş səni əldən saldı axı!..

O nə səs idi, Allah?!

O səs lap yaxından gəlirdi, lap Müslümün qulağının dibindən, elə indicə o donun xışıltısı gələn yerdən gəlirdi. Müslüm dəli kimi yerindən atıldı, çevrilib baxdı; heç kəs yox idi.

...Həə, heç kəs yoxdu, bala, heç kəs yoxdu. Qulağın səsə düşüb. Bir otur bu daşın üstə, nəfəsini dər. O xışıltımışıltı hamısı şeytan işidi. Lənət şeytana de!..

Müslüm:

- Lənət şeytana!.. - dedi.

O yumruca daşın üstə oturub nəfəsini dərdi.

...Həə, bala, nəfəsini dərdin, dincini aldın, ta bu dərədə sənlik bir iş qalmadı... Hava da yavaş-yavaş qaralır. Axşa-

mın xeyrindən səhərin şəri yaxşıdı. Səhər gələrsən, arabanı da gətirərsən, bu dərədən kefin istəyən qədər daş çıxardıb apararsan. Amma indi dur get, rahatca yıxıl yat, bu dərəni, bu daşı, o xışıltını, o səsi - hamısını yaddan çıxart getsin!..

Müslüm o daşın üstdən durdu, külüng qoltuğunda, ayaqlarını sürüyə-sürüyə o dərədən çıxıb getdi.

...Ancaq elə o gecə, o həyətdə, o tutun altda yatıb özünü yenə bu dərədə, torpağa pərçimlənib qalan bu yumruca daşın böyründə gördü.

Müslümün əlində külüng yox idi. Ancaq əyilib iki əliynən o daşdan yapışdı, dartıb çıxartdı; yerində bir yumruca çuxur qaldı.

O çuxurun dibində bir topa qara qarışqa qaynaşırdı. Və birdən Fatma hardansa peyda oldu, dalıqatlı uzandı o çuxurun üstünə.

Müslüm, əlində daş, Fatmanın başının üstə dayanmışdı, nəsə demək istəyirdi. Bəlkə demək istəyirdi ki, o çuxurun dibi qarışqadı, bu dəqiqə canına daraşacaqlar. Ancaq deyə bilmirdi, səsi çıxmırdı; ayaqlarını pis-pis aralayıb uzanan Fatmaya baxdıqca canına titrətmə düşürdü, dizləri bükülürdü, qolları keyiyirdi.

İlahi, bu dəqiqə bu daş Müslümün əlindən düşəcəkdi. Fatmanın başını əzib xurd-xəşil eləyəcəkdi!..

Amma yoox, Müslümün qolları keyidikcə, əlindəki o daş da elə bil keyiyirdi, yumşalırdı, yüngüləşirdi.

Daş deyildi, yastığıydı. Qoy başının altına, yat.

Fatmanın başının altı qupquru torpağıydı, o yazığı yəqin ağrıdırdı, incidirdi. Müslüm əyildi ki, o "yastığı" qoysun Fatmanın başının altına. Ancaq elə əyilməyini gördü: Fatma Müslümü qucaqlayıb dartdı aşağı, özünə sarı çəkdi.

Müslüm qorxudan gözlərini bərk-bərk yummuşdu, Fatmanın sifətini görmürdü, ancaq nəfəsini eşidirdi. O nəfəs

düz Müslümün üz-gözünə vururdu, üz-gözünü yandırırdı, qarsalayırdı.

Müslüm yuxuda boğulurdu, Fatmanın qollarının arasından çıxmaq istəyirdi, bacarmırdı. Bütün bədəni keyimişdi, sustalmışdı, - tərpənməyə heyi yox idi. Təkcə sinəsinin altda nəsə tərpəşirdi, qımıldanırdı.

Yoxsa yenə həmin o qarışqa topasıydı?!

Yoox, qarışqa topası deyildi, o tərpəşən Müslümün öz ürəyiydi. Bu dəqiqə Müslümün gücü təkcə öz ürəyinə çatırdı. Ürəyi sıxılırdı, sıxılırdı. Ürəyi sıxıldıqca elə bil özü də sıxılırdı, yığılırdı. Eləcə, Müslümün ürəyi, sinəsi, kürəyi, əli-ayağı, boyu, yaşı, hər şeyi sıxıldı, yığıldı, daraldı, balacalaşdı; Müslüm balaca, bapbalaca, əl boyda bir bəbə oldu, bir südəmər körpə oldu. O körpə ağzını dirədi Fatmanın döşünə, əmdi, əmdi...

Fatma o körpənin başını tumarlayırdı, sığallayırdı, ağlayırdı:

- Əm, bala, əm!.. - deyirdi.

- Qurban olum, əm! - deyirdi.

- Yazığam, balasızam, döşüm şişib, - deyirdi, - südüm daşır, - deyirdi, - əm, bala, qurban olum, əm!..

O körpə də Fatmanın döşünü əmə-əmə ağlayırdı, ağlaya-ağlaya əmirdi. Və eləcə, ağlaya-ağlaya, əmə-əmə getdi yuxuya, düz səhərəcən yatdı...

...Səhər Müslüm oyananda o südün tamı hələ də damağındaydı. Yastığı da göz yaşından islanmışdı.

Yastığı o biri üzü üstə çevirdi. Külüngü götürdü, getdi.

O gün Müslümün işi o dörd divarı hörmək oldu; köməksiz-filansız, yorulub əldən düşənəcən hördü. Axşam daş kimi düşüb yatdı, yuxu-zad görmədi. Gecə yarısı əmisi oğlunun pıçıltıynan "Çimnaz" deyib o gəlini çağırmağı-

nı da eşitmədi. Səhər oyanıb yenə o dörd divarı hörməyə başlayanda, o dörd divarın arasında təzədən o gəlinin boyu uzunu əzilən otlardan da xəbəri olmadı.

...Sabahısı da elə, birisi günü də, o birisi günü də... Və Müslüm axır ki, o dörd divarı hörüb başa çatdırdı.

Amma bu damın altında o gəlinlə adam kimi qucaqlaşıb öpüşmək sən demə əmisi oğlunun qismәti deyilmiş.

O yazığa da elə o yarımçıq dörd divarın arasında öz halalca arvadıyla "oğurluq" neylədisə, o qaldı...

Müslüm o evin damını tikib qurtaran günü, lap səhər tezdən xəbər gəldi ki, bəs davadı. O xəbəri Müslüm elə damda eşitdi. Getdilər; əmisi oğlu da, Müslüm də...

...Yazıq əmioğlu!..

Qalaq-qalaq kitabları vardı, oxuyardı. Qalaq-qalaq kağızları qoyardı qabağına, yazardı, qaralayardı:

- Mənimki kağız qaralamaqdı. Bircə gün kağız qaralamasam, ölərəm... - deyərdi.

Yazıq bəlkə heç davada da ölməzdi. Bəlkə elə davada da, o odun-alovun içində kağız qaralamağa vaxt tapmadı, fürsət tapmadı; öldü, qara kağızı gəldi...

Amma o davanın başlanmağı da elə bil o evin tikilib-qurtarmağına bənd idi. Bəlkə Müslüm bir az tənbəllik eləsəydi, o dörd divarı bir az ləng hörsəydi, o dava da bir az gec başlayardı.

Amma yox, Müslüm əldən itiydi. Səhərdən axşamacan o dörd divarı hörürdü, yoruldum demirdi.

Günortalar əmisi qızı çay-çörəyini gətirirdi, qoyurdu böyrünə, gedirdi. O qız haçan gəlib-gedirdi; orasından Müslüm xəbər tutmurdu. Nə o qızın addımının tappıltısından, nə donunun xışıltısından, nə səsindən, nə ətrindən-qoxusundan, heç nəyindən xəbər tutmurdu. Bir də ki, bu kənddə heç bir qızın ayrıca öz ətri-qoxusu yox idi. Qızla-

rın hamısından yüz cür ətrin-qoxunun qarışığı gəlirdi; ot qoxusu, süd qoxusu, yarpız iyi, qarpız iyi...

Qızlar bir-bir böyüyürdülər, yetişirdilər; hər qızın öz ətri-qoxusu canındakı yüz cür ətrin, qoxunun qarışığından seçilirdi, ayrılırdı və günlərin bir günü Əlinin qızı Vəlinin arvadı olandan sonra utana-utana, qızara-qızara gəlib böyründən keçəndə, bir də görürdün ki, burnuna açıq-aşkar çuğundur iyi dəydi...

***

...Dəllək Əbilin arvadından soğan iyi gəlirdi. Qəssab Qəzənfərdən dəllək Əbilin arvadının iyi gəlirdi. Hər dəfə Qəzənfərin başını qırxanda o iy Əbilin nəfəsinə dəyirdi, ürəyinin başına vururdu, beyninin içinə vururdu.

Dəllək Əbil ürəyində yox deyirdi, yoox!.. Soğan iyidi, deyirdi, vallah soğan iyidi... Kişidən soğan iyi gələr, qardaş, o ki qaldı qəssab ola!..

He-he-he!.. Aay səni Əbil! Aay qeyrətini pişik yesin! Özünü dola, a kişi, özünü dola. Od yanmasa tüstü çıxmaz, a biqeyrət!..

Od yanırdı, tüstü çıxırdı.

Əbilin arvadı həyətdə ocaq qalayırdı, qazan asırdı. Qəssab Qəzənfər gətirən ət o qazanda pıqqapıqnan bişirdi. Həyətdən ət iyi gəlirdi, soğan iyi gəlirdi.

...Soğan iyi?.. Həə, soğan iyi! Soğan iyidi, qardaş, vallah soğan iyidi. Soğansız xörəyin nə ləzzəti?!..

Dəllək Əbil üzünü arvadına tutub çığırırdı:

- O xörəyin soğanını bol elə! - deyirdi.

Qəzənfərin üzünə baxıb hırıldayırdı:

- Soğansız xörəyin nə ləzzəti?! - deyirdi.

...He-he-he, aay səni, Əbil!..

Hırılda, qardaş, hırılda. Hırıldamaqdan asan şey yoxdu!

Yoxsa o nəydi, bir vaxt az qala dəli olmuşdun, özünə yer tapmırdın. Nədi-nədi, qulağına söz dəymişdi; dəllək Əbilin arvadını qəssab Qəzənfərnən görüblər... Görüblər, görüblər, canın sağ olsun, adamı adamnan görərlər. Allah bu gözü camaata nəyə verib? Görməyə!..

Amma o vaxt o sözü birinci dəfə eşidəndə Əbil doğrudan dəli olmuşdu. Ülgücü almışdı əlinə, gecə-gündüz itiləyirdi. Nə gələnə baxırdı, nə gedənə. Başıtüklü gələn başıtüklü gedirdi, üzütüklü gələn üzütüklü. Bütün kəndi tük basmışdı. Bütün kənd gözləyirdi.

...Nəyi gözləyirdilər, Allah, nəyi gözləyirdilər?!..

Əbil ülgücünü itiləyirdi, itiləyirdi; bir gün, beş gün, bir həftə, bir ay...

Eləcə, o ülgücü itiləyə-itiləyə hər şey Əbilin yadından çıxdı; arvadı da, Qəzənfər də, bu kənd də, bu camaat da. O ülgücü niyə itiləyirdi, nədən ötrü itiləyirdi, orası da yadından çıxdı, - təkcə o ülgücü itiləməyi qaldı.

Və günlərin bir günü qəssab Qəzənfər, qoltuğunda bir şaqqa ət, dəllək Əbilgilin qapısından içəri girəndə, Əbil yenə eləcə ülgücünü itiləyirdi.

Qəzənfər tük içində itib-batmışdı, təkcə gözləri görükürdü.

Əbilin arvadı Qəzənfəri görəndə diksinib içini çəkdi. Qəzənfər qoltuğundakı əti Əbilin arvadına verib keçdi, düz otağın ortasında, Əbilin qabağında əyləşdi.

Əbil Qəzənfərə gözünün ucuynan da baxmadı. Elə bil heç görmürdü. Bəlkə doğrudan da görmürdü. Eləcə səssiz-səmirsiz dayanmışdı, ülgücünü itiləyirdi.

Qəzənfər də kirimişcə oturmuşdu, gözləyirdi.

Gözlədi, gözlədi, birdən var səsiynən bağırdı:

- Nə var, - dedi, - a kişi?! Nəyi gözləyirsən?!

Əbil səksənib ülgücü əlindən saldı. Əyilib götürdü; ülgücün tiyəsi yeyilib-yeyilib lap nəzilmişdi.

Dəllək Əbil bir o ülgücün tiyəsinə baxdı, bir qəssab Qəzənfərin tüklü baş-gözünə. Key-key gözlərini döydü. Əlindəki bu ülgüclə qabağındakı bu adamın arasında nəsə bir haqq-hesab vardı, orasını Əbil bilirdi, ancaq o nə haqq-hesab idi, orası yadından çıxmışdı.

O nə haqq-hesab idi, Allah?!..

Əgər bu ülgücün tiyəsi bu cürə yeyilmişdisə, bu adamın baş-gözü niyə belə tüklüydü?

Əgər bu adamın baş-gözü belə tüklüydüsə, bu ülgücün tiyəsi niyə bu cürə yeyilmişdi?

Gülməliydi, vallah gülməliydi!..

Və dəllək Əbil hırıldadı:

- He-he-he!..

...Əbilgildən çıxanda Qəzənfərin başı da, üzü də tərtəmiz qırxılmışdı, bığı daranmışdı, tumarlanmışdı.

Bayırda xeyli adam vardı; Qəzənfərin Əbilgilə getməyini görmüşdülər, qoltuğundakı ağ əskiyə bükülü o bir şaqqa əti də balta bilmişdilər, arvadlı-kişili tökülüşüb gəlmişdilər. İndi də aralıdan durub baxırdılar, bu işə qarışmağa ürək eləmirdilər. Bir də, kimin işinə qarışaydılar axı? Qan-xatadan nə qədər uzaq olsan yaxşıdı. Biri dəllək, biri qəssab. Birində ülgüc, birində balta. Yoox, bu işin axırı qandı, vallah qandı!..

Ancaq Qəzənfərin heç burnu da qanamamışdı, heç üzü də cızılmamışdı.

Camaat çaşdı, duruxdu. Bir Qəzənfərə baxdılar, bir Qəzənfərin çiyninin üstən o tərəfə, Əbilgilin həyətinə sarı boylandılar. Elə bil hələ də nəsə gözləyirdilər. Nə gözləyirdilər, Allah, nə gözləyirdilər?!..

Qəzənfər çoxdan getmişdi, ancaq camaat hələ də gözləyirdi.

Hamı səssiz-səmirsiz dayanmışdı. Heç kəs cınqırını da çıxartmırdı, barmağını da tərpətmirdi. Təkcə kişilərin saçsaqqalı hər dəqiqə bir az da uzanırdı. Və o səssizliyin içində hər bir kişi bu dəqiqə öz başında, üzündə dartına-dartına uzanan hər bir tükün səsini eşidirdi.

Adamsız cığırı ot basar, deyirlər. Səssizlikdən camaatın qulağının içi də yavaş-yavaş tüklənirdi...

Yoox, balam, bu iş heç cür belə sakitcə qurtara bilməzdi. Bu boyda zırıltının mütləq bir səsi çıxmalıydı. Əbilgilin evindən, həyətindən əvvəl-axır nəsə bir səs gəlməliydi; kişi bağırtısı, arvad çığırtısı!

Amma yox, - qəbirdən səs gəlirdi ki, Əbilgildən səs gəlmirdi.

...Qəbirdən?!

Hansı qəbirdən?!

Kimin qəbrindən?!

Ölən kimdi?!

Öldürən kimdi?!

Paahooo!..

Camaat yerindən götürüldü. Arvadlı-kişili cumdular qabağa, çəpərin üstən boylanıb baxdılar; Əbilin arvadı həyətdə xörək bişirirdi. Bayaq Qəzənfərin qoltuğundakı, arasına guya balta bükülən həmin ağ əski də böyründəydi və əskinin arasından bir şaqqa ət görükürdü.

Əbil də evdə, pəncərənin qabağında durmuşdu, ülgücünü itiləyirdi.

Camaat baxdı, baxdı və hırıldadı:

- He-he-he!..

O gündən dəllək Əbilnən bu camaatın arasından salamkəlam götürüldü. Bircə elə o hırıltı qaldı. Əbili görən-gö-

rən hırıldadı; başını qırxdırmağa gələn hırıldadı, üzünü qırxdırmağa gələn hırıldadı.

Hırıldamayan təkcə qəssab Qəzənfər idi.

Qəzənfərin arvadı həftə səkkiz-mən doqquz Əbilin arvadıynan dalaşırdı, söyüşürdü. Qəzənfərin uşaqları həftə səkkiz mən-doqquz Əbilin uşaqlarını döyürdülər, əzişdirirdilər. Və Qəzənfər hər ayın başı, qoltuğunda bir şaqqa ət, Əbilgilə başını qırxdırmağa gəlirdi.

Qəzənfər gedəndən sonra dəllək Əbil bütün günü qurdalayıb dişinin dibindən ət qırıntısı çıxarırdı, tüpürürdü, tüpürürdü. Səhərisi də, birisi günü də, ta birisi günü də, - haçan görürdün, Əbil tüpürürdü. Elə bil yazığın bütün içi-içalatı tüpürcəklə doluydu, damarlarından qan axmırdı, tüpürcək axırdı.

...Və günlərin bir günü dava ki başladı, bu kəndin kişilərini apardılar davaya, amma dəllək Əbili aparmadılar:

- Qanı durudu, - dedilər, - laxtalanmır!

Doğrudu, vaxt pis vaxtdı, camaatın nə üzü gülürdü, nə ürəyi açılırdı, - ancaq Əbilin naxoşluğundan xəbər tutanda hamı güldü, hırıldadı:

- Ay səni, Əbil!.. Aayy naxoşluğunu pişik yesin!

Amma Əbilin naxoşluğu doğrudan da cüvəllağı naxoşluq idi. Sən demə Əbili davaya aparsaymışlar, bu Əbilə güllə-zad dəysəymiş, özü də təkcə döşünə, başına yox, lap belə qoluna-qıçına, dizinə, ombasına, harasına dəysəymiş, yazığın işi bitəcəkmiş, qanı dayanmaq bilməyəcəkmiş, ta canı çıxanacan axdıqca axacaqmış... Kişilik-zad bir qırağa, bu Əbil sən demə heç adam deyilmiş, doşab dolu tuluq kimi bir şey imiş, elə bir yandan deşilməyə bənd imiş ki, axıb tökülə... -

...Bəəlii, kişilər getdi, qaldı dəllək Əbil.

Qəssab Qəzənfər də getmişdi və Əbil çoxdandı dişinin dibini qurdalayıb-eləmirdi.

Ona qalsa, Əbil indi gərək tüpürməyini də tərgidəydi. Çünki tüpürməli bir şey yox idi.

Ancaq Əbil tüpürməyini tərgidə bilmirdi.

Əbilin canında elə bil nəsə bir lomba tüpürcək qalmışdı, - ha əlləşirdi o tüpürcəkdən canını qurtara bilmirdi.

Əbilin başı o tüpürcəyə yaman qarışmışdı, heç ülgüc də yadına düşmürdü.

Bir də ki, o ülgüclük sən deyən bir iş də yox idi. Kişilər hamısı getmişdi. Bu kənddə kişi adına qalan bir yeniyetmə gədələr idi ki, hələ bığları, saqqalları çıxmırdı, bir əlsiz-ayaqsız qocalar idi ki, day bığlarını, saqqallarını qırxdırmırdılar və bir də, Əbil idi.

Bəli, kişi olmayan yerdə elə Əbil də bir kişiydi və bu saat bu kənddə elə o ülgücsüz də Əbilin işi az deyildi; çünki bir kənddə ki ülgücə ehtiyac yoxdu, deməli, o kənddə kişiyə ehtiyac çoxdu.

Bu kəndin hər işində-gücündə, əkində-biçində Əbil hamıdan qabaqda gedirdi.

İşin ən ağırını kim görürdü? Dəllək Əbil!

Yükün ən ağırını kim götürürdü? Dəllək Əbil!

Pəəh, Allah qoluna qüvvə versin, Əbil, Allah səni bu kəndə çox görməsin!..

Dəllək Əbil səhərdən axşamacan o buyruğu-bu buyruğu eləyirdi, ora-bura qaçırdı. Nəfəsi kəsilə-kəsilə, təri dabanından süzülə-süzülə, qaçdığından bir az da bərk qaçırdı. Əbilin canından vedrə-vedrə tər çıxırdı, ancaq o tüpürcək çıxmırdı ki, çıxmırdı.

...Bir dəfə də, eləcə hansı işin dalıncasa qaçmışdı. Özü də deyəsən lap uzağa qaçmışdı; indi də ayağını sürüyə-sürüyə kəndə qayıdırdı.

Qəzənfərgilin çəpərinin böyründən keçəndə içəridən ağlaşma səsi eşitdi. Çəpərin üstən boylandı, baxdı.

Qəzənfərgilin həyətinə xeyli arvad yığışmışdı. Hamısı səs-səsə verib ağlaşırdı. Qəzənfərin arvadı da, əlində qara kağız, ağlayıb özünü öldürürdü, üzünü cırırdı, saçını yolurdu.

Əbil o ağlaşan arvadların arasında öz arvadını görməyib sevindi. Niyə sevindi, heç özü də bilmədi. Elə o cür sevinə-sevinə getdi evinə.

Arvadı evdə, otağın bir küncünə qısılıb oturmuşdu, hönkür-hönkür ağlayırdı.

O arvad niyə ağlayırdı, kimdən ötrü ağlayırdı, - orasını Əbil bilirdi və arvadına:

- Ağlamâ!.. - dedi.

Arvadı day hönkürmürdü, için-için ağlayırdı.

Əbil:

- Ağlama!.. - dedi.

Arvadı day için-için ağlamırdı, təkcə çiyinləri əsirdi.

Əbil:

- Ağlama!.. - dedi.

Ancaq arvadının çiyinləri hələ də əsirdi.

Dəlləkk Əbil irəli yeridi, iki əliynən möhkəm-möhkəm arvadının çiyinlərindən yapışdı:

- Ağlama!.. - dedi.

Əbilin arvadının çiyinləri də day bəlkə heç əsmirdi, ancaq Əbilin əlləri əsirdi.

Əbil:

- Ağlama!.. - dedi və ağladı.

Əbil ağlayırdı, ancaq gözündən yaş axmırdı, tüpürcək axırdı; üz-gözü tamam tüpürcək idi.

Əlinin dalıynan üz-gözünü sildi. Baxdı, gördü əlinin dalı tamam tüpürcəkdi. Çıxdı, əl-üzünü yudu, gəldi.

Arvadı yenə eləcə, otağın bir küncünə qısılıb oturmuşdu, hönkür-hönkür ağlayırdı.

Ancaq Əbil bu dəfə arvadına:

- Ağlama, - demədi.

Əbilin canında day tüpürcək qalmamışdı və Əbil damarlarından axan qanın şırıltısını eşidirdi.

...İlahi, o qan nə gözəl şırıldayırdı!..

Hər şey gözəl idi. Bu dəqiqə bu otağın bir küncünə qısılıb ağlayan o arvad da gözəl idi.

...İlahi, o arvad nə gözəl ağlayırdı!

Gözəl olmayan bircə orasıydı ki, bu arvad Əbildən ötrü ağlamırdı.

Pəəh, bu arvad Əbildən ötrü ağlasaydı nə gözəl olardı!..

Kaş bu dəqiqə Əbil öləydi, gözüyumulu, səssiz-səmirsiz, dalıqatlı uzanaydı və bu arvadın ağlamağını eşidəydi; bu arvad da beləcə ağlayaydı, ağlayaydı...

Dəllək Əbil o arvadın ağlamağına qulaq asa-asa gözünü yumdu və özünü eləcə uzanan gördü.

Ancaq özündən xoşu gəlmədi.

Əbilin gör-görkəmi heç bu arvadın ağlamağına yaraşmırdı. Neçə vaxtdı üz-gözünə ülgüc dəyməmişdi, sir-sifəti, boyun-boğazı tük içində itib-batmışdı.

Əbil gözünü açdı, getdi, güzgünün qabağında əyləşib ülgücü aldı əlinə.

Əbilin əli əsirdi.

Əli əsə-əsə üzünü qırxdı, çənəsini, çənəsinin altını, boğazını...

...Və kəndə haray düşdü:

- Dəllək Əbil boğazını kəsib!..

Camaat tökülüşdü, gəldi.

Əbilin arvadı otağın bir küncünə qısılıb oturmuşdu, hönkür-hönkür ağlayırdı.

Əbil otağın ortasında gözüyumulu, səssiz-səmirsiz, dalıqatlı uzanmışdı.

Bu kənddə heç kəs heç vaxt Əbili belə gözəl görməmişdi; üzü tərtəmiz qırxılmışdı, şüşə kimi hamar idi. Özü ölmüşdü, ancaq üzü elə bil gülürdü.

Bəlkə elə doğrudan da, Əbil bu dəqiqə öz arvadının ağlamağını eşidirdi.

...Pəəh, bu arvad nə gözəl ağlayırdı!..

Bu arvad Əbildən ötrü ağlayırdı, - buna bu camaatın içində yəqin heç kəsin şübhəsi-zadı yox idi.

...Pəəh, bu dünyada nə gözəl qayda varmış, Allah; ər ölərmiş, arvad ağlayarmış.

Qəssab Qəzənfərin arvadı da yəqin bu dəqiqə öz evində, öz ərindən ötrü ağlayırdı.

Dəllək Əbilin arvadı da bu dəqiqə burda, öz ərindən ötrü ağlayırdı...

Və dəllək Əbilin üzü gülürdü; ilahi, axır ki, dəllək Əbil bu arvadı qəssab Qəzənfərin əlindən aldı. Heç olmasa, bu arvadın ağlamağını aldı.

...Ağla, canım arvad, gözünə heyfin gəlməsin!..

***

Bəli, Əbili basdırdılar-getdi. Aylar, illər keçdi, dava bitdi, davaya gedənlər qayıtdılar, Əbilin ölümündən xəbər tutdular, - doğrudu, ağlamağına ağlamadılar, amma lağa qoyub gülməyə də ürəkləri gəlmədi.

Bir də ki, o yazıqların gülməyə halı nə gəzirdi?!..

Bu kənddə ölən təkcə dəllək Əbil deyildi. Sən demə, bu neçə ili o yazıqlar davada vuruşub qan tökəndə, bu kənddə onların ata-anasından, qohum-əqrabasından neçə-neçə ölən olmuşdu.

Doğrudu, bu kəndin davada öləni də çox idi. Amma davadan gələnlər davada ölənlərin dərdini o qədər də çəkmirdilər. Davada adam ölər, deyirdilər. Di gəl ki, burda, bu kənddə, bu dincliyin, sakitliyin içində də adamın ölməyi o yazıqların heç cür ağlına batmırdı. Elə bil o ölənlər nəsə çox yersiz bir zarafat eləmişdilər, onları aldatmışdılar, ələ salmışdılar.

Davadan gələnlər pərt-pərt gəzirdilər. Tez-tez dönüb tərs-tərs bu kəndin qəbristanlığına sarı baxırdılar; guya bu dəqiqə o ölənləri qəbirdən çıxarıb döyəcəkdilər...

...Müslümün əmisiynən əmisi arvadı da ölmüşdü.

Əmisi arvadı elə oğlunun qara kağızı gələn il ölmüşdü, dərddən çərləmişdi.

Əmisi də elə arvadından bir-iki ay sonra öldü, deyirlər, qışın lap o pis vaxtı soyuqladı - öldü.

...Yazıq əmi!.. Soyuqlamayaydın, neyləyəydin?!.. Müslüm yox - odununu doğraya, arvad yox - üstünü örtə... Həə, əmiqızı, deməli bu evdə ən canıbərk sən çıxdın!

Ancaq əmisi qızının heç canı qalmamışdı, donu əynindən sallanırdı.

O don lap köhnəlib süzülmüşdü. Yamaq-yamaq idi.

Müslüm o donu davadan qabaq da əmisi qızının əynində görmüşdü. Onda o don bu qızın əyninə heç əməlli-başlı gəlmirdi, dardı. Ancaq indi bu qızın bədəniynən o donun arasındakı boşluğu Müslüm açıq-aşkar hiss eləyirdi.

Təkcə bu qız deyildi... Dava təzə qurtarmışdı. Müslüm davadan ən birinci qayıdıb-gələnlərdən idi. Müslümün görüşünə xeylək arvad gəlmişdi. O arvadlar da arıqlamışdılar, sınıxmışdılar. O arvadların da bədənləriynən əyinlərindəki donun arasında bir boşluq vardı.

Aylar, illər ötəcəkdi. Bu arvadlar yavaş-yavaş cana-qana gələcəkdilər, o boşluğu dolduracaqdılar; kimisi ətiy-

nən, kimisi dərdiynən-həsrətiynən, kimisi sevinciynən-şadlığıynan, oğul boyuynan, qız toyuynan... Ancaq indi o boşluq bu arvadların canına sarmaşmışdı. Bu arvadlar o boşluğu özləriynən gəzdirirdilər, o boşluğun içində yeriyirdilər, otururdular, dururdular.

Qapı açılırdı, örtülürdü. Müslümün görüşünə arvad dalınca arvad gəlirdi.

Davadan qabaq əmisigilin evi bu qədər arvadın heç yarısını da tutmazdı. Ancaq indi bu ev dolmaq bilmirdi; hər gələn arvad özüynən bir yerdə öz canına sarmaşan o boşluğu da gətirirdi və arvadlar çoxaldıqca ev elə bil bir az da boş görükürdü.

O boşluğu Müslümün görüşünə gələn sədr Şərif də hiss eləyirdi. Bayaqdan salmışdı səsinin gur yerinə, danışdıqca danışırdı. Öz səsindən də, boyundan da ucadan danışırdı, - elə bil ki, o boşluğu səsiynən, sözüynən doldurmaq istəyirdi.

Sədr Şərif danışırdı, ancaq Müslüm danışa bilmirdi, səsi sözünə baxmırdı.

...Bu səsnən Müslüm düz dörd il "URRA" deyib çığırmışdı, düşmən üstünə cummuşdu. Təkcə Müslüm deyildi; o nəhəng ÇIĞIRTININ içində min-min səs vardı, min-min hirs vardı, - o min-min səsdən biri də Müslümün səsiydi, Müslümün hirsiydi, hikkəsiydi.

Ölənlər özləriynən, səsləriynən o ÇIĞIRTIDAN qopub düşürdülər.

Ölüm vardı, ancaq ölüm qorxusu yoxdu.

Çünki o ÖLÜM çox nəhəng ölüm idi, qorxu deyilən şeyə sığışmazdı. O ÖLÜMÜN hamıya bir boyda haqqı çatırdı; ölənə də, qalana da. O ÖLÜMƏ hamının bir boyda haqqı çatırdı; ölənin də, qalanın da. O ÖLÜM hamınınkıydı və heç kəsinki deyildi.

Dava qurtardı, fişənglər atıldı, o nəhəng ÇIĞIRTININ içindən hərə öz səsini götürdü, o nəhəng ÖLÜMÜN içindən çıxdılar; hər kəs irəlidə, hansı ilin hansı günündəsə, bu düynanın hansı yerindəsə onu gözləyən öz balaca ölümünə sarı baş alıb getdi.

Müslüm də bu kəndə gəlib çıxmışdı; ancaq o ÇIĞIRTININ bərkliyi hələ də səsindəydi, neynirdi-səsini əyə bilmirdi, heç nə soruşa bilmirdi, danışa bilmirdi.

Əmisi qızı süfrə açdı; Müslüm bu kəndin çörəyindən yedi, suyundan içdi, - o çörəyin dadı, o suyun tamı nəfəsinə hopdu, səsinə qarışdı, səsi yumşaldı, sözə yatdı, dili açıldı, danışdı.

Amma yenə elə söz vardı ki, deyə bilmirdi, elə şey vardı ki, soruşmağa ürək eləmirdi. Məsələn: "O gəlin necə oldu, əmimoğlunun arvadı?!.."

Ancaq o gəlini soruşmağa ehtiyac qalmadı. Qapı açıldı, o gəlin özü gülə-gülə girdi içəri.

...Pəəh, gəlin bacı, deməli sən də burdaymışsan, bu kənddəymişsən. Maşalla, göz dəyməsin, heç dəyişib-eləməmisən!..

O gəlin doğrudan da heç dəyişib-eləməmişdi; sinəsi atdana-atdana gəlirdi, saçı çiyinlərindən daşırdı, gülüşü dodaqlarından, yerişi ayaqlarından daşırdı, - o gəlin özü də, deyirdin bu saat əynindəki o donun içindən daşıb-töküləcəkdi.

O gəlin saçıynan, döşüynən, gülüşüynən, yerişiynən bircə dəqiqənin içində bu evdəki boşluğu doldurdu. Bu otaq birdən-birə Müslümə dar gəldi, canı istiləndi, tərlədi.

Və o gəlin gülə-gülə düz Müslümün üstünə yeridi:

- Xoş gəlmisən, - dedi, - Müslüm qardaş! Həmişə evində-eşiyində!..

...Nə ev-eşik, hansı ev-eşik?

O gəlin yoxsa Müslümü ələ salırdı?

Müslümün evi-eşiyi nə gəzirdi?!

Bir cüt ev idi; biri həyətin bu başında, biri o başında. O bir cüt evin birini Müslüm öz əliynən tikmişdi. Ancaq bu saat bu həyətdəki o bir cüt evin bircə qarış torpağına da Müslümün yiyəliyi çatmırdı.

Bu kənddən Müslümnən bir yerdə davaya neçə-neçə cavan getmişdi, o cavanların neçələri ölmüşdülər, bu düynanın uzaq-uzaq yerlərində həmişəlik baş qoyub yatmışdılar, ancaq Müslüm ölməmişdi, o odun-alovun içindən başını sağ-salamat qurtarıb yenə qayıtmışdı bu kəndə və bu dəqiqə bu kənddə Müslümün baş qoyub yatmağa yeri yox idi.

Orasını Müslüm birdən-birə başa düşdü, diksindi.

Gecə yarıdan ötmüşdü, sədr Şərif çıxıb getmişdi, arvadlar dağılışmışdılar. Qalan elə üçüydü; o gəlindi, Müslümdü, bir də əmisi qızıydı.

Danışmağa sözləri də qalmamışdı. Eləcə, çırağın işığında üzbəüz oturub bir-birinin üzünə baxırdılar. O çırağın da ki, işığından çox hisi vardı; bayaqdan yanırdı, nefti lap azalmışdı, piltəsini lap qaldırmışdılar.

Müslüm yol gəlib yorulmuşdu. Yuxu gözündən tökülürdü. Ancaq harda yataydı axı, hansı evdə yataydı?

Bu evdə bu qız, o evdə o gəlin.

Yenə bu gecəlik bir qonaq aparan olsaydı, dərd yarıydı.

Ancaq Müslümü qonaq aparmaq görünür Şərifin yadından çıxmışdı, arvadların da aparmağı yaxşı çıxmazdı.

Müslüm fikirləşdi ki, ya indi bu qıznan gəlin burda qalarlar, Müslüm gedib əmisi oğlugildə yatar, ya bu qıznan gəlin gedib əmisi oğlugildə qalarlar, Müslüm burda yatar.

Və elə bunu fikirləşirdi ki, o gəlin durdu ayağa:

- Həə, Müslüm qardaş, - dedi, - day gecdi, mən gedim... Sən də yol gəlmisən, yorulmusan, yat, dincini al...

Dedi, qapıdan çıxdı, getdi.

Ancaq Müslümün əmisi qızı deyəsən heç yerindən tərpənmək fikrində deyildi. Səssizcə oturub gözünü zilləmişdi Müslümə, baxırdı.

Birdən Müslümün yadına düşdü ki, bu gün hələ bu qızın səsini eşitməyib.

Doğrudan da, bu qız bayaqdan bəri Müslümnən bir kəlmə də kəsməmişdi. Bütün günü Müslüm nə soruşub-eləmişdisə, cavabını o arvadlar vermişdilər, sədr Şərif vermişdi, sonra da o gəlin dil-dil ötmüşdü, - bu qız da beləcə, səssiz-səmirsiz oturub gözünü zilləmişdi Müslümə, baxdıqca baxmışdı.

Bəlkə bu qız heç Müslümə baxmırdı, bayaqdan, günün günortasından bəri yatırdı; eləcə, oturduğu yerdə, gözüaçıq yatırdı.

Müslüm zəndnən o qızın üzünə baxdı. O qızın gözləri açıq idi, amma gözlərinin bir cüt giləsi donmuşdu, tərpənmirdi, - elə bil o qızın hər gözünün içinə bir paslı mismar çalmışdılar və bu dəqiqə bu çırağın işığında o qızın gözlərinin bir cüt giləsi bir cüt paslı mismar başı kimi qaralırdı.

Bu neçə ili bu qız görünür çox ağlamışdı; canında, qanında nə şirə vardısa hamısı göz yaşına çıxmışdı, yazıq qupquru qurumuşdu, lap gözlərinin içinəcən qurumuşdu, deyirdin bu dəqiqə kirpiyini kirpiyinə sıxsa gözləri ovulub tökülləcək.

O qızın gözlərinə baxa-baxa Müslüm birdən hiss elədi ki, boğazı quruyub. Udqundu, gözünü o qızın gözündən çəkib dodaqaltı mızıldandı:

- Suyun var?

Qız dinmədi.

Vedrə qapının ağzındaydı.

Müslüm durdu, getdi, baxdı; vedrə boş idi.

Yenə bir o qıza baxdı, bir o vedrəyə, - səssizcə evdən çıxdı. Həyətin o başından, əmisi oğlugilin evindən işıq gə-

lirdi. O gəlin hələ yatmamışdı. Ancaq Müslüm bir içim sudan ötrü o gəlinə ağız açmadı, yavaşcadan həyətin qapısını açdı, çıxdı bayıra.

Aylı bir gecəydi, bütün kənd yatırdı. Nə bir evdə işıq yanırdı, nə bir həyətdə it hürürdü. İtlər də yatmışdılar, bu kəndi göydəki ayın ümidinə qoyub getmişdilər yuxuya.

Təkcə bu kəndin çayı oyaq idi.

Hardansa aşağıdan o çayın şırıltısı gəlirdi, qurbağaların qurultusu gəlirdi.

Müslüm o suyun səsinə üz tutub getdi, kənddən çıxdı, çayın qırağına yendi, əvvəlcə o suda əl-üzünü yudu, sonra ovcunu doldurub içdi.

Doğrudu, mayın ortasıydı, amma necə olsa hələ yaz idi, su soyuğuydu, adamın əlini, dilini kəsirdi. Hava da heç elə canqızdıran deyildi. O havanın sərinliyi, o suyun soyuqluğu Müslümün canına doldu, onu üşütdü, qarıxdırdı, çayın qırağından yenə üzüyuxarı, kəndə sarı qovdu.

Bütün kənd yatırdı; arvadlı-uşaqlı, itli-pişikli, hamısı yatırdı.

Ayın işığı evlərin pəncərəsinə düşürdü.

Bu dəqiqə o evlərdə yatan arvadların hamısını, cavanından qocasınacan Müslüm tanıyırdı, amma bu pəncərələrdən heç birisini döyməyə ərki çatmırdı.

...İlahi, barı heç olmasa Fatma sağ olaydı!..

Ancaq Fatmanın nə özü vardı, nə pəncərəsi...

***

Yazıq Fatma!.. Davanın ikinci ili öldü, deyirlər, payızda canını tapşırdı.

Arvadlar deyir, o ilin yayı yenə quraqlıq gəlmişdi. Nə mer-meyvə dərmişdik, nə taxıl-maxıl yığmışdıq, hamısını

göndərmişdik davaya. Özümüz daraşmışdıq çöldə-yamacda otun canına.

Xörəyimiz otuydu, çörəyimiz otuydu.

Adını-dadını bildiyimiz nə ki yeməli ot vardı, hamısını yığdıq, yedik, qurtardıq; yemlik, əvəlik, quzuqulağı, qulançar, heç nə qoymadıq.

Amma çöldə-yamacda ot hələ çox idi. Qoyun-quzu otlayırdı, baxırdıq, ağzımızın suyu axırdı.

Yaxşı, deyirik, bu ot ki qoyun-quzunu öldürmür, bəlkə elə bizi də öldürməz. Amma yenə o otu dilimizə vurmağa ürək eləmirdik. Uşaqları da çölə-yamaca buraxmırdıq. Qorxurduq, birdən nəfslərini saxlamazlar, o pis otdan-zaddan yeyərlər, Allah eləməmiş zəhərlənib-eləyərlər.

Uşaqlar acından ağlaşırdılar, çığrışırdılar.

Bax onda Fatma dadımıza çatdı.

Bu kənddə Fatma kimi ot tanıyan yox idi. Neçə-neçə illər bundan qabaq, hələ lap qız vaxtı, anasının sağlığında, tez-tez tutması tutardı, baş götürüb evdən qaçardı, günlərnən çöldə-yamacda qalardı, tapıb gətirənəcən yediyi elə bu otlar olardı; bu otların hər çikinə-bikinə bələdiydi.

O il də, bütün yayı, payızı Fatma gününü çöldə-yamacda keçirtdi. Bizim bələd olduğumuz bircə dənə yeməli ot da qalmamışdı, amma Fatma yenə çöldən yığışmırdı. Özü də heç ac adama oxşayıb eləmirdi.

Ürəyimizdə deyirik, dəlidən doğru xəbər. Bəlkə yenə bu otların arasında nəsə bir yeməlisi var. Fatma tanıyır, biz tanımırıq.

Nə isə...

Fatmanı kim tovladı, nə dedi, nə başa saldı, orasını bilmədik. Bəlkə elə özünün o ağlayan uşaqlara yazığı gəldi. Hər nəydisə, bir gün gördük budu, gəlir, qucağı otnan dolu; bir cür belə uzunsov, ətli-canlı otuydu.

Baxdı üzümüzə, otu ovuclayıb basdı ağzına, yedi, ləzzətnən ağzını marçıldadıb güldü, otu uzatdı bizə.

Biz də eləcə, qorxa-qorxa, çəkinə-çəkinə əlimizi uzatdıq; o otdan birini dilimizə vurduq, ikisini, üçünü. Gördük, yox balam, ölmürük. Fatmanı qatdıq qabağımıza, getdik, o otdan qucaq-qucaq, torba-torba yığdıq, gətirdik. Sabah da elə, birisi gün də, o birisi gün də...

Eləcə, o il payızın axırınacan Fatma əlimizdən tutdu. Ömründə dilimizə vurmadığımız, adını-dadını bilmədiyimiz otlardan bizə yedirtdi.

Ancaq payızın axırına o otlar hamısı sovulub qurtardı. Təkcə qarğı kimi qartımış, saralmış zəhərli otlar qaldı.

O otlara heç qoyun-quzu da yaxın düşmürdü.

Uşaqlar yenə acından başladılar ağlaşmağa.

Yazıq Fatma yəqin onların səsinə dözmədi, kənddən çıxıb getdi. Axşamacan çölü-yamacı gəzib dolaşdı. Axşam əliboş qayıdıb gəldi. Heç kəsin üzünə baxmadı, girdi evə, qapını örtdü. Ha gözlədik çıxmadı. Heç pəncərənin qabağında da görünmədi.

Dedik, yazıq yəqin yorulub, yatır.

Biz də gecəni yatdıq. Səhər durub baxdıq; Fatma yenə pəncərənin qabağında yox idi.

Günorta oldu, Fatma oyanmadı.

Uşaqlar acından çığrışırdılar.

Birdən ürəyimizə nəsə damdı. Cumduq, qapısını itələyib girdik içəri, gördük gecdi.

Yazıq Fatma ölmüşdü; eləcə, evin ortasında üzüqoylu düşüb qalmışdı, gömgöy qusub ölmüşdü.

Yazıq Fatma, yazıq Fatma!..

Üstündə ağladıq, deyirlər. Aparıb basdırdıq, üstünü torpaqladıq. Bir qarnı ac-bir qarnı tox birtəhər başımızı sax-

ladıq; qış ötdü, yaz getdi, yay gəldi... Pəəh, o ilin yayı nə gözəl gəldi, Allah, nə bolluq oldu!..

Budaqlarda almaların yanağı qıpqırmızı qızarırdı. Tənəklərdə üzümlərin giləsi qapqara qaralırdı. Zəmilərdə sünbüllərin dənəsi sapsarı saralırdı...

O il taxıl çox idi. Davaya da göndərdik, özümüzə də qaldı. Axır ki, qarnımız bir doyunca çörək gördü.

Yazıq Fatma, yazıq Fatma!..

Elə şirin-şirin çörək yediyimiz yerdə birdən gözümüz sataşırdı pəncərəsinə, tikə ilişirdi, boğazımızdan keçmirdi.

Sədr Şərif də Fatmanın pəncərəsinə baxa bilmirdi. Hər görəndə diksinib üzünü çevirirdi, - o dəqiqə də kolxozun taxıl anbarını görürdü.

O taxıl anbarı Fatmanın eviynən üzbəüzdü. Bütün qışı-yazı boş qalmışdı, üstündə göz olan-zad olmamışdı. Boş anbarın nəyinə göz olaydılar? Böyrünü-başını sel-su yuyub uçurtmuşdu. Taxta-tuxtasını camaat söküb aparmışdı.

Ancaq indi sədr Şərif görürdü ki, yox, o anbarsız ötüşmək çətin məsələdi. Çünki indi taxıl vardı. O taxıldan bu camaatın dar gününə də bir şey saxlamaq lazımıydı; qabaqdan dağ kimi qış gəlirdi.

O anbarın da ki, hay-hayı gedib vay-vayı qalmışdı. Onun uçuğunu-söküyünü tikmək uzun iş idi.

Sədr Şərif bir o anbara baxdı, bir Fatmanın pəncərəsinə; camaatı yığdı, Fatmanın pəncərəsini daşnan hördük, bağladıq, - evini anbar elədik, taxıl anbarı...

***

Anbar anbarlığında, amma o camaat görünür bir az naşılıq eləmişdi. Fatmanın pəncərəsini düz-əməlli hörə bilməmişdilər.

Müslüm dayanmışdı, baxırdı.

Ayın işığında o pəncərənin yeri açıq-aşkar bilinirdi. O pəncərənin yerindən divar qəbir kimi qabarıb qalxmışdı. O pəncərəni bu divarda basdırıb dəfn eləmişdilər.

Müslüm birdən qəribsədi, darıxdı.

Elə bil o pəncərə Müslümün axırıncı ümidiydi. Day bu kənddə, bu ayın işığında Müslümün heç bir ümid yeri qalmamışdı; tək idi, kimsəsiz idi.

...İlahi. Müslüm bu kəndə niyə qayıdıb gəlmişdi axı?.. Bir elə yolu vurub kimdən ötrü, nədən ötrü gəlmişdi?!..

Amma o yol doğrudan da uzunuydu, qardaş; ağzınacan saldat dolu bir qatar idi, şəhərlərdən ötürdü, kəndlərdən keçirdi. Sarışın-sarışın qızlar o qatarın qabağına çıxırdılar, dalınca yüyürürdülər, çığırırdılar, saldatları çağırırdılar:

- Saldaat!.. Saldaat!.. - deyirdilər, - İnəyim var, donuzum var, ördəyim var, qazım var!.. Düş qal, məni al!.. - deyirdilər.

O saldatlardan düşəni də olurdu.

Amma sən düşmədin, qardaş, bu kəndi heç hara dəyişmədin. O sən, bu da bu kənd!..

Hamısı rahatca yıxılıb-yatıb. Sən adda adam varsan, yoxsan, yatmısan, oyaqsan, - heç veclərinə də deyil.

Amma yoox, sən demə bu kənddə Müslümdən savayı da oyaq olan varmış, Müslümün dərdinə qalan varmış.

O kəndin səssizliyində Müslüm birdən öz adını eşidib diksindi. Kimdisə, yavaşcadan onu çağırırdı.

O səs yuxarıdan, əmisigil tərəfdən gəlirdi. Amma o səsin yiyəsi o qızdımı, yoxsa o gəlindimi, orasını Müslüm ayırd eləyə bilmədi.

...Orası nəyinə lazımdı, qardaş? Çağırırlar, Allahına şükür elə, get, yat. Əmingildəmi, əminoğlugildəmi, toyuq hinindəmi, it damındamı, - harda yerini salsalar, başını at, yıxıl-yat!..

Müslüm kəndin içiynən ağzıyuxarı, əmisigilə sarı üz tutub getdi. Həyətin qapısını açdı, girdi içəri.

Həyətdə heç kəs yox idi. Amma həyətin ortasında, o tut ağacının altında yerə bir kömköhnə, bomboz döşək salmışdılar.

O döşək Müslümə yaxşı tanış idi. Davayacan illər boyu elə o döşəkdə yatmışdı, o döşəkdə yata-yata böyüyüb boy atmışdı.

Müslüm böyümüşdü, amma o döşək böyüməmişdi. Nə boydaydısa, o boyda da qalmışdı. Bu döşək elə o vaxt da Müslümə balacaydı. İndi yəqin heç kürəyinin yarısını da tutmazdı.

...Belə, əmiqızı, payın artıq olsun!.. Yetimdən yetimə pay düşməz, deyirlər. Sən yetim, mən yetim, o gəlin yetim, - pəəh, ev deyil ha, yetimxanadı!..

Həə, gəlinbacı, deməli sən də bu kəndin adamı oldun-getdin. Amma neyləyəydin, a yazıq, bu kəndi qoyub hara gedəydin, getməyə yerin nə gəzirdi?!.. Yenə burda heç olmasa başının üstə damın var. Yat o damın altda, gəlinbacı, yuxuda o gözəl günlərini gör, o rəhmətlik ərini gör, o yarımçıq dörd divarın arasında oğurluqca bu dünyadan kəm aldığınız o gecələri yadına sal, ağla!.. Amma heç ağlayana oxşamırsan, gəlinbacı, vallah oxşamırsan...

Amma sən ağlamısan, əmiqızı, bu neçə ili görünür çox ağlamısan. Qardaşın ölüb - ağlamısan, anan ölüb - ağlamısan, atan ölüb - ağlamısan. Ölsəm - mənə də ağlayardın. Amma mən ölmədim, gəldim, - mənə qıydığın bircə bu cırıq döşək oldu!..

Pəəh!..

Sən də nə qoyub, nə axtarırsan, qardaş, bu döşəyin cırığıynan nə işin var? Yenə bunu salıblar böyük işdi. Sən hələ bir de görüm bunun yastığı hanı, yorğanı hanı?

Doğrudan da, o ağacın altında elə bir quruca döşəkdi. Nə yastıq vardı, nə yorğan.

Yastıq heç, amma bu gecə o ağacın altında yorğansız yatmaq çətin məsələydi.

O çayın qırağında Müslümün canına dolan soyuq hələ çıxmamışdı. O çayın qırağındakı qurbağalar da kirimək nədi - bilmirdilər, quruldaşdıqca quruldaşırdılar. O qurbağaların səsini eşitdikcə Müslümün canı bir az da üşüyürdü.

...Fikir eləmə, qardaş, onsuz da üzü yaya gedir. Bir gecə bu ağacın altında yorğansız yatanda nə olar? Lap belə bir gecə olmasın, beş gecə olsun. Sən bunun sonrasını fikirləş; payızını, qışını... Yorğanlı, yorğansız bu ağacın altında haçanacan yatacaqsan axı?..

Həə, nooldu, canım-gözüm?! Yaxşı, yaxşı, titrəmə görüm, o payızın-qışın xofu səni basmasın. O payıza, qışa hələ çox var, o vaxtacan başına bir çarə qılarsan. Sən hələ bu gecəni bir təhər yat, elə bu ağacın altında, bu döşəyin üstündə yat, yuxunu al, yazıqsan, yol gəlmisən, ode, ayaq üstə dura da bilmirsən, yuxu gözündən tökülür...

Nədi? Nə deyirsən? Bu ağacın altında yorğansız yatmaq çətin məsələdi?!

Noolar, yorğan deyirsən - yorğan olsun, yəni bu bir cüt evdə sənə bir cırıq yorğan tapılmayacaq?!..

Amma yoox, bir cüt ev deyəndə ki, nə bir cüt ev? O gəlin heç, o gəlini çıx, gecənin bu vaxtı yorğan nədi, lap belə can dərmanından ötrü ola, o gəlinin qapısını döymək ayıbdı. Bir də ki, deyir, daşın-divarın da qulağı var, Allah adamı bu camaatın söz-sovundan saxlasın!

O ki qaldı yorğana - bu döşəyi kim salıbsa, elə yorğanı da ondan istə; get, yavaşcadan qapısını döygünən, əmiqızı, deyinən, ay-əmiqızı, döşəyi vermisən, yorğanı da ver!.. Ta bunun utanmalı yeri yoxdu ha, əmiqızı dediyin nədi -

elə bacı kimi bir şeydi. Lap belə bacı olmasın, olsun o məsələ, - hansı ağzıgöyçək nə deyə bilər axı? Əmiqızıynan əmioğlunun kəbini elə göydə kəsilib! Həə, bir qapını tıqqıldat görüm!..

Müslüm yavaşcadan əmisigilin qapısını tıqqıldatdı, pıçıltıynan əmisi qızını çağırdı:

- Əmiqızı, - dedi, - ay əmiqızı...

İçəridən səs gəlmədi; əmisi qızı yəqin yatırdı.

Müslüm yavaşcadan qapını itələdi; qapı açığıdı.

...Həə, işin düzəldi, qardaş, o qız yatır qoy yatsın, o qızı neynirsən axı, - sən gir içəri, yorğanını götür...

Müslüm içəri girdi, ayağının ucunda yeriyə-yeriyə, əyilə-əyilə o küncü-bu küncü axtardı.

Yorğan nə gəzirdi?

Bu evin içində ay işığından başqa heç nə yox idi.

Təkcə evin bir küncündə, bir varxtlar o sandıq qoyulan yerdə indi əmisi qızı yorğana bürünüb yatmışdı. O sandığı yəqin satmışdılar. Bu evin bu gün Müslümün gözünə o cürə bomboş görünməyinin bir səbəbi də yəqin elə o sandığın yoxluğuydu.

Amma bu dəqiqə Müslümün yadına sandıq-zad düşmürdü, Müslümə yorğan lazımıdı.

Qapı bir balaca aralıydı; o qapının arasından Müslüm çayın qırağında quruldaşan qurbağaların səsini eşidirdi. O səs Müslümü üşüdürdü. Müslüm eləcə, ayağının ucunda getdi, qapını bərk-bərk örtdü; day qulağına səs-zad gəlmirdi, amma o üşütmə hələ də canındaydı.

...Pəəh, o yorğana nə bərk bürünmüsən, əmiqızı, yoxsa sən də üşüyürsən?

Əmisi qızı yorğanı lap başınacan çəkmişdi, o yorğanın altında tamam itmişdi, heç görüküb-eləmirdi.

...Başını çıxart, əmiqızı, yazıqsan, nəfəsin darıxar!..

Kim bilir, bəlkə elə bu dəqiqə bu qızın bədəniynən o yorğanın arasında da bir boşluq vardı, bəlkə bu qız o boşluğu öz nəfəsiynən doldurmaq istəyirdi, - amma hər nəydisə, qardaş, o yorğanın altı bu dəqiqə yəqin istiydi, vallah istiydi!

...Amma o yorğanın altı doğrudan da istiydi; səhər Müslüm o yorğanın altından çıxanda əməlli-başlı tərləmişdi.

Əmisi qızı hələ də yatırdı.

Bu qız bütün gecəni guya beləcə yatmışdı, nə Müslümün o yorğanın altına girməyindən xəbər tutmuşdu, nə gözünü açmışdı, nə səsini çıxartmışdı...

Müslüm qalxdı, gərnəşdi və pəncərədən o gəlini gördü.

O gəlin də oyanmışdı, öz evində, pəncərənin qabağında dayanmışdı, Müslümnən üzbəüzdü, amma onu görmürdü, o tut ağacının altındakı döşəyə sarı baxırdı, gözünü dolandırıb o döşəyin yan-yörəsini axtarırdı. Bəlkə elə Müslümü axtarırdı?!

Qəflətən Müslümü gördü, çaşdı, qarıxdı, bir ona baxdı, bir o döşəyə, - kirimişcə pəncərənin qabağından çəkildi.

Və Müslümün ürəyinə xal düşdü.

Bəlkə elə hamısını eləyən bu gəlin idi. Bu gecə Müslümü çağıran da, bu döşəyi salan da. Bəlkə elə bu gəlinin də vur-tut bircə yorğanı vardı və bu gecə səhərəcən bu gəlin o yorğanın altında vurnuxmuşdu, Müslümü gözləmişdi.

...Tfu, lənət şeytana!..

O gün Müslüm o həyəti ortadan çəpərləyib yarı böldü; o gəlin çəpərin o tayında qaldı, Müslümnən əmisiqızı bu tayında. O tut ağacı da çəpərin bu tayına, Müslümgilin payına düşdü.

Müslüm yorulmuşdu, elə o ağacın altındaca oturdu, əmisiqızı çay dəmlədi, gətirdi.

...Həə, qardaş, ta bundan artıq nə istəyirsən; bu evin, bu arvadın. Başını sal aşağı, işini gör, oğuldan-qızdan törət, yaşa, ömrünü sür!

Amma o necə ömür sürmək idi, Allah, bu neçə ili bu evdə bu arvadnan yaşamaq nə yaşmaq idi?!

...Yaxşı, yaxşı!.. Ömürdən-gündən çox da gileylənmə. O ömrü ki sən özün özünə seçmisən, özgəsi seçməyib!..

Bir həyət idi, bir cüt ev idi, biri həyətin bu başında, biri o başında. Birində o qız, birində o gəlin. Bir də, həyətin ortasında bir ağac idi, altında da bir döşək. Bir də, sən idin, o döşəyin böyründə dayanmışdın və sənə yorğan lazım idi...

O yorğandan ötrü sən o qızın da qapısını döyə bilərdin, o gəlinin də.

Sən o qızın qapısını döydün, payına düşən də bu ömür oldu, bu ev-eşik, bu arvad-uşaq oldu. Əgər o gəlinin qapısını döysəydin, payına da yəqin bir ayrı ömür düşəcəkdi, bir ayrı ev-eşik, arvad-uşaq düşəcəkdi...

Amma yoox, uşağı demə, - o gəlin axı doğmurdu.

Yazıq əmioğlu!.. Öldü-getdi, yerində bir nişanı da qalmadı.

Müslüm ha üzünü çevirirdi, ha gözünü yayındırırdı, yenə çəpərin üstən hər gün o gəlini görürdü.

Çəpər alçağıydı, toyuq-cücə çəpərin üstən tez-tez o gəlinin həyətinə adlayırdı. Müslümün arvadı çığırırdı:

- Ha kiş!.. Ha kiş!..

Çəpərin üstən o gəlini çağırırdı:

- Çimnaz bacı, a Çimnaz bacı!.. Sən Allah o toyuq-cücəni bəri elə!..

O toyuq-cücənin əlindənmi, ya nədənmi, Müslüm o çəpəri sökdü, yerini təzədən daşnan hördü, hasarladı.

O hasar hündürdü; toyuq-cücə adlaya bilmirdi. O gəlin də day o hasardan görünmürdü. Amma o gəlin gecələr

hərdən-hərdən Müslümün yuxusuna girirdi və Müslüm səhər oyanıb o hasarı bir daş da qaldırırdı.

Müslümün arvadı gecələr dünyadan xəbərsiz yatırdı.

O qız Müslümün arvadı olandan sonra da heç dəyişib-eləməmişdi. Yenə eləcə arığıydı, cansızıydı. O boşluq yenə eləcə, o yazığın canına sarmaşıb dururdu.

O arvad Müslümə bir oğul doğdu. Uşağa Müslümün əmisinin adını qoydular, əmisinin adını diriltdilər; uşağın adı Mahmud oldu.

O uşaq gecə-gündüz anasının qucağından düşmədi, boynuna sarmaşıb durdu; üz-gözüynən, əl-ayağıynan, güləndə gülməyiynən, ağlayanda ağlamağıynan o yazığın canındakı boşluğu doldurdu.

Amma o boşluq görünür tamam çəkilib getməmişdi.

O arvad ondan sonra da neçə dəfə uşağa qaldı, amma o uşaqların heç birini öz bətnində doqquzca ay saxlaya bilmədi; hamısını yarımçıq saldı.

...İlahi, bəlkə o boşluq indi də o yazığın bədəninə yerimişdi, bətninə dolmuşdu. O uşaqlar o boşluqda duruş gətirə bilmirdilər, yarımçıq düşürdülər.

Amma o yazıq neyləyə bilərdi?!

O boşluğu gərək sən dolduraydın, qardaş, - bir xoş söznən, bir mehriban baxışnan, bir şirin öpüşnən gərək sən dolduraydın...

Amma öpüş-zad nə gəzirdi? Müslüm o arvadı bircə dəfə də öpüb-eləməmişdi.

O necə ər-arvadlığıydı, Allah?!

Gündüzlər elə gəzib-dolanırdılar ki, güya gecələr nə olurdu-orasından heç birisinin xəbəri yox idi. Gündüzlər o arvad eləcə Müslümün çayını dəmləyirdi, xörəyini bişirirdi, daşını verirdi, palçığını tuturdu. Müslüm əmisindən qalma o evin böyür-başını tikirdi, böyüdürdü.

İndi yatmağa otaq da çox idi, yorğan-döşək də. Amma Müslüm gecələr yenə hərdən-hərdən o arvadın yanına girirdi. Neynirdi-neyləmirdi, o arvad yenə nə gözünü açırdı, nə səsini çıxarırdı. Bəlkə Müslüm bircə dəfə onu öpsəydi, o yazıq gözünü açardı, səsini çıxarardı. Amma Müslüm o arvadı öpməyə qorxurdu. Elə bil öpsə, o öpüşün yeri qalacaqdı, o gecələrin sirri açılacaqdı və ondan sonra gecələr o arvadın yanına girmək Müslümün boynuna düşəcəkdi, vəzifəsi olacaqdı.

...Amma bir gecə o arvad dözmədi. Qəflətən eləcə, gözüyumulu, səssiz-səmirsiz Müslümün boynuna sarmaşdı; üzünü, gözünü, dilini, dodağını öpdükcə öpürdü, doymaq bilmirdi, canındakı o boşluq dolmaq bilmirdi...

Müslüm o arvadın əlindən necə qurtardı, o otaqdan necə çıxdı, öz yerinə necə girdi, necə yatdı, - orasını bir Allah bilir.

Səhər oyandı, qorxa-qorxa getdi, otağın qapısını aralayıb baxdı.

Arvadı hələ yatırdı.

...Amma o yatan doğrudanmı o arvad idi?!

Yazığın üzü, gözü, yanağı, dodağı, hamısı şişmişdi, köpmüşdü.

Müslüm elə bildi o arvad ölüb, çığırdı.

O arvad gözünü açıb Müslümə baxdı, birtəhər dirsəklənib qalxdı, - yazığın əlləri, ayaqları da şişmişdi.

O arvad o gün o ayaqlarnan yeridi, o əllərnən çay dəmlədi, xörək bişirdi.

...Amma yoox, o arvad indən belə neyləsə də ölmüşdü. Vallah-billah ölmüşdü!..

Bunu o arvad bilməsə də, Müslüm kişi bilirdi. O gündən bəri gör neçə iliydi ki, bilirdi.

Bunu yəqin illər boyu o arvadın qanını soran zəlilər də bilirdilər...

***

...Hər dəfə o zəlilərin dalınca gedəndə, Müslüm kişi bir boş banka götürüb lap ertədən evdən çıxardı, səhərin gözü təzə-təzə açılanda gəlib zəlilər olan gölməçəyə çatardı.

Zəlilər hələ yatırdılar.

Müslüm kişi əvvəlcə bankanı suynan doldurardı.

Səhərin belə erkən vaxtı o gölməçənin suyu sərin olurdu, təmiz olurdu. O suyun üzünə hələ gün işığı dəyməmişdi. Camışlar, öküzlər hələ ağnayıb o suyu lilləndirməmişdilər.

O suyun dibində qıvrılıb yatan zəlilərin də ən ac vaxtı indiydi.

Müslüm kişi istəsəydi o zəliləri xəlvətcə, elə o cür yuxulu-yuxulu ovuclayıb bankaya tökərdi. Ancaq Müslüm kişi var gücüynən suyu şappıldadırdı, zəliləri səksəndirib oyadırdı, yazıqların başına yüz cür oyun açırdı, əlini suya salıb - çəkirdi, zəliləri acıqlandırırdı, qıcıqlandırırdı. Zəlilər əqrəb kimi, ilan kimi, it kimi, qurd kimi qudurdular, qabarırdılar, altdan yuxarı Müslüm kişinin əlinə sarı dartınırdılar, cumurdular.

O zəlilər hirsdən-hikkədən lap dəli olanda, Müslüm kişi qəflətən əlini suyun içində ləngidirdi. Zəlilər əl-qoluna daraşırdılar, ancaq düz-əməlli yapışmağa fürsət tapmırdılar. Müslüm kişi o dəqiqə əlini sudan çıxarırdı, zəliləri sivirib tökürdü bankaya.

Qayıdanbaş bütün yolu o bankanın içindən qulağına o zəlilərin ilan kimi fışıltısı gəlirdi, "dişlərinin qıcırtısı" gəlirdi və nəhayət o zəlilər bir sürü qudurmuş it kimi, qurd kimi hürüşə-hürüşə, ulaşa-ulaşa o arvadın canına daraşırdılar.

...Bəs o zəlilər o arvadın canını niyə ala bilmədilər, ilahi?!

Amma o zəlilərdə də günah yox idi.

O zəlilər bu arvadın canını necə alaydılar? Bu arvadın canı axı bir deyildi, ikiydi; biri özündəydi, biri oğlunda.

Bu ev-eşiyin yiyəsi də, Müslümün ağası da yenə onlarıydı; əmisi Mahmud yoxdu - oğlu Mahmud vardı. Müslüm də ki, yenə onların nökərçiliyini eləyirdi, odunlarını yarırdı, divarlarını hörürdü, əyinlərinin paltarını alırdı, qarınlarının çörəyini verirdi.

...Bir otağı iki elədin, qardaş, ikini dörd, dördü səkkiz, ancaq bu ev yenə səninki olmadı. Çünki bu evin bünövrəsini sən qoymamışdın, özülünü sən qazmamışdın...

Müslüm o divarları hördükcə hörürdü, hündürünə, uzununa, eninə, bu evi böyütdükcə böyüdürdü; o daş-divarın ağırlığıynan bu evin özülünü yuxarıdan basıb batırmaq istəyirdi, yerin tərkində itirmək istəyirdi.

Guya onda hər şey düzələcəkdi, bu ev Müslümünkü olacaqdı.

...Amma yoox!.. Bu evdən bir az o yanda, bu hasarın o tayında damı görünən o evin özülünü sən qazmışdın, qardaş, bünövrəsini sən qoymuşdun, - ancaq o ev də səninki deyildi...

- ...Çimnaz bacı! A Çimnaz bacı!..

- Nə var, a Müslüm qardaş, yoxsa yenə toyuq-cücə adlayıb?..

- Yox əşi!.. Bu boyda hasardan toyuq-cücə adlayar?

- Bəs xeyir ola?

- Heç əşi!.. Bizim bu arvadın bir-iki yerinə zəli qoymaq lazımdı. Məndən utanır, deyir bəlkə sən gələsən.

- Bu saat, Müslüm qardaş, bu saat. Əlimi yuyum - gəlim.

Hasarın o tayında su şırıldayırdı, Çimnaz əlini yuyub gəlirdi. Ağappaq, yupyumşaq əliynən zəliləri bankadan çıxarıb o arvadın bədəninə düzürdü.

...O zəlilərin hirsini-hikkəsini soyudan da bəlkə elə Çimnazın əliydi. Çimnazın əlinə dəyən kimi o zəlilər məst olurdular, yumşalırdılar, sustalırdılar, o arvadın canını almağa heyləri qalmırdı.

Çimnazın əli!..

Çimnazın ayağı!..

Çimnaz!.. Çimnaz!..

Tfu!..

...Yoox, bu hasarı bir daş da qaldırmaq lazımdı!

Amma o hasarı adlamaq çətin deyildi. Hasar nədi, sənnən Çimnazın arasında lap qala divarı ola, lap ölüm ola, - adlayardın. Öz ölümündən adlayardın, qardaş, əmin oğlunun ölümündən adlaya bilmədin.

Yazıq əmioğlu!..

Harda öldü, kim basdırdı?

Bəlkə heç basdıranı da olmadı. Qurd-quşa yem oldu - getdi, bir quruca qəbri də qalmadı.

Niyə qalmadı? Bəs o hasar nə idi? Əmin oğlunun qəbri deyildi, nə idi?!

Yoxsa o hasardan aşmağa nə vardı ki?!..

O hasardan adlayardın, qardaş, o qəbirdən adlaya bilməzdin!..

Təkcə sən yox, bu kənddə özünə kişi deyən heç kəs qəbir üstdən adlaya bilməzdi. Heç qəssab Qəzənfər kimi əliqanlı cəllad da Əbilin qəbrindən adlaya bilmədi...

***

Qəssab Qəzənfər davadan doqquz il sonra qayıtdı.

Bu kənddə, davada itkin düşənlərdən, lap belə qara ka-

ğızı gələnlərdən hansının yolunu desən gözləyirdilər, hansı qayıdıb desən inanardılar, - bircə Qəzənfərdən savayı.

Qəzənfərin ölümünə bu kənddə inanmayan yox idi.

Çünki dəllək Əbil öz ölümüynən Qəzənfərin ölümünü təsdiqləmişdi, möhürləmişdi. Çünki Qəzənfər bir ölümnən yox, iki ölümnən ölmüşdü; öz ölümü, Əbilin ölümü.

Dəllək Əbil bir də o qəbristanlıqdan dirilib gələn deyildi və deməli, Qəzənfər də qayıda bilməzdi.

...Amma Qəzənfər qayıtdı.

Özündən qabaq xəbəri göndərdi:

- Qəzənfər qayıdıb!..

Eşidən-eşidən girdi evə, qapını bağladı. Bir adam qabağına çıxmadı, salam vermədi, salam almadı.

Bir dəqiqənin içində qəssab Qəzənfər öləndən öldürənə döndü.

- ...Qəzənfər gəlib!

- Hansı Qəzənfər?

- Dəllək Əbili öldürən Qəzənfər!

Bəli, dəllək Əbili Qəzənfər öldürmüşdü. Buna bu dəqiqə bu kənddə heç kəsin şübhəsi yox idi.

Ancaq kişi kimi öldürməmişdi.

Əgər Qəzənfər haçansa Əbili doğrudan-doğruya öldürsəydi, baltalasaydı, doğrasaydı, parçalasaydı, - bu camaat ondan belə sınmazdı. Ancaq Qəzənfər Əbili aldadıb öldürmüşdü; yalandan öz ölüm xəbərini göndərmişdi.

O xəbər gəlməsə, Əbil özünü öldürməzdi, dünyasında öldürməzdi.

...Allah pis arvadı heç düşmənə də qismət eləməsin. Arvad ki ayağı sürüşkən oldu, kişi lap şir ola - bacarmaz!

Amma Əbil doğrudan kişiydi!

O ülgücü necə itiləyirdi, Allah, necə itiləyirdi!..

Qəzənfərdən ötrü itiləyirdi, ancaq öz boğazını kəsdi.

Özünü öldürdü, qardaş, çünki elə bildi Qəzənfər ölüb. Elə bildi day Qəzənfəri öldürə bilməyəcək, o biqeyrətliyi üstündən silə bilməyəcək.

...Allah sənə rəhmət eləsin, Əbil!..

Qəssab Qəzənfər, əlində çamadan, tək-təkinə kəndin içində bir xeylək avaralandı, bom-boş küçəynən o baş-bu başa var-gəl elədi.

Küçənin bu başında Qəzənfərin eviydi, o başında Əbilin evi.

Eləcə, öz qapısından Əbilin qapısınacan neçə dəfə getdi-gəldi. Axırda deyəsən yoruldu. Öz qapısının ağzında çamadanı qoydu yerə, üstündə oturdu, bir papiros yandırıb başladı tüstülətməyə.

Qapı qıfıllıydı.

Pəncərələri də çöldən mıxlamışdılar, taxtalamışdılar.

Oba köçmüşdü, yurdu qalmışdı...

O pəncərədən, bu pəncərədən camaat Qəzənfərə baxırdı.

...İlahi, insanda üzə bax!..

Yoox, bu zalım oğlu deyəsən öz xoşuna çıxıb gedən deyil. Bu gün bu kəndi küçə üzünə həsrət qoyacaq. Beləsi ölməz, qardaş, beləsini torpaq götürməz.

Get, arvadın qırmızı geyinsin!

Yoxsa bilmirsən hara gedəsən?

Şəhərə get, şəhərə!..

Oddan kül törəyər, deyiblər, küldən od. Sənin oddan od oldu. Oğlun da özün kimi fərəsətli çıxdı; getdi şəhərə, oxudu, qulluğa girdi, evləndi. Anasını da, qardaş-bacısını da apardı yanına. Xan kimi dolanır, deyirlər, ev-eşiyi, dəm-dəsgahı!.. Hamısı da nəyin hesabına? Səndən qalan o pulların hesabına!.. Yüz il yeyələr qurtarmaz. Qan iyi verən pullar! Heyvan qanı, insan qanı...

...Allah sənə rəhmət eləsin, Əbil!..

Əbilin uşaqları da kənddə deyildi.

Böyük oğlu Sumqayıtda fəhləlik eləyirdi. Balacasını da aparmışdı yanına, işə düzəltmişdi.

Deyir, yataqxanada qalırdılar. Noolar, qardaş, kim birdən-birə ev olub?.. Ayağı nərdivana bir-bir qoyarlar. Sumqayıt da ki təzə şəhərdi, elə bir ucdan tikilir. İnşallah, evəşik yiyəsi olarlar, analarını da apararlar yanlarına. Baxma, necə olsa anadı. İndi bir işdi olub, keçənə güzəşt deyərlər.

Amma gördün o köpəyoğlu neçə dəfə getdi-gəldi, qapısının ağzında hərləndi-fırlandı, bir dəfə qapıya çıxmadı, o köpəyoğlunun üzünə baxmadı.

Sağ olsun, qardaş, yenə sağ olsun!..

Ode, durub pəncərənin dalında, ağlayır.

Ağlayar, qardaş, ağlayar. Günahı böyükdü, ağlamasın, neyləsin? Yəqin Əbil yadına düşüb.

...Allah sənə rəhmət eləsin, Əbil!..

Qəzənfər oturmuşdu, papirosu papirosa calayırdı.

Amma camaat möhkəm durmuşdu. Elə bil sözü bir yerə qoymuşdular; özləri cəhənnəm, heç uşaq-muşağı da bayıra buraxmırdılar.

...Ancaq camaatın o birliyinə xələl qatan tapıldı.

Müslüm hasarın o tayından, Çimnazın həyətindən Qəzənfərin səsini eşidəndə diksindi.

- ...Nə əziyyət çəkirsən, qızım?!..

- Əziyyət nədi, a Qəzənfər dayı, yol gəlmisən, otur, çay iç, çörək ye.

Pəəh!..

Dayıya bax, qıza bax!..

Əbilin arvadı qocalıb, qardaş, day bu köpəyoğluna əl verməz. İndi də cavanını axtarır. Axtarır nədi, a kişi, cavan özü bundan yapışıb, qolundan tutub-gətirib; buyur-buyur. Qəzənfər dayı!..

Aayy səni dayısız qalasan!

Müslüm haçan yerindən atıldı, qapıdan çıxdı, Çimnazın həyətinə girdi, heç özü də bilmədi.

Süfrəni elə həyətin ortasında, otun üstə açmışdılar; xörəyidi, çörəyidi, bir-iki salxım üzüm, bir-iki dilim qarpız...

Çimnaz ayaq üstəydi. Qəzənfər kişi süfrənin başında bardaş qurub əyləşmişdi, amma hələ heç nəyə əl vurmamışdı.

Müslümü görəndə sevindiyindən dik qalxdı.

...Kərəminə şükür, Allah, axır ki, bu kənddə bir kişi üzü gördük!..

Müslümü qucaqladı, süfrəyə sarı dartdı:

- Gəl, bala, - dedi, - gəl oturaq!..

Elə dedi ki, Müslümün oturmaqdan savayı əlacı qalmadı.

Çimnaz Müslümə də xörək çəkdi.

Qəzənfər kişi səssizcə yerindən durdu. Çamadanı qapının ağzındaydı. Getdi, gətirdi, açdı, bir şüşə araq çıxartdı. Çimnazdan bir cüt stəkan istədi, birini öz qabağına qoydu, birini Müslümün qabağına:

- Həə, bala, - dedi, - içək!..

Elə dedi ki, Müslümün içməkdən savayı əlacı qalmadı.

İçdilər, yedilər.

Yedilər, içdilər.

Müslümün dili açıldı. Ordan-burdan danışdılar; camaatın dolanışığından, Qəzənfərin arvad-uşağından, oğlunun şəhərdəki ev-eşiyindən.

Müslüm danışırdı, Qəzənfər qulaq asırdı, hərdən başını tərpədirdi:

- Həə, bala, deyirsən bizim arvad-uşaq şəhərdədi?..

- Hə, Qəzənfər dayı, şəhərdədi.

Ancaq Qəzənfər özü bu neçə ili hardaydı, neynirdi, - orasından bir kəlmə də kəsmədilər.

Şüşə boşaldı və Müslüm susdu.

Qəzənfər kişi bir müddət dinməz-söyləməz o boş şüşəyə tamaşa elədi. Sonra handan-hana dilləndi:

- Həə, bala, deyirsən Əbil də özün öldürdü?!..

Ancaq elə sözü Müslüm deməmişdi.

Bayaqdan Əbilin adını bir dəfə də çəkməmişdilər; nə özünün, nə arvadının...

Qəzənfər kişi qəflətən əl-ayağa düşdü, yerindən qalxdı:

- Yaxşı, mən gedim, - dedi, - hava qaralır. Həvəsdi-bəsdi...

Çamadanı açdı, bir yaylıq çıxartdı, verdi Çimnaza:

- Al, qızım, - dedi, - bu sənin.

Çimnaz:

- Sağ ol, Qəzənfər dayı, - dedi, - payın çox olsun. Amma niyə tələsirsən, bir az oturaydın, hələ şəhərin poyuzuna da çox var.

Qəzənfər kişi bığaltı mızıldandı:

- Hansı şəhərin?!

Amma Çimnaz deyəsən eşitmədi.

Çamadan hələ də açığıydı.

Qəzənfər kişi birdən nə fikirləşdisə, o çamadanı ağzı üstə çevirdi, içindəkilərin hamısını tökdü yerə; arvad paltarı, arvad ayaqqabısı, ipək yaylıq, ipək kəlağayı, yun şal, yun jaket...

- Hamısı sənin, - dedi, - qızım, hamısı sənin. Gey, sağlığına qismət!..

Dedi, boş çamadanı götürdü, qapıdan çıxanda çiyninin üstdən Müslümə sarı çöndü:

- Dur, bala, - dedi, - gedək, məni yola sal!..

Elə dedi ki, Müslümün durmaqdan savayı əlacı qalmadı.

Stansiya kəndin yuxarısındaydı, ancaq Qəzənfər kişi kənd aşağı getdi.

...Bəlkə o stansiyadan heç Qəzənfər kişinin xəbəri yox idi, bəlkə Qəzənfər kişi bu qədər yolu elə payi-piyada vu-

rub gəlmişdi; kim bilir dünyanın harasından, bəlkə lap uzaq-uzaq illərin gerisindən, bəlkə lap o "qara kağız"ın arasından, bəlkə lap öz qəbrinin içindən durub gəlmişdi.

Niyə gəlmişdi, Allah, nədən ötrü gəlmişdi?!..

Dinməz-söyləməz kənddən çıxdılar, çayın qırağıynan üzüaşağı yenib getdilər, qəbristanlığın yanından keçəndə Qəzənfər kişi ayaq saxladı:

- Day burda ayrılaq, - dedi.

Elə dedi ki, Müslüm diksindi, yerində mıxlanıb qaldı.

Qəzənfər kişi tərpənmək istəyirdi ki, qəflətən ayağının altında bir pişik miyoldadı.

Səksənib baxdı və öz pişiyini gördü.

Pişik başını Qəzənfər kişinin ayağına sürtüb yazıq-yazıq miyoldayırdı.

Qəzənfər kişi əyilib pişiyin başını tumarladı.

Neçə il bundan qabaq arvad-uşağı şəhərə köçəndə bu pişik yaddan çıxmışdı, yazıq başlı-başına qalıb qocalmışdı, gözü tutulmuşdu, tükü tökülmüşdü.

Qəzənfər kişi köksünü ötürdü.

- Amma heyvan insandan vəfalıymış, - dedi.

Və birdən Müslüm onun bu qəfil gəlişinin səbəbini başa düşdü.

Yox, qardaş, heç şübhəsiz ki, Qəzənfərin hər şeydən xəbəri vardı; arvad-uşağı şəhərdədi, Əbilin uşaqları Sumqayıtdadı, Əbilin arvadı bu kənddədi, - hamısını bilirdi. Bəlkə elə bu kəndə də Əbilin arvadından ötrü gəlmişdi, o arvadnan bir yerdə bu kənddən baş götürüb getmək istəyirdi.

Hara?..

Dünyanın o başına!..

Bunu yəqin Əbilin arvadı da bilirdi, amma Qəzənfərin qabağına çıxmadı, pəncərənin dalında ağlaya-ağlaya qaldı.

Və Qəzənfər o pəncərəni vurub sındırmadı, o qapını çırpıb açmadı, o arvadı bağrına basmadı; Əbilin qəbrindən adlaya bilmədi, qardaş, adlaya bilmədi...

- ...Allah sənə rəhmət eləsin, Əbil!..

Müslüm o sözü Qəzənfərdən eşidəndə çaşdı.

Qəzənfər kişi dimdik dayanmışdı, qəbristanlığa sarı baxırdı.

Yenə bığının altında mızıldandı:

- Yerin behiştlik olsun, Əbil!.. - dedi.

Sonra günahkar-günahkar Müslümə baxdı:

- Gedib qəbrinə də baş çəkərdim, - dedi, çırtmaynan boğazına vurdu, - ancaq bu kökdə olmaz, günahdı...

Və nəsə birtəhər, səfeh-səfeh gülümsündü:

- Sağ ol, - dedi, - mən getdim.

Çevrildi, getdi.

Müslüm dayanmışdı, baxırdı.

Qəzənfər kişi addımladıqca əlindəki çamadan yellənirdi, dalınca düşüb yeriyən o kor pişiyin baş-gözünə dəyirdi.

O pişiyin ölüsünü səhər çayın qırağından tapdılar, suda boğulub şişmişdi.

O pişiyi Qəzənfər boğmuşdu, ya özü boğulmuşdu, - orasını heç kəs bilmədi.

Qəzənfər özü də o gedən oldu: nə şəhərdən, arvad-uşağının yanından, nə bir ayrı yerdən, - heç hardan sorağı gəlmədi.

Getdi, itdi...

***

Qəzənfər getdi, qardaş, amma sən qaldın.

O hasarın bu tayında əriyə-əriyə, çürüyə-çürüyə qaldın.

Bu tayda sən, o tayda Çimnaz...

Yay idi. Gecələr arvad-uşaq evdə yatırdı, sən həyətdə, tut ağacının altında yatırdın və hasarın o tayından, o gəlinin həyətindən qulağına hərdən-hərdən kişi hənirtisi dəyirdi.

Yerinin içində qıvrılırdın, qovrulurdun.

Bir gecə dözmədin, dəli kimi yerindən sıçrayıb hasardan aşdın, o həyətə düşdün.

Həyətdə heç kəs yox idi.

Cumdun, qapını təpiknən vurdun, amma lap yavaşcadan vurdun, qardaş; yoox, səs-küy salmaq olmazdı, o gəlini biyabır eləmək olmazdı. Necə olsa, namusu sənin namusundu.

O gəlin elə bil qapının dalında durub səni gözləyirmiş. O dəqiqə çıxdı, əynində bircə alt köynəyi, gözləri par-par yanırdı. İstədi nəsə desin, itələdin, keçdin içəri, o küncü, bu küncü axtardın, dəli kimi çığırdın:

- Hanı, - dedin, - hanı?!.. O köpəyoğlu hanı?!..

Çığıra-çığıra dedin, qardaş, amma səsin pıçıltıynan çıxdı.

...Yoox, səs-küy salmaq olmazdı, o gəlini biyabır eləmək olmazdı.

Deməli belə!.. Demirsən?!

İndi sallam qayışın altına, deyərsən. Qayış nə qayış: öküz gönündən. Qayış demə, qılınc de!..

...Amma yox, qayış olmazdı. Hər vurduqca yeri zol-zol duracaqdı, bu gəlin səhər camaat içinə necə çıxacaqdı?!..

Müslüm qayışını açmadı, elə o cür səssiz-səmirsiz o gəlini şapalaqladı.

- Vurma, Müslüm qardaş, sən Allah vurma!..

O gəlin Müslümün əlini tuturdu, sinəsinə sıxırdı, pıçıldaya-pıçıldaya yalvarırdı:

- Vurma, Müslüm qardaş!..

Yalvara-yalvara sıxırdı:

- Sən Allah vurma!..

Və Müslümün əli keyiyirdi, sustalırdı.

...Tfu, biqeyrət köpəyoğlu!..

Müslüm var-gücüynən o gəlini itələdi, barmağını silkələdi, hədələdi:

- Bir də mən eşidib bilsəm!.. - dedi.

"Nəyi eşidib bilsə", demədi.

- Bir də mən görsəm!.. - dedi.

"Nəyi görsə", demədi.

- Bir də mən!.. - dedi. - Bir də!.. Bir də!..

Və birdən hönkürüb ağladı.

Ağlaya-ağlaya qapıdan çıxdı, birtəhər hasardan aşıb yenə öz həyətinə düşdü, amma neyləsə kiriyə bilmədi.

...Gör o vaxtdan neçə il keçib...

Qocaldız, qardaş, qocaldız: sən də, o gəlin də, o tut ağacı da... Bu arvad hamımızı qocaltdı, qocaltmayınca ölmədi!..

Müslüm kişi o tutu keçən il kəsdi, tamam çürümüşdü.

Bu həyətdə əmisindən qalan elə bircə o tutuydu, qalan ağacların hamısını özü əkmişdi. O arvad da, bəlkə elə buna görə həmişə divarın dibində otururdu. Müslüm əkən ağaclara ərki çatmırdı.

Hər dəfə Müslüm kişi həyətdə daş yonanda, şişib dama dönən ayaqlarını sürüyə-sürüyə evdən çıxırdı, bu pəncərənin altından döşəkçəsini qoyurdu, birtəhər dizini qatlayıb otururdu, kürəyini söykəyirdi divara, gözünü zilləyirdi Müslümə, baxırdı, baxırdı.

Necə baxırdı, Allah, necə baxırdı!..

***

...Müslüm kişi arvadının üzünə baxdı.

O arvadın üzü tamam büzüşmüşdü, daralmışdı, balacalaşmışdı. O arvad canını tapşırıb qurtarmışdı, bu dünyadan

aldıqlarını tamam geri qaytarmışdı və dünya elə bil ki bir az da cana gəlmişdi, ətə-qana dolmuşdu.

O arvadın başının üstündə, tənəkdən sallanan o salxımın gilələri də elə bil böyümüşdü.

...Pəəh, o nə gözəl salxımdı, Allah, kim görə ağzının suyu axardı. O salxımı dimdikləyən sərçə də ağzının dadını bilirmiş!..

Müslüm kişi birdən əlini atdı, o salxımı tənəkdən qopartdı, üzünü çevirib tələsə-tələsə, ağzından, çənəsindən şirə süzülə-süzülə o salxımı dənələdi, yedi, - bir quruca saplağı qaldı.

O saplağı Müslüm kişi həyətin o başına, hasarın dibinə tulladı.

O çil-çil fərə bayaqdan hasarın dibində oturmuşdu, ha əlləşirdi yumurtlaya bilmirdi. Bəlkə elə o yazığın yumurtası da böyümüşdü.

O üzüm saplağı dimdiyindən dəydi. Diksinib ürəksiz-ürəksiz qalxdı, səndələyə-səndələyə bir-iki addım atıb böyrü üstə yıxıldı.

Və Müslüm kişi özündən xəbərsiz yerindən qopdu, o toyuğa sarı cumdu.

Toyuq ölmüşdü.

Bir az aralıda, hasarın dibində bir iri yumurta vardı. O yumurtanı elə bil qapqara rəngləyib boyamışdılar.

...Amma yoox, rəng deyildi, qapqara qan idi...

Yoxsa bu arvadın qara qanı buxarlanıb bu dünyanın rənginə, işığına, havasına qarışmışdı, o toyuqların qanına, o meyvələrin canına hopmuşdu; bu dəqiqə o hindəki toyuqlar hamısı bircə-bircə qırılıb qurtaracaqdılar, o tənəklərdəki salxımlar hamısı gilə-gilə şişib partlayacaqdılar.

...İlahi, o salxımlardan birini də axı Müslüm kişi yemişdi!..

Müslüm kişi hasarın dibindəki daş qalağının üstünə dırmaşdı, üzünü qonşu həyətə tutub dəli kimi çığırdı:

- Çimnaz bacı!.. A Çimnaz bacı!..

Çimnaz arvad qapıya çıxdı, baxdı, hasarın üstən Müslüm kişinin başını gördü:

- Nə var, - dedi, - Müslüm qardaş, nə olub?..

Və Müslüm kişi lap yavaşcadan:

- Gəl gör bizim bu arvad neyniyir?!.. - dedi.

Müslüm kişi o daş qalağının üstən düşmədi, üzünü arvadına sarı çevirmədi; Çimnaz arvad necə gəldi, o həyətə necə girdi, o arvadın yanına necə getdi, orasını Müslüm kişi görmədi. Ancaq arxadan Çimnaz arvadın çığırtısını eşidəndə o daş qalağının üstən düşdü, o yumurtanı tapdalayıb keçdi, o həyətin qapısını açdı və ağlaya-ağlaya kəndin arasına çıxdı...

1975-1977.

YAYDA ÖLMƏK GÜNAHDI

Meyidi evin ortasında uzatmışdılar.

Gecə yarıdan ötmüşdü. Yasa gələnlər çoxdan dağılışıb getmişdi. Müslüm kişiynən oğlu, biri meyidin sağında, biri solunda, divar boyu düzülən döşəkçələrin üstə üzbəüz əyləşmişdilər, amma bir-birinin üzünə baxmırdılar; ikisinin də gözü meyiddəydi.

Meyidi ağ kəfənə bükmüşdülər. Üstünü də qara kəlağayıynan örtmüşdülər. Kəlağayının bir ucu azca açılmışdı. Pəncərə də açıq idi. Gündüzkü bürkü seyrəlmişdi, yel əsirdi. O kəlağayı da yel vurduqca hərdən-hərdən tərpənirdi və o kəlağayı hər tərpənəndə ata-bala ikisi də diksinib bir-birinə baxırdı.

Oğlu Müslüm kişiyə çox oxşayırdı. Hər dəfə oğluna baxanda elə bil güzgüdə özünü görürdü. İndiki yox, iyirmi-iyirmi beş il bundan qabaqkı Müslümü görürdü. Amma o Müslüm bu oğlundan bir az cavanıydı. Yəni, yaşda elə bu oğluynan yaşıdıydı, amma saçında bir belə dən, alnında bir belə qırış yox idi. Və əgər bundan sonra da, atalı-balalı hələ bir iyirmi-iyirmi beş illik ömürləri qalmışdısa, oğlu bu gedişnən yəqin haçansa gəlib ona çatacaqdı, onu ötəcəkdi, yan-yana duranda Müslüm kişidən qoca görünəcəkdi və bəlkə elə əslində də Müslüm kişidən qoca olacaqdı.

...Dayan, a bala, qurban olum, hara belə tələsirsən?!..

Müslüm kişi baxırdı və oğluna yazığı gəlirdi.

Yəqin ki, hardasa bir çölün düzündə xirtdəyəcən torpağa pərçimlənib duran daşın da, böyründən şırıltıynan axıb keçən suya eynən beləcə yazığı gəlirdi. O su toz-torpağa qarışa-qarışa, özü-özünə yol açа-açа axıb gedirdi, bu yolda rastına çıxan hər ota, kola, ağaca can verə-verə özü haldan düşürdü, azalırdı, tükənirdi. Bu gedişnən o su axırda tamam quruyacaqdı, hardasa canını torpağa tapşıracaqdı, göz yaşı kimi damcı-damcı yerə hopub itəcəkdi. Ya da ki, hardasa bir çaya rast gələcəkdi, o çayın gur sularına qarışıb itəçəkdi. Amma ya elə, ya belə, bu yolun axırı birdi, o su şırıltıynan axa-axa öz yoxluğuna, öz ölümünə sarı gedirdi.

Bunu xirtdəyəcən torpağa pərçimlənib duran o daş da bilirdi. Çünki o daş özü də haçansa bu cür şırıldaya-şırıldaya axıb gedən su olmuşdu, ancaq qabaqda onu gözləyən ölümün qorxusunu qəflətən duymuşdu, var gücüynən yerə dirənib durmuşdu, sıxılıb-sıxılıb daşa dönmüşdü.

Ancaq o daşın içərisində, lap dərində, lap bağrının başında hələ də bircə damcı su gizlənmişdi; o su o daşın ürəyiydi.

Müslüm kişi baxırdı və oğluna yazığı gəlirdi. Özünə də yazığı gəlirdi. Təkcə o kəlağayının altındakı, o kəfənin içindəki arvada yazığı gəlmirdi. Əslində, o arvadın ölməyinə Müslüm kişi hələ də düz-əməlli inana bilmirdi, yoxsa o kəlağayı hər tərpənəndə o cür diksinməzdi.

İlahi, bəlkə o arvad bu dəqiqə o kəlağayının altından onlara baxıb gülürdü; ərinə də, oğluna da gülürdü.

Niyə gülürdü, nəyə gülürdü?

Bəlkə o cür kirimişcə oturub gözlərini aradakı o meyidə zilləməklərinə gülürdü. Elə oturmuşdular, elə bil aralarından çay axırdı, ikisi də o çaya tilov atmışdı, gözləyirdi; tilov hər tərpənəndə diksinirdilər.

Və ağ kəfənə bükülü bu arvad yel vurduqca su təki dalğalanan o qara kəlağayının altından bu bir cüt fərasətsiz

balıqçıya baxıb gülürdü. Çünki o arvad bir iri, ağappaq balıq kimi bu bir cüt balıqçının əlindən çıxmışdı, bu dəqiqə ölüm adlanan o ucsuz-bucaqsız dəryanın qapqara sularıynan üzüb gedirdi, o sularda rastına çıxan körpə balıqları salamlayıb bağrına basırdı; o körpə balıqlar haçansa bu arvadın öz bətnindəki boşluqda doqquz ay saxlaya bilməyib yarımçıq saldığı balalarıydı.

Müslüm kişi yerində dikəlib əlini uzatdı, o meyidin üstündəki kəlağayını örtdü, düzəltdi, sonra başını qaldırıb oğluna sarı elə baxdı ki, elə bil nəsə bir günah iş tutmuşdu:

- Sən get yat, - dedi, - yol gəlmisən, yorulmusan. Mən oturaram.

Oğlu başını bulayıb:

- Yox, - dedi.

Amma doğrudan da yorulmuşdu, yuxu gözündən tökülürdü; gündüz anasının ölüm xəbərini alan kimi arvadını da götürüb şəhərdən çıxmışdı, gəlib anasını elə bu cür, bu kəfənin içində, bu kəlağayının altında görmüşdü, amma o kəfəni aralayıb anasının sifətinə axırıncı kərə baxmağa ürəyi gəlməmişdi.

Öz sir-sifətində anasından heç bir iz, nişan yox idi. Elə bil bu arvad doğduğu bu bircə balasına öz sir-sifətinin bircə cizgisini verməyə də ürək eləməmişdi. Bəlkə elə o yarımçıq düşən körpələr hamısı bu arvadın özünə oxşayırdı, o körpələri bu arvad qorxusundan yarımçıq salmışdı.

İlahi, görəsən bu arvad, meyidinin böyründə yazıq-yazıq büzüşüb oturan bu kişidən ömrü boyu niyə o cürə qorxurdu?!.

Həm qorxurdu, həm utanırdı...

"A bala, bax gör həndəvərdə dədən görünmür?"

"Yox, görünmür".

"Onda o suyu tök, başımı yuyum".

Anasının qapqara, ipək kimi yumşaq saçları vardı; qolqıçını, sir-sifətini şişirdib kifirləşdirən o naxoşluğun təkcə o saçlara əli dəyməmişdi. Anası az qala hər gün ocaq üstə qazan asıb su qızdırırdı, tövlənin bir küncündə başını yuyurdu.

Anasının boyun-boğazı, sinəsi, kürəyi ləkə-ləkəydi. O ləkələr illər boyu anasının qanını soran zəlilərin yeriydi. Anasının başına su tökəndə hər dəfə gözü o ləkələrə sataşan kimi onun əti ürpəşirdi; elə bil o ləkələr tərpəşib hərəkətə gələcəkdilər, diri-diri zəlilərə dönüb onun əl-qoluna daraşacaqdılar, qanını sümürüb canını alacaqdılar.

Neçə-neçə illərdən bəri anasının canına yiyələnən o zəlilərin yəqin onun canına da haqqı çatırdı, çünki onun canı da haçansa anasının canından ayrılmışdı, naxoşluğun şişirdib zay elədiyi bu bədən haçansa düz doqquz ay onu öz içində bəsləyib böyütmüşdü, dünyaya gətirib ömür yolu adlanan bu yola buraxmışdı və Mahmud müəllim bu yolla gedə-gedə anasından uzaqlaşdıqca o arvadın naxoş bədəni arxada bir doğma ev kimi, koma kimi yavaş-yavaş sökülüb dağılmışdı, uçulub tökülmüşdü; bu kəlağayının altındakı anasının meyidi deyildi, anasının xarabasıydı...

***

"...Allah sənə rəhmət eləsin, ay ana, öldün, canın dincəldi...

Gündüz ölüm xəbərin gələndə arvadım da elə bunu dedi:

- Allah rəhmət eləsin, - dedi, - yazığın canı dincəldi.

Yəqin ürəyində:

- Onun da canı dincəldi, - dedi, - bizim də.

"Bizim də"... Yəni, mənnən arvadımın... Deməli, biz ikimiz bir can olduq, sən ayrı. Bəs bu haçan oldu, ay ana, kim bizi böldü, ayırdı?!.

Bir vaxt, mən Bakıya oxumağa gedəndə ağladın:

- Məni tək qoyub gedirsən?!

Güldüm:

- Niyə tək olursan? - dedim, - Dağ kimi ərinə nə gəlib?!

Amma yalan deyirdim. O "ər" deyilən adamın yanında sən həmişə tək idin.

Amma sən də yalan deyirdin, ay ana! Elə mən yanında olanda da, sən tək idin. Mənnən onun arasında, öz halalca ərinnən doğmaca oğlunun arasında tək idin. Bəs mənim getməyimnən arada nə dəyişdi? Heç nə!.. Təkcə o "ara" böyüdü. İndi ərin kənddəydi, oğlun Bakıda; sən kəndnən Bakının arasında tək idin.

"Bakı necə şəhərdi, a bala? Qəşəngdi?.."

"Hə, qəşəngdi".

"Qızları necə? Qəşəngdi?"

"Hə, qəşəngdi".

"Birdən ilişib-eləyərsən ha!.."

İlişdim, ay ana, yaman ilişdim!..

İnstitutu qurtarırdım, axırıncı ilim idi. Hərdənbir qəzet-də-zadda şerim də çıxırdı. Bir dəfə də, şeirlərimi aparmışdım radioya, ikisini bəyəndilər, özümü də gətirib saldılar bir otağa, bir qızın böyründə oturtdular:

- Şerin birini özün oxuyacaqsan, - dedilər, - birini bu qız oxuyacaq.

Qız elə ağzını açmağa bənd idi, səsini eşidən kimi az qaldı hüşum başımdan gedə. Zalım qızının səsi elə bil qeybdən gəlirdi, insan deyilən məxluqda o cürə səs ola bilməzdi.

Qız şeri oxuyurdu, mən də oturmuşdum böyründə, qənd kimi əriyirdim. Ürəyimdə:

- Ay Allah, - deyirdim, - yəni doğrudan bu şeri mən yazmışam?!.

Qız şeri dedi, qurtardı. İndi də, növbə mənimkiydi. Diziynən dizimə vurdu ki, başla!..

Dizi dizimə dəyəndə canıma titrətmə düşdü. Ağzımı açdım, amma səsim elə bil dizimdən çıxdı. Bir təhər şeri dedim, qurtardım, çıxdım-getdim. Amma o qızın səsi qulağımdan getmədi.

O düşən düşdüm qızın dalınca, axır bir təhər yola gətirdim, nişanlandıq, evləndik.

O qıza iş yerindən təzə ev vermişdilər. Bir balaca otaq idi. Toy günü bizi dəmdəsgahnan gətirdilər o evə; əvvəl gəlini saldılar içəri, dalınca da mən girdim. Girdim, qapının ağzında durdum. Qız da eləcə, gəlinlik paltarı əynində, duvağı üzündə, kirimişcə çarpayının üstə oturub məni gözləyirdi. Yengə də qapının arasından məni itələyirdi:

- Ürəkli ol, - deyirdi, - a bəy, ürəkli ol!..

Ürəkləndim, yeridim qıza sarı, elə əlimi uzatmaq istəyirdim ki, qız dedi:

- Qapını ört!..

O nə səs idi, Allah?!.

Yox, o səs qeybdən-zaddan gəlmirdi, cır-cır cırıldayırdı.

Sən demə, o qızın səsi elə buymuş. Radiodakı o səs bu qızın səsi deyilmiş, işiymiş. Hər dəfə o səsnən danışanda bu qız əziyyət çəkirmiş, tər tökürmüş, öz halalca səsinin başına yüz cür oyun açırmış.

Necə ki, nişanlıydıq, yenə az-az görüşürdük, mənnən də o səslə danışmağa gücü çatırdı. Day indi ər-arvadıydıq, günümüz bir yerdə keçəcəkdi. Mənnən də həmişə o səslə danışsaydı, yazıqda can qalmazdı, üzülərdi... O səs işdə, bu səs evdə...

Belə-belə işlər, ay ana!.. Gəlmişdim kabab iyinə, gördüm eşşək dağlayırlar.

Qız səsi cırıldaya-cırıldaya deyir: "Get qapını ört!".

Mən də yerimdə quruyub qalmışam, tərpənməyə nə heyim var, nə hərəkətim. Heç yıxıla da bilmirəm, çünki yıxılmaq özü də bir hərəkətdi.

O hərəkət deyilən şeynən mənimki orda qurtardı, ay ana, biryolluq qurtardı!

Bir də ki, o hərəkət deyilən şey nədi axı?.. Doğuldun, ayaq açdın, yeridin, süründün, qaçdın, - həə, bunlar hamısı hərəkətdi. Amma adam hələ bu dünyaya gəlməmişdən hərəkətdədi; yəni ki, sən hələ yoxsan, amma bu dünyada sənə aid bir hərəkət var. Lap belə o gorbagor Darvin demişkən, ən ulu əcdadın o meymun ağacdan düşüb iki ayağı üstə yeriməyə başlayandan, babandan, dədəndən keçə-keçə axırda gəlib sən olanacan həmişə hərəkətdəsən. Bir gün ölüb gedəcəksən, amma yenə hərəkətdə olacaqsan, o meymunun yolu indi də balalarından, nəvələrindən keçəcək. O yol dayana bilməz, qırıla bilməz!.. Amma o gün məndən keçən o yol qırıldı, ay ana, o meymunun kitabı bağlandı...

Uşağımız olmurdu. Çox həkimə-zada getdik, bir əlac tapılmadı. Həkimlər də mat-məəttəl qalmışdılar:

- İkiniz də sapsağlam adamsız, - deyirdilər, - görəsən bu nə sirdi?!.

O sirri bircə mən bilirdim. Bilirdim ki, dünyanın bütün həkimləri tökülüb gələlər, dava-dərman eləyələr, yenə uşağımız olmayacaq. Çünki o hərəkət deyilən şeynən mənimki qurtarmışdı, ay ana, o meymunun yolu qırılmışdı...

Şerin daşını da elə o vaxtdan atdım, keçdim nəsrə.

İndiyəcən neçə kitabım çıxıb, bu evdə biri də yoxdu. Bilirəm, bir cümləmi də oxumamısız. Nə sən, nə atam. Amma camaat oxuyur, tənqidçilər tərifləyir: "Mahmud Müslümoğlunun hekayələrində qaynar həyatımızın qaynar mənzərəsi var".

Qaynar həyat... qaynar mənzərə...

Bütün yazdıqlarımın su olduğunu bilirdim, amma o suyun qaynamağından xəbərim yoxudu. Sən demə, qaynayırmış; pıqqapıq, pıqqapıq.

Amma o hekayələrdəki adamların hərəkətinə söz ola bilməz. Hamı hərəkətdədi; bu qovur, o qaçır, bu vurur, o yıxılır, ot biçirlər, ev tikirlər, quyu qazırlar. Heç kəs bir dəqiqə dayanıb nəfəsini dərmir, çünki dayanan yıxılacaq, çünki o adamların da içi bomboşdu, hərəkətsizdi, ölüdü.

Elə mən özüm də qaçaqaçdayam, ay anna. Hər gün qurdalayıb özümə yüz cür iş tapıram, bir dəqiqə boş vaxtım yoxdu. Vaxt mənim böyrümdən-başımdan külək kimi keçib gedir, saçımı yola-yola, alnıma-üzümə qırış sala-sala gedir. Baxanda bütün tay-tuşlarımdan qoca görükürəm.

Bu dünyada ən qorxduğum şey bilirsən nədi? Qorxuram birdən saatım xarab olar, dayanar. Saatım dayansa ürəyim də dayanacaq. Çünki ürəyim də nökər kimi o saatın dalınca düşüb gedir, o saatı yamsılaya-yamsılaya döyünür.

Bu dünyada zəhlətökən çox səslər var; qurbağa qurultusu, qapı cırıltısı...

Ancaq mənim ən zəhləm gedən səs də elə bu saatın çıqqıltısıdı. Çünki bilirəm, hər çıqqıltı canımdan qopur, məni talayıb aparır; çıq, çıq, çıq... Lap axırda da, bir dəhşətli çıqqıltı: çıqqq".. vəssalam, şüttamam! Canın çıxdı, öldün getdin işinə...

"Ölüm haqdı, çıxmaq olmaz əmirdən..."

Hamı öləcək, ay ana; bu gün sən öldün, günlərin bir günü bu kişi öləcək, lap axırda da, mən...

Amma yox, bu kişi bəlkə elə məni də yola saldı. Hələ qorx ki, ilin çıxmamış evlənə, arvad gətirə. Bu gün yasda Çimnaz arvad lap özünü didib tökürdü. Məni görəndə qucaqladı, öpdü, ağladı:

- Allah rəhmət eləsin, - dedi, - mələk kimi arvadıdı...

Bir vaxt, mən hələ lap uşaq olanda, sən də elə bunu deyirdin:

- Allah Çimnaza rəhm eləsin, - deyirdin, - mələk kimi gəlindi. Heyif, yazığın bəxti gətirmədi.

Çimnazın bəxti gətirməmişdi, əri davadan qayıdıb gəlməmişdi. O hesabnan sənin bəxtin gətirmişdi, ərin böyründəydi.

Ancaq hər dəfə Çimnaz ərini yada salıb ağlayanda, sən də ona qoşulurdun. Axı o rəhmətlik sənin də doğmaca qardaşın idi. O rəhmətliyin pal-paltarını ortalığa düzürdüz; papağını, pencəyini, şalvarını... O pal-paltarı tumarlaya-tumarlaya, sığallaya-sığallaya ağı deyib ağlayırdız. Sizə baxıb mən də ağlayırdım.

- Ağla, - deyirdin, - a bala, bərkdən ağla, qoy dayının ruhu sevinsin!..

Dayımın ruhu yəqin hardasa o pal-paltarın içindəydi, ya o papağın altında, ya o pencəyin cibindəydi. Biz onu görmürdük, o bizi görürdü. O cür ki, biz səs-səsə verib hönkürüşürdük, dayımın ruhu gərək sevindiyindən lap şaqqanaq çəkəydi.

Ancaq o pal-paltarın içindən səs-səmir gəlmirdi.

Biz də eləcə, səsimiz kallaşanacan ağlayıb kiriyirdik. Sonra Çimnaz o pal-paltarı ehtiyatnan götürürdü, qucağında bərk-bərk sıxıb aparırdı, elə bil qorxurdu ki, dayımın ruhu düşüb itə bilər. Sandığı açırdı, o pal-paltarı yenə səliqəynən üst-üstə yığıb sandığın ağzını qıfıllayırdı; dayımın ruhu o sandığın içində qalırdı.

Günlərin bir günü Çimnazın həyətinə bir kişi girdi; Çimnaz o kişiyə ərə gedirdi.

O kişi həyətin ortasında dayanıb durdu. Çimnaz o kişini evinə buraxmadı. Yəqin dayımın o sandıqdakı ruhundan qorxurdu. Özü olub-qalanını bir bağlamaya yığdı, aldı qu-

İndi o qara kəlağayının altında rahat yatmısan; sağında ərin, solunda oğlun. Əlimizi uzatsaq sənə çatar, amma biz bu dünyadayıq, sən o dünyada.

Bəlkə o dünyada, o yarımçıq düşən ölü balalarını indi yığmısan başına, onlara bizdən danışırsan. O ölü körpələr də, ağızlarını ayırıb qulaq asırlar. Sənin əsil balaların o ölü körpələrdi, məndən sənə nə oğul?!..

Lap uşaqlıqdan, az-çox ağlım kəsəndən, hər dəfə o üfürülüb şişən sir-sifətinə, əl ayağına baxanda, bilirsən ürəyimdən nə keçirdi? Deyirdim, kaş mənim anam sən olmayaydın, Çimnaz olaydı.

Bəlkə elə sən də bunu bilirdin.

"A bala, qurban olum, bu gecə get Çimnaz xalangildə yat, yazıq təkdi, qorxur".

Çimnaz xala nədən qorxurdu, orasını mən bilmirdim. Amma hər dəfə Çimnaz xalagilə gedəndə, qapıdan içəri girən kimi məni də qorxu basırdı.

Çimnaz xala boynumu qucaqlayıb üz-gözümdən öpürdü:

- Evimin kişisi gəlib, - deyirdi.

Olanından-qalanından tökürdü qabağıma, məni yedizdirirdi. Sonra öpə-öpə, əzizləyə-əzizləyə yanında yatızdırırdı. Mən də bərk-bərk onun sinəsinə qısılıb yatırdım. Lap bərk qısılırdım, lap qarnının içinə girmək istəyirdim, bəlkə onda Çimnaz xala məni təzədən doğardı, anam olardı.

Amma yox, mənim anam sən idin. Anam sən idin, atam da bu kişi...

"A gədə, o daşı bəri ver görüm!.."

Daş da ki, nə daş!..

Həyətin o başından sürüyə-sürüyə gətirincə əlim-qolum qırılırdı.

Yox, bu kişi mənim atam deyildi, hasarın dibində üst-üstə qalanan o daşların atasıydı. Heç başımı tumarladığı

yadıma gəlmir, amma gecəbəgündüz o daşları yona-yona hamarlayardı, tumarlayardı.

Mən də, o daşlardan öz acığımı çıxardım, gündə neçə kərə xəlvətə salıb özümü hasarın dibinə verərdim, o daşları, ayıb olmasın, eninə-uzununa isladardım.

O hesabnan, Allah bilir, bu kişinin yonduğu neçə-neçə baş daşını murdarlamışam. Qoy o rəhmətliklər günahımdan keçsin, uşaq olmuşam, qanmamışam...

Yox, uşaq olsam da, qanmaz deyildim.

Hər şeyi qanırdım, ay ana, bu kişinin dərdi nədi, onu da bilirdim; sənə baxanda gözü ağrıyırdı, amma bir gözü həmişə Çimnaz arvadın həyətindəydi.

O kənddən-bu kənddən tez-tez o həyətə elçilər gəlirdi, hamısı da əliboş qayıdırdı.

"Çimnaz xala, a Çimnaz xala!"

"Nədi, a bala?"

"Niyə ərə getmirsən?"

Çimnaz xala yorğanın altında pıqqıldayıb gülürdü, məni qucaqlayıb bağrına basırdı:

- Səni gözləyirəm, - deyirdi, - böyüyüb kişi olarsan, özün məni alarsan. Hələ bir de görüm, alarsan məni, ya yox?

- Alaram! - deyirdim, lap ürəkdən deyirdim, tez böyüyüb kişi olmaq istəyirdim, Çimnaz xalanı almaq istəyirdim.

Bir dəfə dilimi dinc qoymadım:

- Dədə, a dədə! - dedim.

- Nədi, a gədə?

- Mən böyüyəndə Çimnaz xalanı mənə alarsan?

Şarap!.. Şapalağı qulağımın dibindən ilişdirdi:

- Oğraş-oğraş danışma! - dedi.

O vaxtdan bu dünyada çox şapalaqlar yemişəm, amma o şapalağın dadı hələ də qulağımın dibindən getməyib.

Məni gözüqırpıq eləyən də bəlkə o şapalaq olub, ay ana!..

"Qorxan gözə çöp düşər", deyiblər. O hesabnan mən gərək çoxdan kor olaydım.

Bu kənddə məndən qorxaq uşaq yoxudu.

Müəllim dərs soruşanda əlimi birinci qaldırmağa da qorxurdum. Lap dərsi əzbər biləndə də, qorxurdum; müəllimdən yox, uşaqlardan qorxurdum. Allah eləməmiş, birdən elə bilərdilər, özümü gözə soxuram.

Sinifdə hamıdan arxada mən otururdum. Dərs qurtaranda sinifdən ən axırıncı mən çıxırdım. Uşaqlar sıraya-zada düzüləndə də, çiynimi qısırdım ki, heç kəsdən hündür görükməyim.

Amma lap büzüşüb yumağa dönsəydim də, yenə o sinifdə bir nəfərdən hündürüdüm. Özü də kimdən, kimdən; sədr Şərifin oğlundan!..

Sədr Şərifin oğlu şikəst idi; özü böyümüşdü, ayaqları böyüməmişdi, bapbalaca qalmışdı. Bəlkə özü böyüməyə tələsmişdi, ayaqları ləngiyib ona çata bilməmişdi.

Allah o bircə oğulu sədr Şərifə beş qızdan sonra vermişdi.

Arvadı beşinci qızı doğanda sədr Şərif öz baxtından lap küsmüşdü, deyirlər, neçə il arvadına heç yaxın da düşməmişdi.

Amma dava qurtaran gün, camaat şadlıq eləyəndə, sədr Şərif də sevindiyindən içib keflənmişdi, şeytan yoldan çıxartmışdı, bir də ayılıb görmüşdü ki, arvadının qarnı yenə burnundadı.

Canına qorxu dolmuşdu, bu dəfə dərddən içib dəmlənmişdi, üzünü tutmuşdu göyə:

- Ay Allah, - demişdi, - bilirəm, yoxsan!.. Yox, əgər varsansa, onda kişi ol, mənə bir kişi qırığı yetir!..

Allah da, kişi kimi, o deyəni eləmişdi; sədr Şərifə bir düz-əməlli, bütöv oğul verməmişdi, bir yarımçıq kişi qırığı yetirmişdi.

Amma mənim o sinifdə ən qorxduğum uşaq da elə sədr Şərifin oğluydu. İlahi, mən o yarımçıq gədənin nəyindən qorxurdum?!.

Bu gün yasda gözümə dəymədi. Üç-dörd ay bundan qabaq, Şərif kişi rəhmətə gedəndə mən də yasa gələ bilmədim, bəlkə ondan inciyib... Səhər gedib dəyərəm, başsağlığı verərəm. Bəlkə elə Sonanı da gördüm... Tfu, adam yiyəsi!.. Bu Sona hardan yadıma düşdü, ay ana?!.. Ay axmaq, deyinən, indən belə Sonanı görməkdən nə fayda?!.

Azı on ilin söhbətidi. Sənə baş çəkməyə gəlmişdim, kəndin içində rastıma çıxdı:

- Salam, Mahmud qardaş, - dedi.

Əvvəlcə tanımadım, sonra tanıyıb diksindim:

- Salam, Sona bacı, - dedim, - necəsən?

- Sağ ol, yaxşıyam, - dedi.

- Balaların necədi?

- Sağ ol, yaxşıdılar, - dedi.

Ərini də soruşmağa dilim gəlmədi.

Keçdi-getdi.

Dönüb dalınca baxmağa da ürək eləmədim. Kənd içidi, dedim, görüb söz eləyərlər.

Onda üç oğlu vardı, indi deyəsən yeddidi. Hamısı da bir-birindən qəşəng, əlləri-ayaqları yerində. Deyirlər, biri də atasına oxşamayıb... Amma o yarımçıq gədəni mən tanıyıram, ay ana, bir özü kimisini bu dünyaya gətirməyincə Sonadan əl çəkən deyil.

Hər səhər birimiz dalınca gedərdik, belimizə mindirib məktəbə gətirərdik. Cibi həmişə şirniynən dolu olardı, yol boyu qulağımızın dibində xırthaxırtnan yeyərdi. Biz hamballara da o şirnidən tək-tük pay düşərdi; məktəbəcən ləzzətnən sümürərdik, belimizin ağrısı yadımızdan çıxardı.

Beləcə, o gədəni belimizdə gəzdirə-gəzdirə bığımız çıxdı. Bir də gördük, sinifdəki qızların da döşü çıxıb. Ən birinci bunu elə o yarımçıq gədə gördü. Bir dəfə belimdə məktəbə gətirəndə cibimə bir ovuc şirni tökdü:

- Sonaya verərsən, - dedi.

Sona sinifdə mənnən otururdu. Verdim, almadı:

- Qaytar özünə, - dedi, - soxsun gözünə!.

Sona o sözü deyəndə mən niyə sevindim, heç özüm də bilmədim. Amma o şirnini qaytarmağa kişiliyim çatmadı. Tullamağa da əlim gəlmədi. Xəlvətcə yedim, çıxdım axırına.

O gündən o yarımçıq gədə belimdən düşmədi; məktəbə gətirən də mən idim, evə aparan da. Qazancım belimin ağrısıynan cibimin şirnisiydi.

Sona yazığın heç nədən xəbəri yoxudu. Mən də, Sonanın hesabına kefə baxırdım, şirni yeməkdən dişlərimə qurd düşmüşdü. O şirnidən yedikcə Sona elə bil gözümdə dəyişirdi, şirinləşirdi, qəşəngləşirdi. İlahi, o Sona nə gözəl qızıdı!..

Hərdənbir dərsdə mənə sarı əyilib söz-zad soruşanda nəfəsi nəfəsimə dəyirdi, ciyərimə dolurdu, quş kimi yüngülləşirdim, yerimdən qopub o sinifdə uçmağım gəlirdi.

Amma dərs qurtaran kimi yenə o yarımçıq gədəni alırdım belimə, ləhləyə-ləhləyə aparırdım; çiynimdən elə basırdı ki, az qalırdım dizəcən torpağa girəm.

Bütün yolu zalım oğlu Sonadan danışırdı, amma Sonaynan bircə kəlmə danışmağa ürək eləmirdi. Axır ki, bir gün ürəkləndi, belimə mindirib məktəbə gətirəndə yenə cibimə bir ovuc şirni tökdü:

- Sonaya verərsən, - dedi.

Sonra ağzını lap dirədi qulağıma:

- Sonaya de, axşamüstü çayın qırağına gəlsin, sözüm var...

O gün Sonaya o sözü deyənəcən nə zülüm çəkdim, bir Allah bilir. Oturduğum yerdə məni tər basmışdı. Köynəyim,

şalvarım su içindəydi. Cibimdəki şimilər də islanıb yumşalmışdı, ətimə yapışırdı; elə bil cibimdə bir ovuc zəli vardı.

Bir də onda ayıldım ki, axırıncı dərs də qurtarıb, zəng çalınıb, uşaqlar sinifdən çıxırlar. O gədə də yerində oturub mənə baxır; öz hambalına, nökərinə, itinə, pişiyinə baxır. Diksinib gözümü çəkdim. Sona elə dəftər-kitabını götürüb qalxmaq istəyirdi ki, qolundan yapışdım, birnəfəsə, o gədə necə demişdisə, eləcə də dedim;

- Axşamüstü çayın qırağına gəl, sözüm var...

Sona qıpqırmızı qızardı, heç nə demədi. Amma bilirdim ki, gələcək, lap ovcumun içi kimi bilirdim.

Axşamüstü o gədəni belimə mindirib çayın qırağına düşəndə Sona çoxdan ordaydı, bir iri daşın üstə oturub yolumu gözləyirdi.

O gədəni belimdə görəndə yazıq qız çaşdı, dik atılıb qalxdı. Deyəsən qaçıb aradan çıxmaq istəyirdi. Amma o gədə başımın üstən əllərini uzatdı, Sonanın çiyinlərindən bərk-bərk tutdu:

- Qurban olum, Sona, qaçma! - dedi.

- Niyə qaçırsan? - dedi, - Bəlkə göndərdiyim şimilər xoşuna gəlməyib?!..

- Dədəmə tapşıraram, - dedi, - Bakıya gedəndə ən yaxşılarını alıb gətirər.

- Ölənəcən sənə şimi yedirdərəm, - dedi, - qurban olum, Sona, qaçma!..

O yarımçıq gədənin əllərində nə boyda güc vardı?!.

Sonanın çiyinləri xırçıldayırdı. Üz-üzə dayanmışdıq. Sonanın yupyumru döşləri sinəmə dirənmişdi. Nəfəsi nəfəsimə dəyirdi, ciyərimə dolurdu, amma yüngülləşmirdim, uçmağım gəlmirdi.

Sona deyəsən işi başa düşmüşdü. Üzümə elə baxırdı ki, elə bil bir murdar şeyə baxırdı.

Qəflətən o gədənin də əlləri boşaldı. Deyəsən o da məsələni qanmışdı, indiyəcən kimə şirni yedirtdiyini bilmişdi. O dəqiqə də Sona var gücüynən sinəmdən itələdi. Dalıqatlı yıxıldım. Məndən də qabaq o gədə peysəri üstə yerə dəydi.

Amma o gədəyə fikir verən halım yoxudu.

- Sona!.. Ay Sona!..

Sona qaçırdı, mən qovurdum.

Axır ki, çatdım, tutdum.

İkimiz də tövşüyürdük; Sona ağlayırdı, mən də ağlamaq istəyirdim. Sonanı öpüb qucaqlamaq istəyirdim. Bu saat Sona "öl" desə, ölərdim, varımı-yoxumu verərdim, təki bircə yol üzü güləydi...

- Ağlama, Sona, qurban olum, ağlama!..

Haçan əlimi cibimə atdım, o bir ovuc şirnini çıxardıb Sonaya uzatdım, xəbərim olmadı.

O şirnini görəndə Sona nə hala düşdü!.. Şapalağı qulağımın dibində açıldı:

- Rədd ol, - dedi, - qarınqulu köpəyoğlu!.. Rədd ol, gözüm səni görməsin!..

Şirni əlimdə quruyub qalmışdım.

Sona məndən aralanmışdı, kəndə sarı baş alıb gedirdi. Nə qışqırıb çağıra bilirdim, nə dalınca yüyürə bilirdim; Sonanın o şapalağı məni yerə mıxlamışdı.

Qəflətən o yarımçıq gədəni gördüm; o gədə də çayın qırağıynan üzüyuxarı, kəndə sarı sürünürdü. Bəlkə Sonaya çatmaq istəyirdi. İlahi, o yazıq o cür sürünə-sürünə Sonaya haçan çatardı?!.

Yoox, yazıq o deyildi, mən idim; yazıq da, bədbəxt də, qorxaq da mən idim!.. O yarımçıq gədədən həmişə qorxmuşdum, indi də qorxurdum; lap bir cüt quyruq kimi dalınca sürütdədiyi o bapbalaca, napnazik, ölü ayaqlarından da qorxurdum.

O qorxu yenə mənə güc gəldi, güllə kimi yerimdən qopdum, o gədənin dalınca yüyürdüm, yalvara-yalvara:

- Min belimə, - dedim, - min, aparım...

Əlini atıb yerdən bir iri daş götürdü, çevrilib var gücüynən mənə sarı tulladı:

- Rədd ol, - dedi, - qarınqulu köpəyoğlu!.. Rədd ol, gözüm səni görməsin!..

O daş qulağımın dibindən vıyıldadı-keçdi. Qorxumdan xırp dayandım.

O gədə sürünə-sürünə uzaqlaşırdı, amma dalınca bircə addım atmağa da ürək eləmirdim; çayın qırağı daşnan doluydu.

Bir də gördüm, ovcuma nəsə batır; özümdən xəbərsiz, o bir ovuc şirnini əlimdə elə sıxmışdım ki, hamısı bir-birinə yapışmışdı, şirəsi-zadı çıxmışdı, qupquru quruyub şüşəyə dönmüşdü.

O şirnidən indi zəhləm gedirdi; əzib tapdalamaq istəyirdim. Birdən dəli kimi dişlərimi qıcırdıb hirsnən-acıqnan o şirniyə girişdim, nə girişdim; dişdəm-dişdəm qopardırdım, çeynəyirdim, udurdum. Amma dadını-zadını hiss eləmirdim. Təkcə dişlərimin arasında xırçıltısını eşidirdim; elə bil bir ovuc çəyirtkə yeyirdim.

Səhər sinifdə bayquş kimi tək oturdum. Sona yanımda oturmadı, O gədə də, məktəbə o gün kimin belində gəldigetdi, xəbərim olmadı.

Sinifdə başımı qaldırıb nə o gədəyə sarı baxa bilirdim, nə Sonaya sarı; ikisindən də qorxurdum. Allah bilir, neçə gün, neçə həftə o cür başıaşağı oxudum. Axır ki, bir gün ürəkləndim, başımı qaldırıb baxdım, ikisini də birdən gördüm; Sona o gədənin yanında oturmuşdu...

Məktəbi qurtaran kimi evləndilər.

Zurna-balabanın səsi kəndi başına götürmüşdü. Qulaqlarımı tutub kənddən qaçdım, bir də gördüm çayın qırağın-

dayam. Amma o səs bura da gəlib çatırdı. Soyunub özümü suya atdım, baş vurub lap suyun dibinə getdim; şükür sənə, ilahi, day o zurna-balabanın səsini eşitmirdim.

Nəfəsim darıxırdı, suyun üzünə çıxmaq istəyirdim, amma ürəyimdə:

- Yox, - deyirdim, - yoox!.. Qoy boğulum, ölüm, balıqlara yem olum, təki o səsi eşitməyim!..

Birdən nəfəsim fışıltıynan dişlərimin arasından çıxdı, məni suyun dibində qoyub qaçdı-getdi. Onda bildim ki, ölürəm, ağzıma-burnuma su dolanda bildim. Dəli kimi özüm öz nəfəsimin dalınca atıldım, çabalaya-çabalaya suyun üzünə çıxdım, sinə dolusu nəfəs aldım; o isti, bürkülü yay havasını da, lap o kənddən gələn zurna-balaban səsini də ciyərimə çəkdikcə çəkdim, ölmədim, qaldım.

Kim deyir, ölmədim, ay ana?!.. Yoox, öldüm, balıqlara yem oldum!.. O sudan çıxan mən deyildim, bir qarınqulu balıq idi; o balıq məni yemişdi.

O vaxtdan adamlıq sifətimi itirmişəm, balıq kimi soyuğam, sürüşkənəm.

Adamlıq deyilən şeydən məndə bircə nişana qalıb, ay ana; balıqlar ağlaya bilmir, amma mən hərdənbir ağlayıram.

Bu gün yasda da, durduğum yerdə gözümdən yaş axırdı. Bu kişi yalan olmuşdu, gələn-gələn mənə başsağlığı verirdi:

- Başın sağ olsun, Mahmud müəllim, - deyirdilər, - Axır qəmin olsun!..

Mən də başımı aşağı salıb mızıldanırdım:

- Allah ölənlərinizə rəhmət eləsin!.. - deyirdim. Əlimin dalıynan gözümün yaşını silirdim. Hər siləndə də, gözüm qolumdakı saata sataşırdı. O saat öz işindəydi, çıq-çıq çıqqıldayırdı, bir xırdaca, yırtıcı heyvan kimi o yasa yığışanların ömrünü-gününü xırçaxırçnan gəmirirdi, yeyirdi. Mə-

nim də ömrümü yeyirdi, bu kişinin də, - bircə sənnən işi yox idi, ay ana, çünki səni yeyib qurtarmışdı.

İndən belə bu dünyada heç kəsin sənnən işi yoxdu, bu dünyaynan haqq-hesabını çürütdün-getdin; Allah sənə rəhmət eləsin, ay ana, öldün, canın dincəldi..."

***

Mahmud müəllim oturmuşdu, anasının meyidinə baxırdı.

Bəlkə bu dəqiqə o kəfəni aralasaydı, bu arvadın lap çoxdankı, naxoşluqdan qabaqkı sifətini görəcəkdi. Axı anası bu dünyaynan haqq-hesabını çürütmüşdüsə, bu dünyadan aldığı canı qaytarıb getmişdisə, deməli, haçansa canına dolan, sir-sifətini şişirdib kifirləşdirən o naxoşluğu da qaytarmışdı. Anasının getdiyi ÖLÜM deyilən o dünyada nə naxoşluq, nə dərd, nə ağrı vardı.

...İlahi, bu arvadın naxoşluqdan qabaqkı sifəti görəsən necəydi?!..

O naxoşluq anasını tapanda Mahmud müəllim uşaq idi, hələ məktəbə getmirdi. Bir səhər yuxudan oyanıb anasını o kökdə görəndə qorxdu, ağladı.

Yoox, sir-sifəti, əl-ayağı üfürülüb şişən o arvad Mahmudun anası deyildi. Anası gecə öpə-öpə onu yatırtmışdı, sonra baş götürüb bu evdən getmişdi. Bir az böyüyənəcən, ağlı kəsənəcən Mahmud anasının yolunu gözlədi, amma anası qayıdıb gəlmədi.

Sonra yavaş-yavaş hər şeyi başa düşdü, anasının naxoşluğuynan barışdı, amma nə illah elədisə, o naxoş arvadı sevə bilmədi; Mahmudun o arvada yazığı gəlirdi.

...İlahi, nə yaxşı ki, o arvad Mahmudu doğandan sonra naxoşlamışdı. Yoxsa kim bilir, bəlkə elə Mahmudun da sir-sifəti, əl-ayağı o kökdə olardı...

Hər dəfə bunu fikirləşəndə, balaca Mahmud ürəyində sevincə oxşayan bir şey duyurdu; elə bil od tutub yanan evin içindən bir təhər canını qurtarıb qaçan adam ürəyi ağrıya-ağrıya qıraqdan öz evinə baxırdı, həm də, ürəyində sevinirdi ki, nə yaxşı, mən o evin içində deyiləm!..

Uşaq vaxtı duyduğu o nankor sevincdən Mahmud müəllim indi bir az utanan kimi oldu, gözünü anasının meyidindən çəkib xəlvətcə atasına sarı baxdı.

Müslüm kişi, oturduğu yerdə, kürəyini divara söykəyib yatmışdı.

Mahmud müəllim birdən-birə canında bir qəribə ağırlıq duydu; elə bil ata-bala, ikisi də, bayaqdan bəri o meyidi çiyinlərində aparırdılar, indi atası çiynini o meyidin altından qaçırtmışdı, bütün ağırlıq təkcə onun çiyninə düşmüşdü.

Yuxusuzluqdan göynəyən gözlərinin sızıltısını da, Mahmud müəllim indi hiss elədi və başa düşdü ki, beləcə təktənha o meyidi aparıb sabaha çıxartmağa gücü çatmayacaq.

Kirimişcə yerindən qalxdı, oturmaqdan keyiyən ayaqlarını yavaşca yerə basa-basa otaqdan çıxdı.

Arvadı o biri otaqda yatırdı.

Ehtiyatnan qapını açıb içəri girdi. O dəqiqə də, pəncərədən düşən ay işığında ağappaq ağaran bir cüt ayağı gördü; arvadı yuxuda üstünü açmışdı.

Qapının cırıltısına gözünü açıb ərinə baxdı, amma üstünü örtmədi:

- Yatmırsan? - dedi.

Mahmud müəllimin canına bir ləzzətli titrətmə düşdü; bu həmin səs idi, ilahi, bir vaxt ağlını başından alan, onu dəli-divanə eləyən səs idi...

Mahmud müəllim bu günəcən o səsin quluydu.

Arvadı da, bunu bilirdi. Evdə onu həmişə öz cırıltılı səsiynən dindirirdi, amma gecələr Mahmud müəllim mət-

bəxdə oturub, çəkdiyi siqarətlərin tüstüsündən boğula-boğula qalaq-qalaq varaqları yazıb qaralayanda, hərdənbir otaqdan o sehirli səsi eşidirdi:

- Yatmırsan?..

O dəqiqə də, canına bir ləzzətli titrətmə düşürdü; yoox, o səs Mahmud müəllimi yatmağa çağırmırdı...

Mahmud müəllim özündən ixtiyarsız qələmi atıb yerindən qalxırdı, otağa keçirdi, soyunub arvadının yanına girirdi, onu qucaqlayıb bağrına basırdı, dodaqlarından öpdükcə öpürdü, o dodaqlardan o sehirli səsin dadını, ləzzətini almaq istəyirdi. Amma o alış-verişdə həmişə qazandığından çox uduzurdu, hörümçək torunda çabalayıb heydən düşən milçək kimi, bütün haqq-hesabdan sonra o yataqda heydən düşüb qalırdı və arvadı, o milçəyin canını alan o tox hörümçək, Mahmud müəllimin sinəsindən itələyirdi, yenə həmişəki o cırıltılı səsiynən:

- Get, yazını yaz!.. - deyirdi.

...Neçə ildi ki, arvadı o şəhərdə Mahmud müəllimnən bu oyunu oynayırdı. Amma indi bu kənddə, o meyidin beş addımlığında bu oyunu oynamaq günah idi.

Mahmud müəllim bütün gücünü, qeyrətini toplayıb birtəhər gözlərini o bir cüt çılpaq ayaqdan çəkdi:

- Yatmıram, - dedi, - yoox, yatmıram!..

Sonra gözlərini sürüyə-sürüyə o yan-bu yana baxdı, elə bil ayın işığında gözlərini ilişdirməyə bir şey axtarırdı. Stolun üstündəki siqaret qutusunu görəndə axtardığını tapan kimi oldu. O dəqiqə özünü inandırdı ki, bu otağa elə siqaretdən ötrü girib. Tez o qutunu qamarlayıb basdı cibinə, həyətə çıxıb rahat nəfəs aldı. Sonra bir siqaret çıxarıb qoydu damağına, amma yandırmağa bir şey tapmadı. Kibrit qutusu da yəqin içəridə, arvadı yatan otaqda qalmışdı.

Tfuu!..

Mahmud müəllim ağzındakı siqareti tüpürdü.

Amma bu cür havanı zəhərləmək də, heç insafdan deyildi.

Mahmud müəllim indi həyətdə durub nəfəs aldıqca, o tərtəmiz hava hər dəfə ciyərlərinə dolduqca, illər boyu siqaret tüstüsündən zəhərlənib boğulan, yanıb qabar-qabar olan ciyərləri əvvəlcə elə bil hürküb səksənirdi, sızıldayırdı, sonra ləzzət alırdı, dincəlirdi.

O cansız, nəfəssiz meyidin beş addımlığında bu cürə ləzzətnən nəfəs almağın özü də, bəlkə elə günah idi.

O tərtəmiz havaya indi bu kənddə hamının haqqı çatırdı; cavanın da, qocanın da, toyuğun da, cücənin də... Bircə o kəfənə bükülü arvaddan savayı...

Sabah o arvadı aparıb torpağa tapşıracaqdılar.

Amma bir vaxt Mahmud müəllim özü, torpağa düşən toxum kimi o arvadın bətninə düşmüşdü, o yazığın qupquru canındakı olub-qalan şirəni də sümürə-sümürə yetişmişdi, əlləşib-vuruşub, axır ki, bu işıqlı dünyaya çıxmışdı, çıxan kimi də çığırıb bu dünyanın havasından öz birinci nəfəsini dərmişdi.

Bu dünyadan onun özünün aldığı elə bircə o nəfəs idi. Qalan hər şeyi ona bu arvad vermişdi. Bu arvad öz qaranlıq bətnində görməzə-bilməzə onu yoğurub-yapmışdı; ilahi, bu arvad öz halalca ərindən nə xoş gün, nə xoş sifət görmüşdü ki, öz doğmaca balasını da eynən o kişiyə oxşatmışdı?!..

Mahmud müəllim açıq pəncərədən içəri boylandı.

Meyidin üstündəki kəlağayının bir ucu yenə açılmışdı, yel vurduqca tərpənirdi. Amma Müslüm kişinin bundan xəbəri yox idi, hələ də kürəyini divara söykəyib yatırdı.

Haçansa onu bu dünyaya gətirən o bir cüt adamın heç birisini Mahmud müəllim sevmirdi; nə ölüsünü, nə dirisini. Bunun nə boyda günah olduğunu o bilirdi. Amma bu günahı az-maz yüngülləşdirən bir şey vardı ki, Mahmud müəllim heç özünü də sevmirdi. Hər dəfə güzgüyə baxıb

üzünü qırxanda öz sifətindən zəhləsi gedirdi, o sifəti həmişə ağrıyıb-zoqquldayan bir diş kimi gəzdirirdi. Ən pisi də buydu ki, ölənəcən o dişi çəkdirmək mümkün deyildi.

Mahmud müəllim üzünü çevirib pəncərədən aralandı.

Qaranlıqda yel vurduqca titrəşən yarpaqların xışıltısı eşidilirdi. Həyətdəki ağaclar nəfəs alırdı.

Yarpaqların arasından sızılan ay işığında arabir tənəklərdən sallanan ağappaq üzüm salxımları görünürdü və o salxımların görünüşü nəsə şeytancasına adamın ağlını azdırırdı; elə bil yuxuda üstü açılan bir qızın çılpaq döşlərini görürdün.

Gündüz bu evə yasa yığışan, bu ölüyə öz borclarını verib həvəssiz-həvəssiz ağlaşan o qara yaylıqlı, qara donlu arvadların yarıçılpaq, balıq kimi dipdiri qollarında, qıçlarında da elə bil ÖLÜM deyilən o şeyə nəsə bir hörmətsizlik vardı.

Yox, günah arvadlarda deyildi. Günah bu yayın istisində, küllü-aləmi soyunduran ədəbsiz çılpaqlığındaydı. Və bəlkə yayda ölməyin özü də, elə günah idi.

İnsan öləndə də, yəqin qışda ölməliydi. Düzü-dünyanı qar örtəndə qar kimi ağappaq kəfənə bükülməliydi. Qışda ölən adam bu dünyanın rəngini, ahəngini pozmurdu, öz ölümüylə bu dünyanın qarına, soyuğuna qarışırdı.

Amma yayda adamın ölməyi, istidə-bürküdə qar yağmağı kimi bir şey idi. Və bu yay gecəsində Mahmud müəllimin üz-gözünə toxunan o küləyin sərinliyi də, bəlkə indi o qara kəlağayının altında yatan meyidin canındakı ÖLÜMÜN soyuqluğundan qopmuşdu.

Mahmud müəllim birdən-birə üz-gözündə ÖLÜMÜN soyuqluğunu hiss eləyib səksəndi, tez-tələsik yeriyib həyətdən çıxdı.


Bayırda külək əsmirdi...

1977

BEŞİNCİ KİTAB

AYIN O BİRİ ÜZÜ

(esselər)



GÖY ÜZÜ QÜŞLARLA ŞAİRLƏRİNDİ

Belə bir fərziyə var ki, bu kainat haçansa bir nöqtənin partlayışından yaranıb. Əgər bu doğrudusa, onda poetik söz özünün son həddində bu kainatı təzədən sıxıb o bir nöqtəyə sığışdırmaq cəhdidi.

Bu mənada, ən poetik şeir, yəqin ki, sözsüz şeirdi və əsil şair ömrü boyu sözdən azad olmağa can atır. Pol Verlenin "Sözsüz romanslar"ı, V.Bryusovun "Sözsüz sonetlər"i də yəqin elə bu istəkdən doğulub.

Səslərin ahəngindən yaranan musiqini "Allahların dili" adlandırırlar. Böyük alman filosofu Kant "həm hissə, həm də ağıla təsir eləyən poeziyanı yalnız hissə təsir eləyən musiqidən" daha üstün tutsa da, hər halda söz yəqin ki, musiqidən aşağıdı; söz "bəndələrin dili"di.

Sözün səsə nisbəti, təxminən, pulun qızıla nisbəti kimidi. Səs dəyişməz dəyərdi, söz qiymətdən düşə bilər.

Qədim insan danışmağı bacarmırdı və öz hisslərini sözlə yox, səslə ifadə eləyirdi. "Əlifba"nın ilk hərfi olan "a" səsi, həm də, insan dodağından qopan ilk səsdi və bu səsi doğuran hissin adı "qorxu"du. Deməli, bu dünyadakı bütün səslərin ən əzəli "a" səsi, bütün hisslərin ən əzəli "qorxu" hissidi.

Artur Rembo "Saitlər" adlı məşhur sonetində səslərin onda doğurduğu rəng duyğusundan yazır; "a" səsi qaradı, "e" səsi ağdı, "i" qırmızı, "o" göy, "u" yaşıl...

Pol Verlen öz dostu Rembonun bu şerinə o qədər də ciddi baxmırdı, çünki onun fikrincə, səslərin hansı rəngdə

olması, əslində, Rembonun heç vecinə də deyildi. Və bir çox illər bundan əvvəl, o şeri ilk dəfə oxuyanda, Rembonun təsəvvürüylə mənim təsəvvürümün üst-üstə düşdüyü yeganə səs "a" saiti oldu. Rembo demişkən, qara və tüklü "a"... Və qəribədi ki, "a" səsini doğuran "qorxu" hissi də, mənim təsəvvürümdə elə-beləcə, "qara və tüklü"dü.

Sergey Yesenin "Mariyanın açarları" əsərində saitləri göy üzünə, samitləri yer üzünə bənzədirdi və deyirdi ki, hər bir dil göy üzüylə yer üzünün kəbinindən yaranıb.

O hesabla, "a" saiti əgər qara buludlu, tutqun göy üzüdüsə, dilimizin az qala ən işlək saiti olan "ə" səsi, yəqin ki, açıq və mavi göy üzüdü. Və bəlkə də, heç bir dilin başının üstündə bizim dilimizin səmasından açıq və mavi səma yoxdu.

Hər bir əsil şair Tanrını öz ana dilində dindirir və hər bir əsil şeir Tanrıya üz tutub quş kimi qanad çala-çala öz doğulduğu dilin səmasını genişləndirir.

Ana dilimizdə Tanrını Füzuli qədər dindirən və öz şeriylə ana dilimizin səmasını Füzuli qədər genişləndirən ikinci bir şair, hələ ki, olmayıb.

Nə vaxtsa bu məmləkətdə Füzuli gücündə bir hökmdar olsaydı, yəqin bir qarış torpağımız da əldən çıxmazdı, sərhədlərimiz də indi gedib Çinə, Hindistana çatardı. Amma Tanrı şairlərə verdiyi gücü hökmdarlara vermir və bəlkə elə buna görə də, insanlar göydə uçan quşlara həsəd apardığı kimi hökmdarlar da şairlərə həsəd aparır.

...Göy üzü quşlarla şairlərindi...

***

Bu dünyada quş ovçuları da var, şair ovçuları da.

Şairi öz Sözünün ucalığından yendirmək, alçaltmaq, əzmək istəyənlər, bəlkə də, şairin özündən çox, onun ru-

hunun uçub-dolandığı əlçatmaz göy üzündən, əbədiyyətdən intiqam almaq istəyənlərdi.

Qəribədi, əbədiyyətdən intiqam ala-ala da, əbədiyyətə qovuşmaq olarmış. Şair təkcə sevdiklərini yox, nifrət elədiklərini də öz sözüylə əbədiləşdirə bilərmiş.

Hər dəfə Füzulinin "Şikayətnamə"sini oxuyanda, onu idarə qapısında süründürən, get-gələ salan o balaca məmurun üzündəki kinli, özündənrazı təbəssümü görürsən. Füzuliyə "Şikayətnamə"ni yazdıran o məmur, şairin istədiyini verməsə də, öz istədiyini almışdı; şair sözünün hesabına əbədiyyətə yamaq olmuşdu.

Yüz illərdi ki, o məmurun üzündəki kinli təbəssüm Füzuliyə "Sən də bizim birimizsən, sən də hamı kimi gücsüzsən, miskinsən!" deyir.

Doğrudan da, öz şerinin ucalığından yenib öz ev-eşiyinin ehtiyacına təslim olan şair miskindi.

Amma...

"Bəli, o miskindi, amma sizin kimi yox!.."

(A.S.Puşkin)

Şair hamıya bənzəmir. Bu onun həm xoşbəxtliyi, həm bədbəxtliyidi. Şair "seçilmiş adam"dı. Amma bu dünyada "seçilməmiş adam" varmı?

Qədim Zen-buddist fəlsəfəsində deyilir: "Bizim həyatımız ölümümüzdə qısa fasilədi".

Bu mənada, əvvəli və sonu bir ucsuz-bucaqsız heçliyə, qaranlığa, zülmətə, ölüm adlı əbədiyyətə dirənən hər bir insan ömrü özü-özlüyündə taleyin hədiyyəsidi. Bu dünyada hər bir adam, o ucsuz-bucaqsız qaranlıqda itib-batan, bu işıqlı dünyaya yol tapıb gələ bilməyən minlərlə, milyonlarla qardaş-bacısının hesabına yaşayır.

Amma şair ömrünün adi insan ömründən bir fərqi var; şair sözün gücünə özündən əvvəlki və sonrakı o qaranlığı işıqlandıran, heçlikdən nəsə alan bir adamdı.

Platon "Hər bir yaradıcılıq öz gücünü ölümdən alır" deyirdi.

Bu fikir bütün sənət adamlarından daha çox yəqin şairlərə aiddi. Hər bir əsil şeir Ölümlə təmasdan yaranır, Ölümün "canından" qopur. Hər bir əsil şeir, əslində, o ucsuz-bucaqsız qaranlığa, zülmətə, Ölüm adlı əbədiyyətə açılan bir pəncərədi və o pəncərədən üzümüzə Ölümün soyuq nəfəsi dəyir...

***

Şerin doğulmasını çox vaxt insanın doğulmasına bənzədirlər.

Bu bayağı, çeynənmiş bənzətmədə bir həqiqət də var. Amma bu həqiqət yarımçıqdı.

Körpə doğulanda, anası "azad oldu" deyirlər. Əslində, azad olan hər ikisidi; ana baladan azad olur, bala anadan. O hesabla, son nöqtəsi qoyulan kimi şeir şairdən, şair də şeirdən azad olmalıdı. Amma şair doğrudan da, azad olurmu?!..

Hələ iki əsr bundan əvvəl alman şairi Novalis deyirdi: "Yazdığın şeir sənə yox, sən yazdığın şerə məxsussan".

Doğrudan da, hər bir əsil şair yazdığı şerin çarmıxına çəkilmiş İsadı və ölənəcən bu çarmıxdan can qurtarmaq müşkül məsələdi.

Bir də ki, şairlə şerin bir-birindən, sözün əsil mənasında azad olduğu an bəlkə elə şairin öldüyü andı. Çünki şairin Özüylə Sözü çox vaxt bir-birinə əngəl olur və sağlığında şairi sevməyənlərin çoxu, əslində, onun Sözündən qabaq Özünü sevmir. Bu adamlardan ötrü şairin sözünün qarşısını həmişə şairin üzü kəsir və bu üzün hər bir cizgisi, həyatın mənasını nəyin bahasına olursa-olsun yalnız xoşbəxtliyə çatmaqda görən bu adamlara deyir ki:

"Dünyada xoşbəxtlik yoxdu,
azadlıq və rahatlıq var".

(A.S.Puşkin)

Şair öz rahatlığını azadlığında tapsa da, şairin azadlığı çoxlarının rahatlığını pozur. Bu dünyada şair öz azadlığıyla, bəzən toyda ağlayan - yasda gülən adama bənzəyir və bütün "məclis yiyələri" yəqin buna ancaq "məclisi pozmamaq xətrinə" dözürlər.

Bir zamanlar Platon da, özünün "ideal cəmiyyətinə" şairləri buraxmaq istəməyəndə, yəqin Tanrının bu ərköyün, davakar övladlarının orda şuluq salacağından qorxmuşdu. Amma bir həqiqət də var ki, qədim filosoflar arasında "şairləri sevməyən" Platondan daha çox Şair olanı yoxdu.

Poeziya və əxlaq...

Bu mövzu əsrlər boyu bir çox şairləri, filosofları rahat buraxmayıb.

Puşkin "Poeziya əxlaqdan ucadı" deyirdi. Və bu qətiyyən o demək deyildi ki, poeziya əxlaqsızdı.

Sadəcə, poetik dəyərlər əbədi, əxlaqi dəyərlər dəyişkəndi. Və günəşin hərarətini adi termometrlə ölçmək mümkün olmadığı kimi, əsil poeziyanın qiymətini də, hansısa əxlaqi dəyərlərlə hesablamaq mümkün deyil. Ümumiyyətlə, poeziya öz qanunlarından başqa heç bir qanuna tabe olmur və şair haqqında "Sən özün öz hakiminsən" deyən Puşkin, doğrudan da haqlıydı.

Puşkinə həsr olunmuş bir çıxışındasa Blok deyirdi: "Adamlar bu gün şairə heykəl qoyub, sabah ondan üz çevirə bilərlər. Amma bunun şairə dəxli yoxdu, bu yalnız həmin adamların hansı yuvanın quşu olduğundan xəbər verir"...

..."Heç bir insan ömrü Bodlerin bir misrasına dəyməz". Məşhur yapon yazıçısı Akutaqavanın dediyi bu qədər sö-

zün ən acı həqiqəti orasındaydı ki, Bodlerin bir misrasına heç o misranı yazan şairin də ömrü dəyməzdi.

Pol Verlenin "Lənətlənmiş şairlər" siyahısında adı birinci çəkilən, guya "özü-özünü idarə eləyə bilmədiyinə görə" məhkəmənin hökmüylə ömrünün sonunacan kinli və zalım anasının qəyyumluğu altında yaşamağa məhkum edilmiş böyük fransız şairi Şarl Bodlerin əzab, ehtiyac və təhqirlərlə dolu qırx altı illik həyatında, bəlkə də, onu ilhama gətirib bircə misra yazdırmağa belə qadir olan bir bəxtəvər gün, xoşbəxt saat tapmaq çətindi.

Amma...

"Əgər siz bilsəydiniz,
necə zir-zibildən
doğulur şeir,
abır-həyə bilmədən..."

(A.Axmatova)

***

Doğrudan da, şeir necə doğulur? Şairlik nədi?

Qədim yunan dilində şairlik sözünün mənası "iş görmək" deməkdi. İndiyəcən bu dünyada şair haqqında deyilmiş ən məşhur kəlamda da "iş" adı çəkilir: "Şairin sözü - onun işinin məğzidi".

Amma şairlik işdimi?

Bu dünyada məqsədsiz heç bir iş görülmür, hər görülən iş hansı məqsədə çatmaq üçünsə bir vasitədi. Amma əsil şairdən ötrü poeziya vasitə deyil, məqsəddi.

Kant poeziyanı "Fikirlərin bədii oyunu" sayırdı.

Və deməli, şeir yazanda şair "işçi"dən daha çox, "oyunçu"du. Oyun qurtarıb iş başlayan yerdə poeziya ölür.

Deyirlər ki, dahilər uşaqlara xas olan bir çox cəhətləri ömrü boyu özündə qoruyub saxlamağı bacaran adamlardı.

Kant bu dünyada ancaq dahi şairlərin varlığına inanırdı və deyirdi ki, "dahilik olmayan yerdə poeziya ola bilməz".

Və deməli, bu dünyada əsil şairlərin başından "uşaqlıq havası" heç vaxt çəkilib getmir.

...Yadındadımı?

Uşaq vaxtı köhnə dəftər varağını qatlayıb quş düzəldərdin, o quşu qolun gəldikcə göyə atıb arxasınca baxardın ki, haracan uçacaq?

Bəlkə elə bütün əsil şairlər də, min illər boyu öz ana dilinin səmasına o cür kağız quşları atan "dahi uşaqlar"dı. O quşların çoxunu zamanın küləkləri vurub-salıb, amma hələ uçanları da çoxdu.

Ən hündürdə uçan, ana dilimizin səmasına beş yüz il bundan əvvəl atılmış o quş kimindi? Sən bunu yaxşı bilirsən.

Və gözünü dolandırıb, o uçan quşların arasında az qala otuz il bundan qabaq ana dilimizin səmasına atdığın o kağız quşu axtarırsan və tapanda ürəyin rahatlanır.

O quş indən belə görən hansı ucalığa qalxacaq?.. Bunu bir Allah bilir.

Amma o quş ana dilimizin səmasından heç vaxt düşməyəcək... Sən buna uşaq kimi inanırsan və sənin xoşbəxtliyin də, yəqin elə bundadı.

Amma...

"Biz o quşu, Allah, necə daşlarıq!
Arvad-uşaq, cavan-qoca daşlarıq,
Bu dünyada ən sonuncu şairin
Ürəyini daşladıqca daşlarıq..."

(R.Rövşən)

"QƏMİN HƏRİFİ"

İnsan kədərli anlarında çox vaxt kədərli şeirlərdən, mahnılardan təskinlik tapır (halbuki, adi məntiqə görə, guya tərsinə olmalıdı). O kədərli şeirlər elə bizim kədərimizi də öz canına çəkir, dərdimizin, ağrımızın hovunu alır və biz yüngülləşdikcə o şeirlər elə bil bir az da ağırlaşır.

O hesabla, ana dilimizdəki bütün kədərli şeirlərin, bəlkə də, ən ağırı Füzulinin "Məni candan usandırdı" adıyla məşhur olan şeridi. O şerin canına şairin öz kədərindən savayı əsrlər uzunu nəsil-nəsil oxucuların da kədəri hopub.

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?

Məşhur rus şairi Marina Svetayeva deyirdi ki, şairin gücü nə qədər yazmağı yox, nə qədər gərilməyi bacarmağındadı.

Məncə, bu təkcə şairə yox, şerə də aiddi.

Hər şerin öz çəkisi, öz boyu var. Və şerin boyu misralarının sayıyla deyil, yay kimi sıxılıb o şerin içinə yığılan, az qala bərkiyib maddiləşən hisslərin, duyğuların dərinliyi və ucalığıyla ölçülür. Bu mənada "Şəbi-hicran" bizim poeziyamızın təkcə ən ağır çəkili yox, həm də ən uzun boylu şeridi. Bu şerin boyu yer üzündə indiyəcən olmuş və indən belə olacaq bütün ayrılıqların uzunluğu qədərdi...

***

Bu dünyanın ən cavabsız sualı, yəqin ki, "Poeziya nədi?" sualıdı. Çünki bu sualın cavabını tapmaqla təkcə poeziyanın deyil, bəlkə Allahın da sirrini açmaq olardı.

Ancaq əsrlər boyu bir çox şairlərin, filosofların dediyi kimi, poeziya əgər həyatın adiliyindən, bozluğundan ayrılıb ucalığa, ilahi həqiqətə qovuşmağa can atmaqdısa, Şərqdə bu tərifə ən çox layiq olan şairlərdən biri və bəlkə də birincisi Füzulidi.

Füzuliyə qədər Şərqin böyük şairləri sanki yerdən göyə, aşağıdan yuxarıya yox, yuxarıdan aşağıya baxırdılar.

Onda Şərq böyük və bütöv bir imperiya idi, bu imperiyada şairin yeri, mərtəbəsi çox yuxarıda, hətta hökmdarlardan da yüksəkdəydi.

Firdovsi, Nizami, Sədi, Hafiz... Şərqin bu qüdrətli şairləri hökmdarların səcdəyə gəldiyi, məsləhətlər aldığı müdrik, əlçatmaz şəxsiyyətlər idi.

Amma Şərq öz içindən sökülüb-töküldükcə, zəifləyib heydən düşdükcə, şairlər də o uca mərtəbədə davam gətirə bilmədilər, bir pillə aşağı enib... hökmdar oldular. Elə bil ki, hökmdarlar o şairləri özlərindən yuxarıda saxlamağa güc tapmayanda, utandıqlarından öz taxt-taclarını onlara təhvil verdilər. Və Şərqin hökmdar şairləri yarandı; Dəhləvi, Nəvai, Xətai...

Amma Şərq kərpic-kərpic uçulub-dağılmağındaydı. Axır ki, şairlər o hökmdar taxtından da yıxıldılar, birdənbirə bütün pillələrlə üzüaşağı yuvarlanıb lap dünyanın dibinə düşdülər və ordan, dünyanın dibindən Füzulinin səsi gəldi. O səsdə yüz cür dərddən, ağrıdan savayı, həm də, yıxılmağın ağrısı vardı.

Füzuli ucalan yox, enən Şərqin şairiydi, gücün yox, zəifliyin övladıydı.

Bildim qəmini sənin ki, çoxdu,
Qəm çəkməyə bir hərif yoxdu.
Gəldim ki, olam qəmin hərifi,
Gəl, təcrübə eylə mən zəifi.

"Leyli və Məcnun" poemasındakı bu misralar həm Məcnuna, həm də Füzulinin özünə aid idi. Füzuli bu dünyanın yiyəsiz qəminə yiyə durmağa, öz xoşuna "qəmin hərifi" olmağa gəlmişdi.

Füzuli bütöv Şərq mədəniyyətinin yetirməsi olsa da (şairin üç dildə - türkcə, farsca, ərəbcə yazmağı da bundan doğurdu), bu bütövlük hissi Füzulidə siyasi-ictimai yox, poetik məna daşıyırdı. Hökmdarlara tərbiyə verib haqq yolunu göstərən Firdovsidən, Nizamidən fərqli olaraq Füzulidə artıq "imperiya təfəkkürü" (C.Konrad) yox idi və öz dövrünün hökmdarlarına yol göstərməyə, tərbiyə verməyə Füzulinin nə iddiası, nə də həvəsi vardı. Və bu mənada, onun öz ustadı Nizaminin məşhur "Xəmsə"sindən tək bircə mövzunu - "Leyli və Məcnun"u qələmə almağı çox təbiiydi.

Var bir dərdim ki, min dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim! -

deyən Füzulinin xəstəhalcasına həssas, qızdırmalı poetik aləminə, sarayların soyuq və qəddar mühitindən Məcnun dolaşdığı səhraların qızmar havası daha doğmaydı.

Bütün ömrünü qayğı və ehtiyac içində keçirən Füzulinin bir şair kimi xoşbəxtliyi bəlkə də onun bir insan kimi bədbəxtliyi üstündə qurulmuşdu. Amma belə bir taleylə barışmaq çox çətin idi.

Bir dövrdəyəm ki, nəzm olub xar.
Əş'ar bulud kəsadi-əs'ar.

Bu misralarda təkcə şairin öz dövründən gileyi eşidilmir, həm də şairlərin böyük hörmət, var-dövlət yiyəsi olduğu o yaxın və uzaq keçmişə, Firdovsi, Nizami dövrünə gizli həsədi duyulur.

Nizami təkcə sağlığında yox, ölümündən sonra da diri Füzulidən qat-qat varlı və imkanlıydı. Füzuli doqquz axça təqaüddən ötrü idarə qapılarını döyəndə, Nizaminin ziya-

rətgaha dönmüş məqbərəsi ildə on iki min axça gəlir gətirirdi. Və bu, Nizaminin günahı deyildi. Bəlkə də Nizami özündən sonra bu dünyaya haçansa Füzuli kimi bir şairin gələcəyini bilsəydi, son nəfəsində bütün var-yoxunu ona vəsiyyət eləyərdi.

...Amma şairdən şairə təkcə SÖZ qalır...

Ver sözə eyha ki, tutduqca səni xabi-əcəl,

Edə hər saət səni ol uyğudan bidar söz.

Füzuli ruhundan doğan, qələmindən qopan hər sözə ömür verib yaşatsa da, o sözlərin Füzulini qayğıdan, ehtiyacdan qurtarıb rahat yaşatmağa gücü yox idi. Firdovsinin hər beytinə bir qızıl pul boyun olan, Nizamiyə kənd bağışlayan hökmdarların varlığı Füzulidən ötrü bir şirin yuxuydu. Füzulinin ümidi yerdə özünə, göydə Allahaydı və bəlkə də Allah Füzulini - Şərqin dahi şairləri arasında özünün bu sonbeşiyini daha çox sevdiyindən, onunla özünün arasına heç kəsi buraxmaq istəməmişdi.

Amma Şərqdə "şair" deyilən məxluq, hələ də, o yıxıldığı "ucalığın" həsrətini çəkməkdəydi. Füzulidən sonra şairlər bir də o itirilmiş "ucalığa" can atdılar, yıxıla-yıxıla, dura-dura o pillələrlə üzüyuxarı dırmaşdılar, amma nə qədər əlləşdilərsə, hökmdarlıq mərtəbəsinə qalxa bilmədilər, vəzirlik pilləsində ilişib qaldılar.

...Azərbaycan poeziyasının Molla Pənah Vaqifi belə yarandı.

Vaqif hökmdar deyildi, vəzir idi. Vəzir olan kəsin bir gözü həmişə hökmdarda olmalıydı və bir gözü həmişə hökmdarda olan şairin hər dəqiqə öz başının üstündə Allahı görməyi, Allahla danışmağı müşkül məsələydi. Beləcə, Füzulinin bəxtinə düşən "Allah və şair" münasibəti, Vaqifin payına düşən "Hökmdar və şair" münasibətiylə əvəz olundu.

Və bu mənada əli Allahdan üzülən Vaqif bəlkə Füzulidən də bədbəxt idi.

Amma Füzulinin bədbəxtliyini doğuran ruhun sarsıntısı, ruhun didərginliyi və sərgərdanlığıydısa,Vaqifin bədbəxtliyinin kökündə duran canın sıxıntısı, bədənin narahatlığıydı. Və bəlkə də poeziyamızın bu narahat bədəni Füzuli ruhunun tərk elədiyi, uçub-getdiyi bədən idi...

***

Allahdan savayı bu dünyada şəkli, sifəti olmayan heç nə yoxdu. Poeziyanın da neçə-neçə şəkli, sifəti var. Füzuli bizim poeziyamızın qocalıq sifətidi.

Qəribədi, şerin, sənətin nə olduğunu az-çox ağlımız kəsəndən, bu dünyada 62 il ömür sürmüş Füzuli bizim təsəvvürümüzdə 68 yaşlı Nizamidən də, 80 yaşlı Vaqifdən də qocadı. Və bu təsəvvürü bizdə yaradan təkcə Füzulinin hamıya bəlli olan şəkli deyil. Füzulinin qocalığı onun üzündə yox, sözündədi. Kafkanın məşhur ifadəsini bir balaca dəyişib desək, Füzuli "anadan qoca və yorğun doğulmuşdu".

O yorğunluq Füzulinin şeirlərində də duyulur.

Bizim haqqımızda öz bildiyimizdən qat-qat çox şey bilən, indiyəcən başımıza nələr gəlib, indən belə nələr gələcək, - hamısından xəbərdar olan o şeirlərin təkcə bizə ağlamağa və bizi ağlatmağa gücü çatır. Bizə kömək eləməyə o şeirlərin gücü yoxdu. O şeirləri yoran da, bəlkə elə bu "gücsüzlüyün" əzabıdı.

Alın yazımızı örtən qırışlar kimi neçə-neçə sirri özündə gizləyən bu kədərli və yorğun misralarda nə həyatın sevinci, nə də ölümün qorxusu var. Ümumiyyətlə, Füzuli poeziyasında "Həyat-ölüm" qarşıdurması yoxdu; çünki həyat deyilən şey Füzulidən ötrü yalnız sevgidi və ölüm deyilən şey bu sevginin əbədi kölgəsi, sevgi də, ölümün əbədi işığıdı.

Bir də ki, yer üzündə sonu xoşbəxt nigahla qurtaran bir sevgi dastanı tapmaq müşkül məsələdi. Çünki bir cüt bədəni yox, bir cüt ruhu bir-birinə bağlayan ilahi sevgidən ötrü nigah, bəlkə də vüsalın yox, ayrılığın başlanğıcıdı. Və bu dünyanın ən əbədi, ən pozulmaz nigahı bəlkə elə ölümdü.

Qərbin ən böyük sevgi dastanı "Romeo və Culyetta"nı Şərqin ən böyük sevgi dastanı "Leyli və Məcnun"dan fərqləndirən başlıca cəhət də ölümə münasibətdi. Şekspirin Romeo və Culyettasını bir-birindən ayıran ölüm Füzulinin Leyli və Məcnununu bir-birinə qovuşdurur. Çünki Şekspirin qəhrəmanlarını aparan ölüm qıraqdan, dünyadan gəlirsə, Füzulinin qəhrəmanlarını aparan ölüm onların öz içindən, öz varlığından doğur.

Odur ki, "Romeo və Culyetta"da ölümə bir nifrət, "Leyli və Məcnun"dasa ölümə bir doğma, məhrəm münasibət var.

Ölüm Leyliylə Məcnunun son pənah yeridi.
Xəlvətgəhi-ünsə məhrəm oldum,
Azadəvü şadü xürrəm oldum.
Sən həm gələgör, təəllül etmə,
Mən müntəzirəm, təqafül etmə!
Gəl kami-dil ilə olalım yar,
Bir yerdə ki, yoxdur onda əğyar...
Daim olalım bir evdə həmraz
Kim, çıxmaya dışra ondan avaz...
Bu, son nəfəsdə Leylinin vəsiyyətidi.
Müştaqinəm, ey əcəl, kərəm qıl!
Dəf'i-ələm ilə rəf'i-qəm qıl!
Təklifi-visal edər mənə yar,
Bir xəlvətə kim, yoxdur əğyar.
Mən getməmək eyləsəm xətadır;
Səndən mənə bir mədəd rəvadır...

Bu da Leylinin məzarı başında canını tapşıran Məcnunun son sözləridi.

Şeirlərində ölümə qarşı duyulan belə mehriban, qorxusuz-ürküsüz münasibət Füzulini Şərqin də, Qərbin də bir çox böyük şairlərindən fərqləndirir.

Şərqdə Xəyyam, Qərbdə Viyon ölümdən istehzayla yazırdılar. Amma bu istehzanın içində də bir gizli qorxu vardı. Elə bil bu şairlər "Ölümlə zarafat eləyə-eləyə" özləri-özlərinə ürək-dirək verirdilər. Ölümün o qədər də qorxulu bir şey olmadığına özlərini inandırmaq istəyirdilər.

Dahi Cəlaləddin Ruminin Hegeli də heyran qoyan bir şerində təxminən belə misralar vardı: "Ölüm həyatın bütün dərdlərinə, ağrılarına son qoysa da, həyat həmişə qorxu içində ölümdən baş götürüb qaçır. Sevgiyə ürcah olan ürək də, beləcə qorxu içində çırpınır, elə bil ki, ölümün hənirtisini duyur".

Sevgi və Ölüm...

Beləcə, əsrlər boyu şairlərin qələmiylə cızılan, bir ucunda Sevgi, bir ucunda Ölüm olan bu əbədi sənət çevrəsi Füzulidə qapanır; Füzuli poeziyası Sevgiylə Ölümün qovuşuğunda yaranan poeziyadı ("Ey mənim Ölümüm, mənim Sevgimin övladı ol... Sevgidən doğulan Ölüm gözəldi..." misralarını yazan, məşhur "Ölüm sonetləri"nin müəllifi, dahi ispan şairi Kevedo Füzulidən təxminən yüz il sonra doğuldu).

Bu dünyada bizə "Sevgi və həyat" dərsi verən şairlər çox olub, Füzuli bizə "Sevgi və Ölüm" dərsi verir. Həyat ötəri, Ölüm əbədidi. Ölümə Füzuli qədər doğma və əziz olana Ölüm qıya bilməz. Füzuli poeziyasının ölməzliyi də, bəlkə elə bundadı...

TANRI CASUSU

Hadinin adını ilk dəfə eşidəndə mən hələ uşaq idim. Eşitmişdim ki, guya iyirminci ildə qızıl ordu Gəncəyə girəndə atların ayaqları altında əzilib ölən bu şairin heç qəbri də qalmayıb. Bir də ki, Hadinin iki misrasını eşitmişdim:

İmzasını qoymuş milət övraqi-həyata,
Yox millətimin xətti bu imzalar içində.

O misraların birincisi o dəqiqə yadımdan çıxmışdı, amma ikincisi həmişəlik beynimə mismarlanıb qalmışdı.

Sonralar hər dəfə Hadidən söhbət düşəndə gördüm ki, bu şairi tanıyanların, hətta sevənlərin hamısı onun haqqında elə mən biləni bilir. Hamı bilir ki, Hadinin qəbri yoxdu və ondan misal çəkəndə hamının yadına ən birinci elə həmin o misra düşür: "Yox millətimin xətti bu imzalar içində".

İllər ötdü, böyüdüm. Hadinin yazdıqlarını da, Hadi haqqında yazılanları da oxudum. Sonra Hadinin qəbri də tapıldı. Amma bu gün də, "Hadi haqqında nə bilirsən" desələr, yəqin özümdən ixtiyarsız ən birinci sözüm bu olar ki, Hadinin qəbri yoxdu. Və ondan misal çəkmək istəsəm, ilk ağlıma gələn misra yəqin elə bu olar: "Yox millətimin xətti bu imzalar içində"...

***

Sözün düzü, çoxdandı ki, Hadi haqqında nəsə yazmaq istəyirdim və nədənsə mənə belə gəlirdi ki, bu yazını mütləq 1902-ci ilin Şamaxı zəlzələsindən başlamaq lazımdı.

O zəlzələ minlərlə adamı evsiz-eşiksiz qoymuşdu: iyirmi üç yaşlı Hadi də onlardan biriydi. O zəlzələdən sonra yaşadığı on səkkiz ildə Hadi nə ev-eşik, nə arvad-uşaq yiyəsi oldu. Bu on səkkiz ilin (1902-1920) yarıdan çoxunu sərgərdanlıqda, sürgündə, müharibədə keçirən, heç bir yerdə qərar tuta bilməyən Hadi, bəlkə də, həmin o zəlzələnin əbədi qurbanı idi.

Əslinə qalsa, bu dünyaya göz açdığı gündən Hadinin ömründə irili-xırdalı çox "zəlzələlər" olmuşdu: uşaq vaxtı atadan yetim qalmışdı, anası onu atıb başqasına ərə getmişdi, qohumların qapısında böyüyən Hadinin yeniyetməlik vaxtı sevdiyi qız da varlı bir taciri ondan üstün tutmuşdu. Və Hadinin ömrü boyu evlənməməyinin bir səbəbi də, yəqin qadınlardan gördüyü bu ikiqat xəyanət, anasının və sevgilisinin vəfasızlığıydı.

Bu inciklik onun 1908-ci ildə çap olunan "Beşikdən məzara qədər bəşərin əhvalı" poemasında bütün çılpaqlığıyla üzə çıxır. Dünya poeziyasının ən müqəddəs obrazlarından biri olan Ana haqqında bu cür tikanlı, kinayəli misralara mən heç bir şairdə rast gəlməmişəm.

Amma ilk dəfə oxuyanda, mənə maraqlı görünən, bu poemanın tamam başqa bir cəhətiydi; ana bətninin əsarətindən qurtarıb dünyanın əsarətinə düşən adəm övladının buradakı təsviri, Füzulinin "Leyli və Məcnun" poemasında Məcnunun doğulmağını təsvir eləyən misralarla çox səsləşirdi.

Füzuli yazırdı:
Ol dəm ki, bu xakdana düşdü,
Halını bilib fəğana düşdü.
Axır günün əvvəl eyləyib yad,
Axıtdı sirişkü qıldı fəryad...
Olmuşdu zəbani-hali guya

Söylədi ki, "Ey cəfaçı dünya!..
Tədbiri qəm etmək olmaz oldu.
Gəldim, geri getmək olmaz oldu".

Hadi yazırdı:
Qanmış kimi bu aləmi, mənfayi-həyatı,
Biçarə cocuq doğdumu, başlar nəvəhatı.
Guya ki, demək istəyir ol kudəki-nalan
Oldum bu doğulmaqlığıma şimdi peşman.

Bu oxşar misraların sayını yenə artırmaq olardı. Amma məsələ bunda deyil. Çünki bu dünyaya gəlməyin peşmançılığı təkcə Füzulidə və Hadidə yox, Füzulidən xeyli əvvəl "Dünya duracaq yer deyil, ey can, səfər eylə" deyən Nəsimidən tutmuş, Hadidən xeyli sonra "Bilsək dünyaya gəlməzdik, Analar aldatdı bizi" deyən bəndənizə qədər saysız-hesabsız şairlərin şeirlərində var.

Və Hadinin qələmindən çıxan, özünün "kiçik felyeton" adlandırdığı bu poemanın qəribəliyi, dediyim kimi, dünyaya gələnin yox, dünyaya gətirənin obrazıyla bağlıdı. Əslinə qalsa, Hadinin təsvir elədiyi ana da, bütün anaların gördüyü işi görür; ağlayan körpəsini əmizdirib kiridir, bələyir, nənnidə yırğalayıb yatızdırır. Amma Hadinin gözündə, bu ana "zalımlar zalımı"dı, öz biçarə körpəsinin qənimidi, çünki...

...Biçarəni qoymaz anası olmağa giryan,
Püstanın ucilə tıqayır ağzını hər an.
Sərbəstcə qoymaz ki, bir az ağlasın övlad,
Bir möhri-əsarət vuruyor ağzına bidad.
Dilli ikən ol tifli nasıl lal ediyorlar,
Mahiyyəti-hüriyəti pamal ediyorlar...
Zənciri-təbiisi kəsildi, bələyorlar,
Bir iplə dəxi qundağı qat-qat sarıyorlar.

Canimi, ənmi, söylə, edirsən onu məhbus?
Ey dəsti-sitəmkar, ayə pənceyi-mənhus!..
Növzad ikən övlad ona, ey lövhi-cəhalət,
"Təlim" ediyor, öyrədiyorsan da əsarət!

Poetik şərtiliyə çox şeyi güzəşt eləmək mümkün olsa da, amma Ana sevgisini bu şəkildə "qiymətləndirməyi" həzm eləmək çətin idi və bu "nankor" misraların cavabı gec-tez verilməliydi. Doğrudan da bir müddət sonra, Ana haqqında hər misrası Hadinin yazdığının tərsi olan təntənəli bir şeir çap olundu. Yox, bu Cəfər Cabbarlının məşhur "Ana" şeri deyildi...

Yatmış ikən duranda növzadın,
Gecələr ağlayanda qalxar idin -
Yatağında, a möhtərəm məxluq!
Səni gördükcə can atardı cocuq,
Köksün ilə onu qucaqlar idin.

Səslənirdi ləbin yanağında,
Sanki bülbül yaşardı bağında,
Cocuq iştə gülün budağında,
Gülüyordu sənin qucağında...

Və Hadinin poemasına parodiya kim səslənən bu təmtəraqlı misraların müəllifi də, bir özgəsi yox, elə Məhəmməd Hadi özüydü...

***

Əslində, Hadinin həyatı da, şeirləri də, belə təzadlarla doludu.

Bu təzadların ən böyüyü, rühən romantik olan Hadinin, fikir və düşüncə adamı kimi maarifçi olmağıdı. Çünki odla su kimi, əsil şairliklə maarifçiliyin də bir-birinə uyuşmağı çox çətindi. Şair öz ilahi missiyasını müəllimliklə əvəz elə-

yəndə, oxucunu öz bəndəsi və ya həmsöhbəti deyil, şagirdi sayanda, ona nəsə demək yox, nəsə öyrətmək istəyəndə, poetik təxəyyülün sərhədləri, istər-istəməz, oxucu şüurunun qavraya biləcəyi həddə qədər daralır və şair təxəyyülüylə oxucu təfəkküründün ortaq ərazisi yaranır.

Hadinin təkcə böyük istedadı yox, həm də, böyük ağlı və biliyi vardı, öz oxucusuna nəsə öyrətmək meyli də çox güclüydü, amma onun öz oxucusuyla ortaq ərazisi, ortaq dili yoxuydu. Və bu mənada, Hadi həm oxucusuz şair, həm də, şagirdsiz müəllim idi.

Hadinin şeir dilinin qəlizliyindən çox yazıblar, bəzən onun dilini Füzulinin diliylə də müqayisə eləyiblər. Məncə, bu müqayisə yersizdi. Çünki Füzuliylə Hadinin dilə münasibəti bir-birinin əksidi. Və yaşadıqları dövrdə, Füzulinin yazdıqlarını ondan sadə, Hadinin yazdıqlarını ondan qəliz yazmaq, bəlkə də, qeyri-mümkün idi.

Odur ki, Füzulinin yazdığı hər üç dildə, türkcə, farsca, ərəbcə bülbül kimi ötsən də, yenə onun şeirlərindəki sətiraltı mənaları tam açmağa gücün çatmayacaq. Bunun üçün həm Füzulinin duyduqlarını duymaq, həm də, bildiklərini bilmək lazımdı.

Amma Hadinin ilk baxışda çox qəliz görünən misralarının o qədər də dərin və sirli sətiraltı dünyası yoxdu. O misralardakı fars və ərəb sözlərini dilimizə çevirib, sadə, anlaşıqlı bir şəkilə gətirsək, hər bir məktəblinin o şeirləri çox gözəl anlayacağına mən inanıram. Sözün düzü, səksəninci illərin əvvəlində mən özüm belə bir fikrə düşmüşdüm, Hadinin sevdiyim şeirlərindən bir-ikisini sadələşdirməyə çalışmışdım və bu vaxt qəribə bir mənzərənin şahidi olmuşdum: o şeirlər sadələşdikcə dayazlaşırdı.

Sən demə, Hadinin şeirlərinin cazibə qüvvəsi, həm də, onun dilinin qəlizliyindəymiş.

Bir çox sözlərini başa düşmədiyimiz və ya səhv başa düşdüyümüz o şeirlər bizim oxucu fikrimizi dolaşdırıb azdırır, təsəvvürümüzdə müəllifin ağlına gəlməyən mənzərələr yaradır. Elə bil ki, hardansa uzaqdan keçən bir qatarın fit səsini eşidirsən və həmin o fit səsinin uzunluğuyla hesablayıb, görmədiyin o qatarın vaqonlarının sayını bilmək istəyirsən.

Doğrudanmı, Hadinin şeir dilinin qəlizliyi bir şair kimi onun bədbəxtliyidi? Sözün düzü, bu suala birmənalı cavab vermək mənim üçün çətindi...

...Məşhur Amerika yazıçısı Folkner sənətdə böyük məğlubiyyətləri xırda qələbələrdən üstün tuturdu. Çünki böyük məğlubiyyətin arxasında cəhdin böyüklüyü dayanır.

Bu mənada, Azərbaycan poeziyasının ən böyük məğlubiyyəti, yəqin ki, Hadinin adıyla bağlıdı. Çünki bu məmləkətdə heç bir şair "Beşikdən məzara qədər bəşərin əhvalı"nı və ya "İnsanların tarixi faciələri"ni yazmağa cəhd eləməyib...

Həyatın səsləri guşumda həp fəryad şəklində,
Bu insanlar ki qardaşdır və lakin yad şəklində,
Ədavət daima vardır, məhəbbət ad şəklində,
Fərəhlər həbs olunmuş, hüznlər azad şəklində,
Müsibətlər, bəlalar, qüssələr abad şəklində,
Ürəklər qəm odilə hər zaman bərbad şəklində...

Hadinin fikrincə, bəşərin beşikdən məzara gedən yolu zülm və əsarətdən keçirdi, Adəmdən üzübəri insanların tarixi faciələri də ədavətdən, xəyanətdən, nəfsdən, tamahdan, bir sözlə, insana xas olan yüz cür günahdan doğurdu.

Hadi özü azad adam idi, bu dünyada heç kimə və heç nəyə bağlı deyildi, deməli, kiminsə, nəyinsə xətrinə günaha batmağa da ehtiyacı yoxuydu. Amma Hadinin canındakı bu azadlıq duyğusu təkcə şerə, sözə çevrilməklə doy-

murdu, onu səyahətlərə, təhlükə və macəralara çağırırdı. Bu cəhətdən Hadi dünyanın bir çox romantik şairlərinə bənzəsə də öz müasiri Caviddən xeyli fərqlənirdi. Caviddə romantik şairlərə qətiyyən xas olmayan bir oturaqlıq, evə, ailəyə bağlılıq vardı.

Amma yox!.. Sən demə, Cavidin taleyinə də "səyahət" yazılmışdı: Azərbaycanın bu romantik şairi də öz ömrünü evdən-eşikdən uzaqda, soyuq Maqadanda, sürgündə başa vurmağa məhkum idi...

***

Haçansa Hadinin həyatında da bir sürgün əhvalatı olmuşdu.

Səksəninci illərin əvvəlində, qocaman yazıçılarımızdan biri həmin o sürgünlə bağlı mənə maraqlı bir rəvayət danışdı.

...1908-ci il Türkiyə inqilabından ruhlanan Hadi bir-iki il sonra İstanbula gedir. Amma orda da dilini dinc qoymur, qəzet və jurnallarda yazdığını yazır, yaxşıya yaxşı, pisə pis deyir və görünür, "pis" dediyi adamlar onun üstünə "rus casusu" adı qoyub Salonikə sürgün eləyirlər. Uzun əzabdan, əziyyətdən sonra, axır ki, onu sürgündən azad eləyib əvvəl İstanbula, ordan da, 1914-cü ilin fevralında gəmiylə vətənə qaytarırlar.

Və taleyin acı zarafatına bax ki, yolda o gəmini yunanlar saxlayırlar, adamları yoxlayıb yenə yazıq Hadidən yapışırlar, bu dəfə də, üstünə "türk casusu" adı qoyub həbs eləmək istəyirlər və bu vaxt o gəmidə olan bir erməni həkim Hadinin dadına çatır:

- Mən bu yazığı tanıyıram, - deyir, - şairdi. Türklər "rus casusu" deyib bunu Salonikə sürgün eləmişdilər, indi siz də "türk casusu" deyib həbs eləmək istəyirsiz?!..

Xülasə, o həkim Hadini yunanların əlindən alır. Amma o ermənin Azərbaycan ədəbiyyatı qarşısındakı "xidmətləri" bununla bitmir.

Həmin o qocaman yazıçımız danışırdı ki, otuz yeddinci ildə o həkimi tutub Sibirə sürgün eləyirlər və Maqadanda, Cavidin ömrünün son günlərində, o həkim xəstə şairin qulluğunda dayanır...

Sözün düzü, bu rəvayətin həqiqətə nə dərəcədə yaxın olduğunu mən bilmirəm. Və nə vaxtsa bu dünyada bir yaxşı ermənin olduğuna inanmağa da əsas görmürəm (Amma o ermənin axırına da Maqadan şaxtası çıxdı...)

Əslinə qalsa, o vaxt o söhbətdə mənə maraqlı görünən Hadinin "casusluğu" idi. Yox, məsələ onun "rus və ya türk casusu" olmağında deyildi.

Allahın bu dünyaya göndərdiyi şairləri insanlar arasında "Tanrı casusu" sayanlar, bəlkə də, haqlıdı. Bu mənada, təpədən dırnağacan şair olan Məhəmməd Hadi Tanrının ən sədaqətli "casuslarından" idi. Və Hadinin, heç kəsin başa düşmədiyi qəliz bir dildə yazılmış, az qala "şifrələnmiş" şeirləri də, bəlkə bizə yox, onu bu dünyaya göndərənə ünvanlanmışdı.

...Tanrının Hadini çox gözəl başa düşdüyünə heç bir şübhəm yoxdu...

ÜÇ GÖRÜŞ

Ölümündən əlli il sonra, səksəninci illərin axırında Müşfiqin bir cüt həbsxana şəkli tapıldı.

O şəkillərdəki Müşfiq dərs kitablarında gördüyümüz cavan, qarabəniz oğlana heç oxşamırdı. Tüklü sifəti sınıxıb avazımışdı. Qorxu dolu gözləri elə bil adamdan soruşurdu: "Məni niyə tutublar? Günahım nədi? Mən niyə ölməliyəm? Niyə?!".

Müşfiqin ölümündən əlli il sonra da, o suala cavab tapmaq asan deyildi. Onun qısa ömrünü ilbəil, günbəgün ələk-vələk eləsəydin də, yenə o suala cavab tapa bilməzdin. O sualın cavabı heç Müşfiqin şeirlərində də yox idi...

Pasternak şairlərə ölümdən çox yazmağı məsləhət görmürdü.

Çünki hər dəfə ölümdən yazanda şair özünü ölümün yadına salır və deməli, ölümü özünə bir addım da yaxınlaşdırır.

Bizim şairlərin ölümə ən doğma və yaxın olanı Füzulidisə, ən uzaq və yad olanı Müşfiqdi.

Müşfiqin ölümündən qabaq çap olunan son şeri "Duyğu yarpaqları" adlanır. Amma onun şeirlərində bütün duyğulara yer var, bircə Ölüm duyğusundan savayı. Ölüm duyğusunun bir xəfifcə mehi də sanki bu şeirlərin canından keçməyib.

Tez-tez deyilməkdən çeynənib saqqıza dönmüş bir cüt söz var: "ölümsüz şair". O sözlər, bəlkə də, hamıdan çox

Müşfiqə yaraşır; şair kimi də, insan kimi də. Çünki bu dünyada Ölümün nişanəsi qəbirdi. Amma Müşfiqin qəbri yoxdu. Və bəlkə də, Müşfiq adlı bir şairin altmış ildən çoxdu ki, Sağ olmadığından Ölüm özü də xəbərsizdi...

***

Mənim sevdiyim və sevmədiyim şairlər var. Sevmədiklərimin arasında hətta dahilər də tapılar və sevdiklərimin hamısına, heç də "dahi" demək olmaz.

Mənim Müşfiqə münasibətim, arabir onun adını dahi Füzuliylə qoşa çəkməyim bəzilərinə qəribə görünür. Yox, Müşfiq dahi deyil və mən bunu çox gözəl bilirəm. Bir də ki, mən o qədər də vəfalı oxucu deyiləm. Hətta özümü də, bir şair kimi sevdiyim və sevmədiyim vaxtlar olur. Özümü sevmədiyim vaxtlarda mən şeir yazmıram və deməli, yazdığım şeirlərin altındakı tarixlərə baxıb özümü sevdiyim günlərin siyahısını da tuta bilərdim.

Və mən indi desəm ki, içi özümqarışıq heç bir şairi heç bir vaxt Müşfiq qədər sevməmişəm, yəqin çoxları buna inanmayacaq.

Bu dünyada sevgilərin ən pakı, ən gözəli uşaqlıq sevgisidi. Mənim uşaqlığımın ən sevimli qəhrəmanı "Mixaylo", ən sevimli şairisə Müşfiq idi. Əslində, mənim Müşfiqə sevgim "qızılca" kimi bir şeydi; mən Müşfiqlə xəstələnmişdim.

Onda dördüncü, ya beşinci sinifdə oxuyurdum, təzə-təzə şeir yazmağa başlamışdım və mənim içim Müşfiqin ahəngiylə, musiqisiylə doluydu:

Bəziniz qorxulu, bəziniz qorxusuz,
Bəziniz duyğulu, bəziniz duyğusuz,
Bəziniz uyğulu, bəziniz uyğusuz,
Küləklər, küləklər, ey sərin küləklər,
Sizdə var qoxusu hər yerin, küləklər!

O vaxtacan eşitmədiyim bir ritmdə, onikilik üstə yazılmış bu şerin ahəngi, elə bil ki, hər tərəfi tutmuşdu; evimizdən bir az aralı keçən elektrik qatarının təkərləri də onikilik üstə taqqıldayırdı, yastı damımızı döyəcləyən yağış damlaları da onikilik üstə tappıldayırdı. Əsən küləklərdən hansının qorxulu, hansının qorxusuz olduğunu Müşfiq kimi mən də bilirdim, hətta o küləklərin gətirdiyi qoxuları bir-birindən ayırmağı da bacarırdım.

Bülbülə tərəfdən əsən külək ət qoxusu gətirirdi; çünki orda, laçınlılar məhləsində həmişə qoyun kəsib satırdılar.

Suraxanı tərəfdən əsən külək neft qoxusu gətirirdi; çünki orda neft mədənləri vardı.

Müşfiqə olan bu uşaqlıq sevgim mən böyüdükcə yavaş-yavaş ötüb keçsə də, yazdığım misraların arasından yenə hərdənbir Müşfiqin nəfəsi üzümə dəyirdi:

Hayandan əsir bu külək,
Nə xoş qoxular gətirir.
Yelpikləyir üz-gözümü,
Şirin yuxular gətirir...

Yetmişinci ildə yazdığım nəğmələrdən biri belə başlayırdı. Və bu misralarda Müşfiqin "Küləklər" şerinin ahəngi olmasa da, ruhu açıq-aşkar duyulurdu. Bunu özüm də duydum və o nəğməni cırıb atdım.

Mənim Müşfiqə olan uşaqlıq sevgim belə sona yetdi: çünki mən daha uşaq deyildim, iyirmi üç yaşım vardı, Müşfiqlə az qala yaşıdıydım, ilk kitabım təzə çıxmışdı, dünyanın ən böyük şairi olmaq həvəsindəydim, içim Özümlə doluydu və orda heç bir başqa şairə yer yox idi.

Bir də ki, o vaxt mənim sevdiyim "məxluqlar" qətiyyən şairlər deyildi...

Çiçəklər doğulur bu yaz gecəsi,
bu yaz gecəsində sevməyə nə var?!

Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın
Hələ öpülməmiş dodaqlarından, -
bu yaz gecəsində ölməyə nə var?!..

(R.Rövşən)

Bu dünyada Müşfiq adlı şairlə mənim birinci görüşüm, bəlkə də, elə həmin o yetmişinci ilin yazında başa çatdı.

Mənim uşaqlığımın sevimlisi olan Müşfiq cavanlığımın dostu ola bilmədi...

***

Müşfiqlə ikinci görüşüm, aradan xeyli vaxt ötəndən sonra, səksən altıncı ilin yazında oldu.

Onda mən kinostudiyada işdən çıxmışdım, evdə vəziyyət çətin idi, balalara çörək pulu qazanmaq lazımıydı və mən mətbəxdə, boş soyuducunun üstündə hansısa fransız şairinin iki min misralıq mənzum pyesini ruscadan ana dilimizə çevirməklə məşğuluydum.

Gecəli-gündüzlü üç günlük məşəqqətdən sonra son nöqtəni qoyub nəfəsimi dərdim. Və radionu açıb üç gündən bəri xəbərsiz olduğum dünyadan xəbər tutmaq istədim. Radioda konsert verirdilər. Zeynəb Müşfiqdən oxuyurdu:

Qarşımda nazlanıb yenə gülürsən,
Bilsən gülüşlərin nəyə bənzəyir?
Mən desəm artıqdı, özün bilirsən,
Lalə yarpağında şehə bənzəyir.

Sənin gülüşlərin bir rüzgar kimi
Əsərkən arzumun gülü açılır.

Gülsə dodaqların ulduzlar kimi
Ruhuma bir sərin işıq saçılır.

Söylə, gözəllərin dodaqlarından
Bu oynaq gülüşlər umulmuşmudur?
Sənin hər qəhqəhən ay kənarından
Keçən buludmudur, uçan quşmudur?..

Beləcə, mən yorğun, kirimişcə qulaq asırdım, Zeynəb oxuya-oxuya:

- Yazıq o şəxsə ki, qaraqabaqdır! - deyirdi və mən qaraqabaq adam olmasam da, sözün düzü, gülməyə də halım yoxudu. Əslində, mənim həmin dəqiqədəki halımla Müşfiqin o nəğməsindən daha çox Füzulinin "Şikayətnamə"si səsləşirdi.

Və bəlkə elə Füzulini xatırladığıma görə də, o mahnının sadə, oynaq misraları birdən-birə elə bil sehrlənib qəribə bir dumana büründü. Yox, mən çaşmamışdım, Müşfiqin o misralarına həqiqətən də Füzulinin sehrli nəfəsi toxunmuşdu; otuz altıncı ildə yazılmış bu şerin bütün təşbehləri, bənzətmələri, - "lalə yarpağında şehə bənzəyən gülüşlər", "ulduzlar kimi gülən dodaqlardan ruha səpilən sərin işıq", "ay kənarından keçən quş kimi qanad çalan hər qəhqəhə"... bunlar hamısı ordan, Füzulinin neçə yüz il bundan əvvəlki sirli dünyasından qopub gəlirdi. Və ən qəribəsi bu Füzulisayağı, çoxmərtəbəli təşbehlərin bu mahnıda belə yüngül, çəkisiz görünməsiydi.

Müşfiq haqqında nəsə yazmaq fikrinə də, mən ilk dəfə onda düşdüm. Amma işlər, qayğılar başımı qatdı. Bir yandan da ki, tənbəllik... Hər nəsə Müşfiqə əlim çatmadı.

Amma bir-iki il sonra, Müşfiqin səksən illiyi qeyd olunanda, televiziya ekranında onun təzə tapılmış bir cüt həbsxana şəkli göstərildi və mən o şəkilləri görəndə sar-

sıldım; elə bil Müşfiqi döyüb, ağladıb, sonra göz yaşını zorla özünə sildirtdirib şəklini çəkdirmişdilər.

Bu yazımın əvvəlindəki beş-on cümləni mən elə həmin axşam qələmə aldım.

Müşfiqin yubileyinə başqa respublikalardan da qonaqlar gəlmişdi. Səhər o qonaqlardan biri, üz-gözündən pərtlik yağa-yağa mənə danışırdı ki, bəs bizi dünən filan rayona aparmışdılar, yubiley tədbiri keçirtməyə. Sübh tezdən saat altıda qatardan düşəndə gördük ki, şıdırğı yağış yağır, bir dəstə uşaq da, əllərində gül-çiçək, bir də ki, Müşfiqin iri şəkli, o yağışın altında durub bizim yolumuzu gözləyir. Hamısı islanıb cücəyə dönmüşdü. Müşfiqin şəkli də suyu süzülə-süzülə bizə baxırdı...

Və qonaq lap ürəkdən deyirdi ki, o balaca uşaqları o kökdə görəndə özümüzə də nifrət elədim, Müşfiqə də!..

Sübh tezdən, alatoranlıqda şirin yuxudan zorla oyadılan o uşaqları gözümün qabağına gətirəndə mənim də ürəyim sıxıldı; yox, o uşaqlar indən belə heç vaxt Müşfiqi mən uşaq olanda sevdiyim qədər sevə bilməyəcəkdilər. Və bunu fikirləşəndə hiss elədim ki, Müşfiqdən yazmaq həvəsim ölür.

...Müşfiqlə mənim ikinci görüşüm belə başa çatdı...

***

Sonra, Səməd Vurğun demişkən:
İllər ötüb keçdi aradan, illər,
İllər görməmişdik o illər kimi...

Və bu günlərdə köhnə əlyazmalarımı varaqlayanda on dörd il bundan əvvəl Müşfiq haqqında yazdığım o beş-on cümlə gözümə sataşdı. Və ürəyimdən onun çoxdan oxumadığım şeirlərini bir də oxumaq keçdi.

Xeyli axtarandan sonra, kitabların arasından Müşfiqin "Əbədiyyət nəğməsi" adlı bir kitabını tapdım. Kitabdakı

birinci şeir elə Müşfiqin ən çox sevdiyim şeriydi. Bəli, bəli, düz tapmısız; "Yenə o bağ olaydı"...

Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
- Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə ürəyincəmi?

Lap uşaqlıqdan bəri neçə dəfə oxuyub əzbər bildiyim bu şerin altındakı tarixə də mən ilk dəfə indi fikir verdim: 1937.

Amma bu şeirdə otuz yeddinci ilin havası qətiyyən duyulmurdu.

Yenə o bağ olaydı sevdalar ölkəsində,
O söyüd kölgəsində,
İncə qumlar üstündə yenə verib baş-başa,
Yayı vuraydıq başa.
Günlərimiz keçəydi qızğın fərəhlər kimi,
Dolu qədəhlər kimi...
Gecələr darayaydı saçlarını, ay gözəl!
Sən gözəlsən, ay gözəl?..

Otuz yeddinci ilin həmin o aylı gecələrində zorla evindən çıxarılıb gedər-gəlməzə göndərilənlərdən, günahsız-filansız güllələnib öldürülənlərdən, Hüseyn Caviddən, Əhməd Cavaddan, hətta Mikayıl Müşfiqin özündən də, bu şerin elə bil ki, xəbəri yox idi.

Amma yox!.. Otuz yeddinci ilin havası bu gözəl şeri də zəhərləmişdi, o dövrün yalanı və qorxusu bu misraların canına da hopmuşdu:

Bu yaz bir başqa yazdır, bu yaz daha da xoşdur,
Vay o qəlbə ki, boşdur!
İnsanların vüqarı, tələbi daha yüksək,
Yolumuzdan daş-kəsək

Təmizlənmiş bir az da. Ellərin keyfi sazdır,
Bu yaz bir başqa yazdır!..

Görəsən, bu şeirdə söhbət hansı "təmizlənmiş daş-kəsək"dən gedirdi? Sürgünə göndərilənlərdənmi? Güllələnib öldürülənlərdənmi?..

Və mən haçansa Müşfiqin bir cüt həbsxana şəklindən baxan gözlərində gördüyüm həmin o Qorxunun hardan gəldiyini başa düşdüm. O Qorxu bu zədələnmiş misralardan gəlirdi. Müşfiqin gözlərindən əvvəl, o Qorxu onun sözlərinə çökmüşdü.

"Görəsən, Müşfiq sağ qalsaydı, nələr yazardı?"

Lap uşaqlıqdan bəri, kimdən soruşduğumu (Özümdənmi? Müşfiqdənmi? Allahdanmı?) özüm də bilmədiyim, amma bir vaxtlar tez-tez ürəyimdən keçən bu həsrət dolu suala indi qəribə bir xof da qarışdı; doğrudan da, görəsən, Müşfiq öldürülməsəydi, nələr yazardı?!

Bir cüt balaca, yırtıcı quş kimi Müşfiqin gözlərinə qonan o Qorxu onun şair ruhunu dimdikləyib şikəst hala salmazdı ki?!

O Qorxu gündən-günə, ildən-ilə Müşfiqin alnında dərin-dərin qırışlar açıb minillik şerimizin bu ən cavan, ən gözəl sifətini əlimizdən almazdı ki?!

Və doğrudanmı o dövrün sağ qalan şairləri Müşfiqdən xoşbəxtiydilər? Doğrudanmı ən pis şey Ölümdü?!.

Bilmirəm...

Lap qədimdən bəri məşhur olan bir fikir var: "Tanrı çox sevdiyi bəndələrini öz yanına tez aparır".

Görünür, Tanrı Müşfiqi bütün şairlərimizdən, həm taytuşlarından, həm də, bizdən çox sevirdi. Və bunu bilməkdən ötrü güzgüyə baxmağımız kifayətdi:

Hələ sovuşmayıb qara saçımız,
alnımız qırışıb qat-qat olmayıb.

Hələ alnımızın qırışlarından
güzgülər çatlayıb çat-çat olmayıb.
Hələ batmamışıq min-min günaha -
Mənim balam, vaxtdı daha,
bu dünyadan gedək, gedək,
bir gözəl üzlə gedək
Tanrının qapısına...

(R.Rövşən)

...Müşfiq Tanrının qapısına bir gözəl üzlə getdi...

AYIN O BİRİ ÜZÜ

(fraqmentlər)

Su donanda buz bağlayır, dəmir əriyəndə maye halına düşür, ömrü boyu haldan-hala düşən insan da, ömrünün hansı anlarındasa şairlik halına düşür və təkcə bu halda yazılan şeirlərə əsil şeir demək mümkündü.

Ömründə bircə dəfə də şairlik halına düşməyən saysız-hesabsız yalançı şairlər var. Və minlərin, milyonların oxuyub əzbər bildiyi kitab-kitab şeirlər var ki, əslində onlara şeir demək olmaz.

Hər bir əsil şeir ən azı bir insan ömrünə bərabərdi, çünki hər bir əsil şerində şair doğuluşundan ölümünəcən bütöv bir ömür yaşayır.

Bu şeirlər bir-birinə oxşamaya da bilər. Bir şerində şair sevgi dolu bir ömür yaşaya bilər, o biri şerində nifrət dolu. Bir şeir o biri şeri, bir ömür o biri ömrü dana da bilər. Və o şeirlərin hansısa bizə doğma ola bilər, hansısa yad... Bu mənada, - əsil şair hər bir oxucudan daha genişdi və əsil şeir onu yazan şairdən daha tam, daha bitkindi.

Şair - şerin keçdiyi yoldu.

Şeir bu yoldan keçməyə də bilər. Ən gözəl şair min bir səbəb ucundan illər boyu şairlik halına düşməyə də bilər.

Belə olanda, illər boyu susmağa gücü çatan, bir misra yazmayan şairlər də var (Fet kimi, Rembo kimi), özünü aldada-aldada ustalıq, peşəkarlıq hesabına ucdantutma yazan şairlər də...

Bir də ki, dahiləri çıxmaq şərtiylə, ən istedadlı, hətta lap böyük şairlərə də, hər bir əsil şerin yazılması baha başa gəlir. Belə bir şeir yazılıb sona yetəndən, şairlik halı ötəndən sonra, şairin içində o şerin özündən sonra qoyduğu xarabalıq qalır və şairin içi öz təbii şəklini itirir; yanğından sonrakı meşə kimi, daşqından sonrakı çay yatağı təki... Və o təbii şəklin, relyefin təzədən bərpa olunmağına, yəni təzədən şairlik halından adi adam vəziyyətinə qayıtmağa vaxt lazımdı.

Bu mənada, bütün istedadlı, hətta lap böyük şairlər də, ara-sıra şairlik halına düşüb əsil şeirlər yazan adi adamlardı. Və bu adamların bəziləri hətta ən dahi şairlərdən də qat-qat istedadlı ola'bilər.

Dahiliyin ölçüsü istedad deyil.

Dahi şair - ömrü boyu dəyişmədən şairlik halında yaşamağı bacarandı, daha doğrusu, bu hal onun təbii halıdı.

Dahi şair - şeir yazmağın xəstəsi olan, sağalmaz, əlacsız... dahi qrafomandı.

Füzuli də, Puşkin də, Rilke də dahi qrafoman idilər.

Bütün ömrünü şairlik halında yaşayan dahilərin rastına az qala hər addımda əsil şeir çıxır.

Çünki şeir - bu dahilərin keçdiyi yoldu...

***

"Ömür keçdi..."

Qəribədi ki, bu duyğu adama ən çox cavanlıqda rahatlıq vermir. 30-35 yaşımacan mən az qala hər gecə bu duyğudan diksinib yuxuda dik atılmışam; ötüb-keçən günlərin

diş kimi, dırnaq kimi məndən necə qopduğunu ətimlə-canımla hiss eləmişəm.

Dünyanın bütün saatları çıqqıldaya-çıqqıldaya mənim ömrümü çırtlayıb.

O saatların hərəsi öz vaxtıyla işləyib: Bakı vaxtı, Paris vaxtı, Bombey vaxtı... Amma o cürbəcür vaxtların hamısını məndən ötrü bir yerə cəmləyən bir vaxt ölçüsü də olub; mənim ömrümün vaxtı... Və mən haçansa o Vaxt deyilən şeylə haqq-hesabımı çürüdüb bu dünyadan gedəndə, bəlkə Bakıda səhər olacaq, Parisdə günorta, Bombeydə axşam (ya da ki, tərsinə), amma o səhəri, günortanı, axşamı məndən ötrü bir yerə cəmləyən heç bir vaxt ölçüsü olmayacaq; çünki bu dünyada Mən olmayacam.

Yer üzündə hər adamın öz sir-sifəti, öz boy-buxunu olduğu kimi, öz vaxtı da var. Hər doğulan adamın birinci çığırtısıyla onun ciyərlərinə təkcə hava yox, həm də Vaxt dolur; o adamın Öz Vaxtı.

Mənim vaxtım - mənim nəfəsimdi.

Vaxt təkcə mənim çölümdə deyil, həm də, içimdədi.

Çölümdəki vaxtın məndən asılacağı yoxdu; o vaxt öz gedişindədi; dünən qurduğunu bu gün uçura-uçura, dünən alqışladığını bu gün qarğışlaya-qarğışlaya...

Amma içimdəki Vaxt mənim öz ixtiyarımdadı, o Vaxtın yiyəsi mənəm.

Zülmün, haqsızlığın, alçaqlığın baş alıb getdiyi ən mundar zamanlarda da, öz içindəki Vaxtın saflığını qoruyub-saxlayan, öz nəfəsini satmayan güclü adamlar həmişə olub. O adamların arasında şairlər də var. Amma şair güclü adam deyil. Şairlik - insanın gücü yox, zəifliyidi.

Lev Tolstoy "bədii təxəyyül xəstə təxəyyüldü" deyirdi.

Bu mənada, bəxtinə "Allah vergisi" düşən şairlərin hamısı "xəstədi" bu dünyanın adamı deyil və bəlkə də, əsil

şairlik elə bu dünyada o "ilahi xəstəliyin" qulu olmaqdı. Hər dəqiqə sağalmaqdan qorxa-qorxa, öz canındakı o xəstəliyi sevə-sevə, əzizləyə-əzizləyə bəsləyib becərməkdi.

Bu dünyanın adamı olmayıb bu dünyada baş saxlamaq müşkül məsələdi, amma şair də yaşamaq istəyir və yaşamaq istəyən şair bu dünyayla dil tapmağa, canındakı o ilahi xəstəlikdən sağalıb xilas olmağa, payına düşən o Allah vergisini xərcləyib, xırdalayıb satmağa can atır. Allahın verdiyini satan Allahın özünü satır və Allahı sata-sata bu dünyada adlar, mükafatlar alan şairlərin, öləndən sonra ən fəxri xiyabanlarda basdırılsalar da, o dünyada qır qazanında bişdiklərinə mənim heç bir şübhəm yoxdu.

***

...Bir ölkədə ki, xalqın rəyini soruşmadan, onun fikri ilə hesablaşmadan kiməsə "xalq şairi" adı verilir, həmin ölkədə "xalq düşməni" adı verilməsi təhlükəsi də həmişə mümkündü...

***

...Divin canı şüşədə olduğu kimi, hər bir xalqın canı da onun dilində və ədəbiyyatındadı.

O şüşəni sındırıb divin canını alanda o div gorbagor olur, amma öz dilinin, ədəbiyyatının başına min bir oyun açılan xalq, hələ də, zahirən öz diriliyində qalır və guya keşiyini çəkdiyi o şüşənin içində çoxdan div canı yox, "tülkü canı", "dovşan canı" olduğuna baxmayaraq, hələ də öz divlik iddiasından əl çəkmir. Bu günəcən dilimizin, ədəbiyyatımızın başına açılan oyunları yadımıza salsaq, guya keşiyini çəkdiyimiz o şüşənin içində indi hansı məxluqun canı olduğunu təsəvvür eləmək, mən bilən, o qədər də çətin olmaz...

***

...Yazıb-yaradan tək-tək əsil şairlər var ki, dil onlardan ötrü yaşayış sahəsidir. Yəni həmin şairlər bu dildə öz sevinclərini, dərdlərini, həyəcanlarını sözə çevirib maddiləşdirir və həm də sənədləşdirirlər.

Saysız-hesabsız şairlər də var ki, dil onlar üçün fəaliyyət meydanıdı. Yəni, o şairlər bu dilin vasitəsilə hansısa ideyalara, yüksək və ya alçaq məqsədlərə qulluq eləyirlər. Əgər birincilər üçün dil gah xoşhallanan, gah da ağrıyan diri, canlı bir varlıqdısa, ikincilər üçün dil sürücülərin tədris kitabındakı kimi oxucu diqqətini nəyəsə yönəldən işarələr yığınıdı.

Bu mənada, dil birincilər üçün bioloji, ikincilər üçünsə ideoloji faktordu. Bu dilsiz birincilər məhv olar, ikincilərsə sadəcə işsiz qalarlar...

***

...Musiqi bizi dilin lap qədimliyinə - səslərin hələ sözə çevrilmədiyi, hər bir səsin yüz-yüz sözdən daha artıq hiss, duyğu, həyəcan ifadə elədiyi zamanlara aparırsa, poetik dil bizi sözlərin hələ təzə-təzə yarandığı dövrlərə - sözlərin ilkin şərtiliyinə, mücərrədliyinə, onların hələ predmetlərə yapışmadığı, havada uçuşduğu, predmetdən predmetə qona-qona özünün əsil yerini, yuvasını axtardığı əyyamlara aparır. Poetik dildə sözlər adını daşıdığı predmetlərdən hələ asılı deyil, azad və sərgərdandı. Poetik dildə çörəklə baş yarmaq olar, daş isə təndirdən çıxmış təzə çörək kimi isti, yumşaq və dadlı ola bilər...

***

Alimlər, filosoflar, şairlər... hamısı əsrlər uzunu dünya və mövcudluq haqqında ən son, ilahi həqiqətə çatmağa

can atırlar. Ancaq bu, çox müşkül məsələdi. Çünki onların hamısının son məqsədi, əslində ilahi həqiqəti təfəkkürün, təxəyyülün toruna salmaq, yəni Allahı tora salmaqdı.

Bu mənada onların hamısı əbədi uğursuz balıqçılardı...

***

Sənətkar nə qədər böyükdüsə, nə qədər uzun ömürlü əsərlər yaradırsa, istər-istəməz, öz qəhrəmanlarına qarşı bir o qədər qəddardı. Yüz illərdi ki, hər təzə oxucu üçün hər dəfə təzədən Don Kixot yel dəyirmanıyla vuruşmağa, Otello Dezdemonanı boğmağa, Məcnun Leylinin qəbri üstündə can verməyə məhkumdu. Bu mənada, ən dahi sənətkarların, ən məşhur əsərlərin də, zaman-zaman arabir unudulmağa, oxucu marağından kənarda qalmağa, elə bil ki, bir müddət yuxuya gedib dincini almağa ehtiyacı var...

***

...İnsan doğulanda qorxudan çığırır. Ana bətnindən qopan kimi yenə ora qayıtmağa can atır. Və sonra bütün ömrü boyu ana bətnini bir də özü üçün yaratmaq istəyir; paltar geyinmək, ev tikmək... bunlar hamısı insanın canındakı həmin o gizlənməyə can atmaq istəyidi. Vəzn də həmin şeydi - bətndi. Vəznsiz, qafiyəsiz şeir hərdən adamı üşüdür - elə bil çöldəsən. Hər halda vəznsiz şeirdə sən ana bətnində deyilsən. İnsan doğulur, yaşayır, ölür və qəbrə gedir - yəni, insan ömrü ana bətnindən yerin bətninəcəndi.

Məncə vəznsiz, qafiyəsiz şeirlərin ən yaxşılarını Artur Rembo yazıb. Fantastik şairdi. 16 yaşından 19 yaşınacan yazıb. Cəmi üçcə il. Sonra şerin daşını atıb gedib. 37 yaşında ölüb. O şeirləri Rembo 37 illik ömrünün tən ortasında yazıb. Bəlkə də, o şeirləri şair olan kəs elə ancaq öm-

rün ortasında yaza bilər. Çünki ömrün ortasından arxaya, ya irəliyə baxanda nə anamızın bətnini görürük, nə də qəbrimizi...

***

Gənc qaraçı qızları parıltılı bər-bəzəkləri, muncuqlu boyunbağıları, gümüş pulu bilərzikləri xoşladığı kimi, gənc şairlərin çoxu da parlaq təşbehləri, bənzətmələri sevir. Bu cür şairlərin az qala hər misrasında nəsə nəyəsə bənzədilir, amma heç nə özünə bənzəmir.

Məşhur polyak şairi Tadeuş Rujeviç şeri hava şarına, təşbehləri, bənzətmələrisə bu hava şarının səbətindəki qum kisələrinə oxşadıb deyirdi ki, bu qum kisələri o hava şarının müəyyən yüksəkliyə qalxmasına kömək eləsə də, həmin nöqtədən daha ucalara yüksəlmək üçün mütləq bu qum kisələrindən xilas olmaq lazımdı. Və deməli, poeziya da, ən ali yüksəkliyə qalxmaqdan ötrü təşbehlərdən, bənzətmələrdən can qurtarmalıdı.

Yadımdadı, təxminən 60-cı illərin sonunda oxuduğum bu fikir məni çox narahat eləmişdi. Çünki o vaxtlar mən elektrik qığılcımı kimi poetik qığılcımın da nəyinsə nəyləsə toqquşmasından yarandığını düşünürdüm. Tələbəlik dostlarım bilir ki, hətta o vaxtlar mən "paralelizm" adlı bir ədəbi cərəyan yaratmaq iddiasındaydım; maddi olanla maddi olmayanı yan-yana qoymaq, birincinin keyfiyyətini ikincisinə köçürməklə poetik obraz yaratmaq... Və qəribədi ki, ən mücərrəd anlayışlarla ən konkret anlayışlar bəzən bir-birinə çox yapışırdı. İnsan həyatında ən mücərrəd, ən izaholunmaz nədi? Yuxu. Bəs ən maddi olan nədi? Çörək. Və bu ən maddiylə ən mücərrədi toqquşduraraq birinin keyfiyyətini o birinə ötürüb nəsə bir poetik obraz al-

maq çox asan idi. Məsələn belə; yuxu kimi yumşaq çörək, çörək kimi dadlı yuxu və s...

Canlılara, xüsusən insana aid olan keyfiyyətləri cansız predmetlərə verməklə də saysız-hesabsız poetik obrazlar qurmaq mümkün idi. Məsələn; "yorğun ayaqlar" əvəzinə "yorğun ayaqqabılar" deməklə. O cümlədən; "kədərli eynək", "ehtiraslı əlcək", "qarınqulu qazan", "sırtıq qaşıq", "boşboğaz mikrafon", "şorgöz ekran" və s...

Poetik obraz düzəltməyin bir yolu da adi məntiqi pozmaq, allogizmlərlə danışmaq idi. Məsələn, adicə "söz yadımdan çıxıb" demək əvəzinə "sözün yadından çıxmışam" deyəndə mahiyyətcə heç nə dəyişməsə də yenə nəsə bir poetik ifadə yaranırdı.

Amma bu saydıqlarım hamısı adicə texniki məsələlər idi. Və bu "texnikanın" köməyilə şair olmayan da şeir yaza bilərdi.

Hər bir hadisənin və ya predmetin poetik mahiyyətisə, əslində, ondan qıraqda yox, onun öz canındadı; meyvənin tumu kimi. Və şeir aydan, günəşdən, yağışdan, şimşəkdən, yarpaqdan, çiçəkdən... nədən danışırsa danışsın, haqqında danışdığı hər bir şeydən elə bil nəsə alır; ayın işığından, günəşin istisindən, yağışın sırıltısından, şimşəyin parıltısından, yarpağın rəngindən, çiçəyin qoxusundan...

O hesabla, bu dünya haqqında yazılan ən dahiyanə şeir bəlkə də bu dünyanın canını ala bilərdi və o şerin yarandığı gün dünyanın son günü olardı.

Amma dünyanın başının üstündə belə bir təhlükə yoxdu, çünki belə bir şeir heç vaxt yazılmayacaq.

...Belə bir şeri təkcə Allah yaza bilərdi və xoşbəxtlikdən Allah şeir yazmır...

***

Bu dünyada hamı xoşbəxt olmaq istəyir, amma o "xoşbəxtlik" deyilən şey nədi, dadı-duzu, rəngi-qoxusu necədi, - heç kəs bilmir.

Qəribədi ki, az qala hamı xoşbəxtliyi işıq kimi, gün kimi təsəvvür eləyir, "bəxtimə gün doğdu" deyirlər, guya bu yer üzündə min-min sevgilini bir-birinə qovuşduran xoşbəxtlik dolu zülmət gecələr olmayıb.

Nədənsə hamıya elə gəlir ki, xoşbəxtlik şirin şeydi. Amma sağalıb ölümdən qurtaran xəstə öz xoşbəxtliyini içdiyi dərmanların acılığında tapır.

Hərə xoşbəxtliyi bir şeydə görür; biri var-dövlətdə, biri şan-şöhrətdə, biri arvadda, biri övladda...

Amma əslində, insan bu dünyaya nə xoşbəxt, nə də bədbəxt olmaqdan ötrü gəlir. İnsan bircə şeydən ötrü gəlir dünyaya; ölməkdən ötrü. Və bu da məlumdu ki, yer üzündə "mütləq ölüm" deyilən şey yoxdu, ölüm hər bir canlının bir şəkildən başqa şəklə keçməsi deməkdi. Bu fikrin doğruluğunu hərfi mənada yoxlamaq mümkün olmasa da, hər halda, bu fikrin poetik həqiqətinə adam inanmaq istəyir.

Amma təkcə canlılar ölmür; ot da, ağac da, su da ölür.

Çayların, dənizlərin suyu buxarlanıb buluda çevrilir. Deməli, göydəki buludlar haçansa çaylarda, dənizlərdə dalğalanan diri-diri suların tabutudu.

Amma o tabutlardakı ölü sular da əvvəl-axır dirilir, buludlardan yağış yağır, o yağışın suyu torpağa hopur, torpaqdan ot cücərir, o cücərən otluqda bir oğlanla bir qız sevişir, o sevgidən bir körpə doğulur və o körpəyə həmin oğlanla qızın nə qədər haqqı çatırsa, o qədər də həmin otun, suyun, buludun, daha nə bilim nəyin, nəyin haqqı çatır.

Bəlkə də, bu dünyada insana haqqı çatmayan heç nə yoxdu.

Çünki insan təkcə ətdən-sümükdən, qandan, ilikdən yoğrulmayıb. İnsanın canında dünyadakı hər şeydən heç olmasa bir az var; sudan da, daşdan da, dəmirdən də, duzdan da, şəkərdən də, zəhərdən də... Və bəlkə də, biz ölüb torpağa qarışanda bu canımızdakı şeylərin hamısı hüceyrə-hüceyrə dağılıb öz ilkinliyinə qayıdır; suyumuz dünyanın suyuna qarışır, duzumuz duzuna, şəkərimiz şəkərinə...

KİTABIN İÇİNDƏKİLƏR

BİRİNCİ KİTAB.
GÖY ÜZÜ DAŞ SAXLAMAZ

BURAX GEDİM, AY İŞIĞI!
Ay işığı....8
Başı kəsik gözəl kötük....11
Yıxılıram....13
Bulud....15
Qocalıq....18
Bir az uzun çəkdi ömrüm deyəsən....20
Astar üzünə....22
Addım....24
Qədrimi bilmədi bu adam mənim....26
Kim bilir....28
Göy üzü daş saxlamaz....30
İlan balası....32

AYRILIQ
Çiçəklər doğulur bu yaz gecəsi....35
Həsrət....37
Ağlama, Bənövşə nənə....39
Şəhərin işıqları....41
Dünya, məndən kimlər keçdi....43
Özünə qayıdır hər şey, özünə....46
Örtüldüm qapı kimi....48
Bətnində körpəmi gəzdirən qadın....50
Kölgə....52

Bu güzgüyə bir vaxt qoşa baxardıq.....55
Köhnə məktublar.....58
Ayrılıq.....61
Bu evin kişisi.....64
Qara paltarlı qadın.....66

LAL
Nəfəs.....68
Özümü sevə bilmirəm.....70
Kim deyir, yuxuda ölmək asandı.....73
Lal.....75
Çığırtı.....77
Köhnə sözlər.....80
Ölüm kölgəsi.....83
Tabut.....86
Mən küsüb gedirəm.....88
Çərpələng uçuran bir uşaq kimi.....90
Oğlumun gözləri.....92
Çarmıxdakı İsa.....95

QAPI
Qapı.....98
Ağrı.....109
Göz yaşının nağılı.....111
Ölüm.....113
Yuxu.....116
Hekayə.....121
Sevgi.....126
Doğulma.....130
Süd dişinin ağrısı (poema).....133
Canavar ovu (poema).....165

İKİNCİ KİTAB
KƏPƏNƏK QANADLARI

Ümidim yox bir adama....190
"Mən ki qəfəsləri açıb"....191
Yıxılır....192
"Gecə birin yarısıdı"....193
"Nə var Allahdan yuxarı"....194
Tanıyır....195
Son nəfəs....196
"Yoldan ötən xanımlara"....197
Gedəcək....198
Şam....199
Baxmaz....200
Dərd....201
Söz....202
Çıxır....203
"Bu şeri də cırıb atdım"....204
"Bir quş kimi uçdum özüm"....205
Daş çatmadı bu divara....206
Divar....207
"Mənimki Allaha qaldı"....208
Bir adayam, qərib ada....209
Dünya gözə dirənəndə....210
Qayıq....211
Yol....212
Daş....213
Dərdimi danışdım suya....214
Gəmi....215
Uzaqlardan gələn qatar....216
Çırpın məndən....217
Dünya mənə tanış gəlir....218

Ulduzlu göylərin altından keçdim.....219
Tək adam.....220
Öz içində.....221
"Bu sevgim, məzhəbim, dinim".....222
Getmədim.....223
Demə, şairinki dil davasıdı.....224
"Sən qapıdan çıxanacan".....225
Bu dünyada biz hərəmiz.....226
"Qanadım var, göyüm var".....227
"Çəp-çəp baxır göylər bizə".....228
"Bu şəhərə düşən axşam".....229
"Bu mənəm, bu da, üç balam".....230
Darıxır.....231
Gəlin, açın yumruğumu.....232
Adam.....233
"Üz tutduğum adamlar da".....234
Bütün dostlar sağ ola kaş.....235
Çox dostların döndü üzü.....236
"Eşidən yox sözümüzü".....237
Şükür.....238
Gilənarlar çiçəkləyir.....239
"Yüz yol ah çək, dərd azalmaz".....240
"Sənsən mənim solum-sağım".....241
"Görünmədin bir kimsəyə".....242
Fikir içində.....243
Nə hirslə oxuyur bu quş.....244
Mən də tanrı quşu olsam.....245
Dəli.....247
"Əli Allah ətəyində".....248
Gizlənməyə bir yer göstər, gizlənim.....249
Tanrı bizə ömür verdi.....250
Əyildim, sulara baxdım.....251

Yarpaq....252
Kilid....253
Teleqraf dirəkləri....254
Ağı....256
Soyuyur....257
"Qəbrim üstə istəmirəm"....258
Qoşulaq....259
Boşalıb....260
Ayağım....261
Güzgü....262
Aydınlıq....263
Dünya qəfil işıqlansa....264
Boğulur....265
Gözü yaşlı yorğun eşşək....266
Bu nə dağdı, bu nə sürü....267
Canavar....268
Qoyun olmaq çətin şeymiş....269
Quzu....270
Öldür məni, oynamaram bu toyda....271
Əlvida....272
Gedən kimdi, qalan kimdi....273
Təki sənin üzün gülsün....274
Yaylığını yel aparır....275
Sənindi bu pəncərə....276
Qapını döyə bilmirəm....277
Bilirəm gələn deyilsən....278
Apar....279
Ax, bu qızın barmaqları....280
Bayatılı qoşma....281
"Bir xəfifcə gülək əsdi"....282
"Səhər ölmək istəyirəm"....283
Yavaş-yavaş sevdim səni....284

Bu qışı da saldım yola.....285
Yağış yuyur, gün qurudur.....286
Bir ovuc suda.....287
Kəpənək qanadları.....288
Qara-qara qarışqalar.....289
"Dərd dərdi əridir, udur".....290
"Bu dərd köhnədi, uludu".....291
Hamı diş-dişə, göz-gözə.....292
"Sən də gec-tez bezəcəksən".....293
"Bəxtim məndən küsübdü.....295
"Göz yaşım quruduqca".....296
"Bir səhər yuxudan durub".....297
Ocaq.....298
Daş atan bilirmi nə günah eylər.....299
Nə gecəydi, nə gündüzdü.....301
Göy üzü dururmu hələ.....302
"Nəyi nəyə vurdumsa da".....303
Hamı qardaş olsa da.....304
Bu oxuyan kimdi axı.....305
Şerin-sözün axırına yetişdim.....306
"Ürəkdən gəlməyən sözün".....307
Dünya nə gündəydi, nə günə qaldı.....308
"Başıma döyən yağışın".....309
"Əlimdən qopan əllər".....310
"Buruldum son döngəni".....311
"Bir gör neçə ömür keçdi".....312
"Verdiyini kəsir hərə".....313
"Hamı vaxtından tez ölür".....314
Çatmaz.....316
"Burda bir gül kolu gördüm".....317
Köhnə nağıl.....318
"Əlim qələm tutan gündən".....319

Tərs nəğmə.....320
"Bulud kimi ölmək".....321
Oyun.....322
Gedək biz olmayan yerə.....323
"Əgər geri dönə bilsən".....324
Bu qaranlıqda.....325
Qorxu.....326
Mən durmuşam yerimdə.....327
Dünyaya çoxdan baxıram.....328
"Tanrı verib bizi-bizə".....329
Nərdivan.....330
Çörəyin daşdan çıxırsa.....331
Mən ki, baxtımdan küsmədim.....332
"Dünya qurub tələsini".....333
Hörümçək.....334
"Hardasa su şırıldayır".....335
Sevgi məktubu kimi.....336
Şair olmaqdan ötrü.....337
"Kaş ki, bu Odlar yurdunda".....338
"Hara qaçırsan, ay adam".....339
Kölgə düşür.....340
"Rəhmət deyək min-min ağız".....341
Qıymadın bir kimsəni oyatmağa.....342
Biləcəri qəbristanı.....343
"Yolu çaşa-çaşa gəldim".....344

ÜÇÜNCÜ KİTAB
BİR YAĞIŞLI NƏĞMƏ

NƏĞMƏ QIRĞINI İLİ
Onbirlik üstündə.....346
Bir durna oxuyur.....348

Günah içində.....350
Qara əl.....351
Nəğmə qırğını ili.....353
"Bir nəğmə toxumu basdırdım yerə".....355
İlxılar.....357
Qarğış.....358
Nə varlıdı bu torpaq.....360
"Torpaq örtdü hər şeyi".....362
Torpaq.....363
Ağ yelkənli gəmilər.....365
Dəniz nağılı.....366
"Balıqçı süfrəsində".....368
Ölü dəniz.....369
"Qılçığını təmizləyə-təmizləyə".....371
Dənizə qar yağır.....372
"Nazim Hikmət" gəmisi.....374

QARANLIQ

"Bu nəhəng qaranlığın".....377
"Təkcə gücsüzlüyündən".....378
"Necə hündür olur-olsun".....379
"Nə çöldə, nə meşədə".....380
Səma milyonçusu.....381
Bir yağışlı nəğmə.....383
Səttar Bəhlulzadənin barmaqları.....385
Xatirə kafesində.....387
Mənim telefonum.....389
Səs haqqında lətifə.....390
Karuseldə fırlanmaq istəyirəm.....392
Gecə qatarları.....394
Gecəyə çarmıxa çəkilmiş adam.....396
Sonuncu avtobusun nəğməsi.....398

Sonuncu papirosun nəğməsi.....400
Sonuncu nəğmənin nəğməsi.....402
"Bu gecə lüstürdən asılan adam".....404
"Dost da ovutmaz məni".....405
Ağlanmayan dərd də var.....406
"Bir tikansız kirpisən".....407
"Bir quş var göy üzündə".....408

YENƏ DƏ ALDANDIM BU ÇİÇƏKLƏRƏ
Bu iyirmi yaşın astanasında.....409
Soğan acısı.....411
Sevmədiyim qadınlar.....413
Mən səni sevmirdim.....414
Dünyanın sən olan yeri.....416
Ömrümün yağışlı günləri.....418
"Əlimdə son kibritim".....420
Məhəbbət oyunu.....422
Köhnə məhəbbətlər limanı.....424
"Bu ağac öləcək".....426
Yenə də, aldandım bu çiçəklərə.....427
"Ölmək istəmirəm bu axşamüstü".....428
Sentimental yağış.....429
"Çarpayım boyuma qısa, ömrüm həsrətinə".....431
İki gün sonra.....433
"Sən ölən gün".....434
"Bir ölüm havası dəydi üzümə".....436
Kentavr.....437

YORĞUNLUQ
Bu kəndin yanından qatarlar keçir.....439
Fatmanın oğlu İsmayıl.....441
Elə beləcə.....443

Tənha qarılar....445
Bayatı....447
Gecə nağılı....449
Dəli Əlişlə bizim Ələsgərin nağılı....451
Yorğunluq....455

DÖRDÜNCÜ KİTAB
HAMI OĞUL BÖYÜTMÜŞDÜ

Belə-belə işlər....460
Hamı oğul böyütmüşdü....466
Ağrı....472
Hərə gördüyünü görür....499
Analardan uzun qızlar....520
Yağışlı bir günün günortasında....535
Evin tikilməsin, Amerika....543
Tfu, adam yiyəsi....563
Daş (povest)....577
Yayda ölmək günahdı....682

BEŞİNCİ KİTAB
AYIN O BİRİ ÜZÜ

Göy üzü quşlarla şairlərindi....708
"Qəmin hərifi"....715
Tanrı casusu....722
Üç görüş....730
Ayın o biri üzü....739

QANUN NƏŞRİYYATI

Bakı, AZ 1033,
Ağa Nemətulla küçəsi 44.
Tel: 567-79-56; Faks: 567-88-87
E-mail: ns@azdata.net
Web: qanun-az.com

RAMİZ RÖVŞƏN

NƏFƏS

kitablar kitabı

(şeir, nəsr, esse)

(Azərbaycan dilində)

NƏŞRİYYAT REDAKTORU:
Nəriman ƏBDÜLRƏHMANLI

KOMPÜTER TƏRTİBATI:
Suhib QƏNİYEV

YIĞICI:
Xəyalə MİKAYILOVA

KORREKTOR:
Ceyran ABBASOVA

Çapa imzalanmışdır 01.12.2006
Formatı 84x108 1/32.
Fiziki ç.v. 23.75. ş.ç/v 39,9
Tirajı 2000. Sifariş 210.

QANUN NƏŞRİYYATI

BAKI ŞƏHƏRİ, AĞA NEMƏTULLA KÜÇƏSİ 44.
TEL\FAKS: 5678887; 5677956.
E-MAİL: MS@AZDATA.NET
WEB: WWW.QANUN-AZ.COM